Hüseynbala Mirəhmov

BİR GECƏNIN SEHRİ

N U R L A R
N8ŞRİYYAT-P0ÜQRAFİYA MƏRKƏZİ

BAKI - 2006

Redaktoru: DILSUZ

Rəssamı: Azər ƏLƏKBƏROV
Üz qapağının rəssamı: Adil RÜSTƏMOV

Hüseynbala Mirələmov: «BIR GECƏNIN SEHRI»
Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2006,
496 səh.

Görkəmli yazıçı–dramaturq, publisist, ədəbiyyatşünas və tərcüməçi Hüseynbala Mirələmovun «Bir gecənin sehri» kitabına son illərdə yazdığı hekayələr, povestlər, publisistik yazılar, rus və özbək ədəbiyyatından etdiyi tərcümələr daxil edilmişdir. Bu ədəbi nümunələrin hər birində insanın mənəvi aləmi araşdırılır. «Rəsul Rza haqqında yeddi nəğmə» monoqrafiyasında isə bu qüdrətli sənətkarın şəxsiyyəti, həyat və fəaliyyəti müxtəlif aspektlərdən şərh edilir.

ISBN - 9952 - 426 - 18 – 6

© H.MIRƏLƏMOV, 2006
© «NURLAR», 2006

AZMIŞ ŞÜURUN FACIƏSI

«Indi biz Azərbaycanın tanınmış yazıçı-dramaturqu Hüseynbala Mirələmovla bir yerdəyik… Mən dostluqda dəqiqliyə, həssaslığa və təmənnasız münasibətlərə xüsusi qiymət verən adamam. Bu mənada Hüseynbala Mirələmovla oxşarlığımız çoxdur. Həmfikir olduğumuza görə tale bizi qovuşdurub. Biz hər bir mövzuda fikir mübadiləsi aparanda eyni məxrəcə gələ bilirik… Hüseynbala ilə hər görüşəndə ondan müsbət enerji qəbul edirəm, mənən bəhrələnirəm».

Çingiz Aytmatov

Müasir Azərbaycan nəsri bədii axtarışların intensivliyi ilə diqqəti cəlb edir. Bütün zamanlarda olduğu kimi, XXI əsrin əvvəllərində də nəsr həyat həqiqətlərini daha həssaslıqla təcəssüm etdirməyə səy göstərir. Tarixin təcrübəsi göstərir ki, həmişə əsrlər dəyişəndə ictimai coşqunluq da vüsət alır. Bir qədər fərqli tarixi müstəvidə XX əsrin əvvəllərində baş verənlər XXI əsrin əvvəllərində də az qala təkrarlanır.

XX əsrin əvvəlləri də fikir və düşüncələrdə milli kökə qayıdış, istiqlal mücadilələri dövrü idi. Bu dövrün ədib və şairləri, publisist və mütəfəkkirləri milli intibaha maarifçilik məcrasında gəlib çıxmışdılar. Əsrin ilk illərində ana dili uğrunda aparılan fikir mücadilələri, az keçməmiş Ana vətən uğrunda tarixi-siyasi məcraya doğru yön aldı. XXI əsrin əvvəllərində – yaşadığımız günlərdə də Əlifba çevrilişi faktiki olaraq Azərbaycan dilinin işlənmə hüdudlarının genişlənməsi uğrunda mübarizəyə çevrildi. Bir mühüm faktı da qeyd etməliyəm. XX əsrin əvvəlləri ədəbi mühitdə realizm və romantizmin ədəbi cərəyan və bədii yaradıcılıq metodu kimi paralel yaşayıb qarşılıqlı təsir və fəaliyyətdə bulunduğu dövr idi. «Molla Nəsrəddin» və «Füyuzat» ədəbi məktəbləri bunun parlaq əyani təzahürləri kimi dəyərləndirilə bilər. XXI əsrin əvvəllərində də xüsusilə nəsrin axtarışlarında romantik və realist əlamətlərin sintezi müşahidə

olunur. Bu sintez daha çox tarixi mövzuların bədii inikasında, milli tale və ziyalı probleminin təcəssümündə özünü büruzə verir. Bu da səbəbsiz deyil.

XX əsrin əvvəllərində böyük Mirzə Cəlil «şüur yoxsulluğu» problemini milli faciə kimi qələmə alırdı. «Danabaş kəndinin əhvalatları» povestində «Eşşəy»in itməsi – əslində zahiri süjetdir: daxili, psixoloji, tragik süjet – Məhəmmədhəsən əmilərin varlığında fəal ictimai insanın, şəxsiyyətin, vətəndaşın itməsi süjetidir» (Yaşar Qarayev).

Yazıçı Hüseynbala Mirələmovun «Bir gecənin sehri» kitabında toplanmış hekayə və povestləri, çevik ictimai həssaslıqla yazılmış publisistik yazıları oxuyanda bir daha əmin oldum ki, XXI əsrin Azərbaycan vətəndaşı «şüur çaşqınlığı» bəlasına düçar olub. Onun əsərlərini çox müxtəsər belə mənalandırmaq olar: azmış şüurun faciəsi! Ağrı yaddaşının kütləşdiyi yerdə, ziyalıların və ümumən şəxsiyyətin deqradasiyası başlanır. H.Mirələmov öz qəhrəmanlarını ekzistensial mühitə daxil edir. Bu, əslində, XX əsrin son çərəyinin real mühitidir. Bu mühitdə şəxsiyyət (xüsusilə qadınlar) azadlığa çıxmağa, cəmiyyətin məngənəsindən qurtulmağa can atır. Bu qəhrəmanlar özü ilə cəmiyyət arasındakı bağları qırır, yeni mühit tapa bilmir, nəticədə strukturu qeyri-müəyyən, naməlum fəzada yaşamağa məcbur olurlar. «Yuxu» hekayəsinin 60-cı illər nəsrinin, «yeni nəsr»in banilərindən olan xalq yazıçısı Anara ithaf olunması təsadüfi deyil. H.Mirələmov bu hekayədə orijinal poetik forma tapır, yuxudan, metamorfozadan, yaddaşa qayıtmaq faktorundan istifadə edərək ekzistensial mühit yaradır. Bu hekayədə yazıçı əslində, həm öz yaradıcılığı, həm də ümumən çağdaş ədəbiyyat üçün səciyyəvi olan bir suala cavab axtarır: insan həyatının mənası nədir, insan həyatı öz varlığında necə yaşayır?! Bu təkcə ədəbi yox, əslində, əbədi bir sualdır. Bu avtobioqrafik hekayədə H.Mirələmov öz qəhrəmanını – görkəmli sənayeçi və yazıçı Ziya müəllimi reallıqdan irreallığa – yuxu aləminə gətirir. Parisdə yüksək mükafat – qızıl medal alıb gəmi ilə vətənə qayıdan Ziya müəllim yuxuya dalır: «Ona elə gəlirdi ki, uzaqda – suyun üzündə bir pilləkən var. Adamlar bu pilləkənlə üzüyuxarı qalxırlar. Lap yuxarıdakı adam pilləkənin başına çatanda, yerini aşağıdakı tuturdu. Ancaq bu vaxt yuxarıdakı yox olurdu. Aşağıdakılar üçün bunun fərqi yox idi ki, o yuxarıdakı hara getdi. Havaya uçdu, külək oldu, yağış olub yağdı, buxarlanıb buluda qarışdı…

Ziya müəllim özü, deyəsən, suyun üstündə olanlardan birinin arxasında idi… Yox, bu ki gəmi restorandır». Hadisələr yuxuda məhz bu gəmi-restoranda baş verir. Ziya müəllim burada 60-cı illər nəsrinin üç qəhrəmanı ilə rastlaşır: Anarın «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanının qəhrəmanı Zaurla, Ə.Əylislinin «Kür qırağının meşələri» povestinin qəhrəmanı Qədirlə və özünün «Çimərlikdə» hekayəsinin qəhrəmanı Elbəylə! Onlar gəmi-restoranda bir stol arxasında əyləşib söhbət, daha doğrusu, mübahisə edirlər. Hər obraz öz estetik-poetik mövqeyindən çıxış edib biri digərini ittiham edir. Zaur elə həmin meşşan laqeydliyində qalır, Qədir yenə heyvərə-heyvərə hamını söyub saplayır, meşşanlığın gənc nümayəndəsi Elbəy hələ də düşdüyü vəziyyəti dərk etməyərək ailəli adamları yük daşıyan heyvana bənzətməkdən çəkinmir. Bu, üç övladını görmək həsrəti ilə Parisdən vətənə qayıdan Ziya müəllimi hiddətləndirir. Bu söhbətin dramatizmini artıran, ona kolorit gətirən bir cəhət də var: bu da xanəndənin dahi Nizaminin qəzəli üstə oxuduğu muğamdır.

Bu surətləri fərqləndirən cəhətlər çoxdur, fəqət onları birləşdirən bir mühüm cəhət var və əslində, yazıçını məhz o məşğul edir: onların hər üçü hansı zəmanədə yaşamasından asılı olmayaraq patriarxal insanın təkidini həyat prinsipi seçmişlər. Təkcə Qədir yox, Zaur yox, gənc Elbəy də öz içində iddialıdır. Lakin faciə bundadır ki, bu qəhrəmanların heç biri həmin iddianı reallaşdıra bilmir. Odur ki, şüur çaşqınlığı içərisində səhvlərə, faciələrə yol verirlər. «Yuxu» ümid sahili ilə tamamlanır, Ziya müəllimin gəmisi səmimi bir ailənin işığına doğru üzür: «Hələ dumanlı olsa da, uzaqda olsa da, sahil görünürdü. Adamların üzündə həyat sevinci, yeni günü yaşamaq həvəsi vardı. …Ziya müəllimə elə gəldi ki, hələ heç kimin görünmədiyi o sahildə çoxlu adamlar var və o adamların arasında Güləzəri də, Fəhmini də, Farizi də, Laləzərı də apaydın görür». Və oxucu inanır ki, yuxu kimi duman da çəkilib gedəcək, Ziya müəllim günəş işığı ilə dolu o sahildə ayağını doğma torpağa basacaq, öz ailəsi ilə birlikdə ambisiyasız bir insan ömrü, söz əzabını tale yolu seçən bir ziyalı ömrü yaşayacaq.

«Yazıçı həmişə özünü yazır» həqiqəti H.Mirələmovun bu kitabına daxil olan əsərlərdə özünü bariz şəkildə doğruldur. «Qatarda» hekayəsində H.Mirələmov öz həyatının ən kövrək dövrünü – ali məktəbə qəbul imtahanı verməyə gələn kəndli yeniyetmənin arzularını Həmid obrazında ümumiləşdirməyə nail

olub. «Çimərlikdə» hekayəsində, artıq qeyd etdiyimiz kimi, ali məktəbi bitirən Elbəyin taleyində yazıçı bir daha insan həyatının mənası üzərində düşünür. Və amansız bir boşluq taparaq onu psixoloji cəhətdən təhlil edir. Bu hekayədə də yazıçı ümid işığını söndürmür, çimərlikdəki körpəni ümid timsalı kimi təqdim edir.

«Qarınqulu» hekayəsində yazıçı həyatın mənasını qarın otarmaqda görən miskin bir obraz yaradır. Müəllif qarın doyurmaq üçün onun-bunun əlinə baxan Zaminin insani məzmununun sıfıra bərabər olduğunu inandırıcı bədii detallarla açıb göstərir.

Yazıçının dostu Çingiz Tofiqoğluna ithaf etdiyi «Maşallahın paneli» hekayəsi iki bədii müstəvi üzərində qurulub. Burada həm Qarabağ müharibəsi ilə bağlı ölüm, qan, barıt qoxulu real səhnələr, müharibə xofu, həm də qaçqın-didərgin taleyi bir-birini tamamlayır. Elat həyatının koloritli mənzərələrini, Laçının, Kəlbəcərin əsrarəngiz təbiətini yurd sevgisi ilə təsvir edən H.Mirələmov bu doğma mövzusunda tarixin ibrət dərslərinə də müraciət edir. 1905-ci il erməni-müsəlman davasında qeyrətli və ağıllı Soltan bəyin tayqulaq Andronikin qoşununu necə tədbirlə qırğına verməsini yada salır. Təkcə bu fakt hekayəyə tarixilik gətirir, yaddaşımızı ayıq saxlamağa, yaddaşı yada təslim etməməyə çağırır.

Hekayə novellavari, gözlənilməz və çox mənalı, həm də tragik bir sonluqla bitir. Bakı ətrafında çadır qurub ailəsini məşəqqətlə ora toplamış Maşallah, hər yerdə iş axtarıb ümidi üzüləndən sonra bir gün Alatavada kəndlisinə rast gəlir. Kəndlisi Maşallaha deyir ki, Yeni Yasamalda qaçqınlar üçün ev tikilir, biz hərəmiz adımızı bir panelin üstünə yazmışıq. Həmin panel hara düşsə, o mənzil ad sahibinin olacaq. Maşallah da tələsik gəlib adını bir panelə həkk edir, çadırda it əzabı çəkən ailəni də sevindirir ki, payızda öz evimiz olacaq. Gəlin hekayənin gözlənilməz finalına nəzər salaq: «Nəhayət, sentyabrın ortalarında, binanın tikintisi başa çatdı. Maşallah sübh tezdən bir-bir bloklara girib öz panelini axtarmağa başladı, – üçüncü blokda yeddinci mərtəbədən azacıq aşağıda – divarda «Maşallah» sözünü oxuyanda nə edəcəyini bilmədi. Əsl möcüzə baş vermişdi: onun adını yazdığı panel liftə düşmüşdü…». Bu təkcə yazıçının ironiyası deyil, yazıçı onu daha tragik – taleyin ironiyası kimi işləyə və mənalandıra bilmişdir.

Ədibin jurnalist dostu Əli Mahmuda ithaf olunmuş «Hesab çatıb» hekayəsində ali məktəb bitirib təyinatla işləmək üçün ucqar dağ rayonuna gəlmiş gənc jurnalist Şakirin ilk addımdan necə büdrəməsindən bəhs olunur. Dağ rayonunun həyatını gözəl bilən yazıçı əvvəlcə əsas diqqəti mühitin təsvirinə yönəldir. Təkcə elə mehmanxananın təsviri Şakirin düşdüyü aləm haqqında kədərli təsəvvür yaradır: «Mehmanxana binası çox köhnə idi. Deyilənə görə burada lap əyyami-qədimdən rayon maarif şöbəsi yerləşirmiş, sonradan poliklinika, bir müddət isə, ziyanvericilərə qarşı mübarizə idarəsi, axırda da rayon komsomol komitəsi olub. Indi də əvvəllər müstəntiq işləmiş və «Paxmel Şebi» kimi tanınan Şəbiyarın ixtiyarına verilib. Mehmanxana müdirinin hörmət edib verdiyi «lüks» nömrə isə əvvəllər ayaqyolu kimi istifadə olunurmuş. Sonradan kiçik bir «əməliyyat» nəticəsində «lüks» nömrəyə çevrilib. Bu otaqda bir çarpayı, üstünə qırmızı rənglə «8» rəqəmi yazılmış və çox güman ki, poliklinikadan yadigar qalmış nimdaş tumboçkadan başqa heç nə yox idi. Əslində, bura o qədər darısqal idi ki, heç əlavə şey qoymaq da olmazdı». Bu sətirləri oxuyanda F.M.Dostoyevskinin məşhur «sreda zayela!» sözləri yada düşür. Yazıçı mehmanxananı dağ rayonunun daxili obrazı, onun psixoloji simvolu kimi təsvir edir. Bu sadəcə təsvir deyil, psixoloji nəsr üçün səciyyəvi olan təsvir – prosesdir. Və günlərin bir günü Şakir uzaq kolxoza gedəndə onun gecə qayıtmayacağını güman edən tamahkar Şəbiyar jurnalistin otağında kənddən gəlmiş alverçi arvadı yerləşdirir. Gecə yarısı ifrat dərəcədə sərxoş vəziyyətdə qayıdan Şakir həmin «lüks» nömrədə həmin alverçi qadınla dünyanın ən ləzzətli gecəsini keçirir. Hekayənin sonuna nəzər salaq: «Təzə il qabağı bazarda qələbəlik idi. Belinə köhnə, qalın yun şal sarımış, başına qırmızı gülləri olan qara yaylıq və yaylığın da üstündən göy bir əski bağlamış qadının satdığı meyvələr diqqətini cəlb etdi. Hər iki gözünün yarıdan çoxunu qırmızı qan örtmüş, əlləri çat-çat olmuş, üzündə dərin şırımlar açılmış qadın, nədənsə, tez əl-ayağa düşdü.

– Bazarda mənim mallarımdan təzə-təri, dadlısı, ləzzətlisi yoxdur…

Səs, elə bil, Şakirə tanış gəldi. Diksindi. Əvvəlcə bu bədheybət qadından heç nə almamaq qərarına gəldi. Ancaq tez fikrindən daşındı. Qızıləhmədi almalar, mələs, gülövşə narlar, keçiməməsi üzümlər… O, ağzınacan dolmuş sarı kağız torbaları

piştaxtanın üstünə qoyub əlini cibinə saldı, bir dəstə pul çıxarıb hesabı soruşdu.

Qadın astadan, səsi titrəyə-tirrəyə, həyəcanla dilləndi:

– Hesab çatıb, başına dönüm.

– Kimdən? Kim verib?

Qadın altmış-altmış beş yaşını sanki unudaraq, üzünə zərif və utancaq bir ifadə verərək:

– Hesab yayda… O gecə… Mehmanxanada... – dedi.

…Şakir piştaxtanın üstündəki meyvə dolu kağız torbalara baxmadan, az qala, yüyürə-yüyürə bazardan çıxdı».

Göründüyü kimi, yazıçı son anda psixoloji təzyiqi amansız bir inadla şəxsiyyətin üzərinə salır, ona güzəştə getmir, insanın məzmununu yeni mənəvi dəyərlərlə sınağa çəkir, mənəvi deformasiyaların köklərini və səbəblərini tapmağa doğru yönəlir.

Mən hələ H.Mirələmovun «Gəlinlik paltarı» romanı haqqında «Həqiqətin bədii gücü» məqaləmdə rəssam Yusifcan və Fənayə xəttini təhlil edərkən diqqəti bir məsələyə – yazıçının bədii yaradıcılığın psixologiyasını gözəl bildiyinə yönəltmişdim. Əsərdə yaradıcılığın təhlilini bədii mətnə çevirmək, əsər içərisində əsər, yaradıcılıq proseslərinin çarpazlaşması və çulğalaşması çətin işdir, yazıçıdan bədii nitq zonalarını itirməmək, fərdiləşdirmək bacarığı tələb edir. Böyük bəstəkar və misilsiz tarixi şəxsiyyət Ü.Hacıbəylinin və Bülbülün gənc istedadlara qayğısından və yaradıcılıq əlaqələrindən bəhs edən «Bir gecənin sehri» hekayəsi bu baxımdan yazıçının ən uğurlu əsərlərindən biri hesab oluna bilər.

Yazıçı, Ü.Hacıbəyliyə dediyi «Sənətkarlar sənətlərinə səhhətlərindən çox fikir verirlər… Fədakarlıq onların xislətindədir…» cümləsi ilə Mircəfər Bağırova rəğbət yaratmağa nail olur. Ü.Hacıbəyli ilə Bülbül arasındakı münasibətlər, hər iki böyük sənətkarın Qara Qarayev və Cövdət Hacıyev kimi varlığında ilahi vergisi olan istedadlara qayğısı hekayədə səmimi realist-romantik boyalarla təsvir olunur.

Hekayəni dolğunlaşdıran, onu oxucuya sevdirən bir cəhət də var: bu tarixiliklə müasirliyin uğurlu bədii vəhdətidir. H.Mirələmov adları Azərbaycan xalqının qəlbində məhəbbətlə yuva bağlamış Ü.Hacıbəyli, Bülbül, Qara Qarayev, Cövdət Hacıyev kimi yaradıcı tarixi şəxsiyyətləri öz yazıçı qəlbinin məhəbbət prizmasından keçirərək oxucuya bir daha sevdirməyə

nail olur. Xüsusilə hekayənin gözlənilməz sonluğunda Bülbülün böyük cəsarətlə M.Bağırovun qarşısında gənc bəstəkarlar Q.Qarayev və C.Hacıyevin qadağan olunmuş «Vətən» operasından Mərdanın ariyasını oxuması onu bir şəxsiyyət kimi ucaldır. Bu, həqiqətən amansız, qorxunc bir gecənin sehri idi və bu sehr Q.Qarayev və C.Hacıyev kimi gələcəyin korifeylərinə yol açmış oldu. Bu təkcə sənətin sehri yox, həm də həyatın mənasını dərk etmiş kamil insanların möcüzəsi idi.

Bütün zamanlarda real varlığı necə əks etdirmək bədii ədəbiyyatın, sənətin, onun bədii metod və ədəbi cərəyanlarının ən böyük problemi olub. Söz və sənətlə bağlı nəzəri-estetik və poetik prinsiplər bu problemin həllindən nəşət edib. Bəs reallıq özü nədən ibarətdir, onun strukturu necədir, sabitlik və dəyişgənlik hüdudları nə qədərdir? Beləliklə, bədii əksetdirmənin üsul və metodlarından əvvəl onun predmetini müəyyən etmək başlıca şərtdir. «Bir gecənin sehri» kitabına daxil olan «Təmizlənmə» və «Coğrafiya çubuğu» povestləri bu baxımdan diqqəti cəlb edir. Hər iki əsər müəllim taleyinə həsr olunub, «Coğrafiya çubuğu»nun əsas mövzusu müəllim-məktəb-şagird münasibətləri, ümumiyyətlə, təhsilin milli taleyimizdə rolu problemidir.

«Təmizlənmə» povestinin qəhrəmanı kənd müəllimi Göyüşün bir arzusu var: mal-heyvan satıb düzəltdiyi pulla Bakıya gedib, özünə papaq, arvadı Gözələ bər-bəzək, qızı Turaca don, oğlu Qaraya faralı, zəngli velosiped alsın. Borc istəyən qohum-əqrabanın əlindən Göyüş müəllim bu arzusunu neçə ildir həyata keçirə bilmir. Nəhayət, mal-heyvana, bağ-bostana aludə olub müəllim kimi nüfuzunu itirən Göyüş müəllim Bakıya gəlir. Şəhərə düşən kimi təsadüfən burada əyyaş həyatı keçirən əmisi oğlu – toy müğənnisi Tuqayla rastlaşır.

Tuqay təkidlə onu «Mersedes»ə oturdub pozğun qadınların mənzilinə gətirir. Göyüşün Bakı arzuları bir gecədə puça çıxır. O, səhər univermaqda arvadına paltar almaq üçün əlini cibinə atır və görür ki, pulunu oğurlayıb, əvəzində kart qoyublar. Dilxor olmuş Göyüş müəllim kəndə qayıdıb gur şəlalənin altında çimib təmizlənir. Yazıçı, Göyüşə ibrət dərsi verir, amma oxucu onun təmizləndiyinə tam inana bilmir. Diqqətini və narahatlığını daha çox Göyüşün mühiti üzərində saxlayır: həm kənd mühiti, həm də onun təmasda olduğu şəhər mühiti. Əslində, yazıçının uğuru məhz bu mühitləri psixoloji təhlil etməsindədir. Hər iki müstəvidə Göyüş müəllim – kənddə

ziyalının əsas nümayəndəsi son dərəcə miskin görünür. Bəs buna səbəb nədir, niyə təhsil, müəllim bu günə düşüb? XX əsrin əvvəllərindəki milli ziyalıların – C.Məmmədquluzadənin, Ə.Hüseynzadənin, M.Ə.Rəsulzadənin, M.Ə.Sabirin, N.Nərimanovun, Ü.Hacıbəylinin və başqalarının dili ilə desək, «kimdir müqəssir, nədədir nicat?» Bu taleyüklü suala XXI əsrin əvvəllərinin Azərbaycan yazıçısı H.Mirələmov «Coğrafiya çubuğu» povestində cavab tampağa çalışır.

«Coğrafiya çubuğu» milli cəmiyyətə sovet gerçəkliyinin nələri gətirdiyi haqqında povestdir. Tipik Azərbaycan kəndi olan Kürəkçi kəndinin məktəb direktoru Bəhmən müəllim həmişə əlində oynatdığı coğrafiya çubuğu ilə hətta xəritədə olmayan Kürəkçi kəndini də göstərib hirsini-hikkəsini nümayiş etdirəndən sonra «nizam-intizama partbiletimlə cavabdehəm» – deyir. Bəhmən müəllimin üç dayağı var: coğrafiya çubuğu, partbilet, bir də ona bütün xəbərləri gətirən, yaltaqlanıb köpünü alan dərs hissə müdiri Fəzail müəllim! Bəhmən müəllimin «coğrafiya çubuğu» Xudayarbəyin dəyənəyinə oxşayır. Lakin Bəhmən müəllimin coğrafiya çubuğu, necə deyirlər, artıq bir iş görə, hərəkət edə bilmir, nağıllarda olduğu kimi, bu sehrli çubuq yavaş-yavaş gücdən düşməyə başlayır. Ali məktəbi zorla «3»-lə bitirmiş Bəhmən müəllim bu həqiqəti bütün çılpaqlığı ilə gənc ədəbiyyat müəllimi Xatirə, Kürəkçi kəndinin məktəbinə gəldikdən sonra anlayır. Nə Bəhmən müəllimin coğrafiya çubuğu və partbileti, nə Fəzail müəllimin iftiralı qurğuları, nə idman müəllimi zırrama Zakirin şit atmacaları, nə maarif müdiri Xəzail müəllimin didaktik həqiqətləri, nə də Vəsilənin özünü intihara cəhdi ilə bağlı böhtanlar ədəbiyyat müəllimi Xatirəni öz prinsiplərindən döndərə bilmir. Yazıçı onu məhəbbətlə, milli ziyalılığın nümunəsi kimi işləyir. Xatirə yalnız çox ciddi pedaqoq və şəxsiyyət olan Kamil müəllimin saf məhəbbətinə təslim olur.

Povestdə milli taleyimizin, milli istiqlal və dövlətçiliyimizin cəmiyyətdə ziyalı mövqeyindən, ziyalıya münasibətin tarixən doğruluğundan asılılığı ideyası əsaslandırılır.

«Bir gecənin sehri» kitabına H.Mirələmovun tizfəhm bir ağılla yazılmış publisistik məqalələr, R.Rzanın poeziyası haqqında fəal tənqidçi təfəkkürü ilə yazılmış silsilə yazıları, böyük istedad və zəhmətlə edilmiş tərcümələri də daxil edilmişdir.

«Rəsul Rza haqqında yeddi nəğmə» çevik tənqid üslubunda yazılmış müstəqil bir monoqrafiya qədər siqlətlidir. H.Mirələmov R.Rza yaradıcılığını XX əsr fəlsəfi-intellektual poeziya təmayülü kontekstində təhlil edir. Onun həmin təmayüldəki banilik rolunu təsdiqləməyə müvəffəq olur.

Kitabın mühüm bir hissəsini təşkil edən tərcümələr gərgin yaradıcı əməyin uğurlu bəhrəsidir. Buraya Varlam Şalamovun altı hekayəsi, Yuri Polyakovun «Home Erektus və yaxud arvadların dəyişdirilməsi» komediyası və Teymur Zülfuqarovun «Kəklikli qəfəs» pyesi daxildir. Ümid edirik ki, bütün bu tərcümələr ədəbi əlaqələrimizin qiymətli faktları və tərcümə mədəniyyətimizin uğurlu nümunələri kimi qəbul olunacaq.

«Bir gecənin sehri» istedadlı yazıçı, ədəbiyyatı həssaslıqla duyan və analitik təfəkkürlə təhlil edən tənqidçi, güclü söz fəhminə malik tərcüməçi kimi H.Mirələmovun ədəbi-tarixi mövqeyini təsdiqləyən və möhkəmləndirən sanballı əsərdir. Bu kitab azmış şüurun didərgin taleyini, onun milli faciə olduğunu əks etdirən əsərlər toplusudur.

Nizaməddin ŞƏmsizadƏ
Qafqaz Xalqları Elmlər Akademiyasının akademiki,
filologiya elmləri doktoru, professor
2006

POVESTLƏR

TƏMIZLƏNMƏ

Göyüş hər dəfə Bakıya getmək istəyəndə ortaya hökmən bir iş çıxırdı: ya qohum-əqrəbadan bir xəstələnəni olurdu, ya xalası qızının bibisi oğluna toy eləyirdilər, ya da böyük dayısının əsgərlikdən yenicə qayıtmış kiçik nəvəsinin ad günü keçirilirdi. Ya da kənddə bir hüzr düşürdü. Hamı da əlüstü qaçırdı bu binəvanın üstünə. O da insafən, borc üçün gələnləri naümüd qaytarmırdı – əyin-başlarından, boğazlarından kəsib səliqəylə üst-üstə yığdıqları beş-on manatı çıxarıb verirdi. Buna görə arvadı ilə tez-tez üz-göz olur, aralarında narazılıq, giley-güzar əmələ gəlirdi, – özü də məhz ona görə yox ki, əllərində-ovuclarında olan beş-on manatları gedirdi və yaxud borc alanlar borclarını gec, ya da hissə-hissə qaytarırdılar, ya da heç qaytarmırdılar; ona görə ki, bu Bakı səfəri – hansı ki, məhz puldan və münasib vaxtdan asılı idi, ailə üçün mühüm əhəmiyyət kəsb edirdi – elə bil, tilsimə düşürdü, baş tutmurdu ki, tutmurdu…

Əlbəttə, bu səfərdən hərənin bir umacağı vardı. Məsələn, arvadı – evləndikləri gündən indiyəcən bir dənə də bəzək-düzək əşyası olmayan Gözəl istəyirdi ki, heç olmasa, indi, yaşının bu vaxtında barmaqları üzük, qulaqları sırğa, boynu boyunbağı, biləkləri bilərzik görsün. Həm də o, bunları elə-belə yox, uzun illərdən bəri içində yığılıb qalmış hikkə ilə istəyirdi:

– Nə vaxta kimi belə olacaq?! Xeyirdə-şərdə adam içinə çıxa bilmirəm! Dediklərimi almasan, vallah, bir də gördün uşaqları tökdüm üstünə, getdim dədəmin xarabasına. Eşidən-bilən də məni yox, səni qınayacaq…

Qızı Turac don istəyirdi, özü də qırmızı rəngdə, ətəyi də qırçınlı və saçaqlı. Oğlu Qaranın könlündən – uşaq olduğuna görə onu yaxınına buraxmayan kəhər atlarının acığına – velosiped keçirdi, faralı, zəngli…

Əslinə qalsa, Göyüşün özü də pis kökdə idi: utana-utana başına qoyduğu papağın qulaqlarının tükü didilib tökülmüşdü. Paltosunun da boynu tamam yeyilmiş, astarı çıxmışdı. Ancaq bu məsələdə Göyüşün özü günahkar idi: universitet illərinin süzülə-

süzülə nimdaş olmuş bu «yadigarından» sanki heç cür ayrıla bilmirdi.

Göyüş müəllimlik elədiyi bu on il ərzində bir dəfə də olsa, nə məktəbə, nə də kəndin xeyir-şər məclislərinə təzə kostyumda getməmişdi. Şalvarını təzələyəndə pencəyi köhnəlmişdi, pencəyini təzələyəndə şalvarı. O nədənsə, ən çox ayaqqabılarına fikir verirdi: həmişə par-par parıldayan, qapqara, qəşəng tuflilərinin ucuna, dabanına nal vurdururdu ki, altı yeyilməsin, fabrikdən və yaxud qəlibdən indicə çıxmış kimi təzə görünsün, amma di gəl ki, kəndin zığında-palçığında ayaqqabılarının ağzı-burnu ikicə günün içində elə kökə düşürdü ki, deyirdin, bəs, indicə it ağzından çıxıb. Bir şey isə lap mat qalmalı idi: Göyüşün qırmızı, zərli qalstuku aradan illər keçməsinə baxmayaraq, elə toy günündəki kimi təptəzə qalmışdı, sanki sehrli – çirk götürməyən, ütüsü heç zaman pozulmayan bir parçadan tikilmişdi...

Göyüş, müəllim kimi, sinif otağına girdiyi ilk günü həmişə məmnunluq hissi ilə xatırlayırdı. O, doğrudan da, sənətinin vurğunu idi və qırx beş dəqiqə skamyaların arasında gəzə-gəzə şövq ilə dərs deməkdən xüsusi zövq alır, hətta, fikrini şagirdlərə yaxşı çatdırmaq üçün bəzən əl-qolunu aça-aça dirijorlara məxsus hərəkətlər etməkdən də çəkinmirdi. Ancaq indi, indi deyəndə, bir il olar ki, o, nədənsə, məktəbdən əməlli-başlı soyumuşdu. Əlbəttə, təkcə kəndin yox, rayonun, bəlkə də respublikanın, həm biliyinə, həm də pedaqoji əxlaqına görə barmaqla sayılan üç-dörd müəllimindən biri olan Göyüşün həyatında birdən-birə, qəflətən bu cür təbəddülatın baş verməsinin, heç şübhəsiz ki, çox ciddi səbəbi var idi: ailənin ehtiyacı çoxalmış, gün-güzəranı acınacaqlı hala düşmüşdü.

Göyüş hərdən öz-özü ilə tək qalanda düşdüyü bu vəziyyəti belə şərh edirdi: «Bəli, mədəniyyət və gödəniyyət tərəzisinin tarazlığı büsbütün pozulub…».

Göyüş, qohum-əqrəbanın da məsləhəti ilə bu vəziyyətdən çıxmaq üçün zəmanəyə uyğun gəlirli iş tapmışdı: elat dağa-arana köç edəndə, qoyun-quzudan, dana-dunadan ucuz – su qiymətinə alıb qapısına yığmışdı. Həyətinin bir tərəfində iyirmi-iyirmi beş metr uzunluğunda bir tövlə tikdirmişdi və bu tövlə, demək olar, ona müftə başa gəlmişdi. Vaxtilə dərs dediyi şagirdlərdən indi iş-güc sahibi olanlar daşını, qumunu, taxta-tuxtasını, şiferini vermişdilər. Qonum-qonşu da yığışıb

tövlənin bünövrəsini qoymuş, bircə həftənin içindəcə divarlarını hörmüş, tavanını örtmüş, damını bağlamışdılar.

Işlər qaydaya düşəndən, yəni, tövlə hazır olandan, qoyun-quzu, dana-duna alınandan sonra Göyüşü kənd-kəsəkdə görmək müşgülə dönmüşdü; məktəbdən gələn kimi tələm-tələsik çörəyini yeyib kövşənə gedirdi. O dağ – mənim, bu dərə – sənin, gəzməkdən ayaqlarının altı qançır olmuşdu, barmaqları qabar bağlamışdı, gecələr tər-təmiz, yupyumşaq yorğan-döşəkdə dabanlarının sızıltısından yata bilmirdi; amma bütün bu əzab-əziyyətlərə baxmayaraq, o məmnun idi və belə düşünürdü ki, haqqın yolunu tapıb. Hətta axır vaxtlarda örüşə gedəndə, dərs öyrətmək adı ilə zəif oxuyan şagirdlərdən bir-ikisini də özüylə götürürdü. Onlar sürünü güdür, ot-ələf yığır, Göyüş də, imkan daxilində, dincini alırdı…

Gözəl artıq süd-qatıq payı gətirən, qonum-qonşunun yolunu gözləmirdi. Çünki gündə iki dəfə – səhər və axşam elə öz qapısındaca sərniclər və bidonlar süd ilə dolub boşalırdı. O, hətta, Göyüşdən xəbərsiz, dulusçu Hüseynalı kişiyə nehrə sifariş vermişdi, elə həmin nehrənin «ilk nübarı»ndan – kərə yağından dadlı bir xəngəl bişirmişdi və Göyüş həmin xəngəli ləzzətlə yeyəndən sonra barmaqlarını yalamışdı…

***

Qəribədir, çöllə təmasdan sonra Göyüşün xarakterində çox ciddi dəyişikliklər əmələ gəlmişdi; o, hələ cavan vaxtlarından kənd camaatı arasında öz dərrakəsi, səbr və təmkini ilə «ağsaqqal» imici qazanmasına baxmayaraq, son vaxtlar hər xırda şeydən ötrü kəmhövsələlik göstərir, hətta, qonum-qonşu ilə üz-göz də olurdu, gah örüş, gah da bostan yeri üstündə qalmaqal salırdı. Onun birdən-birə bu cür dəyişməsi, demək olar ki, hamının qəlbində narazılıqla yanaşı, bir təəssüf hissi də doğurmuşdu. Orda-burda danışırdılar ki, Göyüş, əli qalınlayandan, qapısı toyuq-cücə, mal-qara görəndən sonra adamlıqdan çıxıb. Qulağına bu cür söz-söhbətlər çatan məktəb direktoru da bir-iki dəfə onu çağırıb danlamış və xəbərdarlıq etmişdi: «Ya müəllimliyin daşını at, ya da təsərrüfatın. Bir əldə iki qarpız tutmaq olmaz. Dərsə hazırlıqsız gəlirsən. Geyim-kecimə fikir vermirsən. Elə tövləyə girdiyin paltarla da məktəbə gəlirsən – əyin-başın peyin iyi verir».

Göyüş məktəb direktorunun bu danlağından sonra hirsini-hikkəsini arvadının üstünə tökmüşdü. Hətta özünü saxlaya bilməyib, ona bir-iki ağır söz də demişdi, mərəkə kəllə-çarxa çıxmışdı, evdə mehribançılıqdan əsər-əlamət qalmamışdı. Bu dava-dalaşın xeyri o olmuşdu ki, Gözəl Göyüşün məktəb paltarını çöl paltarından ayırmış və səliqə-sahmana salmışdı…

***

Göyüş xeyli vaxt idi ki, cani-dildən Bakı səfərinə hazırlaşırdı: hələ yaz girməmişdən tövlədə vələs şivlərindən düzəltdiyi arakəsmələrə üç dana, beş-altı da toğlu alıb salmışdı. Məqsədi də bu idi ki, Qurban bayramına kimi onları bir qədər kökəldib satsın, yay məzuniyyətindən alacağı pulu da üstünə qoyub, Bakıya yola düşsün...

***

Nəhayət, gecə-gündüz xəyalını məşğul eləyən həmin gözəl gün gəlib çatdı; O, sübh tezdən mal-qaranı örüşə ötürəndən sonra, şagirdlərin dəftərlərini yoxladığı yazı stolunun arxasına keçib kağız-qələm götürdü, səliqə-səhmanla, narın xətlə əvvəlcə arvad-uşağına, sonra da özünə alacağı şeylərin siyahısını tutdu, gözlərini uzaq bir nöqtəyə zilləyib xəyala daldı və iri, iş-gücdən qabar-qabar olmuş əli ilə alnını ovuşdurdu ki, görsun yadından bir şey çıxmayıb ki… Yox, nə lazım idisə, yazmışdı. Kağızı dörd dəfə qatlayandan sonra cibinə qoydu, ayağa qalxdı və ucadan dedi:

– Yolçu yolda gərək!

Elə bu vaxt Gözəl, əlində üç sancaq, gəlib onunla üzbəüz dayandı və dedi:

– Getmək-gəlmək, yemək-içmək, mehmanxanada qalmaq pulunu şalvarının, alacaqlarının da pulunu pencəyinin döş cibinə qoy, ağzını da bərk-bərk sancaqla.

Göyüş təəccüb etdi:

– Niyə?

Gözəl əvvəl duruxdu, sonra dedi:

– Necə niyə? Pulu cibindən çıxararlar…

Göyüş yenə təəccüb etdi:

– Döş cibimdən? Gözümün qabağında? Bir çıxart görüm…

– Mən çıxara bilmərəm… Amma …

– Nə amma?

– Nə bilim… Hamı sancaqlayır də…

– Qorxma, heç məşhur sehrbaz Kio da bu pulu mənim döş cibimdən çıxara bilməz… Sən məni maymaq hesab edirsən?..

– Yox... Amma səndən nə gedir?.. Sancaqla də...

Göyüş etiraz etmədi döş cibinin ağzını bərk-bərk sancaqladı və həyət qapısından çıxanda hələ də artırmada dayanan Gözəl onu səslədi:

– Ayın-oyun alandan sonra sancaqları atma, gətir…

***

Avtobus Bakıya nəzərdə tutulduğu vaxtdan xeyli gec çatdı. Sən demə, təkərləri xarab imiş, həm də matoru qızdırırmış; yolda, xüsusilə də Ağsu dolamalarında üç-dörd dəfə dayandı. Bu, yayın cırhacırında daldalanmağa kölgə, udmağa təmiz hava arzulayan əliuşaqlı qadınların ürəyindən olsa da, iş vaxtı qurtarmamış – idarələr bağlanmamış şəhərə çatmaq istəyənləri təngə gətirdi, hövsələdən çıxardı. Onlar dodaqaltı mızıldanır, bu cür sınıq-salxaq avtobusla, qoca və əfəl sürücü ilə yola çıxdıqlarına görə özlərini danlayırdılar. Maraqlıdır ki, deyinmək məsələsində sürücü də onlardan geri qalmırdı: ömrünün qırx ildən çoxunu yollarda keçirdiyinə görə bəxtindən, taleyindən gileylənir, fələyin çərxinə lənətlər yağdırır və aradabir – yorulanda, çəkilib bir qıraqda siqaretini tüstülədəndə, ötüb keçmiş ömrün əlçatmaz, ünyetməz uzaqlığına baxa-baxa, cani-dildən təəssüflənə-təəssüflənə deyirdi:

– Eh, kaş siz bu avtobusla mənim ötən laçın vaxtlarımı görəydiniz…

***

Vağzal tünlük idi və nədənsə, birdən-birə Göyüşün yadına «It yiyəsini tanımır» ifadəsi düşdü, tez əlini pencəyinin sol cibinə saldı, pulun orda olub-olmadığını yoxladı, arxayın olandan sonra yolun sağ tərəfinə keçdi, elə bu vaxt yaxınlıqdakı

bapbalaca köşkdən hansısa meyxanaçının avazla oxuduğu sözlər eşidildi:

Salam, alə, kəndçi bala,
Kənddə ineylər necədü?

Göyüş gülümsədi və fikirləşdi ki, şəhərlilərin kəndlilər haqqında yazdıqları bu üzdəniraq «dostluq» şarjını oxutmaq üçün vağzal elə ən münasib yerdir. Qeyri-ixtiyari dilləndi:

– Yakçıdu, ələ, ineylər yakçıdu, başın haqqı, hər biri ildə on iki bala verir…

Göyüş hara, daha doğrusu, hansı mehmanxanaya gedəcəyini hələ müəyyənləşdirməmişdi. Ürəyindən dostlarının yanında qalmaq da keçirdi. Burda – şəhərdə qohum-əqrəbası da çox idi.

Istəsəydi, dopdoğma əmisi nəvəsi, az vaxtda şəhərdə yaxşı xanəndə kimi məşhurlaşmış Tuqayın toylardan qazandığı pulla Bakının ən gözəl yerində – Badamdarda tikdirdiyi villanın qapısını ərklə döyərdi və çox böyük hörmət-izzətlə də qarşılanardı. Tələbə yoldaşlarından hələ subaylığın daşını atmayanlar – tək yaşayanlar da vardı. Amma hamıdan münasib yenə Kərəm idi: tələbə vaxtı dörd il bir otaqda qalmışdılar.

Axırda elə Kərəmin üstündə durdu: həm bir-birlərini yaxşı tanıyırdılar, həm də söhbətləri tuturdu.

Dayanacaqda 106 nömrəli avtobusu gözləməyə başladı. Tələbəlik illərindən bilirdi ki, 106 nömrəli avtobus gec-gec gəlir, gərək, ən azı, yarım saat, bəlkə də, bir saat gözləyəsən.

Hövsələsi daraldı, siqaret yandırdı, tüstünü arxayınlıqla, ləzzətlə ciyərlərinə çəkə-çəkə dalbadal bir neçə qullab vurdu. Tüstü üzünə yayıldı və gözlərini yüngülcə yaşartdı. Elə bu vaxt «Mersedes» markalı bir maşın şalvarının balağını yaladı, sürətlə keçib irəlidə dayandı və aramsız fit verməyə başladı. Göyüş bərk narahat oldu və tərəddüd içində maşına sarı addımladı, əmisi nəvəsi Tuqayı görəndə gözlərinə inanmadı.

Tuqay gülümsəyə-gülümsəyə dedi:

– Ürəyə bax e!.. Deyəsən, avtobusdan elə indi düşmüsən?

– Hə…

– Əyləş… Burada maşın saxlamaq olmaz, bir az irəli gedək…

Göyüş qabaqda – Tuqayın yanında əyləşdi; üz-gözündə təəccüb vardı, matı-qutu qurumuşdu, hiss olunurdu ki, bu qəfil, gözlənilməz görüşün – maşının onun şalvarını yalayıb keçməsinin, fit verməsinin təsiri hələ tam keçməyib…

Elə maşının içindəcə qucaqlaşıb öpüşdülər.

Tuqay ağzını açmağa macal tapmamış, Göyüş dedi:

– Kənddə salamatçılıqdı. Atan da, anan da yaxşıdılar. Mən də gəldim ki, arvad-uşağa bir-iki şey alım. Sən necəsən?

Tuqay:

– Allah camaatın canını sağ eləsin. Puldan-paradan korluğum yoxdu. Şəhərdə evim, Badamdarda villam… Subaylıq da ki, sultanlıqdı… Lovğalıq olmasın, maşın varsa, ev varsa, pul varsa, deməli, kimi istəsən… Müəllim adamsan, başa düşdün də, söhbət nədən gedir… Inan ki, dayanacaqda səni görəndə özümü itirdim, sevindiyimdənmi, kövrəldiyimdənmi, – bilmirəm – gözüm yaşardı. Bayaqdan nəzərlərim səkillərdə qalmışdı. Dostdan, tanışdan axtarırdım ki, «baz»lığa tək getməyim. Qaynanan səni çox istəyirmiş…

Göyüş gülümsədi:

– Mən eşitmişdim ki, bu məsəli adam yemək üstə gəlib çıxanda deyirlər…

Tuqay güldü:

– Əlbəttə, yemək də olacaq… Ispan arağı… plov, ləvəngi… Çex pivəsi… noxud… Bir sözlə, fısqırıq… Qurban olduğum səni göydən göy zənbillə salıb… Bir bax, gör, qaqaşın necə cananlarla kef eləyir…

Göyüş könülsüz halda dilləndi:

– Əşi, yaxşı, görək. Müəllim babayam, «bazlıq» harama yaraşır – səhərdən axşama kimi uşaqlara əxlaqdan dərs keçirəm. Başlayıram Tomrisdən, qurtarıram Babəkdə... Yox, «konstitusiyamı» poza bilmərəm...

Tuqay bərkdən güldü:

– Müəllim, qulaq as, «konstitusiyanı» pozmursan, ona yüngülvari dəyişiklik və əlavələr edirsən, vəssalam…

– Bir günlük «xəlifəlik»dən ötrü? Yox, bir yerdə saxla, mən düşüm, ya da, vaxtın varsa, məni Kərəmin qapısında sal.

– Hansı Kərəmin?

– Tələbə yoldaşım…

– Hə, bildim…Quru bəy…

– Elə demə… Kərəm yaxşı oğlandı… Onunla bir balaca söhbətim də var… Sabah vaxtın olsa, görüşərik…

Tuqay bic-bic gülümsündü:

– Ay-hay!.. Sən dedin, mən də inandım… Müəllim, sən dörd il bu şəhərdə oxumusan, min cür hoqqadan çıxmısan… Indi mənə kələk gəlirsən?..

– Nə deyim, ay Tuqay, o dövr başqa, bu dövr başqa. Ailə, uşaq-muşaq... Hər şey dəyişib… Dolanışıq çətinləşib… Qayğılar çoxalıb… Vallah, bilmirsən nə edəsən… Gündüz fikir, gecə fikir… Gözlə ki, qurtaracaq…

– Başa düşdüm… Başa düşdüm… Atan rəhmətlik... Elə mən də səni elə bir cənnətməkana aparmaq istəyirəm ki, unudasan e, bu fani dünyanı da, arvad-uşağı da, dərd-səri də... Getdik…

– Yox, qaqaş, məni düz başa düşmədin. Nə cənnətməkan? Maşallah, sənin kefin qalxıb kəlləçarxa. Mən isə, problemlərin içində itib-batıram.

– Müəllim, bəlkə qorxursan?

– Nədən?

– Bəlkə özünə… o söz… Yox, maşallah, görürəm, canın hələ suludur, öhdəsindən gələrsən... Ha-ha-ha!..

– Səndən belə söz heç gözləməzdim…

– Mənə yox də, müəllim… Axı, yaxşı bilirəm tələbəlik illərində sənin ləqəbin nə olub…

– Nə olub?

– Don Juan.

– Bunu hardan çıxartdın?

– Arxivdən! Ha-ha-ha!..

Tuqay sınayıcı nəzərlərlə onun üzünə baxdı və yenə ucadan güldü.

Göyüşün xırdaca, qıyıq, azca göyə çalan gözlərində məzlum bir ifadə vardı. Bu ifadə o qədər saf, o qədər təmiz, biclikdən, hiyləgərlikdən, xəyanətdən o qədər uzaq idi ki, hətta, bir anlıq Tuqaya da sirayət etdi. Lakin o özünü tez ələ aldı:

– Gecikirik ha…

Göyüş tələyə düşmüşdü və hiss edirdi ki, çapalamaqla canını qurtara bilməyəcək. Tuqay onu yola gətirməkdən ötrü yağlı dilini işə salır, dondan-dona girir, hətta bəzən ərkyana tənbeh edir, fürsəti əldən verməməyə çalışırdı. Nəhayət, Göyüşün beyni tamam dumanlandı və o, çar-naçar razılıq verdi:

– Hara istəyirsən, gedək e. Sənin sözün sınınca, düşmənin boynu sınsın...

– Bax, bu oldu kişi sözü!.. Getdik!.. Plov soyuyur, xanımlar darıxır!..

Tuqay əlüstü maşını əks tərəfə döndərdi:

– Bu yaxınlıqdakı bir evə gedəcəyik… cəmi-cümlətanı on beş dəqiqəlik yoldu… darıxma…

Göyüşü fikir götürdü. Necə oldu ki, o belə bir şeyə razılıq verdi? Birdən ona elə gəldi ki, kiçik bir qayığın içindədir, dənizin amansız dalğaları ilə əlbəyaxa olub, amma nə qədər cəhd göstərsə də, sahilə çıxa bilmir ki, bilmir. Gah o, boz-bulanlıq dalğaları üstələyir, gah da boz-bulanlıq dalğalar onu… Sifətini tər basdı. Bərk darıxdı, qəfildən havasızlıq hiss etdi, düyməni basıb şüşəni aşağı saldı, bir az rahatlandı və elə bu vaxt hardansa oğlu – on yaşlı Qara yadına düşdü: ona ikitəkərli velosiped almalı idi – söz vermişdi. Hər dəfə velosiped söhbəti düşəndə, Bakı səfərini bəhanə gətirmişdi. Göyüş fikirləşdi: «Bu da Bakı… Uşağı sevindirməliyəm. Velosiped almasam, yaşıdlarının yanında dili gödək olar. Bəs, Turac? Əliboş qayıtsam, gözünün suyu qurumaz. Gözəl… Gözəl dünyanı dağıdar… Vallah, dağıdar… Nə işə düşdüm… Pulum bura getsə…».

Tuqay Göyüşün tutulduğunu görüb dedi:

– Müəllim, bəlkə pulun fikrini eləyirsən?.. Qorxma… Xərc mənlikdir… Sən ye, iç, kef elə… Kəndə gələndə bir quzu kəsərsən, əvəzi çıxar.

Göyüş belə qərara gəldi ki, özünü sındırmasın:

– Pulu xərcləməkdən ötrü qazanırıq də…

Tuqay yüngülcə gülümsədi:

– Müəllim, onda, arvaddan qorxursan. O, qaldı kənddə – həyət-bacada… Mal-qaranın, toyuq-cücənin yanında… Qoy təndirini qalasın, çörəyini bişirsin… Uşaqlarına baxsın… Yırtıq-söküyünü tiksin… Artırmadan elə yola baxsın, görsün əri gəlir, ya yox… Hə, nədi, xoşuna gəlmədi? Yenə mısmırığını salladın… Darıxma, indi sənə bir nazlı mələk verəcəyəm, qırışığını açacaq, müəllim, keçməli şey döyül, qardaş canı. Su sonasıdı e, su sonası. Allah bir günümüzü onlarsız eləməsin…

Göyüş fikirləşdi ki, atalar demişkən: «Islanmışın yağışdan nə qorxusu?» Qədər belə imiş. Əlvida, təmizlik!..

***

…Tuqayın ardınca pilləkənləri bir-bir yuxarı qalxdıqca, hiss edirdi ki, get-gedə nəfəsi daralır, gücsüzləşir. Öz-özünü danladı: «Daş başına, Göyüş. Gör kim saqqızını oğurladı? Onun ağlı buracandı, bəs, sənə nə olub? Toylarda bayağı, şit diringi oxuyan bir zırramadan bundan artıq nə gözləyirsən? Gör səni hara gətirdi – pozğun küçə qadınlarının yanına. Nə qədər ki, gec deyil, üzüsulu qayıt geri. Nə qədər ki, ağlın-huşun başındadı, qayıt geri. Vicdanını ləkələmə. Ömrün boyu əzab çəkərsən...».

Deyəsən, gəldikləri evə çatmışdılar. Tuqay ərklə qapının zəngini basdı. Göyüş utandığından divara qısıldı, pörtmüş sifətini əlləri ilə örtdü; düşündü ki, nə ola, indi içəridən bir-iki bığıburma pəzəvəng çıxa, sala bunları təpiyin altına – nə yemisən, turşulu aş...

Göyüş hiss elədi ki, ürəyi aramsız döyünür, az qalır partlasın, tez Tuqayın qolundan yapışdı:

– Yox, əminəvəsi, bu mənlik deyil, gəl qayıdaq.

Tuqay narazı-narazı üz-gözünü turşutdu:

– Ə, yekə kişisən, bizi biabır eləmə…

Qəfildən qapı açıldı. Içəridən əyninə hava rəngində ipək don geyinmiş qıvrımsaç, ortaboy, pudralı bir qadın çıxdı, elə blokdaca Tuqayın boynuna sarıldı. Göyüş utandığından qıpqırmızı qızardı. Elə bu vaxt qapının ağzında bir qadın da göründü və min ilin tanışı kimi naz-qəmzə ilə Göyüşə göz vurdu:

– Sən onlara bənd olma, biri Bakının Məcnunu, biri də Leylisidir. Keç içəri.

Tuqay «Leyli»sindən zorla aralanıb dedi:

– Şeyla, bax gör sənə necə buğa gətirmişəm!.. Ha-ha-ha!..

– Senk yu və çox mersi…

Tuqay gülüşünə ara verdi:

– Sən yenə ispanca danışırsan?

Şeyla yerindəcə reverans elədi:

– Avropaya inteqrasiya oluram da…

Göyüş qüssəli-qüssəli düşündü: «Bitdi, daha geriyə yol yoxdu. Su ki, doldu qaba, oldu içməli. Yox, mən nə danışıram? Hələ gec deyil. Bir şeyi bəhanə edib, aradan çıxmaq lazımdır».

Göyüş elə ağzını açmaq istəyirdi ki, Tuqay imkan vermədi, yavaşca onun qulağına pıçıldadı:

– Əmioğlu, vallah, bu müəllimlik səni korlayıb. Niyə sıxılırsan? Hesab elə ki, öz evindəsən, gözəl dəymə-düşər olur, tumarla, öp… Bax, cənnətməkan dediyim yer buradı...

Tuqay içəriyə elə ayaqqabılı keçdi. Onun bu hərəkəti, doğrusu, Göyüşün xoşuna gəlmədi, hətta, ürəyində onu məzəmmət də elədi. O ev sahibələrinin etirazlarına baxmayaraq, ayaqqabılarını çıxarıb bir küncə qoydu. Göyüşün səhərdən bəri hava dəyməyən ayaqlarının ürəkbulandıran qoxusu bir-birindən qəşəng, bəlkə də eyni yaşda olan bu iki qadının vurduğu ətrin məstedici rayihəsinə qarışdı. Qadınlar «püf» eləyib, ildırım sürətilə eyvana qaçdılar və bir müddətdən sonra oradan qəhqəhə səsləri eşidildi.

Tuqay bayaq blokda boynuna sarılan qıvrımsaç, ortaboy, pudralı qadını yanına çağırdı:

– Qadası, əmioğlu yoldan gəlib. Bəlkə şərait yaradasan, bir balaca əl-ayağını yusun? Suyunuz gəlir?

Qıvrımsaç, ortaboy, pudralı qadın dilləndi:

– Həyatım, sən ki, şəraitimizə bələdsən. Suyumuz vaxtlı-vaxtında gəlsəydi, nə vardı ki… Hamamın vannasını su ilə doldurmuşuq. Çimsin, amma tapşır, ehtiyatlı olsun – trapımız yoxdu. Aşağıya su axsa, qanımız gedər...

Tuqay Göyüşü ərklə itələyə-itələyə hamama saldı, vannanın qırağındakı plasmas dolçanı, asılqandakı ağappaq məhrəbanı göstərib dedi:

– O güncdəki qırmızı tası da qoy ayağının altına. Elə elə ki, yerə su tökülməsin. Bax ha, corablarını yumağı yadından çıxartma. Heç nə olmaz, sıxıb geyinərsən, yaydı də, quruyacaq. Çalış, mümkün qədər tez çıx. Səhv mənimdi, gərək əvvəl səni evə aparaydım, çiməydin. Eybi yoxdu, «keçənə güzəşt» deyərlər.

Göyüş hamamın işığını söndürdü, sonra təzədən yandırdı. Vanna bir neçə gün əvvəl doldurulduğundan, içindəki su iylənmişdi. Göyüşün ürəyi bulansa da, canını dişinə tutdu. Tası doldurub başına tökdü. Təntidiyindən alt paltarını çıxartmağı unutmuşdu. Özünə acığı tutdu. Lümbələnlüt soyundu, vannada uzandı, çıxanda gördü ki, su tamam azalıb. «Bu nə gün-güzərandı? Heyif deyil kənd, suyu bol, təmiz. Hər şəlaləsi bir təbii hamamdı. Kefin istəyən qədər çim, yaxalan, qaya parçasının üstündə qurulan. Düzü-dünya, ətraf ətir qoxusun, quşlar səs-səsə versin, ruhun dincəlsin» – deyə pıçıldadı və bu pıçıltını yəqin ki, özündən başqa heç kəs eşitmədi…

Göyüş vannadan çıxanda ayağı nətəhər sürüşdüsə, arxası üstə yıxıldı. Anası namaz üstə imiş, yaxşı ki, başı kafelə dəyib yarılmadı, beli azca cızıldı, bir də sağ əlinin çeçələ barmağı qanadı. Göyüşün rəngi-ruhu tamam qaçdı, üzü ağappaq ağardı, fikirləşdi ki, bu hamam əhvalatından yaxşı qurtardı – danışılası biabırçılıq deyildi – kənddə, Allah bilir, nə deyəcəkdilər. Hər avara, ağzının danışığını bilməyən bir lətifə qoşacaqdı, hər araqarışdıran bir zurna çalacaqdı. Göyüşün də ki, üzünün suyu tükləcək, abır-həyası gedəcəkdi. Yəqin, kəndin küpəgirən qarıları, sözgəzdirən dul arvadları da Gözəli sakit buraxmayacaqdılar: «Ağız, deyirlər, Göyüşü karvansarada döyüblər, doğrudu?», «Nooldu ona, yazıq bir dəfə Bakıya getməklə, arxasınca it hürdü?», «Guya, deyirlər, kefli olub, kiminsə arvadına sataşıb, o da dərsini verib?».

Gözəl bu tənələrə necə dözərdi, – bir Allah bilir…

Göyüş güzgünün qabağına gəldi, dodaqaltı mızıldandı: «Güvəndiyim dağlar, sənə də qar yağarmış. Gör özünü necə gülünc vəziyyətə saldın. Çoxmu həsrətindəydin bu əxlaqsızlıq yuvasının?».

Göyüş hamamın qapısı ağzında səs-küy, daha doğrusu, hənirti duydu, dərhal əl atıb işığı söndürdü, qaranlıqda bir qədər kirimişcə dayanıb qulaq asdı, elə ki, gördü sakitlikdi, işığı təzədən yandırdı, güzgüdə özünü görən kimi yenə əminəvəsinin

– Tuqayın qarasına gileyləndi: «Onun nə vecinə? Üzü üzlər görüb. Elə bu fahişələr deyil evini yıxan, ailə qurmağına mane olan? Gündə birinin qoynuna girir, onun-bunun yuvasını isidir, öz yuvası da qalır bumbuz. Qeyrətsiz oğul buna deyiblər, güya, xəbəri yoxdur ki, kənddə yağış yağanda dədəsinin-nənəsinin evi damır? Iki şifer alıb evlərinin üstünü örtmək əvəzinə, pullarını havaya sovurur, gününü restoranlarda, barlarda keçirir».

Güzgünün qabağından çəkildi. Corablarını yuyub bərk-bərk sıxdı və Tuqayın dediyi kimi, elə yaş-yaş geyindi.

Hamamdan çıxanda çaş-baş qaldı. Süfrəyə müxtəlif növ içkilər, plov, ləvəngi, yarpaq dolması, mer-meyvə, göyərti düzülmüşdü. Göyüşün süfrəyə baxması ilə Tuqayın və xanımların ayağa qalxıb bir səslə:

– Içək, Göyüş müəllimin sağlığına, bizim Bakı şəhərinə xoş gəlib, səfa gətirib, – dəmələri bir oldu.

Göyüşü hörmət-izzətlə stolun baş tərəfindəki boş stulda əyləşdirdilər. O özünü tox göstərməyə çalışsa da, bacarmadı, iştahası güc gəldi, səhərdən dilinə bir şey dəyməmişdi, ac idi...

Bununla belə, bir an duruxdu, hamını gözaltı süzdü; gördü ki, ona o qədər də məhəl qoyan yoxdu. Qadınlar Tuqayı duz kimi yalayır, kürəyini, boynunu ovuşdurur, içdiyi arağın yanğısını bu cür açıq-saçıq hərəkətlərlə söndürməyə çalışırdılar. Ev sahibi – kim bilir, bəlkə də dəstəbaşı – bayaq onları qapıda qarşılayan qıvrımsaç, ortaboy, pudralı qadın tamadalıq edirdi. Nəhayət, məclisdə söz demək növbəsi Göyüşə çatdı. Amma Tuqay ona macal vermədi, ayağa qalxdı, bic-bic güldü və Göyüşün şərəfinə sicilləmə bir sağlıq dedi, onu göyün yeddinci qatına qaldırdı, varından-halından danışdı, yaxşı şeirlər yazdığından, hətta bu şeirlərə mahnılar bəstələndiyindən söz açdı. Axırda Göyüşdən xahiş elədi ki, gözəllərin ruhunu oxşayan, məhəbbəti vəsf eləyən bir şeir oxusun.

Məclislərdə həmişə özünü gözləyən, «araq öz şüşəsindən başqa hamını sındırır» ifadəsini tez-tez işlədən Göyüş bu axşam, nədənsə, haqq-hesabı itirmişdi; arağı, konyakı, pivəni, şampanı bir-birinə qatmışdı. Şeyla – əsil adı Şəlalə imiş – yerini şirin salmaq üçün Göyüşə cani-dildən qulluq edirdi, gah qabağına çörək qoyur, gah boşqabındakı artıq-urtuğu yığışdırır, gah da qədəhinə içki süzürdü...

Bir yandan içkinin təsiri, bir yandan da yolun yorğunluğu Göyüşə yuxu gətirdi, yavaş-yavaş mürgüləməyə başladı. Bunu görən Şeyla onu yüngülcə dümsüklədi:

– Məni biabır eləmə, hələ indiyə kimi məclisdə yanımda kişi yatmayıb…

Göyüş gözünü yüngülcə açdı, qeyri-ixtiyari əl atıb pencəyinin döş cibində gizlətdiyi pulu yoxladı – yerində idi...

Tuqay ləngərlənə-ləngərlənə ayağa qalxıb dedi:

– Hə, indi söz Göyüş müəllimindi. Qulaq asın, görün, analar necə oğullar doğub. Əmioğlu, sənin buğa canına qurban olum, sağlıq dəbdəbəli, adına layiq olsun, məclisin ruhunu oxşasın, axırını şeirlə bitir, mümkünsə...

Əslində, Tuqay istəyirdi ki, Göyüş bir qədər ayılsın, özünə gəlsin. Amma, burası var idi ki, Göyüş nə qədər məst olsa da, ağlı üstündə idi. Üstəlik, sərbəstliyi artmış, utancaqlığından əsər-əlamət qalmamış, dili açılmışdı. Badəni götürüb ayağa qalxdı. Tuqayın şəhərdə tanınmağından, ad-san yiyəsi olmağından tutmuş ta bu xudmani məclisin yaraşığı olan qadınların vəsfinəcən əhatəli bir sağlıq dedi.

Tuqay həm Göyüşə, həm də qadınlara göz vura-vura əlavə elədi:

– Var də kişidə talant! Daşbulaq yetirir də. Keç şeirə, keç şeirə, müəllim...

Göyüş özünü də, Daşbulağı da, Daşbulağın göyünü də, göyünün günəşini də, buludunu da, ağac-uğacını da, ağac-uğacının mamırını da, bulağını da, bulağının suyunu da unutmuşdu. Indi onun yanğısını söndürmək üçün Daşbulağın barmaqkəsən, dişgöynədən suyu yox, bir stəkan sərin pivə və yaxud şampan lazım idi. Şeyla Göyüşün fikrini göydə oxudu, şampan dolu iri bokalı dərhal ona sarı uzatdı. Göyüş əlindəki badəni yerə qoyub, şampan bokalını aldı, ləzzətlə başına çəkdi və vaxtilə, daha doğrusu, tələbə ikən əzbərlədiyi bir şeirin bir bəndini təhrif edə-edə oxudu:

Ağ sinənin cüt məmələri
Dartınırlar üzü bəri.
Qıracaqlar düymələri,
Bərkit, a zalım balası.

Tuqay uğundu, əllərini zərblə bir-birinə vura-vura dedi:

– Əmioğlu, ayə, a qırışmal, Məşədi Ibad demişkən, deyəsən, arvadların ikisinə də birdən aşiq olmusan. Hövsələli ol, acgözlük eləmə, payına düşən böyrünü kəsdirib, artıqtamah baş yarar. Mavi gözlü, sarısaçlı Şeylanı özünlə apar yan otağa, yoxsa sonra mənə gün-dirrik verməz. Bilirəm, yorğunsan, yol gəlmisən, amma... başımı uca elə ha!..

A yordu, yordu, yordu,

Görək kim kimi yordu…

Tuqay Göyüşə sarı əyildi və yavaşdan dedi:

– Yatanda pulunu yastığının altına qoy. Düzdü, burada bir şey olmaz, amma bir dəfə, bir başqa yerdə, bir dostumuzun pulunu götürüb, yerinə kart qoymuşdular…

Göyüş birtəhər ayağa qalxdı, Şeylanın qoluna girdi, birgə Tuqay göstərən otağa keçdilər. Yataq hazır idi, təkcə yorğanı qaldırıb, altına girmək qalırdı. Göyüş fürsət tapıb pencəyinin döş cibindəki pulu çıxartdı və balıncın altına qoydu.

Üst paltarlarını əda ilə soyunan Şeyla Göyüşə nəvaziş göstərdi:

– Yaman şeysən ha, özündən deyən. Orda bülbül kimi dil-dil ötürdün, görək burda neyləyəcəksən...

Bu sözlər Göyüşü yerindən oynatdı, kişi-kişi gedib qapını içəridən kilidlədi, işığı söndürdü. Min ilin həsrətlisi kimi özünü tələm-tələsik yorğan-döşəyə – Şeylanın yanına saldı. Birdən bədəni əsim-əsim əsməyə başladı. Qəribədir, yad təmas isti yay günündə canına əcayib bir üşütmə gətirdi. Get-gedə beyni keyiyir, kələfin ucunu itirirdi. Sanki nə baş verdiyini ayırd edə bilmirdi. Hərdən Şeyla uzun, manikürlü dırnaqlarını bədəninə batıranda və yaxud iti, sağlam dişlərilə üzünü dişləyəndə diksinir, harada olduğunu xatırlayır, amma bir müddətdən sonra yenidən huşa gedirdi…

***

Göyüş səhərə yaxın yuxudan ayıldı. Ehmalca sivişib yataqdan çıxdı, paltarlarını geyindi, axşamdan yastığın altına qoyduğu pulu götürdü, hiss elədi ki, bir qədər nazikləşib, fikirləşdi

ki, yəqin, başının altında qalıb yaprıxıb. Bükülü pulu yenə pencəyinin döş cibinə qoyub səliqə ilə sancaqladı. Sonra Şeylanı yuxudan oyatdı...

Şeyla yuxudan ayılan kimi Göyüşün əlindən tutub özünə sarı çəkdi, elə paltarlı-paltarlı yanında uzatdı, üz-gözünü, boynunu öpüşlərə qərq elədi, hissləri coşdu, ehtizaza gəldi, sonra elə qəfil coşduğu kimi qəfil də sakitləşdi. Indi onun üzündə bir məmnunluq vardı – hiss olunurdu ki, gecədən razı qalıb…

Qonşu otaqdan Tuqayın bərk xorultusu gəlirdi.

Şeyla Göyüşə dedi:

– Əzizim, məni yola sal, gedim.

– Nə cür?

– Tuqay bilir…

Göyüş bir qədər duruxdu, sonra nə fikirləşdisə, tərəddüd içində Tuqay yatan otağa keçdi.

Tuqay yuxudan ayıldı, yataqdan çıxdı, gözlərini ovuşdura-ovuşdura əlindəki pulu Göyüşün cibinə basdı:

– Mən ölüm, incimə, axşam Sumqayıtda toyum var. Yatıb yuxumu almasam, məclisi yola verə bilmərəm. Şeylanın hesabını qoydum cibinə. Bir taksiyə mindir getsin. Toydan sonra boşam. Zəng elə, görüşək, görək başımızı harda düzəldirik…

Göyüş heç nə demədi. Əl-üzünü yumaq bəhanəsiylə hamama girdi. Tuqayın verdiyi pulu saydı. Az deyildi. Hər gecə bu qədər qazanırsa…

Şeyla qapının ağzında onu gözləyirdi. Baxışları toqquşdu. Axşam yanaqları lalə rəngində olan, kirpikləri ox kimi adamın ürəyinə batan, gözləri par-par parıldayan «xanım-xatından» əsər-əlamət qalmamışdı. Qəribədir ki, Şeylanın üzündəki bayaqkı məmnunluqdan da əsər-əlamət qalmamışdı. Göyüşə elə gəldi ki, Şeyla cəmi bir neçə saat ərzində ömrünün ən əzablı anlarını yaşamış, qocalıb əldən düşmüşdü. Zənnində yanıldığı üçün özünü qınadı: «Mən bu əntərə bakirə qız kimi baxırdım».

Birdən-birə yarıqaranlıq dəhlizdə gözlərinin önündə ucaboy, uzun saçlı, qumral gözlü ömür-gün yoldaşı Gözəl canlandı. Xəcalətindən on il bir yastığa baş qoyduğu həyat yoldaşının üzünə baxa bilmədi. Başı gicəlləndi. Alnında soyuq tər puçurlandı.

– Nə fikirləşirsən? Düş bir taksi saxla, – deyə Şeyla Göyüşü dümsüklədi.

Binadan birlikdə çıxdılar.

Yolda sarı rəngli «QAZ-24» markalı bir maşın dayanmışdı. Göyüş təxminən altmış-altmış beş yaşlarında olan sürücüyə «Sabahınız xeyir» – deyib, arxada – Şeyla ilə yanaşı əyləşdi.

Sürücü soruşdu:

– Hara gedəcəksiniz?

Göyüş bilmədi nə desin. Şeyla dilləndi:

– Əmican, Bayıla sür.

Sonra Şeyla əlini Göyüşün çiyninə qoyub lap yavaşdan pıçıldadı:

– Canım-gözüm, mənim haqqımı…

Göyüş kişilənə-kişilənə əlini cibinə saldı:

– Al…

Şeyla pulu alıb saydı və elə o an da sifəti dəyişdi, səsindəki həlimlikdən əsər-əlamət qalmadı:

– Tuqayın oğraş olduğunu bütün Bakı bilir. Əmisi oğlu ondan yaxşı «çuşka» olmayacaq ki!.. – Sonra sürücüyə əmr etdi:

– Saxla maşını! Saxla düşüm, gözüm bu biqeyrət köpəyoğlunu görməsin.

Sürücü maşını saxladı. Şeyla qapını aça-aça qışqırdı:

– Krısa!

Göyüş cınqırını da çıxarmadı. Matı-qutu qurudu. Handan-hana özünə gələndə Şeylanın başqa bir maşının arxa oturacağında əyləşdiyini gördü.

Göyüşün üz-gözünü tər basdı və güclə eşidiləcək bir səslə dedi:

– Əmi, zəhmət olmasa, «Sahil» bağına sür.

Sürücü sükanı sola burdu. Maşın «Sahil» bağına tərəf yön aldı.

«Azərbaycan» mehmanxanasına çatanda, Göyüş qəfildən:

– Saxla, saxla, elə burada düşəcəyəm, – dedi.

Sonra cibindən bir «şirvan» çıxarıb sürücüyə uzatdı. Elə bil, sürücünü ilan çaldı, üzü sərtləşdi, xırıltılı səslə dilləndi:

– Bu nədü, alə? Özünü dolamısan, yoxsa məni?

Göyüş başını bulaya-bulaya dayanacaqdan uzaqlaşdı. Sürücü ucadan qışqırdı:

– Krısa! – Və maşın ildırım sürətilə yerdən götürüldü…

Göyüş qarşısına çıxan ilk skamyada əyləşdi. Təzə rənglənmiş taxtaların üstünə şeh düşmüşdü. Kürəyində, şalvarının arxasında nəmlik hiss etdi. Bədəni yapışqan kimi oldu. Belə qərara gəldi ki, mağazalar açılana kimi elə buradaca gözləsin. Istər-istəməz, axşamkı əhvalatlar yaddaşında çözələnməyə başladı: «Sən də özünə kişi deyirsən! Fahişələrin üz-gözünü turşutması ilə iylənmiş suda çimdin, corablarını yudun, yaş-yaş ayağına geyindin. Amma canından çox sevdiyin arvadının yanına leş iyi verə-verə girirsən. Örüşdən evə dönəndə göz yaşı kimi dupduru çaylardan keçirsən. Gör nə qədər gönü qalınsan ki, bir dəfə qolunu çırmalayıb, üz-gözünün tərini silmirsən, ayaqlarının baş gicəlləndirən iyini rədd eləmirsən.

Göyüş birdən-birə diksindi. Gözləri məchul bir nöqtəyə zillənib qaldı. Yadına iki-üç il bundan qabaqkı bir əhvalat düşdü. O gün işdən yorğun-arğın gəlmişdi. Qızmar yay günü idi. Tamamilə unutmuşdu ki, bu gün Iyulun 25-dir, onların toy günü...

Gözəl özünə bəzək-düzək vermişdi, ocağın üstünə bir qazan su qoymuşdu və çəkinə-çəkinə, utana-utana demişdi:

– Deyəsən, bərk yorulmusan. Gəl baş-gözünü yu.

Göyüş o vaxt Gözəlin bu sözlərinə məhəl qoymamışdı. Tələm-tələsik bir az çörək yeyib, özünü elə tərli-tərli yatağa salmışdı və sonradan yadına düşmüşdü ki, həmin gün onların toylarının ildönümü imiş. Onda Gözəl çox pərt olmuşdu, qəlbən incimişdi, ancaq bunu büruzə verməmişdi. Bu hadisə Göyüşün yadına düşəndə həmişə utanırdı, Gözəlin gözlərinə dik baxa bilmirdi.

Göyüş xatirələrdən ayrılıb, belə qərara gəldi ki, mütləq çimsin və düşündü ki, nə lilli Kür suyu, nə cod şollar suyu, nə ucu-bucağı görünməyən Xəzərin duzlu suyu o vannadakı iylənmiş suyun üfunətini onun canından çıxara bilməz. Həm də, Göyüş əvvəlki Göyüş olsaydı, kəndin bircə yaz yağışı ilə təmizə çıxardı, şehdərən otlarının üstündə ayaqyalın beşcə addım

atsaydı, paklaşardı. Indi isə... yox, onun mənəviyyatı da çirklənmişdi, arvadına – uşaqlarının anasına xəyanət eləmişdi…

Göyüşü, elə bil, dörd tərəfdən məngənəyə salıb sıxırdılar. Havası çatmırdı, boğulurdu. Fikirləşirdi ki, belə yaşamaqdansa, ölmək yaxşıdı. Ancaq ölmək üçün də gərək mütləq pak olasan, təmiz olasan…

Gün xeyli qalxmışdı. «Sahil» bağında idman paltarında tək-tük adam gözə dəyirdi. Göyüş, çiyinlərində dünyanın ən ağır yükünü qaldırırmış kimi, yerindən ləng-ləng qalxdı.

***

Univermaqda qələbəlik idi – iynə atsan, yerə düşməzdi. Burada nələr yox idi? Cürbəcür kostyumlar, üzüklər, sırğalar, boyunbağılar, hətta böyüklər və balacalar üçün velosipedlər… Nədən başlasın? Gəzə-gəzə gəlib bir qadın kostyumunun yanında dayandı, baxdı və qəribə də olsa, elə bil ki, arvadı – Gözəl kostyumun içində canlandı. Ilahi, Gözəl necə də cazibədar, necə də qəşəng idi! Lap toy günlərindəki kimi! Elə məsum-məsum baxırdı ki... Kirpiklərini qırpmadan, zəndlə, sınayıcı nəzərlərlə…

Birdən Göyüşə elə gəldi ki, Gözəl dünən axşam bu böyük, bu təlatümlü, bu sirli-soraqlı şəhərdə baş verənləri öz gözləri ilə görüb. Dözmədi, üzünü yana çevirdi. Yox, nə olur-olsun, bu kostyumu alacaq. Satıcı qızı səslədi. Kostyumun qiymətini soruşdu və pencəyinin döş cibindəki pulu çıxardanda heyrətindən yerindəcə donub qaldı – kağızın arasında pul əvəzinə bir dəstə kart var idi…

Göyüş nə edəcəyini bilmədi. Ah, Şeyla… Bəlkə o biri qadın?.. Bəlkə Tuqay?.. Bəlkə üçü bir yerdə?.. Kim bilir… Məsəl var, deyir, mal bir yerə gedər, güman min yerə… Bir də ki, indi heç kimə heç nə sübut etmək olmazdı…

Göyüş univermaqdan çıxanda bərk dilxor idi; başa düşürdü ki, onu aldadıblar, tələyə salıblar, evdə böyük qanqaralığı olacaq, Gözəli, uşaqları sakitləşdirməkdə çətinlik çəkəcək, amma, bununla belə, tamam sarsılmamışdı, bilirdi ki, bir işdi – başına gəlib, bura bir də qayıdacaq və daha çoxlu pul ilə, hər şey də alacaq – kostyum, üzük, sırğa, boyunbağı, ətəyi qırçınlı qırmızı don, zəngli, faralı velosiped… Təki təmizlənsin, təki pak olsun...

Çar-naçar üz tutdu vağzala sarı. Balaca köşkdəki maqnitafonda yenə meyxana oxudurdular:

Salam, alə, kəndçi bala,
Kənddə ineylər necədü?..

Göyüş qeyri-ixtiyari gülümsündü:

– Yakçıdu, başın haqqı, hər biri ildə on iki bala verir…

***

Təsadüfə bax: yenə həmin sürücü, yenə həmin avtobus! Göyüş fikirləşdi ki, axşama evə çatsa, yaxşıdı, yenə yolda neçə dəfə xarab olacaq…

Göyüşdən qabaqda biri arıq, uzun, biri kök, gödək – iki cavan oğlan əyləşmişdi, nə haqdasa bərk mübahisə edirdilər. Arıq, uzun oğlan başını bulaya-bulaya ötkəm səslə dedi:

– Yox, konstitusiyaya hökmən dəyişikliklər və əlavələr etmək lazımdır.

Göyüş özünü saxlaya bilməyib dilləndi:

– Konstitusiyaya dəyişikliklər və əlavələr çox vaxt yaxşı nəticə vermir… Xüsusilə ailə məsələlərində...

Oğlanlar bir-birinin üzünə baxdılar, hiss olunurdu ki, yad, tanımadıqları adamın onların söhbətinə müdaxilə etməsi xoşlarına gəlməyib. Handan-hana arıq, uzun oğlan dilləndi:

– Biz ayrı şeydən danışırıq.

Göyüş dinmədi. Görünür, o da yersiz hərəkət etdiyini başa düşmüşdü.

Ağsunun dolamalarında maşın yenə xarab oldu. Sərnişinlər gileylənməyə başladılar. Bir azdan başını itirmiş sürücü də onlara qoşuldu:

– Eh, qocalıq bir şey deyilmiş. Kaş bu avtobusun da, mənim də laçın vaxtlarım olaydı…

Göyüş gülümsündü.

Bir az keçməmiş avtobus yola düşdü...

***

Kənddən xeyli aralıda – sıldırım qayalardan süzülən gur şəlalənin yanında Göyüş avtobusdan düşdü. Ətrafa baxdı. Heç kim yox idi. Paltarlarını soyunub yaxınlıqdakı armud ağacının budağından asdı və bumbuz suyun altına girdi. Hiss elədi ki, soyuq sümüyünə işləyir, dözdü, fikirləşdi ki, belə yaxşıdır, qoy, bir şəlalə o biri Şəlalənin onun canına hopmuş (Şeylanın əsl adı Şəlalə idi) kirini-pasını yusun, ruhu-qanı, iliyi təmizlənsin, arvadının, uşaqlarının yanına pak getsin, o ki qaldı pul məsələsinə, onu yenə qazanacaqdı…

Qaş qaralanda suyun altından çıxdı, paltarlarını geyindi, birdən köksündə bir ağırlıq hiss elədi, əlini döş cibinə saldı, kağıza bükülü kartları çıxardı və ətrafa səpələdi, sancaqları isə, Gözəlin dediyi kimi, atmadı, cibinə qoydu və heç nə olmayıbmış kimi, kəndə sarı addımladı…

2002

«COĞRAFIYA ÇUBUĞU»

Allah sənə rəhmət eləsin, Cəfər Cabbarlı!

Milyon kilometrlərlə uzaqda – üfüqdə günəş yavaş-yavaş qımıldanırdı. Dan yerinin sökülməsi, lalə kimi qıpqırmızı rəngə boyanması, Kürəkçi kəndinin məktəbinin müəllimləri üçün bir işarə idi – dərhal yuxudan ayılırdılar, – yuyunub, tez-tələsik nahar eləyib, geyinib-kecinib məktəbə yollanırdılar. Yuxudan bir az gec oyananlar özləri ilə götürdükləri yavan çörəyi elə yol gedə-gedə utanıb-çəkinmədən yeməyə başlayırdılar. Əgər, işdi-şayət, kimsə dərsə gecikirdisə, yaxud icazəsiz-filansız bircə saat dərs buraxırdısa, həmin gün məktəbin direktoru Bəhmən müəllim yaşını unudaraq cin atına minir, əlindəki «coğrafiya çubuğu»nu (bu çubuq xəritədə ölkələri, şəhərləri, okeanları, dənizləri göstərmək üçün istifadə olunurdu və deyilənə görə, həmin bu «coğrafiya çubuğu», hətta, adı xəritəyə düşməyən Kürəkçi kəndini, bu kəndin məhəllələrini, məktəbini, idarəsini də göstərə bilirdi) oynada-oynada şirə-pələngə dönür, əsim-əsim əsər, hirsindən bığlarını çeynəyir, gah dəhlizə çıxır, gah məktəbin səliqə-sahmanlı həyətində pəhləvan kimi var-gəl edir, heç kimə məhəl qoymadan, səbrini basmadan «günahkar»ın dalınca deyinirdi, əlbəttə, məşhur «nizam-intizama partbiletimlə cavabdehəm» kəlamını işlədə-işlədə.

Bəhmən müəllimin bəzi hərəkətləri, iş üslubu «Almaz» pyesindəki Mirzə Səməndəri xatırladırdı. Amma, bəzi məsələlərdə Bəhmən müəllim Mirzə Səməndəri çaya susuz aparıb, çaydan susuz gətirərdi. Bir də burası vardı ki, Bəhmən müəllimin «nizam-intizam» xətrinə əsib-coşmağı təbii və cani-dildən olduğundan, ovqatını əməlli-başlı korlayırdı: həmin gün o, qarşısına çıxan, gözünə görünən hər kəsi zəhərləyib təbdən çıxarırdı.

Qəribə idi ki, Bəhmən müəllim əsib-coşanda hirsini ən çox süpürgəçi Xanım xalanın üstünə tökürdü. Otuzuncu illərdə üçüncü sinfi bitirmiş bu zavallı dul qadın da hövsələsini birtəhər basdı, Bəhmən müəllimə cavab qaytarmırdı. Amma, iş bununla bitmirdi, əksinə, bir az da qəlizləşirdi. Odur ki, iş bu yerə gəlib çatanda, süpürgəçi Xanım xala gözə görünmürdü, bir yer tapıb, təhlükə tam sovuşanacan orada gizlənir. Və hər dəfə bu cür

dava-dalaş düşəndə, «ələkçinin qıl verəni» – məktəbdə hamı təlim-tərbiyə işləri üzrə direktor müavini Fəzail müəllimi belə adlandırırdı, amma, insafa qalanda, bu bədbəxt oğlu bədbəxtin ara qızışdırmaqla işi yox idi, əksinə, o həmişə «biri od olanda, biri su olar» prinsipinə üstünlük verirdi – özünü dərhal direktorun, yəni Bəhmən müəllimin yanına yetirirdi, onu bal kimi şirin sözlərlə sakitləşdirməyə çalışırdı: «A kişi, filan olmuş dərsə gecikib, cəhənnəmə gecikib, gora gecikib, bir dəfə töhmət verərik, bir dəfə də haqqında maarif şöbəsinin müdiri yoldaş Xəzail Həsənəliyevə raport yazarıq, səhvini düzəltməzsə, partiya məsələsini qoyarıq, ciddi şəkildə cəzalandırarıq, bu yaşınızda bir az da öz canınızın qeydinə qalın».

Beləcə, təlim-tərbiyə işləri üzrə direktor müavini Fəzail müəllim alovu qızışmağa qoymur, Bəhmən müəllimin köpünü yatırırdı: «Sizin hələ nə yaşınız var? Altmış doqquz. Bütün rayon 70 illik yubileyinizi fəxrlə qeyd etməyə hazırlaşır. Qırx doqquz il maarif cəbhəsində külüng çalmısınız. Geri qalmış ucqar bir kənd məktəbini ayağa qaldırmısınız, orden-medal almısınız. Kişinin oğlu, xalq görmür bəyəm, dinclik nə olduğunu bilmirsiniz – bir ayağınız məktəbdə, bir ayağınız çöldə – əkin-biçində. Niyə yaşınızın bu müdrik çağında özünüzü üzürsünüz? Axı, siz təcrübəli pedaqoq, işıqlı, dəyərli bir ziyalı kimi hələ millətimizə lazımsınız. Bu hala düşməyinizlə (əlini ona tərəf uzadaraq) sağlamlığınızı itirir, səhhətinizi pozursunuz...».

Belə hallarda Bəhmən müəllim özünü elə aparırdı ki, guya, etika xətrinə, tabeçiliyində olan bu şəxsin sözünü kəsmir, amma, onun sığallı, bər-bəzəkli, güllü-çiçəkli, ballı-pətəkli cümlələrini beynində dolandırır, o cümlələrin təsiri ilə qoltuqlarının altı yaşına uyuşmayan bir tərzdə şişirdi: «Sözlərə bax e... «Maarif cəbhəsində külüng çalmısınız», «Siz hələ millətimizə lazımsınız». Bəh-bəh! Halal olsun anandan əmdiyin süd, ay Fəzail müəllim! Bir məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini işləmək sənə azdır, bütün respublikada təbliğat-təşviqat işlərinə rəhbərlik etməyi bacarardın».

Ancaq Bəhmən müəllim Fəzail müəllimin nə bu natiqliyi, canıyananlığı, nə də bər-bəzəkli cümlələri barədə onun özünə bircə kəlmə də xoş söz demirdi. Sadəcə, o yağlı sözləri ürəyində təkrar edirdi. Ona elə gəlirdi ki, əgər o, məmnunluğunu bir balaca büruzə versə, özündən vəzifəcə kiçik olan adamı tərifləsə, üzündəki zəhmdən əsər-əlamət qalmaz, nüfuzdan düşər.

Amma Fəzail müəllimin çox vaxt elə beləcə, dayanıb-durmadan, nəfəs dərmədən dediyi təriflər, həqiqətən də, Bəhmən müəllimin canına yağ kimi yayılırdı. Nə olsun ki, üzə vurmurdu. Hər gün, hər saat bu yağlı tərifləri eşitmək istəyirdi.

Amma bir dəfə Fəzail müəllim qəfildən belə bir söz dedi: «Kürəkçi kəndinin gəncləri kamal attestatlarında məhz sizin imzanız olduğuna görə fəxr edirlər». Bu söz onu səksəndirdi, hələ bir az qorxutdu da. Bəhmən müəllimin dalağı sancdı, ürəyinə damdı ki, çoxbilmişlikdə ad çıxarmış Fəzail müəllim zarafata salıb, nəyəsə eyham vurur. Axı, kor-kor, gör-gör, üç-dörd ildir ki, Kürəkçi kəndinin məktəbinin məzunlarından biri də ali məktəbə qəbul olunmamışdı. Kamil müəllim demişkən – Allahın Bədən Tərbiyəsi Institutundan da uşaqları geri qaytarırdılar. Və bütün bunlar kənddə bəzi ağzıgöyçəklərin yorulmadan, həvəslə saqqız kimi çeynədikləri söz-söhbətlərə səbəb olurdu: «Balam, Kürəkçi kəndinin məktəbinin quruca adı var. Qonşu Çayzəmi kəndinin məktəbinin 17 məzunundan, nə az-nə çox, on biri (bir futbol komandası qədər) instituta qəbul olunub, hələ qoruqçu Xalıqverdinin ayağı şikəst oğlu xaricdə hansısa universitetin tətbiqi-riyaziyyat fakültəsinə girib. Kəsilən, yaxud müsabiqədən keçməyən çayzəmili uşaqlar texnikum-zad bəyənmirlər, deyirlər ki, gələn il bir də ali məktəbə sənəd verəcəklər. Bizimkilərsə, Biləcəridən o yana keçə bilmirlər. Quru «stroqi rejim» kimə lazımdır?» Hətta bir dəfə anbardar Salman Bəhmən müəllimin üzünə qırmızı-qırmızı demişdi: «Ay müəllim, ot istədin verdim, mal-qara üçün saman, jmıx istədin, əsirgəmədim, dedim, müəllim adamsan, niyə gedib başqasına ağız açasan. Sonra uşağın üç-dörd fəndən qiymətini düzəltmək üçün yuxarılar üçün eyhamla xərclik istədin, ay pir olmuş, işarəni anladım. Fəxri fərmanın pulunu əlüstü ovcuna basdım. Başımı piyləyib, məni aldatdın, dedin, bağ belə-bostan belə, pedinstitutun qapıları qızının üzünə açıqdı. Ləngimə, get sənədlərini ver. Bu da axırı, indi neyləyirəm o verdiyin yalançı, saxta «beş»ləri? Niyə məni vaxtında ayıltmadın? Qır-saqqız olub, institutda fizikadan qəbul imtahanı götürən o çopur müəllimin yaxasından yapışdım. Axırda mənə nə desə yaxşıdı? Bu uşağın zehni var, amma, orta məktəbdə heç nə öyrətməyiblər. Attestatına «beş» doldurmaqdansa, başına teoremdən-zaddan dolduraydılar».

Bütün bunları ağlından keçirən Bəhmən müəllim yaddaşına ilişən o tikanlı kəlmələri – «kamal attestatı», «sənin

imzan var» sözlərini «həzm» eləməkdə çətinlik çəkirdi. Yaxşı ki, belə dar məqamda illərdən bəri topladığı zəngin təcrübə köməyinə gəlirdi – o özünü eşitməzliyə vurur, axıra qədər cınqırını çıxarmır, təmkinini pozmur, ya da söhbətin axarını ustalıqla istədiyi səmtə yönəldirdi.

Amma bir dəfə... bir dəfə bu sözləri eşidəndə gözlərini azacıq qıyaraq, mənalı-mənalı Fəzail müəllimin üzünə baxdı. Bu baxışlar son vaxtlar kamal attestatlarında kamallığın qalmadığına incə bir eyham idi və sanki hədələyici tərzdə deyirdi: «Açaram sandığı, tökərəm pambığı». Axı, Kürəkçi kəndinin məktəbində tədris prosesinin yaxşılaşdırılmasına birbaşa cavabdeh hamının təlim-tərbiyə işləri üzrə direktor müavini kimi tanıdığı Fəzail müəllim idi. Bir dəfə Bəhmən müəllim bunu valideynlərin ümumi yığıncağında da demişdi, yəni, əsas məsuliyyəti, dolayı yolla da olsa, öz boynundan atmışdı.

***

... Bəhmən müəllim bu gün də öz işinə adət etdiyi kimi başladı. Əvvəlcə iki qadın müəllimənin hərcayı qeybətinə xəlvəti qulaq asdı: nə Narınc müəllimənin «dördkünc mağaza»da satılan fransız çantaları barədə dediyi səfsəfələr, nə də Könül müəllimənin «Aaz, dünyadan xəbərimiz yoxdu, bu məktəb bizi qara günə qoyub, işimiz-gücümüz səhər naxıra, axşam axura» sözləri diqqətini cəlb elədi. Bir qədər aralıda, əllərində jurnal tutmuş iki müəllimin – Qüdrətlə Familin nə danışdıqlarını dinləmək üçün bir qədər irəli getdi.

Qüdrət müəllim üzünü Famil müəllimə tutub dedi:

– Eşitmişəm, dünən sinifə xoruz buraxmısan?

Famil müəllim güldü:

– Ə, mən yox e, uşaqlar... Məzə üçün... Yekə xoruz idi... Heyif ki, pəncərədən qaçdı, tutsaydım, səni də döşəmə plova qonaq edərdim...

Qüdrət müəllimlə Famil müəllim direktorun lap yaxınlıqda dayanıb onlara qulaq asdığını bilsələr də, söhbətlərini kəsmədilər, hələ bir az da ucadan danışmağa başladılar, arada lap şaqqanaq çəkib güldülər də...

Əlbəttə, Qüdrət müəllimlə Famil müəllimin bu saymamazlığı Bəhmən müəllimin xoşuna gəlmədi, ürəyində özünü danladı: «Görünür, bunların ipini çox buraxmışam...».

Direktorun kabineti ilə üzbəüzdəki otaqda doqquzuncular hay-həşir qopara-qopara dünənki futbol oyunundan danışırdılar.

– Hə, gördün Cavadov neylədi?

– Neylədi?

– Üç futbolçunu birdən aldadıb keçdi...

– Nə olsun? Topu ki, qapıya vura bilmədi...

– Yazığı son anda yıxdılar də...

– Bah!..

– Nə bah?.. Görmədin? Hakim də ədalətsizlik etdi: onlara on bir metrlik cərimə zərbəsi vermək əvəzinə, bizimkiləri cəzalandırdı. Açıq-aşkar hiss olunurdu ki, satılıb.

Birdən, elə bil, qurbağa gölünə daş atıldı. Hamı susdu. Görünür, şagirdlərdən hansısa ehtiyatlı tərpənib, fəlakətin yaxınlaşdığını – Bəhmən müəllimin «coğrafiya çubuğu»nu havada fırlatdığını hiss etmiş, yoldaşlarına işarə vermiş, bununla da, təhlükənin sovuşmasına nail olmuşdu...

Bəhmən müəllim səs-küyün kəsildiyini görüb dayandı, saatına baxdı, sonra yüz ilin yorğunu kimi asta addımlarla «Müəllimlər otağı»na tərəf getdi.

Zəngin çalınmasına hələ bir neçə dəqiqə qalırdı.

Bəhmən müəllim açıq qapıdan içəriyə nəzər saldı: «Kim gəlib, kim gəlməyib? Narınc müəllimə burda, Könül müəllimə burda, Ədilə müəllimə burda, Kamil müəllim burda, Famil müəllim burda...».

Bəhmən müəllimin pıçıltı ilə öz-özünə danışdığını hamı eşidirdi. Məktəbə təzəcə gəlmiş gənc, yaraşıqlı idman müəlliminin birdən «Nikolayın evini pıçhapıç yıxdı» – deməsi ilə otaqdakıların uğunub getməsi bir oldu. Bəhmən müəllim isə, bu mənzərəyə ürəyində belə qiymət verdi: «Ay yazıqlar, evdə bişməyib, qonşudan gəlməyib, nə biləsiniz rəhbərlik nə deməkdir? Nizam-intizama, dərsə davamiyyət məsələsinə partbiletimlə cavabdeham!».

Bir azdan zəngin səsi bütün Kürəkçi kəndini bürüdü. Qəribədir, bu səsdə dərsə çağırışla yanaşı, bir zəhm, xof, qorxu, nigarançılıq hiss olunurdu. Bunun çox qəribə, həm də

hafizələrdə dərin kök salmış bir tarixçəsi vardı. Deyilənə görə Böyük Vətən müharibəsi başlayandan bir neçə gün sonra hərbi komissar Rayon Partiya Komitəsinin katibi ilə məktəbə gəlir, yay tətili olmasına baxmayaraq, Kürəkçi kəndinin məktəbinin o vaxtkı direktorunu zəngi çalmağa, bütün camaatını yuxarı sinif şagirdləri ilə bir yerdə həyətə yığmağa məcbur edir. O zaman Kürəkçi kəndində elektrik olmadığından, məktəb zəngini – ucadan səs çıxarsın deyə – dəmir çubuqla bərkdən döyürdülər.

Beləcə, o gün dəmir çubuqla döyülən o məktəb zəngi ürəklərə bir qorxu, bir xof salmışdı və bu qorxu, bu xof uzun müddətdən bəri adamların qəlbində qalmışdı. Çünki o zəng səsindən sonra Kürəkçi kəndindən davaya gedənlərin heç biri qayıtmamışdı...

Kürəkçi kəndinin camaatı rayonun ağalarının katiblə hərbi komissarın yeniyetmələri yığıb cəbhəyə həmin günü heç vaxt unutmamışdı. O zaman Kürəkçi kəndinin məktəbinin direktoru Bəhmən müəllimin atası Həsən müəllim idi. O qorxu, o zəhm elə hamıdan çox Həsən müəllimin iliyinə, qanına işləmişdi. Bəlkə elə buna görə də o ehtiyatlı tərpənmiş, on doqquz yaşlı oğluna – Bəhmənə xəstəlik kağızı düzəltmiş, onu ümumi səfərbərliyin caynağından qurtarmışdı. Yeddinci sinfi «üç»lə bitirən Bəhmən iki il çöl işlərində çalışmış, sonra atasının əmri ilə məktəbdə təsərrüfat işləri üzrə müdir vəzifəsinə götürülmüşdü.

Sonra Bəhmən gecə məktəbində oxumuş və orta təhsil barədə kamal attestatı almışdı. Amma sonra, nə illah eləmişdisə, ali məktəbə qəbul ola bilməmişdi.

Ancaq sən demə, bəxti varmış... Bir gün Bakının Malakan bağındakı çayxanada təsadüfən adlı-sanlı bir coğrafiyaşünas alimlə tanış olmuş, onu dədə-baba yurduna – Kürəkçiyə qonaq dəvət etmişdi. Sonradan məhz bu məşhur alim Bəhmənin həyat yolunda yaşıl işıq yandırmış, hansı üsullasa onu pedaqoji institutun coğrafiya fakültəsinə düzəltmiş və o, zülmlə də olsa, buranı qiyabi başa vurmuşdu. Düzdür, o, üçüncü kursda əsas ixtisas fənnindən yamanca ilişmişdi, hətta bu hadisə, az qala, onun institutdan qovulması ilə nəticələnəcəkdi, amma sən demə, anası namaz üstündə imiş...

Semestr imtahanıydı. Bəhmən bilet çəkib yerində oturmuşdu. Həmişəki kimi yenə də tapşırıldığı üçün arxayın idi. Biletdəki sualların ətrafında fikirləşməkdənsə, qarşısındakı

kağızda şəkil çəkir, növbəsinin çatmasını gözləyirdi. Birdən imtahan otağının qapısı açıldı, prorektor iki nəfərlə içəri girdi və:

– Tələbələrin hazırlığı necədir, Qəhrəman Bağıroviç? – deyə fənn müəllimindən soruşdu.

Qəhrəman müəllim ayağa qalxdı, canfəşanlıqla dil-ağız elədi, sonra prorektorun onlarla dərs kitabının müəllifi olduğunu, təkcə Azərbaycanda yox, bütün SSRI-də nüfuzlu coğrafiyaşünas kimi tanındığını tələbələrin nəzərinə çatdırdı.

Tərslikdən, bu vaxt prorektor Bəhmənə sarı addımladı, gözünü onun üzünə zillədi və qəfildən, özünü itirmiş, dili-ağzı qurumuş Qəhrəman müəllimdən məhz bu boylu-buxunlu oğlanın biletindəki suallara cavab verməsini xahiş etdi. Çox gərgin bir vəziyyət yarandı. Elə bil, Bəhməni ilan çaldı, özünü itirdi, ətli sifətini puçur-puçur tər basdı. Nəhayət, canını dişinə tutub qabağa çıxdı. Amma özünü itirdiyindən, çaşdığından nəinki cavab vermək, heç biletə düşmüş sualları da düz-əməlli oxuya bilmək iqtidarında deyildi. Bəhməndən kəlbətinlə də söz qoparmağın mümkün olmadığını görən prorektor təəccübləndi, imtahan biletini alıb, dörd qatladı və narazı halda Qəhrəman müəllimə qaytardı.

Qəhrəman müəllimin pərt olduğunu görən prorektor adi, köməkçi suallarla Bəhməni vəziyyətdən çıxarmaq istədi:

– Deyə bilərsənmi, Afrika qitəsi ilə Ərəbistan yarımadasının arasındakı dənizin adı nədir və suyu niyə qırmızıdır?

Əslində, prorektor «dənizin suyu niyə qırmızıdır?» deməklə elə suala da cavab vermişdi. Bəhmənin isə, bunu anlamağa fəhmi çatmamışdı.

Axırda prorektor əlacsız qalıb boz üzünü göstərmişdi:

– Sənin coğrafiya fakültəsinin üçüncü kursuna qədər gəlib çıxmağın cinayətdir.

Və həmin gün aldığı «qeyri-kafi» Bəhməni – Kürəkçi kəndinin məktəbinin gələcək coğrafiya müəllimini düz il yarım Bakının küçələrində əsir-yesir elədi. Xasiyyətcə qılıqlı, hamının ürəyinə yol tapa bilən Bəhmən bu «iki»ni düzəltmək üçün ilan dili çıxarsa da, istəyinə nail ola bilmirdi. Kimə ağız açırdısa: «O kişi bilər, dədəmə od vurar» – cavabını eşidirdi. Beləliklə, Bəhmən kursda qaldı. Yalnız tələbə yoldaşı Tərlan bu görkəmli alimin əlli iki yaşında qəflətən infarktdan vəfat etdiyini qəzetdə çap

olunmuş nekroloqdan oxuyanda Bəhmən dərindən nəfəs aldı, onun üzü işıqlandı, çiçəyi çırtladı. Mərhumun dalınca o ki var, lənət yağdırdı...

Beləcə, onun yolunda yenə yaşıl işıq yandı və o, ali məktəbi çox rahatlıqla başa vurmağa müvəffəq oldu. Sonra da atasından vərəsə kimi aldığı bu vəzifə... Qəribədir, elə bil, ağır müharibə illərində Həsən müəllimin qanına-iliyinə işləmiş o qorxu,

o vahimə, o xof eynilə Bəhmən müəllimin də iliyinə, qanına hopmuşdu. Bəlkə elə buna görə də Kürəkçi kəndinin camaatı məktəb zənginin səsindəki o qorxunu, o xofu heç cür unuda bilmirdi.

***

– Salam. Gəlmək olar?

– Buyurun!

Xatirə müəllimə direktorun kiçik və səliqəli kabinetinə daxil oldu.

Bəhmən müəllim əvvəl duruxdu, sonra beş-on gün bundan əvvəl rayon maarif şöbəsində bu diribaş qızla rastlaşdığını, onun təyinatla Kürəkçi kənd məktəbinə dil və ədəbiyyat müəllimi göndərildiyini xatırladı:

– Hə, qızım, xoş gəlmisiniz, əyləşin. Indi böyük tənəffüs olacaq, elə «Müəllimlər otağı»nda əyləşin, sizi kollektivə təqdim edəcəyəm.

***

«Müəllimlər otağı»nın qapısı ağzında qızğın mübahisə gedirdi. Narınc müəllimə üzünü Kamil müəllimə tutub, qeyzlə dedi:

– Kamil müəllim, Allaha inananlara idealist demirlər?

Kamil müəllim pörtdü və sözləri qıra-qıra yavaşdan dedi:

– Bağışlayın, müəllimə, mənim tədris etdiyim fənnin bu məsələ ilə heç bir əlaqəsi yoxdur. Belə incə mətləbləri Həmkarlar Ittifaqının sədri Ədilə müəllimədən soruşsanız, daha doğru-dürüst cavab ala bilərsiniz.

Ədilə müəllimə nə qədər soyuqqanlı olmağa çalışsa da, özünü saxlaya bilmədi:

– Kamil müəllim, düz danışmırsınız. Görünür, sizin marksizm-leninizmdən xəbəriniz yoxdur. Narınc müəllimənin bu sualına hər bir sovet vətəndaşı – istəyir tarix müəllimi olsun, istəyir Həmkarlar Ittifaqının sədri – birmənalı şəkildə cavab verməlidir. Bəli, Allaha inananlar idealistdirlər, biz isə, hamılıqla ateistik...

Kamil müəllim ah çəkdi:

– Ədilə müəllimə, istəyirsiniz, məni Həmkarlar Ittifaqından çıxarın, vallah-billah, şəxsən mən özümü ateist saymıram.

Zakir müəllim tez özünü ortaya atdı və Kamil müəllimi əqrəb kimi sancdı:

– Hə, arxivlər şahı, qəbiristanlıqlarda təzə nə var, nə yox, e...

Kamil müəllim çönüb onun üzünə baxdı və tam ciddi şəkildə:

– Zakir müəllim, qəbiristanlıqlarda dirilib-eləyən yoxdur – sakitlikdir. Ancaq bugünkü qəzetdə yazıblar ki, kağıza qənaət etmək üçün gərək bütün insanlar adlarının önündəki birinci hecanı atsınlar. Bir də yazıblar ki, kənd yerində yüksək sürətlə maşın sürməyə xüsusi həvəsi olan gənc sürücüləri yığıb Afrikaya yarışa göndərirlər. Təkcə Kürəkçi kəndinin deyil, bütün respublikamızın ümidi sənə qalıb, görək oradan necə qayıdacaqsan...

Bəhmən müəllimin tərs-tərs baxması, yanındakı qızın – Xatirə müəllimənin ürkək-ürkək sağına-soluna boylanması, Zakir müəllimin sözünü ağzında qoydu. O, Kamil müəllimi nifrətlə süzüb, üzünü yana çevirdi.

Bəhmən müəllim mülayim tərzdə dedi:

– Hə, tanış olun. Təzə ədəbiyyat müəllimimiz – Xatirə xanım...

***

Xatirə müəllimə ilk dəfə idi ki, sinif otağına girirdi. Üzündə qəribə bir narahatlıq var idi, nədənsə çəkinirdi. Maraqlıdır ki, Bəhmən müəllim də həyəcanlı görünürdü. Bəlkə,

gənc müəllimənin əhval-ruhiyyəsi ona da sirayət etmişdi? Əsla yox! Düzü bu idi ki, Bəhmən müəllimin elə ilk baxışdan Xatirə müəllimədən gözü su içməmişdi, amma, buna baxmayaraq, onu həm müəllimlərə, həm də şagirdlərə xüsusi hörmət-izzətlə təqdim etdi.

Bəhmən müəllim danışdıqca, Xatirə müəllimə uşaqları bir-bir nəzərdən keçirir, eyni zamanda, bayaq direktorun dəhlizdə dediyi sözləri beynində götür-qoy edirdi: «Qızım, həm bir ağsaqqal, həm də bir direktor kimi deyirəm: nizam-intizam, dərsə davamiyyət əsas məsələdir. Çünki plan var, yoxlama var, hesabat var. Bir də, yadında saxla, ilk dərsdən çox şey asılıdır. Necə başlasan, axıracan da elə gedəcək».

Ilk dərs qalmaqalsız ötüşmədi. Uşaqlar şuluqluq salmağa başladılar. Gənc müəllimə də özünəməxsus tərzdə tədbir gördü...

Qəribədir ki, direktor sinif otağından çıxan kimi Xatirə müəllimənin həyəcanı keçdi, özünü lap sərbəst hiss elədi. Indi o, külli-ixtiyar sahibi idi – tanışlıq məqsədilə jurnaldan şagirdlərin adlarını oxuyur, hörmət əlaməti olaraq ayağa qalxan oğlan və qızları gözucu süzür, sonra başıyla «əyləş» işarəsi verirdi.

Xatirə müəllimə növbəti şagirdin adını oxudu:

– Vəsilə!

Sinifdə hay-küy qopdu. Şagirdlər gülüşdülər.

Xatirə müəllimə bərk əsəbiləşdi:

– Nəyə gülürsünüz?

Birinci partada əyləşən qarabəniz qız ayağa qalxdı:

Müəllimə, Vəsilə çoxdandır ki, dərsə gəlmir...

Xatirə müəllimə təəccüblə soruşdu:

– Niyə?..

– Ögey anası qoymur... işlədir... evdə... çöldə... özü də səhərdən axşama kimi...

– Bəs siz – sinif yoldaşları ona heç baş çəkirsiniz?

– Bizi görəndə qaçıb gizlənir... utanır...

Xatirə müəllimə fikirləşdi ki, Vəsilənin valideynləri ilə hökmən görüşüb söhbət etsin. Sonra növbəti şagirdin adını oxudu:

– Fərəc!

Fərəc ayağa qalxmadı və əsnəyə-əsnəyə dedi:

– Mən...

Onun bu hərəkəti gənc müəllimənin diqqətindən yayınmadı:

– Cavab verəndə ayağa qalxarlar.

Fərəc köntöy cavab verdi:

– Müəllimə, mənə belə xoşdur.

Xatirə müəllimə yaxşı bilirdi ki, şagird qarşısında geri çəkilmək – məğlub olmaq deməkdir. Odur ki, amiranə tərzdə dedi:

– Qalx, sinfi tərk et! Valideyninə də de ki, məktəbə gəlsin!

Şagirdlərin qəribə hərəkətləri, bir-birinə işarə etmələri, xışın-xışın gülmələri Xatirə müəlliməni şübhəyə saldı. Astadan dilləndi:

– Axı, deyin görüm, sizə nə olub?

Heç kim dillənmədi. Nəhayət, birinci partada əyləşən Gülgəz özündə cəsarət tapıb ayağa qalxdı və dedi:

– Fərəcin valideyni Fəzail müəllimdir.

– Təlim-tərbiyə işləri üzrə direktor müavini?

– Bəli.

Xatirə müəllimə «Arxalı köpəyi qurd basar» məsəlini yadına salsa da, heç nə demədi və Fərəci geri çağırdı:

– Yaxşı, keç əyləş, atanla özüm danışaram. Indi çıx yazı taxtasının qabağına, görüm dərsi necə bilirsən?

Fərəc tənbəl-tənbəl yazı taxtasının önünə çıxdı. Bir xeyli duruxdu. Əlacsız qalıb, him-cimlə yoldaşlarından kömək istədi. Heç kimin qımıldanmadığını görüb pərt oldu. Cəfər Cabbarlının «Solğun çiçəklər» pyesi haqqında ağzına gələnləri danışmağa başladı:

– «Solğun çiçəklər» dramı əsərinin baş qəhrəmanı Sara xanım çoxlu çiçək əkir, nə qədər qulluq edirsə, çiçəklər bitmir, solğun qalır. Buna görə də bu dram əsəri «Solğun çiçəklər» adlanır...

Uşaqlar gülüşdülər. Xatirə müəllimə onlara təpindi:

– Sakit olun! Hə, bəs sonra?

– Sonra da Bəhram hirslənib Gülpərini öldürür.

– Yaxşı, Gülpərini niyə öldürür?

– Mən nə bilim e, xoşu gəlmir, öldürür də.

Xatirə müəllimə narazı halda:

– Qurtardın? – dedi.

– Hə də.

Bu qısa dialoqdan sonra Xatirə müəllimənin təəssüf dolu səsi eşidildi:

– «Iki» alırsan!..

Xatirə müəllimə, uşaqlar demişkən, «yağlı iki»ni əvvəl jurnala, sonra da Fərəcin yalnız «beş»lərlə dolu saxta gündəliyinə yazdı.

Orta cərgədən kimsə qəfildən atmaca atdı:

– Fərəcin qızıl medalı batdı.

Həmin gün Xatirə müəllimə yamanca məyus oldu – daha bir neçə şagirdi «iki» ilə cəzalandırdı. Buraxılış sinfinin şagirdlərinin bu cür zəif oxuması onun qəlbini ağrıtdı. Ilk dərsdən evlərinə xoş təəssüratla deyil, qanıqara və pəjmürdə qayıtdı. Xatirə müəllimənin bu ilk dərsinə – şagirdlərə ucdantutma «iki» verməsinə, Fərəci danlamasına nə direktor, nə də Fəzail müəllim məhəl qoydu. Çünki direktor, özü demişkən, ali məktəbi təzə bitirənlərin psixologiyasına yaxşı bələd idi. Onlara minnətçi düşməyə dəyməzdi. Bəhmən müəllimə görə belə ötəri şeyləri yoluna qoymaq üçün pedaqoji şuranın bircə iclası bəs edirdi.

Ancaq Xatirə müəllimənin iki ay ərzində şagirdlərə «qan uddurması», jurnalı yalnız «iki» və «üç»lə doldurması axırda rəhbərliyin səbr kasasını daşdırdı. «Yox, deyəsən, bu həna o hənadan deyil».

Bəhmən müəllimin narahatçılığı günbəgün artmaqdaydı.

Xatirə müəllimə məktəbə gələndən sonra ab-havanın dəyişdiyini, direktorun ona daha «perspektivli gənc kadr» kimi baxmadığını, təlim-tərbiyə işləri üzrə direktor müavininin bütün hikkəsini onun üstünə tökmək üçün məqam axtardığını yaxşı bilirdi.

Əlbəttə, məktəbdə Xatirə müəllimənin xətrini istəyənlər də var idi: məsələn, bir dəfə, hamının savadlı tarix müəllimi kimi tanıdığı Kamil müəllim bütün cəsarətini (o, çox utancaq idi)

toplayıb, xəlvətdə Xatirə müəlliməyə demişdi: «Ehtiyatlı olun, bu məktəbdə keyfiyyətə yox, kəmiyyətə fikir verirlər, onlar sizi gözdən salmaq üçün plan qururlar. Vəsilənin valideynləri ilə görüşdüyünü də bilirlər. Onlardan sizə qarşı istifadə edəcəklər. Belə də məktəb olar? «Üzü bəzək...» – Kamil müəllim, nədənsə, bu məşhur atalar sözünün ardını söyləməyi özünə rəva bilməmişdi. Xatirə müəllimə də əvvəlcə qızarıb-pörtmüş, sonra təmkinini pozmadan «Narahat olmayın, hər şeyi bilirəm» – demişdi.

Xatirə müəllimə bu iki ayda Kamil müəllimin ona xüsusi diqqət yetirdiyini də hiss eləmişdi. Ancaq arada bir başqası – Zakir müəllim də var idi...

Xatirə müəllimə Zakir müəllimi düz-əməlli tanımırdı. Bu üzlü, həm də həyasız adam onu harda gördü, yaxınlaşır, çənəsinin altına salır, pulundan-parasından, rayonun ən zəngin adamı olmalarından ağzı köpüklənə-köpüklənə danışırdı.

Xatirə müəllimənin, nəyə görəsə, Zakir müəllimdən xoşu gəlmirdi. Əslində, bunu Zakir müəllim də hiss edirdi, amma, di gəl ki, qızdan əl çəkmirdi. Hətta bir dəfə Famil müəllim Zakir müəllimin pıçıltıyla qıza eşq elan etdiyini də eşitmişdi və başılovlu Kamil müəllimin yanına qaçmışdı: «Haçanacan subay qalacaqsan? Fikir vermişəm, Xatirə müəllimənin sənə meyli var. Get, söhbət elə, qızın ürəyini ələ al. Mən istəmirəm o cür gözəl-göyçək, ismətli, ağıllı qız Zakir müəllim kimi başıboşun, tərbiyəsizin birinə qismət olsun».

Famil müəllimin dostyana, ərklə dediyi sözlər Kamil müəllimi ayıltmışdı. O özünü qınamış, ifrat cəsarətsizliyin və utancaqlığın yaxşı keyfiyyət olmadığını dərk etmişdi. Ancaq söhbətə necə başlamalı? Kamil müəllim bu suala heç cür cavab tapa bilmirdi. Məktəbdə süpürgəçi Xanım xala da ona: «Bala, utancağın oğlu olmaz» – demişdi. Ədilə müəllimənin bütün müəllimlərin yanında Kamil müəllimə «Səni yıxsa, abır-həya yıxacaq» – deməsi də hamının ürəyindən xəbər vermişdi. Bütün bu atmacaların mənasını yaxşı başa düşən Xatirə müəllimə möhkəm utanmışdı. Buna baxmayaraq, yenə daşdan səs çıxmışdı, Kamil müəllimdən yox...

Amma günlərin bir günü, necə oldusa, Kamil müəllim qəti qərar qəbul elədi: «Qoymaram itə-qurda qismət olsun!..»

***

Xatirə müəllimə təcrübəsiz olsa da, ağıllı idi. Hamıya bir münasibət bəsləyirdi. Kimə zərrə qədər rəğbəti vardısa, ürəyində saxlayır, büruzə verməməyə çalışırdı. Çünki insan xislətinin, xarakterinin, münasibətlərinin dəyişkən olduğunu hələ tələbəlik illərindən yaxşı bilirdi. Odur ki, Zakir müəllimin dediyi sözləri təhlil etməkdə çətinlik çəkmirdi. Təzə vaxtlarda bu boylu-buxunlu oğlana iş yoldaşı kimi az-çox rəğbəti də vardı, amma ona bir az bələd olanda belə qənaətə gəldi ki, deyəsən, zənnində yanılıb. Xüsusilə, Zakir müəllimin Kamil müəllimə tez-tez yersiz atmaca atması, rişxənd etməsi onu əsəbiləşdirirdi, hətta, qəlbində Zakir müəllimdən bir «mənfi qəhrəman» obrazı da yaratmışdı və bu «mənfi qəhrəman» obrazının yaranmasında Zakir müəllimin atmacalarına Kamil müəllimin verdiyi sərt, ağıllı cavablar da az rol oynamamışdı.

Bununla belə, Xatirə müəllimə bəzən özünü qınayırdı: «Camaat haqqında nahaq yerə pis fikrə düşürəm. Hələ heç yazığı düz-əməlli tanımıram».

Bu, Xatirə müəllimənin təmizliyindən irəli gəlirdi. Qəribədir ki, məktəbdə heç kim «zırrama» ləqəbli Zakir müəllimi xoşlamırdı. Həzrəti Əlinin məşhur bir kəlamı var, deyir, insan dilinin altında gizlənir. Zakir müəllimin boy-buxunu, zahiri görkəmi gözəgəlimli olsa da, daxili aləmi xarici görünüşü ilə uyuşmurdu, ağzını açıb danışan kimi nadanlığı üzə çıxırdı.

Bircə kitabı belə əvvəldən-axıracan oxumağa hövsələsi çatmayan Zakir müəllim vəzifəli və imkanlı qardaşlarının hesabına Bədən Tərbiyəsi Institutunu zor-bəla bitirmişdi. Hərdənbir yoldaşları ilə söhbətləşəndə deyirdi: «Təkcə ağırlıqqaldırmadan az qalmışdı ki, «dörd» alım. Müəllim «qiymət kitabçamı» istəyəndə vermədim. Dedi, a bala, niyə «qiymət kitabçanı» məndən gizlədirsən? Dedim, müəllim, and içmişəm, gərək mənim «qiymət kitabçama» «üç»dən başqa qiymət düşməsin. Siz əvvəlcə tramvay altında qalmış «üç»ümü yazın, mən də «qiymət kitabçamı» verim. Əlacsız qalan müəllim başını yelləyib, «Sənin kimi tipə ilk dəfədir rast gəlirəm» – dedi. Bütün tələbələrin gözü qarşısında elan elədi: «Zakir Qulu oğlu Cəbiyev – «kafi». Həmin gün elə arxayın nəfəs aldım ki...».

Zakir müəllimin korazehinliyi və savadsızlığı ilə bağlı Kürəkçi kəndinin məktəbində xoruz səsi eşitməmiş lətifələr danışırdılar. Bu lətifələr bəzən məktəbdən çıxıb bütün kəndi ev-ev dolaşırdı. Müəllim yoldaşlarının dediyinə görə, Zakir müəllim

soyadını bu yaxınlaracan «Cəbiyev» deyil, kiril əlifbası ilə «Cəbiev» yazırmış. Təlim-tərbiyə işləri üzrə direktor müavini Fəzail müəllim Zakir müəllimin bu səhvini neçə dəfə düzəltmişdisə də, xeyri olmamışdı: o yenə də jurnallarda, şagirdlərin dəftər və gündəliklərində, rəhbəri olduğu sinfin divar qəzetində soyadını «Cəbiev» yazır, özünü rüsvayi-cahan edirdi. Deyilənə görə, bir dəfə maarif şöbəsinin təlimatçısı məktəbdə yoxlama apararkən bu səhvi ona bağışlamamışdı. Axırda Fəzail müəllim məsələyə qarışmalı olmuşdu: «Bu yaşında sənə qrammatika müəllimi tutaq? Get, inspektoru razı sal, adını protokoldan çıxartsın. Qardaşlarını tanımamış olmaz. Yoxsa, rayonda biabır olarıq».

Zakir müəllim həmin məsələyə görə bir şax yüzlük tərləmiş, təlimatçıya layiqli bir qonaqlıq vermişdi. Deyilənə görə, bu qonaqlıqdan sonra təlimatçı ilə Zakir müəllim əbədi dost olacaqlarına and içmişlər. Bundan sonra Zakir müəllimin dili açılmış, təlimatçı haqqında demişdi: «Dastoynı oğlandı, canlara dəyən cayıldı».

***

Yağışlı bir payız səhəri idi. Quru otdan nəm qoxusu gəlirdi. Kürəkçi kəndinin camaatı həmişəki kimi sübh tezdən durmuşdu: qoyunları örüşə aparan kim, mal-qaranı sübhün alatoranında kövşənə ötürən kim, həyət-bacada səliqə-sahman yaradan kim...

Yağış çox zaman, elə bil, xatirələri oyatmaq üçün yağır. Bu fikir, nədənsə, Xatirə müəllimənin içini göynətdi və o, tələbəlik illərini gözlərinin önünə gətirdi:

Sızlar yada düşəndə
Ürəyimin telləri,
O mehriban, o əziz
Tələbəlik illəri.

Amma, Xatirə müəllimə, əslində, keçmiş haqqında yox, gələcək haqqında düşünürdü. Elə bil, tələbəlik illəri hələ qabaqda idi və bu qayğısız, sehirli aləm onu nə vaxtsa ağuşuna alacaqdı: Sona, Güllü, Vüqar, Barat, Vahid, Əhməd, Fəridə, Zülfüqar, Telli, Nigar... Tələbə dostları... Hələ ürəyində dilinə

gətirmədiyi neçə-neçə adlar vardı. Onları bir-bir sadalasaydı – durna qatarı alınardı...

Xatirə müəllimə keçmiş tələbə dostları ilə indiki müəllim yoldaşlarını müqayisə etdi. Sinif nümayəndəsi Zülfüqarı direktor Bəhmən Bəhmənova bənzətdi. Yox, Zülfüqar qohumlarının hesabına oxusa da, səmimi idi – hiyləgərliyi və saman altından su yeritməyi yox idi. Komsorq Nigarla Fəzail müəllim arasında paralellər axtardı, tapa bilmədi. Tellini deyingən Ədilə müəlliməyə oxşatmağa çalışdı...

Bəs, Zakir müəllimi? Onu kiminlə müqayisə etsin? Xatirə müəlliməni gülmək tutdu. Xəyalında Zakir müəllimin boz-bulanıq, lovğalıqdan başqa heç bir məna kəsb etməyən küt sifəti canlandı. Yox, nə qədər fikirləşdisə, onun oxşarını tapa bilmədi. Birdən ali məktəbdə oxuduğu illərdə bir müəllimin onun barəsində dediyi «tarixi» sözlər yadına düşdü: «Sənin kimi orijinal tipə ilk dəfədir rast gəlirəm». Zakir müəllimin həmin bu «tarixi» sözləri sonralar neçə-neçə yerdə (həm də müəllimlər otağında) qürur hissi ilə təkrar etməsi onun hələ də yonulmadığını göstərirdi.

Elə bu zaman Xatirə müəllimənin gözləri qarşısında Kamil müəllimin surəti canlandı, nədənsə, ürəyi bərk-bərk döyünməyə başladı. Sonra o, pəncərənin önünə gəldi, bu yağışlı-çiskinli payız səhərinin seyrinə daldı: «Allah, qurbanın olum, bu nə iş idi mən düşdüm. Mən on Bəhmənin, on da Fəzailin öhdəsindən gələrəm. Bəs, bu Kamil kimdir? Bircə «a» hərfi ayırır onları. Səsi də, yerişi də, ağır-ağır danışığı da, xeyirxahlığı da eynən Kamaldı. Elə bil bir az da oturuşub, bir az da müdrikləşib. Axı, Kamalın ölümünə mən bais oldum. Bunu məndən başqa heç kim bilmir, heç vaxt da bilməyəcək...»

«Xatirə müəllimə Kamil müəllimi birinci dəfə görəndə özünü itirmiş, başı gicəllənmiş, özünü pəncərənin önündəki boş stula güclə çatdırmışdı. Onun bu halını görən müəllimələr əl-ayağa düşmüş, Kamil müəllim isə qalxıb, qırmızı örtüklü masanın üstündəki qrafindən stəkana su süzüb gətirmişdi. Xatirə müəllimə Kamil müəllimin üzünə baxmağa cəsarət etmədən, titrəyən əlləri ilə stəkanı alıb, qorxu, həyəcan içində ikicə qurtum su içmişdi... O, müəllimlərin həyəcan içində verdikləri sualları, elə bil, eşitmir, sanki öz beynindəki suallarla məşğul idi: Bəlkə Kamil müəllim onun qardaşıdır? Bəlkə əmisi oğludur? Bu qədər oxşarlıq, bu qədər bənzərlikmi olar?..»

Günlər, aylar keçdikcə, Xatirə müəllimə çox ehtiyatla Kamil müəllimin altı il əvvəl başqa rayondan bu məktəbə gəldiyini öyrəndi...

Xatirə müəllimə Kamil müəllimi görəndə, onun səsini eşidəndə, hər dəfə yerişinə oğrun-oğrun baxanda, hərəkətlərini, adamlara olan münasibətini izləyəndə, qrup yoldaşı Kamalı xatırlayırdı...

Üçüncü kursda dərsləri ikinci növbə idi. Bir payız axşamı narın-narın yağış yağırdı. Xatirə pəncərənin önündə əlləri qoynunda büzüşərək, axşam toranlığında közərən küçə lampalarının kədərli, zəif işığına baxırdı. Birdən arxasında hənirti duydu, amma, nədənsə, geriyə çevrilmədi. Az sonra son dərəcə doğma bir səs eşitdi:

– Görəsən, bu yağışlı, havada Xatirə xanımın yadına nə düşüb?.. Nə fikirləşir?

Xatirə gülümsəyə-gülümsəyə dedi:

– Eh, yadıma düşənləri, yaza bilsəydim, bir hekayə, bəlkə də bir povest olardı. O ki qaldı nə fikirləşməyimə tezdən yediyimin üstündəyəm, ürəyim acından uçalanır...

Xatirə başı ilə küçənin o tayındakı şirniyyat mağazasını göstərdi:

– Amma, gedib ordan bir qoğal almağa ərinirəm...

– Mənə nə olub ki, sən gedəsən? Qoğal, daha nə?..

– Yox, yox, islanarsan...

Kamal qapıdan çıxanda Xatirə:

– Dayan, pulunu verim, – dedi. – Kamalın dayanmadığını görəndə bir az da ucadan: – Onda yemiyəcəyəm... – dedi.

Xatirə Kamalın tələsmədən, ağır addımlarla şirniyyat mağazasına girdiyini, az sonra əlində bükülü oradan çıxdığını, aydınca gördü. Birdən Kamal qarşıdan gələn qara çətirli, qara geyimli qadınla üz-üzə gəldi. Bir-birinə yol vermək üçün ikisi də eyni vaxtda bir neçə dəfə sağa-sola addım atdılar. Axırda Kamal başını aşağı dikib, yerində donub qaldı, qadın isə çıxıb getdi. Sən demə, Kamalın ömür yolu bura qədərmiş. – Qara geyimli, qara çətirli qadın bəlkə də ölüm mələyi – Əzrayıl imiş... Kamal qara çətirli, qara geyimli qadına yol verib, ikicə addım atan kimi

ildırım sürətilə şütüyən maşınla üz-üzə gəldi. Həmin an Xatirə tükürpədici bir səslə qışqıraraq elə auditoriyadaca yıxılıb bayıldı.

O vaxtdan bəri hər dəfə qoğal görəndə, Xatirənin ürəyi bulanır, başı gicəllənirdi...

***

Bu yağışlı-çiskinli payız günündə Kürəkçi kəndinin məktəbində pedaqoji şura çağırılmışdı. Xatirə müəllimə iki gün öncə qara qələmlə yazılmış elanı bir də yadına saldı: «9 noyabr 1982-ci il tarixdə pedaqoji şuranın növbədənkənar iclası keçirilir. Şura üzvlərinin iştirakı vacibdir».

Xatirə müəllimə bilirdi ki, bu «növbədənkənar» sözünün başqasına yox, məhz ona – ipə-sapa yatmayan, məktəbin bilik faizini aşağı salan gənc müəlliməyə dəxli var.

Xatirənin anası – Əminə xala mülayim səslə dedi:

– Ay qızım, bu nə fikirdi səni aparıb? Dəryada gəmin batıb? Gəlib çörəyini yesənə...

– Hələ vaxta var, ana.

Sonra Xatirə müəllimə pəncərənin önündən çəkildi. Saatına baxdı, doğrudan da, dərsin başlamasına hələ iyirmi dəqiqə qalırdı. O, yemək stoluna sarı getdi, stul çəkib əyləşdi, çay içdi, bir tikə çörək kəsib, üstünə nehrə yağı və şor yaxdı, iştaha ilə yedi.

Əminə xala qızının son günlər fikir-xəyaldan ayrılmadığını açıq-aşkar hiss edirdi, amma, nədənsə, bu barədə, elə bil, söhbət açmağa ürək eləmirdi. Əslində, Xatirə müəllimə də bilərəkdən buna şərait yaratmırdı...

***

Bəhmən müəllim kabinetində, Nuh əyyamından qalma kətilində əyləşmişdi, pərt idi – çırtma vursan, qanı çıxmazdı; çünki adını dilə-dişə salmışdılar, başını aşağı eləmişdilər. Həmişə başqalarına nümunə göstərilmiş Kürəkçi kəndinin məktəbinin adı, əgər, pislikdə hallanırdısa, onda, gərək o, heç kənddən qırağa çıxmayaydı, qabaqcılların, fəalların yığıncağında iştirak etməyəydi, hamının yanında gözükölgəli olaydı. «Yox, Xatirə müəllimənin əməllərini ört-basdır etsəm, yumurtadan

yenicə çıxmış bu cücəni yerində oturtmasam, başım çox ağrayacaq» – deyə o düşündü.

Bəhmən müəllim kimi, Fəzail müəllim də Xatirə müəllimənin əlindən yanıqlı idi – oğluna «iki» yazması şəstinə toxunmuşdu.

Axı, Kürəkçi kəndinin məktəbində qiymət məsələsi ortaya çıxanda, «məmə deyəndən pəpə yeyənəcən» hamı Fəzail müəllimin yanına qaçırdı. Çünki Bəhmən müəllim bu səlahiyyəti ona vermişdi. Indi, oğlu – korazehin Fərəc onu pis vəziyyətdə qoymuşdu. Hərdən qiymətdən söz düşəndə – Fəzail müəllimin adı çəkiləndə deyirdilər: «Keçəl dərman bilsə, əvvəlcə öz başına yaxar». Bəli, daha Fəzail müəllimin qapısını döyən yox idi. Çünki «ağzından süd iyi gələn», dünən «yumurtadan pırt eləyib çıxan» bir qızcığazın əlində aciz qalmışdı...

Müəllimlər bir-bir, iki-bir Bəhmən müəllimin kabinetinə yığışırdılar. Içəri girənlərdən kimi salam verir, kimi də, elə-belə, həmişəki kimi, adi qaydada, keçib sakitcə əyləşirdi. Qəribə də olsa, Bəhmən müəllim hərəkətlərinə daima göz qoyduğu, müəllimlərə bu gün heç məhəl qoymurdu. Ovqatı təlx idi – hələ bir neçə gün bundan əvvəl məktəbin həyətində Xatirə müəllimə ona qəribə tərzdə salam vermişdi:

– Salam, Mirzə Səməndər, necəsiz?

Bəhmən müəllim bu qəfil və gözlənilməz müraciətdən əvvəlcə özünü itirmiş, amma həmin naqolay suala naqolay da cavab vermişdi:

– Çox sağ olun, Almaz xanım... – Və bu qısa dialoqda, müəllimlərin yanında yenə də Xatirə müəlliməyə uduzduğunu anlamışdı.

O, əlindəki «coğrafiya çubuğu»nu əsəbi halda kənara atdı. Deyəsən, nədən başlayacağını götür-qoy edirdi. Birbaşa mətləbə keçməyə, nədənsə, cəsarəti çatmırdı. Handan-hana üzünü müəllimlərə tutdu:

– Yoldaşlar, yaxşı bilirsiniz ki, kənd məktəblərində müəllim əlindən tərpənmək olmur. Lətifəsi bizdən uzaq: daş atırsan – müəllimə dəyir. Pedaqoji institutlar hər il yüzlərlə məzun buraxır. Şəhər məktəblərində vəziyyət daha pisdir. Heç bilmirəm dörd-beş ildən sonra bunun axırı necə olacaq? Əhali artır, xəstəliklər çoxalır, deməli, bizə həkim lazımdır. Kürəkçi boyda kənddə bircə nəfər diş həkimi yoxdur. Rayonun mərkəzi

poliklinikasında həmişə növbədir. Biz həkim istəyirik, onlar (əlini qapıya tərəf uzadaraq) müəllim göndərirlər...

Bəhmən müəllim divarboyu düzülmüş stullarda kirimişcə əyləşmiş müəllimləri, adəti üzrə, tərs-tərs süzdü. Sanki bu məsələdə onlar günahkar idi.

Bəhmən müəllim sonra sol əlini seyrək saçlarına çəkdi və bugünkü iclasla heç bir əlaqəsi olmayan söhbətini davam etdirmək istədi. Amma müəllimlərin baxışlarındakı narazılığı görüb tez fikrindən daşındı və mətləbə keçdi:

– Hə, darıxmayın, keçirəm əsas mətləbə. Bilirsiniz ki, məktəbimiz nizam-intizam, dərsə davamiyyət baxımından həmişə fərqlənib. Həmişə bu istiqamətdə işlərimizi yaxşı qurmuşuq. Bu tədris ilində isə geriləmiş, rayon məktəblərinin ümumi orta qiymət göstəricisindən xeyli aşağı düşmüşük, – o, söhbətinə bir anlıq ara verdi, boğazını arıtladı – xeyli aşağı düşmüşük deyəndə ki, ilk rübün nəticələrinə görə axırıncı pillədə qərar tutmuşuq. Bunun səbəbkarları ayrı-ayrı müəllimlərdir (Bəhmən müəllim əvvəl istədi Xatirə müəllimənin adını çəksin, amma fikirləşdi ki, «yaxşı olar elə «müəllimlər» deyim durduğum yerdə ağrımaz başıma dəsmal bağlamayım, düşər-düşməzi olar».

Yerdən kimsə pıçıltıyla dedi: «Mus-mus deyincə, birdəfəlik Mustafa de. Qarnının ağrısını bilirik də».

Bəhmən müəllim özünü eşitməməzliyə vurdu, ancaq vəziyyətdən çıxış yolu tapdı:

– Bu haqda danışmaq üçün sözü Fəzail müəllimə verirəm.

Fəzail müəllim də köhnə ənənəsinə sadiq qalaraq, öncə Bəhmən müəllimə təşəkkürünü bildirdi, şuranın vacibliyini diqqətə çatdırdı və nəhayət, mətləbə keçdi:

– Yoldaşlar, Bəhmən müəllim ümumi vəziyyət barədə müfəssəl məlumat verdi. Neçə illərdi məktəbimizdə «ev bizim, sirr bizim» prinsipi hökm sürürdü. Indi kimsə gəlib sakit başımızı ağrıtmaq, «köhnə bazara təzə nırx» qoymaq istəyir. Sözü uzatmaq istəmirəm: açığı, Xatirə müəllimədən narazıyıq...

Yerdən müəllimlərdən hansısa söz atdı:

Yaxşı olar ki, hərə öz adından danışsın...

Fəzail müəllim səs gələn tərəfə baxdı və səsinin tonunu dəyişmədən dedi:

– Məktəbin şərəfini hamımız qorumalıyıq. Əlbəttə, prinsipiallıq lazımdır, amma bu cür ifrata varmaq işimizin, mənafeyimizin ziyanınadır. Şagirdlərin bilik səviyyələrinin qiymətləndirilməsində güzəşt çox vacib amildir. Xatirə müəllimə uşaqların gündəliklərinə o qədər «iki» yazıb ki, baxanda məəttəl qalırsan. Yaxşı ki, məsələdən, hələlik, biz xəbərdarıq, sabah bunun səs-sorağı maarif şöbəsinə çatandan sonra – yəqin ki, çatacaq da, neyləyəcəyik?

Xatirə müəllimə özünü saxlaya bilmədi:

– Mən başa düşmürəm, şagirdin qiymətini süni surətdə şişirdəndə nəyə nail oluruq? Sabah, birisi gün həmin şagird kəsilib, ali məktəb qapısından kor-peşman üstümüzə qayıdanda, biz onun üzünə necə baxacaq, ata-anasının tənəsinə necə dözəcəyik? Qoy uşaq indidən – bəribaşdan nəyə qadir olduğunu bilsin, papağını qabağına qoyub fikirləşsin. Gücünü və yaxud gücsüzlüyünü dərk etsin, valideynlərini yalandan arxayın salmasın.

Fəzail müəllim dözmədi:

– Müəllimə, bizim vəzifəmiz odur ki, buraxılış sinfimiz olsun. Sonrasını şagird bilər, ata-anası bilər. Cəmi-cümlətanı iki aydı dərs deyirsən, otuz bir şagirdə «iki» yazmısan. Məktəbə də xoşagəlməz dəb salmısan. Indi, maşallah, davamçıların da var. Qüdrət müəllim də «iki»dən, «üç»dən başqa qiymət yazmır.

– Məncə, qiymətləndirmə səlahiyyəti ancaq fənn müəlliminə məxsusdur. O ki, qaldı otuz bir şagirdə «iki» verməyimə, hələ bir çoxuna güzəşt eləmişəm, – deyə eyni ahənglə Xatirə müəllimə həmsöhbətini cavabsız qoymadı.

Bu yerdə Bəhmən müəllim Mirzə Səməndərsayağı coşdu:

– Bu xarabanın bir yiyəsi var, ya yox? Xatirə müəllimə, sabah rayon rəhbərliyinə partbiletimlə mən cavab verəcəyəm, ya sən? Əlbəttə, mən! Səni məşhər ayağına çəkəcəklər, ya məni? Əlbəttə, məni! Bizim bu kolxoz sədri Niyaz müəllim adlı-sanlı adamdı, rayonda böyük hörməti var, nə qədər orden-medal alıb, oğluna «iki» yazmısan, bu heç, cəhənnəm, bağışlamaq olar. Bəs, dağ boyda kişi səni telefona çağırır, niyə getmirsən? Deyirsən ki, «dərsi poza bilmərəm», tənəffüsdə zəng eləsin. Kişi dünən mənə soyuq-soyuq əl uzatdı, xəcalət çəkdim, utandığımdan, yer ayrılsaydı, yerə girərdim. Axı, bizim qadınlar

hər zaman ismətiylə, həyasıyla, zərifliyi ilə başqa millətlərin qadınlarından fərqləniblər...

Zakir müəllim ona hava-su kimi lazım olan məqamın yetişdiyini düşünərək, icazə-filan almadan ayağa qalxıb, Xatirə müəlliməni müdafiə etməyə başladı. Amma o qədər hətərən-pətərən danışdı, o qədər nala-mıxa vurdu ki, dediklərindən bir mətləb hasil olmadı və həmişəki kimi, yenə də gülüş hədəfinə çevrildi.

Bəhmən müəllim əlindəki «coğrafiya çubuğu» ilə stolu yüngülcə tıqqıldatdı. Araya sakitliyin çökməsini gözləyərək mülayim səslə (o, həmişəki kimi, kələk gəlmək istəyəndə bu cür mülayim səslə danışırdı) dedi:

– Zakir müəllim, sən cavansan, Xatirə müəllimə də cavandı, bilirəm nəyə görə onu müdafiə edirsən, bir-birinizə xüsusi rəğbətiniz var (əslində, məhəbbətiniz var demək istədi, amma, nədənsə, fikrindən daşındı), Allah xeyir versin, bu bizim də ürəyimizdəndir, səhv etmirəmsə, Füzuli deyib: Məcnun varsa, Leyli də olmalıdır, Leyli varsa, Məcnun da olmalıdır. O ki, qaldı elçiliyə, o da Kamil müəllimlə mənim boynuma...

Bəhmən müəllim zərrəcə şübhə eləmirdi ki, Xatirə müəllimə axırda Kürəkçi kəndinin məktəbinin bu iki subay müəllimindən birinə – ya Kamilə, ya da Zakirə ərə gedəcək; əgər, işdi-şayət, Allah göstərməsin, Kamilə ərə getsə, onların qabağında dayanmaq olmaz, hər gün bir hoqqa çıxaracaqlar; yox, əgər, Zakirə ərə getsə, – bu, Bəhmən müəllimin də ürəyindən idi, – başı qarışacaq uşaq-muşaq doğmağa, on ildə on dəfə analıq məzuniyyətinə gedəcək, çünki Zakirin nəslində ondan az uşağı olan yox idi...

Xatirə müəllimə qoca qurdun – Bəhmən müəllimin onu dilə-dişə salmaq, rüsvay etmək istədiyini dərhal başa düşdü, odur ki, təmkinini pozmadan dedi:

– Sizin uydurduğunuz bu Leyli-Məcnun əhvalatı cəfəngiyatdan başqa bir şey deyil. Odur ki, o məsələyə heç toxunmaq istəmirəm. Indi bütün ölkədə təhsil sistemi təkmilləşdirilir, islahatlar həyata keçirilir. Biz isə, hələ də köhnə üsullardan əl çəkə bilmirik. Mən də uşaqların aşağı qiymət almalarını istəmirəm. Istəyirəm, Kürəkçi kəndinin məktəbinin adı qabaqcıllar cərgəsində çəkilsin. Bir şərtlə, gəlin, hamılıqla əl-ələ verək, zəhmət çəkək, uşaqların qiymətini süni şəkildə şişirtməyək, təhsilin səviyyəsini qaldıraq. Hamı deyir uşaqlar

bizim gələcəyimizdir. Bəs, onda biz niyə öz gələcəyimizin qayğısına qalmırıq? Gələcəyimizi niyə qaranlığa bürüyürük? Axı, bu şagirdlərin arasında müəllimlərin də övladları var. Axı, bunların hamısı millətimizin övladlarıdı. Deyirsiniz nəzakətsizlik göstərmişəm, kolxoz sədrinin telefon zənginə cavab verməmişəm. Yaxşı, mən dərs vaxtı dərs keçməliyəm, yoxsa, telefonla danışmalıyam? Kolxoz sədri hələ indiyəcən bir dəfə də olsa, məktəbə gəlməyib, oğlunun necə oxuması ilə maraqlanmayıb. Məktəbdə təhsilin səviyyəsinin aşağı düşməsinə bais olanlardan biri elə odur. Uşaqları nə vaxta kimi tarlalarda işlətməyə aparacaqsınız? Yəqin ki, Cəlil Məmmədquluzadənin «Danabaş kəndinin məktəbi» əsərini oxumusunuz. Orada bisavad valideynlər uşaqlarını məktəbdən yayındırmaq üçün gərmələrin içində gizlədirlər, siz – ali təhsilli müəllimlər isə, tarlaya – işləməyə aparırsınız. Bu kənddə hamı uşağını yox, özünü düşünür...

Bəhmən müəllimin kefi tamam pozuldu:

– Ay qızım, heç bilirsən nə danışırsan? Bütün respublika məhsul yığımına cəlb olunub, az qala, ümumi səfərbərlik elan edilib, mən məktəb üçün şüar yazdırmağa bir adam tapmıram, gör sən nə danışırsan? Belə çıxır ki, sən bu səfərbərliyi bəyənmirsən...

Xatirə müəllimə:

– Məni şantaj etmək istəyirsiniz?.. Eybi yoxdur, kolxoz sədri ilə özüm danışaram. Uşaqların gələcəyini bir ot şələsinə qurban vermək olmaz.

Ilk dəfə idi ki, Kürəkçi kəndinin məktəbində çağırılmış «növbədənkənar şura»da istehza və eyham dolu atmacalardan ağız deyəni qulaq eşitmirdi.

«Ya zəmanə dəyişib, ya da mən, həqiqətən, bəzi mətləbləri başa düşmürəm» – Bəhmən müəllim tərəddüd içində qalsa da, qanqaraldan, acı bağırsaq kimi uzanan bu xoşagəlməz söz-söhbətə yekun vurdu:

– Yaxşı, mübahisələrə son qoyaq. Deyilənlər burda qalsın, kənara çıxmasın, ev bizim, sirr bizim. Daha danışmaq istəyən yoxdursa, qurtaraq.

Bəziləri çiyinlərini çəkdi, bəziləri dodaqlarını büzdü, bir-bir, iki-bir gəldikləri kimi, elə bir-bir, iki-bir də qalxıb otaqdan çıxdılar...

***

Xatirə müəllimə çox sürətlə gələn maşının yoldan çıxacağından ehtiyat edib kənara çəkildi.

Zakir müəllim ona çathaçatda maşını qəfildən saxladı və mülayim səslə dedi:

– Müəllimə, əyləşin aparım.

Xatirə müəllimə üz-gözünü turşutdu:

– Çox sağ ol.

Zakir müəllim dirəşdi:

– Niyə tərslik edirsiniz?

Xatirə müəllimə bu dəfə lap əsəbiləşdi:

– Dedim ki, çox sağ ol, çıx yolunla get.

Zakir müəllim axırda naəlac qalıb maşını işə saldı və pərt halda yola düzəldi.

Xatirə müəllimə yolboyu Vəsilə barədə düşünürdü: «Yazıq qızcığazın nə günahı var? Ata-ana ot-ələf dalınca göndərməsə, oturub oxuyar. Yaxşı ki, heç olmasa, cantaraqdı. Amma indidən əlləri cadar-cadar, qabar-qabar olub, beli əyilib. Işləməyin də bir təhəri var. Valideynləri nə fikirləşirlər, bilmirəm. Məktəbi qurtarmağına az qalıb, amma adını yaza bilmir. Mən buna necə güzəşt edim? Indiyəcən ədəbiyyatdan bircə mövzunun adını da öyrənməyib. Ifrat güzəşt – ifrat saxtakarlıq deməkdir. Üç-dörd gündü evdə məşğul oluram, görüm nə çıxır...»

...Xatirə müəllimə ilə bağlı bir dedi-qodu da yarandı. Bu dedi-qodunu düzüb-qoşan dərs hissə müdiri Fəzail müəllim idi. O, dil boğaza qoymadan təkrarlayırdı:

– A başınıza dönüm, çörəyi qulağımıza yemirik, ki... Görünən kəndə nə bələdçi? Xatirə müəllimə Vəsiləni öz evinə qonaqlığa çağırmır ki... Işlətməyə çağırır – ev-eşik paltar-palaz yudurdur, bağ-bostan saldırır. Kəndli qızıdır da... Nə desən, əlindən gəlir. Biz uşaqları kolxoz işinə göndərəndə haray-həşir salır ki, qoymayın məktəb batdı.

...Zakir müəllim maşını küçə qapısının ağzında saxlamışdı, bayaqkı pərtliyi hələ də keçib getməmişdi. Bir az bundan əvvəl evlərinin yanından keçmiş Xatirə müəllimənin

arxasınca piyada, qarabaqara irəliləyir, ona çatmaq istəyirdi. Nəhayət, o, addımlarını yeyinlətdi, qıza çatdı, irişə-irişə nəsə dedi. Xatirə müəllimə dinmədi.

Zakir müəllim pərt olsa da, özünü o yerə qoymadı:

– Maşını bir balaca yoxlamaq istədim, – dedi. Deyəsən, akkumlyatoru gücdən düşüb, yaxşı işləmir, gərək sabah aparıb rayon mərkəzində dəyişdirdim. Gördünüz də, nə maşındı, heyif ki, az sürürəm, vaxt olmur. Əgər istəsəniz, hər gün sizi məktəbə, ordan da evə apararam. Pal-paltar almaq üçün rayona gedəndə, lap elə şəhərə ge...

Xatirə müəllimə yenə Zakir müəllimin üzünə bozardı, sözünü ağzında qoydu:

– Zakir müəllim, əvvəla, mənim səninlə heç bir qohumluğum yoxdur ki, ərk edəm, hər gün dalımca gəlib, məni maşınla evdən məktəbə aparasan, ordan da evə gətirəsən. Ikincisi, mən bu cür şit, yüngül hərəkətləri xoşlamıram. Kənd-kəsək nə deyər? Bizə yüzlərlə göz baxır, həm də, təlim-tərbiyə ocağında çalışırıq.

Zakir müəllim Xatirə müəllimənin bu cavabından tutulsa da, yenə özünü o yerə qoymadı, həyasız-həyasız irişdi:

– Pedaqoji şuranın iclasında qan elədiniz. Bütün kəndə yayılıb. Gördünüz də, yenə mən sizi müdafiə etdim. O biri kişilər arvad kimi yerdən söz atırdılar. Aramızda xoş münasibət olsa, sizə arxa duraram. Onda kimin ağzı nədi sizə «gözünüz üstə qaşınız var» – deyə...

– Axı, mən nə pis iş görürəm ki, müdafiəyə ehtiyacım ola... Xahiş edirəm bu cür cəfəng sözlərlə məni yorma...

Xatirə müəllimə qəfildən addımlarını yeyinlətdi.

Zakir müəllim özünü itirmişdi, çünki bu cür cavab gözləmirdi. Bir xeyli – Xatirə müəllimə gözdən tamam itənəcən yerindən tərpənə bilmədi, birdən özündən asılı olmayaraq bağırdı: «Səfeh!» Sonra isə, «Səfeh odur, yoxsa mən?...» – deyə düşündü.

***

... Tədris ilinin sonu yaxınlaşırdı. Artıq Kürəkçi kəndinin məktəbində «ev bizim, sirr bizim» kəlamı kara gəlmirdi. Kənd camaatı müəllimləri hoydu-hoyduya götürmüşdülər: «Məktəbi

bazara döndəriblər. Ilboyu dərs keçməyiblər. Çöl işinə gedən şagirddən oxuyan olar? Bu boyda kənddən bir nəfər instituta girə bilmir. Heç utanıb yerə də girmirlər, «iyirmi bir yaşlı uşaq» – Xatirə müəllimə onların səhvlərini deyir, hələ bir «sağ ol» deməkdənsə, yazığı gözümçıxdıya salırlar».

***

Bəhmən müəllim cavanlığında olduğu kimi, indi də qazdan ayıq idi. Yaşa dolsa da, çuxura düşmüş, balacalanmış, sulanmış gözlərindən heç nə yayınmırdı. Üstəlik, kənddə biri «pıç» eləyəndə Fəzail müəllim əlüstü gətirib ovcuna qoyurdu. Indi, budur, düz işləri əyməkdə, ağa qara deməkdə saç-saqqal ağartmış Bəhmən müəllim, necə deyərlər, ağzından süd iyi gələn bir qızcığazın əlində aciz qalmışdı. Gicgahlarını, çənəsini ovuşdura-ovuşdura bayaqdan bəri bir cümləni saqqız kimi çeynəyirdi: «Bu qız məni «baqaja» qoydu, hörmətdən saldı, axırıma çıxdı...» Ha fikirləşirdisə, çıxış yolu tapa bilmirdi. Iş o yerə çatmışdı ki, maarif şöbəsinin müdiri Xəzail müəllim Xatirə müəlliməni maarif şöbəsinə çağırmış, əvvəl onunla sərt rəftar etmək istəmiş, amma sonradan dilə-dişə düşəcəyindən qorxub, mülayim tərzdə demişdi: «Qızım, Bəhmən müəllim baban yaşındadır. Onu bu ixtiyar çağında el-oba içində xəcil eləmə. Məsləhətə qulaq as, gələn il 70 yaşı tamam olur, yubileyini birtəhər keçirək, hörmət-izzətlə yola salaq. Sonra Kürəkçi kəndinin məktəbinə direktor kimi cavan bir kadr, lap elə səni göndərə bilərik, savadlı, islahatçı, dövrümüzün nəbzini tutan, yaxşımı?».

Xatirə müəllimə həmin gün ilk dəfə Xəzail müəllimin qəbulunda olduğu vaxtı xatırlamışdı və onunla Bəhmən müəllim arasında heç bir fərq görməmişdi: (Xəzail müəllim onda özünü «müəllimlər müəllimi» kimi təqdim etmişdi) eyni qılıq, eyni eyham, eyni səviyyə, eyni dünyagörüş. Öz-özünə fikirləşmişdi: «Görəsən, bunların dəyişən dünyadan xəbərləri yoxdurmu?».

Xatirə müəllimə düşünmüşdü: «Mən, axı, heç kimə pislik eləmək istəmirəm. Kənd-kəsək – mənim, el-oba – mənim. Sadəcə, istəyirəm vəzifə borcumu vicdanla yerinə yetirim. Istəyirəm, gənc nəsil savadlı böyüsün, ağıllı olsun. Məktəbimizin adını, şərəfini uca tutsun. Lap deyək ki, «iki» yazdıqlarımın hamısının qiymətini sabah düzəltdim – «beş» elədim. Bundan nə hasil olacaq? Axı, dəfələrlə fikir vermişəm, rayon mərkəzində

Kürəkçi kəndinin məktəbinin adı çəkiləndə adamlar üzlərini turşudurlar, başlarını yelləyirlər. «El ağzı, çuval ağzı» – doğru deyiblər. Qəsəbə boyda bir kənddən ki, ildə iki-üç nəfər ali məktəbə qəbul olunmadı, vay orada yaşayanların halına. Bu, cahillik, gerilik deyilmi? Mənim ürəyim ağrıyır, niyə Kürəkçi kəndindən mühəndislər, həkimlər çıxmasın? Qonşu kəndlərdən nəyimiz əskikdir ki?».

Kürəkçi kəndi bütün gözəlliyi ilə Xatirə müəllimənin gözləri önündə canlanmışdı.

Cah-calalına, yaraşığına və təbii gözəlliyinə görə seçilən bu kənd düzənlərin qurtardığı və silsilə dağların başladığı yerdə salınmışdı. Bəs «Kürəkçi» sözünün mənası nə idi? Nə qocalar, nə də cavanlar bu haqda heç nə bilmirdilər. Kəndin ən qədim məhəlləsi Qalayçılar adlanırdı, deyilənə görə, bir vaxt burada yaşamış qalayçılar bütün ətraf obalarda məşhur imişlər. Onlar pas atmış, paxır tutmuş qab-qacağı camaatdan yığır, qalaylayır və heç vaxt zəhmətlərinin müqabilində kimdənsə nəsə istəmirdilər. Buğdadan, arpadan, undan, kartofdan, soğandan, meyvədən – kimin nəyə gümanı çatırdısa – gətirib verirdi. Qalayçılar da Allahlarına şükür edirdilər... Bir rəvayətdə isə, «Kürəkçi» sözünün «körük» və ya «kürə» sözlərindən əmələ gəldiyi söylənilirdi. Deyilənə görə, bu sözlər sonradan dəyişikliyə uğraya-uğraya bu hala düşmüşdü. Bu fərziyyənin müəllifi tarix müəllimi, Kürəkçi kəndinin məktəbinin adlı-sanlı pedaqoq-etnoqrafı Kamil Adilbəyli idi...

Dağ çayı Kürəkçi kəndini iki hissəyə bölürdü. Hər iki tərəfdə həm qədimdənqalma yastı-yapalaq evlər, həm də son dəbdə tikilmiş ikimərtəbəli qırmızı kirəmitli imarətlər var idi və bu tikililər də üç-üç, beş-beş – buradakı təpəliklərin, kurqanların üstündə inşa olunmuşdu. Ara-sıra Bakıdan gəlib rayon mərkəzində mühazirə oxuyan bir məşhur arxeoloq-alim Kürəkçi kurqanlarının Azərbaycan ərazisindəki ən qədim yaşayış məskəni olduğunu söyləmişdi. Rayon Tarix və Diyarşünaslıq Muzeyinin əməkdaşları da tez-tez bu kurqanlara ekskursiyalar təşkil edirdilər. Amma kənddə belə şeylərə fikir verən yox idi. Məktəbdə isə, nəinki şagirdlər, heç müəllimlər də (Kamil müəllim istisna olmaqla) hər daşının altında min bir sirr yatan bu kurqanların tarix üçün nə olduğunu bilmirdilər. Üstəlik, son illərdə Kürəkçidə torpaqlar bölünmüş, hər yan necə gəldi qazılmış, evlər tikilmiş, çəpər-çəpərə dirənmiş, qədim kurqanlar ya özəlləşdirilmiş, ya da məhv edilmişdi.

Kürəkçi kəndinin cənub tərəfi başdan-başa palıd, qoz, vələs, cökə, şabalıd, dəmirağac, qarağat və zoğal meşələridir, şərq tərəfi isə, sanki bir-birinə dayaq olmaq üçün sıralanan, əzəmətli, qürurlu, qocaman dağlardır. Kürəkçi kəndində hansı kurqanın üstünə çıxıb, aşağıları seyr etsən, gözlərin alacalanacaq, təbiətin füsunkar möcüzəsiylə qarşılaşacaqsan. Mavi donlu Xəzərin gözəlliyinə, sehrinə, anbaan dəyişən rənginə tamaşa etmək üçün də – şiş qayalı, qartallı-qırğılı, marallı dağlara qalxmalısan.

Xatirə müəllimə axırıncı dəfə altı il əvvəl, yazın son aylarında orta məktəb yoldaşları ilə birgə Günəvər dağının zirvəsinə qalxmış, həm dənizi, həm də ovuc içi kimi görünən Kürəkçi kəndini, onun yuxarıdan kibrit qutusunu xatırladan qırmızı kirəmitli evlərini seyr eləmişdi...

Xəzail müəllim yüngülcə gülümsünmüşdü:

– Bərk fikrə getmisən, qızım. Hələ nə yaşın var, cavansan, çalış yüz yeyənin olsun, bir deyənin olmasın. Dur get, dediklərimə də əməl elə, köhnə bazara təzə nırx qoymayacaqsan ki? Müdrik atalarımız boş yerə deməyib ki, palaza bürün, elnən sürün.

Xatirə müəllimə Xəzail müəllimlə mübahisə etməyin mənasız olduğunu anlamışdı. Odur ki, artıq-əskik bir söz demədən otaqdan çıxmışdı.

Söhbətin belə bir məcraya yönəlməsi isə Xəzail müəllimi razı salmışdı. Ona elə gəlmişdi ki, Xatirə müəlliməni şirin dillə düz yola gətirib – O, Xatirə müəllimə otaqdan çıxan kimi gülümsəyə-gülümsəyə zəngin düyməsini basdı, katibəyə, onu Kürəkçi kəndinin məktəbinin direktoru ilə calaşdırmağı tapşırdı.

Aradan heç üç-beş dəqiqə keçmədi ki, Bəhmən müəllim maarif şöbəsinin müdirinə razılığını ifadə etmək üçün telefon xəttinin o biri başında dəridən-qabıqdan çıxmışdı:

– Xəzail müəllim, çox sağ olun. Allah kölgənizi üstümüzdən əskik etməsin. Deyirsiniz, qızı necə ram etdinizsə, bircə kəlmə də deyə bilmədi, axıracan susdu, hə? Özü də bir az qaraqabaqdı, amma dərs vaxtı, bir də, bizimlə höcətləşəndə, bizi gözümçıxdıya salanda, aslana dönür. Ağzı nədi, sizin yanınızda dinib-danışsın, ya cavab qaytarsın. Inşallah, xəcalətinizdən çıxarıq, şənbə günü axşam bu məsələni «Kəklik» restoranında ayrıca «yuyarıq». Qoy hələ məktəbə gəlsin. Yaxşı deyiblər: «Sirkə nə qədər tünd olsa, öz qabını çatladar».

***

Kamil müəllim avtobus dayanacağında çox gözləmədi. O bilirdi ki, Xatirə müəllimə indilərdə gəlməlidir. Düşündüyü kimi də oldu.

Xatirə müəllimə onu görəndə çaşdı, sonra tez özünü ələ alıb dedi:

– Xeyir ola, Kamil müəllim, siz burda nə edirsiniz?

Kamil müəllim qıpqırmızı qızardı, handan-hana özünə gəlib dedi:

– Xatirə müəllimə, məni bura elə bir qüvvə gətirib ki, qarşısında acizəm.

– Bilmək olarmı o hansı qüvvədir elə?

– Məcnunu çöllərə salan, Kərəmi külə döndərən...

– Kamil müəllim, mən elə bilirdim siz təkcə tarixi yaxşı bilirsiniz. Deməli, ədəbiyyatı da... məhəbbət dastanlarını da...

– Xatirə müəllimə, məgər, biz nağılla, dastanla, bayatı ilə nəfəs almamışıq? Bir də, axı, hər bir adam öz xalqının ədəbiyyatını bilməli, üstəlik, təbliğ də etməlidir.

– Necə başa düşüm? Belə çıxır ki, siz ədəbiyyatımızı mənə təbliğ edirsiniz?

Kamil müəllim yüngülcə gülümsədi və dedi:

Bir pəri-silsileyi eşqinə düşdüm nagah,

Şimdi bildim səbəbi-xilqəti-Adəm nə imiş?

– Bəs şərhi? Füzulinin dahiliyi onun qəzəllərinin izahındadı.

– Yəni, bir gözəlin eşqinə düşəndən sonra Adəmin nələr çəkdiyini bildim.

Qəfildən Xatirə müəllimənin yadına düşdü ki, Kamil müəllim bir neçə gün bundan əvvəl ona qəzet vermiş, dördüncü səhifədəki «Izin üstə izlər bitib» şeirini oxumağı məsləhət görmüşdü. Xatirə müəllimə bu şeiri oxumuşdu:

Addımını yavaşca at,
Yerişinə el olub mat.

Həyət düyün vurub qat-qat,
Ürəyimdə qəhər bitib.

Kədərimi içə-içə,
Dözüm daha gəlmir vecə.
Gözlərində yatır gecə,
Üzündə al səhər bitib.

Qınasa da çoxu məni,
Aparmayır yuxu məni.
Yaman basıb qorxu məni,
Izlərində izlər bitib.

Indi qəti qərara gəldi: bu, eşqnamədir! Ancaq, yaxşı ki, qorxur, qısqanır, qısqanırsa, deməli sevir. Utandığından, onsuz da, al olan yanaqları bir az da allandı. Uzun kiprikləri al yanaqlarına kölgə saldı. Amma, susdu. Susdu deyəndə ki, söhbətin səmtini dəyişdi. Hələlik belə lazım idi.

– Eh, Kamil müəllim, mən nə hayda, siz nə hayda? Başım qeyli-qaldan açılmır. Anadan olduğum gün də yadımdan çıxıb. Bu işin axırından gözüm su içmir...

– Xatirə müəllimə, məktəbdə səndən bərk qorxurlar. Gözlərinin odunu almısan. Yuxarılar da əl-ayağa düşüb. Mübarizəni davam etdirin. Eşitdiyimə görə, kolxoz sədri Niyazı çağırıb deyiblər ki, Kürəkçi kənd məktəbinin direktoru kimi sən də rəqəmləri şişirdirsən. Qorxusundan başını itirib.

– Tək qalmışam meydanda, Kamil müəllim. Valideynləri üstümə qaldırıblar. Anam da dedi-qodudan, ağızlarda dolaşan söz-söhbətdən çəkinir. Amma, öldü var, döndü yoxdu.

Onların söhbətini Kürəkçi kəndinə gedən köhnə avtobus sürücüsünün qalın səsi kəsdi:

– Hər kəs yerini tutsun. Allah, Məhəmməd, ya Əli. Yola düşdük...

***

Xatirə müəllimə rayon mərkəzindən qayıdandan sonra Kamil müəllimlə aralarında olan bu söhbəti xeyli götür-qoy etdi. Özünü qeyri-həssaslıqda, qeyri-səmimilikdə qınadı: «Nə olsun maşını yoxdu, bir az kasıbdı? Zakir müəllim kimilərinin mininə dəyər. Qohum-əqrəba, pul-para hesabına diplom almayıb ki? Öz mənliyi, ləyaqəti, izzəti-nəfsi, dünyagörüşü var. Var-dövlət insanın ağlıdı, mənəvi saflığıdı, bütövlüyüdü. Həyatda bir az qənaətcil olsan, israfçılığa yol verməsən, dünyanın var-dövlətini yığarsan. Mənəvi dəyərlər isə, iliklə, qanla, südlə gəlir. Qüdrət müəllim demişkən, o qədər varlı-karlı, «tuz» bədbəxtlər var ki, sayı-hesabı yoxdur...».

***

Xatirə müəllimə fikirli-fikirli yatdığından, qarmaqarışıq yuxular gördü, anasının «vay» səsinə yuxudan ayıldı:

– Kimin qızı özünü asıb? Qara Nisənin? Vəsilə? Niyə? Haçan olub?

Qonşu arvad əhvalatı yerbəyer danışmağa başladı:

– Nə bilim, ay Əminə? Başına dönüm, kənd yeridi, hərənin ağzından bir söz çıxır. Yalan desəm, imanımı yandıraram. Gah deyirlər zavallı məktəbdə «iki» aldığına görə canına qəsd eləyib, gah da deyirlər, ot-ələf daşımaqdan, kolxozda işləməkdən bezikib... Mərkəzdə qırmızıpapaqlılar xəbər tutub, prokuror gəlib, xəstəxana maşınının züyültüsünə ayıldım. Bəhmən müəllimi də çağırıblar, ordadı. Allah axırını xeyir eləsin.

Xatirə müəllimə həyəcanlı halda yatağından qalxdı. Paltarını geyinə-geyinə yenicə gördüyü yuxunu xatırladı: «Vəsiləgilin sinfində dərs keçirdi, deyəsən, inşa yazdırırdı. Şagirdlərdən kimsə xəlvətcə durub işığı söndürdü. O nə qədər çalışsa da, bu dəcəl şagirdi tapa bilmədi. Kimdən soruşdusa – yerini demədilər. Qırx beş dəqiqə tamam oldu. Xatirə müəllimə ömründə ilk dəfə dərs keçə bilmədi, pərt halda, Bəhmən müəllimin tənəli baxışları ilə rastlaşdı...».

Bu dəfə qonşu arvad pəncərəyə söykənmiş Əminə xalaya tamamilə təzə məlumat verdi:

– Ölmüşü çatdırıblar rayon xəstəxanasına. Iynə vurandan sonra ayılıb, deyirlər, sağalacaq.

– Allah ağzından eşitsin.

Xatirə müəllimənin keçirdiyi daxili sarsıntıları başa düşmək olardı – şagirdi canına qəsd eləmişdi. O gah Dostoyevskinin «Cinayət və cəza» romanını varaqlayır, gah yeddincilərin yazı dəftərlərini yoxlayır, gah da bir yerdə qərar tuta bilmədiyindən, otaqda var-gəl edirdi...

Vəsilənin anası Qara Nisənin vay-şivənlə həyətdə dediyi «Mənim balamın axırına o təzə gələn müəllimə çıxdı» sözlərini iki daşın arasında Əminə xalaya çatdırmışdılar. Xatirə müəllimə bütün bunları götür-qoy edir, öz günahsızlığını sübuta yetirmək üçün dəlillər axtarırdı. Elə bil, o həm hakim idi, həm də məhkum. Bir fikir isə beynindən heç cür çıxmırdı: «Kaş ölməsin, yoxsa, mənəvi əzabdan yaxa qurtara bilmərəm».

Qonşu arvad artırmadan səsləndi:

– Əminə, ay Əminə, Xatirə müəlliməyə de ki, müəllim yoldaşı Kamil gəlib...

Kamil müəllim qapının ağzında dayanmışdı. Qapı açılan kimi dedi:

– Mən indicə reanimasiya şöbəsi ilə əlaqə saxladım. Artıq təhlükə sovuşub. Iynə-dərmandan sonra yazıq qız özünə gəlib. Müstəntiqə ifadə verib. Sən demə, analığı döyüb, söyüb, deyib bir də məktəbə getsən, od vurub səni yandıracağam. Kitab-dəftərlərini, gündəliyini də aparıb atıb təndirə. Ürəyi bununla da soyumayıb, bir odun parçasını götürüb cumub qızın üstünə. O da qaçıb girib dama, qapını da arxasından bağlayıb. Sonra da canına qəsd edib... Hə, bir də müstəntiqə deyib ki, məni Xatirə müəlliməyə verin, ögey ananın yanına göndərməyin...

Əminə xalanın çöhrəsi işıqlandı:

– Çox sağ ol, ay oğul.

Əminə xala bu sözləri o qədər arxayınlıqla dedi ki, Xatirə müəllimə də özünə gəldi və şəstlə Kamil müəllimin «hüzuruna» çıxdı...

***

Son rüb başa çatdı. Bu ərəfədə rayonda heç kəsin gözləmədiyi ciddi dəyişikliklər baş verdi. Maarif şöbəsinin müdiri Xəzail Həsənəliyev işdə yol verdiyi nöqsanlara görə vəzifəsindən azad edildi. Bir neçə məktəb direktoru da işdən uzaqlaşdırıldı. Bəhmən müəllimin yenə də bəxti gətirdi. Kişi 70 yaşın

astanasındaydı, təhsil cəbhəsində «Fərhadsayağı külüng çaldığına» görə səhvləri bağışlandı. Təntənəli şəkildə təqaüdə göndərildi. Kürəkçi kəndinin məktəbinin təlim-tərbiyə işləri üzrə direktor müavini – Fəzail müəllim də vəzifəsilə vidalaşdı. Rayon maarif şöbəsinə rəhbərlik edən yeni şəxs Kürəkçi kəndinin məktəbində direktorluğu müvəqqəti olaraq Qüdrət müəllimə, təlim-tərbiyə işləri üzrə direktor müavinliyini də Kamil müəllimə tapşırdı.

– Qızım, «Palaza bürün, elnən sürün» – deyiblər. Və bir də «El hara, sən də ora» – söyləyiblər. Bir qədər təmkinli və səbirli ol. Hər şeydən ötrü coşub-daşma. Bir iş görəndə yaxşı-yaxşı düşün. – Bu sözləri ertəsi gün Əminə xala öz ciyərparası Xatirəyə dedi.

Xatirə müəllimənin eyni açıldı, kefi duruldu, Əminə xala gülümsəyə-gülümsəyə:

– Ana, bilirəm, Vəsilənin məsələsində hələ də məni günahkar hesab edirsən, – dedi.

– Yox, qızım. Amma bilirsən ki, başından bir tük əskik olsa...

Xatirə müəllimə həyatında ilk dəfə anasının sözünü ağzında qoydu:

– Əleyhdarlarım belə şayiə yayırlar ki, bu işdə xata məndən keçib. Amma bir nəfər durub demir ki, müəllimin şagirdlə nə ədavəti, nə prinsipi? Vəzifəsi yoxdu – onda gözü olsun, geyim-keçimi, qiymətli daş-qaşı, zər-zibası yoxdu paxıllığını çəksin. Müəllimin vəzifəsi də öyrətmək, şagirdin vəzifəsi – öyrənməkdir. Ay ana, təndirə yapdığın kündə küt gedəndə heç yanıb-yaxılıb, heyifsilənmisən?

– Əlbəttə, qızım. Kim istəyər ki, əziyyəti hədər getsin?

– Bax, mən də dərs deyirəm, istəyirəm hər bir şagird elm öyrənsin, savadlı olsun, kəndimizin adını ucaltsın, əsil vətəndaş kimi yetişsin. Sabah da ağzıgöyçək valideyn ardımca qeybət qırmasın, deməsin filankəsin qızı başını girləyir, havayı maaş alır, haramı olsun.

– Qızım, mən dedi-qodudan qorxuram. Məsəl var, deyir, yüz yeyənin olsun, bir deyənin olmasın.

– Mən elə bir qəbahət iş görmərəm ki, sevimli anam ondan xəcalət çəksin, el içində başını aşağı diksin...

Əminə xala səsinin ahəngini bir az da yumşaltdı:

– Əlbəttə, mənim balam elə tərbiyə almayıb. Hələ nə yaşın var ki, adına söz qoşulsun. O Kamil müəllim kimdi?

– Cavan oğlandı, evləri də kəndimizin yuxarı başındadı. Yadındadı, Vəsilə xəstəxanaya aparılandan sonra hamımız tələş içində xəbər gözləyirdik. Sən də pəncərənin qabağında qalmışdın. Kamil müəllim gəldi, dedi ki, reanimasiya şöbəsinin əməkdaşları ilə əlaqə saxlamışam, Vəsiləyə heç nə olmayıb.

– Hə, yadıma düşdü, o utancaq oğlan. Allah onu min budaq eləsin. Subaydırsa, toyunu görək.

– Subaydır, ana, subaydır...

Əminə xala mənalı tərzdə qızının üzünə baxdı. Xatirə müəllimə heç bilmədi ki, «subay» kəlməsini niyə iki dəfə təkrar etdi.

Əminə xalanın savadı olmasa da, güclü fəhmi var idi. Elə bil, bu bir sözdən qızının qəlbini oxudu. Istədi, yenə nəsə soruşsun, amma bacarmadı...

Üzünə xəfif qızartı çökmüş Xatirə müəllimə baxışlarını uzaqlara dikmişdi. Bəlkə, elə bu anda onun nigaran baxışları Kamil müəllimi arayıb-axtarırdı. Kim bilir? Əminə xala yaxınlaşıb qızının saçlarını tumarladı, boynunu qucaqlayıb üzündən öpdü:

– Deyirəm, vaxtdır, qızım, biz də bir çal-çağır, toy görək...

***

Dünyanın qəribə işləri varmış, eyni günün eyni vədəsində eynilə bu cür söhbət Kamil müəllimlə anası Gülzar arvad arasında da olmuşdu, söhbət əsnasında Xatirə müəllimənin adı dəfələrlə çəkilmişdi. Axırda Gülzar arvad oğluna:

– Yaxşı seçmisən, bala. O qız od parçasıdı, Allah səni arzuna çatdırsın, – demişdi.

Iki həftədən sonra dərslər kəsildi. Ağsaqqallar elçi düşdülər. Bir neçə gün də ötəndən sonra həm Kamil müəllimgildə, həm də Xatirə müəllimgildə toya hazırlıq işləri görüldü...

***

Bütün bu əhvalatlardan sonra, həyatda elə şeylər vardı ki, dəyişdi, elə şeylər də vardı ki, olduğu kimi qaldı, dəyişmədi. Dəyişməyən milyon kilometrlərlə uzaqda – üfüqdə günəş yavaş-yavaş qımıldanan kimi Kürəkçi kəndinin məktəbinin müəllimlərinin yuxularından ayılması, isti yorğan-döşəklərindən qalxaraq yuyunması, tez-tələsik nahar eləməsi, geyinib-kecinib məktəbə yollanmasıydı. Dəyişən isə, Kürəkçi kəndinin məktəbində artıq «iki»yə bilənin «iki», «üç»ə bilənin «üç», «dörd»ə bilənin «dörd», «beş»ə bilənin «beş» almasıydı, şübhəsiz ki, müəllimlik sənətinin dadı-duzu, ləzzəti də elə bunda idi...

Hə, bir də, qəribə də olsa, məktəb zənginin səsindəki o zəhm, o qorxu, o xof yoxa çıxmışdı. Elə bil bu dünyada nə müharibə olmuşdu, nə bu kəndə hərbi komissar gəlmişdi, nə də bu kənddən cavan uşaqları yığıb cəbhəyə aparmışdılar...

Hə, bir də, Bəhmən müəllimin, hətta, xəritədə Kürəkçi kəndini, bu kəndin məhəllələrini, məktəbini, idarəsini, klubunu, kövşən yerlərini göstərən «coğrafiya çubuğu»nu rayon mərkəzindəki Tarix və Diyarşünaslıq muzeyinə vermişdilər...

Vəssalam–şüttamam!..

1982

YUXU

Xalq yazıçısı Anara

Ziya müəllim xidməti ezamiyyətdən qayıdırdı. Amma, yolun uzun olmasına baxmayaraq, nədənsə, təyyarə ilə uçmaq istəmirdi. Hiss edirdi ki, gərgin işdən sonra bərk yorulub. Odur ki, səyahət üçün ən maraqlı yolu seçdi. Bir-iki saat avtobusla yol getdikdən sonra, qonşu ölkənin liman şəhərinə gəlib çıxdı. Bilet alıb gəmiyə mindi. Ilk günü, demək olar ki, öz kayutunda keçirdi. Səfərinin necə keçdiyini xəyalında götür-qoy etdi. Hər şey nəzərdə tutduğu kimi olmuşdu…

Istehsalatı yaxşı təşkil etdiyinə görə keçən il onu beynəlxalq müsabiqənin qalibi seçmişdilər. Qızıl medalla təltif olunmuşdu. Indi, budur, Paris uzaqda, çox uzaqda qalsa da, par-par parıldayan qızıl medal əlində idi! Təltif sənədlərinə göz gəzdirdi. Arada istədi medalı döşünə taxıb, aynada baxsın… Özünə gülməyi tutdu. Qaytarıb yerinə – qutuya qoydu.

Olsa-olsa, bir günlük yolu qalırdı. Amma bu birgünlük yol Ziya muəllim üçün bir illik yol kimi görünürdü. O, istehsalat adamı idi, həm də, nə qədər istehsalat adamı idisə, elə bir o qədər də, hələ bəlkə ondan da çox ailə adamı idi.

Orta məktəbi arvadı Güləzərlə bir yerdə oxumuşdular. Bir-birlərinə isti münasibətləri də elə həmin vaxtlardan yaranmışdı. Gələcək taleləri haqqında bir-birlərinə heç nə deməsələr də, Güləzər gələn elçiləri geri qaytarmış, daxili bir inamla Ziya müəllimin yolunu gözləmişdi. Ziya müəllim də Güləzərdən heç bir vəd almasa da, onun gözlərinin dərinliyində yatan sədaqəti apaydın görmüşdü. Ziya müəllim ailə qurmaqda bir az gecikmişdi. Tay-tuşları bir-bir evlənib sıradan çıxsalar da, o tələsməmişdi. Nəhayət, aspiranturanı qurtarıb, istehsalata gələndən, özü işləyib məvacib alandan sonra anasının təkidli tələblərinə razılıq vermiş və «ona özün kimi istəyirsən seç» demişdi. Anası da Güləzərdən başqa birisinin adını çəkməmişdi. Əslində, Ziya müəllim yaxşı bilirdi ki, anası kimi seçəcək. Güləzərlə Ziya müəllimin evliliyi həyatlarında qeyri-adi heç nə yaratmasa da, onların ürəklərində olan məlum boşluğu silmişdi. Onlar bir-birlərini heç nədə ittiham etməsələr də, hərdən ötən

aylara-illərə qayıdır, həmin günlərin həstərini şirin xatirələrlə yad edirdilər.

Nəhayət, Ziya müəllimin ilk oğlu dünyaya gəldi. Ona gəncliyində itirdiyi atasının adını qoydu – Fariz. Sonra ikinci oğlu oldu. Ona da Ziya müəllim müharibədən qayıtmayan əmisinin adını verdi – Fəhmin. Allah üçün deyək ki, bu uşaqlar doğulmamışdan onların adları doğulurdu. Onu da deyək ki, ərlə-arvad arasında ad üstə heç bir söz-söhbət olmurdu. Sonra bir müddət uşaqları olmadı. Daha sonra Ziya müəllimin anası Laləzər xala rəhmətə getdi...

Iki il sonra Ziya müəllimin üçüncü uşağı – qızı doğuldu. Güləzərin təklifi ilə uşağın adını Laləzər qoydular. Kəndin ağzı göyçəkləri deyirdilər ki, uşağın adını anasının adına yaraşdırıb qoyublar. Yəni ki, Güləzər, Laləzər… Ziya müəllim isə yaxşı bilirdi ki, Güləzər bu adı qaynanasının xatirəsinə ehtiram kimi qoyub. Ziya müəllim yaxşı bilirdi ki, o Güləzəri necə sevibsə, anası da onu elə həmin hisslə sevib, əzizləyib.

Ziya müəllim qızı Laləzəri ailə dünyasının laləsi hesab edirdi. Indi o vaxtdan xeyli keçib. Laləzər ali təhsilli sinif müəlliməsidir. Böyük oğlu Fariz hakimdir, ikinci oğlu Fəhmin isə həkimdir.

Ziya müəllim bilirdi ki, Güləzər də, oğlanları da, qızı da onun yolunu gözləyirlər. Ziya müəllim bilirdi ki, o ailəsi üçün necə darıxıbsa, arvadı, uşaqları da onun üçün elə darıxıblar.

Yüngül yol çantasına alıb yığdığı qəlyanaltıları stola düzdü. Nahar elədi. Sonra uzanıb dincəldi. Gəminin aramsız, zəif ləngəri uşaq beşiyini xatırladırdı.

Yarıyuxulu-yarıoyaq vəziyyətində fikir ümmanına qərq oldu. Çoxdan yazmaq istədiyi qeydləri xəyalına gətirdi. Ha istədi qalxıb qələm və kağız çıxarsın, gücü çatmadı. Öz-özünə düşündü: yazmaq əzabı lap betər işdi.

Ziya müəllim bu əzabın götür-qoyundaydı. Hərdən dostları ona deyirdilər: istehsalatla yazı-pozu bir yerə sığmır. Bir də ki, yazı-pozu keçmişdə qaldı. Indi kimdi kitab oxuyan? Əslində də, müəssisə rəhbəri istehsalata üstünlük verir. Görürsən ki, kənardan da kimsə ona canıyananlıq edir:

– Ay qardaş, at o qələmi, vallah, axır ki, başına bəla olacaq bir gün. Sən elə çoxdanın söz eşidəni deyilsən.

Başqa birisi onun sözünə qüvvət verir:

– Heyif deyil istehsalat? Tapşırığını verirsən, hər kəs də öz işini görür. Hər sahənin də öz cavabdehi var. Ara sakitləşən kimi katibə çayını dəmləyir. Telefonlara cavab verir. Xoşun gəlməyən adama «Yanında iclasdır. Bir azdan zəng eləyin», qırsaqqız olana da «əlaqə saxlayın» deyir. Bir sözlə, xeyirsiz zəngin biri də sənə çatmır. Zalım qızı, elə bil, bu sahə üzrə elmi iş müdafiə edib. Kimə nə demək lazımdır, hamısını yaxşı bilir. Allah yeni sistemi çıxaranın atasına rəhmət eləsin. Vəzifə pillələri də ki, öz yerində. Dəyişdikcə, yuxarı qalxdıqca, ruhun təzələnir.

Ziya müəllim o adamları necə başa salaydı ki, yazmaq əzabının şirinliyini dünyanın heç bir neməti ilə müqayisə etmək olmaz. Hərdən ağız-ağıza verən dostlarının dəlilləri ilə razılaşmaq istəsə də, bu fikiri tez başından qovurdu və öz-özünə deyirdi: Yox, qəlbindən keçənləri kağıza köçürürsən, elə bil ki, yüngülləşirsən, çiyinlərindən yük götürülür. Yaxşı deyiblər ki, yazıya pozu yoxdur. Bir də görürsən ki, bir qəbir daşına köçürülmüş üç-beş kəlmə bəzən bir xalqın tarixini öyrənmək üçün açar olur. Elə isə, yazmalı olduqlarım niyə beynimdə çürüməli, məhv olmalıdır? Ittihamqarışıq düşüncələr Ziya müəllimin ixtiyarını əlindən almışdı. Heç yuxuya da necə getdiyini bilmədi…

***

Ona elə gəlirdi ki, uzaqda – suyun üzündə bir pilləkən var. Adamlar bu pilləkənlə üzüyuxarı qalxırlar. Lap yuxarıdakı adam pilləkənin başına çatanda, yerini aşağıdakı tuturdu. Ancaq bu vaxt yuxarıdakı yox olurdu. Aşağıdakılar üçün bunun fərqi yox idi ki, o yuxarıdakı hara getdi. Havaya uçdu, külək oldu, yağış olub yağdı, buxarlanıb buluda qarışdı…

Ziya müəllim özü, deyəsən, suyun üstündə olanlardan birinin arxasında idi… Yox, bu ki, gəmi-restorandır. Hə də, gəmi-restoran… Bir az irəli getsə, bəyəndiyi bir masanın arxasında əyləşə bilər. Nə böyük restorandır? Deyəsən, tanış adamlar da var. Üzünü yana çevirib keçmək istədi. Zaur1 əlini qaldırıb, onu dəvət etdi, özü də ürəklə, ağayana. Yanındakılar kimdir? Onları da tanıdı…

Zaurla «Beşmərtəbəli evin altıncı mərtəbəsi»ndən düşəndə tanış olub. Bu tanışlıq sonralar yaxınlığa çevrilib. Qədiri1 bir yay «Kür qırağının meşələri»nə gəzməyə gedəndə

görüb. Elbəyə2 də «Çimərlikdə» rast gəlib. Çoxdandı görüşmürdülər. Qədir nə yaman qocalıb? Zaur ondan – yəni Ziya müəllimdən 5-10 yaş böyük olar. Elbəy onların hər üçündən cavandır. Ziya müəllim süfrəyə baxdı. Çaxır butulkaları… pendir-çörək, yüngül çərəzlər. Hiss olunurdu ki, dostlar imkanlarına və şakərlərinə uyğun vaxt öldürürlər.

Zaur Ziya müəllimin əyləşməsi üçün stul çəkdi.

Ziya müəllim düşündü ki, xətir-hörmət olmasaydı da, Zaur alicənablığına binaən hökmən onu dəvət edəcəkdi. Qədir qocalmışdı. Ancaq qocalsa da, ötkəmliyini qoruyub saxlamışdı. Zaur zahirən daha müdrik görünürdü. Hiss olunurdu ki, cavanlığı çoxdan keçmiş olsa da, təravəti qalıb. Onun həyatdan doyduğunu sezmək üçün psixoloq-filan olmaq lazım deyildi.

– Yaxşı, mən xidməti ezamiyyətdən qayıdıram. Bəs bunlar? Deyəsən, bunlar qürbətdən gəlirlər, – Ziya müəllim düşündü – bu nostalgiya da qəribə xəstəlikdir. Buna Vətən həsrəti xəstəliyi də deyirlər. Bu xəstəliyin əlamətlərini diqqətli adamlar tez sezirlər, müsahiblərinin üz-gözündən, baxışlarından…

Dostlar gəmiyə müxtəlif vaxtlarda, ayrı-ayrı limanlarda minmişdilər. Söhbətlərindən, bir-birilərinə münasibətlərindən hiss olunurdu ki, araları kifayət qədər açıqdır. Həm də bir-birinə tikanlı, eyhamlı söz deməkdən də çəkinmirlər.

Ilahi, insan nə mürəkkəb məxluqdur! Illərlə Vətəndən kənarda olasan, Vətənə dönməyin həstərini çəkəsən, doğma dilində danışan bir kimsənin səsini eşitməyin həsbəndində olasan, həm də elə bu qürbətdən Vətənə dönəndə, «gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı» sözünün yovşan ətirli sehrinin çəkib gətirdiyi yolda görüşdüyün köhnə simsarlarla (bəlkə görüşəndə qucaqlaşıb öpüşüblər də, bəlkə kövrəliblər də) indi neçə gün bir yerdə yol gələ-gələ köhnə palan içi tökməyə başlayasan.

Qədir də, cavan Elbəy də Zaurun Ziya müəllimə hörmətini öz gözlərinin ifadələri ilə təqdir etdilər.

Ziya müəllimin süfrədə özünə yer eləməsindən sonra söhbətləri bir qədər səngisə də, yenidən ara qızışdı. Qədir özünəməxsus sərtliklə odun üstünə yağ tökdü: «Sən də dəyişmisən, sən də, sən də…» Əvvəl Elbəyə, sonra Zaura, özü də, düz gözlərinin içinə baxdı. Zaurun ikrahla yuxarıdan aşağı onu süzməyi beyninin qurdunu tərpətdi – bir də təkrar etdi:

«Hamınız dəyişmisiniz, ancaq elə köhnə qurumsaqlarsınız, ilbizlər, soxulcanlar, kərtənkələlər…».

Onlara baxanda, Elbəy çox cavan idi. Həm də Elbəyin söhbətə reaksiyası ləng, bir az da saymazyana olduğundan, belə qənaətə gəlmək olardı ki, düşünür: ey dadı-bidad, bunlar qocalıb xərifləyirlər.

– Qədir kişi, sənin bizi ittiham eləməyə haqqın varmı? – Zaur ədəbsiz sözlərlə cavab verməyi özünə sığışdırmadı. – Xəyalında isə dolandırdı: insan nə qədər həyasız olmalıdır ki, özünün keçdiyi yola baxmadan, yaşadığı həyatı saf-çürük etmədən, başqasını ittiham – özü də bu cür kəskinliklə ittiham etsin.

Qədir:

– Niyə yoxdur, ə?! Sizin kimi günümü bazlıqda, ad günlərində, yeyib-içməkdə keçirməmişəm ki?!

Zaur:

– Sən düz adam idin yerində-yurdunda yaşayaydın. Kəndinlə, el-obanla dil tapaydın. Camaata qurumsaq adı verəndə, hərənin vedrəsinə bir təpik vuranda bilmirdin ki, camaat səni görəndə üzünü yana çevirəcək?

Qədir:

– Hazır heç nəyin sahibi deyildim. Hardaydı Elbəy kimi atamın yığdığı pulları dəstə-dəstə qarmalayıb cibimə yığam. Nə sənin kimi kooperativ evim vardı, nə də atamın aldığı göy «Volqa». Camaatın da ki, Allahı yoxdur: kasıbı adam hesab eləmir…

Elbəy:

– Qədir əmi, adam bir az allahlı olar. Doğrudur, gəncliyimizdə atamızın bizə köməyi dəyib. Axı, sonralar bir özümüz öz gücümüzə dolanışıq yolu tapmışıq…

Elbəyin bu sözləri Ziya müəllimin iliyinə işlədi: fərli oğul neylər dədə malını? Fərli özü də qazana bilər, fərsiz qazana bilmədiyi kimi, olanı da saxlaya bilməyəcək. Ataların məşhurluğu, varı, dövləti oğulların bir müddət əlindən tuta bilər. Ancaq cəmiyyətdə hər kəs öz yerini özü qorumalıdır.

Qədir:

– Mən sizin kimi dondan-dona düşə bilmirdim. Siz buqələmun kimi fəsilə uyğun rənginizi dəyişirdiniz. Bəlkə, indi də eləsiniz.

Ziya müəllim, istər-istəməz, söhbətə müdaxilə etmək üçün dedi:

– Qədir, ay Qədir, bil ki, Zaur da, Elbəy də ləyaqətli adamlardır. Söhbət o deyil ki, hökmən təhqir üstə qurulsun.

Amma sözlərinin elə bir təsiri olmadı…

Gəmi asta-asta yırğalanırdı. Heç kimin ağlına gəlmirdi ki, bu gəmi bu gecə vaxtı sonsuz sularda necə üzür. Indi bu gəminin kapitanı hardadır? Sürət ölçən, istiqamət göstərən cihazların qarşısında əyləşənlər gecənin bu aləmində nə işlə məşğuldular? Deyirlər ki, «Titanik»dən bircə nəfər sağ çıxıb. Yüz il əvvəl okeanda nələr baş verdiyini bir vaxt danışmaq üçün tanrı o bir nəfəri şahid saxlayıb. Allahın işini nə bilmək olar? Min dəfə hesablanmış bir variant görürsən, alınmır. Bəlkə qəzalar elə belə hallarda baş verir?

Ziya müəllim gözaltı stollara baxdı. Ona elə gəldi ki, bu adamların hamısı bir-biri ilə haqq-hesab çəkir. Hamı nəyi isə bölməyin hayındadır. Hərçənd ki, içkinin təsirindən xümarlananlar, gənc qızlarla rəqs edənlər, özünü taleyin ümidinə buraxanlar da az deyildi. Xülasə…

Zaurun rəngi elektrik lampasının işığında ağappaq görünürdü. O, gəncliyində gözəl və biçimli oğlan idi. Elə Elbəy də. Amma Zaurun indiki ağlığı onun daxili həyəcanlarından xəbər verirdi.

Zaur:

– Qədir, sən bil ki, bu torpaqda yaşayan insanlara acıq eləməklə bu torpağın özünə arxa çevirdin. Bu məmləkətin başına gələnlər sənin kimi dönüklərin əməllərinin nəticəsidir.

Qədir:

– Bayaq dedim ki, mən dönük çıxmadım. Tüpürdüm hər şeyə.

Zaur:

– Nahaq yerə. Hər şeyə tüpürməyə haqqın yoxdur. Səltənəti bədbəxt elədin, damın altında qoydun. Sümüyümüzü hara caladın? Mən heç bir xalqa qarşı düşmən münasibətin tərəfdarı deyiləm. Amma bil ki, bu torpağın üstünə tank-topla

gələnlərin arasında, bəlkə, sənin də nəvələrin – Marinanın törəmələri vardı. Sənin Marinandan olan qızlarının – Leylanın, Səltənətin ancaq adları sənin idi. Bəlkə adlarını qoyduğun əzizlərinin dilində onlarla üç-beş kəlmə də kəsə bilməmisən.

Qədir bu sözlərdən sarsıldı. Xəyalı cavanlığına qayıtdı. Qaynatasının kasıb koması, Səltənəti qaynatasının xeyir-duası ilə təzədən öz evinə gətirməsi yadına düşdü. Qapıdan çıxanda kişinin sözləri qulaqlarında otuz ildən sonra təzədən cingildədi: «Sən də, ay oğul, az iç o zəhrimarı! Az iç, ay oğul, az iç, az iç, az iç…».

Qədir dillənmək istədi. Səsi boğuldu. Boşalmış şüşələri indicə görürmüş kimi nifrətlə süzdü… danışa bilməyib susdu…

Zaur da, Elbəy də, az qala, peşmanlıq hissi keçirəcəkdi. Əgər Qədir təzədən qəzəblə hücuma keçməsəydi.

– Zaur, sən qatilsən, Təhminənin ölümündə təqsirkarsan…

Zaur:

– Bəs sən ana bətnində ölən körpə uşağının, doğmaca övladının qatili deyilsən, o uşaq sənin çürük fəlsəfənin qurbanı olmadımı? Sənin düşüncən erkən orta əsrlər Şərqinin cahiliyyə təfəkkürü deyildimi: «Qız olsa, zaxota atacağam, öldürəcəyəm, bələyindəcə boğacağam». Qədir, heç kimin sənin lə düşmənçiliyi yox idi. Bu imici sən özün yaratmışdın.

…Gəmi-restoranda əhval dəyişmişdi… Indi ehtiraslar bir qədər soyumaqda, səngiməkdə, restorandakıların üzünə hüznlü bir kədər əhvalı çökməkdə idi. Çalınan musiqi də tamam başqa idi. Rəqs edən cavanların bir çoxu çəkilib kayutlara getmişdilər. Qalanlar və təzə gələnlər nisbətən yaşlı adamlar idi. Milli üçlük – tərzən, kamançaçalan və əlində dəf tutmuş xanəndə tələsmədən, karvan yolunun üstündə oturubmuş kimi, «Rast»ı ifa edirdilər. Xanəndə qürbətdə ömür keçirib qayıdan adamların ürək tellərini ehtizaza gətirmişdi.

Cavanlıq köç edər, qoyma gedər əldən zaman keçsin,
Inanma bir daha burdan qəribi karivan keçsin.

Ziya müəllim müsahiblərinin başı üstündən onların keçmişinə baxırdı: mənasız bir ömür sürmüş bu adamların

bugünkü qanlı mübarizəsi və bir-birini ittiham etməsi elə mənasız ömür yaşamaqlarını başa düşmək̂ləri ilə bağlıdır. Bircə onu başa düşmürlər ki, hər kəs öz taleyini özü yazdığı kimi yaşayıb. Yəni biri o birisi üçün günahkar deyil.

Xanəndə, deyəsən, səsini bir az da qaldırdı və bu anda Ziya müəllimin düşüncələri qırıldı.

Itən gənclik sorağilə qocalar yerdə süründükcə,
Büküldü bel, bu mümkünmü ömür daim cavan keçsin.

Ziya müəllimi dəhşətə gətirən o idi ki, bu adamlar bir-birinə elə qanlı-qanlı baxırdılar ki, elə bil, bir daha barışmayacaqdılar.

Xanəndənin səsi uzaqlaşan kimi oldu. Elbəy xəyallara dalmışdı. Elə bil ki, yaydı, çimərlikdə təzəcə tanış olduğu bir qızın belindən yapışıb, zarafat eləyir: «Asta yeri, kəmər düşər belindən…». Ancaq xəyaldan tez ayıldı. Deyəsən, yanaqlarına qızartı da çökdü. Ziya müəllimin zəndlə ona baxdığını görüb, özünü yığışdırdı və fikrindən keçənləri birnəfəsə dedi:

– Ziya müəllim, elə bilməyin ki, bütün bu işlərin sizə dəxli yoxdur. Əslində, bizi siz şikəst etmisiniz. Siz vaxtında bizə ağıllı yol göstərsəydiniz, bu gün bəlkə bu ittihamlar da olmazdı. Axı, siz cəmiyyətin bayrağısınız. Cəmiyyətin işığı zəka sahibləridir. Biz nə görmüşük? Gözümüzü açanda elə bir perronda dəyanmışdıq ki, oradan yalnız bir yol, bir qatar keçirdi…

Bu ara xanəndə zilə çəkdi. Elbəy, istər-istəməz, susdu.

Əziz ömrü şirin tut ki, keçər, bərbad olar, qafil,
Qədr bil, vermə gəl əldən həyati-cavidan keçsin.
Canı can verib alsaydın bilərdin qədrini şəksiz,
Bilərmi oğru mal qədrin, ələ yaxşı-yaman keçsin.

Elbəyin xanəndəni axıracan dinləməyə hövsələsi çatmadı. Tarzən mizrabı tellərə vuranda sözünə davam etdi:

– Tez-gec hamımız o qatara minməli, o məlum yol ilə getməliydik. Elə bilirdik ki, yeganə stansiyada və yeganə yolla gedən qatarda azadıq. Istəklərimiz də, bu istəklər uğrunda

mübarizəmiz də, nail olduqlarımız da bizim qanuni haqqımızdır. Doğrudur, siz ailə, uşaq sahiblərisiniz. Əsl həqiqətdə isə, bir növ, heyvanların nəsil artımı ilə müqayisədə...

Ziya müəllimin, az qaldı, beyni çatlasın: insan öz faciəsini bu qədər aydın dərk edə-edə, bu qədər gözübağlı o yolu gedə-gedə… Yaxşı ki, xanəndə varmış.

Nə qəmlərdən qəm əskilməz, nə bir nöqsan tapar şamdan,

Günün istər qara keçsin, ya istər şadiman keçsin.

Ziya müəllim gülümsündü. Əlbəttə, bu gülümsünmək deyildi. Bu, elə bil, edamqabağı ölümə qarşı istehza idi. Bu hal, həm də, qəzəbqarışıq hikkəyə – bir cavanın isterik vəziyyətinə aydınlıq gətirməli idi. Ehtiraslar, hisslər, emosiyalar coşanda sel kimi körpüləri yıxıb dağıdır. Elə bu anda Ziya müəllimin dostları, qohumları, qonşuları kino lenti kimi beynində sıralanmağa başladı. Bu gəmi – restorandakı adamları onlarla müqayisə etdi. Nədənsə, heç bir oxşarlıq tapmadı. Ancaq bu sıra ilə keçən adamların arasında professor Şəkərli ilişdi. Ziya müəllim, az qala, hər şeyi unudub Şəkərlinin həyətdə maşın yumağına baxırdı. Indi Ziya müəllimin xəyalında Elbəylə Şəkərli yerini dəyişmişdi. Indi Elbəy ağıllı məsləhəti eşitməyən qonşu kimi suyu həyətə axıdırdı… Ziya müəllimin yadına düşdü ki, bir xəstə qonşusu var, heç kim xətrinə dəymir. O da həyətdə hər gün maşın yuyur – unudur ki, bu həyətdə günlərin bir günü özü də ziyan çəkəcək. Bilmir ki, (əlbəttə ki, bilir) özünün körpə uşaqları da (professor Şəkərli də gec evlənmişdi, uşaqları heç yeniyetmə də deyildi) bu lehmədən keçəcək, bu çirkabdan qalxan mikrobları udacaq – həmin mikroblar münbit yerdə vərəm çöplərinə dönüb bu körpələri başlayacaq içəridən yeməyə…

Bütün bunları indi Elbəyə deməyin yeri idimi? Və yaxud bir mənası var idimi? Axı, o vaxt Elbəy də, Zaur da özlərini ən ağıllı ataların, ən ləyaqətli anaların övladları bilirdilər. Mənasız həyatlarını çox mənalı, zəngin bir həyat kimi qavrayırdılar.

Elə Murtuz kişi polkovnik mundirində özünü külli-ixtiyar sahibi bilmirdimi? Onun arvadı – Zaurun qaynanası Alya xanım hesab etmirdimi ki, adamlar gündə üç dəfə onun hüzuruna gəlib salam verməlidilər? Professor Məcidin – Zaurun atasının

mövqeyi bu deyildimi: kimi təhqir edirsən et, təki səni təhqir etməsinlər. Bu, cəmiyyətin ab-havası idi. Cəmiyyətin tapındığı düşüncə tərzi idi. Baxmayaraq ki, kitablarda, qəzetlərdə başqa cür yazılırdı. Həmin yazıların həyati reallıqla heç bir bağlılığı yox idi.

Yaxud Qədirin mühiti: həmin kolxoz sədrləri, hesabdarlar, müfəttişlər, mağaza müdirləri… nə düşünürdülər.

Ziya müəllim öz-özü ilə danışmış kimi daxili mükaliməni davam etdirdi: «Mən yaxşı başa düşürəm, Qədirin elədikləri bir etiraz idi. Ancaq ağılsız, mənasız etiraz idi. Özünə də, özgəsinə də, bütövlükdə cəmiyyətə də ziyan vuran etiraz kimə lazımdır?».

Axı, bu söhbətlərin yeri idimi? Bütün bunlar keçmişdə qalmamışdımı? Indi təkcə onlar yox, bu gəmidəkilərin elə hamısı qürbətdən gəlmirdimi? Əlbəttə, içərilərində Vətəndən yaxın günlərdə ayrılanlar da vardı, illər boyu arzuladığı Vətənə – həstərinə qovuşmağa can atanlar da…

Bəs, onda, bu insanlar bir-birindən nə istəyirdi?

Deyəsən, xanəndə qalxdığı – arzuladığı zirvəyə çatmışdı. Indi həmin zirvədən enməyə, oxuduğu muğama ayaq verməyə başlamışdı.

Nizami, varsa eşqin coş nəvayi ərğənun ilə,
Əlində saqinin, gəlsin, şərabi-ərğəvan keçsin.

Birdən Ziya müəllimə elə gəldi ki, yer yarıldı. Bütün restorandakılar – gəmiqarışıq stul-stol da tərpənmədən yerin tərkinə getdilər. Və elə bu an hamı düçar olduğu fəlakəti dərk etdi.

Gəmi bələdçisi əl uzadıb Ziya müəllimi son anda tutmuşdu. Indi həmin girdabdan çəkib çıxarmaq istəyirdi...

***

Ziya müəllim gözünü açdı. Bir-bir kayutları gəzib yatanları oyadan bələdçi limana çatdıqlarını xəbər verirdi.

…Dənizdən çıxan günəşin ilk şüaları dənizin mavi sularını qırmızı rəngə boyamışdı.

…Hələ dumanlı olsa da, uzaqda olsa da, sahil görünürdü. Adamların üzündə həyat sevinci, yeni günü yaşamaq həvəsi vardı.

…Ziya müəllimə elə gəldi ki, hələ heç kimin görünmədiyi o sahildə çoxlu adamlar var. Və o adamların arasında Güləzəri də, Fəhmini də, Farizi də, Laləzəri də apaydın görür.

2001

BIR GECƏNIN SEHRI

Böyük Bülbülün ömür-gün yoldaşı Ədilə xanıma

«Bülbül bizim yaradıcılığımızın ehtiraslı təbliğatçısı idi. O, nəinki müdrik məsləhətçi, müəllim, həm də ən müxtəlif janrlarda və miqyaslarda yaradılan bir çox əsərlərin – adi kütləvi mahnılardan tutmuş böyük, hazırda hamıya məlum olan simfonik əsərlərin və operaların təşəbbüskarı idi. Onun tələbkarlığı, heyranedici duyum qabiliyyəti və ən kiçik nöqsanlara qarşı barışmazlığı bizim üçün meyar idi».

Qara Qarayev

«Bülbül bizim (Qara Qarayevin və Cövdət Hacıyevin – H.M.) «Vətən» operasının yaradılmasında fəal iştirak etdi, bütün vokal partiyalarını redaktə etdi. Və əsər nəinki opera teatrının səhnəsində tamaşaya qoyuldu, həm də SSRI Dövlət mükafatına layiq görüldü».

Cövdət Hacıyev

Üzeyir bəy yalnız indi – yumşaq, rahat divanda əyləşəndə bərk yorulduğunu hiss etdi. Doğrudan da, bu gün konservatoriyada işi hədsiz dərəcədə çox olmuşdu: sübh tezdən kökdən düşmüş pianoları nizamlamaq üçün çağırtdırdığı usta Ağasi ilə görüşmüşdü, sonra birinci kurs tələbələrinə musiqi tarixindən bir qoşa saat mühazirə oxumuşdu, sonra yeganə, qədimi fortepianonun qoyulduğu böyük zalda, (buranın akustikası ifa üçün olduqca münasib idi) bu gün-sabah məzun olacaq vokalistləri dinləmişdi, sonra bəstəkarlıq fakültəsinin tələbələrinin yaradıcılıq işləri ilə tanış olmuş və onlara öz məsləhətlərini vermişdi, sonra müəllimlərlə görüşmüş, tədrislə bağlı bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparmışdı, sonra – gün lap əyilhaəyildə usta Ağasinin yenicə kökləyib qurtardığı pianolardan birinin arxasına keçib, çox xoşladığı xalq mahnılarını bir-birinin ardınca, həm də ara vermədən çalmış, çalmış, elə hey çalmışdı… Sonra… sonra dərslər qurtarmış, konservatoriyanın auditoriyalarına, dəhlizinə birdən-birə lal sakitlik çökmüşdü və beləcə axşam düşmüşdü…

Üzeyir bəyin evdə də işi çox idi. Birinci, bu gün cəbhədən gəlmiş – aydın və ya qarışıq xətlə yazılmasından asılı olmayaraq (artıq buna adət etmişdi) – bütün əksər məktublarını oxuyacaqdı və dünən, srağagün, ta srağagün olduğu kimi, onlardakı orfoqrafiya səhvlərini qırmızı rəngli qələmlə düzəldəcəkdi (Üzeyir bəy hətta qəzet və ya kitab oxuyanda da, bir müəllim kimi, bu vərdişindən əl çəkə bilmirdi), bəzisinə cavab yazacaqdı, bəzisini də çap olunmaq üçün qəzetlərə təqdim edəcəkdi. Ikinci, yeni hazırladığı dərslik üzərində bir qədər işləyəcəkdi. Üçüncü, yaradıcılıqla məşğul olacaqdı. Dördüncü… Beşinci… Məgər iş az idi – qurdaladıqca elə bir ucdan çıxırdı… Amma, nədənsə, Üzeyir bəy üstünə göyümtül, milə-mil parçadan örtük salınmış son dərəcə təmiz, səliqə-sahmanlı stolun üstündəki qalaq-qalaq kitablara, qovluqlara, üçkünc məktublara baxa-baxa qalmışdı; elə bil, içində nəsə bir nigarançılıq vardı, elə bil, darıxırdı… Nəhayət, uzun-uzadı tərəddüddən, götür-qoydan sonra öz-özünə dedi: «Yox, deyəsən, bu ovqatla bir iş görə bilməyəcəyəm».

Yumşaq, rahat divanda əyləşməyə hövsələsi çatmadı – ümumiyyətlə, son vaxtlar tez-tez belə səbirsiz olurdu – qalxıb otaqda var-gəl etdi. Sonra pəncərənin bir tayını açıb, eşiyə baxdı: hava tutqun idi, deyəsən, yağış yağacaqdı.

Qəribədir, zənni onu aldatmamışdı – şəhərin lap üstünə enmiş, qoyun tükü kimi tiftiklənmiş buludlardan (bu bənzətmə, nədənsə, uşağlığında elatla dağa-yaylağa getdiyi, yolda yağışa düşdüyü vaxtları yadına saldı) əvvəlcə bir, iki, üç damcı düşdü, sonra şıdırğı yağış başladı…

Bu, deyəsən, payızın ilk yağışı idi: bütün yayı günəşin qızmar şüaları altında bişən damların üstünün ərimiş, cadar-cadar olmuş qırının sapsarı kiri-pası köpüklənə-köpüklənə navalçalardan axırdı.

Üzeyir bəy pəncərənin o biri tayını da, qapını da açdı, zəif meh naxışları əllə tikilmiş yaraşıqlı, zərif pərdələri yüngülcə yellətdi – otağa tərtəmiz hava doldu…

Üzeyir bəy qeyri-ixtiyari pianonun arxasına keçdi, on barmağının onunu da şirmayı dillərin üstündə gəzdirdi, – bu qəfil yağışın, zəif mehin insan ruhuna gətirdiyi rahatlığa uyğun nəsə çaldı və yenə də qeyri-ixtiyari öz-özünə dedi: «Ilahi, adicə bir yağış insan qəlbində nələr oyatmır?!».

Yağış, Üzeyir bəyin gün ərzində canına hopmuş yorğunluğunu yuyub aparmışdı, zehnini açmışdı, ilham pərisinə qol-qanad vermişdi – bəlkə elə buna görə də pianonun arxasından qalxmaq istəmirdi…

Üzeyir bəy, elə bil ki, birdən-birə qapının ağzında hənirti hiss etdi. Barmaqlarını pianonun dillərindən ayırmadan soruşdu:

– Kimsən?

Hay verən olmadı. Üzeyir bəy fikirləşdi ki, görünür, külək qapını yüngülcə tərpədib. Yenə damcıların ritmini tutmağa çalışdı. Elə bu vaxt həmin hənirtini bir də duydu, bu dəfə nisbətən ötkəm səslə soruşdu:

– Kimsən? Niyə cavab vermirsən?

Nəhayət, qapının ağzındakı adam dilləndi:

– Mənəm… Tələbəniz…

Üzeyir bəy yenə barmaqlarını pianonun dillərindən ayırmadan soruşdu:

– Nə lazımdı?..

Qapının ağzındakı adam handan-hana dilləndi:

– Mühazirədə dediniz ki, maddi və mənəvi cəhətdən ehtiyacı olanlar müraciət edə bilərlər…

Üzeyir bəy yenə barmaqlarını pianonun dillərindən ayırmadan soruşdu:

– Nəyə ehtiyacın var?

Qapının ağzındakı adam dillənmədi.

Üzeyir bəy gülümsədi və dedi:

– Qapının yanında, kamodun üstündə – kasada pul var. Gör bəs eləyir?

Qapının ağzındakı adam duruxa-duruxa dedi:

– Burda çoxdur…

Üzeyir bəy yenə barmaqlarını pianonun dillərindən ayırmadan dedi:

– Sənə nə qədər lazımdırsa, o qədər götür…

Qapının ağzındakı adam bir qədər titrək səslə dedi:

– Sağ olun. Qapını örtüm, yoxsa açıq qalsın?

Üzeyir bəy yenə barmaqlarını pianonun dillərindən ayırmadan dedi:

– Açıq qalsın…

Üzeyir bəy pianonun arxasından qalxdı, otaqda o üz-bu üzə var-gəl elədi, pəncərənin önündə dayandı, gözlərini uzaqda, lap uzaqda – gecənin qaranlığında öləziyən işıqlara zillədi, çöhrəsini nisgil və nigarançılıq qarışıq bir qüssə bürüdü, indi o, nə təbiətin öz yağış barmaqları ilə bəstələdiyi bu əsrarəngiz tərənəni, nə də havanın insanın iliyinə-qanına işləyən, son hüceyrələrinə qədər gedib çatan sərinliyini duyurdu. Qəfildən öz-özünə dedi: «Yox, bu işə bir çarə tapmaq lazımdır».

Məsələ burasında idi ki, konservatoriyanın bəstəkarlıq fakültəsinin iki tələbəsi – Qara ilə Çövdət birlikdə yazdıqları «Vətən» operasını on gün bundan əvvəl Üzeyir bəyə göstərmişdilər. Dahi bəstəkar klassik opera janrının bütün tələblərinə cavab verən bu sənət nümunəsi ilə tanış olduqda heyrətə gəlmişdi: «Opera?! Bu yaşda?! Özü də belə bir milli ruh və koloritlə, peşəkarlıqla?!».

Üzeyir bəy Qara ilə Çövdəti təbrik etmişdi və eyni zamanda, söz vermişdi ki, nəyin bahasına olur-olsun, operanın səhnəyə qoyulmasına kömək edəcək…

Günlər keçirdi. Üzeyir bəy hər dəfə Qara ilə Çövdətin sual və nigarançılıq dolu baxışları ilə rastlaşanda düşünürdü: «Elə bilirsiniz yadımdan çıxıb? Yox... Gərək yüz ölçəm, bir biçəm, elə edəm ki, qaş düzəltdiyim yerdə göz çıxartmayam. Asan məsələ deyil...».

Sənətin çətin yollarında hələ kövrək addımlarını atan (özü də ideoloji cəhətdən belə qarmaqarışıq bir zamanda) iki gəncin (nə qədər istedadlı olsalar da) – Qara ilə Çövdətin birdən-birə irihəcmli əsərinin səhnəyə çıxarılması, doğrudan da, asan məsələ deyildi: bundan ötrü, ilk növbədə, respublikanın «yiyəsinin» – Mircəfər Bağırovun razılığı lazım idi…

Doğrudur, Mircəfər Bağırov Üzeyir bəyin hörmətini saxlayırdı – hər halda, üzdə belə idi – sözünü yerə salmırdı, mədəniyyətlə bağlı məsələlərdə rəyini soruşurdu, hətta dediklərini qulaq ardına vuranda da nəzakət qaydalarına əməl edirdi, kiçikliyindən və ya böyüklüyündən asılı olmayaraq dövlət tədbirlərinə çağrılıb-çağrılmaması ilə həmişə maraqlanırdı, çox vaxt bu cür mərasimlərdə yerində əyləşməmişdən əvvəl ətrafına göz gəzdirib soruşurdu: «Hanı kompozitor (və yaxud yoldaş Üzeyir), gözümə dəymir…».

Bütün bunlarla yanaşı, Üzeyir bəy yaxşı bilirdi ki, respublikanın «yiyəsinin» ətrafında kifayət qədər əlləm-qəlləm adamlar da var və onlar bir himə bənddilər ki, istedadı olanlara (istər cavan olsun, istər qoca) bir anın içində heç nədən «antisovet» damğası vursunlar. Onların əlində adam şərləmək nə çətin işdir ki?..

Yox, Üzeyir bəy nə Mircəfər Bağırovun sərt baxışlarından, nə də onun ətrafındakı əlləm-qəlləm adamların fitnə-fəsadlarından qorxurdu. Arada iki istedadlı gənc – Qara ilə Çövdət vardı, onların arzu və ümidləri vardı, gələcəkləri vardı. Odur ki, ehtiyatlı olmaq istəyirdi – əlbəttə, bunu ağıl deyirdi, uzun illərin həyat təcrübəsi deyirdi…

Ancaq, eyni zamanda, Üzeyir bəy yaxşı bilirdi ki, təkcə ehtiyatlı olmaqla, suyu üfürə-üfürə içməklə kar aşmır, lazım gələndə, gərək risq də edəsən, sözünü deyəsən, inadla mübarizə aparasan, əzmkarlıq göstərəsən… Indi, bu gecə vaxtı, taybatay açılmış pəncərənin önündə düşünərkən, bu üsul, nədənsə, ona daha cazibədar göründü və risq etməyə qərar verdi: «Sabah elə qəbul günüdür. Gedəcəyəm. Danışacağam. Düzdür, qeyri-adi hadisədir. Amma dünya musiqisində bu cür erkən parlayan sənətkarlar az deyil. Inandırmağa çalışacağam. Istedad ağac kimidir: qayğı göstərərsən – böyüyər, qayğı göstərməzsən – quruyar…».

Üzeyir bəy bu cür risqli qərar qəbul edəndən sonra elə bil ki, fikirdən, qayğıdan bir balaca azad oldu, yüngülləşdi və asta addımlarla yazı masasına sarı getdi: indi cəbhədən gəlmiş üçgünc əsgər məktublarını oxumaq da, dərslik yazmaq da, hətta yaradıcılıqla məşğul olmaq da olardı…

* * *

Mircəfər Bağırov qəbula gələnlərin siyahısına baxanda duruxdu, zəngin düyməsini basıb, köməkçini yanına çağırdı:

– Gədə, sənə necə yol demişəm ki, kompozitorun adını siyahıya yazma, gələndə mənə xəbər elə, növbədənkənar burax…

– Yoldaş Bağırov, özü təkid elədi...

– Hm… təkid elədi… O, etik normaları gözləyir, bəs sən?

Mircəfər Bağırov son sözləri ucadan – qışqıra-qışqıra, qeyzlə dedi və bir müddət susandan sonra əlavə etdi:

– Sənə axırıncı dəfə xəbərdarlıq edirəm… Bir də belə qələt eləmə… Kompozitora de gəlsin…

Mircəfər Bağırov Üzeyir bəylə çox səmimi görüşdü, əyləşmək üçün ona yer göstərdi və dedi:

– Yoldaş Üzeyir, elə sizinlə görüşmək istəyirdim, bu vaxt qıtlığı… Bəs, siz niyə heç gəlmirsiniz? Səhv etmirəmsə, axırıncı dəfə üç ay bundan əvvəl sizi tədbirdə gördüm, elə-belə, uzaqdan… Nə etmək olar? Bilirəm, sizin də işiniz çoxdur… Səhhətiniz necədir?

Üzeyir bəy gülümsədi:

– Sağ olun… Pis deyil…

– Yaradıcılığınız?

– Şükür… O da pis deyil…

– Bilirəm, sənətkarlar sənətlərinə səhhətlərindən çox fikir verirlər… Fədakarlıq onların xislətindədir…

Sonra Mircəfər Bağırov ayağa qalxdı, otaqda bir xeyli var-gəl etdi, axırda divar boyu düzülmüş rəsm əsərlərinin qarşısında dayandı, onları bir-bir nəzərdən keçirdi (görünür, müharibə mövzusuna həsr olunmuş bu əsərləri kabinetinə lap təzəcə gətirmişdilər) və birdən-birə nəzərlərini Üzeyir bəyə zillədi:

– Lazımi təşkilatlara tapşırıq vermişəm, bu il konservatoriyanın istilik sistemi qış düşməmiş qaydaya salınacaq, musiqi alətləri sarıdan da korluq çəkməyəcəksiniz… Amma məni bir məsələ çox narahat edir… Gənclər… Gənclər ideoloji cəhətdən düzgün tərbiyə olunmalıdırlar. Onların qələmlərindən çıxanı elə o saat «bəh-bəh»lə qarşılamaq olmaz. Qoy çalışsınlar, təcrübə qazansınlar, püxtələşsinlər. Eşitdiyimə görə, konservatoriyanın iki tələbəsi bir opera yazıb, adını da qoyub «Vətən». Bircə elə o qalıb ki, döyüşdə şücaət göstərən, düşmənin canına vəlvələ salan sovet generalı ariya oxusun və yaxud səhnəyə tumançaq çıxsın. Bu, biabırçılıqdır, təhqirdir. Bu, sovet cəmiyyətini ələ salmaqdır! Adını da qoyurlar vacib mövzu… nə bilim, zamanın nəbzini tutmaq… milli musiqimizlə dünya musiqisinin sintezi… Amma içində sosialist realizmindən bir not da yoxdur!.. Belələrinə qarşı amansız olun, yoldaş Üzeyir! Burunlarını ovun! Görün könüllərindən nə keçir?! Bu rüsvayçılığı səhnəyə çıxarmaq! Ay-hay!.. Biz bilirik: bu, təxribatdır! Xarici kəşfiyyat istəyir ki, gəncləri ələ alsın!.. Yol vermərik!..

Bu vaxt telefon zəng çaldı, Mircəfər Bağırov dəstəyi qaldıran kimi rəngi ağardı və sakit səslə dedi:

– Bəli… Baş üstə… Bəli… Baş üstə… Bəli… Baş üstə… Bəli… Baş üstə… Bəli… Baş üstə… Bəli… Baş üstə… Bəli… Baş üstə…

Üzeyir bəy fikirləşdi ki, yəqin yuxarıdandı… Moskva… Kreml… Sərt nəzarət…

Gör respublikanın «yiyəsi» bir anın içində nə hala düşdü… Əlbəttə, qul psixologiyasının formalaşmasında bu cür sərt, amansız rəftar, güzəştsizlik mühüm rol oynayır… Köhnə bazara təzə nırx qoymaq çətindir… Ucu-bucağı görünməyən ölkə müharibə qayğıları ilə yaşayır… Bəli, belə bir qarışıq zamanda böyük qardaş kiçik qardaşın ən cüzi səhvini də bağışlamır. Bəlkə, heç bu bədbəxt oğlu bədbəxtin günahı yoxdu – əlacsız və mağmundu?..

Nəhayət, Mircəfər Bağırov telefonun dəstəyini yerinə qoydu. Dərindən nəfəs aldı. Bir müddət kirimişcə dayandı, sonra nəzərlərini Üzeyir bəyə zilləyib dedi:

– Nə danışırdım?.. Hə, sizə iki xoş xəbər vermək istəyirəm: bu il qışadək konservatoriyanın istilik sistemi qaydaya düşəcək, bir də təzə musiqi alətləri alacaqsınız.

Telefon danışığı Mircəfər Bağırova necə təsir etmişdisə, bir az əvvəl bu sözləri dediyini unutmuşdu…

Sonra Mircəfər Bağırov birdən-birə süni şəkildə gülümsədi:

– Cəbhədən də xoş xəbərlər gəlir…

Sonra zəngin düyməsini basıb, köməkçini çağırdı:

– Yoldaş Üzeyiri yola sal. O gələnlərə də de ki, bu gün qəbul olmayacaq. Çox vacib işim var, məşğulam…

***

Üzeyir bəy Mircəfər Bağırovun yanından çıxandan sonra hara getdiyini, deyəsən, heç özü də bilmirdi. Sanki qeyri-ixtiyari addımlayırdı: bəzən yavaş-yavaş, bəzən də bərk-bərk… O, ömründə bu cür hala düşməmişdi, bu cür dilxor və pərt olmamışdı; ona görə yox ki, risqi baş tutmamışdı, ona görə ki, hansı bir çuğulsa şeytanlıq eləmişdi – onun niyyətini (yəqin ki, konservatoriyada olan digər söz-söhbətləri də) Mircəfər Bağırova

çatdırmışdı. Kim idi bu çuğul? Iş yoldaşları bir-bir gəlib gözlərinin önündən keçdi: hər gün üzünə gülümsəyənlər, yaltaqlanmaq məqsədilə paltarının tozunu silənlər, səhhətinə görə narahat olanlar, yaradıcılığı ilə maraqlananlar… Kimdən şübhələnəsən? Məsəl var, deyir, mal bir yerə gedər, güman min yerə…

Üzeyir bəy ruhən sarsılanda – dara düşəndə həmişə Şuşanı, Cıdır düzünü, Xəzinə qayasını, Topxana meşəsini, Isa bulağını xatırlayırdı – bununla da, bütün sıxıntısı keçib gedirdi, qəlbindəki qəm və qüssənin, nisgil və nigarançılığın yerini ümid və inam alırdı. Amma bu dəfə, nədənsə, o doğma yerlər dadına çatmırdı: Cıdır düzünə baxırdı – Qara ilə Cövdəti görürdü, Xəzinə qayasına baxırdı – Qara ilə Cövdəti görürdü, Topxana meşəsinə baxırdı – Qara ilə Cövdəti görürdü, Isa bulağına baxırdı – Qara ilə Cövdəti görürdü…

Birdən kimsə qolundan yapışdı:

– Üzeyir bəy, salam. Nə yaman fikirli-fikirli gedirsən?

Bu, Bülbül idi. Üzeyir bəyin cavabını gözləmədən dedi:

– Elə yaxşı ki, sənə rast gəldim. Məmməd Səid naxoşlayıb. Gedək bazara, bir az ayın-oyun alaq, ona baş çəkək…

Üzeyir bəy güclə eşidiləcək səslə dedi:

– Mayestro, bu gün halım yoxdu…

– Nə olub?

– Heç… Bir az yorğunam…

– Heç nə olmaz… Gedək… Görüşüb, bir az söhbət eləyərik – yorğunluğun da keçib gedər…

Üzeyir bəylə Bülbül bazara girdilər. Bülbül piştaxtalara düzülmüş meyvələrə baxa-baxa dedi:

– Başlayırıq Ordubad nemətlərindən: tut qurusu, qoz ləpəsi, ərik, şaftalı, limon… Sonra keçirik Qubanın almasına, armuduna, Bakının üzümünə, püstəsinə, badamına… Vəssalam-şüttamam!..

***

Məmməd Səid dəmir çarpayıda uzanmışdı. Üzeyir bəylə Bülbülü görən kimi azca dikəldi. Hər ikisi ilə hal-əhval tutdu. Qırıq-qırıq danışırdı – hiss olunurdu ki, az da olsa, hərarəti var.

Ancaq, buna baxmayaraq, pəncərənin bir gözünü açıq qoymuşdular – otağın havası təmiz idi.

Bülbül soruşdu:

– Mirzə, nə olub? Deyəsən, yenə faqqılıq eləyirsən?

Məhəmməd Səid yüngülcə gülümsədi:

– Faqqılıq nədi, oğlan, ölürəm…

Bülbül zarafatla dedi:

– Mirzə, sən belə yalanları çox demisən, qəti inanmıram!

Məmməd Səid yenə yüngülcə gülümsədi:

– Yox, oğlan, bu xına o xınadan deyil…

Bülbül, həmişəki kimi, yenə də zarafatından qalmadı:

– Mirzə, indi ki, deyirsən bu xına o xınadan deyil, inandım… Nə etmək olar? Bu, həyatdır, hamımız gedəcəyik – birimiz tez, birimiz gec… Indi iş belə gətirib ki, o haqq dünyaya sən bizdən bir az tez gedirsən… Burda özgəsi yoxdu, üçümüzük, bu axırzamanda – gethagetdə kimdi səni sorğu-suala çəkən, düzünü de görək, dərgah deyilən, yəni, O var, yoxsa yoxdu?

Məmməd Səid azacıq dikəldi, ağappaq, tərtəmiz üzlük çəkilmiş yorğanın ucunu sinəsinə qaldırdı, əvvəlcə qapıya, sonra da bir gözü açıq qoyulmuş pəncərəyə baxıb:

– Oğlan, sən yenə də «klyauznı» suallar verirsən! – dedi.

Bülbülün bu ərkyana zarafatı (deyilənə görə, rəhmətliklərin bir-birləri ilə çox möhkəm zarafatları var imiş), Məmməd Səidin cavabı Üzeyir bəyin də eynini açdı, üçü də güldü…

Sonra evin xanımı çarpayının yanında qoyulmuş balaca stolun üstündəki süfrəni dəyişdi (süfrə, onsuz da, təmiz idi), çay, mürəbbə gətirdi. Ordan-burdan söhbət başladı – söz-sözü çəkdi, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir yada düşdü, bütün «Molla Nəsrəddin»çilər xatırlandı...

Məmməd Səid söhbətə elə aludə olmuşdu ki, xəstə olduğunu unutmuşdu, gümrahlaşmışdı, dirçəlmişdi, hətta arada yataqdan çıxmaq, paltarını geyinmək də istədi. Amma Bülbül buna qəti etiraz etdi:

– Olmaz, Mirzə, axı, bayaq dedin ki, bu xına o xınadan deyil…

Bülbülün bu növbəti zarafatına üçü də güldü. Elə bu vaxt evin xanımı Məmməd Səidə yaxınlaşıb, güclə eşidiləcək bir səslə dedi:

– Şəfqət bacısı gəlib, iynənin vaxtıdı…

Üzeyir bəylə Bülbül ayağa qalxdılar. Deyəsən, şəfqət bacısının gəlişi Məmməd Səidin heç ürəyindən deyildi; ya qonaqların getməsini istəmirdi, ya da iynə vurdurmaqdan, dərman atmaqdan xoşu gəlmirdi – hər halda, eşitdiyi sözdən narazı qaldığı üzündəki ifadədən açıq-aşkar hiss olunurdu…

Qapıdan çıxanda Bülbül dedi:

– Mirzə, tez sağal, arada vaxt tapıb Şuşaya da bir baş çəkək…

***

Bayırda mülayim bir hava vardı. Artıq qaş qaralırdı, diqqətlə baxanda göy qübbəsində adda-budda səpələnmiş ulduzları seçmək olurdu.

Üzeyir bəylə Bülbül «Dənizkənarı bulvar»a doğru səssizcə addımlayırdılar. Nəhayət, Bülbül sükutu pozdu:

– Üzeyir bəy, düzü, sənin əhvalın xoşuma gəlmir... Bəlkə nəsə olub? Məndən gizlətmə… Axı, biz dostuq…

Üzeyir bəy bir qədər tərəddüddən sonra naəlac qalıb bu gün baş verənləri – Mircəfər Bağırovun yanına necə getməyini, ordan necə çıxmağını müfəssəl danışdı və axırda dedi:

– Qara ilə Cövdətə söz vermişəm. Heç bilmirəm onlara nə deyəcəyəm… Təbii ki, ruhdan düşəcəklər… Ikisinə də heyfim gəlir… Çox istedadlıdılar…

Üzeyir bəyin pərtliyi Bülbülə də sirayət etmişdi; odur ki, dilxor-dilxor soruşdu:

– Mircəfər Bağırovun yanına xahiş üçün gedəcəyini bir adama demişdin?

– Yox. Təkcə Qara ilə Cövdət bilirdi. Görünür, ehtiyatsızlıq edib, hardasa ağızlarından qaçırıblar…

– Mən Qara ilə Cövdəti qınamıram… Gəncdilər… Həyat təcrübələri yoxdu… Hamını özləri kimi təmiz bilirlər… Sevincək olublar… Cuğulcu əclaflıq eləyib… Gərək Məmməd Səidə deyəydik, Mircəfər Bağırovla arası yaxşıdı… Ya da lazım deyil…

Başqa şey fikirləşərik… Bu işi mənim öhdəmə burax… Opera ilə tanış olaram… Bəyənsəm, məşqlərə başlayaram… Sonrasına da baxarıq… Gedək, səni yola salım…

– Yox, çox sağ ol, özüm gedəcəyəm. Gecən xeyrə qalsın.

Sağollaşıb ayrıldılar. Üzeyir bəy istəyirdi ki, evə piyada getsin, fikri bir az da dağılsın, elə bir-iki addım atmışdı ki, Bülbül bayaq zarafat edəndə – dərgah və Allah məsələsinə toxunanda, Məmməd Səidin əvvəlcə qapıya, sonra da bir gözü açıq qoyulmuş pəncərəyə döyükə-döyükə baxması yadına düşdü və qeyri-ixtiyari fikirləşdi ki, sovet rejimi nəinki gənclərin, hətta qocaların da burnunu ovur…

***

Konservatoriyanın dəhlizində bir tələbə Üzeyir bəyə yanaşdı:

– Salam, professor…

– Salam.

Üzeyir bəy tələbənin duruxduğunu görüb soruşdu:

– Nədi, bir sözun var?

Tələbə pörtdü.

Üzeyir bəy təkid etdi:

– Utanma, de…

Tələbə kəkələyə-kəkələyə dilləndi:

– O gecə puldan ötrü sizə gələn mən idim…

– Nə olsun?..

– Dedim, heç olmasa, məni üzdən tanıyasınız…

Üzeyir bəy ərklə dedi:

– Ə, sənin bu «yöndəmsiz» sifətin mənə lazım olsaydı, elə onda baxardım də.

Tələbə gülümsədi və getmək istədi. Üzeyir bəy dedi:

– Getmə. Hansı sinifdə oxuyursan?

– Skripkada.

– Adın nədir?

– Əli.

– Ə, deyirlər sən yaxşı skripka çalırsan…

– Nə bilim…

– Əli, Qaranı, Cövdəti tanıyırsan?

– Bəli.

– Onları təcili tap, yanıma gəlsinlər…

Əli konservatoriyanın auditoriyalarını bir-birinə vurdu, nə Qaranı, nə də Cövdəti tapa bildi – dərsləri çoxdan qurtarmışdı, görünür, evlərinə getmişdilər.

Əli eşitmişdi ki, Qaragilin evi elə bu həndəvərdə – «Nizami» adına kinoteatrın yaxınlığında olur. Fikirləşdi ki, yaxşı deyil, professor gözləyir, lap yüz qapını döyməli olsam da, tapacağam.

Əli bir-bir binaların bloklarına girir, qarşısına çıxanlardan – istər böyük olsun, istər kiçik – Qara adlı cavan oğlan tanıyıb-tanımadıqlarını soruşurdu. Kimi başını bulayır, kimi nəyisə xatırlayırmış kimi dayanıb düşünürdu – vaxt isə gedirdi…

Nəhayət, o, küçəyə baxan pəncərələrdən birindən piano səsi eşitdi və sövq-təbii fikirləşdi ki, deyəsən, buradı, tapmışam.

Qapını ehmalca döydü. Içəridən Əbülfəz kişi – Qaranın atası çıxdı və soruşdu:

– Kimi istəyirsən?

Əli tələsik dedi:

– Qara burada olur?

– Bəli.

– Evdədir?

– Bəli.

– Onu görə bilərəm?

– Bilirsiniz, Qara hər gün saat üçdən beşə kimi yaradıcılıqla məşğul olur… Bir yarım saata qurtarar… Istəyirsiniz, gəlin əyləşin, gözləyin, ya da bir sözünüz varsa, deyin, çatdıraram…

Əli kəkələyə-kəkələyə dedi:

– Üzeyir bəy Cövdətlə onu təcili gözləyir.

Əbülfəz kişi əl-ayağa düşdü və dedi:

– Yox, dayan. Əgər Üzeyir bəy çağırırsa, deməli, məsələ ciddidir, onda deyək, yaradıcılıqla sonra da məşğul olar…

***

Qara ilə Cövdət maestro Bülbülü Üzeyir bəyin kabinetində görəndə, nədənsə, bir-birinin üzünə baxdılar. Bunu görən Üzeyir bəy soruşdu::

– Partituranı gətirmisiniz?

Qara dərhal dedi:

– Bəli.

– Istəyirəm ki, maestro da bir baxsın, fikrini desin…

***

Xoşbəxtlikdən Qara ilə Cövdətin nigarançılığı uzun sürmədi – elə səhəri gün Bülbül özü konservatoriyada onları gördu, yeganə, qədimi fortepianonun qoyulduğu böyük zala apardı və dedi:

– Bu gündən məşqlərə başlayırıq… Amma nə opera, nə də səhnə barədə heç kəsə heç nə demirsiniz… Kim soruşsa, belə cavab verirsiniz: Üzeyir bəy maestrodan xahiş edib ki, dərsdən sonra bizimlə bir az məşğul olsun… Niyə, nədən ötrü? – Bilmirik… Vəssalam–şüttamam…

Ipək xasiyyətli Bülbül gənclərlə çox tez dil tapdı. Elə gün olurdu ki, yeddi-səkkiz saat məşq edirdilər. Konservatoriya Opera və Balet Teatrını xatırladırdı. Maestronun – bu qeyri-adi insanın ecazkar səsi, tükənməz həvəsi, şövqü, dramatik ariyaları, şux, oynaq mahnıları böyük məharətlə ifa etməsi Qara ilə Cövdəti daha da ruhlandırırdı…

Məşqlər artıq başa çatırdı – səhnə haqqında, yəni operanın tamaşaya qoyulması haqqında isə nə Üzeyir bəy, nə də Bülbül bir söz demirdi. Nəhayət, günlərin bir günü dördü də – müəllimlər və tələbələr Üzeyir bəyin otağında bir yerə yığışdılar. Söhbətə Bülbül başladı:

– Sabah Mirzə Fətəli Axundov adına Opera və Balet teatrında Böyük Oktyabr Sosialist Inqilabının iyirmi yeddinci ildönümü münasibətilə təntənəli gecə keçiriləcək. Sizə, bir də Qaranın atasına – Əbülfəz kişiyə dəvətnamə gətirmişəm, bilirsiniz də, onunla biz köhnənin dostuyuq. Gecədə Mircəfər Bağırov da iştirak edəcək. Işdi-şayət, tədbir xoşuna gəlsə, bizi təbrik edəcək – əlbəttə, həmişəki kimi səhnənin arxasında. Əgər

görsəm ki, kefi kökdü, ondan xahiş edəcəyəm ki, «Vətən» operasının səhnəyə qoyulmasına icazə versin. Amma bu haqda bir adama bir söz demirsiniz…

Qara ilə Cövdət bir-birinin üzünə baxdılar: yəni ki, baş üstə, arxayın olun…

***

Mirzə Fətəli Axundov adına Opera və Balet Teatrının salonu ağzına kimi dolu idi. Başda Mircəfər Bağırov olmaqla, partiya və hökumət rəhbərləri, görkəmli ziyalılar, ədəbiyyat və incəsənət xadimləri gecədə iştirak edirdilər. Əvvəlcə ənənəvi nitqlər söylənildi, təbriklər dillənildi və kiçik fasilədən sonra bədii hissə başlandı. Rus və Avropa bəstəkarlarının əsərləri çalındı, Azərbaycan mahnıları oxundu. Nəhayət, konferansye konsertin sonuna yaxın, yəni lap axırda salondakıların intizarına son qoyaraq, gülümsəyə-gülümsəyə dedi:

– Çıxış edir SSRI xalq artisti Bülbül!

Salonu alqış sədaları bürüdü. Qara ilə Cövdət bir-birinin üzünə baxdılar, hiss olunurdu ki, həyəcan keçirirlər, narahatdılar. Əbülfəz kişi onları sakitləşdirməyə çalışdı. Elə bu vaxt konferansye əlavə etdi:

– Üzeyir Hacıbəyov, «Koroğlu» operasından Koroğlunun ariyası. Fortopianoda müşayiət edir Kozlov.

Bülbül oxuduqca, Əbülfəz kişi altdan-altdan Mircəfər Bağırova baxırdı və bu qəddar, amansız insanın üzündəki zəhmin mum kimi necə əridiyini hiss edirdi.

Sonra Bülbül Leankovallonun «Məzhəkəçilər» operasından bir ariya oxudu. Alqış sədaları yenə göyə bələnd oldu. Ara azacıq sakitləşən kimi konferansye üçüncü müsiqi nömrəsini elan etdi:

– Qara Qarayev, Cövdət Hacıyev, «Vətən» operasından Mərdanın ariyası…

Qara ilə Cövdət bir-birinin üzünə baxdılar: axı, maestro belə deməmişdi…

Həmin anda Mircəfər Bağırov da Üzeyir bəyin əyləşdiyi səmtə qıyğacı bir nəzər saldı.

Əbülfəz kişi narahat oldu.

Bülbülün isə qəlb əfsunlayan qüdrətli səsi gah zilə qalxır, gah bəmə enir, dalğa-dalğa yayılır – salondakıları öz təsiri altına salırdı…

O axşam Bülbül başqa Bülbül idi – sənətin ən uca zirvəsində də yerə-göyə sığmırdı! Onun bu zəfəri Üzeyir bəyin zəfəri idi, Qaranın zəfəri idi, Cövdətin zəfəri idi…

Ariya başa çatdı. Salondakılar qüdrətli müğənnini alqışlamaq üçün dəstə-dəstə ayağa qalxdılar. Əbülfəz kişi kipriklərini qırpa-qırpa altdan-altdan Mircəfər Bağırova baxdı, yox, zənni onu aldatmırdı – ayaq üstə, camaatla birgə əl çalan o idi! – gecənin sehri gecənin xofunu üstələmişdi!..

2005

ÇIMƏRLIKDƏ

Əgər mavi, miləmil pərdənin açıq qalmış yerindən süzülən şıltaq və inadkar gün işığı düz gözünün içinə düşməsəydi, Elbəy yəqin ki, hər bazar günü olduğu kimi, bu gün də, xumarlana-xumarlana, azı-azı, hələ bir saat da yatacaqdı.

O, yerinin içində bir xeyli o üz-bu üzə qurcalanandan sonra, birdən-birə, necə oldusa, Röya yadına düşdü. Qeyri-ixtiyari əlini uzadıb telefonun dəstəyini götürdü – illərdən bəri yaddaşına həkk olunmuş nömrəni tənbəl-tənbəl yığdı və çox çəkmədi ki, xəttin o biri başından yaşlı qadın səsi gəldi:

– Alo…

Elbəy fikirləşdi ki, yəqin, anasıdır. Çəkinə-çəkinə soruşdu:

– Bağışlayın, Röyanı olar?

– Evdə yoxdur.

Elbəy dəstəyi yerinə qoydu və narazı halda üz-gözünü turşutdu: «Maraqlıdır, görəsən, səhərin gözü açılmamışdan hara gedib?» Və hiss etdi ki, bu müəmmalı suala cavab tapmaq o qədər də asan deyil…

Röyanı çoxdan – səhv etmirsə, onuncu, ya da on birinci sinifdən tanıyırdı. Bu qız, elə bil, yaşıdlarına nisbətən tez, həm də qəfildən – birdən-birə böyümüşdü, gözəgəlimli olmuşdu və

elə birdən-birə də oğlanların, hətta, deyilənə görə, ali məktəbi yenicə bitirib, işləmək üçün rayona gəlmiş bədən tərbiyəsi müəlliminin də diqqətini cəlb eləmişdi. Amma Röya, nədənsə, təkcə Elbəyə meyil edirdi, onunla tez-tez zarafatlaşır, küsüşür, barışırdı…

Maraqlıdır ki, yaşıdları arasında ilk dəfə dikdaban tuflini də Röya geyinmişdi. Bunu görən Elbəy ona söz atmışdı:

Asta yeri, kəmər düşər belindən…

Röya gülümsünmüşdü, hətta ürəyindən kəmər taxmaq da keçmişdi. Amma bir az sonra Elbəyin oxuduğu şeiri eşidəndə, əməlli-başlı dilxor olmuşdu.

Məktəbli qız, əynindəki
Nə şifondur, nə gülməxmər.
Fəqət gözəl görünürsən
Bu paltarda sən nə qədər.
Hər misalı həll edəndə
Tər üzündən axır dən-dən…
O danələr qiymətlidir
Min pay soyuq mirvaridən.
Hələ elmin yollarında
Yeriyirsən, min arzun var.
Yoxuş çıxan ayaqlara
Nə gərəkdi dikdabanlar?..

Elbəyin bu məzəmməti, doğrudan da, Röyanın xoşuna gəlməmişdi, incik halda demişdi:

– Nə olsun dikdaban tufli geyinmişəm? Dərslərimdən ki, «beş» alıram. Sinifdə hamı riyaziyyatı məndən köçürür…

Röya cavab gözləmədən gedəndə, ayağı burxulmuş, tuflisinin dabanı qırılmışdı. Çönüb, gülə-gülə ona tamaşa eləyən Elbəyə demişdi:

– Tuflimə gözün dəydi. Indi nə edəcəyəm?

Elbəy:

– Gedək, usta düzəltsin, – demişdi.

Röya gülümsünmüşdü:

– Onda, yaxşı, gəl qolundan yapışım. Yoxsa, belə gedə bilmərəm…

Yolboyu Elbəy hiss etmişdi ki, Röya qəsdən, bilə-bilə bütün ağırlığını onun qoluna salır və bundan xüsusi ləzzət alır…

Nə qədər qəribə də olsa, bu tufli əhvalatından sonra Elbəy Röyaya qarşı əvvəlkindən də soyuq olmuşdu, indi o, – aradan altı-yeddi il keçəndən sonra – bunu özünün gənclik səhvi kimi qiymətləndirirdi: uşaq olub, Röyanın saf məhəbbətini başa düşməyib, vəssalam…

Elbəy telefonun dəstəyini bir də qaldırdı və bu zaman nəzərləri babasının divardan asılmış şəklinə sataşdı və istər-istəməz, xəyalı keçmişə pərvazlandı.

O kiçik olanda hərdən valideynləri ilə birlikdə rayona – nənəsigilə gedərdi. Nənəsi – rəhmətlik onun yerişinə, duruşuna baxıb şəstlə deyərdi: babasına oxşayacaq! Bu sözlərdə, hardasa, həqiqət vardı. Elbəy həmişə idmanla məşğul olduğundan, bədəni ahəngdar inkişaf etmişdi. Onun eynən babası kimi hündür boyu, gur saçları, açıq alnı, ala gözləri, təmiz aydın sifəti, iti kəskin baxışları vardı, səsində qətiyyət və inam duyulurdu.

Elbəy, vəznəli çuxa geyinmiş, gümüşü xəncər taxmış babasının şəklinə uzun-uzadı baxsa da, fikrində kimə zəng vuracağını götür-qoy edirdi. Nəhayət:

– Hə, Fındıqburun, – dedi.

Nədənsə, anası, Ayçiçəyin adını «Fındıqburun» qoymuşdu. Hərdən elə Elbəyin yanındaca ona ərklə deyirdi:

– Ay qız, qarğıdalı kimi hara belə uzanırsan? Yoxsa, Elbəydən hündür olmaq istəyirsən? Qıçlarını sındıraram ha!

Yazıq qız bir söz deməz, rəng verib, rəng alar, xəfifcə gülümsəyərdi və hiss edərdi ki, Elbəyin anasının, belə deməsinə baxmayaraq, onun boy-buxunundan çox xoşu gəlir…

Sonra Elbəyin anası Ayçiçəyi qucaqlayıb öpərdi…

Əlbəttə, bütün bunlar çox xoş idi, amma Ayçiçək əsas sözü Elbəydən gözləyirdi, hərdən küçədə və ya həyətdə ona rast gələndə addımlarını yavaşıdırdı və o əsas söz deyilmirdi, qızcığazın qəlbindəki ümid qığılcımı iztirab və nigarançılıq alovuna dönüb bütün varlığını sarırdı…

Amma indi o vaxt deyildi. Elbəy uşaqlığın daşını atmışdı, böyümüşdü, nə az, nə çox, iyirmi beş yaşın içində idi, bir-iki il idi ki, institutu bitirmişdi, ucqar dağ rayonlarından birində prokuror işləyən atasının zəngindən sonra bir idarədə çox yaxşı işə düzəlmişdi.

Elbəy, tərəddüd içində olsa da, nömrəni yığdı və titrək səslə dedi:

– Ayçiçəyi (az qalmışdı Fındıqburunu desin) olar?

– Evdə yoxdu…

Elbəy dəstəyi yerinə qoydu. Öz-özünə düşündü: «Görəsən, hara gedib? Bəlkə elə Röya ilə bir yerdədi? Yox, onlar uşaqlıqdan bir-birini xoşlamırlar. Bəlkə Nəzrinə zəng eləyim?».

Nömrəni əzbər bilirdi – dərhal yığdı. Əvvəlki zənglərdən fərqli olaraq bu dəfə telefonu kişi götürdü:

– Bağışlayın, Nəzrini olar?

– Evdə yoxdu. Kimdi soruşan?

Elbəy cavab vermədən dəstəyi yerinə qoydu və yadına düşdü ki, məktəbdə uşaqlar Nəzrini «Ağ balıq» adlandırırdılar. Təkcə ona görə yox ki, ağ balıq kimi həm ağ, həm də kök idi, həm də ona görə ki, sürüşüb əldən çıxmağı bacarırdı …

Elbəyin ora-bura zəng etmək həvəsi birdən-birə büsbütün söndü. Qalxıb yuyundu, nahar elədi, paltarını geyindi, televizorun altındakı şkafı açdı, foto-jurnalın arasına yığdığı şax pullardan bir neçəsini götürüb cibinə qoydu və elə-belə, gəzmək üçün evdən çıxdı.

Pillələri düşə-düşə qapılara vurulmuş lövhələrdəki familyaları oxumağa başladı. Öz-özünə güldü – hər dəfə bu pillələri düşəndə, özü də hiss etmədən bu adları oxuyurdu. Bu nə vərdiş idi başa düşmürdü...

Həmişəki kimi, birinci mərtəbədə caz musiqisi səslənirdi. Kamil idi, görünür, konsertə hazırlaşırdı.

Elbəy küçəyə çıxan kimi parka sarı getdi. Birdən avtobus dayanacağına toplaşmış əli şey-şüylə dolu adamlar diqqətini cəlb elədi. «Bunlar hara gedirlər? Əlbəttə, çimərliyə! Yay çoxdan gəlib! Yəqin ki, Röya da, Ayçiçək də, Nəzrin də elə çimərlikdədirlər. Mən isə, heç mövsümü açmamışam…».

Elbəy parkla üzüaşağı enməyə başladı. «Azneft»in qabağındakı avtobus dayanacağına da xeyli adam toplaşmışdı. Maraqlıdır ki, çoxu da qız idi.

Nəhayət, avtobus gəldi. Basabas düşdü. Elbəy bir də baxdı ki, onu itələyə-itələyə avtobusun içinə salıblar. Keçib boş yerlərdən birində əyləşdi. Elə bu vaxt boy-buxunlu, sarışın bir qız onun yanındakı boş yeri tutdu. Qəribə idi, bu qız, elə bil, bir az Röyaya, bir az Ayçiçəyə, bir az da Nəzrinə oxşayırdı. Elbəy birdən-birə hiss elədi ki, uşaqlıqda (buna uşaqlıqdan başqa heç nə demək olmazdı) bu qızların hər üçünə qarşı gizli rəğbəti (bəlkə də gizli sevgisi) olub.

Elbəy keçmişi xatırlaya-xatırlaya sarışın qızın avtobusun şüşəsində güclə sezilən əksinə baxırdı…

***

Ucsuz-bucaqsız çimərlikdə yarıçılpaq adamlar qarışqa kimi qaynaşırdılar. Hava bərk isti idi. Daldalanmaq üçün hamı kölgəlik axtarırdı. Sudan təzəcə çıxanların yaş bədəni günəşin şüaları altında bərq vururdu. Birdən Elbəy diksindi… Röya… Yanında da Nahid… Onlar zeytun ağacından azca aralıda – kölgəlikdə yerə adyal salıb uzanmışdılar… Röya başını Nahidin tüklü sinəsinə qoymuşdu… Elbəyi görəndə heç qımıldanmadı da… Birdən Elbəyin çuxa geyinmiş, gümüşü xəncəl taxmış babasının şəkli gəlib gözlərinin önündə durdu…

Elbəy keçən həftə Nahidlə bilyard oynamışdı və həmişəkinin əksinə olaraq, uduzmuşdu. Nahid gözləri parıldaya-parıldaya demişdi:

– Səhv etmirəmsə, biz puldan oynayırdıq…

Elbəy gülümsünmüşdü:

– Hə…

– Bəs, niyə vermirsən?

– Nə vaxt udanda almışam?

– O sənin öz işindir…

Nahidin sözlərindəki ciddiliyi hiss edən Elbəy çıxarıb ona on beş manat vermişdi və demişdi:

– Amma mən udsaydım, götürməzdim…

– O yenə sənin öz işindir…

Nahid on beş manatı şəstlə qatlayıb cibinə qoymuşdu və onda pula qarşı olan hərislik Elbəydə ikrah hissi doğurmuşdu…

Nahidlə Röyadan bir qədər aralıda Ayçiçək – Fındıqburun bir oğlanla söhbət edirdi. Kim bilir, bir az gəzsə, bəlkə elə Nəzrinə də rast gələcəkdi?

Amma, nədənsə, Elbəy onları qınamadı.

Axı, onlardan heç birinə heç nə deməmişdi. Oturub onu gözləməyəcəkdilər ki…

***

Uzaqda ləpələr ağarırdı. Elbəy fikirləşdi ki, suya girməmişdən əvvəl yaxşı olar ki, özünə alababat bir yer tapsın. Futbol və voleybol oynayan oğlanların və qızların yanından keçib, ayaqlarını isti qum yandıra-yandıra bir xeyli ora-bura boylandı, amma münasib yer tapmadı. Birdən avtobusdakı sarışın qız gözünə dəydi, gəlib onunla üzbəüz dayandı. Qəribə də olsa, ürəyi döyündü, özünü narahat hiss etdi, deyəsən, elə qız da bir balaca pörtdü. Elbəy bu qeyri-müəyyən hissin təsirindən yaxasını qurtarmaq üçün oradan uzaqlaşmaq istədi, amma, nədənsə, bacarmadı, əlindəki paltarları elə dayandığı yerə qoydu və ağır addımlarla dənizə sarı getdi.

Su ilıq olmasına baxmayaraq, adamın bədənini sərinlədirdi. Elbəy əl-qol açdı, üzdü, üzdü, özünü hardasa, dənizin lap dərinliklərindən gələn bir dalğanın qucağına atdı, qayıq kimi atılıb düşdü, elə bu vaxt çimərlik qonşusunu – sarışın qızı lap yaxınlığında gördü və nəyə görəsə qürrələnmək, özünü göstərmək üçün əllərini başının altında çarpazlayıb, arxası üstə suyun üzündə uzandı və xeyli müddət beləcə qaldı. Sonra birdən-birə qışqırıq səsi eşitdi: «Kömək edin! Kömək edin!». Çönüb baxanda gördü ki, sarışın qız dalğaların qoynunda batır. Dərhal özünü irəli atdı. Peşəkarlar kimi, qızı dənizin dərinliklərindən sahilə sarı atdı, onun əldən düşdüyünü, halsız olduğunu görüb, dincəlməsi, toxtayıb özünə gəlməsi üçün belindən yapışdı.

…Bir azdan onlar sahildə idilər. Elbəy başını bulaya-bulaya dedi:

– Üzə bilmirsən, həm də elə dərin yerə gedirsən.

Qız dinmədi, mehriban nəzərlərlə xilaskarına baxdı. Elbəy bu dəfə lap məhrəm adam kimi soruşdu:

– Bərk qorxdun?

Qız yenə dinmədi.

Elbəy birdən ayağa qalxdı və dedi:

– Mən uşaq vaxtı bir şeydən qorxanda rəhmətlik nənəm həmişə deyərdi ki, su iç. Gedim sənə su alım, gəlim.

Qız soruşdu:

– Bir şeydən... yəni nədən qorxurdunuz?

– Ilandan...

Qızın əti ürpəşdi:

– Oy, ilandan mən də qorxuram.

Elbəy daha bir söz deməyib, su almağa getdi, tez də qayıtdı. Sakitcə dayanıb qızın su içməyinə baxdı:

– Bəlkə məni özünə cangüdən götürəsən… dənizdə…

– Olar… Ancaq mən tətil başlayandan hər gün dənizdə oluram… Sən də yəqin ki, iş-güc adamısan…

Qızın üzü od tutub yandı. Birdən-birə belə açıq-saçıq danışdığına görə xəcalət çəkdi. Elbəy onun bu halını hiss edib, tələsik dedi:

– Bəlkə dənizə gedək…

– Gedək…

Su sinələrinə qalxana qədər yanaşı getdilər. Birdən qız qəfildən sıçrayıb irəli cumdu. Elbəy özünü çatdıranda, qız artıq əllərini başının altında çarpazlayıb suyun üzündə arxası üstə sakitcə uzanmışdı. Elbəy karıxmış halda dedi:

– Başa düşmədim…

Qız gülümsündü:

– Hoqqa çıxarıram də... Olmaz?

– Bayaq suda batırdınız, indi isə, balıq kimi üzürsünüz…

Qız uğunub getdi:

– Bayaq cəsarətini yoxlamaq istəyirdim…

***

Elbəy çimərlikdə çox olmuşdu. Ancaq o, heç zaman adamları bu qədər sevincli görməmişdi. Keçirdiyi bu hiss, bəlkə

də, daxilindəki çarpışmaların sona çatması ilə bağlı idi. Deyəsən, hər şey yaxşılığa doğru gedirdi. Bayaqdan diqqətini çəkən bir mənzərə onu əmməlli-başlı düşünməyə zövq etmişdi. Beşcə addım o tərəfdə quma sancılmış çətirin kölgəsində gənc bir oğlan – elə Elbəylə həmyaş olardı – gənc bir qızla yanaşı uzanmışdı. Ayaqları güclə yer tutan bir körpə də onların yanında oynayırdı, təzəcə-təzəcə addım atırdı. Deyəsən, sarışın qız da bayaqdan bu mənzərəyə baxırdı.

Elbəy dedi:

– Çox qəşəng uşağdı.

Qız mənalı-mənalı gülümsədi:

– Hə… Adam lap yemək istəyir…

Elbəy mənalı-mənalı sarışın qızın üzünə baxdı və hiss etdi ki, deyəsən, həyatında, nəsə, ciddi bir dəyişiklik baş verir...

2000

HESAB ÇATIB

Dostum Əli Mahmuda

Şakir avtobusun yumşaq, rahat oturacağına yayılıb gələcək həyatı barədə düşünürdü: görəsən, yad, ucqar dağ rayonunda günü necə keçəcək? Harda qalacaq? Necə dolanacaq? Bilirdi ki, jurnalistlər heç vaxt, heç nədən korluq çəkmirlər, başlarını girləyirlər, harda olsalar, özlərinə ala-babat gün-güzəran yaradırlar. Ancaq uzaq rayon, adamlar da yad… Onlarla dil tapmaq üçün həm vaxt, həm də təcrübə lazım idi. Şakir isə təcrübəsiz idi, həyatın qoynuna hələ təzəcə atılırdı...

O öz-özünə təsəlli verdi: «Eybi yoxdur, bir-iki il işləyərəm, yaxşı olar, qalaram, yaxşı olmaz, qayıdaram».

Ancaq o, nə qədər optimist olsa da, hiss edirdi ki, qəlbində təskinliklə yanaşı bir nigarançılıq da var, odur ki, qəm-qüssə gətirən bu fikirlərdən yaxasını qurtarmaq üçün avtobusun pəncərəsindən çölə boylandı. Çöl isə yaxşı ki, bitib-tükənmək bilmirdi – uzandıqca elə hey uzanırdı. Otlar, kollar saralmışdı. Susuzluqdan yarpaqları qovrulmuş qovaqlar sanki ötüb-keçən

yolçulardan imdad diləyirdilər. Ətrafda bir ins-cins belə gözə dəymirdi…

Şakir universitetin jurnalistika fakultəsini yenicə bitirmişdi. Respublika qəzetlərinin birində məsul katib işləyən dayısı nə qədər çalışsa da, onun təyinatını Bakıya dəyişdirə bilməmişdi. Axırda naəlac qalıb demişdi: «Eybi yoxdur, cavan oğlansan, iki il işləyib qayıdarsan, oranın prokuroru ellimizdir. Çətinə düşsən, gedərsən yanına».

***

Avtobus adamla dolu idi. Sürücü oturacaqların arasına qoyduğu taxta stullarda çoxlu biletsiz sərnişin əyləşdirmişdi. Avtobus ağır-ağır irəlilədikcə, çölün istisi açıq pəncərələrdən içəri dolur və adamların üz-gözünü yandırırdı. Şakirə bir an elə gəldi ki, bu sıxıntılı və bürkülü yol heç vaxt qurtarmayacaq…

Sərnişinlərin əksəriyyəti rahat oturacaqlarda mürgüləyirdilər. Şakirlə yanaşı əyləşən yekəpər kişi də avtobus elə Bakıdan tərpənən kimi, gözlərini yumub yatmışdı. Özü də yaman bərk xoruldayırdı.

Nəhayət, avtobus bir neçə saatdan sonra sərhəd zonasının buraxılış-yoxlama məntəqəsinə çatdı. Adamlar aşağı düşdülər, istidən daldalanmaq üçün avtobusun kölgəsinə yığışdılar. Şakir ayaqlarının keyini açmaq üçün gəzişməyə başladı. Bu, nədənsə, sərhəd nəzarətçisinin xoşuna gəlmədi, onun pasportuna, sonra da buraxılış vərəqəsinə xeyli baxdı, baxdı, nəhayət, əmrlə:

– Sən gözlə, gözlə! – dedi və harasa çıxıb getdi.

Şakir öz-özünə deyindi:

– Belə də zülm olar? Yadelli gəlib burada sənə əmr versin, Vətəninin bir yerindən o biri yerinə getməyinə qadağa qoysun...

Onunla yanaşı dayanan yekəburun kişi irişə-irişə:

– Aşna, deyəsən, sən qayıtdın geri, – deyib Şakirin qanını bir az da qaraltdı.

Ancaq sərhədçi qayıdıb gələn kimi sənədləri ona uzadaraq:

– Prixodi, – deyib təkəbbürlə növbəti sərnişinin sənədlərini yoxlamağa başladı…

Bir azdan avtobus sanki daha da ağırlaşmış halda nərildəyə-nərildəyə sərin havası artıq yavaş-yavaş hiss olunan dağ rayonuna doğru üz tutdu.

Xatanın sovuşduğunu hiss edən Şakir başını arxaya söykəyib, gözlərini yumdu, şipşirin bir yuxuya getdi və gözlərini açanda gördü ki, avtobus sıldırım qayaların ətəyi ilə uzanan darısqal dağ yolu ilə asta-asta və ehtiyatla irəliləyir. Yolun alt tərəfi elə sıldırım idi ki, baxanda adamın zəhmi yarılırdı. Ancaq indiyəcən görmədiyi mənzərələr Şakiri elə sehrləmişdi ki, qorxunu tamam unutmuşdu. Dərədən asta-asta qalxan boz-mavi rəngli sehrli çən tül pərdə kimi yaşıl dağların başına çalmasayağı dolanmışdı. Bu boz-mavi rəngli tül çən, elə bil, həm də, qorxunc və sıldırım uçurumları insanlardan gizlədirdi…

Ətrafı həzin bir sakitlik bürümüşdü və bu həzin sakitliyi arabir sıldırım uçurumun dibindən axan dağ çayının qıjıltısı pozurdu.

Yavaş-yavaş axşam düşürdü.

Avtobus mənzil başına çatmaqda idi...

***

Şakir maşından düşəndə əvvəlcə gözlərinə inanmadı. Sanki möcüzəylə üz-üzə gəlmişdi. Yamyaşıl dağlarla əhatə olunmuş şəhər ağappaq bir rəngə boyanmışdı. Bu füsünkar mənzərə qəlbində heyrət və fərəh hissi doğurdu. Hava o qədər təmiz, o qədər şəffaf idi ki, o, az qaldı bihuş olsun. «Oxay» deyib ciyər dolusu nəfəs aldı, özünü quş kimi yüngül hiss etdi...

Amma indi qeyri-adi, füsünkar mənzərəyə, tərtəmiz havaya hayıl-mayıl olmağın vaxtı deyildi. Gecələmək üçün özünə bir yer tapmalı idi.

Yoldan keçənlərdən öyrəndi ki, mehmanxana şəhərin çıxacağındadır. Bu, birmərtəbəli və uzun bir bina idi. Ağlasığmaz dərəcədə dar olan dəhlizin hər iki tərəfindəki otaqların qapısına kobud və solğun nömrələr vurulmuşdu.

Şakir uzun yol gəlməsinə baxmayaraq, yorğunluq hiss etmirdi.

O, zahirən qılıqlı adam təsiri bağışlamırdı, amma insanlarla ünsiyyət yaratmağı bacarırdı. Odur ki, bu üstünlüyünü hiss edib, özünü həmişə iddialı aparırdı və qəribə də olsa, xarakterindəki bu xüsusiyyət həmişə ona uğur gətirirdi...

Üzü üzlər görmüş mehmanxana müdiri onu başdan ayağa süzdü, yağlı müştəri olub-olmadığını müəyyənləşdirmək istədi və nəhayət, soruşdu:

– Mənə görə qulluq?

– Gecələməyə yer lazımdır.

Mehmanxana müdiri açıq qapıya tərəf boylanıb, qışqırdı:

– Şirəli!

Arıq, uzunsifət, əyriburun Şirəli müdirin otağına girib döşəməyə mıxlanmış taxta parçası kimi şax dayandı:

– Bəli, qağa.

– Yer var?

Şirəli əvvəlcədən hazırlanmış ənənəvi cavabı verdi:

– Xeyr.

– Necə yəni xeyr?! Görmürsən qonağımız gəlib?

– Qağa, yer var e, ancaq «lüks»dü.

Mehmanxana müdiri:

– Həə, – deyib, Şakirə tərəf döndü.

– «Lüks»də qalmaq istəyirsiniz?

– Olsun da. Bir gecəsi neçədi?

– Doqquz manat.

Şakir cibindən bir qırmızı onluq çıxarıb müdirə uzatdı. O da qeyd dəftərini açıb, sorğu-suala başladı:

– Adınız, familyanız?

– Şakir Qələmli.

– Bura gəlməkdə məqsədiniz?

– Işləməyə göndəriblər.

Mehmanxana müdiri başını qaldırıb, onun üzünə baxdı:

– Harda? Nə işində?

– Redaksiyada…

– Hm…

Mehmanxana müdiri başını aşağı salıb, sözləri tələffüz edə-edə, qırıq karandaşla dəftərə «müxbir» yazdı və dedi:

– Hə, az qala, pulunuzun qalığını unutmuşdum.

Şakir əlilə işarə etdi ki, lazım deyil, qalsın.

Mehmanxana müdiri üzünü Şirəliyə tutdu:

– Apar, nömrəni göstər.

Şakir, Şirəlinin arxasınca uzun, dar dəhlizə çıxdı.

Mehmanxana binası çox köhnə idi. Deyilənə görə, burada lap əyyami-qədimdə rayon maarif şöbəsi yerləşirmiş, sonradan poliklinika, bir müddət isə, ziyanvericilərə qarşı mübarizə idarəsi, axırda da rayon komsomol komitəsi olub. Indi də, əvvəllər müstəntiq işləmiş və «Paxmel Sebi» kimi tanınmış Səbiyarın ixtiyarına verilib…

Mehmanxana müdirinin hörmət edib verdiyi «lüks» nömrə isə əvvəllər ayaqyolu kimi istifadə olunurmuş. Sonradan kiçik bir «əməliyyat» nəticəsində «lüks» nömrəyə çevrilib. Bu otaqda bir çarpayı, üstünə qırmızı rənglə «8» rəqəmi yazılmış və çox güman ki, poliklinikadan yadigar qalmış nimdaş tumboçkadan başqa heç nə yox idi. Əslində bura o qədər darısqal idi ki, heç əlavə şey qoymaq da olmazdı…

Şirəli qara əsgi parçasına keçirilmiş açarı barmaqları arasında şəstlə fırlatdı və qapını açıb dedi:

– Buyur.

Və cavab gözləmədən çıxıb getdi.

Şakir işığı yandıranda, gördüyü mənzərədən dəhşətə gəldi. Fikirləşdi ki, belə də «lüks» olar? Içinə qəribə bir kədər çökdü, bir müddət nə edəcəyini bilmədi. Sonra fikirləşdi ki, yad yer, özü də gecə vaxtı, indi kimi tapa və yaxud hara gedə bilər? Cəhənnəm, birtəhər gecələyər, səhər isə, Allah kərimdir, yəqin ki, iş yerindən bir otaq verərlər.

Şakir çamadanını yerbəyer etdikdən sonra dəhlizə çıxdı. Şirəlinin yanına gəlib soruşdu:

– Buralarda yeməyə bir şey tapmaq olar?

Şirəli əliylə küçəni göstərərək:

– Yolun o tərəfində yeməkxana var, – dedi.

Şakir qalstukunu səliqəyə salıb mehmanxanadan çıxdı. Şəhər bir küçədən ibarət idi. Yolboyu tikilmiş binaların əksəriyyəti bir və ya ikimərtəbəli idi.

Yeməkxana taxta arakəsmələrlə kabinetlərə bölünmüşdü. Bir kotlet yeyib, üstündən də iki stəkan çay içdi. Sonra ayaqlarının keyini açmaq üçün küçədə bir az gəzişdi. Yay

olmasına, respublikada havaların çox isti keçməsinə baxmayaraq, bura əməlli-başlı sərin idi.

Hə, bu gündən həyatında yeni dövr başlayırdı. Ən azı, iki il bu dağ rayonunda yaşamalı olacaqdı. Şakiri çətinlik qətiyyən qorxutmurdu, bir də ki, o, elə adam idi, ilanla da yola gedərdi. Üstəlik, Bakıda hörmətli dayısı, burda isə nüfuzlu həmyerlisi vardı. Çətinə düşsə, kömək istəyəcəkdi...

***

Mehmanxananın dəhlizində quraşdırılmış radioda hərəkətli bir oyun havası çalınırdı. Otaqda bir işlə məşğul olmaq mümkün olmadığından, Şakir vaxtını təmiz havada keçirməyi qərara aldı. Şəhərin mərkəzi küçəsini bir-iki dəfə o baş-bu başa gedib-gələndən sonra təzədən mehmanxanaya qayıtdı. Çarpayıya uzandı. Nə yaxşı ki, ağcaqanad yox idi. Saf havalı otaqda dərin yuxuya getdi. Hətta köhnə dəmir çarpayının kal cırıltısı da, onun yuxusunu poza bilmədi.

Tezdən yuxudan ayıldı. Dünən axşam gördüyü mənzərədən əsər-əlamət qalmamışdı. Hər tərəf aydın idi və qızılı günəşin şüaları altında nura qərq olmuşdu. Təbiət adamın üzünə gülürdü. Dünənki yeməkxanada bir tikə çörək yeyəndən sonra mehmanxanadan çox da uzaq olmayan, ikimərtəbəli binada yerləşən «Bolluq uğrunda» qəzetinin redaksiyasına yollandı.

Qəzetin redaktoru Biləndər Muxtarlı kabinetində oturub növbəti nömrənin materiallarını oxuyurdu. Odur ki, katibə Şakirdən bir qədər gözləməyi xahiş etdi. Aradan xeyli vaxt keçdi. Nəhayət, katibə bildirdi ki, içəri keçmək olar.

Şakir, adəti üzrə, qalstukuna bir balaca əl gəzdirdi və qapını ehmalca açdı.

Qəribə idi: redaktor Biləndər Muxtarlı zahirən Şakirə çox oxşayırdı. O da qarayanız və girdəsifət idi. Sanki doğma qardaş idilər. Biləndər Muxtarlının cod, pırtlaşıq saçı, qalın dodağı, ətli burnu vardı. O, Şakiri başdan ayağa süzəndən sonra dedi:

– Eşidirəm.

Şakir təyinat kağızını ona verdi. Redaktor gülümsədi:

– Vaxtında gəlmisən. Bizə elə müxbir lazım idi. Təsərrüfatlarda biçin başlayır. Operativ materiallar verməliyik. Qalmağa yerin var?

– Xeyr. – Şakir fağır-fağır boynunu bükdü.

– Çox pis. Bizim də səni yerlə təmin etməyə imkanımız yoxdur. Burada ev kirayələməyə valideynlərin pul göndərə biləcəklər?

Şakir gülümsədi:

– Mən onlara bir şey göndərməliyəm, təqaüdlə dolanırlar.

– Oğul, açığını deyim ki, qəzetdən aldığın məvacib yemək-içməyinə, geyim-keçiminə güclə çatacaq. Ev tutsan, gərək ac qalasan. Indi özün fikirləş. Mən, başqaları kimi, sənə «yox» demirəm, özündən də bir şey istəmirəm. Indi bax də…

Biləndər Muxtarlı yenə də qarşısındakı kağızları oxumağa başladı. Şakir pərt halda çölə çıxdı. Gəlib iri ağacların altındakı skamyada əyləşdi. «Əcəb yerdə axşamladım» – deyə düşündü.

Indi neyləsin? Dayısına zəng vursun? Zəng vurmağına, əlbəttə, vuracaq. Ancaq… Birdən prokuror – dayısının dostu yadına düşdü. Cəld qalxıb küçəyə çıxdı. Özü kimi cavan bir oğlana yaxınlaşıb, prokurorluğun harada yerləşdiyini soruşdu.

– Gəl göstərim.

Oğlan bir xeyli onunla yanaşı addımladı, sonra prokurorluğun yerləşdiyi binanı ona göstərdi.

Şakir nişan verilən ikimərtəbəli binaya tərəf addımladı. Dəhlizin sağ güncündə açıq pəncərəli otaqda əyləşən gözətçi onu görüb, təəccüblə və bir az da hirslə:

– Sənə kim lazımdır? – deyə soruşdu.

Şakir astadan:

– Vəliyev yoldaş.

– Hansı Vəliyev? Bizdə Vəliyev çoxdur.

– Prokuror Vəliyevi soruşuram.

– Prokuror nəyinə lazımdır?

– Məni onun yanına göndəriblər.

– Kim göndərib?

Şakir əsəbiləşdi:

– Sənə nə var ki, kim göndərib?

– Hardan gəlmisiniz? – deyə gözətçi səsinə bir az yumşaqlıq qatdı.

– Bakıdan.

Idarədə sakitlik olduğundan, deyəsən, prokuror mübahisə edənlərin səsini eşitmişdi.

– Ibiş, kimdir elə?

Gözətçi farağat dayanıb dedi:

– Cavan bir oğlandı, Bakıdan gəlib, sizinlə görüşmək istəyir.

– Burax gəlsin.

Şakir sevincək yuxarı qalxdı. Içəri girən kimi prokuror ona əl uzatdı:

– Hə, gəl, elə indicə Səlim müəllim mənə zəng eləmişdi. Otur, redaksiyada olmusan?

– Bəli, Biləndər müəllim məni çox yaxşı qarşıladı, ancaq bir problem çıxdı.

– Nə problem?

– Qalmağa yer yoxdur.

– Necə yoxdur?

Prokuror telefonda nömrəni yığa-yığa:

– Təyinatla göndərilmiş kadrı mənzillə təmin etmək redaksiyanın borcudur, – dedi. – Alo, Biləndər, nədir, mənim eloğluma yer vermək istəmirsən?

Sonra Biləndərin dediklərinə qulaq asıb:

– Başa düşürəm, – dedi. – Hər halda, bir şey fikirləşmək lazımdır. Mənə bax, Paxmeldə yer olmaz? Məncə onun «lüks»ü, bir az kiçik olsa da, yaşamaq üçün… Hə, öyrən. Lazım olsa, mən də zəng vuraram.

Dəstəyi yerinə qoyub, Şakirin pörtmüş yanaqlarına baxdı və rəğbətlə gülümsədi:

– Sən Biləndərin yanına get, bir yer tapacaq. Başqa nə çətinliyin olsa, gəl!

Şakir təzədən redaksiyaya qayıtdı.

Biləndər müəllim bu dəfə onu gülərüzlə qarşıladı:

– Gəl, görək, Paxmeldən bir yer qopara bilərikmi?

Telefonun dəstəyini götürdü və Şakirə tərəf döndü:

– Get raykoma, təbliğat-təşviqat şöbəsinin müdiri Sərvaxt müəllimlə görüş. Bu Paxmel köpəkoğlundan bir şey qoparmaq canını almaqdan çətindir. Qoy Sərvaxt müəllim də zəng etsin, bəlkə, onda, bir şeyə nail ola bildik.

Şakir redaktoru Paxmellə çənə-boğazda qoyub raykoma yollandı.

Qəsəbəyə kim ezamiyyətə və yaxud işləmək üçün gəlirdisə, hökmən gərək raykoma gedib, özünü təqdim edəydi.

Şakir otağa girəndə şöbə müdiri telefonda kiminləsə danışırdı.

Dəstəyi yerinə qoyub dedi:

– Gəl, gəl, elə indicə sənin söhbətini edirdik. Axır ki, Paxmeldən bir nömrə qopara bildik. Özü də deyir «lüks»dü. Get, açarı al, yollan işinə…

Şakir rahat nəfəs aldı və tələsik mehmanxanaya yollandı. Paxmel onu gözləyirdi. Qaşqabağını töküb dedi:

– Gəl, yerini göstərim. – Sonra da dodağının altında Sərvaxtın ünvanına yağlı bir söyüş söydü: «Xeyirsiz köpəyoğlu qoymaz dolanaq». Və Şakiri gecə qaldığı elə həmin otağa apardı.

Şakir duruxdu.

– Istəmirsən? – deyə Paxmel hirs qarışıq sevinclə soruşdu.

Şakir narazı qalsa da, başqa çıxış yolu olmadığını nəzərə adıb razılaşdı:

– Yox, yox, niyə ki, çox yaxşıdır!

Paxmel:

– Yaxşıdır? Onda, bu gündən sənindir, – deyib narazı halda kabinetinə qayıtdı. Deyəsən, onun cibinə yamanca ziyan dəymişdi. O gündən Şakir «lüks»ün daimi sakini oldu…

***

Dağ rayonunda taxıl biçini avqustun ortalarına, sentyabrın əvvəllərinə təsadüf edirdi. Redaktor Şakirə Dağdağanlı kəndinə gedib, təsərrüfat işlərinin gedişi barədə reportaj hazırlamağı tapşırdı.

Dağdağanlı kəndi başı qarlı dağların ətəklərində, – axar-baxarlı bir yerdə yerləşirdi. Sıx meşə, adda-budda bitmiş cır alma, armud, tut ağacları, əkin-biçin yerlərində göz-göz qaynayan bumbuz bulaqlar, dərədən qıjıltıyla axan dağ çayı, buranın gözəlliyini birə min qat artırırdı.

Kolxoz sədri ilə Şakir taxıl zəmilərini gəzdikdən, biçinçilərlə görüşüb söhbət etdikdən sonra, gəzə-gəzə kənddən xeyli aralıdakı Novlu bulağın üstünə gəldilər. Sən demə, kolxoz sədri Şakirin gəlişi münasibətilə əməlli-başlı hazırlıq görübmüş.

Təsərrüfat briqadiri ilə ferma müdiri çoxdan onları gözləyirdilər. Ağacın kölgəliyində açılmış süfrədə nələr yox idi? Quzu kababı, soyutma çolpalar, yaxındakı bostandan dərilmiş xiyar, pamidor, ən nəhayət, təzəcə çəkilmiş tut arağı. Gənc müxbir özünü tamamilə başqa bir aləmdə hiss etdi. Katibin, xalq nəzarəti komitəsi sədrinin, prokurorun, redaktorun… daha kimlərin sağlıqlarına içmədilər? Qonaqlıq gecədən xeyli keçənədək davam etdi. Axırda – süfrə yığışanda kolxoz sədri Şakirə dedi ki, gecə bizdə qalacaqsan. Ancaq gənc müxbir razılaşmadı, dedi yox, getməliyəm, gərək məqaləni sabah günortaya kimi nömrəyə çatdıram…

Bu sözdən sonra kolxoz sədri çönüb, sürücüsünə dedi:

– Şakir müəllimi rayona apar…

***

Cəmi 10-20 otağı olan mehmanxanada iynə atsaydın, yerə düşməzdi. Növbətçi Şirəli əl-ayaq çəkiləndən sonra hətta dəhlizdə də, açılıb-yığılan çarpayılar qoyub, «levi» qazandığı beş-on manatı Paxmel Sebi ilə bölüşdürürdü.

Bu gün yer istəyənlərin sayı lap çox idi. Paxmel Sebi hərəni bir dillə yola salsa da, uzaq kənddən gələn, hər gün bazarda mer-meyvə, göy-göyərti satan Qızyetərin sözünü yerə sala bilməmişdi və birdən yadına düşmüşdü ki, müxbir uzaq dağ kəndinə gedib, gecəni orada qalacaq, «lüks» boşdur. Odur ki, Qızyetərə demişdi:

– Gecəni orda qalarsan, amma, obaşdan işçilər və müxbir gəlməmişdən çıxıb gedərsən. Üst-başına da bir az ətirdən-zaddan vur ki, iyin-qoxun yatağa hopmasın…

***

Gecə yarıdan xeyli keçmiş mehmanxananın qarşısında maşın səsi eşidildi. Şirəli yarıyuxulu halda, deyinə-deyinə giriş qapısına sarı getdi, gördü ki, gələn müxbirdi, cəftəni qaldırdı, tez də qayıdıb köhnə divanın üstündə uzandı.

Şakir səndələyə-səndələyə alaqaranlıq dəhlizdən keçib otağına tərəf getdi. Açılıb-yığılan çarpayılarda, həmişəki kimi, yaxın-uzaq rayonlardan gəlmiş adamlar yuxu «bişirirdilər». Şakir o qədər içmişdi ki, hətta qıfılın yerində olmadığının fərqinə belə varmadan qapını itələyib içəri keçdi.

Otaq qaranlıq idi. Çox da uzaqda olmayan yaşıl yamaclardan əsən sərin meh, özü ilə gətirdiyi reyhan, kəklikotu, lalə ətrini qadın ətrinə qataraq qəribə, bihuşedici bir qoxu əmələ gətirmişdi. Şakir bunun nə olduğunu dərk edə bilmirdi. Bir anın içində damarlarında axan qan seli tuğyan etdi. Gözünü duman örtdü. Ürəyi döyünməyə başladı. Istədi ki, işığı yandırsın. Bu zaman titrək, həzin və bu gecənin özü kimi təravətli, həyəcanlı, ehtiraslı, mələhətli bir səs astadan pıçıldadı:

– Yandırma… Lazım deyil…

Titrək qadın səsi Şakiri diksindirdi. Çaşıb qaldı. Yuxumu görürdü? Gecənin bu vaxtında, onun yatağında uzanan bu qadın kim idi? Bura necə gəlib çıxmışdı?

Amma get-gedə araq onun düşüncələrini üstələdi, sanki xanımın odlu, yanar barmaqları onu yatağa sarı çəkdi və bir azdan özünü başqa bir aləmdə hiss etdi. Səhərə qədər bu sehrli gecənin ləzəttindən ayrıla bilmədi və çox çəkmədi ki, elə o ləzzətlə də yuxuya getdi...

***

Şakir yuxudan oyananda günorta idi. Gecə nə baş verdiyini yadına saldıqca vahiməyə düşür və özünü inandırmağa çalışırdı ki, bütün bu olanlar həqiqət deyil, olsa-olsa, şirin xəyaldır.

Bununla belə, Şakir uzun müddət bu hadisəni unuda bilmirdi. Həmişə düz qabağa baxır, kiminləsə üz-üzə, göz-gözə gəlməkdən utanırdı. Ona elə gəlirdi ki, Paxmel Şebi də, Şirəli də bu işdən xəbərdardılar. Kim bilir, bəlkə də, qəsdən...

***

Yeni ilin gəlməyinə bir neçə gün qalırdı. Şakir belə götür-qoy etdi ki, bayram ərəfəsində ata-anasına baş çəksin.

Yola düşməzdən əvvəl bazara getdi. Əməlli-başlı bazarlıq etmək istədi.

Təzə il qabağı bazarda qələbəlik idi. Belinə köhnə, qalın yun şal sarımış, başına qırmızı gülləri olan qara yaylıq və yaylığın da üstündən göy bir əsgi bağlamış qadının satdığı meyvələr diqqətini çəkdi. Hər iki gözünün yarıdan çoxunu qırmızı qan örtmüş, əlləri çat-çat olmuş, üzündə dərin şırımlar açılmış qadın, nədənsə, tez əl-ayağa düşdü:

– Bazarda mənim mallarımdan təzə-təri, dadlısı, ləzzətlisi yoxdur…

Səs, elə bil, Şakirə tanış gəldi. Diksindi. Əvvəlcə bu bədheybət qadından heç nə almamaq qərarına gəldi. Ancaq tez fikrindən daşındı. Qızıləhmədi almalar, mələs, güleyşə narlar, keçiəmcəyi üzümlər… O, ağzınacan dolmuş sarı kağız torbaları piştaxtanın üstünə qoyub, əlini cibinə saldı, bir dəstə pul çıxarıb, hesabı soruşdu. Qadın dinmir, özünü unudubmuş kimi heyran-heyran Şakirə baxırdı. Bu qəribə baxışlar, elə bil, Şakiri bir anlığa qorxuya saldı. Tələsik dedi:

– Hesabı…

Qadın astadan, səsi titrəyə-titrəyə, həyəcanla dilləndi:

– Hesab çatıb, başına dönüm…

Şakir pörtdü. Təəccüblə sağa-sola boylandı. Ancaq ətrafda gözünə tanış adam dəymədi.

– Kimdən? Kim verib?

Qadın altmış-altmış beş yaşını sanki unudaraq, üzünə zərif və utancaq bir ifadə verərək:

– Hesabı yayda… O gecə… Mehmanxanada… – dedi. – Sonra səsi qırıldı, gözləri yol çəkdi…

Şakir sanki yerindəcə qurudu. Ürəyi buza döndü. Təəccüblə arvadın üzünə baxdı. Həyəcan dolu o yay gecəsi, mehmanxanadakı o mələhətli, o kövrək, o titrək, o həzin qadın səsi yenidən qulaqlarında cingildədi və ona elə gəldi ki, indi hamı, hamı ona baxır və gülür…

Şakir piştaxtanın üstündəki meyvə dolu kağız torbalara baxmadan, az qala, yüyürə-yüyürə bazardan çıxdı…

2003

QATARDA

Həmidi fikir götürmüşdü: hara baxırdı, nəhəng Bakı, bir də bu şoğərib ali məktəb gəlib dururdu gözlərinin qabağında. Elə bil, doğulduğu, boya-başa çatdığı bu bapbalaca cənub şəhərində rastına çıxan hər kəs onu sorğu-suala tuturdu, imtahan edirdi. Yox, əslində, o, qəbul imtahanından o qədər də qorxmurdu, sadəcə olaraq, daxilən narahat idi, özü də, lap nahaq yerə, axı, sinif yoldaşlarının çoxundan diribaş və çalışqan idi, qiymətləri də ki, «tfu-tfu», göz dəyməsin, pis deyildi – dörd-beş. Bunları düşünəndə, özünü nisbətən tox tuturdu. Amma, necə olsa, yenə imtahan imtahan idi… Babalı deyənlərin boynuna, guya, məşhur sərkərdə Napaleon döyüşdən çox imtahandan qorxurmuş…

Nəhayət, Həmidin sap kimi dolaşıq düşmüş fikirləri yavaş-yavaş açılmağa başladı. O, qolsuz köynəyini geyinib, dəmiryol vağzalına tərəf getdi, ümumi vaqona bilet aldı, sonra kassanın ətrafına yığışmış tay-tuşları ilə ordan-burdan söhbət elədi, şəkil çəkdirdi. Yaxın dostu Lətifin məzəli zarafatları, vağzala tanış-bilişini, qohum-əqrəbasını yola salmağa gələnlərin hay-küyü Həmidin qəlbinə dolmuş imtahan xofunu tam olmasa da, müəyyən qədər dağıtdı…

Lətifin arıq, uzunsov, sap-sarı bənizində, günəbaxan tumuna oxşar bapbalaca qıyıq gözlərində qəribə bir ifadə vardı, elə bil, Həmidə nəsə demək istəyirdi, amma, nədənsə, çətinlik çəkirdi.

Birdən Həmid gərginliyi aradan qaldırmaq üçün ərklə dedi:

– Mənsiz dənizə getmə ha…

Lətif şaqqanaq çəkib güldü:

– Nə danışırsan, Xəzərin bütün qumları balığa dönsə, gözümün ucuyla da baxmaram. Sən də çalış bazar gününə kimi özünü yetir.

– Yetirməyib neyləyəcək biçarə, məgər qalmağa yeri var? Yəqin elə sənədlərini verən kimi axşam qatarı ilə geri qayıdacaq. – Girdəsifət Hafizin bu səmimi ərki birdən-birə Həmidi dilxor elədi. Doğrudan da, birdən Bakıda bir gün, iki gün qalmaq lazım gəldi, onda, neyləyəcək? Əslində şəhərdə qohum-əqrəbaları çox idi, amma təbiətən utancaq olan Həmid onların

heç birinə əziyyət vermək istəməzdi. Bəlkə də, Həmidin yerinə bir başqası olsaydı, ən azı, on-on beş qapını döyərdi, lazım gəlsə, lap həftələrlə qonaq qalardı. Amma nə etsin ki, təbiəti tamamilə başqa cür idi və bu vasvasılıq içini didib-dağıdır, kefini pozurdu.

Qəfildən Hafiz onun böyrünü dürtmələdi:

– Həmid, Həmid!.. Ora bax, Vasifin bacısı…Yəqin ki, Bakıya gedir… imtahana…

Vağzal işıqlarının parıltısı qızın ağappaq sifətində qəribə bir təbəssüm yaratmışdı. Istər-istəməz, Həmidin gözü qamaşdı, başı gicəlləndi. Şərqiyyə… Gözünün ilk ovu… Hələ açılmamış sirr… Gizli sevgi… Yox, deyəsən, qız nəsə hiss edib, yoxsa, onunla üz-üzə gələndə başını o cür aşağı salmaz, pörtməz… Bəlkə buna görə imtahandan qorxuram? Birdən qəbul olmadım? Nə üzlə gedib ona söz deyərəm?

Həmid handan-hana özünə gəldi və Hafizlə, Lətiflə xudahafizləşib ayrıldı. Indi o, elə bil, beynində zamanı qarışıq salmışdı: xəyalı gah keçmişə, gah da gələcəyə pərvazlanırdı...

Həmid dəqiq elmlərə, xüsusilə də riyaziyyata böyük maraq göstərirdi. Odur ki, universitetin riyaziyyat fakültəsinə qəbul olunmaq arzusu ilə yaşayırdı. Amma bu məsələdə riyaziyyat müəllimi ona böyük zərbə vurmuşdu – imtahandan «dörd» yazmışdı. Ancaq o, bu ədalətsizliyi təmkinlə qarşılamış, özünə dərd eləməmişdi. Çünki biliyinə arxayın idi.

Həmid hələ aşağı siniflərdə oxuyarkən ara-sıra kiçik şeirlər, miniatürlər yazırdı, elə buna görə də, arada, az qala, ədəbiyyat müəllimi saqqızını oğurlamışdı: «Təbin pis deyil, səndən yaxşı şair olar. Riyaziyyatdan yavaş-yavaş uzaqlaş».

Ədəbiyyat müəllimi tez-tez bu sözləri təkrarlayır və Həmidi yolundan döndərməyə çalışırdı. Amma, görünür, bu o qədər də asan məsələ deyildi. Çünki Həmid ölçüb-biçmədən, götür-qoy etmədən, hər deyilən sözün arxasınca getmirdi, öz fikrinə – qənaətinə üstünlük verirdi. Indi də elə oldu. «Bəs Dostayevski, bəs Çexov, bəs Çingiz Aytmatov? Axı, bunlar ki, ədəbiyyat fakültəsini bitirməyiblər. Deməli, müəllimim nədəsə yanılır. Əslində, elmlər arasında heç bir sərhəd yoxdur – bu Çin səddini insanlar özləri yaradıblar. Şərq ədəbiyyatının klassiki Məhəmməd Füzuli əbəs yerə deməmişdir ki, elmsiz şeir özülsüz divardır».

Amma Həmid rus dilindən bir balaca axsayırdı. Çünki yeddinci sinifəcən ucqar bir dağ kəndində oxumuşdu. Maarif müdiri onların kəndlərinə nə qədər rus dili müəllimi göndərmişdisə, hamısı qayıdıb qaçmışdı.

Kənddə duruş gətirən yeganə rus dili müəlliməsini – Nataşanı Yuska adında (rayon mərkəzində onu belə adlandırırdılar. Əsl adı Yusif idi) bir «KAMAZ» sürücüsü götürüb qaçmışdı. Sonra rus dili müəllimi sarıdan kəndin işləri, ümumiyyətlə, düz gətirməmişdi. Doğrudur, Həmid şəhər məktəbinə dəyişən kimi rus dilini də çox ciddi şəkildə öyrənirdi, necə deyərlər, fənlər arasında ayrı-seçkilik salmırdı, amma bəzən cəhdləri boşa çıxırdı. Müəllim isə bu qırmızıyanaq kəndli balasının çalışqanlığını nəzərə alıb, biliyini həmişə «dörd»lə qiymətləndirirdi…

***

Vağzal zənginin səsi Həmidi xəyaldan ayırdı. Hə, deməli, qatarın stansiyaya çatmağına on beş dəqiqə vaxt qalır...

Hafiz Həmidin köynəyini darta-darta uzun barmaqlarını irəli uzatdı:

– Ora bax, ora bax! Şərqiyyə də qatarla gedir…

Lətif dostunu danladı:

– Ə başıbatmış, şəhər yerində adamı barmaqla göstərməzlər. Belə şeyin üstündə...

Hafiz cavab qaytardı:

– Xox, qorxdum!

Bu dəfə Lətif lap tünd cavab verdi:

– Mən demirəm ki, qorx, yox, abır-həya elə…

***

Yeri, yeri, zalım qızı,

Əyninə gey al-qırmızı…

Həmid şeirin misralarını nə qədər astadan pıçıldadısa da, qazdan da ayıq olan Lətif eşitdi:

– Varam da, qardaşımın bu bədahətən söz qoşmağına, – dedi.

Daha bundan sonra Hafizi saxlamaq olardı? Gül ağzını açdı, nə açdı:

– Ə, beyinsiz, bu şeiri kimsə, haçansa yazıb. Həmid də əzbərləyib deyir.

– Həə, belə de... Daha niyə özünü yırtırsan! – Bu dəfə Lətif Hafizi acıladı.

Aradakı bu kiçik mübahisə incikliyə çevrilməsin deyə, Lətif söhbətin yönümünü dəyişdi:

– Həmid, bəs, Cavad sənədlərini hara verəcək?

– ADU-nun jurnalistika fakültəsinə.

– Vay, vay, vay. Adamın lap dəli olmağı gəlir. Sinifinizdən heç ATU-ya gedən yoxdu?

– Niyə ki? Ramiz gedir.

– Nə danışırsan? Başıboş Ramiz həkim olmaq istəyir? Belə yerdə deyiblər e, qudurasan qurbağa.

Bu dəfə Hafiz Lətifə söz atdı:

– Ə, başıboş özünsən ki, Ramizin kim olduğunu hələ bilmirsən. Əvvəla, dayısı ATU-da dərs deyir, ikincisi də ki, əmisi zərgərdi, barmaqları qızıl kəsir.

Bu vaxt gur fit səsi imkan vermədi ki, Lətifin cavabı eşidilsin…

Qatarın fısıltısı, dəmir relsləri qucaqlaya-qucaqlaya yırğalanması, zəhmindən adamların qorxub geri çəkilməsi Həmidin diqqətindən yayınmadı. O, fikirləşdi ki, elə qatar da nəhəng dəmir timsahdı. Bir azdan hamını udacaq...

Sərnişinlər ikibir, üçbir dəmir pilləkənlərlə yuxarı – vaqona qalxırdılar.

Həmid fikirləşdi ki, bu qatar çox qəribə nəqliyyat vasitəsidir: öz yolu var və heç vaxt heç kəsin, yəni heç bir canlının, deyək ki, itin, pişiyin, qarışqanın və s. yoluna çıxmır...

Dünyanın müxtəlif səmtlərindən – şimaldan cənuba, cənubdan şimala, şərqdən qərbə, qərbdən şərqə bir-birinə doğru qatarlar şütüyür. Onlar təkcə insanları yox, həm də onların

arzularını aparır. Və birdən Həmidə elə gəldi ki, o özü də qatardır, muradına yetmək üçün səfərə çıxan qatar…

– Tələsin, tələsin! Qatarın yola düşməyə üç-dörd dəqiqə qalır. – Bu, vaqon bələdçisinin səsi idi.

Həmid qabağa getməyə cəhd etdi. Lətiflə Hafiz birağızdan:

– Xoşbəxt adamsan, gör kiminlə gedirsən! – dedilər.

Həmid bu eyhamı dərhal başa düşdü. Elə bu zaman əllərində zənbil və çamadan tutmuş iki-üç nəfər onlara yaxınlaşdı. Ucaboy bir gənci görəndə Lətif qəfildən yerindən sıçradı:

– Xanlar! Ə, qardaş, sən hara, bura hara? Nə xoş təsadüf…

– Lətif… – deyə şux geyimli cavan oğlan irəli atıldı.

Xoş-beşdən, hal-əhvaldan sonra Lətif onu yanındakılarla tanış etdi və dedi ki, dostu Həmidi Bakıya – imtahan verməyə yola salır. «Sənin dostların, mənim dostlarımdı» – deyib Xanlar həm Həmidə, həm də Hafizə əl uzatdı və gülümsəyə-gülümsəyə dedi:

– Başa düşdüm, deməli, Həmid qardaşımız tələbə olmaq istəyir. Inşallah… Inşallah. Çox yaxşı… Deməli, belə… Mənimlə bir nəfər də getməli idi, qaldı… Bileti də qaytarmamışam… Fikirləşdim ki, birdən bir tanışa rast gələrəm… Görürsünüz də, necə düz fikirləşmişəm… Elə Həmidlə söhbət edə-edə gedərik… Çox yaxşı… Çox yaxşı…

Xanların bu istiqanlılığı qarşısında heç kəs bir söz deyə bilmədi. Sonra o, üzünü Lətifə tutub ərklə dedi:

– Hə, Lətif, hardasan, nə iş görürsən?

– Elə rayondayam, fotoqrafam.

– Yaxşıdımı? – Bu dəfə, deyəsən, Xanlar dolanışıq məsələsinə toxundu.

– Yaxşıdı! – Lətif elə həmin sözü eyni ahənglə təkrarladı və sonra əlavə etdi: – Demək olar ki, əladır!

– Bəs ailə?

– Iki oğlum, bir qızım var.

– Əla, əla! Çox yaxşı!

Elə bu zaman son xəbərdarlıq fiti eşidildi, yəni, adamlar vaqonları tərk etsinlər, artıq qatar yola düşür.

Hafizlə Lətif cəld ayağa qalxdılar, Həmidlə, Xanlarla görüşüb, onlara «yaxşı yol» arzuladılar.

Qatar aydın yay gecəsində öz nəğməsini – heç bir bəstəkarın yazmadığı, nota salmadığı nəğməsini oxuya-oxuya şütüyürdü: taqqataraq, taqqataraq, taqqataraq… Sanki onlarla dəmir təkər dəmir relslərə dolana-dolana nənələr sayağı öz cəhrəsində yolu-izi əyirirdi. Yol isə nəhayətsiz idi – qurtarmaq bilmirdi.

Həmid pərdəli pəncərənin qabağında xeyli dayandı. Gecə bütün həzinliyi və aydınlığı ilə varlığına hopdu. Ətrafa nəzər saldıqca, ona elə gəlirdi ki, bütün çöl-bayır, kol-kos, dərə-təpə, çay-dəniz də hərəkətə gəlib, qatarla birgə Bakıya doğru istiqamət götürüb. O, hətta təkərlərin gurultusunda təbiətin addım səslərini də eşidirdi.

Həmidgilin vaqonu səliqəliydi. Iki tərəfdə güzgüsü, gur işığı, yorğan-döşəyi vardı. Yerə xalça döşənmişdi, yatacaqların arasında masa qoyulmuşdu, üstünə də ağ parça sərilmişdi. Həmid heç vaxt qatarda bu cür səliqə-səhman görməmişdi. O, ürəyində təəssüf hissi keçirtdi: yəqin Şərqiyyə onun bu təmtəraqlı vaqonda getdiyini bilmir. Alagöz Şərqiyyə, həmişə Həmidin dostlarına qısqandığı Şərqiyyə. Birdən Həmid bu vaqona da nifrət elədi, onu bura gətirən Xanlara da. Axı, Həmid plaskarta yer götürmüşdü, bəlkə də, Şərqiyyə ilə eyni vaqona düşəcəkdi. Budur, fürsət əlindən çıxıb. Mərdimazarı axtarmaqla deyil ki!..

Yarımstansiyaların birində qatar qəfildən dayandı. Həmid kiçik güzgünün qənşərindəki dəmir tutacaqdan yapışmasaydı, bəlkə də, yıxılacaqdı. O, müvazinətini güclə saxladı.

– Hə, tələbə, bayaqdan sənə tamaşa edirəm. Yaman xəyalpərvər adama oxşayırsan. Gəl əyləş, bir tikə çörək kəsək, bir yaxşı-yaxşı tanış olaq.

– Hələ mənə «tələbə» demək tezdi. Qarşıda dağ boyda qəbul imtahanları var. Heç bilmirəm keçəcəyəm, ya yox?

– Bilmək olarmı, hara gedirsən?

– ADU-ya, riyaziyyat fakültəsinə.

– Allah kərimdi, darıxma. Riyaziyyata az adam sənəd verir. Inşallah, girərsən. Hələ gəl bir yüz qram vuraq, sonra böyük qardaş kimi sənə bir-iki məsləhətim olacaq.

Xanların səmimiyyəti aranı tez açdı. Əvvəlcə o, Lətifi ürəkdən təriflədi, göylərə qaldırdı. Məlum oldu ki, əsgərlikdə eyni hərbi hissədə olublar. Sonra üzr istədi, pencəyini çıxartdı, qalstukunu açdı, ütülü ağ köynəyini soyundu. Bahalı gecə paltarını və idman kostyumunu geyindi. Bu zaman Həmidin gözləri kəlləsinə çıxdı. Çünki Xanların iri əzələləri, kök bədəni çapıq-çapıq idi, sanki o, müharibədən yenicə çıxmışdı. Çapıqların əksəriyyətində basma yazılar vardı, bir çoxu rus dilindəydi – yaxşı oxunmurdu. Həmidi daha çox təəccübləndirən Xanların hər iki döş cibindən çıxartdığı Makarov tipli tapançalar idi. O, Xanları inzibati orqan əməkdaşına oxşatsa da, bu adamın heç nə olmamış kimi, silahları pencəyinin ciblərinə qoymasına təəccüb etdi.

– Hə, qardaş, sənin qələbənin şərəfinə! – Xanlar elə ayaqüstəcə dolu araq stəkanını başına çəkdi. – Sən də iç ki, cəsarətli olasan!

Həmid kənddə-kəsəkdə yaşadığı dövrdə spirtli içki içməmişdi. Atası müharibədən qayıtmadığından, ailənin bütün ağırlığı onun üstünə düşmüşdü. Yalnız şəhərə köçəndən sonra dostları ona vağzal yaxınlığındakı bir yeməkxanada hasılı noxudu ilə pivə içməyi öyrətmişdilər. Indi Həmid Xanların «sən də iç ki, cəsarətli olasan» cümləsinin qabağında başqa söz deyə bilmədi və ilk dəfə fərqinə varmadan araq dolu stəkanı başına çəkdi. Düzü, Həmid ac idi, səhərdən dilinə heç nə dəyməmişdi və bəlkə də, buna görə zəhrimar araq onu tez tutdu.

Xanlar onun bu halını duyub dedi:

– Hə, ətdən ye. Dedin, hara daxil olmaq istəyirsən? ADU-ya?

– Bəli, riyaziyyata.

– Müəllim olmaq istəyirsən? – Xanlar elə heyrət və təəccüblə başını yırğaladı ki, Həmid dediyinə peşman oldu, matı-qutu qurudu.

Arağın təsirindən hallanmış Həmid dəsmalını çıxarıb alnının tərini sildi:

– Məgər müəllim olmaq pisdir? Hələ sabah bunun aspiranturası da var…

– Ancaq dostum, görürəm ki, qorxursan.

Xanlar Həmidin yaralı yerinə toxundu. O çəkinə-çəkinə, soruşdu:

– Nədən bildiniz?

– Bildim də… Cavan olmamışıq?.. Görünür, istədiyin qız var, fikirləşirsən ki, qəbul olmaram, bəyənməz…

Həmidi tər basdı. Xanlar lap astadan dedi:

– Ola bilər ki, sən riyaziyyatı həqiqətən də gözəl bilirsən. Amma ürəyində bir qorxu var… Çünki bu sahədə təcrübən və səriştən yoxdur. Ona görə də, böyük qardaşının məsləhətinə qulaq as. Müəllimlikdənsə, başqa sahəyə keç. Məsələn, mühəndis ol. Sən elə bilirsən, aspiranturaya girmək halvadı, bişirib yeyəsən? Rəhmətliyin oğlu, iki-üç yer verirlər, bütün tuzların, imkanlıların uşaqları ora axışır.

Pərtliyini gizlədə bilməyən Həmidin yanaqları allanmışdı. Sifəti od tutub yanırdı. Bəs, indiyəcən niyə Xanlar kimi xeyirxah, dünyagörmüş adam rastına çıxmamışdı. Həmid ürəyində bəxtindən şikayətləndi. Xanlar isə fürsətdən istifadə edib sözünün ardını dedi:

– Sənədlərini apar ver politexnikə. Həm gələcəyi var, həm də gedən azdır. Müsabiqə böyük olmur, kənd uşaqlarına güzəşt də edirlər. Yəqin radiodan, televiziyadan eşitmiş olarsan, qəzetlərdən oxuyarsan, rayonlara qaz çəkilir. Mütəxəssis çatışmır. Get gir qaz mühəndisliyinə. Qız da ki, başının altında!

Həmidin həmişə tərəddüd içində döyünən ürəyinə qeyri-adi bir sakitlik çökdü. Birdən-birə Xanlara rəğbəti artdı, məsləhətli donun gen olduğuna inandı.

Indi Həmid qarşısında bambaşqa bir yol görürdü. Təzə arzu yolu, muraz yolu. Bu yolun dayanacaqları da dəmiryolunun yarımstansiyaları kimi irəlicədən sanki planlaşdırılmışdı. Amma bu yolda sürət qatarı hələ təzə-təzə istiqamət götürmək istəyirdi...

Indi qatarın yeksənəq taqqıltısı həzin, kövrək musiqini xatırladırdı. Həmid bu bihuşedici nəğmənin sədaları altında xumarlana-xumarlana yatdı. Yuxuda gördü ki, qatar Bakı vağzalında yox, düz politexnik institutunun qarşısında dayanıb. Xanlar qarşı tərəfdən gələn qatardan Həmidə əl eləyir. Perronda dayanan Şərqiyyə isə süzgün baxışlarla onu axtarır…

2004

QARINQULU

Zəminə Zamini yüngülcə sirkələdi:

– Qalx, işə gecikirsən…

Zamin yuxudan doymasa da, bilirdi ki, işə vaxtında getməlidir. Birdən, Allah göstərməsin, müdir, ya müavin gecikdiyini bilsə… onda, eşşək gətir, mərəkə yüklə… Ancaq indi, bax, bu anda onun yatmaq həvəsi o qədər güclü idi ki, az qalırdı, işə gecikmək qorxusunu açıq-aşkar üstələsin. O, «bir az da yatım» deyə yuxuya getmək istəyirdi ki, zehninin lap alt qatlarından doğma bir hiss keçdi: «onu yemək gözləyir». Yemək… bu elə güclü bir istək, elə güclü bir ehtiras idi ki, cəmi bir neçə an sonra Zamin artıq çarpayıda oturub, məğlub etdiyi yuxunun son inadının qırılmasını gözləyirdi.

– Zəminə!

Zəminə mətbəxdən səsləndi:

– Nədi?

– Yemək hazırdı?

– Sən yuyunub qurtarana kimi hazır olacaq.

Zamin soruşmaq istədi ki, nə yeyəcək və həmin andaca yadına düşdü ki, hələ dünən şam yeməyini yeyərkən bunu arvadından soruşub: «altı yumurta, yüz qram yağ, şirin çay, əlli qram holland pendiri, bir stəkan da süzmə…»

Çox şən bir əhval-ruhiyyə ilə paltarını geyinirdi ki, birdən, elə bil, qəflətən üstünə bir vedrə su tökdülər. Öz-özünə sual verdi: «Bəs, günorta nə yeyəcək?». Tez də cavabını tapdı: «Günorta idarənin problemidir!».

O:

– Zəminə, – deyə heybətli səslə çığırdı. – Bəs, axşama nə olacaq?

– Zəminə sözləri uzada-uzada cavab verdi:

– Axşama? Küftə…

Zaminin Zəminəni axıra qədər dinləməyə səbri çatmadı:

– Bəs sonra?

– Daha nə sonra? Küftə, yanında da kotlet olmayacaq ki?

Zamin hirslə, az qala bağırdı:

– Necə olmayacaq? Üç-dörd dənə də kotlet eləyərsən. Küftə də iki dənə olsun? Eşitdin?

– Ətdən sonra yenə ət?

Bunu eşidən kimi Zamin fınxırdı.

– Yaxşı, yaxşı, – deyə Zəminə süfrəni hazırlaya-hazırlaya onu sakitləşdirməyə çalışdı. – Kotlet də bişirərəm.

Zamin stol arxasında əyləşib yağdan, pendirdən, yumurtadan, süzmədən yeyirdi. Ancaq günorta, nahar vaxtı kimə qonaq olacağını gecə yatmamışdan əvvəl fikirləşmədiyinə görə yeməkdən o qədər də ləzzət ala bilmirdi. Gələcək bir yeməyin qeyri-müəyyənliyi, həmişə olduğu kimi, onun intizarla gözlədiyi bu xoş anların dadını qaçırırdı. O, stəkanı birnəfəsə yarı edib düşündü: «Bəs bu gün kimin qulağını kəsim? Səlimin pulu olsa da, quyruq ələ verən deyil. Vəli hədsiz dərəcədə xəsisdir. Henrix məndən də iştahlıdır, özü də əsrin əvvəllərində babasının macəra arxasınca Azərbaycana gəlməsindən danışa-danışa qəpiklərini hesablayacaq, and-aman edəcək ki, ondan artıq pulu yoxdur. Zehtabidən uzağı bir yumurta qoparmaq olar. Andına da ki, söz yox: seyid babasının cəddindən tutmuş peyğəmbəri, imamı çəkəcək ortalığa, ayaqüstü namaz qırılmış kimi qoşa əllərini açacaq göyə… Hə, yenə cavanlar yaxşıdır, qonaqlıq vermək ürəklərindən olmasa da, etiraz etməyə üzləri gəlmir».

Ağlına gələn bu fikirdən sonra ürəyi bir az sakitləşdi və süfrəni yığışdırmağa gələn arvadının ətli sifətinə çırtma vurub bərkdən dedi:

– Amma yaxşı olar ki, bu barədə bilavasitə işdə qərar çıxarım. Hər halda, mənim pəncəmə keçən canını çətin qurtarar, istər gənc olsun, istər qoca…

Arvadının başını yırğalamasına heç bir əhəmiyyət vermədən şlyapasını yarıdaz başına qoyub evdən çıxdı.

Yenə də naharda nə yeyəcəyi barədə fikirləşə-fikirləşə düz evlərinin tinindəki avtobus dayanacağında xeyli gözlədi. Yavaş-yavaş narahat olmağa başlayırdı ki, avtobus gəldi. Arxa qapıdan minib, qabaq yerlərdən birində əyləşdi və o saat da gözləri sürücünün sağ tərəfində asılmış kağızın üstündəki kolbasa dilimlərinə sataşdı… «Kolbasa… Əcəb yeməli şeydir… Hələ yanında bir alma da var...»

O, baxmaq üçün bundan gözəl mənzərə tapmadığına görə, iş yerinə çatana qədər gözlərini almadan və kolbasa dilimlərindən çəkmədi.

Dayanacaqdan idarəyə xeyli yol idi. Bu yolu başa vurmaq üçün bir həftə bundan əvvəl dostlarından birinin ad günündə parkda verdiyi qonaqlığı təfərrüatı ilə yadına salmağa başladı: «Bəh, bəh, süfrə nə süfrə! O gün texniki şöbənin müdiri Mahmudla görüm nə qədər yedik? Hə, səkkiz lülə, dörd böyrək, dörd ciyər, dörd də ürək. Dörd şüşə araq… Bəh, bəh… Hə, üç dənə də dağlı çörəyi».

Kimsə onun qoluna toxundu:

– Salam, Zamin müəllim.

– Salam…

Elə bil onu söydülər. «Mərdimazar oğlu mərdimazar» gör onu nə cür yeməklərdən ayırdı… Heyif…

***

…Nahar yeməyinə bir az qalmış qonşu şöbədə işləyən arıq, uzunsifət oğlan gəlib ona dərin hüznlə başsağlığı verdi. Zaminin indi yadına düşdü ki, bir həftə bundan əvvəl qaynı rəhmətə gedib. O, arıq, uzunsifət oğlana razılıq edib dedi:

– Hə, belə olan surətdə bu kədərli əhvalatı unutmaq üçün mənim gənc dostum məni günorta yeməyinə qonaq etsəydi, pis olmazdı...

Arıq, uzunsifət oğlan özünü elə apardı ki, guya, heç nə eşitmədi. Zamin həmin andaca hiss etdi ki, yox, bu gənc o biri gənclərdən deyil. Xırda, qıyıq gözlərindən hiss olunur ki, xəsisin biridir. Beləsinə bir az da üz vursan, Allah bilir, nə hoqqadan cıxar…

***

Ey dadi-bidad, indi ləziz xörəklər – bozartma, cızbız artıq buğlana-buğlana qablara tökülür. Birdən qurtarar ha! Bozartma lap əladır. Sümüyünü iliyinə kimi sümürürsən, bəs, indi mən kimə ilişim? Yaxşı, gedim, bəlkə yeməkxanada bir adam tapdım. Bəlkə heç üzümə baxan olmadı? Yanaşıb təklifsiz-filansız süfrədə otursam necə? Yox, sözsüz ki, təklif edəcəklər. Ancaq elə-belə, xala-xətrin qalmasın. Mənə də elə bu lazımdı, yeməyə

girişərəm. Ancaq burası var ki, onda, gərək kiminsə yeməyinə şərik olam. Yox, bu plandan vaz keçməliyəm…

O, təsərrüfat şöbəsinin dəhlizində ayaq saxladı. Içəridən domino səsi gəlirdi. Aha, bunlardan birinə ilişə bilərəm. Məliki zorla da olsa, aparmaq mümkündür, amma çay alar, öldürsən də yemək almaz, çünki özü yeməyini evdən gətirir, buna görə də heç kimi qonaq eləmir. Salmanı apara bilsəm, bəlkə də bir şey alar… Ancaq zalım oğlu dominonun dəlisidir, çətin ki, onu oyundan ayırmaq mümkün olsun. Biri də Bəşirdir ki, özü də, mənim kimi, hərif axtarır. Biri də Orucdur, ömründə nahar eləməz. Siqaret nə qədər istəsən, verər, ancaq nataraz oğlu natarazın yemək almaqla arası yoxdur ki, yoxdur.

Bəs Saday – təchizat şöbəsinin ekspediteli hanı? Yəqin radioda siyasi icmala qulaq asır. Əfqanıstan belə getdi, Çili elə getdi…. Çexoslovakiya hadisələrinin təsiri şüurlardan silinməyib. Iranda qarmaqarışıqlıqdır. Yaxın Şərq… Gəlib çərənləyəcək ki, xalqlar azadlıq istəyir... Əbləh oğlu, əbləh… Şirniyyatla təzədəm çayını iç də… Sadayın pıqhapıq qaynayan elektrik samovarı gözünün qabağına gəldi.

…Xörəklərin yağlı yerləri qablara çəkilir, mən də qalmışam burda. Ay dadi-bidad, deyəsən, yenə axırda kefir-çörək yeməli olacağam.

– Salam, Zamin, fasilə vaxtı dəhlizlə nə var-gəl eləyirsən?

…Aha, Atamoğlandır, getməyinə gedəcək, amma nə alsa, özunə alacaq və yanında oturub, yeyə-yeyə üzünə baxıb hələ bir əhvalat da danışacaq…

Hərçibada-bad, girişəcəyəm, nə çıxar-çıxar…

– Əşşi, səndən nə gizlədim, tezdən işə gələndə kostyumumu dəyişdim. Indi burda əlimi cibimə salıb görürəm ki…

Atamoğlan birdən:

– Zamin, bağışla, məni aşağıda gözləyirlər, sonra gələrəm danışarsan, – deyib sürətlə uzaqlaşdı.

Atamoğlanın bu hərəkəti o qədər qəfil və gözlənilməz oldu ki, Zaminin sözü ağzında qaldı.

Mənə kələk gəldi. Sözümü qurtarmamış mətləbimi anladı. Gör necə əkildi… Ey dadi-bidad, bozartma yəqin ki, qurtardı, qaldı kotletlə bitoçka… Hə, bir də kələm dolması… A

kişi, belə də zülm olar, bu cür xörəklər ola-ola, kefirlə çörək yeyəsən.

Vaxt keçir, ancaq heç kim gözə dəymirdi. Gərək arvaddan ehtiyat üçün bir-iki manat alaydım. Əşşi, bu nə həyatdır? Gedib «Inturis»də dördulduz konyakla dörd-beş asetrin yeməyəsən – göyərtisiynən, salatıynan, meyvəsiynən…

Dadlı xəyallarla otağına girdi. Radioda siyasi icmal qurtarmışdı. Indi də hansısa bəstəkarın sonatası verilirdi. Zamin əsəbi halda radionun səsini kəsib, pəncərənin önunə gəldi. Dilxor halda çölə baxmağa başladı. Telefon səsi onu yalnız ac vaxtlarında çulğayan qəmli düşüncələrdən ayırdı. Dəstəyi götürdü:

– Bəli, eşidirəm.

– Kitab mağazasından danışırlar. Sizdən kimsə zəng vurub, xahiş edib ki, mağaza mal alanda ona xəbər verək.

– Xeyr, bizdə kitabla maraqlanan adam yoxdur.

Zəng edən israr eləyəndə Zamin səsini qaldırdı:

– Yox, yox, canım! Bizim öz dərdimiz var!

Zamin az qaldı ki, telefonun dəstəyini yerə çırpsın:

– Əbləh oğlu… Bir xeyirli adam zəng vurmaz ki…

Sonra, elə bil, birdən-birə ayıldı: «Yox, belə getsə, kefir-çörək yeməkdən də məhrum olaram».

Qalxıb yenə dəhlizə çıxdı və qapının ağzında əsaslı tikinti şöbəsinin bir dəstə əməkdaşı ilə üz-üzə gəldi. Onlardan biri – Elmira xanım Zaminin ürəyindən keçənləri oxumuş kimi gülə-gülə:

– Zamin müəllim, gedək çörək yeyək, – dedi.

Zaminin, elə bil, çiçəyi çırtladı.

– Gənc dostlarımla, – o əlini-əlinə sürtdü – lap dünyanın o başına gedərəm, – dedi. – Həmin an yeməkxananın bütün xörəkləri xəyalında canlandı: yağlı, sümüklü mal ətindən bozartma, yumurtalı bitoçka, makaron, kotlet, kələm dolması və bunlardan heç biri olmasa, kefirlə çörək. Görəsən, ona hansı xörək qismət olacaq?..

Əsaslı tikinti şöbəsinin əməkdaşları ilə deyib-gülsə də, ürəyi bozartmanın yanında idi. Onlar yeməkxanaya girəndə

yeyib-içməyin qızğın çağı idi. Zaminin miokard-infarkt keçirən ürəyi sancdı. Vəli də, Henrix də, Zehtabi də bozartma yeyirdilər.

Kassaya sarı gedən Elmira xanım incə səslə soruşdu:

– Zamin müəllim, nə yeyirsiniz?

– Əşşi, nə olsa, elə lap bozartma…

Zamin stollara göz gəzdirdi. Səlim tanımadığı bir adamla bozartma yeyirdi: «Gör zalım oğlunun bəxtinə nə boyda ət düşüb? Yəqin yanındakı adam qonaq eləyib. Indi mənim bəxtimə lap şıntır düşəcək…».

Iki stol o yanda Vəli ilə Henrix üz-üzə oturmuşdular. Bozartmanın axırına çıxıb, indi də nə haqdasa xısın-xısın danışırdılar. «Görəsən, nə pıçıldaşırlar? Zeytabi hardadır? Yəqin ki, hansısa restoranda kef eləyir. Bəlkə də çimərlikdə toyuq kababı yeyir».

– Zamin müəllim, icazə verin...

Zamin sevincək halda stulunu geri çəkdi və Elmira xanımın nimcədə gətirdiyi iki kiçik kotleti görəndə bərk dilxor oldu. Bu acı hiss cəmi bir neçə saniyə davam etdi. Çünki, hər nə də olsa, onun qabağında yemək vardı.

Zamin yeyə-yeyə yaxşı yemək yediyi günləri xatırlayırdı. Keçən yayda rayondakı qonaqlıq yadına düşdü. Bəh-bəh… Belə qonaqlıq çətin ki, bir də ələ düşə. Süfrədə nələr yox idi? Plov bir yanda, toyuq kababı bir yanda, çığırtma bir yanda, badımcan dolması bir yanda… O vaxt normadan bir balaca çox yediyinə görə xeyli əziyyət çəkmişdi…

«Əşşi, yüz o cür əziyyətə dözərəm. Təki qabağımda elə bir süfrə açılsın».

***

Zamin qapının zəngini üç-dörd dəfə dalbadal basdı.

Zəminə deyinə-deyinə gəldi:

– Nə olub, bir az gözlə də, qiyamət qopub?

– Sənə nə var ki? Yeməklər əlinin altında… Mənim kimi onun-bunun ümidinə qalmamısan ki…

– A kişi, onun-bunun ümidinə niyə qalırsan? Allaha şükür, heç kimdən az qazanmırsan, böyük bir müəssisənin məsul işçisisən, qarnına qızırğanırsan, mən nə eləyim…

– Sənə qalsa, bütün var-yoxumuzu bir ayın içində xərcləyib bizi acından qırarsan, sarsaq. Birdən sabah olmadı elə, oldu belə. Onda neyləyərsən?

Zəminə əlini ölçə-ölcə nəsə demək istəyirdi ki, Zamin gözlərini bərəltdi:

– Yeri, yeri yeməyi gətir. Səhərdən bəri heç nə yeməmişəm.

Zəminə:

– Evi yıxılmamışın oğlu, bir soyun, yuyun, sonra yemək istə də, – deyib ərinin cavabını gözləmədən mətbəxə tərəf getdi, radioda «Son xəbərlər» sözünü eşidib, ayağını sürüdü.

– Əşşi, zalımın qızı, xəbərlər Sadayla sənə qalıb? NATO qüvvələri… Yenə nə deyir?.. Məvaciblər artır, ya yox?..

Zəminə dönüb nəsə demək istədi, amma Zamin imkan vermədi:

– Yaxşı, bildim, bildim… Xörəyi gətir...

… Bir azdan Zamin yatağında uzanıb acılı-şirinli xəyallara dalmışdı.

Xəyalın acılığı ondan ibarət idi ki, qarşıda sabahın nahar problemi dururdu, şirinliyi də ondan ibarət idi ki, ümumiyyətlə, yeməklə bağlı idi və necə olur-olsun, əlbəttə ki, həll olunacaqdı…

2000

MAŞALLAHIN PANELI

Dostum Çingiz TOFIQOĞLUNA

Quşqulaq kəndinin insan qəlbini oxşayan sehr dolu sakitliyini və rahatlığını neçə həftə idi ki, Ermənistanın Gorus rayonu tərəfdən qradlardan və tanklardan açılan amansız atəş səsləri pozurdu. Işıqlı dağı barıt qoxulu tüstü içində boğulurdu. Qaragölün sağ sahilindəki el qəbiristanlığını sovet ordusunun tankları ilə yerlə yeksan edən ermənilər kəndin qaramal və qoyun sürülərini də yığıb aparmışdılar. Odur ki, hamı səksəkə içində idi.

Kənddə vur-tut beş-altı quş tüfəngi vardı. Soltan bəydən – 1905-ci il erməni-müsəlman davasından indiyə qalmış bir neçə beşaçılan isə işə yaramırdı, daha doğrusu, çaxmaqları qırılmışdı, düzəltdirmək üçün usta tapılmırdı...

Kənd xəstəxanasında dava-dərman qalmamışdı. Həkimlər güllədən və yaxud mərmidən yaralananları bağayarpağı ilə sağaltmağa çalışırdılar. Rayon mərkəzi ilə əlaqə tamamilə kəsilmişdi. Ermənilərin hücumları isə ara vermirdi. Axşamkı mərmi yağışında doxsan yaşlı Hümbətalı kişi çarpayısındaca parça-parça olmuşdu. Kəndin lap yuxarısında yurd salmış Soltanın gənc ailəsindən isə heç bir nişanə qalmamışdı. Mehralı nəslinin yan-yanaşı tikilmiş səkkiz evi alovlar içində qovrulurdu. Düşməni Qaragölün altında qarşılayan və döyüşdə həlak olan kənd cavanlarından üçünün cəsədini götürmək mümkün olmamışdı. Xocalı faciəsi zamanı düşmənin qəddarlığı, amansızlığı barədə yayılan xəbərlər hamının qəlbində vahimə yaratmışdı. Kəndin, ən azı, min illik tarixində, bəlkə də, ilk dəfə idi ki, gecənin zülmət qaranlığında hamı qəbiristanlıqda idi. Yanaşı qazılmış səkkiz qəbirin şəhid sakinləri son mənzilə gətirilmişdi. Quşqulaq kəndinin sakinləri ta qədimdən Zərdüşt inanclarına sadiq qalmışdılar. Indi də qaraağacın qabığını şam əvəzi yandırdılar. Mağar qurmaq, yas mərasimi keçirmək, ehsan vermək artıq mümkün deyildi…

Dan yeri yavaş-yavaş qızarırdı. Sükutu kəndin aşağı tərəfinə – Novlu bulağın həndəvərinə düşən qrad mərmisinin gurultusu pozdu. Sonra itlər hürüşdü, uşaq, qadın qışqırtısı bir-birinə qarışdı, lap yaxında avtomatların şaqqıltısı eşidildi.

– Hamı qaçır!..

Maşallah qonşusu Əkbərdən eşitdiyi bu sözlərin mənasını əvvəlcə başa düşmədi. Sonra diksinən kimi oldu və Əkbərə tərəf döndü:

– Ə, nə danışırsan, kim qaçır, hara qaçır?

Yekəqarın, yastısifət Əkbər kinayə ilə onun üzünə baxaraq dedi:

– Hamı qaçır, özü də hara gəldi. Ermənilər kəndin yuxarısındakı evlərin hamısına od vurublar. Sənə dedim, qoyunları sat! Sözümə baxmadın. Indi görüm onları necə aparacaqsan, hara aparacaqsan?

Maşallah qəzəbindən bığlarını çeynəyib, sərt və kinayə ilə cavab verdi:

– Ə, nə sürü? Düşmən qapını kəsdiribdir… Sən dədənin qəbrinin dərdini çək…

Maşallahın yüz əlliyə qədər qoyunu var idi. Səkkiz inəyi yanı buzovlu, üç camışı yanı balağlı idi. Kəhər madyanı erkək bir kürük doğmuşdu. Bütün bunları yadına saldığı üçün özünü qınadı. Bir anlıq illərdən bəri tikib-qurduğu aynabəndli evini, həyətindəki meyvə ağaclarını, babalarının, qardaşlarının məzarlarını, kəndin axar-baxarlı örüşlərini, əkin-biçin sahələrini, Qaragölü, Işıqlı dağını, Çalbayırı, Pəri çınqılını gözləri önünə gətirdi. Yanaqlarından süzülən duzlu su dodaqlarını isladanda hiss etdi ki, ağlayır.

Maşallah həyətdən çıxanda gördü ki, yamac boyu sıralanmış evlərin hamısında adamlar əl-ayağa düşüblər. Kimi arabasını, kimi at və ulağını yükləyir...

Quşqulaq Laçının ən ucqar dağ kəndlərindən biri idi. Əslində, bu, kənd deyil, cənnət idi. Yazda gül-çiçək sərgisi, yayda yaylaq və mer-meyvə bazarı, payızda ot tayaları, qışda ağappaq qarı… Bir sözlə, kurort idi. Deməli, Quşqulağa əlvida!..

– Ay kişi, nə orda quruyub qalmısan, görmürsən camaatı? Gəl yır-yığışa kömək elə. Yoxsa, əliyalın, təkbaşına ermənilərlə dava eləyəcəksən? – Arvadı Səlminazın səsi Maşallahı fikirdən ayırdı .

– Qoy sürünü, dana-buzovu çölə buraxım, sonra ...

– Ay kişi, məxluq öz canının hayındadır, sən qoyun-quzu dərdi çəkirsən? Gəl arvad-uşağını bir yana çıxart. Güllə səsini, camaatın çığır-bağırını eşitmirsən?

Maşallah yenə quruyub qaldı:

– Deyirsən, sürünü qoyub gedək? Qalsın erməni dığalarına?

– Erməni dığalarından elə uşaqlarını qoruya bilsən, böyük işdir. Sürü canından artıqdır?

Yaxşı ki, Səlminaz zirək və diribaş idi. Artıq neçə bağlama hazırlamışdı. Anası Əsli uşaqları geyindirirdi. Yalnız qaynatası əsasına söykənib mat-məəttəl bu yır-yığışa baxır və düşünürdü: «Əşşi, belə də zülm olar? Bu cür evi, həyət-bacanı, illər boyu əkib-becərdiyin meyvə ağaclarını, qoyun sürüsünü, yunu, yorğan-döşəyi, xalça-palazı atıb necə gedəsən? Lap, tutalım, bunların hamısını yükləyib apardın, bəs dədə-baba qəbirlərimiz, bəs, doğma yurd necə olsun?»

O, bu düşüncələr içində qovrularkən gəlini Səlminazın səsi gəldi:

– Dədə, bəs niyə yığışmırsan?

– Yaxşı, bəs, hara gedirik, qızım?

– El hara, biz də ora. – Səlminaz iri bir bağlamaya düyün vuraraq ayağa qalxdı və əli ilə kəndi göstərdi.

Maşallah dönüb yamac boyu sıralanmış evlərə bir də baxdı. Kəndin bütün itləri hürüşürdü. Səs-küydən qulaq batırdı. Heyvanlar, elə bil, fəlakət baş verdiyini hiss eləmişdilər. Kənd tüstünün, qara-qışqırığın içində boğulurdu.

– A kişi, nə durmusan orda, gəlib bunu dartsana?

– Yaxşı, Səlminaz. – Maşallah, istər-istəməz, arasına xalça-palaz yığılmış örkəni dartıb düyünləyə-düyünləyə arvadından soruşdu:

– Axı, hara gedirik?

Səlminaz bağlı yükü dişi aslan kimi götürüb kənara qoydu:

– Camaat hara, biz də ora…

Maşallah daha bir kəlmə də demədi…

***

Fərman kişi nə müddətdən bəri üzünü qırxdıra bilmədiyindən, saqqalı, az qala, sinəsinə qədər uzanmışdı. Ağdam bazarından on il əvvəl aldığı buxara papağının

küncl ərinin qıvrım tükləri tökülmüş, kirqarışıq ağ-qara zolaq yaratmışdı. Fərman kişi əlini cibinə saldı. Qəlyanını, tütün kisəsini və alışqanını götürdüyünü yəqinləşdirib arxayınlaşdı. Hər yay Soltan Heydər yaylağında qurduqları alaçığın çubuqlarından dörd dənəsini keçi qəzilindən toxunmuş çatı ilə sarıyıb toqqasına bağladı.

Bunu görən Maşallah atasına yaxınlaşdı:

– Əşşi, camaat nə hayda, sən nə hayda? Bu çubuqlar nəyinə gərəkdir?

– Leysan ayıdır, ay oğul. Hər an yağa bilər. Körpə balaların, qoca ata-anan. Qarşıda bizi nələr gözlədiyindən xəbərsizik. Axşamlar bir çətən külfəti hara yığacaqsan? Bu çubuqlarla bir koma qaraldar, üstünü cejim-palazla örtərik.

Maşallah səsinə həlimlik qatdı:

– Dədə, onları mən götürərəm. Sən uşaqları apar. Görüm maldan-qoyundan nə gətirə bilirəm.

Bir azdan mal-qara böyürtüsü, qoyun-quzu mələrtisi və itlərin hürüşməsi kənddən xeyli uzaqlarda eşidilirdi…

***

Quşqulaq kəndi yavaş-yavaş sükuta qərq oldu. Adamlar, yorğan-döşəklə, xalça-palazla yüklənmiş arabalar, atlar və ulaqlar dar dağ çığırları ilə yavaş-yavaş dərəyə enməyə başladı. Ara vermədən hürən itlərin müşayiəti ilə qədim elat səfərinə oxşayan bu köç elə hey uzanıb gedir, qurtarmaq bilmirdi.

1992-ci ilin yazı idi. Beləcə, rahat ev-eşiklərindən, həyət-bacalarından, var-dövlətlərindən ayrı düşüb, çətin, keçilməz dağ yollarına səpələnmiş ailənin didərgin həyatı başlandı.

Dağlara möhkəm yağış yağdığından, Həkəri çayının şaqqıltısı, nəriltisi, az qala, qulaq batırırdı. Görusun Dığ kəndində yerləşdirilmiş erməni-rus hərbi birləşmələri artilleriya atəşinə ara verməsələr də, çayın sol sahilini dəqiq nişan ala bilmirdilər. Güneyə düşən mərmilər ilan kimi qıvrılan yollarda ardı-arası kəsilməyən köçü yolundan sapdıra bilmirdi.

Fərman kişinin dizi taqətdən düşmüşdü. Həkərinin köpüklü sularına baxa-baxa xəyalən cavanlıq günlərinə qayıtdı.

…Elə onda da yaz ayları idi. Göyçədə, Dərələyəzdə, Irəvan mahalında kəndlərimizi talan edib, minlərlə Azərbaycan

türkünü diri-diri yandıran, güllələyib xəndəklərə tökən tayqulaq Androniki, 1905-ci il erməni-müsəlman davasını xatırladı. Onda Andronik növbəti hiyləyə əl ataraq, Soltan bəydən Aşağı Qarabağa keçmək üçün yol istəmişdi. Bəy cavab vermişdi ki, mənim əsgərlərim sənin silahlı ordunu görsələr dinc durmazlar. Sən bütün silahlarını atına, eşşəyinə yükləsən, adamların əlisilahsız olsalar, Zabuxdan yol verə bilərəm. Hiylə işlətmək istəyən tayqulaq Andronik müdrik Soltan bəyin qurduğu tələdən çıxa birmir...

Günortaya yaxın erməni ordusu Dığdan Zabuxa tərəf hərəkətə başlayır. Həmin döyüşdə bütün daşnaqları Soltan bəyin gülləsinə və Həkərinin kükrəyən sularına qurban verən Andronik iki-üç yaxın adamı ilə qaçıb aradan çıxa bilir.

Maşallahın:

– Dədə, kimi gözləyirsən? – sualı Fərman kişini xəyaldan ayırdı.

Toran qovuşurdu. Qubadlının Sel yeri kəndinin camaatı uşaqdan-böyüyə elat yoluna çıxmışdı. Dəyirmançı Fəttah kişi də burada idi. Hamı köçhaköçün qarşısını almaq, dayandırmaq istəyirdi. Heyhat… Fəttah kişi çətinliklə də olsa, Fərman kişini tanıdı. Həmin gecə başlanan didərginlik elə həyatının son gecəsi oldu.

Köç arana doğru gedirdi. Bir aylıq məşəqqətli köç yolu Ağcabədinin Taxta körpü adlanan ərazisində – Laçının qış yataqlarında, müvəqqəti olsa da, sona yetdi. Maşallah Qarğabazarda atasını, Haramı düzündə isə Lalə adında səkkiz aylıq qız nəvəsini itirdi.

Kür qırağının isti, ağcaqanadlı, milçəkli, ciyər dolusu nəfəs almağa çatmayan boğuq havası Səlminazı malyariya xəstəliyinə saldı. Mal-qara, qoyun-quzu qızdırdı. Çoxunun əti də ələ gəlmədi. Yerdə qalanları isə dəyər-dəyməzə satan Maşallah köçünü Bakıya tərəf sürdü. Xocahəsən gölünün sağ sahilində – Yasamal tərəfdəki şamlıqda dalda bir yer tapdı. Kənddən çıxanda atasının bir yerə toplayıb bağladığı dörd çubuqdan, sürtülüb əldən düşmüş xalça-palazdan alaçıq düzəldib ora sığındılar.

O, həmişə maldan, qoyundan, atdan, ulaqdan satıb dar gün üçün bir az pul yığdığına şükür edirdi. Alt köynəyinə tikib saxladığı o qəpik-quruş olmasaydı, deməli, dilənçilik eləməli olacaqdılar. O, əlbəttə, dünənki gecəni – alaçıqda yatdıqları ilk

gecəni heç vaxt unutmayacaqdı. Uşaqlar perik düşmüş quşlar kimi nənələrinin qucağına sığınmışdılar. Maşallah nə qədər yorğun olsa da, gözünə yuxu getmirdi. Qəhər onu boğur, için-için ağlayırdı. Səsini içində gizləyirdi. Onun gözlərində oxunan lal fəryadını, boğulmuş hıçqırıqlarını yalnız yas içində üzülən ürəyi eşidirdi. Içindəki bu yası o, doğma yurduna – öz itən dünyasına tutmuşdu. O, Tanrıdan özünə ölüm dilədi. Bu vaxt, elə bil, uşaqlardan kimsə yuxuda zarıdı. Maşallah özünə gəldi. Bəli, bu zarıltı körpə səsi idi. Onun bu körpə qarşısında borcu çox idi. O, yaşamalı, mübarizə aparmalı, doğma torpaqlarını düşməndən geri almalıydı. Sonra isə rahat ölə bilərdi…

Bəli, gecənin səssizliyində eli-obası, ailəsi, uşaqları, doğma torpaqları, qarşısında məğlub əsgər kimi susur, sonra yenidən hönkürür, hönkürürdü…

O, səhəri dirigözlü açdı. Hava yenicə qızırdı. Uşaqlar alaçığın qabağında oynayırdılar. Bir az aralıda – Bakı-Sumqayıt yolunda maşınlar şütüyürdü. Ömrü boyu dağların sakitliyinə, səssizliyinə öyrəşmişdi Maşallah. Indi bu maşın karvanının səsindən bezsə də, görəcəyi işlər barədə fikirləşirdi: «Sabah bir az məftil alıb həyəti çəpərləyim. Sonra iş axtarım. Allahın köməyi ilə fəhləlik də olsa, bir iş tapa bilsəydim, dərdim olmazdı».

Elə bu zaman kəhraba dənəsinə bənzər bir arı Maşallahın ətrafında vızıldaya-vızıldaya fırlanıb getdi. Maşallahın köksündən qeyri-ixtiyarı bir fəryad qopdu. Həyətlərindəki uzunsov arı pətəkləri yadına düşdü. O, pətəklərin çoxunu cökə ağacından özü yonub düzəltmişdi. Hər yaz qaranlıq düşəndə pətəklərin ağzını bağlayar, sübh tezdən Göy bulağın üstündə düzəltdiyi arıxanaya köçürərdi. Saatlarla səssiz-səmirsiz oturub, təbiətin bu möcüzəli varlığına göz qoyardı.

Göy bulağın həndəvərində dünyanın ən gözəl çiçəkləri bitirdi. Kəklikotu, alma yoncası, qantəpər, gülxətmi, baldırğan çiçəkləri arıların ən çox şirə çəkdikləri qida mənbəyi idi.

Bayaqkı arı yenidən Maşallahın başı üstə fırlandı. Sonra Səlminaza tərəf uçdu. O, əlləri ilə sifətini qorudu. Əsli arvad yaşına yaraşmayan bir qıvraqlıqla yerindən qalxdı:

– Ay bala, o nə arıdır, vallah, kənddən çıxandan bizdən ayrılmayıb. Odey, bankaya şirə qaynadıb qoymuşam. Sizə demirdim ki, kövrələrsiniz, ürəyiniz göynəyər. Hər dəfə o arı evdə fırlananda Göy bulaq, Işıqlı dağ, Soltan Heydər yaylağı,

Quşqulağın güneyindəki güllər-çiçəklər gözlərimin qarşısına gəlir. Allah mərdimazara qənim olsun…

Maşallah, elə bil, anasının sözünü eşitmirdi. O, sanki arıyla heç kimin başa düşmədiyi bir dildə danışırdı:

– Ay kəhrəba dənəsi, bəlkə bizim rəddimizə, izimizə düşüb gəlmisən? Ermənilər pətəkləri də yandırdılar? Evimizin izi-tozu qaldımı? Hər şeyi talayıb aparanda niyə onların gözlərinin didəsindən sancmadın? Niyə bizim qisasımızı almadın?

Maşallahı sanki ildırım vurdu. Alnından süzülən tər boynunu-boğazını islatdı. Arıya nəsə demək istədi. Ancaq o, artıq uçub getmişdi…

Maşallah uzun zaman bu hadisəni unuda bilmədi…

Vaxt ötdükcə, öz qəfəsinə öyrəşən quş kimi, Maşallah da öz alaçığına öyrəşirdi. O, alaçığa su da çəkdi, işıq da, qaz da…

Gecələr səhərə kimi gözünə yuxu getmirdi. Bu uzaq, nəhəng, hardasa doğma, hardasa yad şəhərdə onu və ailəsini yeni bir həyat – çətin, mübarizə ilə dolu bir həyat gözləyirdi. Altmış üç yaşlı dağ adamı bu çətinliklərin öhdəsindən təkbaşına gələ biləcəkdimi? O, sağlam idi, sement kisəsini rahatca qaldırıb, çiynində apara bilərdi. Ancaq onun bu gücünə hələ ehtiyac yox idi. Çətinlik də bunda idi. Lakin onun dayanmağa, geri çəkilməyə və məğlub olmağa haqqı yox idi.

Fəlsəfədən başı çıxmırdı. Amma böyük həyat təcrübəsi keçmişdi, sağlam ağlı vardı və bu ağıl onu səhv addım atmaqdan qoruyurdu. Əsas məsələ payız gələnə qədər boş bir ev tapmaq, ya da burada bir otaq tikib, uşaqları xilas etmək idi.

Ucqar dağ kəndində «UAZ»dan, «Niva»dan başqa maşın görməyən uşaqlar çox vaxt yolun qırağına çıxıb rəngbərəng, əsasən də, xarici maşınlara təəccüblə tamaşa edirdilər. Belə vaxtlarda Əsli nənənin ürəyi dözmür, səsi kənddəki kimi aləmi başına götürürdü. Onun bu tələş dolu qayğıkeş səsini eşidəndə Maşallah bığaltı gülümsəyirdi.

Maşallah səhər şirinçayla çörəyini yeyib, şəhərin tanımadığı küçələrindən birində yeni inşa edilən binaya yaxınlaşdı. Üç-dörd fəhlə və onlara göstəriş verən prorab nə barədəsə mübahisə edirdilər, başqa birisi isə nəhəng kranın pəncərəsindən yəqin ki, onların göstərişini gözləyirdi. Maşallah yaxınlaşıb salam verdi. Gözucu onu süzüb, yalnız başlarını

tərpətdilər. Sonra Maşallahın proraba oxşatdığı adam əlini cibinə salıb bir əllilik çıxartdı və ona tərəf uzatdı:

– Səhərin gözü açılmamış qoymazlar ki... – dedi.

Maşallah qızarıb, əvvəlcə nəsə kobud bir söz demək istədi. Ancaq hirsini boğub:

– Qardaş mən dilənçi deyiləm, – dedi.

Prorab dönüb tərs-tərs ona baxdı:

– Bəs nə istəyirsən?

– Iş axtarıram.

– Nə? – Prorab bərkdən dilləndi.

Fəhlələr qəhqəhə çəkdilər.

– Get-get, ay kişi, burada iş nə gəzir? Get, mane olma.

Maşallah əlacsız qalıb başqa göydələnlərə tərəf üz tutdu və orda daha kəskin istehza ilə qarşılandı. O, bilirdi ki, olan-qalanı nə varsa, beş-on günə qurtaracaq, odur ki, mütləq iş tapmalıydı. Beləcə o, nahar etmədən tikinti meydançalarını dolaşdı. Daş daşımağa, sement qarışdırmağa, zir-zibil təmizləməyə, əlindən nə iş gəlirsə, hər şey etməyə hazır idi. Amma onun kimi bu işləri bacaranlar yüzlərlə, minlərlə idi. Buna görə də, hər yerdə eyni cavabları alırdı. Axşamüstü, yorğun, ac-yalavac alaçığına gəldi. Nə qədər üzünə nikbin və şən ifadə verməyə çalışsa da, Əsli arvadla Səlminaz o dəqiqə işin nə yerdə olduğunu hiss etdilər.

Iştahasız çörəyini yeyib çölə çıxdı, kətilin üstündə oturub fikrə getdi. Əsli arvad Səlminazın çay aparmaq istədiyini görüb padnosu ondan aldı və oğlunun qabağına qoyub:

– Nədir, nə olub? – deyə soruşdu.

– Heç… Heç yanda iş tapmaq olmur. Belə getsə, bilmirəm neyləyəcəyik?

– Darıxma, oğul. Özünü üzmə, bala… Ananın da bir az ehtiyatı var, acından ölmərik…

Maşallah gülümsəyib, anasının qırış düşən doğma, mehriban üzünə baxdı və fikirləşdi ki, cəmi neçə ay bundan qabaq kənddə anasının üzündə bir dənə də qırış yox idi…

***

Aylı gecə idi. Uşaqlar yatmamışdılar. Səlminaz evin qabağında saman üstə palaz sərib tikiş tikirdi. Əsli arvad eynəyini taxıb Quran oxuyurdu. Qonşu evdən musiqi sədaları gəlirdi. Bir az aralıdan isə ara vermədən ötüb keçən maşınların uğultusu, siqnal səsləri eşidilirdi. Maşallah sabah Alatava tərəfə gedəcəyini düşünüb, orada bir iş tapacağına ümid edirdi. Çünki lap axşamüstü təsadüfən rastlaşdığı qonşusu ona məsləhət görmüşdü ki, Alatava tərəfə getsin, tikintidə özünə bir iş tapa bilər.

Maşallah səhər tezdən üzü yuxarı – Alatava tərəfə qalxdı. Tikilməkdə olan doqquzmərtəbəli binalardan birinə baş çəkdi. Təsadüfən iki-üç gün əvvəl Bakıya gəlmiş həmkəndlisi ilə rastlaşdı.

Həmkəndlisi soruşdu:

– Nə var, nə yox? Yolu necə gəldiniz?

– Çətin də olsa, Bakıya çatdıq.

– Iş tapmısan?

– Hələ yox, bekarçılıqdı.

– Ə, bilirsən nə var? Bayandurlular hər gün Yeni Yasamalda tikilən doqquzmərtəbəli binanın ətrafına yığışırlar. O binanın mənzilləri ucuz satılacaq, özü də nisyə. Qaçqınlar əvvəlcədən adlarını yazıb panel divarları nişanlayırlar. Deyilənə görə, adını yazdığın panel hansı mərtəbəyə, hansı mənzilə düşsə, sənindir.

Bu xəbər Maşallahı bir xeyli sevindirdi. Görəsən, gecikməmişdi ki? Artıq bir saatdan sonra o, Yeni Yasamalda idi. Xoşbəxtlikdən panellərin hamısı daşınmamışdı. Maşallah diyircəkli qələmlə, çətinliklə də olsa, panellərdən birinin üstünə adını yazdı. Sonra yazının nəzərə çarpmadığını görüb, rezin parçasını yandırdı, külünü maşın yağı ilə qarışdırıb böyük hərflərlə «MAŞALLAH!» sözünü təzələdi. Sevincindən az qalırdı oynasın. O, daha ümidsiz deyildi. Heç kimə boyun əyməyəcəkdi, heç kimə əl açmayacaqdı. Təki evi olsun, işləyib pulunu ödəyəcəkdi…

Axşam Səlminazı yanına çağırdı.

– Nə var? Çiçəyin açılıb, xeyir ola? – Səlminaz şad bir xəbər eşidəcəyini hiss edib, gülə-gülə soruşdu.

– Xeyirdir. Evimiz olacaq. Bizimçün doqquzmərtəbəli ev tikilir.

– Bir ev bu qədər məxluqun hansına çatacaq?

– Nə bilim? Sən demə, çoxdan tikilirmiş. Sağ olsun, kimsə xeyirxah iş görüb, nisyə tikir…

***

Nəhayət, sentyabrın ortalarında, binanın tikintisi başa çatdı. Maşallah sübh tezdən bir-bir bloklara girib öz panelini axtarmağa başladı – ikinci blokda yeddinci mərtəbədən azacıq aşağıda – divarda «Maşallah» sözünü oxuyanda nə edəcəyini bilmədi. Əsl möcüzə baş vermişdi: onun adını yazdığı panel liftə düşmüşdü…

2004

Publisistika

RUHUNU GÖZLƏRINDƏ GÖRDÜYÜM SƏNƏTKAR

«Hər kəsin öz dili qarşısında bir övladlıq borcu var…».

Ç.Aytmatov

Çingiz Terekuloviç Aytmatov… Müasir dünya ədəbiyyatının ən görkəmli karifeylərindən biri… Sağlığında əfsanələşən dahi…

***

Hələ təqribən 40 il bundan əvvəl Çingiz Aytmatovun ilk qələm təcrübələrini oxuyan məşhur fransız şairi Lui Araqon yazırdı: «Cəmilə», heç şübhəsiz ki, XX əsrin ən böyük məhəbbət dastanıdır. Dəniyarın sevgisi qarşısında sehrlənməmək mümkün deyildir. Əsəri oxuyub qurtarandan sonra Leyli və Məcnun haqqında poema yazmaq həvəsinə düşdüm və hiss etdim ki, Şərqin qüdrətli sənətkarlarının tez-tez müraciət etdikləri bu əzəli və əbədi mövzu cəzbedici olduğu qədər də çətindir…».

O vaxt Lui Araqon kimi qüdrətli sənətkarın ədəbiyyatda ilk addımlarını atan gənc bir yazıçı haqqında söylədiyi bu yüksək fikirlər qərbli bir şairin ekzotik Şərqə vurğunluğu kimi başa düşüldü və müzakirə mövzusuna çevrilmədi, amma buna baxmayaraq, təsirsiz də qalmadı, istər-istəməz, ədəbiyyatsevərlərin qəlbində maraq oyatdı və yaddaşlara hopdu…

Aradan illər keçdi: «Ana tarla», «Əlvida, Gülsarı», «Dəniz kənarı ilə qaçan Alabaş», «Ağ gəmi» povestləri, «Gün var əsrə bərabər» romanı yarandı və Çingiz Aytmatov dünyanın ən azman söz ustalarından birinə çevrildi.

Səhv etmirəmsə, 1889-cu ildə qərb ölkələrində keçirilən bir sorğu nəticəsində məlum oldu ki, Avropada «Bibliya»dan sonra ən çox oxunan məhz Çingiz Aytmatovun əsərləridir. Maraqlıdır ki, bu ədəbi fakt da vaxtilə Lui Araqonun söylədiyi fikir kimi susqunluqla qarşılandı. Amma bu dəfə səbəb tamamilə başqa idi: ədəbi ictimaiyyət Çingiz Aytmatov haqqında bu qənaətə çoxdan, lap çoxdan gəlmişdi…

***

Etiraf edim ki, mən Çingiz Aytmatovu həmişə əfsanələrdəki qəhrəmanlar kimi təsəvvür etmişəm: əlçatmaz, ünyetməz və qüdrətli!

Elə bilmişəm ki, o, Yer üzündəki bütün qırğızların atası, ağsaqqalı və xilaskarıdır. Bəlkə elə buna görə də, Sovet imperiyası dağılanda, istər-istəməz, düşündüm ki, bu dahi sənətkar qələmi yerə qoyacaq, xalqını kabusdan qorumaq üçün mübarizə meydanına atılacaq – siyasi liderə çevriləcək. Lakin belə olmadı – «ədəbiyyat imperiyası»nın sultanı qələminə sadiq qaldı və başa düşdüm ki, mənim o cür fikirləşməyimin səbəbi, əslində, o dövrün xarakterik xüsusiyyətləri ilə bağlı imiş...

Bəli, Çingiz Aytmatov öz yolundan dönmədi. Onun üçün yaradıcılıq həyatda baş verən hadisələrin hamısından yuxarıda, elə bir ucalıqda idi ki, ondan aşağıda – Yer kürəsi adlanan planetin üstündə insan dalğaları çarpışırdı, bir-birinin əksinə, bir-birinin ziddinə gedən kütlələr seli toqquşurdu, ancaq bu çarpışmaların, bu toqquşmaların heç biri Çingiz Aytmatov yüksəkliyinə qalxa bilmirdi.

Onun missiyası başqadır. O, insanların gələcəyini düşünür və bu gələcəyin doğru, dürüst istiqamətini özünün söz adlı səltənətində sehrli-əfsunlu bir şəkildə göstərməyə çalışır…

***

Ağlıma da gəlməzdi ki, mən nə vaxtsa Çingiz Aytmatovla üzbəüz əyləşəcəyəm. Onunla yaxın müsahib, səmimi dost olacağam. Hər şey – təvəzökarlıqdan uzaq olsa da deyim – «Xəcalət» povestimdən başladı. Bu əsərim bir il bundan əvvəl bir qədər işlənmiş yeni variantda «Pokayanie» adı ilə rus dilində nəşr olunub. Kitabın bir nüsxəsini əslən bakılı olan, hazırda Almaniyada yaşayan dostum David Kostyukovski Qırğızıstanın Belçikadakı səfiri, müasir dünya ədəbiyyatının canlı klassiki Çingiz Terekuloviçə çatdırıb. Bundan bir neçə gün sonra iş otağımda telefon zəng çaldı. Dəstəyi götürdüm. Çingiz Aytmatov idi!

Bəli, əsərlərini sevə-sevə oxuduğum, yaradıcılığına və şəxsiyyətinə hörmət etdiyim, nə gizlədim, əvvəldə də qeyd etdiyim kimi, əfsanələrdəki qəhrəmanlartək əlçatmaz və ünyetməz saydığım Çingiz Aytmatov birdən-birə, qəfildən,

gözləmədiyim halda mənə zəng etmişdi. Doğrusu, bərk həyəcanlandım. Onun televiziya ilə çıxışını bir necə dəfə dinləmişdim. Səsi yaddaşıma həkk olunmuşdu. Bəli, bu, həmin doğma, munis səs idi!

Çingiz Aytmatov «Xəcalət» povestimi oxuduğunu, Qarabağ mövzusunun belə real cizgilərlə bu tezlikdə ədəbiyyata gətirilməsinin yaxşı hal olduğunu dedi. Sonra o, yaradıcılıq planlarımla maraqlandı. Daha hansı mövzularda əsərlər yazdığımı soruşdu.

Indi dəqiq xatırlaya bilmirəm: həmin həyəcanlı anlarda ona nə kimi cavablar vermişəm. Söhbətimizin sonunda dedi ki, nə vaxt Belçikaya yolun düşsə, mütləq görüşək.

Bu təklifi eşidəndə, düzü, çox sevindim.

Sonralar biz telefonla bir neçə dəfə də danışdıq. Özü də, əsasən, o, zəng edirdi.

***

Xoşbəxtlikdən 2005-ci ilin yanvar ayının axırlarında iş elə gətirdi ki, Belçikaya işgüzar səfərim oldu.

Aeroportda məni Almaniyadan gəlmiş dostum David Kostyukovski qarşıladı. Novohoteldə yerləşdik. Işlərimizi bir qədər qaydaya salandan sonra Çingiz Terekuloviçə zəng vurdum. Brüsseldə olduğumu biləndə çox sevindi:

– Aha, çox yaxşı, indi görüşə bilərik, – dedi.

Telefonla xeyli danışdıq. Bakıdakı vəziyyəti, ab-havanı soruşdu. Eyni zamanda, mən də ondan hal-əhval tutdum, səhhəti ilə maraqlandım. Brüsseldə nə qədər qalacağımı biləndən sonra təklif etdi ki, sabah, yəni, bazar günü saat üçdə Qırğızıstan səfirliyində, onun iş yerindəcə görüşək.

Səhəri böyük həyəcan və nigarançılıqla gözlədim. Yanvarın 29-da bazar günü saat üçə on dəqiqə qalmış Qırğızıstan səfirliyinin qarşısında idik: mən və dostum David Kostyukovski. Səfirliyin qapısına yaxınlaşdıq. Qapılar bağlı idi. Narahat oldum. Düşündüm ki, yəqin Çingiz Aytmatov hansısa bir səbəb üzündən görüşə gəlməyə imkan tapmayıb. Təəssüf hissi ilə fikirləşdim ki, gərək oteldən çıxanda bir də zəng vuraydım. Bu nigarançılığım on dəqiqə çəksə də, mənə on il qədər uzun gəldi. («Gün var əsrə bərabər» ifadəsinin hikmətini bir daha əyani şəkildə anladım). Düz saat üç tamamda səfirliyin qapısına bir avtomobil yaxınlaşdı. Avtomobildən hündür boyu, düz qaməti,

harmonik bədən quruluşu, qüruru və əzəmətli yerişi ilə diqqəti cəlb edən Çingiz Aytmatov düşdü. Əlində adi bir çanta var idi.

***

Belçikanın təbiəti ilə Azərbaycanın təbiəti arasında bir oxşarlıq var. Bəlkə də mənə belə gəlir. Hava elə də soyuq deyildi. Günəş nazik tülü xatırladan buludların arasından süzülüb yerə işıq salırdı. Ancaq mən həmin anlarda təbiəti olduğundan daha işıqlı görürdüm. Sanki göy üzündə cilvələnən günəşin işığına ədəbiyyat günəşinin – Çingiz Aytmatovun işığı da qarışmışdı…

***

Köhnə dostlar kimi çox səmimi görüşdük. Sonra Çingiz Aytmatov Davidlə məni içəriyə dəvət etdi.

Onun iş otağında bir xanım – çox güman ki, səfirliyin işçisi idi – bizə qulluq etdi. Süfrəyə çay, mer-meyvə qoydu. Burada bir-birimizdən yüngülvari hal-əhval tutduq. Sonra Çingiz ağa bizi nahara dəvət etdi. Şəhərin ucqar bir səmtində, sakit bir Fransız restoranında süfrə arxasında əyləşdik. Yadıma Bakının dəbdəbəli, hay-küylü, ağız deyəni qulaq eşitməyən restoranları düşdü. Hiss etdim ki, Avropada adamlar restoranlara, əsasən, istirahət etmək üçün gəlirlər. Hər cür səs-küydən uzaq, arxayın bir yerdə əyləşir, hisslərini bölüşə-bölüşə əylənirlər…

Hərdən deyirlər ki, Bakıya bu hay-küy Avropadan gəlib. Amma mən Avropanın sakit, təmkinli baxışları altında düşünürəm ki, Qərb yaxşı olan nə varsa, saxlamağı bacarır, pis olan nə varsa, ondan da imtina edir. Bu, təbiidir, elə belə də olmalıdır; kim nəyi saxladığını, nəyi atdığını bilməlidir.

Çingiz Aytmatovla söhbətimiz, əsasən, Azərbaycan ədəbiyyatı ilə bağlı oldu. Bəlkə kiməsə elə gəlir ki, az qala, bütün dünya üçün əfsanəyə çevrilmiş bu yazıçı ancaq öz yaradıcılıq aləminə qapılıb. Yox, belə deyil. O, Azərbaycan ədəbiyyatının çox gözəl bilicisidir. Məsələn, Bəxtiyar Vahabzadənin yaradıcılığına çox yaxşı bələddir. Onu müasir dünyanın ən böyük şairlərindən biri hesab edir. Çingiz Aytmatov söhbət əsnasında Elçinlə, Anarla maraqlandı. Onların Azərbaycanın taleyi ilə bağlı narahatlıqlarını başa düşdüyünü dedi və hiss etdim ki, hər ikisinə xüsusi hörməti, ehtiramı var. Həm Elçinin, həm də Anarın yaradıcılıq aləmlərinin formalaşmasında Azərbaycan əbədi

mühitindən başqa, onlanın atalarının – XX əsr Azərbacyan ədəbiyyatı klassiklərinin – Rəsul Rzanın və Ilyas Əfəndiyevin böyük rolları olduğunu xüsusi vurğuladı.

Mən burada bir məqamı xüsusilə qeyd etmək istəyirəm: Çingiz Aytmatov Azərbaycanın gözəl şairi, vətənpərvər ziyalısı Şahmar Əkbərzadənin vaxtsız ölümünü böyük ürək yanğısı ilə dilə gətirdi. Onun dediyi sözlər indi də qulaqlarımda səslənir: «Şahmar Qarabağla bağlı çox həyəcan keçirirdi. Axırda ürəyi Vətən dərdinə tab gətirmədi və susdu».

Çingiz Terekuloviçin həyat yoldaşı – Mariya Urmatovna Aytmatova da bizimlə birlikdə idi. Onu da deyim ki, Mariya Urmatovna Aytmatova son dərəcə kübar, geniş dünyagörüşünə malik bir ziyalıdır, həm də məşhur kinossenaristdir. Demək olar ki, Çingiz Aytmatovun bütün əsərləri onun ssenariləri əsasında ekranlaşdırılıb. Mariya Urmatovna Aytmatovanın həyat yoldaşına – Çingiz Terekuloviçə qarşı necə həssas olması – mən bunu böyük məhəbbət adlandırardım (məşhur fransız şairi Lui Araqonun «Cəmilə» povesti haqqında dediyi sözlər yada düşür) – dərhal hiss olunur… Söhbət əsasında o da Şahmarı hədsiz ağrıyla, nisgillə yada saldı və mən başa düşdüm ki, Şahmar, Aytmatovlar ailəsinin dünən olduğu kimi, bu gün də sevimlisidir.

Sonra Çingiz Torekuloviç Şahmar Əkbərzadənin onun Düşənbədə keçirilən 70 illik yubileyindəki çıxışını xatırladı:

– Şahmar necə də vurğunluqla danışırdı, – dedi.

Mən fürsətdən istifadə edib, Qarabağ probleminin həlli ilə bağlı ona sual verdim:

– Çingiz Terekuloviç, sizcə, bu məsələ necə həll olunmalıdır?

O, bir anlıq fikrə getdi. Sonra aydın, qətiyyətli bir səslə danışmağa başladı:

– Qarabağ Azərbaycan torpağıdır və heç şübhəsiz ki, bu problem həll olunarkən Azərbaycanın ərazi bütövlüyü gözlənilməlidir. Beynəlxalq hüquq normaları da bunu tələb edir. Torpaq məsələsi ilə bağlı xalqların taleyi ilə oynamaq olmaz. Ancaq mən istərdim ki, bu problem hərb yolu ilə yox, sülh yolu ilə həll edilsin. Indi dünyada qan tökməklə problemi həll etmək məqbul sayılmır.

Əlbəttə, mən dünyanı nur içində görməyi bacaran bir dahinin gəldiyi bu qənaətlə tam razı idim. Ancaq nə edəsən ki, ermənilər nura yox, zülmətə həmişə istinad ediblər…

Sonra Çingiz Aytmatov Heydər Əliyevin bu istiqamətdə gördüyü işləri yada saldı. Lap axırda isə dedi:

– Ilham Əliyev Heydər Əliyevin uğurlu siyasətini davam etdirə biləcək. O çox ağıllıdır, dünyanın nəbzini tuta bilir. Mən sevinirəm ki, Azərbaycan xalqı onu prezident seçib. Ümumiyyətlə, Ilham Əliyev tipli siyasətçilərin hakimiyyətə gəlməsi çox yaxşıdır. Unutmaq olmaz ki, ən böyük qanun – mənəviyyatdır və hər bir şəxs onu öz əcdadlarından qalma müqəddəs irs kimi qəbul edir və burada da vacib məsələ odur ki, bu qanuna – normaya sözsüz əməl edəsən, onun daha da möhkəmlənməsinə çalışasan.

Mən Heydər Əliyevin siyasi portretini əks etdirən bir neçə kitab müəllifi olduğumu və bu yaxınlarda tanınmış rus publisisti Viktor Andrianovla birlikdə «Görkəmli adamların həyatı» seriyasından Moskvada «Heydər Əliyev» adlı kitabımın çap olunacağını deyəndə, o çox sevindi. Təklif etdi ki, bu il martda Avropada keçiriləcək Beynəlxalq Kitab Yarmarkasında həmin əsərimlə iştirak edim. Mən də bildirdim ki, bu çox yaxşı olardı, amma təəssüf ki, vaxt az olduğuna görə çatdıra bilmərəm, sağlıq olsun.

Həmin gün biz beş saatdan çox bir yerdə olduq. Xudahafisləşib ayrılanda Çingiz ağa dedi ki, yenə görüşək. Hiss edirdim ki, qəlbi doludur, danışmaq istəyir. Aramızda elə səmimi münasibət yaranmışdı ki, sanki biz bir-iki günün yox, yüz illərin dostu idik. Qərara gəldik ki, sabah elə nahar vaxtı görüşək.

***

Səhəri gün axşam saat yeddidə Çingiz Aytmatovla elə otelin foyesindəcə görüşdük. Burada bir xeyli söhbət etdik. Mənə bir yazısını bağışladı. Üstünü də öz xətti ilə elə oradaca yazdı: «Bu əlyazmanı, ehtizazlı duyğularla, çox hörmətli qələm qardaşım Hüseynbala Mirələmova bağışlayıram.

Çingiz Aytmatov, Brüssel, 30 yanvar 2005».

Çingiz Aytmatov mənə daha bir kitab da bağışladı. Bu, onun yaradıcılığını əks etdirən «Aytmatov imperiyası» adlı kitab idi. Rus dilində çap olunmuşdu. Müəllifi Rüstəm Rəhmanəliyev idi. Dünya ədəbiyyatının bu canlı klassikinin həyat və yaradıcılığını öyrənmək üçün bundan dəyərli nə ola bilərdi?!.

***

Biz oteldən çıxıb bir Çin restoranına getdik. Burada da sakitlik məni heyran etdi. Sanki adamlar səssiz, sükutla bir-birini başa düşürdülər. Biz bir tərəfdə əyləşdik. Çingiz Terekuloviç yenə də xanımı ilə gəlmişdi. Necə oldusa, mən Qabriel Qarsiya Markesi soruşdum. Çingiz ağa Qabriel Qarsiya Markeslə dostluğundan xeyli danışdı.

Mən Çingiz Aytmatovdan ona Nobel mükafatının verilməməsinin səbəbini soruşmaq istəyirdim. Ancaq bu, bəlkə də, mənim üçün dünyanın ən ağır sualı idi. Bilmirdim bu sualı necə verim ki, dünya oxucularının qəlbini elə Nobel mükafatçısı qədər fəth etmiş bu böyük insanın qəlbini göynətməyim. Hər halda, mən özümdə cəsarət tapıb bu sualı verə bildim:

– Çingiz Terekuloviç, sizə çoxdan Nobel mükafatı verilməli idi. Hətta «Tavro Kassandrı» romanınızdan əvvəl...

O saat məndən soruşdu:

– Sən bu əsəri oxumusan?

– Bəli, Çingiz Telekuloviç.

– Ancaq çox ağır oxunur…

Həqiqətən də bu əsərdə çox güclü fəlsəfi ümumiləşdirmələr var. Burada dünyanın və bəşərin taleyi yazıçı təxəyyülünün gücü, yazıçı ürəyinin ağrısı ilə sözə çevrilib.

Çingiz Terekuloviç xanımına dedi ki, bu əsəri oxumağa hamının hövsələsi çatmır. Amma görürsənmi, dostum oxuyub.

O həmin əsərlə bağlı mənim fıkir və mülahizələrimə şərik çıxdı.

Sonra Çingiz Aytmatovun digər əsərlərini yada saldıq: «Gün var əsrə bərabər», «Qiyamət» romanlarını, bir çox povestlərini… Q, «Manqurt əfsanəsi» və «Sarı özək» haqqında danışdı. Maraqlı əhvalatlar yada saldı:

– Bir dəfə Moskvada Tverskoy küçəsi ilə gedirdim. Orta yaşlı, gümrah, ağsaçlı bir qadın mənə yaxınlaşdı, səhhətimi,

əhvalımı soruşdu. Və gözləmədiyim halda, birdən, «Bilirsənmi mən kiməm?» – dedi. Təbii ki, mən cavab verdim ki, bilmirəm. Həmin qadın dedi ki, mən Akbarayam. Sonra səssizcə çıxıb getdi.

Bəli, o qadın hamımızın heyranlıqla oxuduğumuz «Qiyamət» romanının əsas obrazı Ağ Börünü nəzərdə tuturmuş…

Mən dərhal dedim:

– Çingiz ağa, yeri gəlmişkən bir məsələyə toxunmaq istəyirəm: Ağ Börü Bostonun kiçik oğlunu aparır. Əlacı kəsilən Boston ona güllə atır, amma güllə Ağ Börü ilə yanaşı uşağa da dəyir – hər ikisi ölür. Əgər Boston güllə atmasaydı, Ağ Börü uşağı aparsaydı, Anaqurd əfsanəsində olduğu kimi, tərbiyə edib böyütsəydi, romanın sonu başqa cür alınardı…

Çingiz Terequloviç bir qədər fikrə gedəndən sonra dedi:

– Bilirsiniz, hər bir mif öz-özlüyündə xalq düşüncəsinin gücünü əks etdirir və hər dəfə ona müraciət etdikdə, biz elə bil ki, müasir insanın daşıdığı hər hansı bir mənəvi keyfiyyətin tarixi kökünə qayıdırıq. Manqurtu yadınıza salın. Indi bu obraz öz-özünü tərk etmiş minlərlə insanın ümumiləşdirilmiş adına çevrilib.

Əlbəttə, bütün miflər kimi bozqurdlar haqqında türk mifi də (bu tipli miflər hind və Latın Afrikası xalqları arasında da geniş yayılıb), görünür, təsadüfi deyil. Yəqin ki, qədim vaxtlarda belə hadisələr olub da. Lakin qurd sürüləri arasında böyüyən həmin uşaqlar tapıldıqdan və yaxud xilas edildikdən sonra insanlara məxsus keyfiyyətlərini bərpa edə bilmirlər və bu tip hadisələr mifik məna kəsb edir. Miflərə nə qədər meyil etsək də, bilməliyik ki, ədəbiyyatın əsas predmeti insandır.

Çingiz Terekuloviç öz həyatından başqa maraqlı hekayətlər də danışdı. Bu hekayətlərin hər biri elə onun əsərləri qədər əfsanəvi idi:

– Neçə illər bundan əvvəl – SSRI dövründə nümayəndə heyətinin tərkibində Pekinə getmişdim. Bir gün axşam oteldə telefonum zəng çaldı. Dəstəyi qaldırdım, gənc bir oğlan dedi ki, salam, mənim atam, xoş gəlmisiniz Pekinə. Bu gənc elə səmimiyyətlə «atam» dedi ki, mən çaşıb qaldım. Axı, burada mənim oğlum yox idi. Oğlan sanki mənim təəccübümü hiss etdi. O saatca dedi ki, mən sizin «Ağ gəmi» povestinizin qəhrəmanı olan Uşağam. Bəli, mən o vaxt həmin o əfsanəvi çaylarla üzə-

üzə Issık-Kuldan keçib gəlmişəm buraya. Indi Pekində oxuyuram.

Həqiqətən həmin oğlanın sözləri məni xeyli həyəcanlandırdı. Danışdıq ki, sabah Pekində oxuyan Orta Asiyalı tələbələrlə oteldə görüş keçirək.

Sabahı gün otelin foyesinə əlliyə qədər gənc oğlan və qız toplaşmışdı. Hamısı da bir-birinə oxşayırdı. Hamısı ilə də bir-bir əl verib görüşdüm. Lap axırıncı oğlana çatanda dedim ki, «Mənim oğlum sənsənmi?». O dedi ki, bəli. Az qala, mənim gözlərim dolmuşdu. O vaxtdan bəri mən o dostlarımla əlaqə saxlayıram. Hər ilin yayında bir ay Issık-Kula gedirəm. Marağı olan gəncləri oraya dəvət edirəm. Bir ay onların istirahətini təşkil edirəm, onlara mühazirələr oxuyuram. Mənim üçün çox vacibdir ki, türk xalqları bir-birinə yaxınlaşsın. Biz bir kökdənik, bir ağacın budaqlarıyıq, dilimiz nə qədər yaxındır bir-birinə… Məsələn, mən qazax dilini yaxşı bilirəm. Çünki qazax dilinin qırğız dili ilə bir fərqi yoxdur. Tatar dili ilə də heç bir problemim yoxdur – anam tatardır. Başqırd dilinə gəldikdə isə, məsələ qəlizləşir – sözlərin mənasını anlamaq üçün qarşılığını bütün türk dillərində axtarmalı oluram. Amma inanın ki, ən maraqlısı türkmən dilidir. Belə ki, bəzi adamlar danışanda çox asan başa düşürəm, bəzi adamlar danışanda isə çətin. Bu, bəlkə də türkmən dilində ləhcələrin çox olmasından irəli gəlir. Bir türkmən dostum var, tanınmış kino rejissor – Xoca Narlıyev. Bir sözünü də başa düşmürəm. Hərdən zarafatla deyirəm: «Elə danış ki, bir şey anlaya bilim». Azərbaycanca danışanda da, yəqin ki, çətinlik çəkmərəm, çünki türkcə az-maz bilirəm. Türkiyədə çox yox, bircə həftə qalan kimi – rahatca danışıram. Yadımdadı, hətta bir dəfə Türkiyədə radio ilə qarışıq qırğız-türk dilində çıxış da etmişəm. Avropa ölkələrində olanda da türklərlə tez-tez görüşürəm. Yaşlılarla dil tapmaq asan olur. Cavanların arasında eləsi var öz dilini bilmir, eləsi də var bilir, amma elə-belə, üzdən. Çünki ölkə, cəmiyyət özünün siyasi, iqtisadi, mədəni həyatında türk dilindən istifadə etmir. Bu funksiyanı alman dili icra edir. Odur ki, türk dili öz işləkliyini və daşıyıcılarını itirir. Əlbəttə, bu tamamilə başqa bir mövzudur…

Biz öz dilimizi bilirik, fərqi yoxdur – az və ya çox. Amma bu azdır. Biz bir-birimizin dilindən bəhrələnməli, lazımi sözləri, terminləri – əlbəttə, heç bir süniliyə yol vermədən – götürməliyik ki, dillərimiz arasındakı qarşılıqlı əlaqə möhkəmlənsin. Heç şübhəsiz ki, bu işdə elm adamları mühüm rol oynamalıdırlar.

O, bir anlıq susdu və mən fürsətdən istifadə edib soruşdum:

– Çingiz Terekuloviç, siz dilə qarşı çox həssassınız, odur ki, bir məsələyə münasibətinizi bilmək istəyərdim: türk xalqlarının tarixindən, ədəbi və mədəni irsindən bəhs edən «Sovetskaya türkologiya» jurnalının rus dilində dərc olunmasına necə baxırsınız?

O bir qədər fikrə gedəndən sonra dedi:

– Hə, yadıma düşdü, bu sualı mənə, səhv etmirəmsə, elə həmin jurnalın Baş redaktoru Aydın Məmmədov da vermişdi. Bilirsiniz, türk dilləri dünyanın ən böyük dil ailələrindəndir və Avrasiyanın çox geniş bir hissəsində yayılmışdır. Bu ailəyə daxil olan dillər böyük təkamül yolu keçmişdir. Onların hər birində ədəbi-bədii irs yaranıb, əvəzsiz tarixi məlumatlar toplanıb. Türkdilli xalqların şifahi və yazılı ədəbiyyatlarının tarixi çox qədim olsa da, türkologiya elmi və bu elmi araşdıran, təbliğ edən jurnal son dövrlərdə yaranmışdır. Əlbəttə, türkologiyanın əsaslı konsepsiyalara söykənən müstəqil elm kimi formalaşması fərəhli haldır. Türkologiya ilə məşğul olan elmi müəssisələr çox iş görüb. Indi onu daha da inkişaf etdirmək lazımdır.

Burada da ki, əsas iş alimlərin üzərinə düşür, odur ki, mən həm türkologiyanı yaradanlara, həm də onun fədakar təbliğatçısı olan naşirlərə böyük hörmətlə yanaşıram. Əlbəttə, biz yazıçılar da müəyyən işlər görürük və görməliyik. Mən elə indi də mütəxəssis kimi yox, yazıçı kimi bəzi məsələlər haqqında öz müşahidə və mülahizələrimi söyləmək istəyirəm.

Bayaq siz haqlı olaraq dediniz ki, «Sovetskaya türkologiya» jurnalı da, türkoloji əsərlərin böyük bir qismi də (türkdilli regionlarda aparılan bir çox tədqiqatlar da daxil olmaqla) rus dilindədir.

Bu, ilk baxışda son dərəcə paradoksal görünür. Ancaq nəzərə almaq lazımdır ki, dünya təcrübəsində bu cür hallar çox olur – bir dil daha çox inkişaf edən və güclü olan başqa dilin köməkliyi ilə öyrənilir və təbliğ olunur. Məsələn, hind dili üçün belə bir funksiyanı ingilis dili icra edir. Şimali Afrika xalqlarının dilləri ilə bağlı həmin işi fransız dili görüb və indi də görməkdədir.

Mənə elə gəlir ki, bizdə də eyni vəziyyətdir. Bu qarşısıalınmaz bir gerçəklikdir, bunu başa düşməli və yaranmış vəziyyətdə öz ana dilimiz üçün maksimum xeyir əldə etməyin yolunu tapmalıyıq. Təəssüf ki, türkdilli xalqların hər birinin dilinə

eyni dərəcədə yaxın olan ümumi bir dili yoxdur. Tale bu dillərin hər hansı birini müavsir dövrdə türkdilli xalqların hamısının istifadə edə biləcəyi ümumi ünsiyyət vasitəsinə çevirə bilməyib. Uzağa getməyək, götürək ən yaxın qonşumuz qazaxları. Dillərimiz olduqca yaxındır. Amma buna baxmayaraq, elmi söhbətləri öz aramızda rus dilində aparırıq. Halbuki, burada vəziyyətdən başqa çıxış yolu tapmaq olardı. Indiki tarixi şəraitdə isə rus dili xalqları birləşdirmək funksiyasını öz üzərinə götürüb. Bununla əlaqədar olaraq, dillərimizin bir-birinə bağlılığı yeni səciyyə qazanır və rus dili kimi güclü bir partnyorla paralel fəaliyyət göstərən hər bir türk dilinin yerini, mövqeyini və funksiyasını dəqiq müəyyənləşdirmək ehtiyacı üzə çıxır. Türkdilli regionlar üçün bu gün də, yəni müstəqillik əldə etdiyimiz bir vaxtda da qoşadillilik tarixi zərurətdir və onsuz keçinmək çətindir. Deməli, rus dili ilə partnyorluq qaçınılmazdır. Bu öz-özlüyündə həm böyük, həm də mürəkkəb məsələdir. Biz – yəni tərəflərdən biri – öz dilimizin layiqli partnyor olmasının qeydinə qalmalıyıq ki, rus dili ilə əməkdaşlıqdan ziyan yox, xeyir görək.

Bunun üçün dilimizin üzərində böyük yaradıcılıq işi aparmalı və onun müqavimət gücünü artırmalıyıq.

– Çingiz Terekoloviç, necə bilirsiniz, bu partnyorluq ana dilinin gələcək aqibəti üçün təhlükə yaratmaz ki?

– Əlbəttə, burada hər şey necə partnyorluq etməyimizdən asılıdır. Elə götürək milli ədəbi dilin inkişafını. Burada hansı proseslər baş verir? Bir dilin başqasından iqtibası – nəyisə götürməsi təbii şəkildə baş verir, yoxsa konservativ düşüncə tərzindən, ağlın tənbəlliyindən, mexaniki itaətkarlıqdan irəli gəlir?

Bu baxımdan vaxtilə qırğız dilində çıxan iki qəzeti nümunə gətirmək pis olmazdı: onlardan birinin adı «Issık-Kol pravdası», digəri isə, «Narın pravdası» adlanırdı. Bu məni həddindən artıq incidirdi. Yəni min illərlə tarixi olan bir xalqın dilində «həqiqət» sözü yoxdur? Rus dilinin belə korlanması, qırğız dilinin isə belə alçaldılması kimə lazım idi? Axı, qırğız dilində «həqiqət» sözünün elə ona qədər sinonimi var. Bir də, tutaq ki, bu söz qırğız dilində heç yoxdur. Nə olsun? Biz, ilk növbədə, başqa türk dillərinə müraciət etməliyik. Türk dillərinin bir-birindən söz və ya termin alması prosesini inkişaf etdirmək lazımdır. Burada qorxulu heç nə yoxdur. Sadəcə, bir qardaş o biri qardaşın mənəvi sərvətindən istifadə edir. Amma bunu elmi

yolla, özü də hər dilin inkişaf xüsusiyyətlərini nəzərə almaqla həyata keçirmək lazımdır.

Bəla burasındadır ki, bu cür mühüm məsələlərə toxunanlara xüsusi tip demaqoqlar – tribuna hay-küyçüləri dərhal millətçilik damğası vururdular.

– Çingiz Terekuloviç, esperantoya – Yer üzündə yaradılacaq vahid dilə də münasibətinizi öyrənmək istərdim…

– Biz nəzəri cəhətdən qərara gələndə ki, nə vaxtsa dünyada bütün dillərin əvəzinə bir dil olacaq, nədənsə, heç fikirləşmirik ki, axı, həmin «qalib» dil əvvəllər qidalandığı mühiti itirər, bəşəriyyət isə bundan heç nə qazanmaz. Yekrənglik heç vaxt inkişafı təmin edə bilməz. Ona görə də dillərin ömrünü uzatmaq, rəngarəngliklərini qorumaq lazımdır.

Hər bir dil öz xalqı üçün böyükdür. Və hər kəsin öz dili qarşısında bir övladlıq borcu var…

***

...Çingiz Terekuloviç danışdıqca, Türk dünyasından neçə min kilometr uzaqda – bir Avropa şəhərində öz yazıçı taleyini yaşayan sənətkarın, bu uzaqlığa baxmayaraq, Türk dünyasına necə yaxın olduğunu çox aydın hiss edirdim….

O, hərdən mənimlə qırğızca danışırdı. Mən də azərbaycanca cavab verirdim. Sanki hər ikimiz demək istəyirdik: biz bir-birimizə necə də yaxınıq, biz bir-birimizi necə də aydın başa düşürük…

Bəli, bütün türk dünyasının qəlbinə hakim kəsilən bu dahi sənətkar bizə, bizim qədər yaxındır və hiss edirəm ki, o, ruhumuza əbədi hopub.

***

...Bilmirəm, ruhları görən olubmu? Ancaq mən Çingiz Aytmatovun – dünyanın fəxr etdiyi bu dahi insanın ruhunu gözlərində gördüm…

***

P.S. Bu günlərdə «Heydər Əliyev» adlı kitabımın nəşri ilə əlaqədar Çingiz Aytmatov mənə zəng vurmuşdu. Moskvada

olduğumu bilən kimi dedi: sənə hədiyyə göndərmişəm, çatdıracaqlar. Sonra bir telefon nömrəsi verdi. Zəng etdim. Sorunbay adlı bir nəfər cavab verdi, sonradan öyrəndim ki, Çingiz Aytmatovun dostudu. Ünvanımı soruşub yanıma gəldi. Bir bağlama verdi. Açdım. Içində Çingiz Aytmatovun

75 illik yubileyi münasibətilə buraxılmış yeddicildliyi vardı. Bu gün dünyada ən çox oxunan bir yazıçının belə bir hədiyyəsi təbii ki, məni hədsiz sevindirdi…

Çox istərdim ki, onun bu yeddicildliyi tezliklə onun çox sevdiyi Azərbaycan türkcəsində oxuculara çatdırılsın.

2005

ŞƏXSIYYƏTIN ÖZÜ VƏ SÖZÜ

Xalq yazıçısı Ilyas Əfəndiyevin zəngin ədəbi irsini diqqətlə nəzərdən keçirdikdə, istər-istəməz, belə bir qənaətə gəlirsən: bu, nisgil, nigarançılıq, eyni zamanda, ümid dolu hekayələr, xalqımızın kəşməkəşli tarixini, mənəvi dəyərlərini özündə ehtiva edən siqləti böyük povest və romanlar, yüz minlərlə tamaşaçının zövqünü oxşayan, yeni-yeni aktyorlar və rejissorlar nəslinin yetişməsində müstəsna rol oynayan pyeslər, reallığı, yalnız reallığı əks etdirən publisistik yazılar, dost itkisindən doğan təskinlik əvəzi şirinli-acılı xatirələr, ədəbiyyatımızda çox az-az rast gəldiyiniz, rəvan və anlaşıqlı bir dillə yazılmış fəlsəfi esselər ya 1920-ci ildən əvvəl, ya da 1990-cı ildən sonra, yəni müstəqillik illərimizdə yarana bilərdi. Çünki bu yazılarla sovet dövründə yaranmış ədəbiyyat arasında ümumi heç nə (müsbət və mənfi qəhrəman obrazı, plan və öhdəliklərin vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirilməsi, yalançı pafos və s.) yoxdur.

Mənə elə gəlir ki, Ilyas Əfəndiyevin sovet dövründə özünü müstəqillik dövrünün yazıçısı kimi aparması, hər şeydən əvvəl, onun şəxsiyyəti (əyilməz və bütöv) ilə bağlı idi. O, bütün ömrü boyu, demək olar ki, yalnız iki şeyə – ədəbiyyatın əzəli və ədəbi qanunlarına və bir də həqiqətə tabe olmuşdur…

Ilyas Əfəndiyev sovet məfkurəsinin, az qala, dünyanın üçdə iki hissəsində yayıldığı, nəinki yayıldığı, hətta uğur qazandığı dövrdə də yüksəlmək, mövqe qazanmaq, – lap bunlar olmasa da, – özünü qorumaq naminə Kommunist Partiyasının sıralarına daxil olmamışdır. Amma maraqlıdır, ədəbiyyatdakı nüfuzunu nəzərə alaraq, sovet rejimi öz prinsipinin əleyhinə gedərək, onun vəzifədə olmasını münasib saymışdır və nəticədə Ilyas Əfəndiyev bir müddət Azərbaycan Yazıçılar Ittifaqının katibi olmuş, sonradan isə bu iş, vaxtını aldığı və cansıxıcı olduğu üçün ondan imtina etmişdir.

Görkəmli riyaziyyatçı, eyni zamanda, mən deyərdim ki, gözəl ədəbiyyat bilicisi Fərəməz Maqsudov Ilyas Əfəndiyev haqqında xatirələrində yazır: «Hələ tələbə ikən ədəbiyyata böyük maraq göstərirdim. Bakının irili-xırdalı kitabxanalarında, eləcə də Yazıçılar Ittifaqının «Natəvan» adına klubunda keçirilən ədəbi tədbirlərin demək olar ki, hamısında yaxından iştirak edirdim. Bu cür görüşlərin hesabına yazıçı və şairlərimizin bəziləri ilə artıq şəxsi tanışlığım da yaranmışdı.

Yaxşı yadımdadı, bir dəfə yenə «Natəvan» adına klubda Ə.Haqverdiyevin «Dağılan tifaq» əsərinin yeni tamaşasının müzakirəsi gedirdi. Çıxış edənlər quruluşçu rejissor Mehdi Məmmədovu çox ciddi şəkildə ittiham edirdilər ki, guya o, əsərə düzgün mövqedən yanaşmayıb; tamaşaçının qəlbində bəylərə, xanlara nifrət yaratmaq əvəzinə rəğbət aşılayıb…

Salonda 1937-ci ili xatırladan bir əhval-ruhiyyə vardı. Müzakirənin son dərəcə kəskin xarakter aldığı bir vaxtda şıx geyinmiş, cüssəli bir yazıçı söz aldı və dedi:

– Mən bu ittihamları qəbul etmirəm. Fikrimcə, rejissor Mehdi Məmmədov bu tamaşanı hazırlayarkən haqlı olaraq, ədəbi və tarixi həqiqətlərə sadiq qalıb, həyatı təhrif etmədən, olduğu kimi göstərməyə çalışıb. Bu siyasi savadsızlıq deyildir, əksinə, keçmişə düzgün baxışdır. Bundan əlavə, mən gənc rejissorun yeni tapıntılarını da uğurlu hesab edirəm. O, başqalarından fərqli olaraq, teatra təzə gözlə baxır və öz üslubunu yaratmaq istəyir. Tapdanmış yollardan cəsarətlə ayrılmış bu rejissora hər cür kömək etmək borcumuzdur.

Bu şıx geyinmiş, cüssəli yazıçı Ilyas Əfəndiyev idi və həmin məqamda o, o cür çıxış etməsəydi, kim bilir, istedadlı rejissor Mehdi Məmmədovun sənət taleyi necə həll olunacaqdı…».

Ilyas Əfəndiyevin yaradıcılığı təbiət kimi əlvan və rəngarəngdir. O öz hekayə, povest, roman və pyesləri ilə özündən sonrakı ədəbi nəsillərə çox güclü təsir göstərmişdir.

Bu qüdrətli yazıçının yaratdığı obrazlar ədəbiyyatsevərləri həmişə cazibə dairəsində saxlaya bilmişdir. Əsərlərindəki gərgin məqamlar oxucunu və yaxud tamaşaçını sanki yolayrıcına gətirib çıxarmışdır. Və şübhəsiz, həmin anda Ilyas Əfəndiyevin yazıçı mövqeyi oxucunun, yaxud tamaşaçının qolundan tutub, ona düzgün yol göstərmişdir. Bu, artıq katarsisdir. Aristotelin qeyd elədiyi kimi, «mənəvi təmizlənmə» mərhələsidir.

Yaradıcılığının ilk dövrlərində insan taleyinin qədərdən asılı olduğunu ön plana çəkən sənətkar sonrakı yazılarında hər bir fərdin həyatdakı yerini, mövqeyini mübarizəsi, ağlı, bacarığı və daha çox mənəvi yetkinliyi ilə əlaqələndirirdi.

Ilyas Əfəndiyevin «Kiçik bir poema» adlı hekayəsi 1942-ci ildə qələmə alınmışdır. Həqiqətən, adına uyğun olaraq, bu əsər sözün həqiqi mənasında gözəl bir poemadır. Doğrudur, əsər nəsrlə qələmə alınsa da, buradakı lirik ruh o qədər güclüdür ki, bu gün özünü postmodernist adlandıran, poeziya ilə nəsri qarışdırmaq yolu tutan müəlliflər onu özləri üçün əsl nümunə götürə bilərlər.

Ilyas Əfəndiyev nəsri, dramaturgiyası, hətta ədəbi-tənqidi, məqalələri başdan-başa lirik ovqat üstə köklənmişdir. Ancaq bu barədə bir qədər sonra.

Həmin kiçik poemanın qəhrəmanı nə qədər nəcib, alicənab, mənəvi cəhətdən təmiz bir insan olsa da, hərəkətlərinə, həyatda tutduğu yola görə biz onu qeyri-mübariz, qəzavü-qədərin arxasınca gedən bir insan kimi qəbul edirik. Sanki onun taleyini təsadüflər həll edir. Çünki o, qarşısına çıxan ilk anlaşılmazlıq nəticəsində mübarizədən çəkilir. Guya onun bu mübarizəyə haqqı yoxdur. Halbuki, cüzi təşəbbüs göstərsə, ona məlum olmayan həqiqətlər aşkarlanar və onun qeyri-əxlaqi əməldə bulunmasına da lüzum qalmaz. O isə bu təşəbbüsdə bulunmaq istəmir.

Əsərin qəhrəmanı müharibəyə gedir. Burada da təsadüf onu özünə rəqib bildiyi adamla qarşılaşdırır. Xoşbəxtlikdən hər şey yaxşı qurtarır. Sən demə, əslində heç onun əksinə gedən, ona rəqib olan yox imiş...

Allah qəlbi düz olanların tərəfindədir... Şübhəsiz, bu qənaət yazıçının mənəvi-əxlaqi kriteriyası ilə bağlıdır. Başqasının haqqına əl uzatmaq günahdan betərdir, bəlkə də, cinayətdir. Bu fikirləri 18-20 il sonra yazıçı «Körpüsalanlar» əsərinin qəhrəmanı Qəribcanın dili ilə bir daha təkrar edir: «Madam ki, sən öz xoşuna Adilin arvadı olmusan, madam ki, indi də onunla bir çadırda yaşayırsan, mənim sənlə işim yoxdur!» – deyə ürəyimdə Səriyyəyə xitabən qəzəblə danışırdım (guya ki, Səriyyə bu barədə mənə bir söz-zad demişdi). Mən başqalarının haqqına əl uzadanlardan deyiləm. Ona görə yox ki, mən müqəddəs adamam, yaxud Adilin halına yanıram, ona görə ki, mən başqasının xoşbəxtliyində gözü olanlara nifrət edirəm. Mən bunu acizlik, qorxaqlıq, rəzillik sanıram. Başqasının payı nə qədər cəzbedici olsa da, mənə lazım deyil!».

Ilyas Əfəndiyev ömrü boyu öz mənəvi aləmini qələmə almışdır. Aradan daha 8 il keçir və qüdrətli yazıçının qəlbində yaşayan ideal obrazın prototipi Kamran həmin kriteriyalar və mənəvi dəyərlər uğrunda mübarizəyə qalxır. Bu zaman yazıçının özünün dediyi kimi, insanların taleyi onun üçün həyati əhəmiyyət kəsb edir. Həmin mübarizədə Kamranın xarakteri açılır, onun daha böyük məqsədlər üçün yaşadığı bəlli olur. Gəlin Kamranın Nərminlə qarşılaşdığı həmin səhnəni yada salaq:

«N ə r m i n (sərt). Dəxli olmasa deməzsən! (Ağır pauza, birdən ona sarılaraq) Kamran, gəl biz atamgilin arzusunu yerinə yetirək. Axı, doğrudan da, mən onların bircə övladıyam.

K a m r a n. Mənə elə gəlir ki, professor razıdır.

N ə r m i n (onun sözünü kəsir). Bu razılıq ona baha oturar.

K a m r a n. O, kişidir.

N ə r m i n. Bəs, anam?

K a m r a n. O da tezliklə alışar.

N ə r m i n. Deməli, sən fikrindən dönməyəcəksən?

K a m r a n. Yox.

N ə r m i n. Mən getmək istəməsəm?

K a m r a n. Qalarsan.

N ə r m i n. Bu, sənə təsir eləməz?

K a m r a n. Eləyər.

N ə r m i n. Amma yenə gedərsən?

K a m r a n. Gedərəm.

N ə r m i n. Bəs, sən məni necə istəyirsən?

K a m r a n. Bəs sən məni necə istəyirsən?

N ə r m i n. Mənim qarşımda atam, anam dayanmışdır.

K a m r a n. Mənim də qarşımda xalqım, camaatım dayanmışdır. (Ağır pauza) Heç bilirsənmi dunyada necə böyuk dərdlər var? Orta məktəbdə mənimlə Maral adlı bir qız oxuyurdu. Bir gun onun atasını tutub, on il iş verdilər, gedib həbsxanada öldu. Sonralar məlum oldu ki, əsl müqəssir o deyilmiş.

N ə r m i n. Qız gözəl idi?

K a m r a n. Həm gözəl idi, həm də nəcib.

N ə r m i n. Bəs necə oldu?

K a m r a n. Kimsəsiz qalıb istəmədiyi bir adama ərə getdi.

N ə r m i n. Nə bildin istəmir?

K a m r a n (tutqun halda). Bildim.

N ə r m i n (qəribə eqoizmlə). Bəlkə səni sevirmiş?

K a m r a n (qısa kəskin bir nəzər salaraq qətiyyətlə). Mən də onu sevirdim. Lakin bu, dunyadan xəbərsiz, dilsiz-ağızsız bir sevgi idi.

N ə r m i n (istehza ilə). Mələklərin məhəbbəti kimi.

K a m r a n (qaşqabaqlı). Ola bilər. Mələkləri də insan təsəvvürü yaratmışdır.

N ə r m i n (alınmış halda). Amma mən elə bilirdim mən sənin həyatına daxil olmuş yeganə qızam. Demək, ikinci dəfə də sevmək olarmış (sarsılmış halda). Bəs sən nə uçun bunu indiyə qədər mənə demirdin?

K a m r a n. Çunki mən həmişə onu xatırlayanda, ancaq intiqam barədə düşünürəm.

N ə r m i n. Guya ki, bütün işlər bu qızın taleyindən asılı imiş. Yəqin ki, Maral o əhvalatı çoxdan unudub.

K a m r a n (təəccüblə). O unutsa da, mən unuda bilmirəm.

N ə r m i n. Sən kimlərdən intiqam alacaqsan?

K a m r a n. Insan həyatını pula, vəzifəyə satanlardan!

N ə r m i n. Xəyalpərəst!

K a m r a n (soyuq tərzdə). Ola bilər. Hər halda, hərəkət lazımdır. Əlvida!».

Bəli, həyatın üzü sərtdir. Qəzavü-qədərin gətirdiklərinə hazır olmayanlar lampa şüşəsi kimi istidən də, soyuqdan da çatlaya bilər. Nərminin timsalında bu şüşə qırılıb tökülür. Amma yox, daxili aləmində tərəddüd etməyənlər bu döyüşdən daha da bərkimiş halda çıxırlar. Əgər Kamran Nərminlə ilk döyüşdə məğlub olsaydı, demək, soykökünə, milli-mənəvi dəyərlərinə arxa çevirmiş olardı. Onsuz da, həmin dialoqda Nərmin büdrəyir və onun tezliklə yıxılacağı açıq-aşkar görünür. Kamran isə qüdrət, dəyanət və mərdlik simvolu kimi ucalır. Bu, artıq yazıçının özüdür. Həyatın hər üzünü görən və çətinliklərinə mərdanəliklə sinə gərən yazıçının özü…

Görkəmli tənqidçimiz Y.Qarayev «Əsrə sığmayan nəsr, yaxud zirvədə teatrı, səhnəni saxlayan sənətkar» məqaləsində yazır: «Bir nasir kimi, Ilyas Əfəndiyev həmişə irəli baxır, nəsrin inkişafında hər yeni mərhələnin və hər yeni nəslin yaradıcılıq axtarışlarında yenidən iştirak etməkdən yorulmur». «Geriyə baxma, qoca» bu həqiqətin yeni ifadəsi və növbəti təsdiqi oldu. Roman digər bir cəhətdən də maraq doğurur: məlumdur ki, Ilyas Əfəndiyevin bütün nəsri bir «mən»in dilindən deyilən monoloqa bənzəyir. Burada isə, həmin monoloq ilk dəfədir ki, birbaşa söylənilir, hər cür şərti, romantik haşiyə və ifratlardan təmizlənərkən, «çılpaq» görünür. Burada təhkiyənin tərzi ilə yanaşı, predmeti də dəyişir: müasirlik axtarışlarını bu dəfə o, tarixi keçmişin materialında davam etdirir və ilk dəfədir ki, belə müstəqil şəkildə fərdi tərcümeyi-halına müraciət edir, bilavasitə öz «mən»inin keçmişindən danışır: «Hətta indi, yəni, yaşlı vaxtımda dönüb keçmişə baxmaq istəyəndə, elə bil ki, içəridən bir səs təşvişlə mənə deyir: «Geriyə baxma, qoca». Lakin mən baxmaq istəyirəm. Mən bu keçmişin çox əzablı, çox kədərli olduğunu bilirəm, ancaq yenə də ona təkrar-təkrar tamaşa etmək, nəyi isə anlamaq istəyirəm. Bəlkə də, mənim bu «nə isə»m o zaman babamla nənəmin, atamla anamın bir zamanlar yaşadıqları, xoşbəxt olduqları gözəl hissləri əzaba, kədərə, nifrətə döndərən qəddar səbəbi bilmək arzum idi ki, indi də məndən əl çəkmirdi…»

Maraqlıdır ki, «Geriyə baxma, qoca»da əhatə olunan hadisələr zamanca da «bir ömrün» çərçivəsinə sığışmır. Ədib hadisələrin tarixini çox uzaqdan başlayır, babalar barədə nağılları da özü barədə «kədərli hekayə» ilə birləşdirir. Daha

doğrusu, babaların əxlaqını bu günlə birləşdirən cizgilərin qovşaq və düyüm təşkil etdiyi dünyanı müəllif bu dəfə artıq babalarla öz «mən»inin qaynaqları, öz ömrünün mərhələləri arasında axtarır».

Ilyas Əfəndiyev sözün həqiqi mənasında milli sənətkardır.

Bir vaxt Çingiz Aytmatov «Əlvida, Gülsarı» əsəri haqqında deyirdi: «Bu povest şəxsən mənə ona görə əzizdir ki, burada güman edirəm ki, milli həyatın müasir mənzərəsini, qırğız milli xarakterini rəsm edə bilmişəm. Mən milli «ornamenti» əks etdirməyə yox, milli həyatın mühüm problemlərini üzə çıxarmağa, onun ictimai münaqişə və ziddiyyətlərinə nüfuz etməyə çalışımışam».

Buradan belə bir nəticə çıxır ki, millilik mənəvi-genetik kodlarla varisliyi təmin edir. Yəni millilik bəzək, naxış deyil. Bu məqamı tənqidçi Akif Hüseynov vaxtilə çox dəqiq ifadə etmişdir: «Ümumiyyətlə, həyat anlayışı elmi-fəlsəfi təfəkkür obyekti kimi mənalana bilər, bədii inikas obyekti kimi yox. Ç.Aytmatovun sözlərində bir ifadə lap yerinə düşür: millilik ornament deyil. Milli xüsusiyyətləri yazıçı bəzək, naxış kimi əsərə əlavə etmir, onları yaratdığı xarakterlərə calamır. Əksinə, mühitin də, insanların da konkretliyi, səciyyəviliyi ilə idrak vasitəsinə çevirir». (A.Hüseynov, «Müxtəlifliyin birliyi». «Yazıçı» nəşriyyatı. Bakı – 1983. s.127).

Ilyas Əfəndiyevin qəhrəmanları milli köklərə bağlıdır. Yazıçının mövqeyini əks etdirən qəhrəmanlar onun və mənsub olduğu xalqın mənəvi sərvətidir.

Ilyas Əfəndiyev milli-mənəvi dəyərləri heç vaxt ideoloji dəyərlərin ayağına verməmiş, həmişə uca tutmuş və bir yazıçı kimi, buna həmişə sadiq qalmışdır.

Ilyas Əfəndiyev böyük məktəbdir: şəxsiyyət kimi də, yazıçı kimi də.

Yenə Fərəməz Maqsudovun Ilyas Əfəndiyev haqqında yazdığı xatirəyə qayıtmaq istəyirəm: «Ilyas Əfəndiyev bütün külliyyatını oxuduğum nadir yazıçılardandır. «Kənddən məktublar», «Mahnı dağlarda qaldı», «Sən həmişə mənimləsən», «Işıqlı yollar», «Bahar suları», «Unuda bilmirəm», «Xurşudbanu Natəvan», «Atayevlər ailəsi», «Mənim günahım», «Torpağın sahibi», «Büllur sarayda», «Üçatılan», «Söyüdlü arx», «Geriyə baxma, qoca», «Şeyx Məhəmməd Xiyabani», «Sevgililərin cəhənnəmdə vüsalı» və sairə və ilaxirə…».

Ədəbiyyat xəzinəmizi zənginləşdirən bu nadir sənət inciləri silsiləsinə «Hökmdar və qızı» pyesilə nöqtə qoyuldu. Əlbəttə, bu kəmiyyət baxımından belədir. Bu əsərlərin bədii dəyərinə gəldikdə isə, intervalsızlıqla – nəhayətsizliklə üzləşirik.

«Kənddən məktublar» və «Hökmdar və qızı».

Ilk və son… Əvvəl və axır... Biz onun son əsərinin ilk tamaşasına onsuz baxdıq və bu qüdrətli sənətkarın nə qədər yaşarı olduğunu dərk etdik…

***

Mən Ilyas Əfəndiyev haqqındakı bu yazımı ümummilli liderimiz Heydər Əliyevin elə o ilk tamaşadan sonra dediyi sözlərlə bitirmək istəyirəm: «Ilyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır. Ilyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir. Beləliklə, xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmət göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda yaşadığımız zamanda, mənəviyyat, əxlaq, insanlıq, Vətənə və millətə sədaqət ruhunu aşılamışdır. Hesab edirəm ki, xalqımız bu əsərlərdən çox bəhrələnmişdir.

Ona görə də mən bu gün Ilyas Əfəndiyevin bütün yaradıcılığını, onun yazdığı əsərləri böyük minnətdarlıq hissi ilə xatırlayıram. Hesab edirəm ki, o, xalqımız qarşısında öz borcunu, daha doğrusu, öz missiyasını şərəflə yerinə yetirmişdir, xalqımıza, mədəniyyətimizə, teatrımıza, ədəbiyyatımıza çox böyük irs, böyük sərvətlər qoyub getmişdir».

2005

ŞƏHIDLƏR XIYABANI – IFTIXAR OCAĞI

«Mən bu gün də təşəkkür edirəm o Azərbaycan vətəndaşlarına, o şəxslərə ki, o şəhidlərin qəbirlərinin yerini çox düzgün seçiblər və onları Dağüstü parkda basdırıblar. Çünki burada da müəyyən qədər keçmiş xəyanətə qarşı öz münasibətlərini bildiriblər».

Heydər Əliyev

16 il az vaxt deyil.

Düz 16 il bundan əvvəl məhz bu gün – yanvarın 19-dan 20-nə keçən gecə Bakının üstünə qapqara bir sükut çökmüşdü. Doğrudur, onsuz da, Bakı ikiillik mənəvi iztirab məngənəsində sıxılmış, sözün həqiqi mənasında, sim kimi tarıma çəkilmişdi. Hər kəsin qəlbində dəhşətli bir sual vardı: bu sirli sükutun sonu nə ilə qurtaracaq? Vahiməyə və müəmmaya bürünmüş qapqara gecə, bizə hansı fəlakəti gətirəcək və yaxud sabah üzümüzə hansı ümidlərlə açılacaq? Bu sualın cavabını, konkret olaraq, heç kim bilmirdi. Ancaq indi mən düz 16 il bundan əvvəlki həmin müdhiş gecəyə qayıdıb, belə qənaətə gəlirəm ki, o vaxt həmin sualın cavabını elə hamı bilirdi. Bəli, xəyanətə tuş gəlmiş, tarixin amansız sınağı qarşısında tək-tənha qalmış Azərbaycan xalqını misli görünməmiş bir faciə gözləyirdi. Mən xalq dedikdə, üzdəniraq siyasət dəllallarını nəzərdə tutmuram. Bəlkə də, baş verəcək həmin faciə kimlərəsə lazım idi? Bəlkə kimlərsə həmin təhlükənin gətirəcəyi bəla və fəlakətlərdən bəhrələnmək, yaranmış xaosdan öz məqsədinə çatmaq üçün istifadə etmək istəyəcəkdi? Ola bilərdi. Amma xalq başqa halda idi: dərd və əzab çəkirdi, yad tapdağı altında inildəyən torpağın fəryadı ilə qovrulurdu. Bu gün bir həqiqəti etiraf eləməliyik: sadə, siyasətin məkr və kələklərindən baş çıxara bilməyən insanları qeyrət boğurdu. Qana susamış əzazil imperiyanın ağır tanklarından qorxub geri çəkilmək, Bakının qapılarını işğalçı qoşunun üzünə açmaq onlara son dərəcə ağır gəlirdi. Həmin günlərdə insanların mənəviyyatına məhz bu duyğu hakim kəsilmişdi. Ona görə də heç kim o soyuq yanvar gecəsində küçələrdə qurulmuş barrikadaları qoyub evlərinə getmək istəmirdi.

Haşiyə. Bəri başdan deyim ki, mənim xalqı qan girdabında boğan siyasətçiləri müdafiə etmək kimi bir qəsdim yoxdur və ola da bilməz. Onlar, birmənalı şəkildə, günahkardılar və bu gün bunu etiraf etməyi bacarmalıdılar. Amma çox istərdim ki, 1920-ci il aprel ayının 27-də baş vermiş analoji hadisələrə bir başqa nöqteyi-nəzərdən yanaşaq. Dərbənddən Bakıya gələn XI Qızıl ordunun zirehli maşınının qabağını kəsməyən xalqımız düz 70 il böyük Sovet imperiyasının məngənəsində boğulmalı oldu. Əgər o vaxt Azərbaycanın müstəqilliyi ən dəhşətli qırğın bahasına da olsa, qorunsaydı, itkilərimiz 1937-ci il represiyalarındakı, Ikinci Dünya müharibəsindəki, ən nəhayət, 1988-ci ildə başlamış və bu gün də davam edən Ermənistan–Azərbaycan müharibəsindəki itkilərimizdən qat-qat az olardı.

Azərbaycanın müstəqilliyi məhv edildikdən sonra xalqımız uzun illər boyu əldən verdiyi fürsətin (təxribat nəticəsində və asanlıqla) zəqqum kimi ağrı və acısını daddı. Zaman keçdikcə, Sabir demişkən:

Çalxalandıqca, bulandıqca zaman nehrə kimi,
Yağı yağ üstə çıxır, ayranı, ayranlıq olur.
Kim ki, insanı sevir – aşiqi-hürriyyət olur,
Bəli, hürriyyət olan yerdə də insanlıq olur.

Sovet imperiyasının mənfur təbliğatı sayəsində çox qısa zaman kəsiyində xalqımızın yaddaşı korşaldı, milli hisslərimizi saxta beynəlmiləlçilik duyğuları əvəz etdi. Hətta iş o yerə çatdı ki, erməni qırğınının qurbanı olan minlərlə azərbaycanlının dəfn edildiyi Çəmbərəkənd Dağüstü parka çevrildi – qəbirstanlığın izi-tozu da qalmadı. Təsadüfi deyildi ki, burada imperiya varisinə nəhəng heykəl də ucaldıldı. Sanki bu heykəl tunc gözlərilə bütün Bakıya baxır, bu gün Azadlıq meydanı adlandırdığımız meydanın üstündə əzəmətlə qərar tutmuş dünyanın ən böyük avantüristlərindən birinə – Leninə hesabat verirdi: «Əziz Vladimir Iliç, biz Bakını göz bəbəyimiz kimi qoruyacaq və heç vaxt əldən verməyəcəyik!».

Amma cəmiyyətdə baş verən təlatümlər, insanların çox böyük sürətlə öz milli hisslərini bərpa etməsi nəticəsində bu böyük imperiya laxlayırdı. Zülm və istibdad zənciri azadlıqsevər insanların əzələlərinə artıq tab gətirmirdi. Xəlil Rza Ulutürk demişkən:

Istəmirəm azadlığı
zərrə-zərrə, qram-qram!
Istəyirəm qolumdakı
zəncirləri qıram, qıram!
Istəmirəm azadlığı
bir həb kimi, dərman kimi!
Istəyirəm
səma kimi,
günəş kimi,
cahan kimi!..

Baltikyanı ölkələrin xalqları artıq milli sərhədlərini müəyyənləşdirirdilər. Bizdə də böyük narahatlıqlar var idi – öz istiqlalını axtaran xalqımız artıq başa düşürdü ki, onu erməni işğalçıları ilə üz-üzə qoyan Rusiyanın imperialist dairələri tükənməz neft yataqlarımızı əldən vermək istəmirlər.

Rusiyanın Azərbaycanı mənəvi cəhətdən əzmək, şikəst etmək, onun içərisinə separatizm toxumu səpmək cəhdləri get-gedə güclənirdi. Sanki Moskva respublikamızı dağıtmaqla, quberniyalara parçalamaqla general Yermolovun, Sisiyanovun, Lisaneviçin amansız siyasətini davam etdirmək istəyirdi.

Bütün bunlara baxmayaraq, artıq xalqımız çox yaxşı başa düşürdü ki, qorxmaq olmaz, qan bahasına da olsa, müstəqilliyə nail olmaq lazımdır!

Azərbaycan öz iradəsini ortaya qoymağa, əzmini və gücünü göstərməyə hazır idi. Bakı, nə qədər ağır olsa da, deməliyəm ki, dolmuş qan çanağına bənzəyirdi. Milyonlarla insan öz ölümünü göz önünə alıb, üstünə yeriyən nəhəng bir ordunun hərb maşınının qabağına çıxmışdı.

***

16 il… Bəlkə bu barədə danışmaq daha bəsdir? Bu sualın cavabı birmənalıdır: xeyr, biz bu barədə həmişə danışmalıyıq. Biz 16 il əvvəl baş vermiş bu hadisəni ən gizli nöqtələrinə qədər – bütün təfsilatı ilə daş kitabələrə yazmalı və gələcək nəsillərə oxutmalıyıq.

Həmin gün – 20 yanvarda Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyev Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək etiraz səsini ucaltdı, günahsız insanların qətlə yetirilməsi barədə göstəriş verən dar düşüncəli siyasət dəllallarını qınadı və xalqımızı müstəqillik uğrunda mübarizəyə səslədi, sonralar xalqın tələbi ilə ölkə rəhbəri olanda da hər il bu qara gündə Fəxri Xiyabandakı şəhidlərimizi ziyarət etdi və bu mənfur hadisəyə öz kəskin münasibətini bildirdi.

Heydər Əliyevin mübarizəsinin – haqq işinin əsas motivi Azərbaycan xalqına qarşı edilmiş təcavüzün mahiyyətini açmaq idi. Məhz o, Azərbaycan Respublikasının Prezidenti olduqdan sonra bu hadisəyə hüquqi-siyasi qiymət verildi: «29 mart 1994-cü ildə qəbul edilmiş «1990-cı ilin yanvarın 20-də Bakıda törədilmiş faciəvi hadisələr haqqında» xüsusi qərarda göstərilir ki, 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə keçmiş Sovetlər Ittifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən Bakı şəhərinə və Azərbaycanın bir sıra digər rayonlarına yeridilmiş, dinc əhaliyə divan tutulmuş, 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs edilmişdir. Hərbi qulluqçular tərəfindən 200-dən çox ev və mənzil, 80 avtomobil, o cümlədən, təcili yardım maşınları əzilmiş və yandırılmışdır». («Azərbaycan» qəzeti, № 14, 18 yanvar 2002-ci il).

Əlbəttə, bu mənbədə göstərilən rəqəmlər faciənin miqyasını tam əks etdirmir. Amma nə edəsən, elə bir cihaz yoxdur ki, həmin gündə insanların üzləşdikləri qorxu və vahiməni, başlarına gətirilmiş müsibətləri, keçirdikləri sarsıntını dəqiq və hərtərəfli göstərə bilsin. Əlbəttə, bu gün fotoxronikanın, videoxronikanın yaddaşında onların hamısını (əlbəttə, bunlar da kifayət qədər deyil) dönə-dönə araşdırmaq və xalqımızın, eləcə də, dünya ictimaiyyətinin diqqətinə çatdırmaq lazımdır.

Ümummilli liderimiz, böyük və təcrübəli siyasətçi Heydər Əliyev «20 Yanvar» hadisəsinin tədris ocaqlarında – məktəblərdə həmişə diqqətdə saxlanılmasını istəyirdi, bütün çıxışlarında vurğulayırdı ki, bu, tarixdir və xalqın yaddaşına əbədi həkk olunmalıdır, hətta bu faciə ilə əlaqədar olaraq, dövlət əhəmiyyətli tədbirlərdə yüksək tribunadan hələ də zorakılıq niyyətlərindən əl çəkməmiş Rusiyanın bəzi dairələrinin fəaliyyətini ifşa etməkdən çəkinmirdi.

Xatirimdədir, möhtərəm Prezidentimiz 1997-ci il yanvar ayının 20-də Respublika Sarayında Ümumxalq hüzn gününə, şəhidlərin anılmasına həsr olunmuş xatirə gecəsi başa çatdıqdan sonra əbədi-bədii kompozisiyanın iştirakçıları – incəsənət ustaları ilə görüşündə dedi: «Biz xalqımızın başına gətirilmiş müsibətlər içərisində rəhmsizliyi və qəddarlığı ilə seçilən bu günü unutmamaq üçün gərək onu həmişə gözümüzün önünə gətirək. Həm də nəinki təkcə biz unutmayaq, həmçinin gərək gələcək nəsillər də unutmasın…».

…Bununla belə, nə qədər kədərli olsa da, «20 Yanvar» gününü xatırlayarkən, hər birimiz, eyni zamanda, böyük iftixar hissi keçiririk. Çünki xalqımız həmin təcavüz qarşısında özünün əyilməzliyini, sarsılmazlığını bütün dünyaya sübüt etdi. Insanlar dünyadan getdi, bəziləri bu gün də şikəstdi, ancaq xalqımızın adını ucaltdılar. Ona görə də bu gün bizim üçün həm matəm günü, həm də iftixar günüdür. Şəhidlərlə də iftixar etməliyik ki, Azərbaycanın adını belə ucaldıblar. Azərbaycanın şairləri, yazıçıları, mədəniyyət və incəsənət xadimləri, bəstəkarları və ifaçıları ilə də fəxr edə bilərik ki, bizim belə yüksək səviyyəli mədəniyyətimiz var, hətta bu kədərli, qəmli hadisəni də incəsənətimiz vasitəsilə nümayiş etdirə bilirik. Bunun özü də çox əlamətdardır».

Ayrı-ayrı vaxtlarda ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın o vaxtkı rəhbərliyinin qətiyyətsiz, qorxaq mövqeyini, separatçılıq ruhunu kəskin tənqid etmiş və demişdir ki, özünün haqq işini müdafiə edən xalqı susdurmaq olmaz. Əgər xalq artıq öz azadlığının, haqq işinin mübarizəsinə qalxıbsa, demək, qarşı tərəf geri çəkilməli, öz məğlubiyyətini etiraf etməlidir.

Möhtərəm Prezidentimiz «20 Yanvar» faciəsinə ümumbəşəri mövqedən yanaşırdı, onu bütün dünyaya, humanizmə, insanlığa qarşı yönəldilmiş dəhşətli bir cinayət hesab edirdi və mənsub olduğu xalqın üzləşdiyi faciəyə qiymət verərkən, bütün xalqların taleyini yada salır və bir daha heç kimin qapısını belə bir fəlakətin döyməsini istəmirdi.

Möhtərəm Prezidentimizin 5 yanvar 2002-ci il tarixli Sərəncamından bu məqama diqqət yetirək: «SSRI rəhbərliyi Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün yeritdiyi məqsədyönlü siyasətə qarşı çıxmağa cəsarət edən Azərbaycan xalqına açıq-aşkar divan tutmaq yolunu seçdi. Sovet ordusunun

böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların 1990-cı il yanvarın 20-də fövqəladə vəziyyət elan olunmadan Bakını işğal etməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklərlə müşayiət edildi. Yüzlərlə insan amansızcasına qətlə yetirildi və yaralandı. XX əsr tarixində totalitarizmin həyata keçirdiyi ən qanlı terror aktlarından biri olan «20 Yanvar» faciəsi Azərbaycan xalqına qarşı, ümumiyyətlə, hümanizmə və insanlığa qarşı yönəldilmiş dəhşətli cinayət idi».

O gündən başlayaraq, hər gün insanlar dəstə-dəstə Şəhidlər xiyabanını ziyarətə gəlir, kimi əlində gül dəstəsi, kimi gözündə yaş, kimi dilində ah…

Beləcə, insanlar öz tarixlərinə olan ehtiramlarını bildirir və keçdiyimiz tarixi yolun nə qədər sərəfli olduğuna inamlarını ifadə edirlər. Hamı – ağsaçlı ixtiyar da, dəliqanlı gənc də, körpə uşaq da mərmər daşların üzərində yazılmış adları özünə doğma hesab edir və o gözlərdən oxunan sualların qarşısında cavab verməyə hazır olmağa çalışır.

***

XX əsri Azərbaycan xalqının faciələr əsri də adlandırmaq olar.

XX əsri Azərbaycan xalqının tərəqqi əsri də adlandırmaq olar.

Nə qədər təzadlı görüncə də bu, həqiqətdir…

Azərbaycan xalqı bu qədər kəşməkəşli yollar keçməsinə baxmayaraq, dövlətçiliyini qoruya bildi və bütün dünyaya sübüt etdi ki, onun gücü, qüdrəti var.

Bu gün Azərbaycan xalqının tərəqqisi göz qabağındadır. Iqtisadi, siyasi, mədəni həyatımızda yeni təfəkkür tərzi, dönməzlik, daim irəliyə cəhd özünü büruzə verir. Mənəviyyatımız get-gedə saflaşır – özünə qayıdır.

Ümummilli liderimiz, dünya şöhrətli siyasətçi, dahi şəxsiyyət Heydər Əliyev məktəbinin yetirməsi və layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyevin 19 yanvar 2006-cı il Fərmanı ilə «20 Yanvar» şəhidlərinin ailəsi üçün yüksək təqaüdün (Azərbaycan Respublikası Prezidentinin təqaüdünün – red.) təsis edilməsi qəlbimizdə kövrəkliklə yanaşı, həm də gələcəyə inam hissi oyatdı.

Qanlı Yanvar faciəsindən artıq 16 il keçir. Torpaqlarımızın 20 faizi hələ də işğal altındadır, qaçqın və məcburi köçkünlərimiz var. Böyük Füzuli demişkən:

Dərd çox, həmdərd yox, tale zəbun, düşmən qəvi…

Amma, bütün bunlara baxmayaraq, biz ədəbi müstəqillik yolunu seçmişik.

Bu yol qətiyyətdən keçir.

Bu yol neçə-neçə azadlıq mücahidimizin uyuduğu Şəhidlər xiyabanından keçir.

Bu yolu dünənimizə, bügünümüzə və sabahımıza ehtiramla keçməliyik.

MAQSUD IBRAHIMBƏYOVA AÇIQ MƏKTUB

«Qızıl yumurtlayan toyuqdan şorba kimə lazımdır? Axı, onun qızıl yumurtası daha qiymətlidir».

Maqsud Ibrahimbəyov

Hörmətli Məqsud Məmmədibrahim oğlu!

Sizin «Əksinqilabi etüd» əsərinizi diqqətlə oxudum və açığını deyim ki, sarsıldım. «Əsər» ifadəsini yəqin ki, yazı boyu çox işlədəcəyəm. Ona görə, çaşqınlıq olmasın deyə, elə bəri başdan deyim ki, «etüd» adlandırdığınız və çox güman ki, ədəbiyyatşünaslarımızın, tənqidçilərimizin də publisistik yazı hesab edəcəyi bu qeydləri mən əsər, özü də bitkin əsər hesab edirəm. Rəngarəng və zəngin epik lövhələrlə süslənən, sözün həqiqi mənasında, həyatın hər üzünü görən xalqımızın mental təfəkkür tərzini özündə ehtiva edən bu əsər, Allah eləməmiş, inqilab olacağı təqdirdə başımıza gələcək münasibətləri öncədən hiss edən, bir yazıçının təxəyyülünün bəhrəsidir.

Təsadüfi deyil ki, Siz bu əsərinizi «Əksinqilabi etüd» adlandırmısınız. Yəni, inqilab baş verəcəyi təqdirdə əksinqilab labüddür. Bu, bayaq dediyim kimi, Allah eləməmiş, təkcə ayrı-ayrı adamların başına gələcək bədbəxtlik deyil, bütövlükdə

xalqımızın faciəsidir, vətəndaş qarşıdurmasıdır və onsuz da, qara səhifələrlə dolu olan tariximizin qapqara açıla biləcək yeni səhifəsidir.

Ümumiyyətlə, yaxın keçmişə nəzər salsaq, görərik ki, bir vaxtlar bizdə «inqilab» məfhumunu ideallaşdırıblar. Hələ orta məktəb illərində «inqilab» haqqında nə qədər nəğmə öyrənmişik. Inqilabçıların mərd, mübariz olmaları barədə nə qədər uydurma – nağıl dinləmişik və bütün bunlar çox təəssüf ki, təsirsiz ötüşməyib – biz həqiqətən inqilabın müqəddəs bir əməl olduğuna inanmışıq. Nəticədə mənəviyyatımız korlanıb və hər birimizin qəlbində saxta inqilab qəhrəmanlarına qarşı bir rəğbət hissi əmələ gəlib. Doğrudur, zaman keçdikcə öz səhvlərimizi başa düşmüşük, inqilabın dağıdıcı mahiyyətini dərk etmişik. Amma təəssüf ki, hələ də insanları kütləvi psixoza sürükləməyə, «inqilabi qəhrəmanlıqlar» xülyası ilə ixtişaşlar törətməyə meyilli şəxslər var, eyni zamanda, onların ambisiyalarına xidmət edənlər, bəlağətli çıxışlarına, pafoslu hay-küylərinə uyanlar da az deyil…

Elə indicə bugünkü qəzetləri almışam. Onlardan birinin ilk səhifəsindəcə iri hərtərəflə anons verilib: ABŞ yeni məxməri inqilaba 124 milyon dollar vəsait ayırıb. Mən deyə bilmərəm, ABŞ həqiqətənmi bu məqsədlə bu məbləğdə pul ayırıb, ya yox, əgər ayırıbsa, bu pullar hara axacaq, kimlərin cibinə dolacaq. Bunun üçün institutlar var – qoy səhih məlumatları onlar versinlər. Və elə həmin anonsdaca ən çox Belarusiyanın və Ermənistanın adı çəkilir.

Bəs, Azərbaycanda məxmər inqilabın olmasını kimlər istəyir?

Maqsud müəllim, zənnimcə, bu suala və bundan sonra da ortaya çıxacaq qeyri-ritorik sualların hamısına sizin «Əksinqilabi etüd» əsərinizdə kifayət qədər aydın və dolğun cavab verilmişdir.

Doğru deyirsiniz: Azərbaycanda idarə olunan hərc-mərcliyin yaradılmasında maraqlı olan qüvvələr var. Zənnimcə, iki qüvvə haqqında – əgər buna qüvvə demək mümkünsə – konkret danışmaq olar. Bunlardan birincisi, əlbəttə, Ermənistandır. Ermənistan çox istəyir ki, Azərbaycanın güclü dövlət, hüquqi əsaslara söykənən vətəndaş cəmiyyəti yaratmaq planı boşa çıxsın. Və həm də, sadəcə, boşa çıxmasın, yox, Azərbaycan bu məqsədindən birdəfəlik məhrum olsun, yazıq və

mağmın vəziyyətinə düşsün. Yazıq və mağmın olanı isə həmişə qapı arxasında saxlamaq çox asandır…

Əlbəttə, ikinci qüvvə də aydındır: bu özümüzünkülər – hakimiyyət istəyənlərdir! Maraqlıdır, onlar çox yaxşı bilirlər ki, heç vaxt güclü hakimiyyət yarada bilməyəcəklər, amma nə olsun, yenə də inadlarından əl çəkmirlər…

Maqsud Məmmədibrahim oğlu, inciməyin, Sizin «Əksinqilabi etüd» əsərinizdəki bir tezislə heç cür razılaşa bilmirəm. Siz «Idarə olunan hərcmərclik»dən danışırsınız. Mənim fikrimsə, bir halda ki, söhbət hərc-mərclikdən gedir, onun ancaq başlanğıcı idarə oluna bilər, sonrası isə artıq hadisələrin gedişatından asılıdır. Axı, böyük çöldə vəhşi at ilxısını tufan öz qabağına qatandan sonra onun qarşısını heç bir qüvvə kəsə bilmir.

Belə hallarda vəhşi atlar instinktlərini itirirlər, özlərini qabaqlarına çıxan uçurumdan atırlar və məhv olurlar…

Onu çox doğru deyirsiniz ki, həqiqətən indi insanlara belə bir fikir təlqin edirlər ki, inqilab olacaq və onun qarşısında durmaq, guya, mənasızdır. Əgər, söhbət, konkret olaraq, Azərbaycandan gedirsə, tam əminliklə deyə bilərəm ki, burada belə bir şərait yoxdur. Sadəcə, inqilabı arzu edənlər var. Onlar, yalandan da olsa, inqilabi şərait yaratmağa cəhd göstərirlər və bu yolla, heç olmasa, inqilab üçün ayrılan muzddan yararlanmağa çalışırlar. Ancaq yanılırlar. Yanılırlar ki, daxildə inqilabı arzu edənlərin istəklərinin əksinə olaraq, xaricdəki qüvvələrin əksəriyyəti artıq bu fikirdən daşınıblar. Onlar yaxşı bilirlər ki – bir fikrinizi olduğu kimi iqtibas edirəm – «pullar dəstəbaşıların – vasitəçilərin ciblərində qərar tutacaq; onlar da kücə ixtişaşlarının sakitləşməsindən sonra bu pulları isti, yağlı kökələrə, imarətlərə, bahalı maşınlara və gözoxşayan digər məişət əşyalarına xərcləyəcəklər. Bütün bunlar artıq olub. Buna görə də başqa məlumatlar həqiqətə daha yaxın görünür, həmin məlumatlara əsasən, maraqlı adamlar bu mərhələdə fəal pozuculuq işini hələlik dayandırıblar. Çünki onların xaricdəki ağıllı ağaları çox güman belə nəticəyə gəliblər ki, Azərbaycanda inqilab törətmək qızıl yumurta yumurtlayan toyuqdan şorba bişirmək kimi bir şeydir». («Iki sahil» qəzeti, 19 may 2005-ci il.)

Hörmətli Maqsud Məmmədibrahim oğlu, artıq bu həqiqəti nəinki xaricdəki ağalar, elə hər bir sadə azərbaycanlı da yaxşı dərk edir. Hərdən ayrı-ayrı adam neft strategiyasının uğurla

həyata keçirilməsindən daxilən yanıb-qovrulurlar və «bu neftin bizə nə xeyiri var» – deyərək yaxalarını yırtırlar. Amma unudurlar ki, bu gün onların hər birinin sadəcə ayaq üstə durması, ən azı, el dili ilə desək, diri qalması elə həmin neftin sayəsində mümkün olmuşdur. Sahibkarlığın inkişaf etdirilməsi və hər bir yeni istehsal sahəsinə cəlb olunan böyük işçi qüvvəsi öz dirilik suyunu – həyat iksirini neftdən alır. Başqa cür necə olmalıdır? Hər kəs özünə düşən neft payını qab-qacağa doldurub bazara çıxarası deyil ki? Yaxud 90-cı illərin əvvələrindəki «Lümpen proletariat» – bu gün hətta proletariat da deyil – Azərbaycanın iqtisadi imkanlarına görə orta səviyyəli vətəndaşıdır. Doğrudur, hələ ki, hər bir adamın ayrıca mənzili yoxdur, hər bir adamın iqtisadi imkanları tələbatına cavab vermir. Ancaq bu da faktdır ki, daha aclıq haqqında düşünən də yoxdur. Bir halda ki, çörək problemindən yaxamızı qurtarmışıq, bir halda ki, hər hansı bir Azərbaycan vətəndaşı nəqliyyat problemindən heç bir əziyyət çəkmir, bir halda ki, məktəblərimiz normal iş rejimi ilə fəaliyyət göstərir, bütün bunların Azərbaycandakı mövcud sabitliyin bəhrəsi olduğunu gərək hər kəs dərk etsin.

Sizin qeydləriniz məndə ağsaqqal bir müdrikin, dünya hadisələrindən baş çıxaran böyük bir ziyalının öyüd-nəsihəti təəssüratını yaratmır. Əgər belə olsaydı, onda sizin dediklériniz zəif görünərdi, əlacsızlıq təsiri bağışlayardı. Siz səbəb və nəticələri aydın göstərir və həm də elə qətiyyətlə, elə aydın şəkildə izahlar və şərhlər verirsiniz ki, mən bunun arxasında böyük potensial bir qüdrət görürəm. Siz xalqa güvənib çox haqlı olaraq, xalqın adından danışırsınız.

Heç bir həftə olmaz ki, Sizin «Gülüstan» sarayında keçirilən 70 illik yubileyinizə toplaşmışdıq. Müxtəlif ölkələrdən gəlmiş yazıçılar, sənət adamları, siyasətçilər ətrafınıza cəm olmuşdu. Açığını deyim ki, mən qürur hissi keçirirdim. Düşünürdüm ki, Sizə necə inanırlar, bir Azərbaycan ziyalısının mənəvi dünyasından və onun mənsub olduğu xalqdan, Vətəndən necə məhəbbətlə, necə ürəklə, səmimiyyətlə danışırlar. Güclü ziyalı, qüdrətli insan elə Vətənin özüdür.

Bir anlığa düşünürəm ki, Azərbaycan, həqiqətən, inqilab mənqənəsində capalayır. Onda nəinki yubileylər yada düşəcək, hər şey – hətta xalq da, Vətən də unudulacaq, ayrı-ayrı adamlar öz başlarının hayına qalacaqlar. Axı, kim istəməz ki, isti evinin divarları arasında rahat nəfəs alsın, doğma şəhərinin küçələrində

əmin-amanlıqla addımlasın. Bəli, siz doğru deyirsiniz, təəssüf ki, belələri var.

Nə qədər ağır olsa da, öz həyatımda baş verən bir hadisəni yada salmaya bilmirəm. 90-cı illərin əvvəllərində Dövlət Yanacaq Komitəsində sədrin müavini vəzifəsində işləyirdim. Bir gün səhər işə gələndə gördüm ki, komitənin binasında bir hərc-mərclik var. Özlərinə bəy axtaran adamlar kiminsə ətrafına yığışıblar. Ağız deyəni qulaq eşitmir. Inanın ki, dünənə qədər idarədə hər cür qayda-qanunu gözləyən adamlar elə dəyişmişdilər, insanlıqdan elə çıxmışdılar, gözləri ayaqlarının altını da görmürdü. Onların lideri mənim kabinetimdə əlini masaya döyüb, «Qarşımıza çıxanların başını əzəcəyik» – deyə qışqırırdı. Budurmu demokratiya?

Indi Azərbaycandakı siyasi hakimiyyəti «antidemokratik» adlandıranlara «sizin başınızı əzəcəyik» deyən varmı? Siz çox doğru deyirsiniz: bu gün dünyanın heç bir yerində «sözün ağzını» Azərbaycandakı qədər açmayıblar. Indi dünyanın heç bir yerində hakimiyyət arzulayan qüvvələr hakimiyyətdəkiləri Azərbaycandakı qədər söymür, təhqir etmir, böhtana, şantaja məruz qoymur.

Əgər, Azərbaycandakı «siyasi rejim» bütün bunlara dözürsə, onda, rəhmətlik Məşədi Ibad demişkən: «Bunun harası və nəyi» pisdir?

Mən Sizin bir fikrinizlə çox şərikəm: «Bu gün çox adam yalançı demokrat-təbliğatçıların məhvedici təsirinə uymuşdur. Yalançı demokratik boşboğazlıqla hər yerdə özbaşınalıq təşviq edilir və ona bəraət qazandırılır. Başlıca prinsip budur: dövlətin əsaslarını sarsıtmağa kömək edən hər bir vasitə yolveriləndir. Indi Azərbaycanda insanların şüuruna belə bir fikir yeridilir ki, istənilən şəraitdə dövlətin güc tətbiq etməsi yaxşı deyil, humanistlikdən uzaqdır və hətta cinayətdir. Əhali də bu yanlış fikrə tədricən alışmağa başlayır. Lakin dövləti insan özü yaratmışdır, o cümlədən də ondan ötrü yaratmışdır ki, qayda-qanun və asayişin təcavüzkarcasına pozulduğu bütün hallarda, qanuna riayət edən vətəndaşların həyatı və rifahı üçün təhlükə yarandığı bütün hallarda güc tətbiq etsin. Dövlət bunu etməyə borcludur, bu da onun ən mühüm funksiyalarından biridir». («Iki sahil» qəzeti, 19 may 2005-ci il.)

Doğrudur, lazım gəldikdə dövlət güc tətbiq etməklə öz vətəndaşının hüququnu qorumalıdır və bu, heç şübhəsiz ki, hər

birimizin qəlbində yalnız məmnunluq hissi yarada bilər, çünki siyasi sabitlik uşaqdan-böyüyə – hamımızın arzusudur.

Belə olduğu təqdirdə dövlətə xarici qüvvələr də ehtiyatla yanaşacaqlar.

Əsərdə Fransada məktəblilərə qarşı polisin güc tətbiq etməsi barədə misal gətirirsiniz. Bizdə isə, söhbət məktəblərdən deyil, ambisiyalı adamların ətrafına toplanmış avaralara qarşı güc tətbiq edilməsindən gedir. Onsuz da, avaralarda heç bir məsuliyyət hissi yoxdur. Onlara nə var ki, bir gün qışqıracaq – muzdunu alacaq. Bəlkə heç muzdunu ala da bilməyəcək, haqqı, avans olaraq, mənasız vədlərlə ödəniləcək. Vəd isə, elə şeydir ki, nə qədər desən vermək olar.

Hörmətli Maqsud Məmədibrahim oğlu! «Əksinqilabi etüd» əsərinizdəki bir məqam diqqətimi daha çox cəlb etdi: ABŞ-ın daxili-mənəvi aləmi.

Bəli, ABŞ demokratiyasının sərhədləri öz dövlətinin və öz xalqının mənafelərinə qədərdir. Oradan o tərəfə isə, demokratiyanın önündə nəhəng bir şlaqbaum var. Inanın ki, sadə adamlar üçün Sizin bu fikirləriniz çox qiymətlidir. Siz geniş və hərtərəfli məlumat verməklə, həmin fikirləri mənən saf, təmiz, fəqət sadəlövh olan, hər sözə tez inanan və aldanan adamların yaddaşına köçürürsünüz.

«Əksinqilabi etüd» əsəri yuxarıda qeyd etdiyim kimi, böyük vətəndaşlıq yanğısı ilə qələmə alınmışdır. Qoy hamı bilsin: bu əsər ona görə yazılmayıb ki, sonradan bədbəxtlik girdabında çapalayanlara deyəsiniz ki, gördünüzmü, axı, mən vaxtında demişdim, gördünüzmü, mən necə uzaqgörənəm, mənim dediklərim necə də düz çıxdı. Xeyr, Siz «Əksinqilabi etüd» əsərinizi buna görə yazmamısınız. «Əksinqilabi etüd» əsəri öz dövlətinin, öz xalqının, öz Vətəninin ağrısını-acısını duyan bir insanın ürək döyüntüləridir, böyük narahatlığın və böyük nigarançılığın bəhrəsidir. Lap axırda əsl həqiqəti bütün çılpaqlığı ilə göstərirsiniz. Mən istəyirəm ki, Sizin «həqiqət heykəli» hesab etdiyim, hiss və həyəcanlara bələnmiş görüntünüzü bir daha öxucuların diqqətinə çatdırım: «Dövlət ABŞ-da uğurla sınaqdan çıxarılmış üsullardan istifadə etməklə onların zərərsizləşdirilməsi üçün ən qəti əməli tədbirlər görməlidir. Bu zaman qətiyyən qorxmaq lazım deyil ki, «demokratik» beynəlxalq təşkilatlar bu barədə nə deyəcəklər. Şübhə etməyə bilərik ki, ölkəmizə qarşı sanksiyalar tətbiq

ediləcək, ancaq bunlardan çəkinmək lazım deyil, çünki bütün ən dəhşətli sanksiyalar rəngli inqilablar ixtiraçılarının ölkəmizin başına gətirmək istədikləri müsibətlərlə müqayisədə, demək olar ki, boş şeydir. Əgər bizim səfehliyimiz və qətiyyətsizliyimiz ucbatından tələ hər halda qapansa, Qarabağın qaytarılması ilə bağlı şüarlar və tələblər artıq aktual olmayacaq – sadəcə, heç bir məna kəsb etməyəcək. Bunların əvəzinə, əsas etibarilə pıçıltı ilə dilə gətirilən başqa şüarlar səslənəcək, məsələn: «Müstəqilliyimizi bizə qaytarın!», «Bizi aldatdılar və soyub-taladılar, BMT-nin işə qarışmasını tələb edirik!», «Azərbaycanın əlindən alınmış nefti qaytarın!», «Bizim balalarımız da yemək istəyirlər!» və ilaxır. Sonra da beləcə davam edəcək. Həmişəlik!» («Iki sahil» qəzeti, 19 may 2005-ci il.)

Sonra isə… Siz «Əksinqilabi etüd» əsərinizin sonundakı «həmişəlik» sözünü mətnin içərisində bir neçə dəfə işlətmisiniz. Bu söz kürədən çıxarılmış, qızardılmış dəmirin üstünə dəyən çəkic zərbəsinə bənzəyir. Bu ifadəni o qədər sərrast və yerində işlətmisiniz ki, onun zərbəsilə oyanmayanları top mərmisi ilə də oyatmaq mümkün deyildir.

Əziz dost! Vətəninin, xalqının gələcək taleyini canı qədər sevən hər bir şəxsi özümə dost bilirəm və bütün varlığımla hiss edirəm ki, xalqına doğma olan şəxs mənə də doğmadır. Kaş «Əksinqilabi etüd» əsəriniz, heç olmazsa, bircə gün məktəblərimizin sinif otaqlarında müzakirə mövzusu olsun. Qoy yeniyetmələr – müstəqil Azərbaycan Respublikasının gələcək vətəndaşları əsl həqiqəti bilsinlər. Məhz onda xalqın və Vətənin taleyi ilə oynamağın nə demək olduğunu dərk edərlər.

Özü də həmişəlik.

Sizə inanan və dərin hörmət bəsləyən

Hüseynbala MIRƏLƏMOV.

MƏNƏVIYYATIN EKOLOGIYASI, YAXUD IKI OD ARASINDA

Bir halda ki, torpaqlarımız işğal altındadır, deməli, müharibə qurtarmayıb. Təmas xəttində, sadəcə, nisbi sakitlikdir. Ona görə «nisbi sakitlik» deyirəm ki, sərhədboyu ara-sıra güllə səsləri eşidilir.

Ancaq məndə tam əminlik var ki, biz torpaqlarımızı erməni işğalçılarından azad edəcəyik. Çünki yaxşı bilirəm ki, tarixən bu və ya digər xalqa qarşı ədalətsizliklər olub, amma həmin xalq tez və ya gec öz haqqını, qanı bahasına da olsa, alıb.

Bu gün mən varlığımızı çuğlamış daha təhlükəli bir müharibə – mənəviyyatsızlıq haqqında danışmaq istəyirəm.

Mən hiss edirəm ki, hər gün, hər saat, hər an daxilimizdə aşınma gedir və biz saysız-hesabsız yad təsirlərin işğalına məruz qalırıq.

Azərbaycan müsəlman ölkəsidir. Odur ki, dilimizdə təbii olaraq «müsəlmançılıq» deyilən bir söz də var. Çox təəssüf ki, bəzi adamlar bu sözü son vaxtlar daha çox mənfi mənada işlədirlər. Niyə, biz Məhəmməd ümməti deyilik? Islam dinindən üz döndərmişik? Yox, belə deyil. Səbəb tamamilə başqadır.

Bu, hər şeydən əvvəl, onu göstərir ki, cəmiyyətdə ekoloji tarazlıq pozulmuşdur. Bəlkə bir qədər sərt dedim. Hər halda, günümüzün reallıqları mənə əsas verir ki, fikirlərimi bu cür – sərt və həyəcanlı şəkildə ifadə edim.

Söz – silahdır. Özü də ən qüdrətli silah.

Bu gün yazıçılarımızın açıq və kəsərli sözünə böyük ehtiyac vardır. Yalnız qəlbində vətəndaşlıq duyğusu olmayanlar cəmiyyətimizdə baş verən bu neqativ hallara qarşı biganə ola bilərlər. Ancaq unutmayaq ki, vətəndaşlıq duyğusu – yazıçının mənəvi pasportudur. Bundan imtina edən yazıçı Vətəninin, xalqının layiqli oğlu ola bilməz.

Yuxarıda «ekoloji tarazlıq» ifadəsi işlətdim. Təbii ki, bununla təbiətlə canlı insan arasındakı əlaqə haqqında danışmaq fikrində deyiləm və hesab edirəm ki, cəmiyyətlə onu təşkil edən insanlar arasındakı münasibətlər daha ciddi ekoloji

problemlər yaradır. Əlbəttə, bu yazıda mən «ekologiya» sözünü məcazi mənada işlədirəm.

Təbiətin özündə hər şey ölçülüb-biçilmişdir. Tanrı kainatı son dərəcə dəqiq nizamlanmış zaman daxilində elə yaratmışdır ki, heç bir düzəlişə yer qalmamışdır. Zənnimcə, insanlar da, ayrı-ayrı fərdlər də cəmiyyətlə münasibətdə, konkret desək, bir-birilə münasibətdə həmin Tanrı nizamına söykənməlidirlər. Əgər güllərin, çiçəklərin üstünə qonan kəpənəyin qanadlarındakı xalların nizamlı düzülüşünə fikir versəniz, görərsiniz ki, bir qanaddakı xal hansı ölçüdədirsə, o biri qanaddakı xal da o ölçüdədir. Bəs, şüurlu insan gündəlik həyatında öz münasibətlərini tənzimləyərkən nə üçün səhvlərə yol verir və yaxud həyatda yaşarılıq haqqı qazanmış mənəvi dəyərlər niyə tapdanır?

Televiziyanın gecə kanallarında göstərilən kriminal xronikalara – anlaşılmazlıq və cahillik üzündən baş verən cinayətlərə, faciələrə, ölümlə nəticələnən qeylü-qallara baxanda dərin təəssüf hissi keçirməyə bilmirsən. Belə hallarda, istər-istəməz, «Insanın varlığı və mahiyyəti nədən ibarətdlir?» – sualına cavab axtarmalı olursan. Axı, nə üçün insan öz-özünə qəbir qazır?

Bəli, elə belə də hesab edirəm: kiminsə qətlinə fərman vermək öz «əcəl zənğini» çalmaq deməkdir…

***

Azərbaycan keçmiş postsovet məkanına daxil olan ölkələrdən özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Biz Asiya ölkəsiyik, mənən şərqliyik. Azərbaycanın minillik mənəvi sərvətlərinin tarixi kökləri, əsasən, Şərqlə bağlıdır. Təsadüfi deyil ki, Şərqin misilsiz sənət incilərinin yaranmasında azərbaycanlı mütəfəkkirlərin böyük xidmətləri olmuşdur.

Ancaq bir həqiqəti də danmaq olmaz: azad bazar iqtisadiyyatına keçməklə biz Avropaya pəncərə açdıq. Qərbin adət-ənənələri, düşüncə tərzi çox sürətlə mənəviyyatımıza daxil olur. Reallıq naminə deməliyik ki, biz bundan imtina edə bilmərik.

Bu gün Qərbi Avropanın bir çox üstünlükləri var ki, biz ondan faydalanmalıyıq…

***

Iki od arasında… Bu, adi epitet deyil və bu ifadəni işlətməklə, sadəcə, yüksək bədii emosionallığa nail olmaq məqsədini güdmürəm. Mən həqiqətən də iki müxtəlif dünya, iki müxtəlif düşüncə tərzi arasında əziyyət çəkən xalqımı düşünürəm…

Azadlıq və demokratiya. Bu iki şirin nemətdən, heç şübhəsiz ki, düzgün, qanunauyğun şəkildə, milli mentalitetimizi nəzərə ala-ala bəhrələnmək lazımdır, çünki bu iki yöndə atacağımız hər bir səhv addım xalqımıza baha başa gələ bilər. Odur ki, azadlıq və demokratiya adı altında böhran və şantaja rəvac verənlərin kimliyi və məqsədi haqqında da həqiqəti vaxtında demək lazımdır. Qoy onlar unutmasınlar ki, cəmiyyət gec-tez, onsuz da, ağı qaradan seçəcəkdir. Biz də yaxın tariximizin canlı şahidləri kimi bu həqiqətləri dana bilmərik…

Azərbaycanda iqtisadiyyatın inkişafı üçün yaradılmış şərait, investisiyaların qoyuluşuna münbit zəmin yaratmışdır. Bütün ölkə inşaat meydançasına bənzəyir. Amma təəssüf ki, bu yeni tikililərin layihələri hazırlanarkən Azərbaycanın tarixi-memarlıq ənənələri unudulur. Odur ki, insanı düşündürən, insana mənəvi-estetik zövq bəxş edən milli ornamentlər, naxışlar gözə dəymir.

Mən istəyirəm ki, Azərbaycanda inşa edilən hər hansı bir bina tarixi köklərə, ənənələrə söykənsin. Azərbaycana gələn hər hansı bir qonaq da önündə dayanıb baxdığı binadan hansı ölkədə və hansı xalqın arasında olduğunu hiss etsin.

Ümumiyyətlə, bütün bunlar hardasa bizim mənəvi aləmimiz haqqında ilkin təsəvvür yaradır.

Bakı Azərbaycanın paytaxtıdır. Ən böyük elm mərkəzlərimiz, teatrlarımız, muzeylərimiz, incəsənət salonlarımız bu şəhərdə yerləşir.

Bakıda dörd milyona yaxın insan yaşayır. Respublikamızın əhalisinin yarısından çoxu hər gün bu şəhərlə təmasda olur. Bəs, onda nə üçün muzeylərimiz, incəsənət salonlarımız, rəsm qalereyalarımız tək-tük tamaşaçını nəzərə almasaq, demək olar ki, gün ərzində boş olur. Təbiidir ki, Bakıda restoranlar, barlar, şadlıq evləri, müxtəlif yönümlü istirahət ocaqları da var. Ocaq dedim… Yeri gəlmişkən, «ocaq» sözü xalqımızın arasında həmişə müqəddəs hesab olunub. Hətta əcdadlarımız bir vaxtlar and içəndə ocağı müqəddəs yerlərə – Məkkəyə, Mədinəyə bərabər tutublar. Ancaq gəlin görək ocaq

adlanan həmin «istirahət» evləri bu müqəddəsliyi qoruya bilirmi? Hay-küyün və bayağı musiqinin təsiri altında, duman içərisində xumarlanan gənclərin bir çoxu – mən onları bəlkə də qınamazdım, çünki insan cəmiyyət tərəfindən nəzarətdə olmadıqda, onun təbiətindəki mənfi keyfiyyətlər daha çox üzə çıxır – istirahət evlərində, restoranlarda yaradılmış əxlaqsızlıq şəraitindən «bəhrələnmək»dən vaz keçmirlər.

Vaxtaşırı yol kənarlarında – xüsusilə Bakı-Sumqayıt arasında aparılan reydlər nələri faş elədi? Əxlaqsızlığı! Nəzarətsiz qalan, ictimai nəzarətdən yayınan gəncləri düşdükləri bu biabırçılıq bataqlığından necə xilas etmək olar? Düşünmək, götür-qoy etmək lazımdır. Bəlkə də, həmin tərbiyəsizlikləri bütün çılpaqlığı ilə televiziya vasitəsilə göstərməyə heç lüzum yoxdur. Bəzən bu cür mübarizə üsulu əks nəticə verir.

Bəli, yaxşı olar ki, bu mübarizə «kompaniya» şəklində aparılmasın, amma gündəlik həyatımızın normasına çevrilsin.

Bəzən yollarda, keçidlərdə adamlara elanlar paylayırlar. Əsasən, rus dilində yazılmış bu elanlarda oxuyuruq: «Molodie massajistki predlaqayut svoi usluqi».

Hansımız görməmişik? Amma bu barədə düşünmüşükmü? Bu elanların arxasında nə dayanır? Hətta bəzən həmin elanlara belə bir qeyd əlavə olunur: «Intim münasibətlər üçün müraciət etməyin». Elə bir bu sözdən həmin xidmətin mahiyyəti və məzmunu aydın olur… Hər halda, bütün bunlar haqqında düşünməyə dəyər. Mən inanıram: əsrin bəlası hesab olunan SPID virusuna qarşı elm sipər çəkə biləcək. Bəs, mənəviyyatımızın yoluxduğu SPID virusu ilə necə mübarizə aparacağıq?

Azərbaycan Ipək Yolunun üstündədir. Bu çox yaxşıdır. Ipək Yolu Azərbaycan iqtisadiyyatının dirçəlişində, heç şübhəsiz, müstəsna rol oynayacaqdır. Ancaq Ipək Yolunun üstündə olmaq həm də o deməkdir ki, bu yolla mənəviyyatımıza yad təsirlər, qorxulu meyillər də yol açа bilər.

Təsir əks təsirə bərabərdir. Biz bütün bunlara qarşı hazır olmalıyıq. Qloballaşmaya doğru gedən dünyadan imtina edə bilmərik. XXI əsr xalqların, sivilizasiyaların, fərqli mədəniyyətlərin bir-birinə qovuşacağı əsr olacaqdır. Şəxsən mən Azərbaycanın gələcəyini bunsuz təsəvvür edə bilmirəm.

Avropa ölkələrindəki həyat keçmiş sovet dövründə bizə təqdim olunduğu kimi deyil. Kommunist təbliğatı həmişə bizi

çaşdırmağa çalışıb, elə eləyib ki, həqiqəti bilməyək. Ancaq, məsəl var, deyir, cidanı çuvalda gizlətmək olmaz. Sərhədlər açılandan sonra gözləriniz önündə bambaşqa – çalışmağı, çalışdığı kimi də istirahət etməyi bacaran bir Avropa canlandı. Mən «istirahət etmək» dedikdə, təkcə yeyib-içməyi yox, konsertə, teatra, sərgiyə, səyahətə getməyi də nəzərdə tuturam.

Dövlət Azərbaycan mədəniyyətinin, o cümlədən teatrın da inkişafına xüsusi qayğı göstərir. Çox təəssüf ki, ən gözəl, klassik əsərlərin tamaşası zamanı da salon çox vaxt boş olur. Nə üçün insanlar öz mənəvi tələbatlarını ödəmək üçün əvvəllərdə olduğu kimi bu gün də teatra getmirlər? Məncə, bu kifayət qədər ciddi sualdır. Ucuz hay-küy və şouların göylərə bələnd olan sədaları bir daha yadıma düşür. Mən şouların əleyhinə deyiləm. Ancaq bu şoular elə təşkil olunmalıdır ki, adamlar ona baxanda nəsə əxs etsinlər, xüsusilə mənən zənginləşsinlər.

Xüsusilə özəl televiziya və radioların şou proqramlarında Azərbaycan dilinin başına açılan oyunlar adamın ürəyini ağrıdır. Dilimizə bu cür münasibət, zənnimcə, mənəviyyatımıza vurulan ən ağır zərbədir.

Bu mənada, dinimizin təmizliyi uyğrunda mübarizə də xüsusi əhəmiyyət kəsb edir. Qeyri dinlərin açıq və yaxud gizli emissarları dinimizə qarşı meydan sulayır, müxtəlif təriqət adamları isə onlardan heç də geri qalmırlar…

Bütün bunlar göstərir ki, indi Azərbaycanda dəhşətli mənəvi müharibə gedir. Mənəviyyatımızı işğal etməkdə olan yabançı meyillər Qarabağ müharibəsinin xalqmıza vurduğu zərbələr qədər sarsıdıcıdır.

Yazıçı dost, hardasan, mən sənin səsini eşitmək istəyirəm!

Alim dost, bir günlüyə də olsa, işindən ayrıl, başını qaldır, səni əhatə edən mühiti saf-çürük et, bu günümüzü ehtiva edən elmi tədqiqatlarınla sözünü de!

Ulu öndərimiz Heydər Əliyevin ruhu başımızın üstündədir. O, Azərbaycanı bizə tapşırıb. Onu qorumaq bizim borcumuzdur.

Qazı, suyu, işığı hansısa obyektiv və ya subyektiv səbəbdən kəsilən adamlar haray salırlar, çətinliyə dözmürlər, rahatlıq istəyirlər. Amma elə həmin adamlar mənəvi eybəcərliyi,

əxlaqsızlığı görəndə susurlar… Və başlarını aşağı salıb, etinasız-etinasız keçib gedirlər.

Mən Azərbaycan mənəviyyatının üstündən keçib gedən həmin adamların addım səslərini eşidirəm… Bəs, siz necə?

2004

ALTMIŞ YAŞ NƏDIR KI…

Millət vəkili, dostum Eldar Ibrahimova

Əziz dostum! Hərəmiz doğma Azərbaycanımızın bir güşəsində doğulmuşuq. Uşaqlıq çağlarımızda, dünyanın gəldi-gedərindən baş çıxarmadığımız günlərdə ağlımıza da gəlməzdi ki, nə vaxtsa bir-birimizə rast gələcək, ən nəhayət, tanış, sonra da dost olacağıq.

Əziz dostum! Bəlkə də çoxları üçün rahat, firavan, çək-çevirsiz, bir qədər də dəqiq desəm, mübarizələrsiz həyat daha xoşdur. Amma bunun əksini düşünən, cəmiyyəti təlatümə gətirən, narahat edən məsələlər barədə fikir yürüdən, mülahizələr irəli sürən, səhv etməmək üçün keçmişə söykənə-söykənə inad və inamla gələcəyə addımlayan insanlar da vardır. Onlar, əgər belə demək mümkünsə, tarixin övladlarıdır!

Əziz dostum! Yəqin ki, adları tarixin səhifələrinə qızıl xətlərlə yazılmış müdrik filosoflar, qüdrətli sərkərdələr də məhz belə bir həyat yolunu özləri üçün örnək seçmişlər…

Zaman keçir, yaşa dolursan, heç bilmirsən ki, şıltaq uşaqlığın, çılğın gəncliyin quş kimi necə uçub getdi. Dəyişən illər insanın daxili – mənəvi aləminə nəinki öz sözünü yazır, həm də onun zahiri görkəminə əl gəzdirir…

Təqribən 92-ci ilin yaz aylarını nəzərdə tuturam. Onda yaşınız hələ əlliyə çatmamışdı. Sıx qara saçlarınız, yaraşıqlı və təravətli simanız… Gənclik enerjisi ilə mübarizələrə atıldığınız o günlər indi də gözümün qabağındadır. Siz telefonun yanında dayanmışdınız, çöhrənizdə bir narahatlıq və nigarançılıq vardı. Naxçıvanla telefon əlaqəsi yaratmaq istəyirdiniz. Bu gün artıq cismən aramızda olmayan əbədiyaşar və mənəvi liderimiz Heydər Əliyevlə danışmağa çalışırdınız. Çox istəyirdiniz ki, həmin günlərdə o, Bakıya gəlsin, Azərbaycan xalqının istəyi ilə hakimiyyət sükanının arxasına keçsin, ölkəmizi fəlakətdən xilas etsin.

Mən hiss edirdim ki, Siz necə inadkarlıq və əzmkarlıq göstərir, hamımızın qəlbində kök salmış bu arzunun həyata keçməsinə çalışırsınız. Bu belə də olmalı idi, çünki o qanlı-qadalı günlərdə xalqımızın bəd gətirmiş taleyi həll olunurdu.

Kimlərsə həyatın mənasını hər hansı bir mübarizəni qələbə ilə başa vurduqdan sonra sakit bir guşəyə çəkilməkdə, qazandıqlarına qane olmaqda (bu qazanc maddi də ola bilər, mənəvi də), rahat yaşamaqda görə bilərlər. Ancaq alnına Vətən və xalq sevgisi yazılanlar heç vaxt bu yolu seçmirlər. Çünki tale onlara, əbədi olaraq, Vətən və xalq uğrunda mübarizə aparmağı qismət etmişdir.

Əziz dostum! Siz mübarizə apara-apara yaşamağı həyatınızın başlıca mənası hesab edirsiniz. Siz bütün şüurlu həyatını, güc və bacarığını Azərbaycan naminə sərf etməyi hər şeydən üstün tutan siyasi xadimlər cərgəsində özünəməxsus yeri olan bütöv xarakterli şəxsiyyətsiniz. Əlbəttə, bunun səbəbləri çoxdur. Mən onlardan yalnız birini qeyd etmək istəyirəm. Siz həyatdakı yerinizi çox aydın görürsünüz: harada olunsunuz-olun, – istər adi tədbirlərdə, istər beynəlxalq görüşlərdə...

Əziz dostum! Bütün illər, bəlkə də, bir-birinə bənzəyir. Bizdən əvvəlki nəsillər də öz uşaqlıqlarını, gəncliklərini xatırlayıb, bəlkə də, bizim kimi kövrəliblər. Amma tək təsəllimiz odur ki, bu illər həyatımızın mənası olub, bu illəri havayı yaşamamışıq və yaşadığımız illərdə qazancımızı millətimizin mənafeyi naminə apardığımız mübarizələrdə görmüşük. Bəli, bu, bizim üçün böyük təsəllidir. Hələ bir neçə il bundan əvvəl həmin ziddiyyətli, qanlı-qadalı günlərdə, az qala, gələcəyə olan ümidlərimizi belə itirməkdəydik. Doğrudur, biz – Heydər Əliyev həqiqətlərinə inananlar bir yerə toplaşa bildik və həmin həmrəylik, əslində, bizim xalqımızı xilas etdi. Indi həmin illəri yada salanda, bilirəm ki, hamımız kimi Sizin də qəlbiniz qürur və iftixar hissi ilə döyünür.

«Yaşamaq gözəldir, qardaşım» – bir vaxt Nazim Hikmət belə deyirdi. O Nazim Hikmət ki, Vətənindən uzaq düşmüşdü. Insan həyatında bundan ağır fəlakət, bundan ağır cəza ola bilməz ki, səni Vətəninə uzaqdan baxmağa məcbur etsinlər. Yeri gəlmişkən, mən təəssüf edirəm ki, hələ də öz Vətənində Nazim Hikməti qədərincə qəbul etmək istəməyənlər var. Sözümün canı odur ki, bəzən insan xoşbəxtlik içində olanda öz xoşbəxtliyini dərk edə bilmir. Bu, bədbəxtlikdir! Bu gün biz yaşayan Azərbaycanın – bünövrəsi Heydər Əliyev tərəfindən qoyulmuş yeni Azərbaycanın qurucuları sırasındayıq.

XIX əsrin məşhur utopisti Anri Sen Simon deyirdi ki, yaşamaq üçün mübarizə gərəkdir. Mübarizə üçün də nədənsə

ilham almalısan. Bizim ilham mənbəyimiz bu gün bahar təravəti ilə süslənən, yeni zamanın ab-havası ilə nəfəs alan Azərbaycanımızdır!

Əziz dostum! Mən yaxşı bilirəm ki, bu sözləri Azərbaycanın tanınan, prinsipial mövqeyi ilə seçilən bir siyasətçisi, uzun illərdən bəri Milli Məclisdə birmənalı, aydın çıxışları ilə tanınan, ən ziddiyyətli məqamlarda belə heç bir tərəddüdə yol verməyən, görkəmli bir siyasi xadim kimi XX əsrin sonunda və XXI əsrin əvvəlində öz dəst-xəttini tariximizə kifayət qədər aydın yazmış bir insan haqqında deyirəm. Milli Məclisin Aqrar Siyasət Məsələləri üzrə Daimi Komissiyasının sədri kimi Sizin apardığınız böyük işlər məlum sahədə əldə edilmiş uğurlu nəticələrlə bizi – Sizin dostlarınızı və xalqımızı həmişə sevindirir.

Əziz dostum! Yadınızdadırsa, həmişə dövlətçiliyimizi təbliğ edən, milli və dövlətçilik maraqlarımızı üstün tutan və bu yolda fədakarlıqla, prinsipiallıqla mübarizə aparan «Kredo» qəzetinin 2002-ci il 2 mart tarixli nömrəsində mənim Sizə ünvanlanmış – «Milli Məclisin Aqrar Siyasət Məsələləri üzrə Daimi Komissiyasının sədri Eldar Ibrahimova açıq məktub»um dərc olunmuşdu. Yəqin ki, hamı yaxşı xatırlayır, «Kredo» qəzetinin həmin nömrəsi ictimai-siyasi dairələrdə necə əks-səda vermişdi. Həmin məktubdan kiçicik bir məqamı yadınıza salmaq istərdim: «Eldar müəllim, mən təbiətən nikbin adamam. Tutduğumuz yolun doğruluğuna öz varlığım qədər inanıram. Dövlətimizin müstəqilliyi və bu müstəqilliyin dönməzliyi, əbədiliyi təmin olunub. Bundan da şirin və əziz bir duyğu ola bilərmi? Antik dövr filosoflarından biri yazıb ki, əgər həyat təbiətlə həmahəngdirsə, demək, hər şey qaydasındadır. Bu da o zaman mümkündür ki, insan sağlam düşüncə sahibi olsun. Əlbəttə, bu müdrik fikrin adi sözlərdən, ilk baxışda, sadə bir məntiqdən ibarət olduğunu düşünmək olar. Ancaq, heç şübhəsiz, bu sadə fikir dərin həyatı müşahidənin, ən başlıcası, həyat təcrübəsinin bəhrəsidir. Bu sözlər bu gün də qiymətini qoruyub saxlayır və bizi düşündürür».

O vaxtdan üç il keçib. Bu, o qədər də çox vaxt deyil. Ancaq bu müddət ərzində böyük dəyişikliklər baş verib. Elə bu üç ildə Siz özünüz də üç yaş böyümüsünüz, ömrün kamillik, müdriklik çağına qədəm qoymusunuz. Bu illər Sizə yeni-yeni həyat təcrübəsi bəxş edib, uğurlara sevinmisiniz, hansısa bir problemi həll edə bilməmisinizsə, narahat olmusunuz. Dəyişməyən isə Sizin ümummilli liderimiz Heydər Əliyevə olan

böyük hörmət və ehtiramınız, həmişə ürəklə arxalandığınız mənəvi dəyərlər olub.

Əziz dostum! Əgər mübarizələri həyatınızın mənası hesab etsək (bu, elə belədir), Siz çox mənalı bir həyat yaşamısınız. Bu mənalı həyat şükür ki, davam edir. Tale Sizə sağlam can qismət etdiyi kimi, sağlam ruh da bəxş etmişdir. Elə buna görə də deyirəm ki, Sizin həyatınızın daha mənalı, daha gözəl çağları hələ qabaqdadır.

Əziz dostum! 60 yaş nədir ki?! Siz hələ uzun illər Sizə inanan, Sizə güvənən insanlarla birlikdə Azərbaycan xalqının gələcəyi naminə fədakar mübarizənizi davam etdirəcəksiniz.

Qəribə təsadüfdir. Bu günlər bahar günəşi mənim gözlərimdə daha işıqlı, daha nurlu görünür. Bu işıq, bu nur məmləkətimizin bütün rənglərini, çalarlarını özündə əks etdirir. Bəlkə də bu işıq, bu nur ona görə belə gur görünür ki, ona Sizin kimi qəlbi işıqlı insanların da ürəyinin odu, alovu qarışır.

Sizə cansağlığı arzulayan dostunuz

Hüseynbala MIRƏLƏMOV

30 aprel 2005-ci il.

60-cı ILLƏR INTIBAHI VƏ SƏRDAR ƏSƏD YARADICILIĞI

60-cı illərin əvvəllərində bütün Sovet Ittifaqlarında olduğu kimi, Azərbaycanda da mövcud rejim cəmiyyətdəki gərginliyi bir qədər azaltmaq məqsədi ilə bir «demokratik nəfəslik» açmışdı və təbii ki, bu «demokratik nəfəslik»dən ən çox yararlanmaq istəyənlər illər boyu hakimiyyətin sərt məngənəsində sıxılan, inləyən azad təbiətli sənət adamları idi. Onlar cəmiyyətdə qabarma həddinə çatmış təlatümləri olduğu kimi – açıq-aşkar ifadə etmək istəyirdilər.

Çox çəkmədi ki, yeni ədəbiyyatın ilk nümunələri yarandı: kəmiyyət – arxa, keyfiyyət isə – ön plana keçdi. Amma «demokratik nəfəslik» ab-havasında yaranan əbədi nümunələr hamı tərəfindən birmənalı qarşılanmadı – təqdir edənlər də oldu, ağız büzənlər də. Nə etmək olar? Yenilik həmişə müqavimətə

rast gəlib, amma, buna baxmayaraq, mübariz olub, geri çəkilməyib…

O vaxt yaranan elə o ilk nümunələrlə birgə «60-cı illər ədəbiyyatı» istilahı da yarandı.

Bu artıq yeni dövr idi. Hətta bu dövrü «oyanma mərhələsi» adlandıranlar da vardı. Etiraf edim ki, mən bu fikirlə tam şərikəm və təsadüfi deyil ki, bu qeydlərimi «60-cı illər intibahı» adlandırmışam.

«60-cı illər ədəbiyyatı» deyəndə, yeni, gənc nəslin, xüsusilə, Anarın, Elçinin, Ə.Əylislinin, I.Məlikzadənin, M.Arazın, F.Qocanın, F.Sadığın, M.Ismayılın, I.Ismayılzadənin, Ə.Salahzadənin, M.Yaqubun və başqalarının adları çəkilir. Ədalət naminə demək lazımdır ki, onların yaradıcılığı bu yeni əhval-ruhiyyəni ehtiva edirdi.

Elə bilirəm ki, biz məsələni də hökmən qeyd etmək lazımdır. Azərbaycanda «60-cı illər ədəbiyyatı» təkcə rejimin açdığı «demokrativ nəfəslik» hesabına yaranmamışdır. 60-cı ilə qədər ədəbiyyatımızda Bəxtiyar Vahabzadə fenomeni vardı və Rəsul Rza bu gün də müasir və aktual səslənən «Rənglər» silsiləsini yazmışdı.

Yusif və Vaqif Səmədoğlu qardaşları böyük S.Vurğun məktəbinə sadiq olmaqla yanaşı, həm də dünya ədəbiyyatının ən gözəl nümunələrindən bəhrələnməyə çalışırdılar. Bəlkə də heç kimin xidmətini şişirtmədən və yaxud azaltmadan bu siyahını bir az uzatmaq olar. Amma mənim məqsədim tamamilə başqadır...

«60-cı illər ədəbiyyatı» get-gedə bəşəri ruh üstə köklənirdi, yeni məzmun kəsb edirdi. Insan faciəsi, bəşəri dərdlər yeni yaranan əbədi nümunələrin əsas ideyasına çevrilirdi.

Zənnimcə, 60-cı illər intibahı haqqında danışarkən, öz kövrək, ekzotik yazıları ilə oxucuların qəlbini əfsunlayan istedadlı şairimiz Sərdar Əsədi yaddan çıxarmamalıyıq. Təqribən 25 il əldə qələm öz mənəvi dünyası ilə çarpışan bu tanınmış sənətkar Azərbaycan ədəbiyyatına həqiqi sənət nümunələri sayıla biləcək töhfələr vermişdir. Odur ki, onun çoxcəhətli yaradıcılığı hərtərəfli araşdırılmalı, aradan uzun illər keçəndən sonra da olsa, əsl qiymətini almalıdır.

Sərdar Əsəd 60-cı illər intibahını yaradanların ön sırasında idi. O vaxt mən ilk qələm təcrübələrimi yazırdım.

Maraqlıdır ki, həmin dövrdə yaranan ədəbi əsərlər geniş müzakirələrə səbəb olurdu və ədəbi tənqidin diqqətindən kənarda qalmırdı – tərif də, tənqid də ciddi olurdu. Bəzən bu «qiymətləndirmədə» oxucular da yaxından iştirak edirdilər. Yadıma gəlir ki, o dövrün ədəbiyyatına meyilli qəzet və jurnalların əksəriyyətində «Oxucu rəyi» rubrikası verilirdi. Çox təəssüf edirəm ki, bu gün nə elə müzakirələr var, nə də elə oxucu rəyləri. Hətta ədəbi tənqid də o ədəbi tənqid deyil. Bütün bunların əvəzində isə yalançı tərif və yaxud cansıxıcı sükut var…

Bayaq dediyim kimi, 60-cı illər ədəbiyyatını yaradanlardan biri də Sərdar Əsəd idi. Ancaq, nədənsə, onun təzə və qeyri-adi təşbehlərlə zəngin yazıları ədəbi tənqid tərəfindən susqunluqla qarşılanırdı. Bu, bəlkə də, onun sənət taleyi idi, bəlkə də, xarakterindən, bir qədər təkliyə meyilli olmasından irəli gəlirdi – demək çətindir.

Son vaxtlar mətbuatda onun haqqında dərc olunan yubiley materiallarını oxuyuram və düşünürəm ki, bu kompaniya xarakteri daşıya bilər və S.Əsəd yenidən unudular.

«Kredo» qəzetində S.Əsədlə bağlı yazılmış məqalədə oxuyuruq: «Sərdar Əsədin, əllinci illərindən başlayaraq, hətta ölümündən sonra da çap olunan kitabları haqqında Azərbaycan ədəbiyyatının aparıcı simalarından hansınınsa imzası ilə fikir, mülahizə və qeydlərinə rast gəlmirik. Nə üçün həmin dövrdə, xüsusilə «Simlərin tufanı», «Yer ulduzu», yaxud «Illər ayrısı» adlı kitablarına heç bir nəşriyyat qeydi, tənqidçi sözü yazılmayıb? Bu, Sərdar Əsədə, başqa sözlə desək, istedada qarşı qəddar münasibətin təzahürü idi.

Qoy Sərdar Əsədin ruhu inciməsin. Ola bilər ki, onun zidiyyətli təbiəti, şair emosionallığı, çılğınlığı, ətrafdakılara qarşı münasibəti sərt olub. Mən həmin dövrdə olmamışam – bunlardan xəbərsizəm. Amma inanıram ki, onun da dostları olub. Kimləsə dərdləşib – ürəyini açıb. Kiminləsə bir məclisdə iştirak edib, tost deyib. Bəs nə üçün bir dostu tərəfindən, onun yazılarına münasibət bildirilməyib? «Kredo»,

№-103-104 (273-274) Əlirza Xələfli, «Şuşada şüştər»in iztirabları, yaxud sözün sehrindən sehrli sözə doğru» məqaləsindən, 25 dekabr 2004).

Mən Ə.Xələflinin bu qeydlərindəki mövqe ilə (bəzi istisnalarla) razıyam. Bu istisnaları qabartmaq istəmirəm. Müəllif unudur ki, S.Əsədin «Illər ayrısı» kitabında qələm dostu

I.Tapdığın ön sözü var. Ümumiyyətlə, S.Əsəd yaradıcılığına dair elə onun öz sağlığında tənqidçi Vaqif Yusiflinin və başqalarının da məqalələri olmuşdur. O başqa məsələdir ki, bu münasibət ötəri xarakter daşımış, S.Əsəd ədəbi aləmə olduğu kimi təqdim edilməmişdir.

S.Əsədin maraqlı obrazlar aləmi var, orijinal, ancaq onun özünə xas olan, sözün həqiqi mənasında, yeni görünən obrazlar aləmi.

Şəkil təbəssümü durdu üzündə,
Ürəkdən keçəni üzə vurmadı…
Çəkdirdi şəklini heykəl önündə,
Amma arxasında heykəl durmadı.

Bu şeir Sərdar Əsədin sağlığında, 1971-ci ildə nəşr edilən «Simlərin tufanı» kitabından götürülmüşdür. Bəlkə də o dövrdə bu misralardakı fikirlər bir qədər mücərrəd görünə bilərdi. Amma, bu gün bü şeirdəki Sərdar Əsəd etirazı, Sərdar Əsəd üsyanı bütün dolğunluğu ilə anlaşılandır.

S.Əsədin təbiət təsvirləri xüsusilə gözəldir. Bunu filologiya elmləri doktoru, professor Qəzənfər Kazımov şairin yubileyi ilə bağlı yazdığı dərin məzmunlu məqaləsində belə vurğulayır. Sərdarın mövzular aləmi çox zəngindir. Həyatın yeniliklərini məhəbbətlə qələmə alır. Ictimai həyatın təsviri bütün şeirlərində ön plandadır. Sevgi də, gəncliyin istək və arzuları da yaradıcılığında geniş yer tutur. Xüsusən ilk şeirləri öz gəncliyindən doğan sevgi motivləri ilə zəngindir.

Getdikcə onun qələmi müdrikləşir, şair sanbalı artırdı. Şeir texnikasına gözəl bələd idi. Lirik və lirik-epik şeirin əksər formalarında qələmini sınamışdır. Üslubu orijinaldır. Heç kəsi təqlid etmir, heç kəsin yolu ilə getmir. Həqiqi xalq adamı idi. Xalqın arasına getməkdən, Vətənin dağlarını, dərələrini, meşələrini, tarixi abidələrini təsvir etməkdən zövq alırdı. Zəhmət adamlarını poeziyaya gətirirdi. Vətənin qədimliyi və gələcəyi naminə onları vəsf etməkdən iftixar duyurdu («Kredo», №-91-91 (261-262) Qəzənfər Kazımov. «Unudulmaz şair» məqaləsindən. 12 noyabr 2004).

«Kredo» qəzetinin Sərdar Əsəd yaradıcılığına diqqət göstərməsini təqdirəlayiq hesab edirəm. Qoy Sərdar Əsəd

poeziyasını yeni ədəbi nəsil təzədən öyrənsin. Qoy yeni ədəbi nəsil görsün ki, postmodernist ədəbiyyat yox, sadəcə, ədəbiyyat var. Kökündən yayılan, kökü ilə tarixin mənəviyyatına bağlı olan ədəbiyyat. Elə Sərdar Əsədin özünün «Kökündən yayılan» («Dağları aşdı sellər» «Gənclik», Bakı-1977. s.36) adlı şeirində dediyi kimi:

Gömgöy sarmaşıq gördüm
Ağ divarlar üstündə,
Bir zoğdan
Göy bulud yayılmışdı:
Hələ yazda bax ona –
Indi qışdı.

Təbiət,
torpaq qəribədir, –
Bitki yerinə düşsə,
Pərvəriş elər
Qışınan da,
yayınan da.
Kökündən yayınan da olur,
Kökündən yayılan da.

Sərdar Əsəd Azərbaycan ədəbiyyatının saf bir səhifəsidir. Bu səhifəni qan-qada yuya, toz örtə bilməz.

Sərdar Əsəd Azərbaycanla birlikdə gələcəyə addımlayır.

2005

SÖZÜN HALƏSINDƏ

Sona çatmaqda olan il yaradıcılıq baxımından mənim üçün çox əlamətdar olmuşdur. Ayrı-ayrı vaxtlarda qələmə aldığım müxtəlif səpkili bir sıra yazılarım işıq üzü görmüşdür. Əbədi tənqid xüsusilə «Zəfər yolu», «Işığın izi ilə» əsərlərimi,

«Gəlinlik paltarı» romanımı təqdir etmişdir. Yeri gəlmişkən deyim ki, bu əsərlər oxucular tərəfindən də böyük maraqla qarşılanmışdır.

«Hər söz bir inci» adı ilə oxuculara təqdim olunan bu kitabımda toplanmış aforizmlər, müdrik kəlamlar ayrı-ayrı vaxtlarda çap olunmuş əsərlərimdən götürülmüşdür. Etiraf edim ki, nə vaxtsa bu aforizmləri, müdrik kəlamları seçib ayrıca kitab halında çap etdirmək kimi bir fikrim olmamışdır. Ancaq yaradıcılığımı diqqətlə izləyən qələm dostlarım – Elçin Kamal və Fariz Çobanoğlu böyük zəhmətə qatlaşaraq, oxucuların marağına səbəb ola biləcək həmin ifadələri seçib toplamışlar. Hiss olunur ki, onlar bu kitabı tərtib edərkən bu qəbildən olan yazıların nəşri ilə bağlı ənənələrə sadiq qalmış, aforizmlərin, müdrik kəlamların mənbəyini dəqiq göstərmiş, axırda isə, istifadə olunmuş ədəbiyyatın siyahısını vermişlər.

Əlbəttə, sözü dünyanın naxışı hesab edənlər yanılmayıblar. Bunu dahi Nizami daha dəqiq deyib:

Köhnə qızılmı, təzə sözmü yaxşıdır?
Söz sərrafı söylədi: – Söz dünyanın naxışıdır.

Əgər bu kitabda toplanmış ifadələr ədəbiyyatsevərlərin diqqətini cəlb edə bilsə, onda, mən özümü çox xoşbəxt sanaram.

Insanlar dəyərli sözü həmişə uca tutmuşlar. Füzulidən əvvəl yaşamış, Füzuli yaradıcılığına, bəlkə də, böyük təsiri olmuş (əlbəttə, bunu araşdırmaq tədqiqatçıların işidir) Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndəsi – Nemətulla Kişvərinin bir beyti yadıma düşür:

Eşqi kamil aşiqə rüsvayçılıqdan dərd yox,
Nuh ilə həmxanə bolsan, mövçi-tufandan nə qəm.

Zənnimcə, beytin mənası çox aydındır. Şair deyir ki, Nuh ilə həmxanə olan üçün tufanın qorxusu yoxdur. Dəyərli sözə – haqqı özündə ehtiva edən, yaşadan sözə arxalanmaq üçün zaman tufanının qorxusu yoxdur.

Söz – insanın qəlbində inam işığı yandırmaq üçün vasitədir. Müdrik kəlam, hikmətli söz insan duyğularına qol-qanad verir.

Insanın daxili aləmində həyat eşqi adlanan bir ocaq yanır. Bu ocağın odu – dəyərli sözdür. Insanlar dəyərli sözün haləsində dolanır və onun işığından pay umurlar. Pərvanələr işığın ətrafına can atdığı kimi, insanlar da sözün haləsinə can atırlar.

P.S. Bu kitabın hazırlanmasında xüsusi əməyi olmuş «Kredo» qəzetinin əməkdaşlarına öz minnətdarlığımı bildirirəm.

2005

Tənqid və ədəbiyyatşünaslıq

BIRINCI NƏĞMƏ

IDEALA SƏDAQƏTLƏ…

«1910-cu il may ayının 19-da (təzə təqvim hesabilə) anadan olmuşam. Ana babam təvəllüd ilimi köhnə bir Quranın son – sarı vərəqinə yazıbmış. Həmin Quranı babamın xeyrat günü kimsə aparıb, sonra qaytarmayıb. Belə söyləyirlər ki, Quran gözəl əl xətti ilə yazılıbmış və səhifələrinin kənarında bir çox şeirlər varmış. Bu şeirlərin əksəriyyətində Həzrət Əli mədh edilirmiş. Ana babam çox mömin bir kişi imiş və Imam Əliyə fanatik məhəbbət bəsləyirmiş».

Rəsul Rza

Son vaxtlar mətbuatda çap olunan bir sıra məqalələrdə belə bir fikir irəli sürülür ki, 70 illik sovet dövründə Azərbaycan ədəbiyyatında, yaxşı mənada, yaddaqalan heç nə yaranmamışdır. Güya, bu ədəbiyyat ancaq mövcud quruluşu, Lenini, kommunist idealogiyasını tərənnüm etməklə məşğul olmuşdur. Elə bu səbəbdən Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Mehdi Hüseyn, Mirzə Ibrahimov, Süleyman Rəhimov kimi sənətkarların yaradıcılığının üstündən, az qala, xətt çəkilir. Ancaq bu inkarçılar unudurlar ki, həmin dövrdə yalnız bir ideologiya mövcud idi və bu ideologiya tələb edirdi ki, hər bir yazıçı yaşadığı dövrün həqiqətlərini yox, qeyri-həqiqətlərini qələmə alsın. Şübhəsiz ki, bu günki nöqteyi-nəzərdən yanaşdıqda, təkcə Azərbaycanda yox, ümumən SSRI adlanan məkanda yaranan sovet ədəbiyyatında kifayət qədər qüsur tapmaq olar. Lakin o dövrdə yaşayan sənətkarların yalnız elə sosializm «həqiqətlərini» vəsf etdiklərini demək ədalətsizlikdir. Məsələn, onlardan biri – Səməd Vurğun təkcə «Zamanın bayraqdarı» və «Leninin kitabı» əsərlərinin yox (hərçənd bu əsərlər də yüksək sənətkarlıqla qələmə alınmışdır), həm də Azərbaycan xalqının tarixini, milli-mənəvi dəyərlərini əks etdirən

onlarla əsərin müəllifidir. Böyük Vətən müharibəsi illərində bu qüdrətli şairin ümid və inam dolu misraları hər bir azərbaycanlı döyüşçü üçün əsl qürur qaynağına çevrilmişdi. Bundan əlavə, əgər represiyalarla dolu o irtica illərində Azərbaycan dili öz varlığını, gözəlliyini, poetik zənginliyini hifz edibsə, qoruyub saxlayıbsa, bu, ilk növbədə, S.Vurğun, S.Rüstəm, R.Rza, M.Ibrahimov, Ə.Məmmədxanlı, S.Rəhimov, I.Əfəndiyev kimi sənətkarların (daha sonrakı vaxtlarda isə B.Vahabzadə, N.Xəzri, H.Arif, I.Hüseynov, Y.Səmədoğlu, Anar, Elçin, S.Əhmədli, Ə.Əylisli və b.) yaradıcılığı sayəsində mümkün olmuşdur.

Bu sənətkarlar arasında, heç şübhəsiz, Rəsul Rza özünəməxsus yer tutur. Gəlin etiraf edək: o, son yüz ildə Azərbaycan xalqının yetirdiyi ən nadir sənətkarlardan biridir. Hələ vaxtilə Rəsul Rzanın cəbhə şeirlərindən söz açan S.Vurğun yazırdı ki, romantik bir qəlblə yazılmış «Intiqam» şeiri yeri-göyü, bütün insanları intiqama – faşist cəlladlarının başına od yağdırmağa çağırır…

Təsadüfi deyil ki, Rəsul Rza haqqında söhbətə məhz Səməd Vurğundan başladıq. Son vaxtlar mətbuatda bu iki şairin bir-birinə qarşı kəskin mövqedə dayandıqlarını sübuta yetirməyə çalışanlar var. Əlbəttə, bu, iftiradan başqa bir şey deyildir. Səməd Vurğun da, Rəsul Rza da həmişə bir-birilərinin yaradıcılığına böyük ehtiramla yanaşmışlar.

Bunu sübuta yetirən yüzlərlə fakt var. Məsələn, Rəsul Rzanın 1939-cu ildə Azərbaycan Yazıçılar Ittifaqında Azərbaycan dilinə həsr olunmuş müşavirədəki çıxışına diqqət yetirək: «XVIII əsrin axırlarında Rusiyada vitse-admiral Şişkovun başçılığı ilə bir qrup adam, necə olursa-olsun, rus dilini fransız sözlərindən təmizləmək istəyirdilər. Karamzin və onun tərəfdarları da rus dilini saf bir hala salmağa çağırırdılar. Onlar rus dilinin kəlisa-slavyan dili olduğunu iddia edirdilər. «Qaloş» sözünü atıb «mokrostup», «bulvar» sözünün əvəzinə «qulyat» sözündən «qulvar» işlətmək və bu kimi axmaq iddialar irəli sürürdülər.

Bilirsiniz ki, belə bir cərəyan bizdə də vardı. Azərbaycanca olmayan bütün sözlərin hamısını Azərbaycan sözləriylə əvəz etmək istəyirdilər. Onlar aeroplana «uçquç», samovara «qur-qur», paravoza «buğla gedən» deyir və bu kimi yöndəmsiz sözlərlə dilimizi düzəltmək istəyirdilər. Təəssüf ki, bu gün də yuxarıda göstərdiyim cərəyanları diriltmək istəyənlər var.

Bu adamlar dili təmizləmək bayrağı altında dilimizə daxil olmuş bütün ərəb, fars sözlərini atmağı təklif edirlər. Yaxud dilimizi saflaşdırmaq pərdəsi altında dili dəmir hasar içinə almaq, ona heç bir yeni sözün gəlməsinə imkan verməmək istəyirlər. Bu təşəbbüslərin hər ikisiylə mübarizə aparmaq lazımdır. Biz ərəb, fars, osmanlı dillərinin təsiri ilə mübarizə deyəndə, o dillərin vaxtilə dilimizə soxulmuş ruhu ilə mübarizə məsələsindən danışırıq. «Şayani-diqqət», «hissi-qəblülvüqü» və bu kimi xalqımıza yad olan, xalq tərəfindən mənimsənməmiş, xalqın dilinə girməmiş, ruhuna uymamış sözlərin və ifadələrin dildən çıxarılmasından danışaq.

Mən istəyirəm ki, bizim bugünkü müşavirəmiz dilimizdəki nöqsanları, təhrifləri, özbaşınalığı, hətta bəzən baş verən cinayətləri açıb ortaya töksün, bunların aradan qaldırılmasına kömək etsin. Əsas yolu, əsas inkişaf xətti sağlam olan bugünkü Azərbaycan dilinə, bir sıra zərərli cərəyanlar gəlir ki, bunlarla mübarizə eləmək Azərbaycan intelligensiyasının şərəfli vəzifəsidir. Mən dilimizdəki nöqsanları şərti olaraq iki əsas hissəyə bölürəm. Bunlardan biri dilimizə yerli-yersiz yeni sözlər gətirmək, onların mənasının başa düşülüb-düşülmədiyi ilə maraqlanmadan dili zibilləməkdir. Ikinci isə, cümlə savadsızlığı, sözləri yerində işlədə bilməmək, Azərbaycan dilinin ən sadə qayda-qanunlarına tabe olmamaqdır. Soruşsanız ki, bu nöqsanların hansı daha çox qorxuludur, mən deyərdim ki, hər ikisi. Çünki hər iki hal dilimizi geniş xalq kütlələrinin dilindən ayırır.

Bəzi adamlar bu pərdə altında gündə təzə bir söz çıxarırlarsa, elə bilirlər ki, dilin zənginliyi sözün çoxluğundan asılıdır.

S ə m ə d V u r ğ u n. Gündə bir söz olsa, dərd yarıdır.

R ə s u l R z a. Bir dilin zənginliyi o dilin ayrı-ayrı anlayışları, fikri daha sadə verə bilməsi və şüurun inkişafını doğru əks etdirə bilməsindədir».

Və yaxud Rəsul Rzanın Səməd Vurğun haqqında dediklərinə diqqət yetirək: «Səməd Vurğun yer oğlu idi. Torpaq kimi mehriban, müdrik idi. Əgər onun həyatını yazdıqları ilə ölçsək, onlarla insan həyatına bərabər olduğunu görərik. Yüzlərlə şeir, onlarla poema, neçə mənzum pyes, çoxlu məqalə… Böyük istedadlı şair-dramaturqun ədəbi irsinin ancaq üzünü köçürmək lazım gəlsə, buna illər tələb olunar. Əgər

özlüyümüzdə düşünsək ki, o, bir ifadəni, bir sətri yazmaq üçün nə qədər iztirab, yuxusuz gecələr keçirmişdir, aydın olar ki, şair necə gərgin enerji, iradə və ilhamla işləmişdir.

Səməd özünə Vurğun ləqəbi götürmüşdür. O öz Vətəninə, öz xalqına vurğun idi. O, poeziyanı sevirdi. O, yer oğlu, təbiət övladı idi. O, qarlı dağları, ənginlikləri sevirdi. Bakını sevirdi, ona çoxlu şeirlər həsr etmişdir. O, yaxşı, təmiz ürəkli, insan ləyaqətinin bayrağını yüksək tutan, yer üzündə insan səadəti uğrunda axıra kimi mübarizəyə sadiq olanları sevirdi. O, uzun müddət müxtəlif millətlərdən olan, müxtəlif yerlərdə yaşayan bu insanların qəlbində yaşayacaqdır».

Təbii ki, Səməd Vurğunla Rəsul Rzanın sənətə baxışlarında müəyyən fərqli cəhətlər də olmuşdur. Lakin bu heç vaxt kəskin konfliktə – qarşıdurmaya çevrilməmişdir.

Elə bilirəm ki, R.Rzanın yaradıcılığı və şəxsiyyəti ilə bağlı ayrı-ayrı sənət adamlarının müxtəlif illərdə söylədikləri fikirləri xatırlamaq da yerinə düşərdi. Zəmanəmizin böyük şairi Nazim Hikmət Rəsul Rzanın yaradıcılığını çox yüksək qiymətləndirmiş və onun haqqında bir neçə məqalə də yazmışdır. Həmin məqalələrdən birində deyilir ki, Rəsul Rza xalq yaradıcılığına və klassik ədəbiyyata pərəstiş edən bənzərsiz bir şairdir, eyni zamanda, müasir Azərbaycan poeziyasının yaradıcılarından biridir. O üç ildir ki, Füzuli haqqında böyük bir poema üzərində işləyir və yaxşı bilir ki, müasirlik ədəbi irsi inkar etməkdən yox, ədəbi irsi qəbul etməkdən və ondan bəhrələnməkdən başlayır.

Nazim Hikmət başqa bir məqaləsində isə yazır: «Onun yaradıcılığı ilə təxminən 20, özü ilə 12 ildir tanışam. Indi, 1959-cu ildə məndən sovet poeziyasının novatorlarının adını soruşsalar, birincilər sırasında mütləq Rəsul Rzanın da adını çəkərəm.

Həyatın irəli sürdüyü problemlərindən gur səslə danışmaq üçün hökmən yeni şeir formasını axtarıb tapmaq lazım idi. Rəsul öz təcrübəsini gənclik eşqi ilə, qanadlı arzuları ilə birləşdirərək bu formanı yaratdı.

Azərbaycan klassik və müasir ədəbiyyatı xalqın əvəzsiz nəğməsidir. Rəsulun səsi bu nəğmənin ən yaxşı keyfiyyətlərini özündə cəmləşdirir».

Yeri gəlmişkən, burada Rəsul Rza ilə Nazim Hikmət arasındakı böyük dostluğu da xatırlamaq lazımdır. Nazim Hikmətin vəfatından sonra Rəsul Rza belə bir şeir yazmışdır:

Üfüqdə göy gözlərin sarı həsrəti…
Bir səs:
– oğlum, oğlum, deyə
çağırır Məməti.
Miz üstə – bir işıq gölü,
Miz arxasında Məmət.
Dəftər, kağız miz üstünə tökülü.
… Qara dənizin üstündən
qara yellər əsdimi,
Məmət gecikdimi?
Çağıran tələsdimi?
… Üfüqdə göy gözlərin sarı həsrəti…
Səhifələrdə yaralı qəlbin məhəbbəti.
Məmət dərs oxuyur
Lehistanın baş kəndində.
Şəkərim, qardaşım, ustad!
Bir də çağırma,
çağırma Məməti!

Bu şeirdə Nazim həsrəti çox böyük sənətkarlıqla ifadə edilmişdir.

Haşiyə. R.Rza Nazim Hikmətin şəxsiyyəti və sənəti haqqında onlarla məqalə yazmışdır. Onlardan biri – «Canlı Nazim» diqqəti daha çox cəlb edir: «Bir il idi ki, böyük şairin yaralı qəlbi əbədi susmuşdu. Nazimin Moskvadakı mənzilində bir neçə yaxın dostu ilə oturub, şeirlərini oxuyur və haqqında ondan danışırdıq. Bu vaxt bir kağız qovluq gətirdilər. Yaponiyadan idi. Qovluğun içində bir məktub və rəngli kağızdan kəsilib ipək sara düzülmüş durna ülgüləri vardı. Bunları tokiolu uşaqlar – «Min durna» klubunun üzvləri göndərmişdilər. Xrosima faciəsindən sonra Yaponiyada belə klublar yaradılmışdı. Bu klubun üzvləri rəmzi olaraq «Min durna» adı ilə insanlığı atom fəlakətinə qarşı mübarizə aparmağa çağırırlar.

Məktubun mənə ən çox təsir edən cəhəti bu deyildi. Insanlığı yeni fəlakətdən qorumağa çağıran yüzlərlə belə məktub

indi də hər gün görkəmli sənət, elm xadimlərinin adına, redaksiyalara gəlir. Maraqlı orası idi ki, Yaponiyalı uşaqlar Nazimə «Əziz Nazim, sən bilirsən ki, biz ilk atom bombasının dəhşətinə hədəf olmuş ölkənin uşaqlarıyıq», – deyə yazırdılar. Bu məktub canlı, diri Nazimə yazılmışdı. Məktubdan aydın görünürdü ki, onlar Nazimin bir il əvvəl vəfat etdiyini bilirlər. Lakin tokiolu balalar varlığın bu amansız hökmünü qəbul etmək istəmirdilər. Onlar yazırdılar: «Böyük şair, sənin xirosimalı ölü cocuq – yəni ölü qız haqqındakı şeirini heç bir şair təkrar yazmalı olmasın deyə, – biz mübarizə aparırıq. Bu mübarizədə sən də bizim sıramızdasan, bizim dəstəbaşımızsan».

Əgər Nazim Hikmət – əsrimizin böyük sənətkarı sağ olsaydı, bu gün onun 65 yaşını bayram etdiyimizi gözləri ilə görərdi. Nazim yoxdur. Lakin bu gün onun ölməz sənətinin bayramıdır. Yaponiyalı balalar, «Min durna»nın üzvləri haqlıdırlar, Nazim Hikmət haqqında həmişə sıramızda olan mübariz, humanist, novator bir şairdən, canlı bir insandan danışan kimi danışmalıyıq. Mən dünən Moskvaya vurduğum teleqramı Nazim Hikmətin adına göndərdim və yazdım ki, sənin yaşayıb-yaratdığın insan yuvasına salam göndərir, təzim edirəm, Nazim, böyük sənətkar, dost, qardaş!».

Rəsul Rza yaradıcılığını çox yüksək qiymətləndirən sənətkarlardan biri də rus şairi Ilya Selvinski olmuşdur. Rəsul Rzanın «Rənglər» silsiləsi haqsız tənqidlərə tuş olanda, Ilya Selvinski yazmışdır: «Sezanın, Van Qoqun, Deqanın pərəstişkarı olan Rəsul Rza qələmində qarşısıalınmaz harmoniyası açılan rənglər ilkin folklor anlamına uyğun şəkildə, yəni «ağ – təmizlik», «qara – matəm», «gırmızı – qəzəb» və s. kimi elementar səciyyələr daşımır. Bu və başqa rəngə müəllifin fərdi yanaşa bilməsi sayəsində bir şeir digərindən qəti şəkildə fərqlənir və tamamilə sərbəst tonda səslənir. Bu şeirləri rəsmdən fəlsəfəyə doğru hərəkət birləşdirir. Bu rəng əlvanlığı boyaları hərflərdə görən Artur Rembonun zənginliyini kölgədə qoyur».

Başqa bir yazısında isə, Ilya Selvinski Rəsul Rzanın «Şeir dili» adlı şeirinə toxunurı:

Aydındır şeirin dili,
istəyirsən sevincdən,
istəyirsən qəmdən yaz.

Elə aydındır bu dil
nadan yüz yol oxusa,
yenə bir şey anlamaz .

Ilya Selvinski bu şeiri çox yüksək qiymətləndirərək yazır: «Nə qədər kəskin və incə deyilmişdir. Bu şeirdə canına Şərqin təmkinli müdrükliyi hopmuş Azərbaycan şairinin siması nə qədər aydın hiss olunur. Belə şeirin altında Nizami və ya Sədi imza qoya bilərdilər. Yəni hər hansı bir ölkənin hər hansı bir müasir şairi də öz lirikasında belə incinin olması şərəfindən imtina etməzdi».

Burada çox önəmli bir cəhəti qeyd etməyi vacib bilirəm. Rəsul Rza haqqında söz açan hər bir müəllif (söhbət xarici ölkə yazıçılarından gedir) onun poeziyasındakı yeniliyi ön plana çəkmişdir. Məsələn, məşhur çex şairi Irji Taufer yazmışdır: «Rəsul Rza Azərbaycan poeziyasının görkəmli simalarından biridir. O, qədim zamanlardan bəri ənənə halını almış şeir formalarından fərqli olaraq, Azərbaycan poeziyasına yeni şeir forması gətirmişdir. O, novator şairdir, yaradıcılığının xüsusi cəhəti isə dilinin təbiiliyi, rəngarənliyi, müasir lirikaya xas olan incəlik və lakonikliyidir. O, hiss və zəka şairidir. Dolğun ideya və dərin məzmun onun şeirinin əsasını təşkil edir».

Əlbəttə, Rəsul Rza yaradıcılığı ilə bağlı, sonzus sayda müəlliflərin fikirlərini misal gətirmək olar. Bu fikirlər, mülahizələr onu sübut edir ki, Rəsul Rza, doğrudan da, Azərbaycan poeziyasının korifeylərindən biridir, eyni zamanda, dünya poeziyasının XX əsrdə yetirdiyi ən qüdrətli şairlərdəndir və bu gün biz, haqlı olaraq, onun adını Nazim Hikmət, Pablo Neruda, Lui Araqon, Pol Elüar, IrjiŞtola, Eduardas Mejelaytis kimi görkəmli sənətkarlarla yanaşı çəkirik.

***

Rəsul Rza poeziyasının baş qəhrəmanı heç şübhəsiz ki, Insandır.

Mənə bir sərgi salonu verin!
Nə geniş olsun dünya qədər,
nə elə hündür olsun ki,

ətəyində qala uzun gölgələr.
Mənə bir sərgi salonu verin!
Orda bir insan şəkli asacağam –
adi bir insan.
Nə elə kiçik ki, məhəl qoyan olmaya,
nə elə böyük ki, baxanda qorxasan.
Orda bir insan şəkli asacağam –
görünsün dünyanın hər yerindən;
zamanın keçmişindən,
dövrün indisindən.
əsrin gələcəyindən.
Bir insan şəkli asacağam;
Bir yanında Nəsimi –
dabanından soyulandan sonra,
Bir yanında
məşəl təki yanmış Azəri qızı –
tunc heykəli qoyulandan sonra,
Bir yanında Cordano Brunonun külü.
Bir yanında Məmmədhəsən kişi –
ömrü-günü yollara tökülü.
Yuxarıda kosmopolti göy,
aşağıda sərhədlə kilidlənmiş ölkələr.
Bir yanında Osvensim –
minlərlə insan, beli bükülü.
Bir yanda yolları insanla döşənmiş –
Kalıma.
Bir yanda Xirosima – ölü.
Bir tərəfdə
Fərhad, Şirin,
Kərəm, Əsli.
Bir tərəfdə
Israfil, Qafur,
Qastello, Lorka –

prometeylər nəsli.
Bir insan şəkli asacağam;
qapalı dodaqlarında söz yanığı.
Ətrafında bayram təntənələri.
Baxışında sınaq günləri,
dözüm sənələri.
Şəklin müəllifi – Zaman.
Adı – insanlığın ömür yolu.

Rəsul Rzanın insan mənzərələri əlvan və rəngarəngdir. Əgər onun əsərlərində insan (qlobal mənada bəşər) öz hissləri və duyğuları ilə tam və dolğun şəkildə əks olunmasaydı, onda, Azərbaycan ədəbiyyatının Nizami, Füzuli, Nəsimi, Vaqif kimi korifeylərindən günümüzə qədər gələn ənənə qırılmazdımı?

***

Balıq dənizdə doğuldu,
dənizdə böyüdü,
yaşadı.
Bir gün öldü.
Canlı dalğalar atdı onu sahilə.
Sonra qayıtdılar dənizə,
gülə-gülə.

Rəsul Rza bu kiçik poetik lövhəni 1965-ci ildə qələmə almışdır. Mən, nə qədər qəribə də olsa, bu kiçik poetik lövhədə Çingiz Aytmatovun Gülsarısını görürəm. O Gülsarını ki, kolxoz gücünü, qüvvəsini alıb, onu axtalayıb, məhv edib, sonra da cilovunu başından çıxarıb buraxıb...

Həmin bu lövhə balıqla dənizin timsalında necə də dəqiq və aydın verilmişdir. Dalğalar, gülə-gülə dənizə qayıdan dalğalar cəmiyyətə bənzəyir. O cəmiyyətə ki, uğrunda döyüşənləri ölən kimi unudur və heç nə olmayıbmış kimi özünə yeni-yeni fədakar qurbanlar axtarır.

Qəribədir, Rəsul Rzanın şeirlərini oxuyanda çox böyük bir həqiqəti kəşf etdim: o, mənən sovet şairi olmayıb. Sərt kommunist rejiminin təsiri altında da ədəbiyyatın əzəli və ədəbi

qanunlarına sadiq qalıb, öz yazılarında insan qəlbinin dərinliklərində baş qaldıran hiss və həyəcanları tərənnüm edib.

Rəsul Rza milli şairdir. Onun hələ 1945-ci ildə yazdığı bir məqalədə oxuyuruq: «Hər millət tarix səhifələrinə yazdığı insanpərvər işləri, bəşəriyyətə bəxş etdiyi dühaları, yaratdığı maddi və mənəvi nemətləri ilə fəxr edir. Bu gün yer üzündə yaşayan müxtəlif millətlər həmin tarixi şərait içərisində müxtəlif zamanlarda meydana çıxmış, inkişaf və tərəqqi etmiş, yaşayıb yaratmışlar. Insan uşaqlıq, gənclik və kamillik dövrü keçirdiyi kimi, millətlər də həmin dərəcədə bu yolu keçir. Bir millət tarixin uzun illəri boyunca yaşayıb-yaradaraq, öz adət və ənənəsini meydana çıxarır, elm, texnika sahəsində öz istedadlı nümayəndələrini yetirərək bişgin bir mərhələyə çatır.

Özünü bir millət kimi dərk edən xalq bu inkişafın yüksək mərhələsinə qalxır. Milli şüur – bir xalqın öz istedad və bacarığını dərk etmək, millətin ümumi mənafeyi və ziyanını görmək, ümumillətin rifah və səadəti üçün çalışmaq yolunda hər cür fədakarlığın zəruri olduğunu dərk etməkdir.

Öz tarixi mövqeyini, öz milli ehtiyac və vəzifələrini dərk etmiş xalq gələcək inkişafının yollarını aydın görür və bu yoldakı mübarizəsini daha kəskin şəkildə irəli apara bilir.

Milli şüuru oyanmamış və ya hələ də lazımınca oyanmamış millətlər daima başqalarının ağalıq və zülmünə məruz qalır. Yalnız kənardan deyil, öz daxilindən dəxi olan mürtəce qüvvələrin nüfuz və təsirinə boyun əyməli olur.

Şübhəsiz ki, milli intibah, milli şüurun oyanması bir günün, bir ilin işi olmayıb, əsrlərin kəskin və amansız fırtınaları içərisindən doğulur. Bir millət içərisindən çıxan ayrı-ayrı proqressiv nümayəndələr, alim və yazıçılar hərə o xalqın bir küll olaraq intibah yoluna düşdüyünü isbat etmir.

Azadlıq dərk edilmiş zərurətdirsə, bu azadlığı duymaq, onun zəruri olduğunu hiss etmək üçün xalqın bütün nemətlərini yaradan geniş kütlələrin milli şüurunun artması, xalqın özünəməxsus ənənə, sənət və məişət gözəlliklərinin həqiqətən sevilib intişar etməsi şərtdir. Lakin millət içərisində yetişən ayrı-ayrı ağıllı adamların – ictimai xadimlərin, inqilabçıların, yazıçıların, rəssamların, alim və maarifpərvərlərin o xalqın milli şüurunu yüksəltməkdə, o xalqın azadlıq və istiqlaliyyət yolundakı səylərini daha müntəzəm və mütəşəkkil bir hala salmaqda, o xalqın yolunu işıqlandırmaqda böyük xidmətləri vardır».

Rəsul Rza poeziyasının nüvəsində insan dayanır. O insan ki, daxilən azaddır, sərbəst düşünür və heç bir rejim tanımır. O insan ki, yaşamaq, özünü təsdiq etmək uğrunda mübarizə aparır və hamının nəzərində ideala çevrilir.

Rəsul Rza təbiət, hər hansı adi bir daş parçası, bir qoca kötükdən göyərmiş pöhrə və yaxud evdə, iş otağında sınmış bir yazı masası haqqında danışanda da öz daxili aləmini bütün çılpaqlığı ilə açıb göstərməyə çalışır. Onun yazılarında bir çox hallarda elə misralara rast gəlirsən ki, 30-cu illərin tufanından necə salamat keçdiyinə təəccüb edirsən. Şairin bu dərəcədə səmimi olmasının əsas səbəbini ideala sədaqətində axtarmaq lazımdır. Bu baxımdan 1959-cu ildə qələmə alınmış «Yazı masam» şeiri xüsusilə diqqəti cəlb edir:

Bayram qabağı
yır-yığışda
sındırdılar bir qıçını.
Elə bildim əlimi kəsdilər.
Neçə saat əlləşdim o gecə
ayağını mıxlayıb
yerinə bərkidincə.
Nə çəkic zərbəsindən,
nə şikəst ayağının titrəməsindən
şikayətləndi.
Mənim yazı masam!
Ürəyim doludur.
Dincəlmərəm səndən yazmasam.
Hələ yaraların sağalmamış
Evə təzə bir masa gətirdilər.
Səni sürüdülər mətbəxə.
«Çolaq miz
şairə yaraşmaz» – dedilər.
Bəhanə çoxmuş:
bir ayağın sınmış,
üstün cızıq-cızıq,

görkəmin köhnə,
üst-başın ləkə-ləkə.
Siyirtmələrin açılanda,
örtüləndə səs salırmış.
Yan yörəndə toz qalırmış.
O gündən nə qədər vaxt keçib.
Ancaq nə həsrətim azalıb,
nə vərdişim dəyişib.
Indi də, söz inadla
girmək istəməyəndə sətirlərə,
təşbehlər düşməyəndə yerinə,
qafiyələr toyuq yumurtası kimi
oxşayanda bir-birinə,
mətbəxə gəlirəm.
Üstündən götürürəm qab-qacağı.
Cib dəsmalımla silirəm üstünü.
Belə sakit, gecə yarı
açılır dərdlərimin, sevinclərimin
sənə tanış varaqları.
Səndə axtarıram,
saatlarla vurnuxub,
tapa bilmədiklərimi;
gözləri yumulu bir səhrayı kimi.
Mənim əziz masam!
Heç kəsə demə!
Təzə masa da bilməsin.
Altındakı sınıq kasa da bilməsin.
Mənim köhnə masam!
Hər dəfə səndən ayrıla bilmirəm,
Üz-gözünü əllərimlə sığallamasam!

Tənqidçi Arif Əmrahoğlu məqalələrindən birində yazır:
«Rəsul Rza bir çox həqiqi sənət nümunələri yaratmışdır,

onlardan biri də «Babamın səhvi» şeiridir. Ağsaqqal, dünyagörmüş baba, Nikolaya ona görə rəhmət oxuyur ki, bizdən soldat aparmayıbdır. Şairin öz sözləri ilə desək, «bu mərhəmətin» zərbəsi müharibədə yetmiş tikə olan qarayanız əsgərin, tut kimi tökülən azərbaycanlıların taleyində özünü göstərdi: «Qanımızla yumalı olduq yazıq, sadəlövh babamın tarixi səhvini» şeirimizdən pambıq, neft, çaxır iyi gəldiyi vaxtlarda belə bir əsər yazmaq əsl sənətkar adını bir daha təsdiq etmək idi. Yəqin elə buna görə də şairin ağrıdan yaranmış bu fikrini məhz elə belə demək olar: «Qanımızla yuyuruq yazıq, sadəlövh babamın tarixi səhvini».

Görkəmli ədəbiyyatşünas Abbas Zamanov yazırdı: «Heç kəsə bənzəməyən Rəsul Rzanın kədər, ağrı, dərd poeziyası özünəməxsusluğu ilə yadda qalır. Onun poeziyasında ağrının bir ünvanı vardır: insan. Ağrını yaradan da, ağrının altını çəkən də insandır.

R.Rza bizim o şairlərimizdən idi ki, ədəbiyyata ictimai-siyasi, sosial-iqtisadi problemləri yox, insanı gətirdi. Onun şeirləri insanı kolxoz-sovxoz, zavod-fabrik problemlərinin məngənəsindən çıxardıb, özünə baxmağa, ancaq fəhlə, kəndli, müəllim, həkim yox, ilk növbədə insan olduğunu yadına salmağa kömək etdi. Eyni zamanda, qeyd edək ki, R.Rza poeziyasında insan yunan filosofu kimi çəlləkdə oturub qlobal, bəşəri fəlsəfi mətləblər haqqında düşünüb daşınmır, onun şeirləri ağılı hərəkətə gətirir, düşüncəni narahat edir, istər-istəməz sən də həmin əsərlərin ağrı, dərd, kədər axınına düşürsən». («Rəsul Rza xatirələr işığında», Bakı 2001, səh.93).

Düşünürəm indi,
yazılı şeirimi görəndə,
soruşan da mən idim,
cavab verən də…
Həm gülürəm rişxənd ilə,
həm də kədərlənirəm,
hələ sağ olduğumu bilə-bilə…
Həyat belədir!
Istəsən gül,
istəsən ağla.

Amma insan olduğunu
yadında saxla!

Yaxud şairin 1958-ci ildə qələmə aldığı «Peşman deyiləm» şeirinə diqqət yetirək:

Mən qardaş dedim,
neçə-neçə insana .
Ayırmadım yaxşısını, pisini.
Bölmədim aclıq günlərinin cirəsi kimi
insan ünsiyyətini,
insan sevgisini.
Soruşarsınız, nə qazandım.
Həm çox, həm az.
Yamanlıq gördüm,
ürəyim ağrıdı.
Haqsızlıq gördüm,
yükü dağlardan ağırdı.
Deyərsiniz bu zərərin,
qazancı da var?
Bəs necə?
Var!
Bircə təbəssümün,
Bir mehriban baxışın,
Bir həmdərd, həmsevinc olmağın
Səadəti dünyalara sığarmı?

Bu qeydləri yazmağa məni vadar edən, heç şübhəsiz ki, Rəsul Rza poeziyasından aldığım güclü təəssüratdır. Poeziya, məhz o zaman əsl sənətə çevrilir ki, insanların mənəviyyatına təsir göstərir. Kimsə yaxşı deyib: sənətin hədəfi insan qəlbidir. Fəqət sənət insanın qəlbini parçalayıb məhv etməməli, onun ağrısına, kədərinə məlhəm olmalıdır. Mən Rəsul Rza poeziyasında məhz bu qüdrəti görürəm…

***

Çoxəsrlik Azərbaycan ədəbiyyatının sovet dövrünü ucdantutma inkar etməyə heç birimizin haqqı yoxdur. O dövrün nəhəng sənətkarları ədəbiyyatımızın monolit sütunlarına çevriliblər. Onların adı və sənəti ilə həmişə fəxr etmişik və edəcəyik!

O ki, qaldı səhvlərinə görə babasını söyənlərin aqibətinə, yalnız bunu deyə bilərəm: onların öz nəvələrinə dəyərli bir şey qoyub gedəcəklərinə inanmıram.

IKINCI NƏĞMƏ

TALELƏR POEZIYASI

«Anamın şeir təbi varmış. Bunu o vaxtdan qalma üç əlyazma təsdiq edir. Deyilənə görə, on şeir imiş, yeddisi itib-batıb, üçü isə qalıb. Bu şeirlər maarifçiliyə, elmə, mədəniyyətə çağırış xarakteri daşıyır. Bunu o zaman Tiflisə oxumağa gedən böyük bacım Kübra üçün yazdığı şeirdən də aydın görmək olur:

Qızım elm oxu, elmsizlik yamandır,
Ki olma elmsiz, ay balam, sən amandır.
Əgər salsalar boynuna cəhl ipini,
Qırıb tulla, qalsa, sənə çox ziyandır.

Anamın hərdən qərib axşam qaranlığında (xüsusilə atamın ölümündən sonra) evimizin qabağından axan çayın sularına həmahəng olaraq dodaqaltı mızıldadığı şeir parçalarının böyük Füzulinin, Natəvanın kədər və möhnət dolu

sətirləri olduğunu mən sonralar başa düşdüm».

Rəsul Rza

Yadıma gəlir ki, Rəsul Rzanın şeirlərinə hələ uşaq vaxtlarımdan vurulmuşdum. Özü də bu sevgimdə bir pərəstiş vardı. Elə bilirdim ki, bu qüdrətli şair əziz müəllimim, yol göstərənimdir. Gənclik illərimdə ona daha çox bağlandım – çətin anlarımda qolumdan tutdu, həyatın ən ağır sınaqlarından keçməyimə kömək etdi. Yaşa dolduqca, bu böyük sənətkarın poeziyasının hikmətini anladım, oxuduğum hər şeirdə min bir məna kəşf etdim.

Iki böyük dünya var,
içi günəşlərlə, planetlərlə dolu.
Bir dünya var, kainatın bir hissəsi,
irili-xırdalı məmləkətlərlə dolu.
Bir dünya var,
mənim dünyam, sənin dünyan:
ümidli, sevincli, kədərli,
arzularla dolu,
sınaqlardan keçir yolu.
Bir dünya da var könlümüzdə,
məhəbbət, şəfqət dolu.
Bəzən acılarla, acıqlarla bulanır,
nigaran ümidlə yanır.
Böyük dünyanı dəyişməkdən
hələ acizdir insan.
Saysız ulduzlar,
nəhayətsiz fəza,
insan iradəsinə tabe deyil.
Bu gün Aya getdik,
sabah Veneraya getsək belə,
ikinci dünyanı
dəyişməyə qadirdir insan,

yaxa qurtara-qurtara
acılardan, acıqlardan.

Rəsul Rzanın təsvir etdiyi o Böyük Dünya əngin, nəhayətsiz səması, saysız-hesabsız ulduzları, irili-xırdalı məmləkətləri, ümidli-ümidsiz millətləri, sülh göyərçinləri, eyni zamanda, bədheybət atom bombaları olan bir dünyadır. Şair oxucularını dünyanın dünənindən, bugünündən və gələcəyindən xəbərdar edir. Budur, Əlcəzair meydanında günün günorta çağı arxası üstə qanlı döşəməyə yıxılan bir ərəb yadellilər tərəfindən öldürülüb («Əlcəzair meydanında»), Xirosimada körpə, məsum qızcığaz atom bombasının təsirindən sonra gözlərini itirib («Gözlərin matəmi»), başı bəlalar çəkmiş Azərbaycan adlı məmləkətdə Müşfiq və Müşfiq taleli onlarca şair amansız repressiyanın qurbanına çevrilib («Qızılgül olmayaydı»), iyirmi iki il ərəb işğalçılarına qarşı mərdliklə mübarizə aparan Babək son anda – edamqabağı məğrur-məğrur dayanıb («Babək»), «Mənim arzum budur ki, qələm süngüylə dursun yanaşı» deyən Mayakovskinin müəmmalı intiharı hamını heyrətə salıb («Mayakovski»). Rəsul Rzanın şeirlərində, eyni zamanda, Sezanın mənzərələri canlanır, Deqanın «Rəqqasələr»i ruhumuzu, Van Qoqun «Günəbaxanı» gözlərimizi oxşayır.

Rəsul Rzanın təsvir etdiyi mənəvi aləm çox zəngindir. Bu, artıq bizim duyğularımızın aləmidir:

Mən istəyirəm:
buludlar ağlasın,
uşaqlar ağlamasın;
analı, ya anasız .
Mən istəyirəm:
güllər açılsın,
güllələr açılmasın;
amanlı, ya amansız .
Mən istəyirəm:
qapılar qapansın,
sözlər qapanmasın,
soyuq olanda hava.

Mən istəyirəm:
yanğınlar sönsün,
ümidlər sönməsin.
Meyvələr dəysin öz fəslində.
Ürəklərə söz dəyməsin.
Bəhərdən budaqlar əyilsin,
insan başını əyməsin.
Hər şey insana baxsın.
Insan ələ baxmasın.

Hər dəfə Rəsul Rzanın şeirlərini oxuduqda, elə bil ki, sehrlənirəm və öz-özümdən soruşuram: görəsən, duyğularımı ehtizaza gətirən bu poeziyanın əfsunlayıcı sirri nədədir? Niyə dönə-dönə oxuduğum şeiri bir də nəzərdən keçirdikdə, yeni-yeni mənalar kəşf edirəm? Bu sirrin səbəblərini açıqlamağa çalışacağam.

I. Rəsul Rzanın şeir dili. Əlbəttə, bu ayrıca bir tədqiqat mövzusudur. Döğrudur, dilçilikdə və ədəbiyyatşünaslıqda bu mövzuda məqalələr və dissertasiyalar yazılmışdır. Mən, sadəcə, öz fikrimi oxucularla bölüşmək istəyirəm.

Rəsul Rza poeziyasının dili o qədər zəngindir ki, istər-istəməz, düşünürsən: bu zənginliyin alt qatlarına enmək mümkündürmü?.. Son dərəcə zəngin söz ehtiyatına malik olan şair dilimizin bütün məna çalarlarından istifadə etməklə özünün ecazkar poeziyasını yarada bilmişdir. Xalq yazıçısı Anar yazır: «Bəzən adama elə gəlir ki, Rəsul Rza dilimizin qrammatik qaydalarına riayət etmir, tutalım, bu şeirdə olduğu kimi:

Ancaq nə mən səni eşidirəm,
Nə sən məni.
Xəbər tutmaram heç,
Aləmə desən məni.

Necə yəni «desən məni?» Ancaq bu, bayatılardan gəlir:

Gözlərin yedi məni,
Qurd oldu, yedi məni,

Bir namərdə sirr verdim,
Aləmə dedi məni.

«Aləmə desən məni» və «Aləmə dedi məni» ifadələrinin eyniliyi göz önündədir. Onu da deyim ki, ümumiyyətlə, bayatılarımızın vürğunu olan Rəsul Rza yuxarıda misal gətirdiyim bayatının birinci iki sətrini həmişə xüsusi heyranlıqla misal çəkərdi». (R.Rza. Seçilmiş əsərlər, I cild, Azərnəşr, 2002, səh.21).

Rəsul Rzanın şeir dilinin bütün gözəlliyi həm üst qatdadır, həm də alt qatda.

Mən torpağam, məni atəş yandırmaz;
tərkibimdə kömürüm var,
külüm var.
Mən baharam çəmən-çəmən;
çiçəyim var, gülüm var.
Mən küləyəm, əsməsəm,
kim bilər ki, mən varam.
Mən buludam, səhraları susuz görüb,
ağlaram.
Mən ürəyəm, döyünməsən
ölərəm.

Bu şeirin üst qatına diqqət yetirək: ilk baxışda adama elə gəlir ki, bu, min illər boyu işlətdiyimiz sadə, anlaşıqlı sözlərin, sadəcə olaraq, yan-yana düzümüdür, ancaq, əslində, bu, adi düzüm deyil, poetik düzümdür. Rəsul Rza poeziyasında alt qat daha maraqlıdır. Burada sözlərin məcaziliyi, obrazlılığı, qəfil yaratdığı assosiasiyalar oxucunu özünə cəlb edir.

Bəli, vaxtilə bir çox müəlliflər Rəsul Rzanı mücərrədçilikdə, Azərbaycan ədəbi dilinin qanunlarını pozmaqda, dilimizə Avropa mənşəli yabançı kəlmələr gətirməkdə, gələcəyi olmayan yeni sözlər – neologizmlər yaratmaqda günahlandırırdılar. Halbuki, Rəsul Rza əvvəldə dediyiniz kimi, bütün yaradıcılığı boyu Azərbaycan dilinin saflığı

uğrunda mübarizə aparmışdır. O, hələ 1939-cu ildə yazırdı: «Azərbaycan dili Vaqifin «Ay qabaqlı, bulud zülflü gözəlin, duruban başına dolanmaq gərək, Bir evdə ki, belə gözəl olmadı, o ev bərbad olub, talanmaq gərək» misralarında əks olunmuş gözəl dilin ruhunu, ənənələrini saxlayaraq inkişaf etmişdir. Bu günün Azərbaycan dili də belədir. Safdır, axıcıdır, gözəldir, sadədir».

Rəsul Rza bu saflığı, axıcılığı, gözəlliyi və sadəliyi öz şeirlərində də hifz edə bilmişdir. O duyğularını böyük sənətkarlıqla, zərgər incəliyi ilə poeziya dilinə çevirmişdir. Bu məqamda Rəsul Rza poeziyasının bilicilərindən biri – akademik Məmməd Arifin fikirlərini xatırlamaq yerinə düşərdi: «O öz şeirləri ilə qarşımızda kiçik bir mənzərə açır, bir lövhə cızır. Xalq bayatılarının ilk misralarında olduğu kimi, bu mənzərədə əsas məqsəd deyildir, bəlkə hikmət və məna dolu axırıncı misralar üçün hazırlıqdır. Şairin «Dəniz, dalğalar və damlalar», «Divar daşı», «Kibernetika», «Musiqi dərsi» kimi şeirlərində belə bir xüsusiyyət vardır. Son şeirlərindəki yığcamlıq, teleqraf dili də bayatılardan gəlir. Əlbəttə, şeirlərinin zahiri əlamətlərində bunları birdən-birə duymaq o qədər də asan deyildir. Çünki o ən gözəl ənənələri belə eyni ilə saxlamaq, təkrar etmək istəmir. O bu ənənələrdən istifadə edir, qidalanır, yeni keyfiyyətdə orijinal şeir yaradır. Bu şeir yenidir, çünki onun özünündür; başqasına oxşamır, çünki zəmanəyə müvafiqdir, müəyyən bir inkişafın təzahürüdür, çünki epiqonçuluqdan uzaqdır, donmuş və qəlibə salınmış deyil, yaradıcı mahiyyətdədir, canlıdır.

Rəsul Rza milli şeirin qayda və qanunlarını pozmur, vəzni də, qafiyəni də rədd etmir. Onun rədd etdiyi bir şey varsa, o da qəlibdir, şablondur. Şairin zəngin yaradıcılıq təcrübəsi bizi inandırır ki, onun axtarışları bir eksperiment deyil, möhkəm dərk edilmiş və fərdi üsluba, yaradıcılıq dəst-xəttinə çevrilmiş ardıcıl bir yoldur». (M.Arif. Seçilmiş əsərləri, I cild, «Elm» nəşriyyatı, 1967, səh.577).

II. Rəsul Rza şeirinin sehri. Rəsul Rza şeirinin sehri humanizmə, insan duyğularına, insan ürəyinə yaxınlığında və doğmalığındadır. Ədəbiyyatşünas Gülrux Əlibəyli «Axtarışlar, kəşflər» monoqrafiyasında bizi belə bir məlumatla tanış edir: «Kanadada poeziya ilə az maraqlanırlar və şeir kitabları çox nadir hallarda təkrar nəşr olunur. Lakin Rəsul Rzanın şeirlərində o qədər yüksək humanizm var ki, Kanada da, eləcə də ABŞ-da

onları minlərlə oxucu alıb oxuyur». (Göstərilən kitab, Azərnəşr, 1970, səh. 6).

Azərbaycan poeziyası ta qədimdən öz humanist mahiyyəti və insansevərliyi ilə diqqəti cəlb etmişdir. Rəsul Rza poeziyası bu mənada XX əsr Azərbaycan ədəbiyyatını layiqincə təmsil edə bilər.

…Sərt baxışla
bir körpənin dodağından
gülüşünü silsələr;
bir möhtaca,
bir qəribə,
bir acizə gülsələr;
bütün dünya xoşbəxt olsa,
bahar olsa
bir səhər;
yer üzündə bircə insan acsa,
mənə toxunma.

Fikrimcə, bu şeir Rəsul Rza yaradıcılığındakı humanizm konsepsiyasını tam və dolğun şəkildə ifadə edir.

***

Rəsul Rza kövrək və həssas şairdir. Onun şeirlərində, bir tərəfdən, dərddən, kədərdən, ölümdən-itimdən danışılırsa, digər tərəfdən, həyat eşqi və inam çalarları özünü büruzə verir.

Rəsul Rza dərdli şairdir.

O, bütün ömrü boyu bədxahlar və nadanlar ordusu ilə təkbaşına vuruşmuş və bu döyüşlərə çoxlu vaxt, əsəb sərf etmişdir. Cılız insanların tənələri ilə üzləşən, yaşadığı zamanın haqqı və nahaqqını mizan-tərəzidə görməyən, ictimai quruluşun vurduğu yaraların göynəyini qəlbində duyan şair necə dərdli olmaya bilərdi. Onun içində «Təbrizim-mənsizim» ağrısı yaşayırdı, onun içində «Qızılgül olmayaydı» bayatısının acı təəssüfünü dilə gətirən bir qüssə, nisgil vardı.

Rəsul Rza böyük arzularla yaşayan şair idi. Və bu arzuların gerçəkləşəcəyinə həddsiz dərəcədə inanırdı: «Yenə bədr olacaq hilalım mənim» – deyirdi. O dövrdə belə bir şeir yazmaq qəhrəmanlıq idi. Bu, «Bir kərə yüksələn bayraq, bir daha enməz» fikrinin poetik təsdiqi idi və o zamanın çuğulçuları bunu yaxşı bilirdilər. Rəsul Rza isə inadından dönmürdü ki, dönmürdü…

Ancaq vaxt keçir, onilliklər bir-birini əvəz edir, şair yaşa dolurdu. Azərbaycanın bütövlüyü ideyası isə müşgülə dönmüşdü. Bütün bunlar Rəsul Rzanın yaradıcılığına dərd, ağrı, kədər motivi gətirdiyi kimi, şəxsi həyatında da özünü büruzə verirdi.

Bir də şairi «anlamaq dərdi» üzürdü. O, yaşadığı dövrün və zamanın görünməyən tərəflərini görür, çoxlarının anlamadığı həqiqətləri anlayırdı:

Kimi dərdindən içir,
kimi kefindən.
Kimi təzə paltardan qorxur,
kimi kəfəndən.
Isgəndəri soruşdunuz məndən?
Isgəndər içərdi.
Ləqəbi də Kefli Isgəndərdi.
Gecə-gündüz düşündürürdü onu
diri ölülərin dərdi.
Yoxsa o da bir poçt məmuru olar,
nə dərdlənər, nə içərdi.
Ömrü ölülər içində
sakit, səssiz keçərdi.
Qınamayın Iskəndəri!
Yaman olur anlamaq dərdi.

Rəsul Rzanın 1959-cu ildə yazdığı «Bəhlul, Iskəndər və mən» şeirində də eyni ağrı hiss olunur. Tamam başqa dövrdə, başqa ictimai quruluşda meydan sulayan «ölü dirildənlər»ə qarşı acı istehza və yandırıcı tənə öz uğurlu poetik həllini tapmışdır.

Bir sənətkar kimi gündən-günə püxtələşən şair böyük inam və inadla kamillik zirvəsinə qalxır və bu ucalıqda biz onun səsini aydın eşidirik: «Axır günlər məni düşündürür yaman… azadlıq, koloniya, qüvvət, ədalət kimi sözlər».

Rəsul Rzanın şeirlərini tarixi-xronoloji ardıcıllıqla izlədikdə, dəhşətli, həm də sarsıdıcı mənzərələrin şahidi oluruq. O, hər bir şeirilə repressiya qurbanı olmağa, başını edam kötüyünün üstünə qoymağa hazır şair-vətəndaş təsiri bağışlayır. Bu baxımdan yanaşanda, 1962-ci ildə qələmə aldığı «Iki buynuzlu Isgəndər, sirli tütək və dolu ürək haqqında» şeiri xüsusilə diqqəti cəlb edir. Burada zamanın iç üzü tutarlı vasitələrlə açılır:

Deyirlər, çox qədimdə,
bir gün
sirrini quyuya deyib dəllək.
Sirrini deyib ki, partlamasın
sinəsində ürək.
Bir qarğı göyərib qalxıb quyudan.
Bu qarğını kəsib
tütək qayırıb çoban.
Hamı bilir danışmaz qarğı;
quru ola, yaş ola.
Ancaq bu qarğı danışıb.
Səslənib tütək –
Deyib: «Buynuzu var Isgəndərin».
Beləliklə, böyük sərkərdənin
sirri faş olub.
Nə buynuzlu adam görmüşəm,
nə danışan tütək.
Bəs neyləyək,
dolu olanda ürək?!
Bilmirəm, Isgəndərin
buynuzu vardı, yoxdu.
Ancaq, yer üzündə

cavabı müşkül suallar
indi də var,
onda da çox idi.
Yaxşı olmazmı
onları deyək biz.
Isgəndərsiz.
Çobansız.
Quyusuz.
Tütəksiz.

Rəsul Rza poeziyasındakı bu qəmli-minor motivlər onun dünyanın dərdləri, ağrı və acıları ilə nəfəs aldığını açıq-aydın göstərir. Bununla belə, onun gələcəyə olan böyük ümiddən doğan poeziyasında bir nikbin ruh da vardır:

Pəncərəmi açdım sabaha;
gördüm insanlar keçib gedir;
illər üstündən,
aylar üstündən.
Sərhəd direklərindən körpülər salınıb;
dənizlər üstündən,
çaylar üstündən.
Zindan daşlarından yollar çəkilib;
kəndlər arasında,
şəhərlər arasında.
Bu yollardan keçib gedir insanlar;
ağı da,
sarısı da,
qarası da.
Mən də onların içində idim,
siz də,
bu gün inamlı,
sabah ümidli qəlbimizlə.
Çağırdım: ey qardaşlar!

– Qardaş – deyə səsləndi min bir ağız.
Danışdıq, danışdıq, danışdıq
tərcüməsiz, dilmancsız.
Inan bu sabaha
oğlum, gızım,
bacım, qardaşım – Insan!
Atam, anam – Insan!
Yaşamaq olarmı,
inanmasan?

Məncə «Gələcəyə səyahət» adlanan bu şeiri təhlil etməyə heç bir ehtiyac yoxdur.

III. Rəsul Rzanın deyim tərzi. Rəsul Rzanın yaradıcılığında müşahidə etdiyim ən maraqlı cəhətlərdən biri də onun bənzərsiz poetik deyim tərzidir.

Rəsul Rzanın şeirlərində bədii məqsədə xidmət etməyən sözə, ifadəyə, qafiyəyə rast gəlmək mümkün deyildir. Onun obrazlar sistemi son dərəcə rəngarəng və çoxçalarlıdır. Əlbəttə, tədqiqatçılarımız bu xüsusda kifayət qədər yazıblar. Mən isə, dörd misradan ibarət kiçik bir şeiri («Lövhə») nümunə gətirmək istəyirəm:

Günəş qızıl yaylığını dağ başında
saldı, getdi.
Göy sularda şəfəqlənən işığını
çaldı, getdi.
Təbiətdə nəyi vardı, bir qırpımda
aldı, getdi.
Varmı duyan bu həsrəti yer üzündə,
insan kimi ?!

Fəlsəfi lirikanın gözəl nümunələrindən olan bu şeirdə günəşin qüdrəti vəsf olunur.

Rəsul Rza hər bir poetik lövhəni beləcə ustalıqla yaradır. Odur ki, hər bir şeiri oxucuların fikirlərini hərəkətə gətirir,

qəlbində yeni-yeni duyğular oyadır – ilk baxışda bir qədər mübahisəli görünən misraların məna yükü get-gedə açılır. Vaxtilə Nazim Hikmət yazırdı: «Rəsul Rzanın kino sahəsində işləməsi poeziyasına müəyyən təsir göstərib, yaradıcılıq uğurlarına yeni stimul verib…». Ola bilər. Bəlkə də Rəsul Rzanın poeziyasındakı konkretlik, əyanilik, detalların ayrıntılı təsviri elə kino sahəsində işləməsindən irəli gəlir. Əslində, bu əlaqə sezilir – bəzi şeirlərdə məkan təsvirləri sanki kinokameranın çox uca bir nöqtədən, bəlkə də, kosmosdan çəkdiyi mənzərələri xatırladır:

Qanadlarını gərib,
dalğalı Xəzərə qonmaq istəyən
nəhəng bir quş kimi görünür
Azərbaycan.
Bir şahindir,
dimdiyi göy sularda,
qanadları göylərdə.

Rəsul Rzanın «Rənglər» silsiləsi «Üvertüra» ilə açılır. Bu şeiri oxuyanda, istər-istəməz, belə bir qənaətə gəldim: böyük şair çox güman ki, «Rənglər»i bitkin fəlsəfi əsər kimi qəlbində yazıb qurtardıqdan sonra kağıza köçürüb…

Üzeyirin əzəmətli «Üvertüra»sı bütövlükdə «Koroğlu» operasını dərk etmək üçün hansı missiyanı yerinə yetirirsə, bu şeir də «Rənglər»i anlamaq üçün o missiyanı yerinə yetirir – oxucunu sonrakı hisslər, duyğular axınına hazırlayır, onun həyatda görmədiyi rəngləri – hisslərin, duyğuların, bir-birindən uzaq, lakin bir müstəvidə gəlib qərar tutan əşyaların oxşar cəhətlərini yada salır. Filmdə titrlər – kadrlardan əvvəl yazılanlar yardımçı rol oynasa da, şairin «Üvertüra»sı təkcə yardımçı deyil, həyat və insan münasibətləri haqqında bitkin, poetik-fəlsəfi əsərdir. Və əlbəttə, bu əsərin canı-qanı bütün «Rənglər» silsiləsidir. Mən nə üçün «Üvertüra» şeirini yada saldım. Buradakı təzadlar, əks fikirlərin qarşılaşdırılması hər birimizin, yəni insanın daxili mübarizələrinin bədii inikasıdır: şair «Ağ gözümüzü nurdan salar», – deyir və tez də yada salır: «Çiçək-çiçək bəzəyə bilər süfrəmizi də». Şərhə ehtiyac varmı? Vaxtilə Rəsul Rza poeziyasındakı (xüsusilə «Rənglər»dəki) mücərrədlikdən, anlaşılmazlıqdan danışan və onu tənqid edən

tənqidçilər üçün burada qaranlıq olan nə idi? Əlbəttə, bu tənqidçilər, savadsız deyildilər və şeirdən də başları yaxşı çıxırdı. Deməli, bu külək Rəsul Rzanın sənət qüdrətindən – əzəmətindən qorxan siyasi hakimiyyətin zəhmli kabinetlərindən əsirdi. Bəli, həmin 50-ci illərin, daha əvvəlki illərin ab-havası ilə ölkəni idarə etmək istəyənlərin hələ 60-cı illərəcən nəfəsi gedib-gəlirdi. Rəsul Rza da bu acı küləyi, onun amansız və qəti hədəsini öz masasının arxasında olanda da hiss edir, duyur, ancaq geri çəkilmirdi.

Rəsul Rzanın bütün yaradıcılığı daim tənqid hədəfi olmuş, şeirləri, xüsusilə «Rənglər»i həmin hücumlara mətanətlə sinə gərmiş və özünü təsdiq etmişdir. «Üvertüra»nın ölməz misraları nələr demir:

Qırmızı qan da ola bilər,
bahalı üzük qaşı da,
göz yaşı da.
Qara matəm rəmzi də ola bilər,
məhəbbət rəmzi də,
nifrət rəmzi də.
Ağ gözümüzü nurdan sala bilər,
çiçək-çiçək bəzəyə bilər
süfrəmizi də.
Düşündükcə açılır
əlvan səhifələri rənglərin.
Canlanır gözümüzdə rəngi
ömrün, mübarizənin,
qəlbin, nifrətin,
gecənin, səhərin
və insan taleyinin.

Rəsul Rza poeziyası düşüncə poeziyasıdır. Şair israrla deyir: düşün və dərk et!

Insan dünyanın əbədi sakinidir – əgər dünyanı qoruya bilsə, gözəlləşdirə bilsə… Insan dünyanı qorumaqla, taleyini qoruyur. Rəsul Rza poeziyası bizi, bax, buna çağırır!

Rəsul Rza poeziyası talelər poeziyasıdır.

Rəsul Rza poeziyası əbədiyaşar poeziyasıdır.

ÜÇÜNCÜ NƏĞMƏ

«MƏN ÜRƏYƏM – DÖYÜNMƏSƏM, ÖLƏRƏM»

«Yaxşı yadımda deyil, ya 24, ya 25-ci ilin yanvarında Gəncə Sənaye və Ziraət texnikumunda oxuyan uşaqlıq dostum Göyçaya – qış tətilinə gəlmişdi. O, oxuduğu məktəb haqqında maraqlı şeylər danışırdı. Tətildən geri qayıdanda ona qoşulub Gəncəyə getdim. Tələbələr qışın ortasında məktəbə girmək üçün gəldiyimi bilib təəccübləndilər.

Məni təhsil müdirinin yanına apardılar. O, məni dinləyib dedi: «Qəbul vaxtından beş ay keçib». Bu sərt cavabdan sonra danışmağın yeri yox idi. Otaqdan çıxdım. O zaman Gəncə Sənaye və Ziraət texnikumunun müdiri Neman-zadə Ömər Faiq idi. Mən bu adam haqqında çox eşitmişəm. Onun məşhur «Molla Nəsrəddin» jurnalının görkəmli xadimlərindən olduğunu bilirdim.

Aldığım rədd cavabından sonra özümü itirmədim. Oturub məktəb müdiri Ömər Faiqin adına bir ərizə yazdım. Yadımdadır bu ərizə çox sentimental və pafoslu bir dildə yazılmışdı. Burda, «Böyük arzu», «Yeganə ümid», «Millətin səadəti», «Xalq yolunda fədakarlıq» kimi sözlər mümkün qədər bəzəkli və təntənəli bir şəkildə işlədilmişdi.

Ömər Faiq alçaqboylu, göygözlü sərt bir adam idi. Birinci sözü bu oldu: «Bunu özün yazmısan?» Bu sualda nə hədə, nə məhəbbət, nə də ürəkverici bir şey vardı. – Bəli! Çox xahiş edirəm Faiq əfəndi, – dedim. Qarşımdakı sərt, zəhmli üz elə bil ki, yavaş-yavaş əridi və onun yerində yeni mehriban bir sifət əmələ gəldi.

– «Faiq yox, Ömər Faiq», – dedi, gülümsündü. Sonra əlavə etdi:

– Ilin bu vaxtında adam oxumağa gələrmi?

Mən indicə bütün ümidlərimin yıxılıb bərbad olacağını düşündüm. «Faiq Əfəndi, mənim geri yolum yoxdur» – dedim. Ilk təəssürat məni aldatmamışdı. Müdir: «Bu yazıya görə səni məktəbə götürəcəyəm» – dedi. Sonra onun qaşları çatıldı, üzünün ifadəsi bir az sərtləşdi, cingiltili bir səslə əlavə etdi: «Ərizəndəki bəzək-düzəyi, ah-zarı bir yana atsaq, görünür ki, səndə ədəbi istedad var».

Rəsul Rza

Rəsul Rzanın yaradıcılığı, hər şeydən əvvəl, onun duyğular aləmini əks etdirir və bu duyğular aləmi ilə tanış olduqda, biz Vətənimizin əsrarəngiz gözəllikləri, xalqımızın maddi və mənəvi sərvətləri, qəhrəmanlıqla dolu keçmişi, yaşarı adət-ənənələri ilə üz-üzə qalırıq.

Burada Rəsul Rzanı düşündürən – kiçicik bir zərrədən tutmuş böyük qalaktikaya qədər, adi şam işığından tutmuş günəşə qədər… dünyada böyüklü-kiçikli nə varsa – qəlbimizi ehtizaza gətirir. O öz əsərlərində cəmiyyətdəki ictimai-siyasi vəziyyəti, mənəviyyat və əxlaq problemlərini, tarixliyi və müasirliyi poeziya dili ilə gözlərimiz qarşısında canlandırır.

Dahi bəstəkar Qara Qaraev Rəsul Rza yaradıcılığını yüksək qiymətləndirərək yazırdı: «O yorulmadan və inadla daim yeniləşən poetik məzmunun yeni formalarını axtarır. Dünən onun inkişafı üçün stimul olan hər hansı bir fakt bu gün artıq keçmiş sayılır. Rəsul Rza elə sənətkarlardandır ki, onun yaradıcılığının qocalmaq və ya kasıblaşmaq qorxusu yoxdur. Əksinə, o, daim zənginləşir və dünən nail olduğuna bugün müdriklik, təmkin, müasir hadisələri düzgün qiymətləndirmək bacarığı əlavə olunur».

Rəsul Rza bütün yaradıcılığı boyu yeniliyə meyil etmişdir.

Bu gün onun yaradıcılığına küll halında nəzər salanda, istər-istəməz, heyrətlənirsən:

Bir səs deyir:

Rza, durma!

Rza, yaz!
Qarşı gündən gülümsəyən
yaraşıqlı yaza, yaz!

30-cu illər… Mehdi Hüseyn yazırdı ki, bu günki şeirimizin ən görkəmli nümayəndələrindən olan Səməd Vurğunun, Suleyman Rüstəmin və Rəsul Rzanın şeir yaradıcılığında sağlam bir məfkurə ilə qarşılaşırıq və Rəsul Rzanı bu müasirlərindən fərqləndirən bir cəhət var: gənc şair fikrindəki kəskinliyi bədii dəyəri qüvvətləndirmək yolu ilə artırır.

30-cu illərdə Rəsul Rza gənc idi, ədəbiyyat meydanına yenicə atılmışdı və yaxşı bilirdi ki, poeziya ən yaxşı mübarizə vasitəsidir. Onun gözləri qarşısında həyat daim dəyişirdi, sovet ideologiyası özünü yaşatmaq üçün hər bir zorakılığa, hətta, yeri gəldikdə, terrora da əl atırdı, Cavidləri, Müşfiqləri, Əhməd Cavadları gedər-gəlməzə göndərirdi. O dövrdə Azərbaycan xalqının ən yaxşı ziyalılarını hədəf almış bu gilyotini durdurmaq mümkün idimi? Əlbəttə, yox. Ona görə də, Rəsul Rza bu mənfur irticaya qarşı yalnız öz şeirləri ilə mübarizə aparırdı. Onun şeirlərində Azərbaycana yabançı olan ideologiyaya, yad təfəkkür tərzinə qarşı güclü ironiya, nifrət açıq-aşkar hiss olunurdu. 30-cu illərdə yazdığı «Çapey» şeirində hadisələr Çində və başqa ölkələrdə təsvir olunsa da, əslində, şair, yaşadığı məmləkətə, orada baş verən olaylara işarə edirdi:

Maraqlı havası var
Şanxayda küçələrin.
Bir yan bürkü,
bir yan sərin…
Xumar gözlü
gecələri,
qayğı bilməz gündüzləri,
nəşə dolu səhərləri…
Bir tərəfdə
çörək dərdi,
işıq dərdi,
can dərdi,

övlad dərdi, haqsız axan
qan dərdi.

Bəli, Rəsul Rza yuxarıda dediyimiz kimi, öz yaradıcılığında sətiraltı mənalara nə qədər meyil etsə də, 30-cu illərdə proletar ədəbiyyatının yaranmasında mühüm rol oynamışdır (Bu sözü eyni dərəcədə S.Vurğun, M.Müşfiq, S.Rustəm, M.Rahim, O.Sarıvəlli haqqında da söyləmək olar.) – bu, zamanın hökmü və tələbi idi (bu haqda daha geniş – ayrıca bir məqalədə də söhbət açacayıq). Lakin Rəsul Rza nə yazırsa-yazsın, bütün yaradıcılığı boyu bir amala – Vətəninə və xalqına sadiq olmuşdur.

Şairin 1943-cü ildə qələmə aldığı «Hilal» poemasını xatırlayaq. Kimsə söyləyə bilər ki, R.Rzanın bu poemadan qat-qat güclü əsərləri var, lakin unutmayaq ki, həmin poema kommunist rejiminin ən çox tüğyan etdiyi bir dövrdə yazılmışdır. Burada Məmməd Əmin Rəsulzadənin – «Bir kərə yüksələn bayraq bir daha enməz» kəlamını xatırlamamaq olmur. Əsərin qəhrəmanı – Hilal başdan-ayağa Azərbaycan ruhunda böyümüş bir kənd müəllimidir. Lakin o öz sadə peşəsinə sığınıb qalmamış, xalqının azadlığı uğrunda mübarizəyə qoşulmuşdur. Iran irticası bu mübarizəsinə görə Hilalı zindana saldırır və edam etdirir. Poemada Hilalın anası ilə valinin görüşü çox ibrətli bir səhnədir:

Vali buyurdu ki, qəm yeməsin çox.
Qədər yazdığına bilsin çarə yox.
Əgər itirdisə oğlu Hilalı,
Qoy salsın başına bu qara şalı.
Hamı donub qaldı heyrət içində,
Bir həyəcan içində, dəhşət içində.
Bir qara daş kimi dayanıb ana
Baxdı uzun-uzun rəzil insana.
Dedi:
– Apar geri, aldanır vali.
Elə qurban verdim oğlum Hilalı.
O çalışdı, atsın bir gün üstündən
Qara örtüyünü bu yazıq Vətən.

Təziyə saxlamaz məntək analar,
Mənim hələ saysız oğullarım var!
Onun ulduz qədər dostları sağdır.
Qəlbimin yarası sağalacaqdır.
Yaxındır onunla vüsalım mənim.
Bir gün bədr olacaq Hilalım mənim.

Ana yumdu gözlərini
onu xəyal apardı, bax.
O qaranlıq dünyalara
nur töküldü qucaq-qucaq.
Üfüqlərdə bayraq kimi
baş qaldırdı qızıl səhər.
Hilal gəldi, qara gözlü,
alnı açıq, üzü gülər.
Əlindəki bayraq axır
dalğa-dalğa, alov kimi.
Öpür o mərd simasını
bu səhərin xoş nəsimi.
Hilal gəldi, arxasınca
ulduz qədər yeni insan.
Hər tərəfdən səs ucaldı:
– Yaşa, azad Azərbaycan!…

***

Rəsul Rzanın poeziyasında real həyat bütün əlvanlığı ilə öz əksini tapmışdır. O, oxucunu inandırır ki, həyatda müşahidə olunan, gözə görünən nə varsa, şeir mövzusu ola bilər. Hətta gözə görünməyən, müşahidə olunmayan, lakin təsəvvür edilən nəsnələr də poetik məna kəsb edə bilər.

Rəsul Rza modern şairdir. Onun özünəməxsus fərdi üslubu, yazı manerası var və çox vaxt üzdəniraq tənqidçiləriniz bunu ənənəvi şeirimizlə uyuşmayan, yabançı meyil kimi qiymətləndirməyə çalışıblar. Rəsul Rza belələrinə cavab olaraq

«Tənqidiniz haqqında bəzi qeydlər» məqaləsində yazır: «Tənqidimizdən biz nə istəyirik və nə gözləyirik?

Belə bir hekayəcik vardır: bir dəfə korları filin yanına gətirdilər. Korlar filin yanından çıxdıqdan sonra onlardan soruşdular, fil necə şeydir? Korlardan biri dedi ki, fil dirək kimi şeydir, çünki bu kor əlini filin ayağına vurmuşdu. O birisindən soruşdular, dedi ki, fil süpürgə kimi bir şeydir, çünki onun əlinə filin quyruğu keçmişdi, üçüncü dedi ki, fil palaz kimi şeydir. Bu da filin qulağına toxunmuşdu.

Çox zaman tənqidimiz ədəbi əsər haqqında belə mülahizə yürüdür. Ya əsərin axır səhifəsini oxuyur, ya bir sətrindən yapışır. Odur ki, soruşduqda filankəsin əsəri nə cürdür, deyir ki, palaz kimidir. Bunun əsəri nə cürdür, cavab verir, dirək kimidir. O birisinki, süpürgə kimidir. Bu nədən doğur? Bu ondan doğur ki, bədii əsərin bütünlüyü bir tərəfə buraxılır, onun ayrı-ayrı hissələri əsasında ümumi nəticə çıxarılır. Tənqidçilərimizin əksəriyyətində məhəbbət və həqiqi nifrət yoxdur. Həqiqi məhəbbət olsa, tənqidçilər birinci növbədə haqqında mülahizə yürütdüyü əsərin bütün mahiyyətini öyrənər, onu hərtərəfli tədqiq edər, sonra bu əsər haqqında fikir söyləyərlər. Mən deyirəm, yoldaş tənqidçi, bir şeir haqqında öz fikrini deməzdən əvvəl, zəhmət çək o şeiri hərtərəfli öyrən, onun forma xüsusiyyətlərinə diqqət yetir, düşünmə ki, bədii bir əsərdə sənin hər zaman qurdalayıb axtardığın «ideya»dan başqa bir şey yoxdur. Bədii əsər bir sıra ünsürdən ibarətdir, heç bir zaman bunların birini götürüb hamısı haqqında hökm vermək olmaz.

Tənqidimizin çatışmayan mühüm bir cəhəti də yaradıcı tənqidin az olmasıdır. Biz yazıçıdan yaradıcılıq, yeni söz tələb edirik. Zəhmət çəkin siz də, tənqidçi yoldaşlar, yaradın, yeni söz deyin, elə tənqid məqalələri yazın ki, biz beş gün sonra, bir il sonra onları yadımıza salaq, elə tənqid məqalələri yazın ki, biz onlardan öyrənək. Əsər haqqında ümumi sözlər deməklə, hamının dəfələrlə oxuduğu, əzbər bildiyi sitatları təkrar-təkrar bizə oxumaqla heç bir nəticə əldə edilə bilməz.

Tənqid iki cür olur. Mən «olmalıdır» demirəm. Təəssüf ki, «olur» deyirəm. Bunlardan biri, sadə dildə desək, düzünəqulu tənqiddir. Yəni açıq-aydın, əmmasız. O birisi rəviyəçi tənqiddir. Yəni sözün bazarına baxan, yazdığı məqalədən şəxsi mənfəət gözləyən, sözlərini, fikirlərini dolayısı ilə deyən tənqiddir. Belə tənqid ötüb keçəcək. Nə qədər müvəqqəti müvəffəqiyyət

qazansa da, beş gün, üç gün yaşaya bilsə də, yenə ölüb gedəcəkdir. Ədəbi tariximizin yaradılışına kömək eləyən və bizim şəraitin məntiqi inkişafına uyğun olan, həqiqətən onun maraqlarını əks etdirən birinci tənqid düzünəqulu tənqiddir».

Rəsul Rzanın modern şeir yaradıcılığı təpədən dırnağa milli ruhdadır, sadəcə olaraq, ifadə tərzi və deyimləri ilə, daha çox forma axtarışları ilə yenidir…

Rəsul Rzanın «Rənglər» silsiləsi Azərbaycan modern şeirinin ən uğurlu nümunəsi kimi diqqəti cəlb edir. Doğrudur, bu şeirlər çap olunanda, həm ədəbi ictimaiyyət, həm oxucular tərəfindən birmənalı qarşılanmadı. Lakin zaman keçdikcə, bu anlaşılmazlıq aradan qalxdı, məlum oldu ki, «Rənglər», heç də, bəzilərinin düşündüyü kimi, krossvord, tapmaca deyil, sadəcə olaraq, dünyanı yeni poetik tərzdə qavramağın, dərk etməyin bir nümunəsidir. Tənqidçi Vaqif Yusifli Rəsul Rzaya həsr etdiyi bir məqaləsində «Rənglər»ə belə qiymət verir: «Rənglər»i başdan-ayağa oxuduqda, hər bir rəngin nəyəsə bənzədiyini və bu bənzəyişlə ayrı-ayrı hadisələr arasında eyniyyəti kəşf edirsən». (V.Yusifli. «Tənqid də yaradıcılıqdır». Bakı, 2003, səh.97)

Rəsul Rza «Rənglər» silsiləsində «Ağ işığ»ı belə görür:

Yuxulu körpənin təbəssümü.
Ümid.
Təmənnasız yaxşılıq.
«Sizdə xərçəng yoxdur!»
sözlərinin deyildiyi dəqiqə .
Insan səadətinə səbəb olan
hər şey…
Hətta,
təsəlli üçün deyilmiş yalan,
bir də
insan ülfəti.

Diqqət yetirsək, görərik ki, burada hər bir misra digəri ilə sıx bağlıdır. Və bütün bunlar gözlərimizin önündə ağ işıq mənzərəsi yaradır. Ağ işıq – sevincdir, xoş xəbərdir, yaxşılıqdır, gözəllikdir.

Rəsul Rza poeziyasının tədqiqatçılarından Gülrux Əlibəyli yazır ki, bu cür şeirlər bütöv bir insan varlığının tablosunu yaradan rəssamın əl işinə oxşayır. Qətiyyətlə demək olar ki, Azərbaycan poeziyasında «Rənglər» silsiləsi rənglərin fəlsəfəsini yaradan ilk poetik traktatdır.

***

Indi söz azadlığı var – ürəyindən keçənləri kağıza köçürmək, istədiyin kimi yazmaq problem deyil. Ancaq iyirminci yüzilin son 70 ili ərzində sosializm realizminin sərt məngənəsində çırpınaraq həqiqəti söyləmək çox çətin olub. Bu baxımdan yanaşanda, görərik ki, Rəsul Rza öz əsərlərini bəzilərinin düşündüyü kimi, o qədər də asan yazmayıb:

Ömrü – bir növ, dolaşıq nağıl.
Günləri: isaq-musaq.
Babamın adı-sanı
bir anket dolusu.
Çoxu – yox.
Azı – hə.
Inqilabi fəaliyyət – yox!
Fəhləlik – yox.
Qoyun otarmayıb.
Varlı, vaxtına görə – hə.
Simsarlı, havadarlı – hə!
Xaricdə qohumu-həm hə, həm yox.
Qırx il görmədik, yazışmadıq,
Hardan qohum olduq?
Oktyabrda – iştirak etməyib.
Nikolaya soldat – getməyib.
Diqqətlə yoxlayan olsaydı
bu «hə»ləri, «yox»ları
Xan Məmməddən
Culfa Rzaya qədər,
acları, toxları;

yəqin dərkənar qoyardı anketimə:
qoy oxusun, qoy işləsin!
Mane olmayın yetimə!
Ancaq işləmək üçün
Həmkarlar üzvü olmaq gərəkdir.
Üzv olmaq üçün işləmək.
Indi qoçaqsan gəl,
əsrin bu düyününü aç görək.

Zaman keçdikcə, Rəsul Rza ədəbi məktəbi təşəkkül tapırdı. Xüsusilə, gənclər – onları 60-cılar da adlandırırdılar – Əli Kərim, Fikrət Qoca, Fikrət Sadıq, Isa Ismayılzadə, Ələkbər Salahzadə bu məktəbin davamçıları sayılırdılar.

Yeri gəlmişkən qeyd edək ki, bu gün də ədəbyyata gələn istedadlı gənclərin bir çoxu sərbəst vəzndə yazıb yaratmağa üstünlük verir…

Rəsul Rza poeziyası hərəkətdə olan poeziyadır və sanki oxucusu ilə birgə doğulur. Oxucusu ilə birgə yaşayır. Fəqət, həyat səhnəsindən oxucusu ilə birgə çəkilib getmir. Bu poeziyada ifadə olunan fikirlər yeni nəsilləri gözləyir:

Mən insanam,
sadə insan əlinin
yaratdığı nemətlərlə öyünməsəm,
ölərəm.
Mən işığam-qaranlığın qənimi.
Mən insanam,
daşıyıram qəlbimdə
dünyaların sevincini, qəmini.
Maraq dolu gözəm mən,
baxmaya bilmərəm .
Qarlı dağdan süzülən çayam mən,
axmaya bilmərəm.
Mən insanam,
vətənim var, elim var

Ən böyük həqiqəti,
azadlığı, məhəbbəti, nifrəti –
söyləməyə qadir olan
dilim var.
Mən bir qranitəm ki,
hər parçamda duyulur
bərkliyim,
döyüşlərdə sərtliyim,
ülfətdə kövrəkliyim.
Mən insanam, ülfətsiz –
ölərəm.
Məhəbbətsiz, nifrətsiz ölərəm.
Mən bulağam,
tapşırıqla axmaram.
Mən həyatam –
həmişə yoldayam;
nəfəsdəyəm, arzudayam,
baxışdayam, ürəkdəyəm, qoldayam.
Mən toprağam, nemətimi, varımı
zəhmət sevən insanlarla bölərəm.
Mən ürəyəm, döyünməsəm –
Ölərəm!

DÖRDÜNCÜ NƏĞMƏ

ƏNƏNƏYƏ BAĞLI VƏ ƏNƏNƏ YARADAN ŞAIR

«Mən 1924-cü ildən, yəni 14 yaşımdan işləməyə başlamışam. Birinci işim Göyçay şəhər kitabxanasının müdirliyi olmuşdur. Sonra həmkarlar ittifaqında, şəhər klubunun gənclər bölməsində işləmişəm. Ilini dəqiq deyə

bilmərəm, təxminən 25-26-cı illərdə Bakıdan gəlmiş institut tələbəsi şəhər klubunda ədəbi mövzuda bir məruzə elədi. O zamanlar məktəblərdə Azərbaycan ədəbiyyatı demək olar ki, keçilmirdi. Füzuli, Sabir, Məmmədquluzadə xalq arasında məşhur idilər. Lakin ədəbiyyat dərslərində Azərbaycan söz sənətinin fəxri olan bu adamlara ya çox az yer verir, ya da heç vermirdilər. Demək olar ki, bütün ədəbiyyat proqramı Türkiyə şair və ədiblərinə həsr edilirdi. Bu yazıçılar arasında Hamid, Tofiq Fikrət kimi görkəmli sənətkarlar olduğu kimi, ikinci, üçüncü dərəcəliləri də vardı.

Bəli, həmin Bakıdan gəlmiş tələbə, görünür, belə bir ədəbi tədris praktikasının təsiri altında Sabirin şairliyini inkar edib, onun şeirlərinin estetik bir qiymətə malik olmadığını sübut etməyə çalışırdı. Bu sözləri eşidəndə mənə elə gəldi ki, şəxsən məni təhqir etdilər. Söz alıb ədəbi dəlil və sübutdan daha artıq ürəyimi doldurmuş qəzəb hissinin gücü ilə bu nankor vətəndaşa etiraz etdim.

Sabir bizim evdə və məktəbdəki yoldaşlarım arasında ən çox sevilən bir şair idi. Mən indi də Sabirin onlarla şeirini, bütün bəhr-təvillərini əzbər bilirəm. Ali məktəb tələbəsi, görünür, belə bir əks hücum gözləmirdi. Mənə elə gəlir ki, onun kağızdan oxuduğu mühazirə də öz fikir və mülahizələrinin məhsulu deyildi. Mən Sabirin bir neçə şeirindən misal gətirib, öz bildiyim kimi, lakin gənclərə məxsus bir hərarətlə təhlil edəndən sonra zala toplaşmış adamların da Sabirə məhəbbətini görüb (adamlar gah əl çalır, gah «doğrudur» – deyirdilər. Bunu da desəm pis olmaz, zaldakıların əksəriyyəti bizim məktəbin uşaqları idi) tələbə nə isə

mızıldadı və nəhayət, «Niyə, Sabir də şairdir» – dedi».

Rəsul Rza

Rəsul Rza yaradıcılığının mükəmməl bir ədəbi məktəb olduğu bu gün hamı tərəfindən qeydsiz-şərtsiz qəbul olunur.

Bu qüdrətli söz ustasının poeziyası ilə bağlı iki məqam üzərində xüsusi dayanmaq istəyirəm.

Birincisi, ədəbiyyatımızda novator şair kimi tanınan Rəsul Rza heç bir zaman klassik ənənələrimizə arxa çevirməmiş, əksinə, bəlkə də, şifahi xalq ədəbiyyatımıza, xüsusilə «Kitabi-Dədə Qorqud» dastanının, eləcə də, Nizaminin, Füzulinin, Nəsiminin poetik ruhuna başqalarından daha çox sadiq qalmış, yeri gəldikdə, ədəbi irsimizin əsl müdafiəçisinə çevrilmişdir. Doğrudur, Rəsul Rza sxolastik şeir formalarına qarşı çıxmışdır, yeni səpkidə yazıb-yaratmışdır. Amma o, Azərbaycan ədəbiyyatının yaşarı ənənələrini davam etdirməyi yaşıdlarına və özündən sonra gələnlərə dönə-dönə tövsiyə etmişdir. Tərcümeyi-hal xarakterli «Poeziya zəhmət və ilhamdır» adlı məqaləsində Rəsul Rza ənənə və novatorluq məsələsini belə izah edir: «Mən inanırdım ki, xalq və klassik poeziyamızdan istifadə edərək – əlbəttə, onu təkrar etməmək şərtilə – irəli getmək lazımdır. Axı, klassik formalar konkret tarixi şəraitdə intişar etmişdir. Poeziyanın dilini isə xalq yaradır, inkişaf etdirir və zənginləşdirir. Xalqın yaradıcılıq dühası yaşayır, yeni forma, yeni söz ehtiyacı həyatın öz tələbidir. Yeri gəlmişkən onu da deyim ki, bəzi tənqidçilərin təkidlə dediklərinin əleyhinə olaraq, Azərbaycan poeziyasının yeni formaları hardansa – kənardan gəlməyib, yazılı və şifahi xalq ədəbiyyatının zəngin, tükənməz mənbələrindən qaynayıb qalxmışdır». (R.Rza. Duyğuların izi ilə, Bakı, «Yazıçı»; 1990, səh.14).

Rəsul Rza burada yeni forma və yeni söz ehtiyacını həyatın və zamanın tələbi hesab edir, ancaq onu da qeyd edək ki, bu yeni formalara kənardangəlmə kimi baxmırdı.

Rəsul Rzanın ən çox sevdiyi şair Mirzə Ələkbər Sabir olmuşdur desək, yanılmarıq. O bir məqaləsində yazır: «Mənim ilk əsərlərimə ən dərin təsiri bizim milli ədəbiyyatımız və ilk növbədə, Sabir yaradıcılığı göstərmişdir. Bu da təbiidir.

Sabiri çox sevirəm. Bəlkə də «sevirəm» sözü, hər dəfə bu əziz adı çəkdiyim zaman duyduğum həyəcanı ifadə edə bilmir. Sabir bütün ömrü boyu mənim müəllimim və dostum olmuşdur. Bu ad qəlbimdə xalqım üçün bir iftixar hissi oyadır. Onun şeirlərində elə cəsarət, elə mətanət, elə kədər, elə ağrı, elə təsir gücü var ki, bəzən heyrət edirsən, belə bir şair ucqar bir şəhərdə, böyük bir ailə qayğısı altında, gecə-gündüz işləməyə, sabun bişirməyə məcbur olmuşdur».

Əlbəttə, Rəsul Rzanın bir şair kimi formalaşmasında Sabirin, həmçinin, klassik poeziyamızın çox mühüm rolu olmuşdur və bu təbiidir. Sabirin şeirlərində olduğu kimi, Rəsul Rzanın şeirlərində də «çeşid-çeşid insanlar» tənqid və ironiya hədəfinə çevrilir. Məsələn, «Damğa» şeirində Rüşvətxor Binamusoviçə yazılmış açıq məktubda oxuyuruq:

Yəni sən də kişisən!
Gözünə girsin, o maaş!
Bilirsənmi ən layiqli adın
nədir sənin?!
Aşın müqəyyəd qafiyəsi!
Anladınmı?!
Qulaq as!
Dara-bara salma!
Sus!
Rüşvət puluna külfət saxlayan
dəyyus!

Rəsul Rza rüşvətxorlarla mübarizəsini başqa bir şeirində də davam etdirir. Elə Sabir üslubunda yazdığı («Ah, necə kef çəkməli əyyam idi») «Rüşvətxorlar mərsiyəsi»ndə bu yaramaz ünsürləri qamçılayır:

Rüşvət alırdıq azı-az, çoxu-çox,
Puldu, qızıldı, ya da şey, fərqi yox.
Əmr eləyirdik cibi tox, qarnı tox,
Indi nədir? Qoyma-haray, qorxhaqorx,
Xalqa ağır gün, bizə bayram idi.

«Ax, necə kef çəkməli əyyam idi».

Modern şeirin ən gözəl nümunələrini yaradan Rəsul Rza Sabirə bir çox nəzirələr yazmışdır. Təbii ki, hər bir nəzirədə orijinaldakı forma saxlanılır və Rəsul Rza da buna dəqiq əməl etmişdir. Sabirin «Qorxuram» rədifli satirasında XX əsrin əvvəlləri Azərbaycan həyatı, məişəti, mövhumat-xurafat, cəmiyyətin mənəvi inkişafına zidd olan neqativ hallar tənqid edilir. Rəsul Rzanın «Qorxuram» satirasında isə indiki dövrün – bugünkü həyatın mənfiliklərindən bəhs olunur. Və hiss edirsən ki, R.Rza sabiranə ruhu – o kəskinliyi, mənfiliklərə tənqidi münasibəti qoruyub saxlaya bilmişdir:

Taksi maşınla çıxıram yollara,
şoferi lülxan görürəm, qorxmuram.

Gah zooparkda gəzirəm səllimi,
hər cürə heyvan görürəm, qorxmuram.

Modaya vurğun bala meymunları
az qala üryan görürəm, qorxmuram.

Tənqidə düşmüş neçə gənc şairi,
«qanına qəltan» görürəm, qorxmuram.

Bağda, ya plyajda papaq – yan gəzən
təptəzə xuliqan görürəm, qorxmuram.

Şanısı, əncirləri səf-səf duran
bağları viran görürəm, qorxmuram.

Sözləri əzbər, quru natiqləri
Kürsüyə qalxan görürəm, qorxmuram.

Böylə şücaətlə, sözün doğrusu,

neyləyim…
Qoy olanı söyləyim:
Yerlipərəstlikdə hünər göstərən
Arxalı nadan görürəm, qorxuram.

Bisəbəb qorxmuram, vəchi var –
Fikrini qan-qan görürəm, qorxuram.
Dəyməsələr onlara, mikrob kimi
günbəgün artan görürəm, qorxuram,
qorxuram, qorxuram, qorxuram…

Beləliklə, Rəsul Rza bəzilərinin düşündüyü kimi, heç də klassik ənənəyə xor baxmamışdır, əksinə, o ənənələri sevmiş və yeri gəldikcə, onlardan yaradıcı şəkildə bəhrələnmişdir. Rəsul Rza satirasında tənqid güllələri düz hədəfə dəyir – yaxıb-yandırır, sovet dövrünün eybəcərliklərini açıq-aşkar açıb göstərir. Bu satirik şeirlərin «qəhrəmanları» bizə yaxşı tanışdır: yaltaqlar, rüşvətxorlar, yerlipərəstlər, iclasbazlar, milli simasını itirmişlər.

Rəsul Rzanın Azərbaycanın qüdrətli sənətkarları – Füzuli, Nəsimi, Mirzə Fətəli Axundov, Sabir, Hüseyn Cavid, Cəfər Cabbarlı haqqında ayrıca məqalələri də vardır. Bu məqalələrdə də biz şairin ədəbi ənənələrə necə hörmət və məhəbbətlə yanaşdığının şahidi oluruq. Məsələn, o, dahi şairimiz Füzuli haqqında çox böyük heyranlıqla söz açır: «Mən hər zaman Füzulini oxuyarkən onun illərdən bəri hafizəmizdə qalmış qəzəllərini, «Leyli və Məcnun»un bir çox hissələrini öz-özümə təkrar edərkən düşünürdüm – necə olur ki, vətənindən, elindən uzaq düşmüş, tam cocuqluq illərindən qürbətdə ömür sürməyə məcbur olmuş bir adam, ana dilində belə kamil şeirlər yazmışdır? O, Azərbaycan xalqına məxsus olan bir sıra ifadə, obraz, təşbeh üçün mayanı haradan almışdır? Onun şeirlərinin, dövrünə görə, son dərəcə kamil, sadə və anlaşıqlı dili – Azərbaycan dili haradan qidalanmışdır?».

Bu sualara Rəsul Rza çox aydın və səlis cavablar vermişdir.

Rəsul Rza ənənələri sevmiş, lakin onlara heç vaxt ehkam kimi yanaşmamışdır.

O, hesab edirdi ki, ənənə yaratmaq yalnız keçmişdə yaşayanların müstəsna haqları deyildir: «Nə üçün bizim

keçmişdən qat-qat maraqlı və zəngin olan həyatımız yeni ənənələr yarada bilməz və yaxud yaratmamalıdır?».

Deməli, ədəbiyyatda yeni ənənələr yaratmaq mümkündür və Rəsul Rza öz poeziyası ilə bunu sübut etdi – ədəbi məktəb yaratdı.

***

Ənənəvi Azərbaycan poeziyasının min ildən də çox yaşı vardır. Elə bu günlərdə «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyini qeyd etdik. Doğrudur, ədəbiyyatşünasların dedikləri bir fikirlə mən də şərikəm: Rəsul Rza poeziyası modern poeziyadır, formaca, üslubca təzədir, ədəbi kəşf təsiri bağışlayır. Ancaq mənə elə gəlir ki, bu ədəbi kəşflər, əslində, kainat qədər böyük olan Azərbaycan ədəbiyyatında elə var idi. Və Rəsul Rza həmin kəşfləri – bizi heyrətə gətirən kəşfləri yeni bir ruhla canlandırdı, bununla da, bizim mənəvi dunyamızda böyük bir iz buraxdı. Bəli bu kəşflər yeni forma və üslubda Azərbaycan ədəbiyyatının halal ənənələri üzərində bərqərar olub. «Kitabi-Dədə Qorqud» dastanının bəzi hissələrini yada salaq:

Bəri gəlgil, başım baxtı, evim taxtı.
Evdən çıxıb yürüyəndə səlvi boylum!
Topuğuna sarmaşanda qara saçın!
Qurulu yaya bənzər çatmaqaşlım!
Qoşa badam sığmayan dar ağızlım!
Küz almasına bənzər al yanaqlım!
Qadınım, dirəyim, döləyim!

Bu poeziyanın ənənələri ədəbiyyatımızda əsrlər boyu yaşamış və XX əsrdə ustad Rəsul Rza nəfəsi ilə yenidən canlanmışdır.

Rəsul Rza poeziyasındakı dərinliyin, fikir zənginliyinin bir səbəbi də onun formadan çox məna, məzmun dərinliyinə varması olmuşdur. Şair mənanı axtarmağı üçüncü gözün ixtiyarına buraxır. Biz isə bunu fikrin gözü adlandırırıq. Rəsul Rzanın belə bir şeiri də var: «Üçüncü göz».

Hərənin iki gözü var;
birini çıxarmayıbsa
bıçaq, daş, ya güllə.
Hərənin iki gözü var.
Onunku üç idi.
Ikisi üzündə,
sənin kimi,
mənim kimi –
biri könlündə.
Iki gözü ilə dünyaya baxar,
biri ilə gülər, ağlayar.
Belə bir dostum vardı.
Bir söz:
hamıya gərəkdir
üçüncü göz!

Rəsul Rzada adicə bir sözdən yapışıb, dünyanın qlobal problemini ifadə etmək bacarığı vardır. Məsələn, o, siqaretlərin adını çəkir: «Bal arısı, Filter, Nizami»; papiroslar: «Azərbaycan, Yubiley, Bakı». Sonra da bəzəkli, irili-xırdalı kibritləri, modabazlara göz dağı olan alışqanı yada salır. Və heç papiros çəkən olmadığını söyləyir. Həm də bütün bunları «nikotinli can yanğıları» adlandırır. Elə bu «can yanğıları» ifadəsi də şeiri tamamlamaq olardı. Ancaq R.Rza təffəkkürü bununla kifayətlənmir:

…Görəsən nə çəkirmiş,
döyüş qabağı,
qoşunlar.
Nə çəkirmiş sərkərdələr,
Fironlar!

R.Rza şeirlərində nəhayətsiz bir mövzu genişliyi vardır. Bir şair kimi onun böyüklüyü bundadır ki, toxunduğu mövzunu yaralamır. El arasında deyildiyi kimi, ürəyinin başına sancılmış

tikanı ta çəkib çıxardana kimi həmin mətləbi çözələyir, ona fəlsəfi ruh verir və ən ümdəsi, onu müzakirə obyektinə çevirir.

Rəsul Rza poeziyasında bir məqamı xüsusilə şərh etməyə ehtiyac vardır. Adama elə gəlir ki, bu qüdrətli sənətkarın yazmadığı, yüksək poetik səviyyəyə qaldırmadığı mövzu yoxdur. Onun şeirlərini oxuyan hər bir sənət əhlinin əlinə qələm alması, sözün həqiqi mənasında, böyük cəsarət tələb edir. Doğrudan da, əgər yazdığın mövzunu səndən əvvəl daha yüksək səviyyədə işləyiblərsə, daha orijinal, daha dolğun şəkildə təqdim edə biliblərsə, sənin yazmağına ehtiyac varmı? Bu sual yəqin ki, mənim kimi, hər bir yazı-pozu adamını düşündürür…

Söz yox ki, həyat bitməz-tükənməz mövzu qaynağıdır və bu mövzuları həyat heç bir qələm sahibindən əsirgəmir. Təki görmək üçün üçüncü göz olsun…

Xalqımız, tariximiz, eləcə də ədəbiyyatımız üçün son dərəcə əhəmiyyətli olan bir mövzu üzərində də xüsusi dayanmaq istəyirəm. Bu – cənub mövzusudur.

Rəsul Rza cənub mövzusuna öz poetik prizmasından yanaşmışdır. Mən «Təbrizim mənim», «Ərk Qalası» şeirlərini oxuyanda, Dədə Qorqud qəhrəmanlarının qopuz çalıb yağmalanmış yurd yerlərinə söylədiyi ağıları xatırlayıram. Həmin şeirlər Dədə Qorqud qəhrəmanlarının bozlamalarına çox bənzəyir:

Laylası məhzun.
Nəğməsi məhzun.
Həsrəti ömründən uzun.
Karvandan üzülmüş ağ dəvəsi.
Gözlərində böyük ümidin uzaq töhfəsi,
Neçə evinin küçə divarı kor.
Dodaqları quru,
bulaqları gur.
Arzularında qançır, qamçı.
Kədəri axın-axın,
sevinci damcı-damcı.
Bəzən günləri qanlı yuxu kimi,

bəzən həsrətli yuxuları gerçək olmuş.

Neçə dəfə sevincək olmuş.
Balaları sərgərdan.
Gəlinləri nigaran.
Qurtuluş yolları:
məhbəs, dar ağacı, gülləbaran.
Dan yeri qan boyalı.
Ümidindən, arzusundan dönməyən.
Ocağında – ürəyində odu sönməyən.
Səhəri uzun əsrlərin yolunda yubanan.
Qardaşına həsrət, bacısına həsrət.
Bayatıları – qədim məhəbbət.
Qoynu gah aydın havalı,
gah çənli, dumanlı.
Qəlbi gümanlı.
Taleyi böhranlı.
Özü bababir, nənəbir
adət-ənənə bir –
doğma qardaşım.
Pasportda oyanlı.
Arzulayanda əlim çatmayan.
Ağrısı, göynəyi qəlbimdə
gecə-gündüz yatmayan.
Dağları dağlarıma bənzər,
bağları bağlarıma.
Ana sözü kimi
əziz olan adı – dodaqlarıma.

Köhnəm, təzəm, uzağım, yaxınım.
Ən gözəl şeirim,
yanıqlı mahnım.
Mənsizim!
Təbrizim!

Mən əvvəlcə bu şeirin adını çəkmək, sonra ondakı ağrı haqqında danışmaq istədim. Təkcə bu ağrını və əlbəttə, bütün azərbaycanlılara doğma olan, hamımızın dərdi olan bu ağrını qələmə alan şairin ən sərt misralarını həmin şeirdən qoparıb oxuculara təqdim eləmək istədim. Istədim ki, elə bu məqamda həssas oxucu məni başa düşsün. Bu şeirin bütün misraları ancaq Rəsul Rza qələminə xas olan deyim tərzini ifadə edir.

Tərəddüdsüz demək olar ki, Rəsul Rza poeziyası XX əsr dünya ədəbiyyatının ən nadir incilərindəndir. Onun «üçüncü gözü» bu poeziyanın sarayını tarixi ənənələr üzərində qurmuşdur. Indi isə «Ərk qalası» şeirinə diqqət yetirək:

Vuruşdular:
son gülləyə,
son süngüyə,
son qundağa qədər.
Vuruşdular:
hər şey qırmızı geydi,
daşdan torpağa qədər.
Vuruşdular:
alt dodaqdan üst dodağa qalxa bilməyən
səsə qədər.
Vuruşdular:
onlardan yeddi dəfə, yetmiş qat
artıq olan,
süngüləri narın daraq dişi kimi
sıx olan düşmənlə.
Yaralılar ufuldamadı.
Can verənlər inləmədi.
Susuzlar – yandım! – demədi.
Öpdü qurumuş dodaqları
qan hopmuş torpağı.
Yaralarına basdılar:
qan rəngli bayrağı.
Nə düşmən onlardan

bir aman sözü ala bildi,
nə bu ölümü yağı duydu,
nə qala bildi.
Söykənib qala divarına
öldülər ayaq üstə;
çiyin-çiyinə.
Ulduzlar şahid oldu
bir sırada dayanmış
ölülərin qabağından,
yüz yerə bölünmüş dirilərin
çəkildiyinə.
Öldülər ayaqlarının altında
Vətən torpağı.
Başlarının üstündə
Vətən ulduzları.
Könüldən-könülə keçdi
ümidləri, arzuları.
Gecə ağır-ağır keçdi
cənazələrin üstündən,
Keçdi getdi üzü səhərə.
Günəş şəfəqdən bir örtü çəkdi
torpağı qoruyub, torpaqla dincələn
cənazələrə.

***

Əvvəldə qeyd etdiyimiz kimi, Rəsul Rza özünəməxsus ədəbi məktəb yaratmışdır. Tənqidçi Vaqif Yusifli bu barədə yazır: «Rəsul Rza 60-cı illərdən başlayaraq poeziyanın yeni bir tendensiyasını yaradır, cavan şairlərin bir çoxu – Əli Kərim, Fikrət Qoca, Fikrət Sadıq, Isa Ismayılzadə, Ələkbər Salahzadə, Vaqif Səmədoğlu, Abbas Abdulla, Camal Yusifzadə – daha sonralar Vahid Əziz, Ramiz Rövşən, Vaqif Bayatlı bu tendensiya ətrafında birləşirlər».

Bu ədəbi məktəbin başlıca məziyyəti nə idi? Bu barədə elə həmin məktəbin ən istedadlı nümayəndəsi – bənzərsiz şair

Əli Kərim yazmışdır: «Rəsul Rzanın kitablarını oxuyub birdəfəlik kənara qoya bilmirsən. Dəfələrlə onlara qayıtmalı olursan və hər dəfə oxuyanda sənə elə gəlir ki, əsər daha dərinləşmiş, mükəmməlləşmişdir. Elə bil şair onu yenidən yazmışdır. Hətta bəzən şairin əzbər bildiyin şeirini də sənə məlum olmayan sirli bir hisslə yenidən oxuyursan.

Rəsul Rza yaradıcılığının biz gənc ədəbi nəslə təsiri böyükdür. Onun yaradıcılığı gözəl təcrübə məktəbidir. Söz üstündə əsmək, obrazlı fikirlər demək, vəzni fikrə tabe etdirmək, hissi ölçü çərçivəsində sıxılmağa qoymamaq kimi məsələləri məhz Rəsul Rzadan öyrənməliyik».

Yeri gəlmişkən qeyd edək ki, Rəsul Rza Əli Kərim yaradıcılığını yüksək qiymətləndirirdi. 60-cı illərin ədəbi mübahisələrində o, dönə-dönə Əli Kərimi müdafiə etmişdi, onun poeziyasındakı yeni və orijinal ifadələri, özünəməxsus deyim tərzini xüsusilə qiymətləndirmişdi. Əli Kərimin vaxtsız vəfatından sonra da onun yaradıcılığı barədə ən gözəl məqalələri məhz Rəsul Rza yazmışdır.

O dövrdə ədəbiyyata gələn hər bir gəncin yaradıcılığı Rəsul Rzanın diqqət mərkəzində idi. Lakin böyük şair o gənclərin yaradıcılığından söz açırdı ki, orda təzə, orijinal bir nəfəs hiss edirdi, ənənəvi, çeynənmiş ifadələrə rast gəlmirdi. Bu barədə yazmış olduğu məqalələrinin birində oxuyuruq: «Ədəbiyyata yeni gənc qüvvələr gəlməzsə, o nə qədər qüvvətli olsa da inkişaf edə bilməz. Ədəbiyyata gələn bu yeni qüvvələri düzgün tərbiyələndirmək, inkişaf və irəliləyişdə onlara istiqamət vermək, onlara həssaslıqla və ağıllı surətdə qayğı göstərmək ədəbiyyatın müqəddaratı qayğısına qalmaq deməkdir.

Son illər Azərbaycan poeziyasına Tofiq Bayram, Yusif Həsənbəyov, Sərdar Əsəd, Ələkbər Salahzadə, Fikrət Sadıq, Isa Ismayılzadə, Şamil Salmanov, Vaqif Vəkilov və başqaları kimi bir qrup gənc şair gəlmişdir».

Zaman göstərdi ki, Rəsul Rzanın böyük məhəbbətlə söz açdığı və yaradıcılığına inam bəslədiyi gənc qələm sahibləri illər keçəndən sonra bu etimadı doğrultdular. Bu həm də o deməkdir ki, böyük şairin yaratdığı ədəbi məktəb öz bəhrəsini verdi…

BEŞINCI NƏĞMƏ

«DÜNYA – INSAN EVIDIR»

«Yazıçı müəyyən ictimai və tarixi şərait daxilində inkişaf edir. Doğma xalqının proqressiv bədii ənənələrinə arxalanmayan, milli zəmindən ayrılmış adam əsl həqiqi sənətkar ola bilməz».

Rəsul Rza

Azərbaycan poeziyasında elə sənətkarlar var ki, onların yaradıcılıq yolu, sənət konsepsiyası – estetik görüşləri, fərdi üslubları həmişə mübahisələr doğurub. Rəsul Rza da belə sənətkarlardan olmuşdur.

Gəlin, əvvəlcə bu mübahisələrin kökünü, səbəblərini araşdıraq.

Birircisi, Rəsul Rza Azərbaycan poeziyasında modernizmin – yeni şeir hərəkatının bayraqdarıdır və bu səbəbdən də ənənəvi şeir tərəfdarları və nəzəriyyəçiləri ilə müəyyən mübahisələrin olması labüd idi. Eyni zamanda, məlumdur ki, Azərbaycan ədəbiyyatında sərbəst şeir artıq 20-ci illərdə öz praktik həllini tapmışdı. O dövrdə yenilik eşqilə yaşayan gənc Azərbaycan şairləri Mayakovskidən, Nazim Hikmətdən və Avropa şairlərindən təsirlənərək sərbəst şeirlər yazırdılar. Özü də bu şeirlər daha çox formadan təsirlənərək yazılan şeirlər idi. S.Vurğun, M.Rəfili, M.Rəsulzadə, Ə.Fövzi kimi Rəsul Rza da yaradıcılığının ilk illərində bu təsirin altında olmuşdur. O daha çox Mayakovskidən ilhamlanırdı və sonralar bunu özü də etiraf etmişdir. Lakin sonralar Rəsul Rza sərbəst şeirlə bağlı eksperimentlərdən əl çəkdi, sərbəst şeiri milli şeir örnəkləri ilə qovuşdurdu, Azərbaycan sərbəst şeirini yaratdı. Onun sərbəstində «Kitabi-Dədə Qorqud» dastanı ilə səsləşən məqamlar daha çox idi. Lakin buna baxmayaraq, ənənəvi şeirin tərəfdarları Rəsul Rza ilə barışmırdılar. Onlar müxtəlif illərdə Rəsul Rzanı Azərbaycan milli şeir ənənələrinə üz çevirməkdə, modernizmi təbliğ etməkdə, gəncləri ənənəvi şeir yolundan uzaqlaşdırmaqda təqsirləndirirdilər.

60-cı illərdə Rəsul Rza «Rənglər» silsiləsini yazdı. Bu silsilə modern şeirin Azərbaycan poeziyasında yeni bir təzahürü idi. «Rənglər» silsiləsinin ədəbi aləmdə necə sensasiya doğurduğu, ənənəvi şeir tərəfdarlarının Rəsul Rzaya haqsız hücumları haqqında o dövrün mətbuatında kifayət qədər məlumat vardır.

Beləliklə, Rəsul Rza poeziyası ilə bağlı mübahisələrin böyük bir qismi onun yenilikçi – novator sənətkar olması ilə bağlı idi.

Ikincisi, Rəsul Rza sovet dövründə yaşayıb yaratmışdır. Onun bir çox şeirləri və poemaları sosializm realizmi ədəbi cərəyanının tələbləri ilə tam səsləşir. «Bolşevik yazı» şeirindən tutmuş «Lenin» poemasına qədər bir çox əsərləri bunu açıq-aşkar sübut edir. Odur ki, Rəsul Rzanın vəfatından sonra, xüsusilə müstəqillik əldə etdiyimiz dövrdə bir çox müəlliflər, necə deyərlər, radikal ədəbiyyatşünaslar Rəsul Rzanı Leninə poema həsr etdiyinə görə suçlu hesab edirlər.

Istedadlı yazıçı-publisist Aqil Abbas Rəsul Rzanın yaradıcılığı ilə bağlı bir məqaləsində yazır: «Leonardo da Vinçinin məşhur bir əsəri var: «Mona Liza». Əsər kimi dünyada tayı-bərabəri yoxdur. Amma o qadın kim olub, bilən var? Bəlkə o qadın rəssamın aşnalarından biri olub və ya bəlkə – Allah günahımdan keçsin – bir fahişə olub? Söhbət əsərdən gedir. Indi Leninin kimliyini qoyuruq bir tərəfə, söhbət Rəsul Rzanın yaratdığı əsərin qüdrətindən gedir».

Bəli, söhbət ondan gedir ki, mövzusundan asılı olmayaraq, hər bir sənət əsərinə qiymət vermək lazımdır. Sənətkar bu əsərində insanı necə, hansı bədii vasitələrlə tərənnüm edir? Rəsul Rza, bir sənətkar kimi, bu tələblərə bütün yaradıcılığı boyu əməl etmiş, yüksək ideala – insanlığa sədaqətini qorumuşdur. Klassik ədəbiyyata, Azərbaycan ədəbiyyatının tarixi köklərinə bağlılığı, folklordan, şifahi xalq ədəbiyyatından və canlı danışıq dilindən ustalıqla bəhrələnməsi göstərir ki, o, modernist şair olsa da, şeirlərinin ruhu xalq ruhudur. Bu ruh neçə minillik Azərbaycan ədəbiyyatına və mənəviyyatına söykənir…

Rəsul Rzanın «Füzuli» poemasını 32 il öncə – «Vaxt var ikən…» kitabından oxumuşam. Düzü, o vaxt mənə elə gəlirdi ki, Füzuli haqqında belə yazmaq olmaz. Yenə söhbət Rəsul Rzanın üslubundan gedir. Bəlkə də, ənənəçilik ruhu ilə düşünərək belə

qənaətə gəlirdim. Ancaq bu günlərdə həmin əsəri bir də oxudum. Etiraf edim ki, sarsıldım. Çünki, vaxtilə mənə mücərrəd söz yığını kimi təsir bağışlayan həmin poemanın hər sətrində Boyatdan Bağdadacan uzanan karvan yollarında yarımçıq qalan arzuları, ümüdə doğru can atıb ilğıma dönən diləkləri gördüm. Misralar elə sıralanır ki, oxucunun gözləri qarşısında dəvə karvanı canlanır. Və Tanrıya yalvarırsan ki, bu karvan yolda qalmasın.

Şairin məharəti də elə budur – oxucunu özünə tabe etmək:

Bağdad hara!
Boyat hara!
Qırılmış təsbeh kimi
karvan tökür günləri
qaynar, uzun yollara.
Bağdad hara!
Boyat hara!
Dəvə ləpirləri
boz xəzəl kimi düşür yollara.
Birdən xəzəl kimi qopur yerdən
küləyə qoşulub qaçır.
Boğanaq içində,
tükünü ley dağıtmış
boz bir quş olub qaçır.

Yuxarıda deyildiyi kimi, bir vaxt düşünürdüm ki, Füzuli haqqında yazılan şeirlər qafiyə ölçü-biçisindən kənara çıxa bilməz. Ancaq zaman keçəndən sonra bu qənaətə gəldim ki, Rəsul Rzanın yaratdığı forma, əslində, «Kitabi-Dədə Qorqud»dan bəhrələnir və bu ənənə uzunömürlüdür, ən azı, Dədə Qorqud qədər. Şair misraları elə sıralayır, karvan yolunu elə təsvir edir ki, insan özünü bu karvanın içində hesab edir.

Rəsul Rza bir vaxt, bəlkə də, mənəvi ziddiyyətlər arasında çırpınmış, Sovetlər Ittifaqını insan evi kimi, bütün insanlığın gələcəyi kimi görmək istəmiş, zaman keçdikcə və yaşa dolduqca, onun bəşər nəslinin məkanı kimi bir dar həbsxana

olduğunu sezmiş, sovet ideologiyasının mənəvi iflasını Stalinin şəxsiyyətinə pərəstişin ifşasından sonra tam aydınlığı ilə dərk etmişdir. Rəsul Rza, bunsuz da, istər 30-cu illərdə, istərsə də müharibə illərində bir vaxt qaldırılmış müstəqil Azərbaycan bayrağının yenidən dalğalanacağına bütün varlığı ilə inanmışdır.

Təsadüfi deyil ki, Rəsul Rza həmin illərdə yazdığı əsərlərdə Azərbaycan bayrağının rəmzi olan Hilal obrazını yaratmış, Ərk qalasını Azərbaycan şəhidi kimi, Azərbaycan uğrunda döyüşmüş əsgərin şəhidliyi kimi tərənnüm etmiş, Təbrizi qarış-qarış, küçə-küçə öz şeirinə köçürməyə çalışmışdır. Və qəribədir ki, onun «Bağdad hara, Boyat hara!» misrasında və «Füzuli» poemasının hər sətrində Azərbaycan karvanı dəhşətli qəlb ağrısı, ürək parçalayan bir göynərti ilə təsvir olunur:

Yol uzun,
möhnət ağır,
zindan kimi.
Qəlbin arzusu böyük,
kədəri ac.
Kölgəsiz yollarda gecələ,
kölgəsiz yollarda səhəri aç!
Dərd tökülür hər yandan
çovğunda canavar sürüsü kimi.
Dərd çox!
Həmdərd yox.
Qara fikirlər –
balıq kürüsü kimi.
Yol uzun, yorucu;
mənasız keçən ömürdür sanasan,
Bir ömür ki,
nə soyuğu soyuqdur,
donasan.
Nə istisi istidir ki,
kül olunca yanasan.
Bu yolda ləngə düşür

xəyal belə.
Uzanır yollar:
uzun-uzun.
Sanki
hicran gecəsidir
eşq odunda qovrulan
bir yuxusuzun.

Bir vaxt ədəbi döyüşlərdə, bəlkə də, Rəsul Rza təklənib. Bir vaxt tənqidçilər onun kosmopolitliyindən dəm vurub. Bir vaxt, bəlkə də, onun Azərbaycan ruhuna yad bir sənətkar olduğu haqqında da danışılıb. Ancaq Rəsul Rzanı heç nə yolundan sapdıra bilməyib. Çünki o, yaratdığı sənət sarayını hansı sütunlar üstündə qurduğunu çox yaxşı bilirdi. Böyük şair XX əsrin qəliblərə sığmayan bir zaman vahidi olduğunu da yaxşı dərk edirdi. Bəlkə də, mövcud qəliblərin XX əsrin sonunda dağılacağını, XXI əsrin tamam başqa ovqat, başqa mənəviyyat üstündə köklənəcəyini qeyri-adi bir uzaqgörənliklə də bilirmiş. Elə bu ona görə də onun heç bir qəlibə sığmayan təfəkkürü bütün poetik ənginliklərdə qanad çala bilirmiş. Həmin o susuz səhrada gedən dəvə karvanı haqqında «üç gün susuz, üç gün ac. Dəvələr udur yolları, fərsəng-fərsəng, ağac-ağac. Dörd gün susuz, dörd gün ac. Dəvələr çeynəyir yolları addım-addım, qulac-qulac. Beş gün susuz, beş gün ac. Dəvələr kövşəyir yolları yavaş-yavaş» – deyəndə bilirdi ki, bu sap kimi nazilən və hər an qırılmağa hazır olan ümid yarı yolda qalmayacaq və mənzil başına yetəcək. Budur şair inamı! Budur insanı yaşadan ümid! Budur oxucunun qəlbini intizarla döyündürən, çırpındıran poetik duyğular! Bu duyğular həqiqi şairə məxsus duyğulardır… Ona görə də çox təbii, real və inandırıcıdır. Həmin dəvə karvanının yol başladığı zamandan şairin çəkib bu günə gətirdiyi «fərsəng», «ağac» uzunluq ölçülərini indi təyyarələrin, ballestik raketlərin sürəti əvəz edib, lakin zaman dəyişsə də, bəşəriyyətin sabahına inam itməyib. Rəsul Rza böyük sənətin gücü ilə bu inamı təsdiq edir.

Bu, orta əsr təfəkkürünün içində sönməyən qığılcımları çəkib bu günə gətirməkdir. Elə orta əsrlərin öz dili ilə. Və şair həmin «üç gün»ləri, «dörd gün»ləri, «beş gün»ləri yola salıb, «dünya beş gündür, beşi də qara» – deyib insan ümidlərini

qıranlara cavab verir ki, tələsməyin, hələ altıncı gün var. Hələ neçə günlər var və hələ bu günlər davam edəcək. Misraların içində yol gedən dəvə karvanı sənətin ölməz inamını, bütün zamanlara qalib gəldiyini təsdiq edir:

Hələ bu,
mənzilin ondan biridir.
Günləri, həftələri əridir.
Altıncı gün,
xurmalıqlar görünür;
hündür-hündür,
yaşıl-yaşıl.
Dəvələr naxış – kölgəsi
üfüqdən aşır.
Yaşıllıq da çalır qaraya.
Qaynar külək axıb gedir
budaqları, qumları
daraya-daraya.
Çaylar, göllər görünür;
gömgöy, dupduru.
Bir an keçmir,
çəkilir ilğım.
Əriyir mənzərə;
bir qızdırmalı ovcuna düşmüş
qar naxışı kimi.

Sovet ideologiyasının buxovlarından azad olmaq çətin idi. Çünki nəhəng imperiyanın təbliğat maşını insanın iliyinə qədər işləyir, onun mənəviyyatını, təfəkkürünü zəbt edirdi. Çox vaxt adamların müstəqil düşünmək imkanı əlindən alınırdı. Ancaq Rəsul Rza təfəkkürü bu buxovlardan tez xilas oldu. 60-70-ci illərdə o, artıq öz yazılarında sovet ideologiyasından tamamilə uzaqlaşmışdı. Indi Vətənin və xalqın istiqlalı onu çox düşündürürdü və Rəsul Rza hiss edirdi ki, bu problemin həlli hələ çoxlu qurbanlar tələb edəcək.

Unudulmaz şairimiz M.Müşfiqin acı taleyinə həsr etdiyi «Qızılgül olmayaydı» poemasında bu mübariz ruh açıq-aydın hiss olunur.

Möhkəm dayan, insan!
Mən sənin etibarlı dostunam!
Döyülən qapılar
sənin deyilsə də,
bir gün
sənin qapın döyülsə də,
itirmə Etibarı, Inamı!
Nəyə qurban verəcəksən
ümidini, arzunu?
Könül həsrətinəmi?
Ürək ağrısınamı?
Hansı böyük məqsədi
çətin günlər
dönə-dönə sınamır?
Möhkəm saxla Sədaqəti, Inamı!..

Rəsul Rza poeziyası nəhəng ümmana bənzəyir. Bu ümmanın içərilərinə doğru üzdükcə, onun dərinliyini, sonsuzluğunu dərk edirsən. Onun şeirlərinin həyatın bütün çalarlarına, rənglərinə, insanın düşüncə ilə vara bildiyi bütün nöqtələrə nüfuz etdiyini anlayırsan.

ALTINCI NƏĞMƏ

RƏSUL RZA POEZIYASINDA AĞLI-QARALI DÜNYA

«Divarda dünya xəritəsi. Bir-birindən əlvan rənglərlə ayrılmış ölkələr. Yan-yana düzülmüş açıq rənglər, yumşaq kölgələr, tünd ləkələr. Göy, qəhvəyi, narıncı, yaşıl. Baxırsan göz qamaşır. Əcaib bir heyvan ləpirinə oxşayır adalar, qitələr».

Rəsul Rza

Rəsul Rza 1935-ci ildə qələmə aldığı «Çinar» şeirində «Belə məğrur dayanmağa haqlıyam. Mən kökümlə bu torpağa bağlıyam» yazırdı. Zaman göstərdi ki, Rəsul Rza, doğrudan da, Azərbaycanın dünəninə, bugününə, sabahına möhkəm tellərlə bağlı olan qüdrətli bir sənətkardır. Lakin Rəsul Rza, eyni zamanda, Dünyaya, Zamana məxsus bir sənətkardır. O, 30-cu illərdən başlayaraq dünyada baş verən hadisələri diqqətlə izləyir, öz şeir və poemalarında orijinal bir tərzdə tərənnüm edirdi. Həyatının son illərində yazdığı «Ömür keçdi, gün keçdi» şeirində Rəsul Rza dünyanın dərdini çəkən, yuxusu ərşə qaçan narahat bir şair olduğunu belə ifadə edirdi:

Dünya yuxusuzdur,
ağlaya bilmirəm.
Ölüm ömrü pusur,
ağlaya bilmirəm.
Raketlər xərabə qusur,
ağlaya bilmirəm.
Okeanlar görmüşəm –
Günlərlə sinəsində üzüb.
Ağzımda valokardin dadı var.
Yaxın sözü
reaktiv təyyarələrin qanadında
əriyib gedib,
uzaq sözü
planetlərarası raketlərdə.
Planetimizi
dəlik-deşik elədik

qaza-qaza!
Belə-belə işlər,
Rəsul Rza !

Şeirdə «ağlaya bilmirəm» ifadəsi heç də müstəqim mənada anlaşılmamalıdır. Bu o deməkdir ki, artıq böyük bir həyat yolu keçmiş şair dünyada baş verən, bir-birindən faciəli və dəhşətli hadisələrlə çox üzləşib, 30-cu illərdə Almaniyada, Ispaniyada, Çində başlanan və sonsuz insan tələfatları ilə bitən hadisələr, sonra Ikinci Dünya müharibəsi, daha sonra Kubada, Amerikada, Latın Amerikası ölkələrində, Afrikada və Şərq ölkələrindəki azadlıq mübarizələri sanki gözlərinin qarşısında baş verib. Rəsul Rza bu hadisələrin heç birinə biganə qalmayıb. Bu baxımdan o, dünyanın Nazim Hikmət, Nezval, Pablo Neruda, Mejelaytis kimi şairləri ilə bir cərgədə dayanıb...

***

Məlumdur ki, Rəsul Rza ədəbiyyata 20-ci illərin axırlarında – yeni inqilabi poeziyanın hələ təzə-təzə təşəkkül tapdığı bir vaxtda gəlmişdir. O da S.Rüstəm, S.Vurğun, M.Rahim, M.Müşfiq, O.Sarıvəlli və digər şairlər kimi yeni poeziyanın yaranmasında fəal iştirak etmişdir. Tədqiqatçılar qeyd edirlər ki, həmin dövrdə yazılmış şeirlərin əksəriyyəti siyasi lirika nümunələri olmuşdur. Rəsul Rza da digər gənc sovet şairləri kimi dünyanın siyasi olaylarına öz münasibətini bildirmişdir. O dövrdə yazdığı «Çapey», «Tunel borularının səsi», «Almaniya» və «Madrid» kimi əsərləri də məhz bu düşüncənin məhsulu olmuşdur. Həmin şeirlərin bir çoxu mətbuatın verdiyi xəbərlər əsasında qələmə alınmışdırsa da, reallığı əks etdirmişdir, şair Çində və Ispaniyada baş verən xalq azadlıq hərəkatlarını həqiqətən də alqışlamışdır və istəməmişdir ki, Almaniyada faşizm çiçək açsın, Ispaniya vətənpərvərlərinin səsi boğulsun. Doğrudur, Rəsul Rza həmin illərdə Çində olmamışdı, lakin «Çapey» şeirində Çin xalqının azadlıq mübarizəsindən geniş və əhatəli, sanki o hadisələrin canlı iştirakçısı kimi söz açmışdır.

O illərdə Almaniya mövzusu da mühüm və aktual mövzulardan biri olmuşdur. Hitler Almaniyası hakimiyyət başına gəlmişdi və dünyaya hökmranlıq iddiasında idi. Bütün dünya

ictimaiyyəti, o cümlədən SSRI-də yaşayan xalqlar da, haqlı olaraq, öz etiraz səslərini qaldırmışdılar. O zaman Rəsul Rza «Almaniya» poemasını yazmışdır və bu poema ədəbi tənqid tərəfindən çox yüksək qiymətləndirilmişdir.

***

Rəsul Rza 40-cı illərin sonlarından başlayaraq yenidən dünyada baş verən olaylara qayıdır; bu zaman SSRI artıq müharibədən qalib bir ölkə kimi çıxmışdı. Lakin Avropada, Asiyada və Amerikada yeni hadisələr baş verirdi. Şərq xalqlarının azadlıq mübarizəsi, Afrika ölkələrindəki həyəcan və dalğalar səngimək bilmirdi. Rəsul Rza xüsusilə Şərqdə gedən ictimai-siyasi prosesləri diqqətlə izləyirdi. «Məni yatmağa qoymur dünyanın dərdi, torpağın ağrısı» deyən şairin lirikasında Dünya bütün təzadları ilə əks olunurdu:

Bu gecə yenə yatmamışam.
Nə başım ağrıyır,
nə xəstəyəm.
Yatağım rahat.
Döşəmədən tavana qədər
sükut var otağımda.
Olsun ki, belə bir sükut içində,
bir gün,
bizimlə vidalaşmadan,
gedəcək ürək.
Ancaq, bu deyil məni nigaran qoyan.
Bu gün var olan
bir gün yox olacaq axırısı.
Məni yatmağa qoymur
dünyanın dərdi,
torpağın ağrısı.

Hansı dərdlər idi şairin yuxusunu ərşə çəkən, onu yatmağa qoymayan? Şairin 50-60-cı illərdə yazdığı şeirlərə diqqət yetirsək, bu dərdlərin səbəblərini aydın görərik:

Gözümün qarşısında xəritə.
Ağlı, qaralı ölkələr.
Danışır Afrika,
Danışır müstəmləkələr.

Şair, müstəmləkə əsarətində yaşayan və öz azadlığı uğrunda mübarizə aparan xalqların səsinə səs verirdi. O, passivliyi, köləliyi qətiyyətlə rədd edir, məşhur «Ağlama, Şərq, ağlama» şeirində yazırdı:

Ağlama, Şərq, ağlama.
Yanğıları göz yaşı söndürməz.
Yaraları ovutmaz göz yaşı.
Doğra yanıqlı nəğmələrini;
bir cərrah kimi doğra;
Çıxart onlardan
kədəri, qəmi, ümidsizliyi;
Göz yaşını çıxart!
Mütilik, laqeydlik qalmasın
bir damcı da,
çıxart, yerinə duz bas!
Insanlıq duzu!
Bərabərlik duzu!
Inam, qürur duzu!
Arzu, ümid duzu!
Göynəsin nəğmələrin;
qəzəblə, üsyanla göynəsin,
döz ağrısına, Şərqim!
Ağlama ancaq!

Rəsul Rza görkəmli ictimai xadim kimi bir sıra xarici ölkələrə səyahət etmişdir. Sonradan bu səfər təəssüratları bir-birindən gözəl şeirlərə çevrilmişdir. Onun «Hindistan dəftərindən», «Suriya dəftərindən», «Iraq xatirələri», «Yaponiya

motivləri», «Praqa xatirələri» və s. silsilə şeirləri oxuculara yaxşı tanışdır. Bu şeirlər şairin 30-cu illərdə qələmə aldığı «Çapey», «SI-Au», «Cəlladları durdur», «Zənci balası Villi haqqında ballada», «Inqalesyo», «Madrid», «Həbəşistan» poetik nümunələrinin davamıdır – bu yazılarda eyni ruh və ahəng diqqəti cəlb edir. Lakin bir fərq nəzərə çarpır ki, Rəsul Rzanın səfər təəssüratları əsasında qələmə aldığı şeirlərdə canlı həyat lövhələri və real müşahidələr üstünlük təşkil edir. Şairi səyahət zamanı hər şey maraqlandırır; həmin ölkələrin özünəməxsus təbiəti, keçmişi, bugünü, ilk növbədə, orada yaşayan insanların həyat tərzi, məişəti, gün-güzəranı. Məsələn, «Tac-Mahal» şeirində oxuyuruq:

Hindistanın yolları
qorxulu nağıllara bənzəyir;
həm maraq doğurur,
həm vahiməlidir.
Hindistanın yorğun gündüzləri,
nigaran gecələri var.
Hindistanın yollarında
dolaşıq düşür xəyal.

«Fil və filban» adlı başqa bir şeirdə isə gözlərimizin önündə tamamilə başqa bir mənzərə canlanır; qədim Çaypur şəhərində bu şəhərin özündən də çox-çox qoca görünən bir fil şəhərin küçələri ilə addımlayır, filban onu hara istəsə sürükləyə bilər, «xıx» deyib bu nəhəng fili dizi üstə çökdürər, lap sallaqxanaya da aparar. Nəhəngliyin belə müti vəziyyətə düşməsi şairi xeyli həyacanlandırır.

Niyə, axı niyə?
Gözlərimdən gəlib keçir
tarix, həyat varaq-varaq.
Görürəm ki,
zülmə qarşı mütilikdir dayanan
ən qədim, ən modern

kölelik təməlində.
Yoxsa
xortumu, dolayıb filbana,
sıxıb suyunu çıxarmaq nədir ki,
ləpiri çala-çala
asfalta düşüb qalan
qoca filin əlində,
mütilik dayanmasa,
kölelik təməlində.

Burada simvolizm xüsusilə diqqəti cəlb edir. Şair əsarətdə olan ölkələrdə azadlıq savaşına çıxan insanlara deyir ki, mütiliyə, köləliyə dözmək olmaz. «Əllər iş istəyir, ağızlar çörək» şeirində isə R.Rza «qara daşdan heykəl kimi dayanan», «cadar-cadar dodaqlarını qupquru dilləri» ilə yalayan hindlilərin halına acıyır:

Kaman çalınmasa, kökdən düşər,
toz basar.
Kotan işləməsə, paslanar.
Bəs insan əli?
Insan əli işdən ayrılmasın gərək.
Əllər iş istəyir,
ağızlar çörək.
Bəs iş hanı?
Iş hanı?
Ürəyim şan-şan olur,
belə işsiz əllərlə
gördükcə Hindistanı.

Rəsul Rzanın yaradıcılığında «Yaponiya motivləri» xüsusi yer tutur. Əgər belə demək mümkünsə, Azərbaycan ədəbiyyatında ilk yapon mənzərəsini məhz onun şeirlərində görə bilirik. Bu mənzərədə Tokio - dalğalı bir dənizdir, buluddan

baxsan, bir qarışqa yuvasıdır. Bura ən modern texnikanın möcüzəsidir. Həm də zəlzələlər ölkəsidir.

Şair Yaponiyanın texnika sahəsindəki nailiyyətləri ilə ta qədimdən qalma xarakterik xüsusiyyətlərini müqayisə edir və bu təzadda özünəməxsus səciyyə tapır. «Gözlərin matəmi» şeiri Xirosima faciəsinə həsr olunmuşdur. Bu, bəlkə də, 60-cı illərdə yazılmış ən gözəl şeirdir. Misradan-misraya adladıqca, qəlbimizi dünyanın gələcəyi ilə bağlı bir nigarançılıq duyğusu bürüyür. Burada təsvir olunan hadisə olduqca kədərlidir, özü də bu, təkcə bir ana ilə bir balanın kədəri deyil, bəşərin kədəridir. Xirosimaya bomba atılıb, iki ürək həyəcanla döyünür. Ana körpəsinə doğru yüyürür:

Uşaq bağırdı:
– Ana! Ana!
Kim söndürdü çırağı?
Ana dinmədi,
dinə bilmədi.
Uşaq qışqırdı:
– Hardasan, ana?
Su tök, qoyma gözlərim yana!
O gündən,
sanki badam gözlərin yası,
qara bir matəm olub
çökdü bütün cahana.
Bu qaranlıqda itirdi bir-birini
bala, ana.
Gözlər gözlərə həsrət qaldı,
yaşasalar da yan-yana.
Kəsin, atom sınaqlarını kəsin!
Bir cüt gözün matəmi
min-min gözə çökməsin!

Rəsul Rza «Bombardman» adlı şeirində bir də bu mövzuya qayıdır və əsl sənətkar qətiyyəti ilə deyir: «Müharibə carçılarının dilini kəsin!».

Rəsul Rzanın Praqa və Sofiya səfərindən qayıtdıqdan sonra yazdığı şeirlərdə də yuxarıda göstərilən səciyyəvi cəhətləri, bu ölkələrlə bağlı özünəməxsusluğu ilhamla tərənnüm etmişdir.

Ümumiyyətlə, bu şeirləri oxuduqca, Rəsul Rzanın dünyada baş verən hadisələrə qarşı necə həssas olduğunun, daha doğrusu, dünyada baş verən hadisələrin onun şair qəlbini necə həyəcana gətirdiyinin şahidi oluruq. Və yaxud «Buhenvald» şeirini götürək. Şair yazır ki, Buhenvaldla Veymar arasında bir qarış yoldur – əl uzatsan çatar...

Ancaq Veymardan Buhenvalda
insanlıqdan vəhşiliyə qədər
neçə ömür yol var.
Veymar deyəndə
insan qüruru ilə,
qabarır sinəmiz.
…Veymar böyük sənətin
yarandığı yer.
Buhenvald yüz minlərin
işgəncəsi, iztirabı.
Cəsədlərdən yaranmış-
nəhəng külqabı.
…Yaxın gəl!
Diqqətlə bax!
Veymarda su sudur,
Torpaq torpaq.
Buhenvaldın suları qanlı,
torpağı küldür.
Suyunda qan qarışığı,
torpağında
cəhənnəm yolunun qarışığı.

Veymarda da torpaq,
Buhenvaldda da torpaq
başqa-başqa rəngləri
saxlayır sinəsində.

Bu şeir, əsasən, təzadlar üzərində qurulmuşdur. Bu da Rəsul Rza poeziyasının xarakterindən irəli gəlir. Məsələn, onun «Miloslu Venera» şeirini götürək.

Burada şair Parisdəki muzeylərdən birində Miloslu Veneranın heykəlini seyr etməsindən söz açır. Lakin birdən-birə muzeydə bilet satan qızın acınacaqlı vəziyyətini görür və ovqatı təlx olur.

Rəsul Rza poeziyasında qürbətçilik duyğusu da güclüdür. Şair harada olursa-olsun, Azərbaycanı düşünür: tezliklə Vətəndə olmağını arzulayır. Bəzən xarici səfərdə olarkən öz xalqı, Vətəni ilə bağlı məqamlarla üzləşir. Məsələn, Fransa səfəri zamanı yazdığı bir şeirdə Per-Leşez qəbristanlığını dolaşmağından belə söz açır:

Per-Laşez!
Kommunarlar divarı.
Hörmətlə açıram başımı.
O kimdir at üstündə,
özündən razı?!
Kimə oxşayır, Allah,
Kimə?!
Elə bil ki, qaba bir əl toxunur
incə simə.
Gözlərimdə canlanır
Naxçıvanın Arazı.
Söndürülmüş ocaqlar!
Əbədi susdurulmuş uşaqlar!
Qanlı üzlər keçir gözlərimdən,
min-min azı.
Bağırmaq istəyirəm
hardan gəldi bura

bu dələduz,

daşa dönmüş daş ürəkli quduz!

Şair at üstündə təsvir edilən heykəli quldur Andronikə oxşadır (adını çəkməsə də, sonra misralar onun mənfur obrazını canlandırır). Yeri gəlmişkən qeyd edək ki, bu şeirdən sonra Ermənistanda Rəsul Rzaya qarşı düşmənçilik hissləri alovlanmışdı.

Həmin şeirin sonunda Rəsul Rza özünün dünya üçün, qanlı olaylar – cinayətlər, səfillik, işsizlik, müharibələr və münaqişələr üçün həyəcan keçirdiyini bir daha bəyan edir.

«Ağlı, qaralı dünya» adlandırdığım bu yazını da elə həmin şeirin son misraları ilə bitirmək istəyirəm:

…Kəlküttədə yüz minlərlə insan
quru səkidə yatır.
Konqodan Belçikaya daşınır
kürül-kürül yatır.
Vyetnamda körpələri yuxusundan
mərmi səsi oyadır.
Koloniya, kolonializm,
neokolonializm.
Kim alır, kim satır!
Asturiyanın yolları
hər gün qana batır.

«Qana batmış» dünya Rəsul Rzadan sonra da yenə qan içindədir.

Rəsul Rza bu həqiqətləri hələ 40-50 il öncə görmüş və qələmə almışdı.

YEDDINCI NƏĞMƏ

RƏSUL RZA VƏ AZƏRBAYCAN HƏQIQƏTLƏRI

«Böyük mövzular böyük yetkinlik tələb edir. Elə mövzular var ki, bir ağrı kimi səndən əl çəkmir, rahatlıq vermir, öz təzahür və ifadəsini tapmayınca, səni rahat buraxmır. Bu xüsusi bir ağrıdır. Bu ağrı insanın bütün varlığına yayılır. Bu, fikir ağrısı, hiss ağrısıdır. Bu ağrı böyük məhəbbət kimidir, verdiyi bütün iztirablar şirin və qiymətlidir».

Rəsul Rza

Rəsul Rza modern olduğu qədər də milli şairdir. Onun şeirləri hansı formada yazılmasından asılı olmayaraq xalqın bədii təfəkküründən bəhrələnir. Elə buna görə də bu qüdrətli sənətkarın yazılarında torpağa bağlılıq hissi çox güclüdür. Lakin bu vaxta qədər olan tədqiqatlarda Rəsul Rza və Azərbaycan həqiqətləri mövzusu lazımi səviyyədə işıqlandırılmamışdır. Dahi rus tənqidçisi V.Belinski Puşkinə həsr etdiyi məqalələrinin birində yazırdı ki, şairi tədqiq edib öyrənmək təkcə o deyildir ki, onun əsərlərini dalbadal möhkəm oxuyasan, məsələ ondadır ki, gərək oxuduğunu sən özün duyub hiss edəsən, yaşayasan.

Rəsul Rzanın poeziyasından bəhs edən tədqiqatçılar əsas diqqəti onun novatorluğuna yönəltmişlər. Bu, heç şübhəsiz ki, böyük şairin ədəbi irsini öyrənmək üçün olduqca qiymətlidir. Ancaq Rəsul Rza yaradıcılığını eyni aspektlərdən, eyni baxış bucağından dönə-dönə tədqiq etmək hardasa birtərəfli yanaşmaya və təkrarçılığa aparıb çıxarmışdır…

Böyük Nazim Hikmət «Dostum Rəsul Rza» adlı məqaləsində yazır: «Azərbaycan ədəbiyyatında gözəl şairlər çoxdur. Vaqif, Sabir, Vurğun, Süleyman Rüstəmin şeirlərini imzasına baxmadan dərhal tanıyırıq. Hətta başqa dilə çevriləndə də. Rəsul Rza da belə şairdir. Onun şeirlərini başqa şairlərin şeiri ilə qarışdıra bilməzsiniz. Məncə, şairin şeirlərinin bəyənilib-bəyənilməməsindən daha çox, onun özümlü və bənzərsiz olması gərəkdir».

Böyük səmimiyyətlə yazılmış bu məqalədə Rəsul Rza poeziyasının bənzərsizliyi bir daha təsdiq olunur.

Rəsul Rza təkcə qlobal, bəşəri mövzularda deyil (insan – zaman, insan – dünya), həm də milli, həyati mövzularda da əsərlər yazmışdır.

Bu yazıda biz bu haqda söhbət açacayıq. Lakin öncə Rəsul Rza poeziyasında xalq yaradıcılığına, klassik poeziyaya münasibəti aydınlaşdıraq.

I. Aşıq Yanıqlı elə Rəsul Rzanın özüdür.

Rahid Ulusel yazır: «Rəsul Rza elə sənətkardır ki, onun poeziyasında xalq yaradıcılığının təsirini və izlərini ilk baxışdan görmək olmur. O, çox nadir hallarda məlum xalq məsəlini, atalar sözünü, rəvayət süjetini kontekstə daxil edir. Onun əsərlərində məzmun və formaca dəyişdirilmiş, necə deyərlər, məqsədəmüvafiq şəkildə istifadə edilmiş xalq ədəbiyyatı nümunələrinə də çox nadir hallarda rast gələ bilərik». (R.Ulusel. Rəsul Rza poeziyası. Bakı, 1987, səh.10).

Əlbəttə, bu fikirlə müəyyən dərəcədə razılaşmaq olar. Belə ki, Rəsul Rza bəzi şairlər kimi xalq yaradıcılığına məqsədli şəkildə müraciət etməmişdir. Ancaq buna baxmayaraq, onun bədii təfəkkürü xalq ədəbiyyatı ilə lap əvvəldən, yaradıcılığının ilk illərindən başlayaraq qaynayıb-qarışmışdır .

R.Rzanın seçilmiş əsərlərinin beşcildliyinə böyük və əhatəli bir ön söz yazan Anar lap başlanğıcda qeyd edir: «1935-ci ildə Rəsul Rza «Çinar» şeirini yazmışdır:

Gecə keçmiş, ulduzlar ağ, göy qara…
Söykənmişəm qocaman bir çinara.
Gecə qara …durdum, düşündüm bir az,
Dedim: – Nədən ulu çinar yıxılmaz?

Birdən çinar dilə gəldi, dedi: – Bax!
Bu torpaqda dərindən kök salaraq,
Hər tərəfə uzatmışam qolumu,
Övladlarım bürüyüb sağ-solumu
Belə məğrur dayanmağa haqlıyam,
Mən kökümlə bu torpağa bağlıyam.

Bu şeir ədəbiyyatımızda Çinarı Vətənin, torpağın timsalı kimi mənalandıran ilk şeirdir. Eyni zamanda, Rəsul Rzanın iyirmi

beş yaşında yazdığı bu şeirdə, rəmzi şəkildə, sanki onun bütün gələcək ömür yolunun dəqiq və canlı mənzərəsi çəkilmişdir». (R.Rza. Seçilmiş əsərləri. Beş cilddə, I cild, səh.3)

Rəsul Rza şeirində Çinar xalqın, torpağın, Vətənin rəmzidir – bunu Anar doğru deyir. Amma burada həm də başqa rəmzlər axtarıb tapmaq da mümkündür. Çinar həm də xalq mənəviyyatıdır – ucalıq rəmzidir, gözəllik və yaraşıq simvoludur.

Rəsul Rza Iraq səfərindən aldığı təəssüratı «Uzaq ellərin yaxın töhfələri» məqaləsində ifadə etmişdir (1961). Həmin məqalədə biz şairi bütün varlığı ilə öz xalqına, Vətəninə, onun mənəvi dünyasına bağlı bir sənətkar kimi görürük. O yazır: «Yazıçı əsərlərini oxuyacaq adamların – o dildə danışan, o dili bilən adamların mövcud olduğunu bilməsə yaza bilərmi? Axı, ana dili – yazıçının əsərlərini yazıb-yaratdığı dil, onun suyu, havası, torpağıdır! Yazıçı bütün demək istədiklərini, ifadə vasitəsi olan doğma dildən məhrum qalarsa, necə yazıb-yarada bilər, yazıb yarada bilməzsə, onun ömrünün mənası nədir? Füzuli kimi böyük sənətkar, ərəb-fars dillərini gözəl bilə-bilə, bu dillərdə klassik şeir nümunələri, elmi əsərlər yarada-yarada, türkcə – azəricə nə üçün, kimin üçün yazmışdır?» (R.Rza. Duyğuların izi ilə. Bakı, 1990, səh.49).

Rəsul Rza dahi Füzuliyə ümumxalq məhəbbətinin sirrini də məhz bunda axtarır – Füzuli xalqının dilində yazmışdır, xalq mənəviyyatını ifadə etmişdir. Özü də yüksək sənət dililə.

Rəsul Rza Iraqda olarkən həmin ölkədə yaşayan əhalinin – vaxtilə Azərbaycandan köçüb gedən əhalinin poetik folkloru ilə tanış olur və heyrətini gizlədə bilmir. Kərkük xoryat və maniləri ilə tanışlıq Iraqın türkdilli sakinlərinin mənəvi dünyasını gözlərimiz qarşısında canlandırır. Rəsul Rza Kərkük xoryatlarında «Qarabağlı» çeşidini və sırf türk sözlərini axtarır, hətta bu xoryat və manilərin yalnız bizim bayatılarımız, şikəstələrimizlə eyniliyini sübut edir və misallar gətirir:

Bu gün ayın üçidi,
Girmə, bostan içidi.
Dodaqlaruv xam şəkər,
Diluv badam içidi.

Bilmirəm neylim sənə,

Düşübdü meylim sənə.
Mən dönsəm, könlüm dönməz,
Sən dönsən neylim sənə.

Dağlar dağımdı mənim,
Qəm ortağımdı mənim.
Dindirsən qan ağlaram,
Yaman çağımdı mənim.

Dağlara qovla məni,
Kəkliyəm ovla məni.
Gecələr sinən üstə,
Gündüz buxovla məni.

Qaradı qaşın, sona!
Yaşıldı başın, sona!
Göllərdə tək qonubsan,
Hanı yoldaşın, sona?

Yeri gəlmişkən qeyd edək ki, ilk dəfə məhz Rəsul Rza Kərkük folkloruna məxsus olan xoyrat və manilərin bədii xüsusiyyətlərini tədqiq etmişdir.

Illər keçdikdən sonra isə Rəsul Rza özü «Aşıq Yanıqlının bayatıları» silsiləsini yazır. Tanınmış tədqiqatçı R.Ulusel çox düzgün qeyd edir: «Burada xalq bayatılarına məxsus kövrəkliyi, həzinliyi, yığcamlığı apaydın görürük. Maraqlıdır ki, «Rənglər» silsiləsi ilə «Aşıq Yanıqlının bayatılarından» silsiləsi təxminən eyni dövrdə yazılmışdır. Amma o vaxt, nədənsə, Azərbaycan tənqidi bu faktın üstündən sükutla keçmişdir. Məzmununa və bədii strukturuna görə bir-birindən qat-qat fərqlənən bu əsərlərin birincisində Rəsul Rza novator, ikincisində ənənəçi idimi? Yox. Elə hər ikisində həm ənənəçi və novator idi. Aşıq Yanıqlının bayatıları cinas qafiyələrindən tutmuş nisgil və hicran duyğularınadək xalq bayatısı ruhundadır». (R.Xəlilov. Rəsul Rza poeziyası, səh.11).

Aşıqdır gün də sənə,
Nur saçır gündə sənə.
Haçan qurbanın olum?
Bir vaxt, bir gün desənə!

Araz axar, yan düşər,
Daşlar yaxadan düşər.
Araz bildiyin desə,
Xəta çıxar, qan düşər.

Dodağımda qan qaldı,
Öpüşündən qan qaldı,
Mən nazik dodaqlıyam?
Ya dodağın qanqaldı?

Bu dağlar bulaqlıdır,
Ətəyi sulaqlıdır.
Elə danış, «vay» demə,
Divar da qulaqlıdır.

Dolu yağdı Araza,
Bir od düşdü harasa,
Dişsiz qalsın darağı
Kim Arazı darasa.

Araz yanıq dillidir.
Suyu necə lillidir,
Gah axır, gah dayanır,
Görünür, nisgillidir.

Bu bayatılar sübut etdi ki, Rəsul Rza yaradıcılığına xalq ədəbiyyatı bütün ruhu ilə hopub və onun ənənələrdən imtina edib, modern şeirə üz tutduğunu söyləyənlər isə yanılırlar. Rəsul

Rza öz poetik təfəkkürü ilə xalq yaradıcılığı arasında varislik əlaqəsini bərpa etmişdir.

Rəsul Rza 1980-ci ildə «Yaralı Kərkükün bugünlü xoryat və maniləri» silsiləsini yazır. Yeni bayatılarda Rəsul Rza daha kamil, daha yetkin, daha usta bir şair kimi diqqəti cəlb edir; Iraqda baş verən ictimai-siyasi hadisələri əsas götürərək, əslində, dünya azərbaycanlılarını birliyə səsləyir, müxtəlif qitələrə səpələnmiş həmyerlilərimizi vahid yurd, vahid mənəviyyat uğrunda mübarizəyə çağırır. Əlbəttə, bu çağırış birbaşa deyildir, amma biz onu sətiraltı mənalarda asanlıqla sezə bilirik:

Bağdaddan karvan gəlir,
Dərdli, pərişan gəlir.
Kimlər qurban kəsilib,
Sularım al qan gəlir.

Mosulun yolu daşdı,
Yollar qana bulaşdı.
Bir-birinin qənimi
Iki insan – qardaşdı.

Kərkük üstü dumandı,
Kərkük oda qalandı.
Kərbəla müsibəti
buna baxsan, yalandı.

Naxçıvandan,
Təbrizdən, Naxçıvandan.
Ağla, gözlərim, ağla!
Ayrıldın çox cavandan.

Rəsul Rza yaradıcılığından söz açan böyük rus tədqiqatçısı D.Moldavski yazır: «Şifahi xalq yaradıcılığı Rəsul Rza üçün əbədi bir çeşmədir ki, oradan… poeziyanın arteriya damarları ilə yeni obrazların həyatverici qanı axıb gəlir…».

Dahi şairin təkcə orijinal bayatı, xoryat və maniləri deyil, digər əsərləri də «bu əbədi çeşmənin» necə bir ilhamla daim çağladığını sübut etmişdir.

Rəsul Rza bir çox şeir və poemalarında xalq əfsanə və rəvayətlərinə müraciət etmişdir. Bu baxımdan onun «Qız qalası» poeması xüsusilə diqqəti cəlb edir. Burada şair bir xalq rəvayətini müasir poetik təfəkkürün işığında həyata qaytarmışdır. Poemada xalq poeziyasına məxsus şirinlik, nağıl-əfsanə poetikası dərhal hiss olunur. Rəsul Rzanın «Kütüb Minarə meydanında» və «Həyat nəğməsi» adlı əfsanə-poemalarında da folklora və mifə üz tutulmuşdur.

***

Rəsul Rza Mirzə Fətəli Axundova həsr etdiyi məqalələrindən birində yazır: «Böyük insan qəlbinin möcüzəli qüdrəti var. Illərin isti-soyuğundan keçib gələn gözəl arzular və ümidlərlə dolu böyük bir qəlbin – Azərbaycan torpağının ölməz, qəhrəman oğlu Mirzə Fətəlinin nəcib, humanist, bütün xalqlara, yaxşı insanlara məhəbbətlə dolu olan qəlbinin döyüntüsünü bu günümüzdə, onun yeni dünya quran vətəndaşlarının qəlb döyüntülərində duyur, eşidirik. Bu ürəklər nəsil-nəsil, əsr-əsr döyündükcə, Mirzə Fətəli yaşayacaq, gözəl gələcəyə doğru irəliləyəcəkdir».

Rəsul Rzanın Mirzə Fətəli Axundova – bu böyük klassikə sonsuz məhəbbət və ehtiramını ümumiləşdirilmiş halda xalqımızın bütün dahi sənətkarları, ölməz sərkərdələri və yetkin ziyalıları haqqında söyləmək olar. «Xalq – sənətkar», «Xalq – qəhrəman» və «Xalq – ziyalı» problemləri Rəsul Rzanın həm poeziyasında, həm də publisistikasında bir baxış bucağı altında öz həllini tapır…

Rəsul Rzanın M.Ə.Sabir haqqında söylədiyi «Sənətkarı xalq yaşadır. Xalqın həyat və ideallarından uzaq olan bir adam ümumbəşər mədəniyyəti tarixinin baş yolundan kənarda qalır» – fikri bütünlüklə Vətənçilik, Azərbaycançılıq məramını ifadə edir.

Rəsul Rzanın poeziyasında Azərbaycan xalqının böyük oğulları – Babək, Nəsimi parlaq obrazlar kimi əbədiləşirlər. Məlumdur ki, həm Babək, həm də Nəsimi haqqında istər poeziyamızda, istərsə də nəsrimizdə çox dəyərli əsərlər yaranmışdır. Lakin bu dəyərli əsərlər arasında Rəsul Rzanın şeirləri özünəməxsusluğu ilə seçilir. Mən deyərdim ki, böyük şair

həm Babəkə, həm də Nəsimiyə sözdən əbədi heykəllər ucaltmışdır.

«Babək» poeması (əvvəlcə şeir olmuş) Azərbaycan xalqının tarixində böyük qəhrəmanlıq səhifəsi açmış bir insanın edam səhnəsini təsvir edir. Poema bu misralarla başlayır:

Iki on ildən artıq
Xilafəti titrətdi
qoç Babək,
babəkçilər.
Bir gün gəldi
gözəl ömrün
faciəli sonucu.

Babək xəyanətin qurbanı olur. Dünyaya meydan oxuyan ərəb xilafətini sarsıdan Babək Səhl-Sumbat xəyanətinə qurban gedir. Xain qonşularımızın – ermənilərin ulu babası elə qədim, uzaq əsrlərdə də öz xislətinə, təbiətinə sadiq qalır. Əsrlər gəlib keçir, amma səhl-sumbatların kökü kəsilmir:

Insan var ki,
işlərilə böyüyər;
məxluq var ki,
xəyanətlə kiçilir.
Sumbat da bir məxluqdu.
Belələri yenə var.
Yığın-yığın qalmayıb;
tək-tək, dənə-dənə var.
Belə-belə Sumbatlar,
dost cildində yadlar,
kişi sözün qənimi –
rəndəçilər, xarratlar,
kəminsan, kəmsavadlar,
orda-burda yenə var

xırda, dənə-dənə var.

Poemada Rəsul Rza qələminə xas olan obrazlı ifadə tərzi, sözlərin yaratdığı qeyri-adi mənzərə özünün maksimum poetik ifadəsini tapır. Babək şəhid olur, amma bu şəhidlik qəhrəmanlığın təsdiqi və etirafı kimi səslənir:

Babək bir anlıq
huşa gəldi.
Qan qurumuş dodaqlarından
qopdu qaynar kəlmələr.
Gəlmələr!
Itlər!
Bu nifrəti təkrarladı
qolu bağlı
babəkçilər – igidlər.
Qulaqlara qaynar ox kimi
sancıldı bu kəlmələr.
Gəlmələr!
Itlər!
Babək artıq dinmədi.
Yeni qılınc zərbələrindən
diksinmədi.

Poemanın sonu nikbinliklə bitir.

Babək cismən yoxdur, «qolsuz-qanadsız – yaralı tərlan kimi quru torpağa» düşüb, yad köpəklər isə yanında hürüşürlər. Müəllif isə sanki həmin edam səhnəsinin iştirakçılarından biridir və üzünü gələcəyə – bu günə tutur:

Qarşıda, gələcəkdə
Vətən uğrunda hələ
daha qəti, amansız,
qurtuluş əsrləri,
döyüş günləri vardı.

Bu günün qurbanları
sabaha yadigardı.

Bu qəhrəmanlıq ruhu Imadəddin Nəsimiyə həsr olunmuş «Son gecə» poemasında da duyulur. Şair Nəsiminin ölümünə bir gün qalmış keçirdiyi hisslərdən söhbət açılır.

Məlumdur ki, Rəsul Rza Nəsimi yaradıcılığını çox yüksək qiymətləndirmişdir. Hətta Suriyada olarkən, şairin harada dəfn olunduğu ilə maraqlanmış və qəbrinin yerini tapmış, bu haqda mətbuatda çıxış etmişdir.

«Son gecə» poeması öz fəlsəfi ahəngi ilə seçilir. Rəsul Rza Nəsimini fikir qəhrəmanı kimi təqdim etmişdir. Son zindan gecəsində sufi şairin dünyaya, insanlığa və gələcəyə baxışları öz əksini tapmışdır:

Imadəddin düşünür:
Nədən,
insanlığın iztirab yolu
belə uzun, belə sonsuzdur.
Əsrlər boyu
güc ədaləti susdurur.
Yox!
Yox!
Işıqlı günlər gələcək
bir-birindən mənalı,
bir-birindən göyçək.
Insan görəcək,
görəcək eşqin ülviyyətini.
Azad fikir,
azad kəlam olacaq
dünyanın bəzəyi.
Din dəllallarından
yaxa qurtaracaq insan
hər kəsin qəlbində
qadağasız etiqad, iman.

Könlü xoş,
vahiməsiz yaşayacaq
xilqətin əşrəfi,
dünyanın böyük memarı,
Allahın yer üzündə
təcəssümü – Insan!».

Rəsul Rza Azərbaycan xalqının daha iki nəhəng şairi – Füzuli və Sabir haqqında da poemaların müəllifidir. Bu poemalarda da eyni məhəbbət, eyni azərbaycançılıq ruhu hakimdir.

Rəsul Rza poeziyası, əgər belə demək mümkünsə, Azərbaycan xalqının sevinc və kədərlə dolu tarixinin güzgüsüdür. Onun «Qızılgül olmayaydı» poeması ədəbiyyatımızda ədəbi hadisə kimi qiymətləndirilmişdir. Birincisi, ona görə ki, bu əsər Stalinin şəxsiyyətinə pərəstiş kultuna qarşı yazılmış ilk əsər idi. Poemada Müşfiqin faciəli taleyi fonunda Azərbaycan ziyalılarının 37-ci il müsibətlərindən söz açılır. Nazim Hikmət «Qızılgül olmayaydı» poeması haqqında yazmışdı: «Bu əsər sovet ədəbiyyatında çox mühüm və hamımızı narahat edən mövzuda yazılmış ilk böyük əsərlərdəndir».

Çox ağır illər idi o illər. Amma Rəsul Rza mərdliklə etiraf edir ki:

Doğrudur,
ona namərd şilləsi kimi
vurulan imzalar içində
mənim imzam olmadı.

Poema haqqında qiymətli fikirlər söyləyən ədəbiyyatşünas-alim, professor Gülrux Əlibəyli yazır ki, «Qızılgül olmayaydı» poeması məhz ona görə oxucuda güclü təsir oyadır ki, burada sırf şəxsi duyğu və düşüncələr ümumi, ictimai xarakter daşıyır və bu, baş verən hadisələrin mahiyyəti barəsində az-çox ciddi düşünən hər bir insana yaxın və əzizdir.

Poemada 37-ci ilin obrazı böyük ustalıqla canlandırılmışdır. Stalin repressiyasının törətdiyi cinayətləri,

qorxu və vahiməni əks etdirmək üçün bundan siqlətli və kəsərli misralar olardımı?

Bir zaman ki,
Mircəllad cəlladın əlini sıxıb,
ədalətə qənim çıxıb,
qanunları yumruğunda sıxıb
dövran sürürdü.
Bir zaman ki,
cinayətin qanlı ləpirlərini
cinayət süpürürdü -
bağırmaq olardımı
elə bir gündə?
Bir gündə ki,
Xorenlər iş başındaydı,
Ruhullalar zirzəmidə, can üstündə!
Bir zaman ki,
yuxarıda,
pəncərələri qalın pərdəli otaqlarda
damaqda «Zolotoye runo»
tütünlü qəlyan,
qabaqda limonlu çay,
bir də imza gözləyən
«ölüm qərarı» yazılı varaq,
deyib-gülürdü Səlim Petroviçlər,
Topuridzelər, Markaryanlar,
kefləri kök,
damağları çağ…
Aşağıda, zirzəmidə
cuvarlı dustaq,
Anaşkin dustaq,
Seyid Hüseyn dustaq,
Cavad dustaq.

…Bir zaman ki,
Tanrısı «Gözəllik və sevgi» Cavid
olmuşdu «xalq düşməni».
Vəzifəli Borşovlar
doldururdu, boşaldırdı
tez-tez dustaqxananı.

«Qızılgül olmayaydı» poeması bu faciələri təsvir etməklə yanaşı, həm də onların bir daha təkrar olunmayacağına inam hissi ifadə edir. Şair inanır ki, «bir gün onun səhər gələcəkli oxucuları çiçəklərlə bəzəyəcək şairin heykəlini».

Bu arzular da çin oldu.

Rəsul Rza səksəninci illərin əvvəllərində vəfat etdi. O, nə Qarabağ hadisələrindən xəbər tutdu, nə də ölkəmizdə başlanan – torpaq itkisinə, yurd ağrısına aparan müharibənin şahidi oldu. Lakin bu qüdrətli şair Qarabağ müharibəsindən çox-çox əvvəl öz «Qarabağnamə»sini yazmışdı: «Sənin adın», «Dağüstü», «Bulaq suyu», «Nəğmələr doğulanda», «Tonqal yerində çiçək», «Piri babanın bağı», «Nəsildən-nəsilə», «Şuşam mənim»… O, bu şeirlərində Qarabağın keçmişindən qürurla danışır, «kölgələrində Üzeyirin nəğməsi, Vaqifin, Natəvanın şeiri» dolaşan, hər qarışı Üzeyir yetirə biləcək bir torpağı vəsf edir, Şuşanı «nağıllardan gəlmiş pəhləvan, Azərbaycan torpağının nur parçası, incə mahnılar yuvası, Pənahların yadigarı, alagözlü, qarasaçlılar diyarı» adlandırır. «Tonqal yerində çiçək» şeiri isə 1968-ci ildə yazılıb, Xankəndində «məhkəmədən» sonra vəhşicəsinə diri-diri yandırılmış üç nəfər azərbaycanlıya həsr olunmuşdur:

Burda torpaq yanmışdı
qapqara.
Tonqal tüstüsü yayılmışdı
yaxınlara, uzaqlara.
Havadan asılmışdı
yanmış ət qoxusu.
Gözlərdə közərmişdi
qurbanlıq olmaq qorxusu.

Torpaq döz dü
atəşin ağrısına,
inciyinə.
Yanıq qalıqları
qalmışdı ikinci günə.
Üçüncü gün yağış yağdı
dənəvər, gurşad.
Yudu tonqalın külünü.
Nə ah qaldı, nə fəryad.
Keçdi bir neçə gün,
tonqal yerində çiçək əkdilər.
Ancaq deyən olmadı, burda
qırmızı qərənfillər
tonqaldan qabaq gərəkdilər,
yanıq ət qoxusundan qabaq,
qurbanlıq qoxusundan qabaq.
Soruşan olmadı,
tonqalı kimlər qaladı,
çiçəkləri kimlər əkdi?
Bu gün yaxşı tərəfi nə,
pis tərəfi nədir.
Yoxsa bu qan rəngli qərənfillər
sallaqların şərəfinədir?

Bu şeir sovet dövründə yazılmışdır. Amma o vaxt məlum səbəblərə görə dərc edilməmişdir. Bizcə, əsas məsələ odur ki, yazılmışdır, özü də böyük cəsarətlə…

***

Zəmanəmizin görkəmli şairi Rəsul Rza haqqında qeydlərimi buradaca bitirmək istərdim. Lakin Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin onun yaradıcılığı haqqında söylədiyi bu fikirləri elə bilirəm ki, xatırlamamaq mümkün deyil: «30-cu illərin əvvəllərində yaradıcılıq fəaliyyətinə başlayan Rəsul Rza yarım əsr ərzində Azərbaycan ədəbiyyatının, Azərbaycan şeir sənətinin inkişafına böyük təsir göstərmişdir. O, bir çox

əsərləri – poemaları, şeirləri, publisistik məqalələri, pyesləri və ümumi ədəbi yaradıcılığı ilə Azərbaycan ədəbiyyatını, Azərbaycan şeir sənətini zənginləşdirmişdir.

Rəsul Rzanın yaradıcılığında həm Azərbaycanın tarixi, həm də yeni həyatı yüksək bədii səviyyədə əks olunmuşdur. Ölkəmiz üçün çətin dövr olan Böyük Vətən müharibəsi illərində Rəsul Rza öz yaradıcılığı ilə, vətənpərvərlik hissləri ilə, zəngin olan şeirləri ilə Azərbaycanın oğul və qızlarını Vətənin müdafiəsinə səfərbər etmişdir.

Rəsul Rza yaradıcılığının səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, o, dünya ədəbiyyatının, ən yaxşı nümunələrinin təsiri altında, böyük Mayakovskinin poetik irsinin səmərəli təsiri altında – zəngin milli ədəbi ənənələrdən istifadə edərək, Azərbaycan poeziyasını yeni bədii ifadə vasitələri ilə, yeni şeir formaları ilə zənginləşdirmişdir.

…Rəsul Rzanın bədii yaradıcılığı respublikamızda hamı tərəfindən sevilmiş, ona hüsn-rəğbət və hörmət, ölkəmizdə və xaricdə böyük şöhrət qazandırmışdır. Onun əsərləri SSRI xalqlarının dillərinə və xarici dillərə tərcümə olunmuşdur».

2002

SU BALDIRĞANI

Belə şərt kəsdik: əgər bizi «Berlaq»a – xüsusi düşərgəyə göndərməyi qərara alsalar, üçümüz də intihar edək, məşəqqətli ömrümüzə birdəfəlik son qoyaq.

Düşərgədəki hər bir adam ötüb keçən günlə yaşayır, fikirləşir ki, hardasa – onun dünyasından kənarda, ötən gecəsini keçirdiyi yerdən də pis yerlər var. Və əslində, bu, həqiqətdir. Belə qorxulu yerlər var və həmin yerlərə köçürülmək təhlükəsi hər bir məhbusun başı üstündə daim Domokl qılıncı kimi sallanır. Ona görə də düşərgədəkilərdən heç biri heç vaxt harasa getməyə can atmır. Hətta, xoş ovqat gətirən yaz yelləri də düşərgədəki adamların hissiyatında dəyişiklik duyğusu oyatmır. Dəyişiklik – həmişə təhlükəlidir. Bəli, insanın «düşərgədə» əxz etdiyi vacib dərslərdən biri elə budur. Dəyişikliyə, əsasən, «düşərgə»dəki mühitə bələd olmayanlar inanırlar. Düşərgədəkilər isə, dediyim

kimi, hər cür dəyişikliyin əleyhinədirlər: «Yəni, burda nə qədər pis olsa da – orda, tindən o yanda daha pis ola bilər».

Odur ki, həlledici məqamda intihar qərara alındı.

Modernist rəssam Çyurlonisin pərəstişkarı – Anti həm estonca, həm də rusca danışırdı. Diplomsuz həkim Draudvilas–Mitskeviç poeziyasının həvəskarı həm litva, həm də rus dilimi bilirdi. Onların dostu – tibb fakultəsinin ikinci kurs tələbəsi Qarleys də iki dildə – latışca və rusca yaxşı danışırdı.

Hər üç pribaltikalı düşərgədə qərara aldılar ki, intihar etsinlər.

Eston Anti bu Pribaltika hekatombunun beyni və iradəsi idi.

Intihar edəcəkdilər. Lakin necə?

Məktub yazmaq lazım idimi? Yox. Anti bunun əleyhinə idi. Qarleys də belə düşünürdü. Draudvilas isə, əksinə, məktub yazmağın tərəfdarı idi, lakin dostları onu inandırdılar ki, əgər, təşəbbüs (intihar) baş tutmazsa, məktub sonradan dəhşətli ittihama çevrilər, məsələni mürəkkəbləşdirər, istintaqda izahat tələb edilməsinə gətirib çıxarar.

Nəhayət, qəti qərara gəldilər ki, məktub yazmaq lazım deyil.

Hər üçü çoxdan «qara siyahı»ya düşmüşdü və hər üçünə gün kimi aydın idi ki, onları «nömrəli düşərgə» – «xüsusi düşərgə» gözləyir.

Odur ki, bir daha taleyin ümidinə qalmamağı ən doğru yol hesab etdilər.

Draudvilası «xüsusi düşərgədə» heç şübhəsiz ki, bir həkim kimi qəbul etməyəcəkdilər; çünki litvalı xatırlayırdı ki, hələ burda – adi «düşərgədə» tibb sahəsi üzrə ona iş tapmaq müşkülə çevrilmişdi. Indi orda işin real olması üçün möcüzə baş verməli idi. Möcüzə də ki, hər zaman baş vermirdi. Qarleys də eynən bu cür düşünürdü. O ki qaldı rəssam Anti – dərk edirdi ki, onun sənəti hətta aktyorluqdan və yaxud müğənnilikdən də pisdir və çox güman ki, «xüsusi düşərgədə» də heç kimə gərək olmayacaqdı, necə ki, indiyəcən gərək olmamışdı…

Intiharın birinci üsulu – qaçmaq, nəzarətçi qaravulçunun gülləsinə hədəf olmaq idi. Lakin düşərgədəki nəzarətçi qaravulçular Bernard Şounun «Şeytanın şagirdi» pyesindəki kral Georqun əsgərləri kimi nişan almaqda o qədər də mahir

deyildilər. Odur ki, bu, çox zaman yaralanmaqla, sonradan isə yaxşıca kötəklənməklə nəticələnirdi. Orda heç kimi elə o dəqiqə – ələ keçən kimi güllələmirdilər ki, canı qurtarsın.

Qaravulçuların səriştəsinə, doğrudan da, ümid az idi və bu variant aradan çıxırdı.

Çayda boğulmaq necə? Kalıma lap yaxınlıqda idi, ancaq indi qışdır, buzu harasından və necə deşəsən ki, özünü suya təpə biləsən? Bir də, üç metr qalınlığındakı buzu deşmək də ağlasığmaz görünürdü.

Yenə özünü asmaq etibarlı idi. Amma harda? Işdə, ya «barak»da? Elə bir münasib yer yox idi. Gəlib xilas edərdilər – həmişəlik rüsvay olardın. Özünü güllələmək? Məhbusa silah verən kimdi? Silahlı qaravulçuya hücum etmək isə qaçmaqdan da pisdir…

Petrni kimi damarını kəsməkdə ki, heç mümkün olan iş deyildi. Bunun üçün isti su və vanna lazımdır, yoxsa ömürlük əyri qolla əlil qalarsan. Qalır yalnız zəhərlənmə – bir qab baldırğan suyu, ən sərfəli vasitə, ən qısa yol.

Bəs, baldırğanı hardan tapasan? Axı, onsuz sianlı kalium əldə etmək qeyri-mümkündür. Xəstəxana? Aptek? Əsl zəhər ambarıdır ki!.. Yox, elə bir fincan baldırğan suyu lazımdır ki, sokratsayağı ölüm qədəhi hazırlayasan…

Nəhayət, baldırğan tapıldı. Draudvilasla Qarleys onun öldürücü təsirinə zəmanət verdilər.

Bu, fenoldur – ərimiş karboturşu. Draudvilasla Qarleysin işlədikləri cərrahiyyə şöbəsində daima ehtiyatda saxlanılan güclü antiseptik.

Draudvilas bu qiymətli şüşəni Antiyə göstərdi.

Anti dedi:

– Lap konyak kimidir.

– Hə, hə, oxşayır.

– Mən üçulduz yarlık düzəldib ona yapışdıraram.

«Xüsusi düşərgə» hər üç aydan bir öz qurbanlarını aparırdı.

Bu zaman fəlakətdən yaxa qurtarmaq üçün bir bəhanə ilə mərkəzi xəstəxanada daldalanmaq mümkün idi. Yox, əgər daldalanmağı bacarmasan, onda geyinib-keçinib, şey-şüyünü yığıb, borclarını verib, elə skamyadaca oturub arxanca gələnləri

səbrlə gözləməlisən. Bu zaman başına tavan uçmayacaq ki… Sadəcə, müticəsinə oturub gözləməlisən, vəssalam.

Bir saat, ya bir gün keçəndən sonra aydın olur ki, sən, həqiqətən də, «yataba gedənlər»in siyahısındasan və heç kim səni saxlaya – xilas edə bilməz...

Həə, axır ki, baldırğanın vaxtı gəlib çatdı.

Anti, Draudvilasdan şüşə butulkanı alıb, ona konyak yarlıkı yapışdırdı – indi o artıq öz modernist zövqünü qəlbində «dəfn edib», realist rəssam olmağa məcbur idi.

Çyurlonisin pərəstişkarının son əsəri – «Üç uldüz konyak yarlıkı» – təmiz realist üslubdaydı. Beləliklə, Anti son məqamda öz dəsti-xəttinin əleyhinə gedərək, realizmə təslim oldu və düzünü deyək ki, bu ona, mənəvi baxımdan, çox baha başa gəldi.

– Bəs niyə üç ulduz?

– Çünki biz üç nəfərik. Bu, bir rəmz, bir tragik alleqoriyadır.

– Bəs, niyə sən bu alleqoriyanı belə naturalistcəsinə təsvir etmisən? – deyə Draudvilas zarafat etdi.

– Çünki birdən gəlib üstümüzə çıxsalar, desələr bu nədir, izah edərik ki, konyakdır, vida münasibətiylə boş konserv qutusunda içirik.

– Ağıllı fikirdir.

Və doğrudan da, qəfil gələn oldu – bu, keşikçi idi, amma o heç nə hiss etmədi, çünki Anti butulkanı cəld aptek şkafına qoya bildi, keşikçi çıxan kimi yenə götürdü.

Anti düzəltmə «qədəhlərə» – konserv qutularına fenol tökdü.

– Hə, sizin sağlığınıza!

Anti içdi, Draudvilas da içdi, Qarleys çecədi və ağzındakını udmayıb tüpürdü və huşunu itirənlərin üstündən adlayıb özünü su borusuna yetirdi, zəhərli turşudan yanmış ağzını yaxaladı.

Draudvilasla Anti xırıldaya-xırıldaya yerdə qıvrılırdılar. Qarleys istintaqda nə deyəcəyini götür-qoy etməyə çalışırdı…

Qarleys düz iki ay xəstəxanada yatmalı oldu. Nəhayət, yanmış boğazı sağaldı (uzun illərdən sonra isə o, Moskvaya –

yanıma gəldi; and içib, dedi ki, intihar – faciəvi səhv idi, mən şkafa gizlincə «üç ulduz konyak» qoymuşdum, biz, həqiqətən də, onu içməli və fikrimizdən daşınmalı idik, sadəcə, keşikçi işləri korladı, Anti səhvən şkafdan konyak butulkası əvəzinə fenol şüşəsini götürdü).

Istintaq aylarla uzandı, lakin Qarleys məhkum olmadı, bəraət aldı. Konyak olan şüşə isə heç cür tapılmadı. Əgər, həqiqətən də, o, şüşə var idisə, kim bilir, kimə «mükafat» verilmişdi.

Müstəntiq, Qarleysin izahatlarının əleyhinə deyildi, çünki günah sahibi günahını boynuna alırdı, əlavə əməliyyata ehtiyac qalmırdı. Bununla, Qarleys, eyni zamanda, istintaqa da ağıllı və məntiqli bir çıxış yolu göstərirdi.

Draudvilas və Anti isə Pribaltika hekatombasının təşkilatçıları kimi heç vaxt bilmədilər ki, onların haqqında azmı, ya çoxmu danışdılar. Amma, həqiqətən, bu mövzu çox çözüldü və çox mətləblərə işıq saldı.

Illər keçdi. Qarleys öz köhnə ixtisasını bir balaca dəyişdi, diş protezi ustası oldu və dediyinə görə, bu peşə ilə yaxşı pul qazandı.

Qarleys hüquqi məsləhət almaq üçün bu yaxınlarda yanımda oldu. Onun Moskvada ev qeydiyyatına düşməyə icazəsi yox idi. Yalnız arvadının yaşadığı yerdə – Riqada məskunlaşa bilərdi. Dediyinə görə, reabilitasiya haqqında ərizə yazıb və bu barədə Kalımadakı düşərgə dostlarının birindən məsləhət də istəyib. Bundan ötrü dostuna skatuizm kimi izah etdiyi bütün gənclik əməllərini danışıb.

Qarleys söhbət əsnasında düşərgə dostundan gileyləndi:

– Mən ondan soruşdum ki, ərizədə hər şeyi olduğu kimimi yazım? Və ağır günlərimin ən yaxın şahidi dedi ki, bütün həqiqəti yaz, heç nə gizlətmə. Mən də onun dediyi kimi etdim və reabilitasiya almadım. Dedilər ki, yalnız Riqada yaşaya bilərsən. Görürsən, ən yaxın bildiyim dost məni necə güdaza verdi?

– Qarleys, əslində o heç də sizi güdaza verməyib. Siz, sadəcə olaraq qadağan olunmuş iş barədə rəy soruşmusuz. Onun hər hansı başqa bir cavabı ilə nə edə bilərdiniz? Dostunuz fikirləşə bilərdi ki, siz, yəqin, cəsussunuz. Yox, əgər bu fikirdə olmasaydı da, nəyə görə o, risq etməliydi?

Yeganə məntiqi və dürüst cavab yalnız belə ola bilərdi ki, onu da almısınız. Özgə sirri adamın öz sirrindən qat-qat ağır olur.

GILƏMEYVƏ

Fadeyev:

– Sizinlə özüm danışacağam, – dedi və tüfəngin lüləsini gicgahıma dirədi.

Ha güc verdimsə də, çiynimdən tappıltı ilə sürüşüb düşən şalbanı yerdən qaldıra bilmədim və birdən necə oldusa, ayağım sürüşdü – üzüqoylu qarın içinə yıxıldım. Söyüş, yaxud digər təhqiredici sözlər eşitməsəm də, hiss etdim ki, nəzarətçilər də, çiynində ağır şalban tutmuş məhbuslar da narazıdılar: hamı düşərgəyə tələsirdi, hamı yemək, yatmaq istəyirdi. Uzun, məşəqqətli qış günü hamını bezdirmişdi, mən isə heysiz, hərəkətsiz halda qarın içindəcə uzanmışdım. Məhbuslarla həmişə «siz»lə danışan Fadeyev lap əsəbiləşdi:

– Bura baxın, qoca, – dedi, ola bilməz ki, bu cür böyük alın yiyəsi – əlini alnıma tərəf uzatdı – belə bir dirəyi, dirək nədir, bapbalaca çöpü yerindən qaldıra bilməsin. Siz özünüzü açıq-aşkar bicliyə qoyursunuz. Siz faşistsiniz, xalqımızın düşmənlə vuruşduğu vaxtda ayaqlarına pəl vurursunuz.

Xırıldaya-xırıldaya dedim:

– Mən faşist deyiləm, xəstə və acam. Faşist isə sən özünsən. Qəzetlərdəki yazılardan yaxşı öyrənmisən ki, faşistlər qocaları necə əzab verə-verə öldürürlər. Təsəvvür edirəm, Kalımada törətdiklərini gəlininə necə danışacaqsan...

Bilirdim ki, döyüləcəyəm. Nə edim, təbiətim belədir: yaxşı geyinən, sağlam, tox, qırmızı yanaqlı insanları «həzm» edə bilmirəm.

Mən qorxmurdum. Bununla belə, dizlərimi elə qatladım ki, qarnımı zərbələrdən qoruyum. Bu, əclafların mənə bəxş etdikləri instinktiv bir hərəkət idi. Əslində, mən, qarnıma dəyən zərbələrdən də heç qorxmurdum.

Fadeyev çəkmə ilə kürəyimə vurdu. Qəribədir ki, ağrı duymadım, amma isti hiss etdim. Düşündüm: «Əgər ölərəmsə – daha yaxşı».

– Qulaq asın, – Fadeyev çəkməsinin ucu ilə üzümü səmaya sarı çevirdi – sizinlə birinci dəfə deyil… qardaşınızı da görmüşəm…

Ikinci nəzarətçi – Bozpapaq bizə yaxınlaşdı.

– Ey, dön görüm. Hə, yaxşı, yadımda qaldın. Gör necə çirkin və kinlisən. Sabah səni, bax, bu əllərimlə güllələyəcəyəm. Başa düşdün?

– Başa düşdüm, – deyib ağzıma dolmuş duzlu qanı yerə tüpürdüm və birtəhər ayağa qalxdım.

Şalbanı yavaş-yavaş, güclə də olsa, sürüməyə başladım. Mən döyüləndə yerlərində donub qalmış məhbuslar fit verdilər, qışqırdılar və söyüş söyməyə başladılar.

Ertəsi gün səhər bizi işə Bozpapaq apardı. Hələ keçən il kəsilmiş meşədə nə qədər ağac qalmışdısa, qışda dəmir sobalarda yandırmaq üçün toplamalı idik.

Biz adam boyundan da hündür kötükləri linglə qazıb çıxarır, mişarlayır və səliqə ilə üst-üstə yığırdıq.

Işlədiyimiz yerlərdə tək-tük salamat qalmış ağacları isə Bozpapaq nişanlayır və oranı qadağan olunmuş zona elan edirdi…

Məhbuslardan biri Bozpapaq üçün təpəcikdə – gözləmə «məntəqəsi»ndə tonqal qaladı. Iş vaxtı yalnız nəzarətçilərin tonqal ətrafında qızınmağa ixtiyarı var idi.

Külək yağmış qarı çoxdan sovurub aparmışdı. Qırov basmış sürüşkən otlarla təmasdan adamın əli buz kimi donur və rəngini dəyişirdi. Bəzi yerlərdə çox da hündür olmayan itburnu kolları buz bağlamışdı, buna baxmayaraq, onların yarıdonmuş tünd çəhrayı meyvələri qeyri-adi ətir saçırdı. Yetişib göyərmiş və şaxta dəymiş mərsinlər itburnundan da dadlı idi. Gödək və düz budaqlardan parlaq göy rəngli, boş dəri pul kisəsi kimi büzüşmüş, amma göyümtül – qara şirəsini saxlamış cır mərsin giləmeyvələri sallanmışdı.

Bu vaxtın şaxta dəymiş, yetişmiş meyvələrinin özünəməxsus dadı vardı.

Məhbus yoldaşım Rıbakov papiros çəkmək üçün verilən qısa fasilədə, bəzən də, Bozpapağın başqa səmtə baxdığı vaxtda bu giləmeyvələri konserv qutusuna yığırdı. Əgər, Rıbakov konserv qutusunu giləmeyvə ilə doldursaydı, əvəzində, mühafizə dəstəsinin aşpazından, şərtləşdikləri kimi, çörək alacaqdı.

Mənə isə heç kim belə bir şey sifariş etməmişdi, odur ki, yığdığım giləmeyvələri özüm yeyirdim. Hər meyvəni o dəqiqə udmur, dilimin ucunda saxlayırdım, yüngülcə əzirdim və əzilmiş giləmeyvənin şirin, ətirli şirəsi ağlımı, huşumu bir anlıq da olsa, başımdan alırdı.

Mən giləmeyvə toplamaqda Rıbakova kömək etmək haqqında düşünmürdüm, yəqin elə onun özü də bunu istəmirdi, çünki onda gərək çörəyi də yarı böləydi – məni boğazına ortaq edəydi…

Rıbakovun konserv qutusu dolmaq bilmirdi – giləmeyvə az idi...

Bir də baxdıq ki, özümüz də hiss etmədən qadağan olunmuş zonaya lap yaxınlaşmışıq. Nişan ağacı düz gözümüzün önündə idi.

– Bura bax, Rıbakov, gəl qayıdaq, – dedim.

Irəlidə isə saysız-hesabsız itburnu və mərsin kolları görünürdü. Biz bu yeri çoxdan gözaltı eləmişdik. Nişan ağacı isə, dediyim kimi, iki addımlığımızda idi.

Rıbakov əlindəki yarımçıq qutunu və qüruba enən soyuq şimal günəşini göstərib, yavaş-yavaş sehrli giləmeyvə kollarına doğru addımladı…

Birdən atəş səsi gəldi və Rıbakov iki təpəciyin arasında üzü üstə yerə sərildi. Bozpapaq tüfəngini havada yellədə-yellədə qışqırdı:

– Yaxına getmə, qoy yerində qalsın!

Bozpapaq tətiyi bir də çəkdi və ikinci dəfə atəş açdı. Mən bunun nə demək olduğunu bilirdim. Birinci atəş xəbərdarlıq üçün idi, ikinci atəş isə…

Rıbakov təpəciklərin arasında çox balaca görünürdü. Sonsuz səma, nəhəng dağlar, burula-burula axan çay əvvəlki kimi yenə də əzəmətli idi. Allah bilir, bu dağlarda – təpəciklər arasındakı çığırlarda nə qədər adam güdaza getmişdi…

Rıbakovun giləmeyvə yığdığı qutu üzüaşağı diyirlənmişdi. Mən fürsət tapıb onu götürdüm və cibimdə gizlətdim. Bəlkə bu giləmeyvələrə görə bir tikə çörək aldım. Axı, mən, bədbəxt Rıbakovun bunları nədən ötrü yığdığını bilirdim.

Bozpapaq, heç nə olmamış kimi, sakit halda bizim kiçik dəstəni sıraya düzüb saydı və düşərgəyə getməyimiz barədə əmr verdi.

Yolda o, qəfildən tüfəngin lüləsi ilə çiynimə toxundu və mən özümdən asılı olmayaraq, geri qanrıldım.

– Səni vurmaq istəyirdim, amma bic tərpəndin, qabağa getmədin, əclaf! – dedi.

APOSTOL PAVEL

Kəşfiyyat quyusunun nərdivanından sürüşüb yıxılanda dabanım bərk yaralandı, bunu rəislər də gördülər və hiss etdilər ki, yəqin uzun müddət hələ bu cür axsayacağam. Amma işsiz dayanmaq olmazdı, odur ki, məni briqadanın dülgəri – Adam Frizorgerə köməkçi verdilər. Buna mən də, Frizorger də ürəkdən sevindik.

Frizorger, belə deyək, birinci həyatında Volqa sahilində – Marksştat yaxınlığında hansısa bir alman kəndində din xadimi imiş. Mən onunla tif karantini zamanı böyük yatabların birində görüşmüşdüm və birlikdə bura – kömür axtarmağa gəlmişdik. Qeyd edim ki, artıq Frizorger də, mənim kimi, tayqada kiçik gəlirli yerlərin əksəriyyətində olmuşdu və əsəbləri korlana-korlana yarımdəli vəziyyətinə düşmüşdü. Biz kömür kəşfiyyatı ilə məşğul olan mədənlərdə əlil azad muzdlulardan təşkil olunmuş fəhlələrə kömək edirdik. Bu azadmuzdlular əslində, cəza müddətlərini təzəcə başa vurmuş məhbuslar idilər və düşərgədə onları həqarətlə «azadcıqlar» adlandırırdılar.

Biz gələndə bu azadmuzdluların qırx nəfərində maxorka almaq üçün ikicə manat güclə tapıldı. Lakin, hər halda, bunlar bizim tayımız deyildilər. Hamımız anlayırdıq ki, iki-üç aydan sonra onlar paltarlarını da dəyişəcəklər, pasport da alacaqlar,

içki də içəcəklər, hətta, ola bilsin ki, bir ilin tamamında evlərinə də gedəcəklər.

Kəşfiyyat rəisi Paramonovun yüksək əmək haqqı və qütb payoku vədindən sonra onların bu ümidləri daha da aydın hiss olunurdu. «Silindr geyinib evə gedəcəksiz» – deyə rəis daim təkrar edirdi. Bizimlə – məhbuslarla isə silindr və qütb payokları barədə kəlmə də kəsilmirdi.

Yeri gəlmişkən, məhbus olmağımıza baxmayaraq, o, bizimlə kobud davranmırdı. Kəşfiyyat aparmaq üçün isə ona əlavə məhbus vermirdilər, bir sözlə, Paramonovun rəislərdən ala bildiyi bu beş nəfər onun nailiyyətinin son həddi idi.

Bizi siyahı ilə baraklardan çıxarıb, onun əl fənəri və nüfuzedici gözləri önündə sıraya düzəndə və sorğu-suala tutanda o çox məmnun qaldı. Sırada birinci olan – yaroslavllı çalbığ hazırcavab Izqibin düşərgədə də anadangəlmə diribaşlığını hələ itirməmişdi. Bu ustalığının ona nəsə köməyi dəymişdi və o başqaları kimi bir dəri, bir sümük deyildi.

Ikinci, Kamenev – podolskili təkgöz nəhəng özünü Paramonova elə təqdim etdiyi kimi – «paravoz ocaqçısı» idi.

– Çilingərliyi də, deməli, bir az bacararsan, – Paramonov dedi.

– Bacararam, bacararam, – ocaqçı həvəslə təsdiq etdi. – O, azad kəşfiyyat işinin üstünlüyünü dərhal anlamışdı.

Üçüncü, aqronom Ryazanov idi. Onun peşəsi Paramonovu vəcdə gətirdi. Bu cür gözlənilməz münasibətdən sonra təbii ki, aqronomun cın-cındır paltarına heç kim fikir vermədi. Bir də ki, düşərgədə adamları geyimlərinə görə qiymətləndirmirlər.

Dördüncü mən idim. Mən nə çilingər, nə ocaqcı, nə də aqranom idim. Amma mənim uca boy-buxunum, deyəsən, Paramonovu sakitləşdirdi, bir də ki, bir adama görə siyahıda düzəliş etməyə də dəyməzdi. Odur ki, o, başı ilə razılığını bildirdi.

Elə bu vaxt qəribə bir əhvalat baş verdi: bizim beşinci öz-özünə dua oxuyarkən əllərilə üzünü örtdüyündən, Paramonovun dediklərini eşitmədi. Amma, görünür, bu, rəis üçün təzə şey deyildi.

Paramonov üzünü bizim qovluqlarımızı əlində tutmuş hərbi qulluqçuya tərəf çevirdi. Hərbi qulluqçu onun nə soruşmaq istədiyini başa düşüb dedi:

– Bu, dülgərdir.

Beləliklə, qəbul qurtardı və bizi kəşfiyyata apardılar.

Frizorger sonra mənə danışdı ki, onun adı oxunanda elə bilib ki, güllələnməyə çağrılır, çünki hələ qızıl mədənində ikən müstəntiq onu qorxudubmuş…

Biz onunla düz bir il bir barakda yaşadıq və heç belə bir hadisə olmadı ki, üz-üzə gələk, söyüşək, ya dalaşaq. Bu, düşərgədə – məhbuslar arasında nadir hadisə idi. Çox vaxt görürdün ki, boş şeydən ötrü mübahisə başladı və bu mübahisə bir anda elə bir həddə qalxdı ki, sanki növbəti mərhələdə, yəni söyüşlər qurtaranda, bıçaq və ya ən yaxşı halda maşa işə düşəcək. Lakin mən bu yağlı söyüşlərə əhəmiyyət verməməyə çox tez alışdım. Maraqlıdır ki, qızışanlar tez də soyuyurdular və əgər hər iki tərəf hələ tənbəl-tənbəl bir müddət söyüşürdüsə də, bu, bir qayda olaraq, bir növ, özünü göstərmək üçün idi.

Lakin Frizorgerlə mən bir dəfə də olsun mübahisə etmədik. Elə bilirəm ki, bu, Frizorgerin xidməti idi, çünki o, qeyri-adi dərəcədə dinc idi, həmişə az danışar, heç kimi təhqir etməzdi. Səsi qoca səsi kimi hərdən titrəyirdi. Amma elə bil ki, o bunu qəsdən, nəzərə çarpdırmaq üçün edirdi. Bü cür səslə teatrlarda qoca rollarını oynayan cavanlar danışırlar.

Düşərgədə çoxları özlərini olduqlarından qoca və zəif göstərməyə çalışırlar. Bütün bunlar çox vaxt bilərəkdən, yəni şüurlu deyil, instinktiv olaraq edilir. Amma iş burasındadır ki, yaşlarını çoxaldanların və özlərini gücsüz göstərənlərin böyük əksəriyyəti ağır vəziyyətə düşürdülər, kələkləri baş tutmurdu – bu, həyatın istehzası idi…

Lakin mən sidq-ürəkdən deyə bilərəm ki, Frizorgerin səsində heç bir hiylə yox idi.

Hər səhər və axşam o, üzünü hamıdan kənara çevirib, döşəməyə baxa-baxa səssizcə dua oxuyurdu. Yalnız dini mövzularda olan ümumi söhbətlərdə iştirak edirdi – bu isə çox nadir hallarda olurdu, çünki məhbuslar dini söhbətləri sevmirdilər.

Köhnə ağzıyava Izqibin Frizorgeri ələ salmaq üçün söz atanda, elə mülayim təbəssümlə qarşılandı ki, gülləsi boşa getdi. Frizorgeri hamı sevirdi, hətta Paramonov da.

Bizim koykalarımız yanaşı idi və biz çox söhbət edirdik. Bəzən o mənim populyar Incil mövzularında bildiklərimi heyrətlə dinləyər və bığaltı gülərdi. Sonra həvəsə gəlib, Incil mövzusunda çox az bildiyim və ya heç bilmədiyim əhvalatlar danışardı.

Amma bir dəfə, necə oldusa, Frizorger on iki apostolun adlarını sadalayarkən səhv etdi. O, apostol Pavelin adını çəkdi. Mən apostol Paveli xristian dininin həqiqi yaradıcısı hesab etdiyimə və onun tərcümeyi-halına bələd olduğuma görə, Frizorgerin səhvini qeyd etmək fürsətini əldən vermədim.

Frizorger etiraz edib gülə-gülə dedi:

– Yox, yox, siz bilmirsiniz, bax, belədir.

– Və o, barmaqlarını qatlaya-qatlaya saymağa başladı:

– Piter, Paul, Markus…

Mən apostol Pavel haqqında bütün bildiklərimi söyləməyə başladım. O susub diqqətlə mənə qulaq asdı. Artıq gec idi, yatmaq lazım idi və biz yerimizə girdik…

Gecə oyandım və şüşəsiz lampanın tüstülü işığında gördüm ki, Frizorgerin gözləri açıqdır, öz-özünə pıçıldayır: «Ilahi, mənə kömək elə! Piter, Paul, Markus…».

O səhərə kimi yatmadı, işə də erkən getdi, axşam da gec qayıtdı – mən artıq yatmışdım…

Yuxudan sakit ağlamaq səsinə oyandım. Frizorger diz üstə çöküb dua oxuyurdu.

Mən duanın qurtarmasını gözləyib:

– Sizə nə olub? – deyə soruşdum.

Frizorger alaqaranlıqda əlimi tapıb sıxdı:

– Siz haqlısınız, – dedi. Pavel on iki apostolun arasında olmayıb. Mən Varfolemeyin adını unutmuşam.

Mən susdum. O:

– Siz mənim göz yaşlarıma təəccüb edirsiniz? – dedi. Bu, xəcalət yaşlarıdır. Mən bunu unutmamalı idim. Bu, günahdır, böyük günahdır. Mənə – Adam Frizorgerə bağışlanılmaz səhvini başqası göstərdi. Yox, yox, siz heç nədə təqsirkar deyilsiniz,

təqsirkar mənəm, bu mənim günahımdır. Amma sağ olun ki, səhvimi düzəltdiniz. Hər şey yaxşı olacaq.

Mən onu güclə sakitləşdirdim və o vaxtdan biz daha möhkəm dost olduq.

Bir dəfə dülgər otağında heç kim olmayanda Frizorger parçadan tikilmiş pul kisəsindən bir şəkil çıxarıb mənə göstərdi:

– Qızımdır. Amma mənə məktub yazmır, görünür, ünvanımı bilmir.

Bu vaxt Paramonov səssizcə emalatxanaya girdi.

– Qızındır? – şəklə nəzər salıb soruşdu.

Frizorger gülümsəyərək cavab verdi:

– Qızımdır, rəis.

– Məktub yazır?

– Yox.

– Niyə? Qocanı unudub? Axtarış barədə mənə ərizə yaz, göndərim.

Sonra Paramonov mənə sarı baxdı:

– Ayağın necədir?

– Axsayıram, rəis.

– Yaxşı, axca, axca... – Paramonov emalatxanadan çıxdı.

O vaxtdan Frizorger artıq məndən gizlətmədən axşam duasını qurtarıb, koykasına uzanır və qızının fotoşəklini çıxarıb, qeyri-adi bir şəfqətlə sığallayırdı.

Biz, beləcə, yarım il, yəni o poçt gələnəcən dinc şəraitdə yaşadıq. Onda, Paramonov səfərdə idi, poçtu onun məhbuslardan olan katibi – Ryazanov qəbul etmişdi. Sən demə, Ryazanov heç aqronom deyilmiş, esperantoçu imiş və bu ona ölən atların dərisini məharətlə soymaqda, qalın dəmir boruları qumla doldurub, tonqalda qızardaraq əyməkdə və digər idarə işlərini aparmaqda mane olmurdu.

– Işə bax ha, – Ryazanov mənə dedi, – Frizorgerin adına gör nə ərizə gəlib!

Konvertin üstündə yazılmış yazıda rəsmi şəkildə xahiş olunurdu ki, məhbus Frizorger qızının surəti göndərilən ərizəsi ilə tanış edilsin. Ərizədə isə qızı qısa və aydın şəkildə yazırdı ki, o, atasının xalq düşməni olduğuna əmin olandan sonra ondan

imtina etməyi zəruri sayır və xahiş edir ki, qohumluqları pozulmuş hesab edilsin.

Ryazanov kağızı əlində fırladaraq:

– Alçaqlığa bax ha, – dedi. Qızın nəyinə lazımdır bu? Partiyayamı daxil olmaq istəyir?

Mən başqa şey barədə düşünürdüm. Məhbus ataya bu cür ərizə göndərmək nə üçündür? Bu, məhbusun yalan ölümü barədə qohumlarına xəbər vermək kimi yeni bir sadizm növüdürmü və ya, sadəcə, hər şeyi qanuni şəkildə yerinə yetirmək deməkdirmi? Və ya daha nə?

– Bura bax, Vanyacan, – Ryazanova dedim, sən poçtu qeydiyyatdan keçirmisən?

– Yox, elə indicə gəlməyibmi?

– Çox yaxşı, konverti mənə ver.

Və mən işin nə yerdə olduğunu ona danışdım.

Ryazanov tərəddüdlə dedi:

– Bəs məktub? Güman ki, qızı da bunu ona yazıb.

– O məktubu da yandırarıq.

– Yaxşı, al.

Mən konverti ovcumun içində bərk-bərk əzəndən sonra sobaya atdım.

Düz bir aydan sonra qızın birbaşa atasına yazdığı məktub da gəldi, biz onu da həmin sobaya atdıq…

Bundan bir qədər sonra məni başqa yerə apardılar, Frizorger isə qaldı…

Sonradan nələr olduğunu bilmirəm. Amma son vaxtlar, nədənsə, onu tez-tez xatırlayır və titrək, həyəcanlı pıçıltısını eşidirəm: «Piter, Paul, Markus…».

1954.

IUDEYA PROKURORU

5 dekabr 1947-ci ildə insan yüklənmiş «KIM» paroxodu Naqayev limanına yan aldı. Bu, sonuncu reys idi, necə deyərlər, «naviqasiya» qurtarmışdı.

Maqadan şəhəri «qonaqlarını» qırx dərəcə şaxta ilə qarşılayırdı. Yeri gəlmişkən, bu dəfə gətirilən məhbuslara «qonaq» demək olmazdı, çünki onlar, əslində, yerli sakinlər idi.

Şəhərin bütün inzibati orqanlarının rəhbərləri, rəislər, hərbçilər, mülki geyimli məmurlar limanda idilər.

Maqadandakı bütün yük nəqdliyyatı da Naqayev limanına gəlmiş «KIM» paroxodunu qarşılayırdı.

Əsgərlər körfəzi mühasirəyə aldılar və yalnız bundan sonra gəminin boşaldılmasına başlandı.

Körfəzin əlli kilometrliyindəki bütün boş maşınlar selektorun çağırışına əməl edərək, Maqadan şəhərinə tərəf yol aldılar.

«KIM» paroxodunda keçinənləri bir-bir sahilə çıxarır və basdırmaq üçün qəbirstanlığa aparırdılar, burada – «qardaşlıq məzarları»nda adlarını yazmadan, hətta nömrələmədən bir-birinin yanına düzərək dəfn edirdilər. Yalnız gələcəkdə «eksqumasiya» edilmək üçün akt tərtib olunurdu.

Hələ ölməmiş ən ağır xəstələri bölüşdürüb Maqadanın, Olenin, Armaninin, Dukçanın hərbi qospitallarına daşıyırdılar.

Nisbətən yüngül xəstələri isə Kalımanın sol sahilindəki məhbuslara məxsus mərkəzi xəstəxanada yerləşdirirdilər.

Xəstəxana elə bu günlərdəcə «Iyirmi üçüncü kilometr»dən buraya köçürülmüşdü.

Ordudan birbaşa bura göndərilmiş Kubantsev – cərrahiyyə şöbəsinin müdiri gördüyü bu mənzərədən sarsılmışdı. Bu cür ağır yaralıları o heç yuxusunda da görməmişdi.

Maqadandan gələn maşınların hamısı yollarda ölmüş adamların meyitləri ilə dolu idi. Kubantsev başa düşürdü ki, bunlar asan daşına bilinənlərdi – yəni yüngüllərdi, ağırları isə elə yoldaca atıblar.

Kubantsev müharibədən sonra general Ridcueyin mütəəssir ola-ola oxuduğu «Cəbhə təcrübəsi heç bir əsgəri

düşərgədəki ölüm səhnələrinə tamaşa etməyə hazırlaya bilməz» sözlərini tez-tez xatırlayırdı.

Kubantsev get-gedə soyuqqanlığını itirirdi. Bilmirdi nədən başlasın, nə əmr versin? Kalıma bu məşhur cəbhə cərrahının kürəyinə çox ağır yük qoymuşdu. Lakin nəsə etmək lazım idi.

Sanitarlar maşınlardan düşürdükləri xəstələri xərəklərdə cərrahiyyə şöbəsinə daşıyır, dəhliz boyu sıx şəkildə – yan-yana, böyür-böyürə düzürdülər.

Qəribədir, cərrahlar qoxunu insan üzü kimi, şeir kimi yaddaşlarında saxlayırlar. Ilk düşərgə məhbusunun yarasındakı irin qoxusu da Kubantsevin yaddaşında həmişəlik qaldı. O, sonralar da bu tükürpədici qoxunu dönə-dönə xatırlayırdı. Elə bil, ölüm hər yerdə eyni cürdür, irin də hər yerdə eyni cür qoxu verir. Amma yox, sonralar Kubantsev harda irinli xəstəyə rast gəlirdisə, dərhal Kalımada gördüyü ilk xəstənin yarasından qalxan qoxu yadına düşürdü.

Kubantsev papirosu papirosa calayır, hiss edirdi ki, az qalır özündən çıxsın, bilmir sanitara, feldşerə və həkimlərə nə əmr versin.

– Aleksey Alekseyeviç! – Səs lap yaxından gəldi. Bu, məhbus cərrah Braude idi. O, məhbus və üstəlik də, alman olduğuna görə, bir neçə gün bundan əvvəl vəzifəsini Kubantsevə təhvil vermiş, səlahiyyətini, demək olar ki, tamam itirmişdi.

Braude cəsarətlə dilləndi:

– Mən bu işlərə yaxşı bələdəm. On ildir ki, burdayam. Icazə verin, müdaxilə edim…

Həyəcanlanmış Kubantsev rəhbərliyi səriştəli müavininə həvalə etdi. Üç cərrah eyni vaxtda əməliyyata başladı. Feldşerlərin bir qismi assisentlik edir, bir qismi iynə vurur, bir qismi də ürək sakitləşdirici dərmanlar hazırlayırdılar.

– Ambutasiya, ambutasiya – deyə Braude burnunun altında danışırdı. – O öz sənətini çox sevirdi, dediyinə görə, əgər, bir gün «əməliyyat aparmasaydı, kəsib-doğramasaydı», darıxardı. Indi onun darıxmağa vaxtı yox idi. Odur ki, sevinirdi.

Kubantsev isə, nə qədər yaxşı cərrah olsa da, özünü itirmişdi. Qeyri-ixtiyari öz-özünə pıçıldadı: «Cəbhə cərrahı!» Orda yalnız instruksiya, sxem üzrə işləyirdi, əmr verirdi, buyur, bu da sənə əsl canlı həyat – Kalıma!..

Braude kinli adam deyildi. Heç bir səbəb olmadan vəzifəsindən uzaqlaşdırılmasına baxmayaraq, öz yerinə təyin olunmuş təzə cərraha – Kubantsevə nifrət etmirdi, əksinə, onun üzündəki çaşqınlıq və dərin minnətdarlıq hissini görəndə, qəlbində həmkarına qarşı xoş bir duyğu baş qaldırırdı.Amma hərdən düşünürdü:hər necə olsa, bu insanın – Kubantsevin ailəsi, arvadı, məktəbli oğlu var. Qütb zonasında işlədiyinə görə, çoxlu pul alır. Bəs, Braudenin nəyi var? Arxada on illik məhbus həyatı, irəlidə müəmmalı və şübhəli gələcəyi.

Braude Saratovdan idi. Məşhur Krauzenin bu istedadlı tələbəsinə bir vaxtlar hamı böyük ümid bəsləyirdi. Lakin otuz yeddinci il onun həyatını alt-üst etdi. Indi bu tale uğursuzluğuna görə o, Kubantsevdən qisas alacaqdımı?

Hə, Braude əmr verməyə, söyməyə və kəsib doğramağa başladı. O özünü unudaraq yaşayırdı və ani də olsa, düşünəndə, çox vaxt özünü bu şərəfsiz unutqanlığına görə söyürdü. Hətta israrla deyirdi: «Xəstəxanadan gedəcəyəm. Birbaşa materikə…»

… 5 dekabr 1947-ci ildə üç min məhbus yüklənmiş «KIM» paroxodu Naqayev limanına yan aldı. Yolda məhbuslar qiyam qaldırmışdılar və rəislər paraxoddakı bütün anbarları su ilə doldurmağı qərara almışdılar. Bütün bunlar qırx dərəcə şaxtada baş vermişdi. Üçüncü, dördüncü dərəcəli donma nə deməkdir – Kubantsevə Kalımadakı qulluğun ilk günündə bəlli olmuşdu.

Bu dəhşəti unutmaq lazım idi və Kubantsev nizam-intizamlı, iradəli bir insan kimi elə bu yolu da seçdi…

On yeddi ildən sonra Kubantsev «Düşərgə zonası» adlı əsər yazmaq məqsədilə bütün məhbusların – feldşerlərin, tibb bacılarının adlarını, alçaq türmə rəislərinin rütbələrini yaddaşında bərpa etdi, yalnız bir şeyi – üç min donmuş məhbusla dolu «KIM» paroxodunu, nədənsə, yada salmadı.

Nə olsun?

Anatoli Fransın «Iudeya prokuroru» adlı bir hekayəsi var: orda prokuror Pontiy Pilat on yeddi ildən sonra Isanı xatırlaya bilmir…

SEHRKAR

Pəncərəmi qamçı ilə ehmalca döydülər və mən dərhal anladım ki, rəisdi, çağırır.

Pəncərəyə sarı çönüb bağırdım:

– Indi gəlirəm! – Tez şalvarımı geyindim və nimdaş gimnast köynəyimin düymələrini bağladım. Elə bu vaxt – otaqdan çıxhaçıxda qapının ağzında rəisin kuryeri – Mişka peyda oldu və mənim ənənəvi iş günümün başladığını elan etmək üçün, həmişəki kimi, ucadan və xüsusi ahənglə dedi:

– Rəisin hüzuruna!

– Kabinetə?

– Yox, iş başına!

Dərhal otaqdan çıxdım.

Doğrusu, bu rəislə işləmək mənim üçün çox rahatdı. O, məhbuslarla heç də qəddarcasına davranmır, ağıllıdı, hərçənd ki, bütün ana-bacı söyüşləri dilindən düşmür, buna baxmayaraq, hər şeyin yerini bilən adamdı: sadə, xoşsifət, təmiz qəlbli, amma eyni zamanda, məğrur…

Düzdü, o vaxt adamları «tərbiyələndirmək» dəb idi və rəis, görünür, sadəcə olaraq, sükanı, naməlum istiqamətə səmt götürmüş vaxtın məcrasına uyğun düz tutmaq istəyirdi. Ola bilər… Ola bilər… O vaxt mən bu barədə heç fikirləşmirdim də…

Mən bilirdim ki, rəisin (onun familyası Stukov idi) yüksək dairələrdə irili-xırdalı adamlarla çoxlu toqquşmaları olur, bəli, bəli, yuxarıda – düşərgədə ona çoxlu tor qururdular, qəliz-qəliz işlər «hazırlayırdılar», bu tor, bu qəliz-qəliz işlər barədə mən, əlbəttə, təfsilatı ilə bir şey deyə bilmərəm. Çünki bu oyunlar, aramsız olaraq, qəfildən başlayır, qəfildən dayanır, yenə qəfildən təkrarlanır və yenə də bir şeylə qurtarmırdı...

Stukov məni iki xüsusiyyətimə görə sevirdi: rüşvətxor deyildim, içkidən də xoşum gəlmirdi. Stukov, nəyə görəsə, içkiyə aludə olanlara – əyyaşlara nifrət edirdi. Hə, bir də məni, yəqin ki, cəsarətimə görə bəyənirdi. Stukov yaşlı və tənha adam idi. Texnika ilə bağlı hər cür yenilikləri, elmi axtarışları təqdir edirdi və xüsusilə Bruklin körpüsü haqqında dolaşan söhbətlər onu vəcdə gətirirdi. Amma təəssüf ki, mən Bruklin körpüsünə bənzər

əhvalatları bəlağətlə danışmağı bacarmırdım. Əgər bacarsaydım…

Ümumiyyətlə, bu cür əhvalatları Stukova mühəndis-şaxtaçı Pavel Petroviç Miller danışırdı. Elə buna görə də o, hər cür sivil yeniliyi alqışlayan Stukovun sevimlisinə çevrilmişdi.

Mən Stukova çatanda o artıq iş başında idi. Sərt tərzdə dedi:

– Çox yatırsan.

– Yatmıram.

– Eşitmisən, Moskvadan yeni məhbus dəstəsi gəlib?

Cavab verməyimi gözləməyib dedi:

– Bir daha təkrar edirəm: yatırsan. Indi cəld ol, adamlarını götür, məhbusları seçək.

Bizim şöbə sanki azad dünyanın qurtaracağında yerləşirdi. Dəmiryolunun sonunda – ondan sonra yalnız piyada getmək mümkün olan ucsuz-bucaqsız tayqa başlanırdı – Stukova özünə lazım olan adamları saxlamaq səlahiyyəti verilmişdi.

Stukov əsil sehrkar idi və onun bu qabiliyyəti iş prosesində üzə çıxırdı. Insanı valeh edən bu sehrkarlıq, fokus əməli, heç şübhəsiz ki, özünəməxsus psixoloji qabiliyyət tələb edirdi və bu, həbs düşərgəsində qocalmış rəisdə, həqiqətən də, var idi.

Bəli, Stukova yalnız tamaşaçı lazım idi və mən onun heyrətamiz istedadını bu cür qiymətləndirməkdə yanılmırdım. Tez-tez onun istedad və bacarığının təsirinə düşür, dünyanın fövqəltəbii görünüşünə inanırdım…

Böyük rəis şöbədə əlli dülgərin saxlanılmasına icazə vermişdi.

Stukov tələsmədən, təmizlənmiş çəkmələrini hərdənbir şallaqla döyəcləyə-döyəcləyə, yatab olunmuş məhbusların düzüldükləri cərgələrin önündən keçə-keçə tez-tez vaxtaşırı əlini yuxarı qaldırırdı:

– Sən, sən qabağa çıx. Hə, sən də. Yox, sən yox. Bax, bax, sən. Hə, nə qədər oldu?

– Qırx iki.

– Yaxşı, daha səkkiz nəfər. Sən… Sən… Sən…

Biz seçdiklərimizin ad və familyalarını qeyd edib, şəxsi işlərini götürdük. Onların hamısı balta və mişarla işləməyi bacarırdı.

Stukov yatab olunmuş məhbusların düzüldükləri cərgələrin önündən keçə-keçə yenə qaşqabaqlı halda ucadan dedi:

– Otuz da çilingər! Sən çıx… Sən… Sən… Sən isə geriyə… Blatnoylardansan?

Məhbus tələsik dilləndi:

– Bəli, bəli, blatnoylardanam, cənab rəis.

Beləcə, otuz çilingər də seçildi.

Dəftərxana üçün on da kargüzar lazım idi.

Stukov məndən soruşdu:

– Gözəyarı seçə bilərsən?

– Yox.

– Onda dayan. Çıx… Sən… Sən… Sən...

Altı adam çıxdı.

Stukov dedi:

– Bu yatabda daha hesabdar yoxdur?

Heç kim dillənmədi.

Şəxsi işlər yoxlanıldı və məlum oldu ki, məhbusların arasında, həqiqətən də, hesabdar yoxdur.

Görünür, o dörd adamı sonrakı yatabdan götürməli olacaqdıq.

Bu, Stukovun məni heyrətə salan sevimli oyunu idi. O öz sehrkar qabiliyyəti müqabilində uşaq kimi sevinirdi, bəzən bu iş alınmayanda, inamını itirir və əzab çəkirdi. Bu çox nadir hallarda olurdu, çünki o, adətən, heç vaxt səhv etmirdi, sadəcə olaraq, bəzən gümanında yanılırdı və biz məhbusların qəbulunu o saat dayandırırdıq. Mən hər dəfə qəddarlıqla heç bir əlaqəsi olmayan bu oyuna heyran-heyran baxırdım. Onun adamları tanımaq qabiliyyətinə, bədənlə ruh arasındakı bu əzəli və əbədi əlaqəyə mat qalmamaq, heyrətlənməmək mümkün deyildi.

Mən rəisin bu qeyri-adi fokuslarının, sehirli gücünün dəfələrlə şahidi oldum. Bəlkə də bunun arxasında məhbuslarla uzunmüddətli iş təcrübəsindən savayı heç nə yox idi. Çünki məhbus paltarı bütün fərqləri aradan götürürdü və bu da insanın

peşəsini onun üzünə və yaxud əlinə görə müəyyən etməyə imkan verirdi…

– Rəis, bu gün kimləri seçəcəyik?

– Dülgərləri. Iyirmi nəfər. Bir də, budur, rəhbərlikdən telefonoqram almışam, əvvəllər orqanda işləmişlərin hamısını ayırıb saxlamaq lazımdır.

Sonra Stukov kinayə ilə əlavə etdi:

– Məişət və peşə cinayətləri olanları da. Deməli, yenə mühakimə stolu arxasında oturacaqlar.

Qəfildən çönüb düz gözümün içinə baxdı:

– Hə, sən bu barədə nə fikirləşirsən?

– Heç nə fikirləşmirəm. Əmr və bir daha əmr.

– De görüm, bildinmi, dülgərləri necə seçdim?

– Yox…

– Mən, sadəcə, kəndliləri seçirəm, kəndliləri. Hər bir kəndli dülgərdir. Vicdanla işləyənləri də ki, onların arasından seçirəm. Özü də səhv etmirəm! Amma, orqan işçilərini gözlərindən necə tanıdığımı deyə bilməyəcəyəm. Onların gözləri ora-bura qaçırmı, hə, de görüm?

– Bilmirəm.

– Düzdü, mən də bilmirəm. Amma ola bilər ki, qocalana kimi öyrəndim. Ona isə hələ çox var.

Yatab olunanlar, həmişəki kimi, qatar boyunca düzülmüşdülər. Stukov öz adi nitqini söyləyib, iş barədə, yoxlama barədə danışıb əl elədi və iki dəfə qatarboyu var-gəl elədi.

– Mənə dülgər lazımdır. Iyirmi nəfər. Amma özüm seçəcəyəm. Ona görə yerinizdən tərpənməyin. Sən… Sən… Sən çıx… Kifayətdir...

Sonra təmkinlə əlavə etdi:

– Onların şəxsi işlərini tapın.

Rəisin sağ əli frençin cibində hansı bir kağızısa axtarırdı, tapıb qızışdı:

– Hələ dağılışmayın. Bir iş də qalır.

O, əlindəki kağızı yuxarı qaldırdı:

– Aranızda orqan işçisi varmı?

Iki min məhbusdan səs çıxmadı.

– Aranızda, soruşuram, əvvəllər orqanda işləmiş adam varmı? Orqanda!

Arxa cərgədən yoldaşlarını əlləri ilə itələyərək özünə yol açan arıq bir adam sürətlə qabağa çıxdı və həqiqətən də, onun gözləri oynayırdı – ora-bura qaçırdı.

– Vətəndaş rəis, mən xəbərçi işləmişəm.

– Rədd ol!

Stukov ikrahla, qəzəblə, eyni zamanda, ləzzətlə bağırdı…

1964

SENTENSIYA

Nadejda Yakovlevna Mandelştama

Insanlar bir-birinin ardınca, elə bil, qeybdən peyda olurdular…

Gecələr tanımadığım naməlum adamla narda (həbsxanada çarpayını əvəz edən çoxmərtəbəli taxta yataq) kürək-kürəyə verib bir-birimizi bir damcı da olsa qızdırırdıq. Bəzən gecələr buşlatımın və yaxud teleqreykamın yırtıq yerlərindən istilik adına heç nə gəlmirdi və səhərlər mən bu qonşuma ölüyə baxan kimi baxırdım və qəribə də olsa, təəccüb edirdim ki, bu «ölü» həm də diridir, çağıranda ayağa durur, geyinir və verilən bütün əmrləri itaətlə yerinə yetirir…

Mənim canımda istilik azdı. Çünki sümüklərimin əti tökülüb – lap azcana qalıb. Amma bu bir damcı ət insan hisslərinin sonuncusu olan kin və hiddət üçün kifayət edirdi…

Qeybdən peyda olan insan gündüzlər itirdi, amma hara gedirdisə, axşamlar yenə gəlirdi. Mən böyür-böyürə – yanaşı yatdığım insanları tanımırdım. Mən onlara sual verməkdən çəkinirdim, amma bu, «Soruşma ki, sənə yalan desinlər» ərəb məsəlinə əməl etdiyimə görə deyildi.

Fərqi yox idi, məni aldadacaqlar, ya aldatmayacaqlar, sanki həqiqətin və yalanın sərhədlərindən kənarda idim.

Canilər arasında bu məsələ ilə bağlı söz soruşana dərin ikrah hissiylə dolu sərt və aydın cavab verilir: «Inanmırsansa, nağıl kimi qəbul elə». Odur ki, mən nə bir söz soruşmaq, nə də nağıl dinləmək həvəsinə düşürdüm…

Mənimlə axıra kimi nə qalırdı? Kin və hiddət. Və mən bu kini, hiddəti qoruya-qoruya ölməyə ümid bəsləyirdim. Lakin cəmi bir an bundan əvvəl lap yaxınlıqda hiss etdiyim ölüm yavaş-yavaş uzaqlaşmağa başladı. Burada həyatın mövcudluğunu ifadə etmək üçün düstur yox idi və həyat – həyat adlandırıla bilməyən təhtəlşüurla əvəz olunmuşdu. Hər gün üfüqdən doğan günəş özü ilə yeni bir təhlükə gətirirdi. Mən su qaynatmaqla məşğul olurdum və bu, insafən, qaravulçuluğa və digər işlərə nisbətən yüngül iş hesab olunurdu; bununla belə, mən qaynadıcı sistem – «Titan» üçün odun doğrayıb çatdıra bilmirdim. Buna görə məni işdən qova bilərdilər. Ancaq hara? Uzaq tayqada bizim qəsəbə qar içində ada kimi idi. Çadırdan işə qədər olan iki yüz metr yolu ayaqlarımı güclə sürüyürdüm və bu yol mənə nəhayətsiz dərəcədə uzaq görünürdü – yolda bir neçə dəfə dayanıb dincəlir, nəfəsimi dərirdim. Mən bu ölüm cığırının bütün çala-çuxurlarını, qırağında qarnıüstə uzanıb, soyuq, dadlı müalicəvi suyunu it kimi ləhliyə-ləhliyə içdiyim çayları indi də xatırlayıram. Gah çiynimdə, gah da qulpundan təkəlli yapışdığım və sürüyə-sürüyə apardığım mişar mənə hədsiz dərəcədə ağır gəlirdi.

Mən heç vaxt «Titan»ı vaxtında qaynadıb, nahara isti su hazırlaya bilmirdim.

Ancaq fəhlələrdən heç biri – dünənəcən məhbus olan bu azadlıqsevərlər suyun qaynayıb-qaynamamağına əhəmiyyət vermirdilər. Kalıma hamımıza içməli suyu yalnız temperaturuna görə fərqləndirməyi öyrətmişdi. Kəmiyyətin keyfiyyətə dialektik sıçrayışı anlayışının bizə heç aidiyyəti yox idi. Biz filosof deyildik. Biz işlək insanlar idik və bizim üçün qaynar, içməli su elə mühüm bir əhəmiyyət kəsb etmirdi.

Mən hər cür tikələri, qırıqları, bataqlıqda rast gəldiyim keçən ildən qalma çürük giləmeyvələri, bir sözlə, gözümə nə dəyirdisə, fərqinə varmadan yeyirdim. Ümumi qazanda dünəndən, ta srağagündən qalan şorbanı… Yox, yox, səhv etdim, azadlıqsevər insanların şorbasından əslində heç nə qalmırdı.

Palatamızda iki tüfəng vardı.

Burda kəkliklər adamlardan qorxmurdular, hətta ilk günlər alaçığımızın düz önünə qonurdular. Biz bu çöl quşlarını asanca ovlayırdıq. Qəniməti ya bütöv şəkildə tonqalın külündə qızardır, ya da tüklərini səliqə ilə yolandan sonra qaynadırdıq. Yumşaq tükləri balışa doldururduq, bu da, bir növ, qazanc idi – tüfəng azad sahibkarlarımız üçün əlavə gəlir gətirirdi.

Yonulmuş, içi təmizlənmiş kəkliklər tonqalın üstündə asılmış üçlitrlik konserv qutularında bişirirdilər. Ocaqda bişəndən sonra bu sirli quşlardan mən heç vaxt artıq qaldığını görməmişəm. Ac və azadlıqsevər insanların mədələri bu çöl quşlarının sümüklərini iliyinə qədər həzm-rabedən keçirirdi. Bu da tayqanın möcüzələrindən biri idi…

Mən kəklik ətindən heç vaxt bir tikə də dadmamışam. Mənimki giləmeyvələr, bitki kökləri və bir də gündəlik aldığım pay idi. Və mən qane olduğum bu az şeylə ölmürdüm. Mən soyuq, qırmızı günəşə, çılpaq dağlara, üzü buz bağlamış çaylara, enliyarpaq ağaclara, kinsiz-qəzəbsiz, laqeyd-laqeyd baxırdım. Axşamlar çaydan soyuq duman qalxırdı və gün ərzində elə bir saat olmurdu ki, mən bir hovur qızına bilim.

Əllərimin və ayaqlarımın don vurmuş barmaqları çəhrayıya çalırdı, ağrıdan sızıldayır, heç bir səbəb olmadan – elə durduğu yerdəcə yara səpirdi. Barmaqlarımı həmişə palçıqlı bir əksiyə bükürdüm, inadla qorumağa çalışırdım, ancaq di gəl ki, infeksiyadan yenə də yaxa qurtara bilmirdim. Hər iki ayağımın baş barmağından irin axırdı və bu irin tükənmək bilmirdi.

...Relsi dəmirlə döyəcləməklə məni həm səhərlər yuxudan oyadır, həm də axşamlar işin başa çatdığını bildirirdilər. Yeməkdən sonra mən dərhal, soyunmadan «narda» uzanır, əlbəttə, elə o saat da yuxuya gedirdim. Qaldığım palata mənə tutğun və dumanlı görünürdü – hardasa adamlar hərəkət edir, ucadan ana söyüşləri eşidilir, daxili «razborkalar» baş verir, ən təhlükəli məqamlarda isə ortalığa ani səssizlik çökürdü və qəribədir ki, dava öz-özünə başladığı kimi, öz-özünə də yatırdı – cəngə çıxanları heç kim ayırmırdı, sadəcə, savaşın «mühərriki sönürdü» və gecənin soyuq səssizliyi başlayırdı. Tavanın dəlikləri arasından dərin, solğun səma görünür, yarıyuxulu insanların xorultusu, öskürəyi və iniltisi eşidilirdi.

Bir dəfə mən gecə bu iniltilərə və xorultulara yuxudan ayıldım və bərk dilxor oldum. Sonralar həmin o heyrətli anı yadıma salıb anladım ki, get-gedə dərin yuxuya tələbatım azalır.

Bizim ağıllıların ağıllısı olan dəmirçimiz Moisey Moiseyeviç Kuznetsov demişkən, görünür, mən yuxudan doymuşam.

Əzələlərimdə dəhşətli bir ağrı baş qaldırmışdı. Bu məni əsəbiləşdirir, başqa şeylər haqqında fikirləşməyimə mane olurdu. Sonra mənim içimdə hirsdən fərqli olan, amma hirslə qaynayıb-qarışmış bir duyğu əmələ gəldi: biganəlik, qorxmazlıq və laqeydlik. Mənim üçün fərq etmirdi: məni döyəcəklər, ya yox, mənə yemək verəcəklər, ya yox, sanki hissiyatımı don vurmuşdu. Və hərçənd ki, kəşfiyyat zamanı, konvoysuz ezamiyyətə getdiyim vaxtlarda məni döymürdülər – yalnız qızıl mədənlərində döyürdülər – mən o mədənlərdə işlədiyim günləri yadıma salıb, indiki mərdliyimi o vaxtkı mərdliyimlə müqayisə edirdim. Bu biganəliyimlə, qorxmazlığımla sanki ölümə kəmənd atmışdım. «Burada döymürlər və döyməyəcəklər» fikri məndə yeni güc, yeni hisslər oyadırdı.

Amma bu biganəliyin ardınca bir qorxu da gəldi – çox da güclü olmayan xilasedici həyatdan məhrum olmaq qorxusu! Bu su qaynatmaq işi varlığımı astaca-astaca nizamlayırdı – canımdakı sızıltıları yavaş-yavaş unudurdum. Eyni zamanda, anlayırdım ki, burdan – «Titan»ın yanından qızıl mədəninə getməkdən qorxuram. Qorxuram, vəssalam. Mən bu yaxşı ömür yolundan daha yaxşısını axtarmırdım. Sümüklərimin üstündə günü-gündən ət əmələ gəlirdi. Paxıllıq – mənim qəlbimə daha sonra qayıdan hissin adı, bax, bu idi. Mən ölən yoldaşlarıma – otuz səkkizinci ildə həlak olanlara paxıllıq edirdim. Mən nəsə gəmirən və nəsə sümürən öz diri qonşularıma da paxıllıq edirdim. Mən rəislərə, iş icraçılarına, briqadirlərə paxıllıq etmirdim – onlar ayrı dünyanın adamları idilər…

Məhəbbət isə qəlbimə qayıtmırdı. Off… məhəbbət paxıllıqdan, qorxudan, hirsdən nə qədər uzaq imiş. Məhəbbət insalara nə qədəq az lazım imiş. Məhəbbət bütün insani hisslər qayıdanda, yəni lap axırda qayıdırmış, ya da heç qayıtmırmış. Lakin mənim həyata qayıdışımın əlaməti təkcə biganəlik, paxıllıq və qorxu deyildi. Heyvanlara acımaq hissim insanlara acımaq hissimdən əvvəl qayıtmışdı.

Mən mədən quyuları və kəşfiyyat xəndəkləri aləminin ən zəif məxluqu kimi, topoqrafla işləyir, onun üçün reyka və «teodolit» daşıyırdım. Bəzən topoqraf işi tezləşdirmək məqsədilə

teodolitin kəmərini kürəyinə keçirir, mənə isə, üstünə rəngli rəqəmlər yazılmış yüngül reykanı aparmağı tapşırırdı.

Topoqraf məhbus idi. O, ürəkli olmaq üçün rəisdən yüngül kalibirli tüfəng almışdı, çünki həmin yay tayqaya xeyli qaçqın köçmüşdü və bu, ehtiyatlı olmağa əsas verirdi. Amma tüfəng bizə yalnız mane olurdu. Ona görə yox ki, bu çətin səyahətimizdə bizə yük idi, yox. Bir dəfə görün nə oldu? Talada istirahət zamanı topoqraf üstümüzə şığıyan Qarquşu yüngül kalibirli tüfənglə nişan aldı. Qarquşu başa düşmək olardı: o, təhlükəni sovuşdurmaq üçün özünü qurban verirdi, görünür, yumurta üstə yatmışdı.

Topoqraf tətiyi çəkmək istəyəndə, mən tüfəngin lüləsini kənara əydim və ötkəm səslə dedim:

– Tüfəngi yerə qoy!

– Nə danışırsan? Dəli olmusan?

– Quşu rahat burax, vəssalam!

– Rəisə deyəcəyəm.

– Rəis də, sən də cəhənnəm olun!

Topoqraf mübahisə etmək istəmirdi və qəribədir ki, rəisə də heç nə demədi. O zaman mən başa düşdüm ki, nəsə, çox mühüm və perikmiş bir hissim bədənimə qayıdıb.

Çoxdan idi ki, qəzet və kitab üzü görmürdüm və bu itki ilə bağlı təəssüf etməyi də yadırğamışdım. Mənim yırtıq brezent çadırda yaşayan qonşularım da – onlar əlli nəfər idilər – hiss edirdilər ki, güc-bəla ilə sığındığımız bu evcikdə indiyə kimi nə bir qəzet, nə bir kitab olmayıb. Yüksək rütbəli rəislər yanımıza kitabsız gəlirdilər.

Mənim dilim mədən məhbuslarının dili kimi kobud, hələ sümüyümdə, iliyimdə mövcud olan hisslərim kimi yoxsul idi: səhər yuxudanqalxma, hərə öz işinin dalınca getməli, nahar, işin sonu, qayıtma siqnalı, vətəndaş rəis, izn verin, müraciət edim, bel, külüng, ling, balta, baş üstə, qazma maşını, çöldə soyuqdur, yağış, şorba soyuqdur, çörək, pay, papirosu at – bu cür iyirmiyə qədər sözlə birinci il deyildi ki, keçinməli olurdum. Həmin sözlərin yarısı söyüşlərdən ibarət idi. Gənclik, uşaqlıq illərində belə lətifə vardı: rusun xaricə səyahət zamanı cəmi bircə sözün intonasiya rəngarəngliyi ilə işini yola verməsi. Rus söyüşlərinin zənginliyi və tükənməz təhqiramizliyi mənə uşaq yaşlarımdan və gənclik illərimdən qalmışdı. Söyüş dolu lətifələr burada hər hansı bir

dilçilik institutunu çox yüksək səviyyədə əvəz edə bilirdi və mən başqa, hər hansı bir söz axtarmağa ehtiyac duymadığıma görə xoşbəxt idim. Ümumiyyətlə, həmin başqa sözlər mövcud idimi – bilmirdim…

Beynimin, bax, burasında, – yaxşı xatırlayıram, – sağ əmgək sümüyünün üstündə bu söz dünyaya gələndə mən qorxdum və heyrətdən donub qaldım. Çünki bu söz tayqa üçün namünasib idi, mənasını nəinki yoldaşlarım, heç özüm də bilmirdim. Mən «narda» qalxıb, göylərə – sonsuzluğa müraciətlə həmin sözü qışqırdım:

– Sentensiya! Sentensiya!

Və qəhqəhə çəkib güldüm:

– Sentensiya! – Beynimdə doğulan və mənasını bilmədiyim bu sözü birbaşa şimal göylərinə – səhər şəfəqinə tərəf bağırdım.

Və əgər bu söz əvvəldən olmuşdusa, indi geri qayıdırdısa, yenidən tapılırdısa – daha yaxşı, daha yaxşı! Bütün varlığımı böyük bir sevinc bürümüşdü.

– Sentensiya!

– Dəliyə bax, sayıqlayır.

– Xalis dəlidir ki, var. Yoxsa, bu əcnəbidir?! – Dağ mühəndisi, «Üç tütün» Vronski zəhərli kinayə ilə dedi.

– Vronski, bir tütün ver çəkim.

– Yoxdur, tütünüm yoxdur.

– Heç olmasa, üç barmaq.

– Üç barmaq, buyur.

Maxorka dolu tütün kisəsindən çirkli dırnaqlarıyla üç barmaq ayırdı.

– Sən əcnəbisən? – bu sual bizim taleyimizi fitnəkar və danos, tədqiqat və əlavə iş aləminə apardı. Lakin Vronskinin fitnəkar sualının mənə dəxli yox idi. Tapıntı həddən artıq böyük idi.

– Sentensiya!

– Dəlisən ki, varsan.

Kin-küdurət hissi insanı yoxluğa, heçliyə, faniliyə aparan sonuncu hissdir. Ölü dünyasımı? Hətta daş da mənə ölü kimi gəlmirdi, qaldı ki, otlar, ağaclar, çaylar ola. Çay nəinki həyat

təcəssümü, nəinki həyat rəmzi, hətta həyatın özü idi. Onun əbədi dövranı, susmayan uğultusu, öz dilində danışığı, ahəngi, öz işi, o işi ki, suyu, qarşıdan, çöllərdən, çəmənlərdən üzüaşağı, köndələninə aparır. O çay ki, günəşin yandırdığı yerlərdə quruyub, çılpaq məcrada güclə görünən ipə bənzəyən suları ilə hardasa daşlar arasında öz əbədi borcuna itaət edərək göylərin köməyindən – yağışlardan əlini üzür. Budur, ilk tufan, ilk sel və su məcrasını dəyişərək, qayaları dağıdaraq, öz əbədi yolu ilə dəli kimi axıb gedir.

Sentensiya! Mən özüm-özümə inanmırdım, qorxurdum ki, gecəni yatıb, beynimə qayıdan bu sözü itirərəm. Lakin söz itmədi ki, itmədi.

Sentensiya! Qoy sahilində bizim qəsəbənin, bizim «Rijo-rita» ezam ünvanımızın yerləşdiyi çay belə də adlansın. Sentensiyanın nəyi pisdir? Bu torpaqların sahibi kartoqrafın pis zövqü «Rijo-ritanı» dünya xəritələrinə daxil etməyib. Məgər bunu düzəltmək qeyri-mümkündür?

Sentensiya – bu sözdə, nəsə, romalılıq, latınlıq və möhkəmlik vardı. Qədim Roma uşaqlıq illərim üçün siyasi mübarizələr mərkəzi idi, qədim Yunanıstan isə incəsənət səltənəti. Hərçənd ki, qədim Yunanıstanda da güclü siyasətçilər vardı, qədim Romada da xeyli incəsənət adamı. Lakin mənim uşaq aləmim bu iki bir-birindən xeyli fərqli dünyanı üz-üzə gətirib, sadələşdirib ayırmışdı. Sentensiya qədim Roma sözüdür. Mən düz bir həftə bu sözün mənasını bilmədim. Mən bu sözü öz-özümə pıçıldayır, çağırır, qonşularımı qorxudub güldürürdüm. Mən dünyadan, ələlxüsus göylərdən açıqlama, şərh, tərcümə tələb edirdim. Bir həftə sonra isə bu sözün mənasını anladım, qorxumdan və sevincimdən titrədim. Qorxdum ki, heç vaxt geri dönə bilməyəcəyim dünyaya qayıdam. Sevindim ki, öz iradəmin əleyhinə olaraq, həyatın qayıtdığını duydum. Mən beynimin dərinliklərindən bir-birinin ardınca yeni-yeni sözlər çıxarmağı öyrəndikcə, çox günlər keçdi. Bu sözlərin hər biri çətinliklə qayıdırdı, hər biri ayrılıqda və qəfildən qayıdırdı – axınla gəlmirdi. Hər biri başqa tanış sözlərin müşayiətiylə deyil, fərdi şəkildə, əvvəlcə dildə, sonra isə beyində yaranırdı.

Daha sonra elə bir gün gəlib çatdı ki, hamı – əlli fəhlənin əllisi də işi – qızıl mədənlərini, kəsilmiş ağacları, qazanda yarıbişmiş şorbanı ataraq, qəsəbəyə – çaya doğru üz tutdular...

Maqadandan rəis gəlmişdi. Aydın və isti bir gün idi. Çadırın ağzında, kəsilmiş nəhəng enliyarpaq ağacın kötüyü üstə patefon qoyulmuşdu. Patefonun səsi qalxıb-enirdi, iynənin xışıltısına üstün gələ-gələ hansısa bir simfonik musiqi ifa olunurdu.

Və hamı ətrafda dairə vurub dayanmışdı, qatillər də, at oğruları da, «blatnoylar» və acizlər də, onbaşılar və işçilər də. Rəisin üzündə elə bir ifadə vardı ki, sanki bu musiqini özü bizim uzaq tayqa ezamiyyətimiz üçün yazıb gətirmişdi.

Plastik val fırlanıb fısıldayır, özünün bütün üç yüz həlqəsini hərəkətə gətirib, tam üç yüz il dartılmış yay kimi kötüyün özünü də fırladırdı.

Yuri POLYAKOV

HOMO EREKTUS və yaxud ARVADLARIN DƏYIŞDIRILMƏSI

(***Böyüklər üçün iki hissəli komediya***)

IŞTIRAK EDƏNLƏR

Kişilər:

I q o r K o ş e l k o v, 40 yaş.
S e r g e y Q r a n k i n, 35 yaş.
A n t o n Q r i q o r y e v i ç Q o v o r ov, 55 yaş.
V a s i l i B o r t s o v, 30 yaş.
N i k o l a y E q o r o v i ç, 65 yaş.

Qadınlar:

M a ş a, 30 yaş.
L e r a, 35 yaş.
K s i, 20 yaş.
I r i n a M a r k o v n a, 60 yaş.

Uşaqlar:

D i m a, 10 yaş.
K a t y a, 9 yaş.

BIRINCI HISSƏ

Koşelkovların evi. Zövqlə bəzədilmiş zəngin bir otaq. Qonaqları qəbul etmək üçün hazırlıq gedir. M a ş a, əynində xalat, süfrəyə qab-qacaq düzür. Telefon zəng çalır. M a ş a dəstəyi qaldırır. Elə bu vaxt I q o r qapının ağzında görünür.

M a ş a. Alo! Sənsən?! (Ətrafa baxa-baxa) Axı, dedim ki, bura zəng eləmə! Necə yəni nəyə görə? Elə ona görə!.. Başa düşdün?!. Yox, bu gün gəlməyəcəyəm! Sabah… Sabah… Qonaqlarımız var… Düzdü, söz vermişəm, amma indi gələ bilmərəm… Sən də çox şeyə söz vermisən!.. Vermisən!… Yox!.. Sənə dedim ki, sabah… (Iqor içəri daxil olur. Maşa onun gəldiyini hiss edib, söhbətin yönünü dəyişir.) Nə qədər borcumuz var? Aha… Sabah ödəyəcəyik… Bağışlayın ki, yubatmışıq!.. Sağ olun. (Dəstəyi yerinə qoyur və Iqora sarı dönür.) Mən fikirləşirdim ki, sən gəlib çata bilməyəcəksən…

I q o r. Məni tanımırsan?.. Yabı ki, yabı… Üstəlik də axta… Metişdən birnəfəsə gəldim… yarımca saata… Nə isə… Kim idi zəng edən?

M a ş a. «Biçklab»dan bir nəfər… Sən mənim abunə pulumu keçirməyi yadından çıxartmısan…

I q o r. Maraqlıdır… (Mənalı tərzdə) «Köpəklər klub»u bayram günləri də işləyir?

M a ş a. Işləyir, əzizim… (Mənalı tərzdə) Sənin kimi…

I q o r. Bütün günü o klubdasan – ortada da bir şey yoxdur.

M a ş a. Niyə yoxdur? Iki kilo arıqlamışam.

I q o r. Belə çıxır ki, sənin hər qramın mənə on dollara başa gəlir! (Əli ilə onun yanını şappıldadır.) Bəs, sən niyə hələ xalatdasan?

M a ş a (istehza ilə). Lütlənim?

I q o r. Gic-gic danışma! Tez ol, get, geyin! Indi qonaqlar gələcəklər!

M a ş a. Sənin qonaqlarını görmək istəmirəm!

I q o r (hədələyiçi tərzdə). Necə? Nə dedin?

M a ş a. Sənin qonaqlarını görmək is-tə-mi-rəm!

I r i n a M a r k o v n a gəlir. I q o r özünü səmimi, mehriban, gülərüz göstərməyə çalışır.

I r i n a M a r k o v n a. Maşa, duxovkaya ördək qoymuşam. Bax ki, vaxtı ötməsin!

M a ş a. Narahat olma, ana!

I r i n a M a r k o v n a. Necə narahat olmayım?! Keçən dəfə qoyunun ayaqlarını nə kökə salmışdın?!

M a ş a. Mənim günahım yoxdur. Sadəcə olaraq, bu təzə duxovka duxovka deyil, krematoridi!

I q o r. Ləzzətli şey bişirmək istəyirsənsə, seriallara az bax, idman zallarında az avaralan…

M a ş a. Iqor, mənim şəxsi işlərimə qarışma! Istirahət etməyə haqqım yoxdu?

I q o r (istehza ilə). Istirahət etmək… Axı, nə iş görmüsən ki, yorulmusan? Sən ki, əlini ağdan qaraya vurmursan! Irina Markovna, kaş bir dəfə bizim vanna otağına girəsiniz? Heç bilirsiniz orada nə qədər çirkli paltar var?

M a ş a. Indi daha çox olacaq! Mən bura çamaşırxanada işləməyə gəlməmişəm!

I q o r. Bəs, ana olmağa necə?.. Axırıncı dəfə litseydə nə vaxt olmusan? Heç uşağınla maraqlanmısan?

M a ş a. Gərək ki, bu uşağın atası da var…

I q o r. «Gərək ki», «var» nə deməkdi?

M a ş a. Üç dəfə təkrar etsəm – başa düşəcəksən!

I q o r (hədələyici tərzdə). Bir dəfəyə başa düşsəm necə?

I r i n a M a r k o v n a. Dayanın! Litseydə nə olub ki?

I q o r. Dima müəllimənin anasına söyüb. Istəyirdilər litseydən qovsunlar. «Xeyriyyəçilik» etmək lazım gəldi… Əvvəllər buna «rüşvət» deyirdilər…

I r i n a M a r k o v n a. Dima? Müəlliməyə? Ana söyüşü? O bunu harda öyrənib? Küçəyə də çıxmır, hər yerə maşınla gedib-gəlir…

M a ş a. Ana, Dima, sadəcə olaraq, hərdən atasının telefonla öz partnyorları ilə necə danışdığını eşidir…

I q o r (istehza ilə). Əlbəttə, indi mən günahkar olacağam!

M a ş a. Bəs nə?!

I q o r. Qorxmursan ki, bütün bunlar məni bir gün təngə gətirər?!

M a ş a (istehza ilə). Xox…

I r i n a M a r k o v n a. Uşaqlar, dalaşmayın!

M a ş a. Axı, o niyə mənimlə öcəşir?

I q o r. Öcəşmirəm. Istəyirəm ki, evdə qayda-qanun olsun!

M a ş a. Bir özünə bax!

I q o r. Irina Markovna, elə bil ki, bu mənim axırıma çıxmaq istəyir!

M a ş a. Televizorda deyirdilər ki, «elə bil ki» ifadəsini tez-tez işlədən insanlar çatışmazlıq kompleksindən əzab çəkirlər.

I q o r. Irina Markovna!

I r i n a M a r k o v n a. Maşa, sus! (Iqoru kənara çəkir.) Fikir vermə, bu, adi ailə böhranıdır. Hamıda olur. Hərdən, mən də, görürsən ki, Nikolay Eqoroviçə nifrət etməyə başlayıram. Hər şeyi – necə yeyir, necə gəzir, necə danışır – məni cinləndirir. Dalaşırıq, hətta yuxuda görürəm ki, onu boğub öldürürəm...

I q o r. Bizdə də eynilə belədir.

I r i n a M a r k o v n a. Amma səhər yuxudan ayılıb nə görürəm: pəncərədə günəş, başmaqlarımız – onunkular və mənimkilər xalçanın üstündə yan-yanadır… Bundan sonra hər şey qaydasına düşür…

I q o r. Dayan… Hansı başmaqlar?

I r i n a M a r k o v n a. Adi ev başmaqları. Iqor, yadında saxla, ailə həyatında nə baş verir-versin, başmaqlar…. Başmaqlar həmişə yan-yana dayanmalıdır… Ah, ördəyə şərab sürtməyi tamam unutmuşam!

I r i n a M a r k o v n a mətbəxə gedir.

I q o r M a ş a n ı n yanına qayıdır.

I q o r. Paltarını dəyiş!

M a ş a. Dəyişmirəm!

I q o r. Deməli, sən ailəmizi xilas etmək istəmirsən?

M a ş a. Yox, istəmirəm!

I q o r. Sən ya paltarını dəyişəcəksən, ya da…

M a ş a. Ya da nə? Elə bilirsən səndən qorxuram?

I q o r. Sən, deyəsən, qudurmusan?

M a ş a. Mən, deyəsən, incimişəm…

I q o r. Düz sözdən?

M a ş a. Yox… Ədəbsizlikdən… kobudluqdan… Nəyə görə sən… anamın yanında...

I q o r. Guya, o görmür?

M a ş a. Görür… sənin gecə saat ikidə evə necə gəldiyini də görür…

I q o r. Mən danışıqlar aparıram…

M a ş a. Restoranlarda?

I q or. Başqa harada aparmaq olar ki? Darvaza ağzında?

M a ş a. Sən danışıqlar zamanı fransız ətri dümləyirsən?

I q o r. Xahiş edirəm, qısqanclıq nümayiş etdirmə!

M a ş a. Bu, qısqanclıq deyil, çimçəşmədi…

I q o r. Buna görəmi məndən ayrı yatırsan?

M a ş a. Doğrudanmı, sən bunu axır ki, başa düşdün? Amma anam çoxdan hiss edib.

I q o r. Sənin anan belə şeylərdə çox pərgardır.

M a ş a. Atam deyir ki, sən…

I q o r (hirsli). Atan nə deyir? Verdiyim pulun müqabilində, heç olmasa, sussun! Gör mən nə qədər gicbəsər olmuşam ki, onların burada yaşamasına razılıq vermişəm!

M a ş a. Iqor, sən lap «Satın alınmış ehtiraslar» pyesindəki xəsis Donald kimi danışırsan.

I q o r. Mən o cür tamaşalara baxmıram.

M a ş a. Nahaq yerə.

I q o r. Əynini dəyiş!

M a ş a. Heç vaxt!..

I q o r. Dəyişəçəksən! Özü də necə!

M a ş a. Rədd ol, get, gözüm səni görməsin!

I q o r. Nə?

I q o r onun üzünə sillə vurur. I r i n a M a r k o v n a mətbəxdən qayıdarkən bu mənzərəni görür.

Başını bulayır.

M a ş a (əli ilə üzünü tutur). Heyvan! Mən bunu sənə heç vaxt bağışlamayacağam!

I q o r. Əynini dəyişəcəksən?

M a ş a. Yox!

I q o r hədələyici hərəkətlər edir.

I r i n a M a r k o v n a (özünü tox tutaraq). Maşa, osetrini doğrayarsan…

I q o r (Maşadan aralanır, titrəyə-titrəyə). Doğrayarıq, Irina Markovna, hər şeyi doğrayarıq! Nikolay Yeqoroviç hazırdır?

I r i n a M a r k o v n a. Demək olar ki, hə. Bircə qalıb qalstuku seçməyi…

M a ş a. Ana, siz heç hara getməyəcəksiniz!

I r i n a M a r k o v n a. Maşa, sus!

N i k o l a y Y e q o r o v i ç gəlir.

N i k o l a y Y e q o r o v i ç (onun əlində kəpənək-qalstuk var). Ir, bəlkə bu kəpənəyi?

I r i n a M a r k o v n a. Yox bir, iynəçəni! Olmaz! Sən nə milyonçusan, nə də ofisiant.

N i k o l a y Y e q o r o v i ç (karıxmış halda ətrafa göz gəzdirərək). Yaxşı iy gəlir, yeyib-içmək olacaq? (Maşaya) Sən niyə üzünü tutmusan?

I r i n a M a r k o v n a. Dişi ağrayır…

N i k o l a y Y e q o r o v i ç. Bax ha! Diş göbələk deyil, ikinci dəfə çıxmır... (Iqora) Nə qədər adam çağırmısınız?

I q o r. Üç cüt ər-arvad.

N i k o l a y Y e q o r o v i ç. Bəs niyə belə az? Ir, yadına gəlir, Potsdamda gəzintiyə necə çıxırdıq? Bütün hərbi heyət! Qırx-qırx – dəstə halında! Ayağımızın şappıltısından qəsr lərzəyə gəlirdi!

I q o r. Hansı qəsr?

I r i n a M a r k o v n a. Məgər Maşa sənə deməyib?

I q o r. Yox.

I r i n a M a r k o v n a. Əsl qəsr! Qotik üslübda tikilmiş! Aşağıda biz olurduq, yuxarıda qərargah rəisi. (Xüsusi hiss və vurğu ilə) Subay idi. Şampan şərabını, məxsusi olaraq, qəşəng xanımların tüflisində içirdi. Maşa həddi-buluğa təzəcə çatmışdı. Bir gün o, Maşanın önündə dizini yerə qoyub dedi: «Xanım, icazə verin, sizin tüflinizdə…» Və içdi. Yaxşı kişi idi. Maşa, xatırlayırsanmı?

M a ş a. Eh, o Potsdam indi hardadır?

N i k o l a y Y e q o r o v i ç. Əmr etsələr – bir də tutarıq!

I r i n a M a r k o v n a (istehza ilə). Hə, kim də olmasa, sən tutarsan… Görəsən, hava necədir?

I q o r. Külək əsir…

N i k o l a y Y e q o r o v i ç. Bir az bundan əvvəl eyvana çıxmışdım: «üç» nömrəli forma üçün normal havadı…

M a ş a. Bərk soyuqdu. Qar deyiblər.

N i k o l a y Y e q o r o v i ç. Qar? Buna bax ha! Bir May və qar! Ir, bəlkə getməyək, cavanlarla qalaq?

M a ş a. Əlbəttə, niyə gedirsiniz, qalın!

I q o r. Nikolay Eqoroviç, sizi bir dəqiqə olar? (Onu kənara çəkir və gizlicə cibinə pul qoyur). Biz ki, danışmışıq!

N i k o l a y Y e q o r o v i ç (birdən-birə canlanır). Ir, yığış, gedirik!

M a ş a. Mən də sizinlə gedirəm.

I r i n a M a r k o v n a. Necə yəni bizimlə gedirsən? Indi qonaqlarınız gələcək.

I q o r. Görürsünüz, Irina Markovna, mən sizə deyirdim…

I r i n a M a r k o v n a. Maşa, getdik!

M a ş a. Hara?

I r i n a M a r k o v n a. Paltarı dəyişməyə! (Maşanı zorla – itələyə-itələyə aparır.)

I q o r, N i k ol a y E q o r o v i ç i n yanına qayıdır.

I q o r. Nə vaxt qayıdacaqsınız?

N i k o l a y Y e q o r o v i ç. Düz doqquzda!

I q o r (Nikolay Eqoroviçin cibinə pul qoyur). Mümkün qədər gec gəlin!

N i k o l a y Y e q o r o v i ç. Oldu! Gec gələrik! Deməli, kinodan sonra gedərik bara, qoca vaxtımızda bir balaca cavanlıq da edərik! Iqor, sən qalstuk bağlaya bilirsən?

I q o r. Bağlaya bilirəm.

N i k o l a y Y e q o r o v i ç. Amma mən heç cür öyrənə bilmədim…

I q o r. Gedək, kömək edim!

Gedirlər. Telefon zəng çalır. I r i n a M a r k o v n a gəlir və dəstəyi götürür.

I r i n a M a r k o v n a (dəstəyə). Alo!.. Yox, Maşa bu gün olmayacaq. Hələlik!

M a ş a qaça-qaça, eyni zamanda, qəşəng donunu geyinə-geyinə gəlir.

M a ş a. Məni istəyirdi?

I r i n a M a r k o v n a (ciddi tərzdə). Səni!

M a ş a. Kim idi?

I r i n a M a r k o v n a. Sənin başın xarab olub? O niyə evə zəng edir?

M a ş a. Mən ona demişəm…

I r i n a M a r k o v n a. Pis demisən. Iqor səni niyə vurdu?

M a ş a. Sən gördün?

I r i n a M a r k o v n a. Sillənin səsini eşitdim… O nəsə bilir?

M a ş a. Yox. Amma mən istəyirəm ki, bilsin.

I r i n a M a r k o v n a. Olmaz! Kişi, arvadı haqqında ailə səadəti üçün nə qədər lazımdırsa, o qədər bilməlidir… Axı, o səni nəyə görə vurdu?

M a ş a. Deyə bilmirəm…

I r i n a M a r k o v n a. Deyə bilmirsən – demə! Amma yadında saxla: ağıllı qadınlar heç vaxt döyülmürlər, hətta ortada ciddi əsas olsa da. Axmaq arvadlar isə həmişə döyülürlər, hətta bəzən lap elə-belə, ortada zərrə qədər əsas olmasa da. Indiyə qədər sən heç görmüsən ki, atan mənə barmağının ucu ilə də olsa, bircə dəfə toxunsun?

M a ş a. Yox. Amma tərsini görmüşəm.

I r i n a M a r k o v n a. Indi özün nəticə çıxart!

M a ş a. Ana, mən daha bacarmıram. Ondan iyrənirəm. Mən ki, hələ cavanam.

I r i n a M a r k o v n a. Cavanlığa qalsa, mən də cavanam. Əzizim, sənin uşağın var, üstəlik, atan, mən… Başa düşdün?

M a ş a. Başa düşdüm…

I q o r l a N i k o l a y E q o r o v i ç qayıdıb gəlirlər.

N i k o l a y Y e q o r o v i ç. Mən hazır. Iqor mənə təzə ipək qalstuk bağışladı.

I r i n a M a r k o v n a (intonasiya ilə deyir). Biz getdik!

N i k o l a y Y e q o r o v i ç. Deyəsən, belə bir mahnı var. (Oxuyur) Biz getdik!

I r i n a M a r k o v n a. Iqor, ördəyi sənə tapşırıram!

Gedirlər.

I q o r. Sənin bu atanda bilirsən nələr var? Məni tamam soydu… Ya sən, ya o – fərqi yoxdu!

M a ş a. Ləzzətə görə haqq ödəmək lazımdır!

I q o r. Hətta belə!.. Eybi yoxdu… Olsun… Haqqın müqabilində belə razılığa gəldik ki, indi mənim valideynlərimin yanına gedirlər, gecəni orada qalırlar, səhər gələndə də Dimanı özləri ilə gətirirlər. Mən də onu yaxşı-yaxşı kötəkləyirəm…

M a ş a. Dima gəlməyəcək. Bayram qurtarana kimi orda – nənəsinin-babasının yanında qalacaq.

I q o r. Niyə?

M a ş a. Orda bir qızdan xoşu gəlib.

I q o r. O nə qızdı elə?

M a ş a. Sizinlə üzbəüzdə olur…

I q o r. O daxmada? Hardan bilirsən?

M a ş a. Eşitmişəm…

I q o r. Kimdən?

M a ş a (istehza ilə). Dəvədən… Başa düşdün?

Telefon zəng çalır. M a ş a diksinir. I q o r dəstəyi qaldırır.

I q o r. Alo! Ah, sizsiniz?! Axı, mən izah etdim! Yeni penthaus… Pəncərəsi Moskva çayına baxır… Ünvanı itirməmisiniz ki? Əla!... Tapacaqsınız! (Dəstəyi yerinə qoyur və Maşanın yanına gəlir.) Hm... Azıblar… Indi gələcəklər.

M a ş a (fikirli). Tutaq ki, mən razılaşdım… Ancaq «tutaq ki…» Əvəzində nə qazanacağam?

I q o r. Necə yəni nə qazanacaqsan? Möhkəm ailə və səni sevən ər…

M a ş a. Bu bir. Daha nə?

I q o r. Başa düşmədim?! Yenə şuba?

M a ş a. Hə. Özü də didilmiş samur dərisindən.

I q o r. Gicbəsərlər! Başa düşmürəm ki, samur dərisini nədən ötrü didirlər?

M a ş a. O sənin işin deyil! Özləri bilərlər!

I q o r. Nəyə görə həmişə sənin şubanı oğurlayırlar?

M a ş a. Bu iş hamının başına gələ bilər. Elə sənin də «cip»ini qaçırdırlar…

I q o r. Bu saat mənim artıq pulum yoxdur.

M a ş a. Artıq pulun yoxdur… Amma təzə «mersedes» üçün…

I q o r (söhbətin uzanmasını istəmir). Qadın üçün alt paltarı nədirsə, kişi üçün də maşın odur. Yeri gəlmişkən, hansı alt paltarını geyinmisən?

M a ş a. Qaranı.

I q o r. Çox ağıllısan.

Küçədə maşın siqnalizasiyasının səsi eşidilir.

M a ş a. Sənin maşınını qacırırlar?

I q o r. Mənim maşınım başqa cür böyürür: «Vu-u-u-a-a-ı-ı-ı-e-e-un-un-p!». Yanından milçək də uça bilməz! Super siqnalizasiya düzəltdirmişəm!

M a ş a. Yaxşı, bəs, şuba necə olacaq?

I q o r. Zavodla danışaram. Lazımi adamları işə qoşaram. Investisiya qoyarlar. Didilmiş samur dərisindən şubanı alarsan. Hətta belə!..

M a ş a. And iç.

I q o r. Əgər, yalan deyirəmsə, iqtisadçılar demişkən, yüz il izafi dəyərə həsrət qalım!

M a ş a. Yaxşı, bir halda ki, bu mərasimsiz bizim ailəni qoruyub saxlamaq mümkün deyil, mən çalışaram…

I q o r. Afərin, Maşa! (Maşanı öpür.) Sən təsəvvür edə bilmirsən ki, indi biz necə xoşbəxt yaşayacağıq! Gülümsə – bu, qorxulu deyil!

M a ş a. Dayan!

I q o r. Nə oldu?

M a ş a (Iqorun çənəsindən yapışır). Başını qaldırır! Bir az da! Yaxşıdı! (Üzünə möhkəm bir sillə vurur.) Indi xoşbəxt yaşayacağıq!

I q o r (üzünü tutur). Sən də kinli imişsən ha…

Qapının zəngi çalınır.

M a ş a. Gülümsə, əzizim, qonaqlar gəlir!

M a ş a I q o r u n əlindən tutur və onlar xoşbəxt ər-arvad roluna girib qapını açırlar. S e r g e y və L e r a içəri girirlər. S e r g e y görkəmindən reportyora oxşayır. L e r a qeyri-adi şəkildə geyinib, gözündə iri eynək var, fikirlidir. Hiss olunur ki, K o ş e l k o v l a r ı n mənzili onlarda güclü təəssürat oyadıb.

M a ş a (kübarcasına). Buranı çətin tapdınız?

S e r g e y (tortu və gül dəstəsini Maşaya verir). Mənim adım Sergeydir. Bu da arvadım Lera.

I q o r. Iqor.

M a ş a. Maşa.

L e r a. Nə qəşəng mənziliniz var!

I q o r (qürurla). Iki yataq otağı, üç vanna… Ümumiyyətlə, mən üç yataq otağı düşünmüşdüm, amma arvadım istədi ki, valideynləri də burada qalsınlar. (Göstərir) Ora da onlarındır…

S e r g e y. Bəs, özləri hanı?

I q o r. Narahat olmayın. Gediblər. Sabah gələcəklər.

M a ş a (göstərir). Bura qonaq otağıdır. Ora da uşaq otağı…

L e r a. Sizin uşağınız da var?

M a ş a. Hə, var. Oğlandı. Bəs, sizin?

L e r a. Bizim…

S e r g e y. Bizim uşağımız yoxdur…

L e r a. Bəs, sizin uşağınız hardadır?

I q o r. Valideynlərimin yanında… Şəhərətrafı bağda… Hə, bir də bizim bir istirahət otağımız, bir solyarimiz, bir bilyardxanamız var…

L e r a. Bəs, onları kim yığışdırır?

M a ş a. Anamla mən… Ərimə elə hey deyirəm qulluqçu tutaq…

I q o r. Müdrik bir kəlam var: arvadı tənbəlləşdirmək istəyirsənsə, qulluqçu tut…

L e r a (Maşaya). Siz işləyirsiniz?

M a ş a. Mənə elə evin işi bəs edir.

L e r a. Darıxmırsınız?

M a ş a. Yox. Seriallara baxıram.

L e r a (birdən-birə canlanaraq). Ən çox hansı serial xoşunuza gəlir?

M a ş a. «Məhəbbətin amansız günəşi».

L e r a. Çox işlənən sabundu…

M a ş a. Siz necə fikirləşirsiniz: Monolis Diyeqonu öldürəcək?

L e r a. Yox, mən fikirləşirəm ki, əvvəl-axır, onlar qardaş çıxacaqlar. Bəs, siz özünüzü kimə oxşadırsınız: Qloriyaya, yoxsa Jujaya?

M a ş a. Nə?

S e r g e y. Lera, bəsdir! Biz bura ondan ötrü gəlməmişik. Mənim arvadım psixokulturoloqdur – virtual matrisaların sosiumun inkişafına təsirindən doktorluq dissertasiyası yazır.

I q o r. Olar bu dediklərinizi mümkün qədər rus dilinə tərcümə edəsiniz?

S e r g e y. Əlbəttə. Lera seriallardakı qəhrəmanların real insanlara təsirini tədqiq edir… Mən düzmü tərcümə etdim, əzizim?

L e r a. Hə.

M a ş a. Siz də bütün seriallara baxırsınız?

L e r a. Lazım olanda...

M a ş a. Onda, gedək, ev kinoteatrımızı sizə göstərim.

Qadınlar gedirlər. Kişilər özlərini narahat hiss edirlər.

S e r g e y. Bu cür mənzil neçəyə olar?

I q o r. Saysız-hesabsız pula.

S e r g e y. Yəni, bu qədər pulu qazanmaq mümkündür?

I q o r. Görürsünüz ki, mən qazanmışam.

S e r g e y. Yəqin ki, siz biznesmensiniz…

I q o r. Əlbəttə…

S e r g e y. Hm…

I q o r. Nə deməkdir – «Hm?»

S e r g e y. Necə deyim? «Hm» elə «Hm» deməkdir.

I q o r. Aydındır: bütün biznesmenlər, bir növ, kələkbaz və fırıldaqçıdılar, hə?

S e r g e y. Yox. Bütün kələkbazlar və fırıldaqçılar, bir növ, bisnesmendilər.

I q o r. Təəccüb edirəm ki, bu sözü bu cür bahalı qalstuk vurmuş adam deyir…

S e r g e y. Tez-tez cəmiyyətin yüksək təbəqələrində oluram. Mən – jurnalistəm… Bu cür qalstuk taxmasam…

I q o r. Belə bir jurnalist var – Maksim Kazanoviç – tanıyırsız?

S e r g e y. Yox. Çox güman ki, təzə yazanlardandır.

I q o r. Əgər, görsəniz salam söyləyin.

S e r g e y. Kimdən?

I q o r. Məndən.

S e r g e y. Familyanız necədir?

I q o r. Koşelkov.

S e r g e y (təəccüblə.) Koşelkov siszsiniz?

I q o r. Mənəm.

S e r g e y. Məgər, sizi tutmayıblar?

I q o r. Yox. Dəlil tapa bilmədilər.

S e r g e y. Bu hal o vaxt baş verir ki, şübhəli şəxs qismində dindirilənin pulu həddindən artıq çox olur.

I q o r. Başa düşmürəm: siz bura bazar açmağa gəlmisiniz?

S e r g e y. Bağışlayın… Yenə kimsə gələcək?

I q o r. Iki nəfər də: bir kişi, bir arvad… Bəlkə onlar gələnə kimi bir işlə məşğul olaq… Yaxşı bilyardım var… Sənə kolleksiyamı da göstərə bilərəm…

S e r g e y. Nə toplayırsınız?

I q o r. Bıçaq, xəncər, qılınc… Kəsə bilən hər şey!..

S e r g e y. Ciddi adamsınız…

I q o r (araq şüşəsini götürür). Gəl, bir yerdə bruderşaft içək…

S e r g e y. Lazımdırmı?

I q o r. Bunsuz olar? Qardaşlaşanlar belə qardaşlaşırlar!

I q o r l a S e r g e y gedirlər. M a ş a ilə

L e r a gəlirlər.

M a ş a. Nəyə görə bütün seriallarda baş qəhrəmanlar ya uşaqlarını itirirlər, ya da yaddaşlarını?

L e r a. Siz bir yoxlayın: çox yox, yüzcə seriya yazın, çalışın kimsə uşağını itirməsin və yaxud koma halına düşməsin – mümkün deyil!

M a ş a. Hə, doğrudan da…

L e r a. Siz yenə nəsə soruşmaq istəyirsiniz?

M a ş a. Hə. Bizə niyə gəlmisiniz? Elə bilirsiniz ki, bu nəyisə dəyişəcək?

L e r a. Əgər, dəyişməyəcəksə, onda, bizi niyə çağırmısınız?

M a ş a. Mən yox… Iqor çağırıb…

L e r a. Bəs, siz niyə razılaşmısınız?

M a ş a. Hm… Bəs siz?..

L e r a. Mənim, sadəcə olaraq, başqa çıxış yolum yoxdu.

M a ş a. Məgər bu çıxış yoludu?

L e r a. Baxarıq…

M a ş a. Bir şey də soruşa bilərəm? Amma inciməyin!

L e r a. Çalışaram inciməyim.

M a ş a. Özünüzü elə göstərirsiniz ki, guya, sizin üçün kişilərin heç bir əhəmiyyəti yoxdur.

L e r a. Əslində, həqiqətən də, belədir. Bütün kişilərdən zəhləm gedir, birindən savayı…

M a ş a. O bir kişi də yəqin ərinizdir…

L e r a. Nə qədər qəribə olsa da, hə…

M a ş a. Siz onu sevirsiniz?

L e r a. Təsəvvür edin ki, hə. Bəs siz?

M a ş a (istehza ilə). Iqorsuz yaşaya bilmərəm!

L e r a (otağa göz gəzdirərək). Bunu güman etmək olardı.

M a ş a. Bəs, siz qorxmursunuz?

L e r a. Nədən?

M a ş a. Necə yəni nədən? Bu işin aqibətindən.

L e r a. Bunun əhəmiyyəti yoxdur.

M a ş a. Bəs, onda, nəyin əhəmiyyəti var?

L e r a. Imperativ mənəviyyatın itirilməsinin!

M a ş a. Aydındı, deməli, buna görə qaraçı kimi geyinmisiniz?

L e r a. Mən həmişə belə geyinirəm.

M a ş a. Heç olmasa, eynəyinizi çıxarın!

L e r a. Mən onlarsız heç nə görə bilmirəm.

M a ş a. Tamamilə heç nə?

L e r a. Müxtəlif rəngli iri ləkələrdən başqa heç nə. Nənəm deyərdi: «Lerka, o qədər oxuyacaqsan ki, axırda sənə qalın şüşəli eynək yazacaqlar, heç kəs görməyəcək ki, necə qəşəng gözlərin var!».

M a ş a (Leranın eynəyini gözündən çıxarır). Sizin gözləriniz, doğrudan da, çox qəşəngdir! Məndə bir paltar var «Nina Piççi»dən almışam. Elə bil sizdən ötrü tikilib-rəngi də gözünüzün rənginə uyğundu!

L e r a. Yox. Özgə paltarında…

M a ş a. Bu nə sözdü?! Mən onu bir dəfə də geyinməmişəm. Kökəldim – qaldı… Sizin əyninizə lap yaxşı olar!

Maşın siqnalizasiyasının səsi eşidilir – bu, I q o r u n bayaq çıxartdığı səsə çox oxşayır. I q o r bir əlində bilyard çiyi, bir əlində xəncər eşiyə atılır.

M a ş a. Görürsünüz? «Mersedes»indən ötrü az qalır özünü öldürsün.

L e r a. Maşına olan qeyri-adi maraq kişidə cinsi frustrasiyanı kompensasiya edir.

M a ş a. Nə?

L e r a. Heç nə… Mən içmək istəyirəm.

M a ş a. Mən də. Bruderşaft!

L e r a. Indi ki, belə oldu, onda, şvesderşaft!

Araq şüşəsini götürüb çıxırlar. A n t o n Q o v o r o v və K s i görünürlər. A n t o n Q o v o r o v u n

əynində bahalı palto var. K s i isə zərif şubadadı.

Ora-bura baxırlar.

A n t o n. Deyəsən, buradı. Qəribədir: qapı açıqdı. O, yəqin ki, burdan çıxdı.

K s i. Axmaq! Az qalmışdı zavallı atacığımı ayaqlasın (onun parikini düzəldir).

A n t o n. Gör bığım qopmayıb ki?

K s i. Bu süni saçla, süni bığı neyləyirsən?

A n t o n. Lazımdır.

K s i. Narahat olma, atacağım, hər şey qaydasındadır (onun möhtəşəm bığlarını sığallayır).

A n t o n. Sən adam kimi danışa bilməzsən?

K s i. Axı, nəyə görə?

A n t o n. Səni belə bir yaxşı evə gətirmişəm – ona görə…

K s i. Elə çox lazım idi! Ey, burda adam var? Bəlkə heç bizə lazım olan yerə təpilməmişik?

A n t o n. Axı, mən xahiş etdim ki, ədəbli danışasan!

K s i. Bağışla, bir dəfə ilə qanmıram!

A n t o n. Süfrə açılıb. Yüz faiz buradı!.. (Iki şüşə şampanı və bir banka kürünü çıxarıb stolun üstünə qoyur.) Heç nə yadından çıxmayıb ki?

K s i. Yox, atacığım!

A n t o n. Bu «atacığım» sözü hardan ağzına düşüb? Yığışdır!

K s i. Niyə? Gənc xanımlar öz qocalarını, adətən, «atacığım» deyə çağırırlar.

A n t o n. Indi mən sənin üçün qoca oldum?

K s i. Yox, niyə ki… Canın hələ suludur!.. Bəs, sənə necə müraciət edim?

A n t o n. Tutaq ki, belə: Anton Qriqoryeviç. Adım… Atamın adı… Yox, lazım deyil… Həddən artıq rəsmi olur.

K s i. Rəsmi niyə olur e? Mən bir professora imtahan verməyə gedirdim – evinə… Bəzən ayaqlarımı çiyninə qoyub soruşurdum: Tixon Xaritonoviç, bəlkə elə dörd yazasınız?

Deyirdi ki, yox, üç ki, üç. Dörddən ötrü gərək, heç olmasa, kitaba bir göz gəzdirəsən! Yaman prinsipial kişi idi…

A n t o n. Niyə ki?

K s i. Eh, həddindən artıq yorulmuşdu… Bizim toxuculuq institutunda iki alan qızlar… Özün bilirsən də!.. Anton Qriqoryeviç, bax, çalış lazım olduğundan çox yorulma…

A n t o n. Bayaq izah etdim, axı! Nə öz adım, nə də atamın adı lazım deyil!

K s i. Oldu, innən belə sənə Toşa deyəcəyəm.

A n t o n. Yaxşı. Bir də, mümkün qədər özünü təbii apar!

K s i. Aparım də! Toşa, mənim pulumu nə vaxt verirsən?

A n t o n. Elə bu saat yox də. Işi görək, sonra.

K s i. Salamat qal – belə söylədi hambal! Mən getdim…

A n t o n. Dayan! Yarısını indi, yarısını da sonra. (Pul sayır.)

K s i. Axır ki, dilə tutdum. (Pulu sayır.) Bu dərini tut görüm!

A n t o n. Di gəl indiki cavanların dilini başa düş!

K s i n i n şubasını alıb girəcəkdəki asılqana sarı aparır.

K s i. Normal, işlək dildir. Yenə soyunum?

A n t o n. Gözlə. Hamamda deyilsən! (Mobil telefonu zəng çalır.) Hə, Olenka! Yəqin ki, gec gələcəyəm… Nə edim, qanun layihəsində boşluqlar var. Gərək düzəldək… Qurtaran kimi zəng edəcəyəm… Öpürəm!

K s i. Sən həm də yalançı imişsən ha, Toşa!

I q o r qayıdıb gəlir.

I q o r (pərt və karıxmış halda). Uşaq-müşağın topu dəyib. Tutsaydım – öldürəcəkdim! (Xəncəri arxasında gizlədir.)

A n t o n. Siz Iqor Pavloviçsiniz?

I q o r. Bəli. Bəs siz?

A n t o n. Anton. Bu da Kseniyadı.

K s i. Yaxşı olar ki, elə Ksi deyəsiniz.

I q o r (Antona). Sizin nə cavan arvadınız var!

A n t o n. Belə alınıb. Heç özüm də gözləmədən…

K s i. Toşa mənə evlənmək təklif edəndə, infarkt ərəfəsində idi, sadəcə olaraq, qorxdum ki, imtina edərəm, ölər. Düzdü, şəkərim?

A n t o n. Düzdü. (Iqora) Deyəsən, təkcə biz gəlmişik.

I q o r. Yox, hamı burdadı. Iki nəfər, nəsə, gecikir. Bir şey soruşum: biz əvvəllər görüşməmişik ki?

A n t o n. Yox.

I q o r. Mən sizi hardasa görmüşəm… Amma harda?

A n t o n. Nə bilim?

K s i. Iqor, mən sizin sözünüzün arasına girmək istəmirəm. Amma, bir şey başa düşmədim. Bu mavi söhbəti… «Mən səni hardasa görmüşəm…» Toşa, bəs, sən deyirdin ki, ədəbli adamlarla istirahət etməyə gedirik?

Bu vaxt M a ş a ilə L e r a gəlirlər. Hər ikisinin də əlində qədəh var. L e r a eynəksizdi, əyninə son dərəcə gözəl, zərif paltar geyinib. Saçı dəblə daranıb. O, mebelə ilişir və M a ş a d a n geri qalır.

A n t o n. Icazə verin, özümü təqdim edim: mənim adım Antondur… (Maşanın əlini öpür.)

M a ş a. Maşa. Bəs atanızın adı?

A n t o n. Atamın adı… Belə bir şəraitdə… Siz elə sadəcə Anton deyin…

K s i (əlini Maşaya uzadır). Ksi. Mən bunun (Antonu göstərir) gənc arvadıyam.

A n t o n (başı ilə Leraya işarə edir). Bəs, bu füsunkar qadın kimdir?

M a ş a. Bu, Leradır, mənim rəfiqəmdi: psixokulturoloqdur.

I q o r. Artıq rəfiqə olmusunuz?

M a ş a. Biz hətta içmişik də… Ler, onun adı nə idi?

L e r a (onlara yaxınlaşır). Şvesderşaft.

I q o r. Başa düşmədim.

L e r a. Bu elə bruderşaftdır, amma qadınların arasında.

K s i. Toşa, sən məni hara gətirmisən?

A n t o n. Sən ağzını yum! (Leraya) Sizinlə tanış olduğuma çox şadam.

L e r a səntirləyə-səntirləyə addım atır, əlini I q o r a uzadır.

M a ş a. O yox, Lera, o Iqordur. Anton yanındakıdır, bığlı.

L e r a. Heç nə görmürəm. Elə hey iri ləkələrdi…

M a ş a. Ola bilər ki, bu, hətta, yaxşıdır.

L e r a (əlini Antona uzadır). Lera.

A n t o n. Sizin necə də zərif əliniz var! (Onun əlini öpür.) Hələ gözləriniz! Sizə heç deyən olubmu ki, gözləriniz qədimi Venetsiya şüşələrinin rəngindədir? Siz burada təksiniz?

K s i. Toşa, qızı bərkə salma – tab gətirməz! Ha-ha-ha!

L e r a. Yox, ərimləyəm.

A n t o n. Təəssüf, çox təəssüf!

K s i. Toşa, səni harda saxlamaq lazımdırsa, de, ipini çəkim. Ərin bura nə dəxli var? Sən mənə deyirdin ki…

L e r a. Bəs, Sergey hardadır?

I q o r. Mən ona öz xəncərlərimi göstərmək istəyirdim, bir də baxdım ki, sivişib girib kitabların arasına. Mən burda, demək olar ki, bir muzeyin axırına çıxmışam. Əvəzində böyük bir kitabxana almışam. Dəri üzlüklər… Qızılı basmanaxışlar… Dizayn lazımdı axı…

L e r a. Ey, dizayner, onu çağırın gəlsin!

I q o r, S e r q e y i n arxasınca gedir.

M a ş a. Gəlin əyləşin. Ilahi, mən heç bu böyüklükdə kürü bankası görməmişəm. Anton, bunu siz gətirmisiniz?

A n t o n. Bu nədi ki… Boş şeydi… Kürü də istridiyə kimi son dərəcə qüvvətli…

L e r a. Nədi, sizin elə probleminiz var? Onda – qabarböcəyi, ya da mandraqora bitkisinin kökü daha yaxşıdı.

M a ş a. Onlar nədi elə?

L e r a. Ikisi də viaqra kimi bir şeydi, amma ondan qat-qat güclüdür…

K s i. Heç vaxt!

A n t o n. Niyə?

K s i. Yadına gəlir, mən sənə Tixon Xaritonoviç haqqında danışırdım?

A n t o n. Hə, nə olsun ki?

K s i. Viaqranı ovuc-ovuc tıxırdı. Axırda elə iş gördüyü yerdə ayaqlarını uzadıb gəbərdi. Az qalmışdı yazıq qızı da dama bassınlar.

L e r a. Rəfael də qadın ağuşunda ölüb.

M a ş a. Sən bütün bunları hardan bilirsən?

L e r a. Oxumuşam.

A n t o n. Hm… Görünür, elə kürünü yeməli olacağam…

K s i. Televizorda deyirdilər ki, bir azdan qara kürü olmayacaq.

I q o r (qayıdıb gəlir). Boş sözdü! Pul varsa – kürü olacaq!

L e r a. Siz, doğrudan da, hesab edirsiniz ki, hər şeyi pulla almaq olar?

I q o r. Bilmirəm. Amma, hər halda, indiyə qədər pulsuz bir şey almamışıq.

S e r g e y əlində kitab gəlir.

S e r g e y. Inanmaq olmur! Qoqolun sağlığında nəşr olunmuş kitabı! Lera, eşidirsən? (Ətrafa göz gəzdirir.) Hanı mənim arvadım?

M a ş a. Bir az da çox oxusan, taparsan! Apardılar…

S e r g e y. Kim?

M a ş a. Aha, qorxdun?! Budur da! Tanımadın?

S e r g e y. Sən niyə başqasının paltarını geyinmisən?

L e r a. Yaraşmır?

S e r g e y. Eynəyin hanı?

A n t o n. Bu cür gözləri də gizlətmək olar? Onlar qədimi…

K s i. Toşa, zəhlətökən olma, öz-özünü təkrarlayırsan!

S e r g e y. Bu saat çıxart!

L e r a. Əzizim, sən istəyirsən ki, mən soyunum?

S e r g e y. Lera, yadına sal ki, biz bura niyə gəlmişik?

A n t o n. Doğrudan da, siz bura niyə gəlmisiniz?

S e r g e y. Hər halda, sizin gəldiyiniz şeydən ötrü gəlməmişik! (Antona baxır.) Dayanın, mən sizi hardasa görmüşəm!

K s i. Yenə başladılar!

I q o r. Bazarı qurtarın! Təlimata əsasən, biz bir-birimizlə incə rəftar etməli və bir-birimizə kiçik hədiyyələr verməliyik. Sergey, Qoqolun sağlığında nəşr olunmuş kitabını sənə bağışlayıram!

S e r g e y. Mən yad adamdan bu cür bahalı kitabı hədiyyə ala bilmərəm.

I q o r. Eybi yoxdur, bir azdan biz yad yox, təqribən yaxın qohum olacağıq.

M a ş a. Mən də, Lerka, bu paltarı və ayaqqabını sənə bağışlayıram!

L e r a. Sağ ol, Maşa! (Səhvən Ksini öpür.)

I q o r. Hər şey qaydasındadır! Indi süfrə arxasına keçmək, tanış olmaq və bu günü bayram kimi qeyd etmək lazımdır.

A n t o n. Bağışlayın, mən 1 Mayı qeyd etmirəm. Bu, kommunistlərin bayramıdır. Mən əqidəcə demokratam!

I q o r. Biz bunu kommunist bayramı kimi yox, tamamilə başqa bir bayram kimi qeyd edəcəyik.

L e r a. Yəni, doğrudan, Valpurgiyev gecəsidir? O ki, qurtarıb…

I q o r. Nə olsun ki, qurtarıb! Bu ad günü kimidi… Vaxtından əvvəl qeyd etmək olmaz, amma, sonra – olar…

M a ş a. Lerka, nə gecəsi dedin?

L e r a. Valpurgiyev gecəsi. Rəvayətə görə hər il aprelin otuzundan mayın birinə keçən gecə Keçəl dağda Bedminsk bayramı keçirilir.

K s i. Vay səni! Deməli, bizdə də bayram olacaq?

I q o r. Mütləq!

K s i. Kayfdı ki!

I q o r. Amma əvvəlcə içmək lazımdır…

Əyləşirlər. I q o r qədəhlərə içki süzür.

K s i. Birinci tostu əsas adam deyəcək.

I q o r. Kimdi əsas adam?

M a ş a. Sən. Bu mərasimi sən təşkil etmisən. Indi buyur, danış!

I q o r. Mənə elə gəlir ki, birinci tostu aramızda hamımızdan böyük və təcrübəli olan şəxs deməlidir!

K s i. Toşa, sən gücənməli olacaqsan!

A n t o n (ayağa qalxır.) Yaxşı… Xanımlar və cənablar! Mən təklif edirəm ki, ilk qədəhləri demokratiyanın şərəfinə qaldıraq!

L e r a. Siz, təsadüfən, vurtinqlə mitinqi dəyişik salmamısınız ki?

A n t o n. Bağışlayın, mən heç nəyi dəyişik salmamışam. Amma siz, heç olmasa, bir saniyəliyə sovet dövrünün ikiüzlü, riyakar qanunlarını xatırlayın. Amma indi… Biz qorxusuz-ürküsüz arzularımızla məşğul ola bilərik. Biz azad insanlarıq!

L e r a. Nədən azad?

A n t o n. Hər şeydən!

M a ş a. Məgər bu yaxşıdır?

A n t o n. Əlbəttə! Biz özümüzə, yalnız özümüzə mənsub oluruq! Biz öz taleyimizi, öz cismimizi, öz sevgimizi… bölüşdürməkdə tamamilə sərbəstik!.. Demokratiyanın şərəfinə! Ura!

K s i. Mənim bu ərim ağıllıdır, hətta o qədər ağıllıdır ki, onunla yatmaq dəhşətli dərəcədə təhlükəlidir.

S e r g e y. Siz, təsfadüfən, siyasətçi deyilsiniz ki?

A n t o n. Nə fərqi var kiməm? Bu gün burada biz təbiətin övladlarıyıq. Içək!

Qədəhləri toqquşdururlar.

L e r a. Qulaq asın, Iqor, ümumiyyətlə, hardan, ağlınıza gəldi ki, bu elanı verəsiniz? (Çantasından «Homo erektus» jurnalını çıxarır, amma Ksi jurnalı dartıb onun əlindən alır.)

K s i. Vay səni, «Homo elektrus»! Bütün mağazalarda var!

M a ş a. Lerka, sən hansı elandan danışırsan?

L e r a. Məgər sən heç nə bilmirsən?

M a ş a. Yox. Iqor mənə təkcə onu deyib ki, bu mərasim ailəmizi möhkəmləndirəcək. Biz böhran içindəyik…

S e r g e y. Bəs, ailənizi necə möhkəmləndirəcəyinizi sizə izah etməyib?

M a ş a (dərindən köks ötürür). Izah edib. Bəs, o elanda nə var?

L e r a (oxuyur). «Bütün zərərli vərdiş və komplekslərdən uzaq azadlıq sevən ər-arvad» istədilər ki, «1 May»ı «Eyni fikirlilər cəmiyyəti»ndə keçirsinlər…»

A n t o n. Ah, indi aydın oldu: nəyə görə «1 May»?!

I q o r. Konspirasiya. Olmaz axı: birbaşa elan edəsən ki, arvadlarını dəyişmək üçün görüşəcəklər. Hələ hamı o dərəcədə inkişaf etməyib…

M a ş a (istehza ilə). Dəli olmayıb…

I q o r. Ha-ha-ha! Olduqca gülməlidir!

M a ş a. Elanda daha nə yazılıb?

L e r a. Yazılıb ki, «O, yəni ər – hündürboylu, göygözlü, şabalıdı saçlıdı, pəhləvan cüssəlidir…».

M a ş a (Iqora). Əzizim, məgər, elanda yalan yazmaq olar? Axı, sən keçəlsən, həm də ki, qarın bağlamısan.

I q o r. Bəs keçmiş? Bir vaxtlar gur, şabalıdı saçlarım olub. Qarın bağlamağım isə (qarnını çəkir) naharda…

M a ş a. Təkcə nahar yox, şamdan sonra da hiss olunur. (Leraya) Lerka, orada mənim haqqımda nə yazılıb?

L e r a (oxuyur). «O – Maşa, yəni sən – arvad, şux və zərifdi, tökmə bədənlidi, üzüyola və sözqanandı…».

M a ş a. Iqor sən alçaq və yaramazsan! (Leraya) Sonra nə yazılıb?

L e r a. Esde istisnadır.

M a ş a. Nə istisnadır?

L e r a. Sadomazoxizm.

M a ş a. Təəssüf! (Iqora) Böyük məmnuniyyətlə səni süpürgə ilə kötəkləyərdim!

L e r a. Iqor, ümumiyyətlə, siz «svinq» haqqında məlumatı hardan götürmüsünüz?

M a ş a. Nə haqqında?

L e r a. «Svinq»… Ingilis sözüdü… Mənası «seksual partnyorları dəyişmək» deməkdi… Əlbəttə, məcazi mənada…

M a ş a (istehza ilə). Hm… Məcazi mənada… Siz nə danışırsınız? Biz, seksual partnyorlarımızı sözün həqiqi mənasında dəyişəcəyik… Bu ki, murdarçılıqdır!…

K s i. Toşa, bunlar nə danışırlar? Axı, sən deyirdin ki, qrup halında…

A n t o n. Yadında saxla: «svinq» qrup halında seks deyil!

L e r a. Anton, təəssüf ki, sizi pərt etməli olacağam. Mütəxəssislərin fikrincə, «svinq» qrup halında seksin strukturlaşmış növüdür və keçən əsrin altmışıncı illərində – seksual inqilablar dövründə Amerikada yaranıb. Bu haqda qərb mətbuatında da çox şey oxumuşam.

I q o r. Gör bizə nə gec gəlib çatıb?

A n t o n. Bu ölkəyə yaxşı olan hər şey lap axırda gəlib çatır. Lera, siz «svinq»lə bir psixokulturoloq, yoxsa bir qadın kimi maraqlanırsınız?

L e r a. Əvvəlcə elmi baxımdan diqqətimi cəlb etdi. Amma «Homo erektus» jurnalındakı elanı oxuyandan sonra belə qərara gəldim ki, öz üzərimdə bir yoxlayım…

S e r g e y. Yaxşı olar ki, siçanlar üzərində yoxlayasan!

M a ş a. Aha, gördün? Öz üzərində yoxlasan, ərinin yanında hörmətsiz olacaqsan…

L e r a. Boş sözdü! Sergeylə bir-birimizi məktəb illərindən tanıyırıq və o qədər yaxınıq ki, özgə genetaliyalarla ani – tez ötüb keçən əlaqələr bizim üçün əhəmiyyət kəsb edə bilməz. Düzdürmü, əzizim?

S e r g e y (sakitcə Leraya). Nə boş-boş danışırsan?

L e r a (bərkdən). Mənim ərim də elə belə düşünür.

I q o r (Maşaya). Eşidirsən, ağıllı adamlar nə danışırlar?!

M a ş a. Mən heç nə başa düşmürəm. (Ərinə) Istəyirsən ki, səni özgə kişi ilə dəyişim? Və bu bizim ailəmizi möhkəmləndirəcək, hə?

I q o r. Dayan. Dayan! Axı, mən də səni dəyişirəm! Nəticədə heç-heçə – sər-hesab oluruq! Bir növ, elə bil ki, heç nə olmayıb. Hətta belə!

M a ş a. Əgər, bir növ, heç nə olmursa, onda bütün bunlar nəyə lazımdır?

I q o r. Maşa, axırıncı dəfə izah edirəm! Xəyanət odur ki, özünü üzdə sədaqətli arvad kimi aparırsan, gizlində isə… hm… gizlində isə görüşə gedirsən, oynaşınla əylənirsən, hətta ərinin pulu ilə ona hədiyyə də alırsan… Amma qadın ərinin şəxsi nəzarəti altında ona dönük çıxırsa, bu, xəyanət deyil!

M a ş a. Xəyanət deyil? Bəs, onda, nədi?

I q o r. «Svinq»dir! Başa düşürsən, «svinq!». «Svinq» – Amerikada ailənin möhkəmləndirilməsində başlıca üsuldur. (Xatırlayır.) «Nikah hissləri korşaldır, təzə cinsi partnyorlar arasında minnətsiz və təmənnasız əlaqə isə, ərlə-arvadı məcbur edir ki, biri-birinin imkanlarını yeni nəzərlə qiymətləndirsinlər…».

M a ş a. Iqor, sən bu murdar şeyi hardan eşələyib tapmısan?

I q o r. Necə yəni hardan eşələyib tapmışam?

M a ş a. Sən əvvəllər belə şeyləri ağlına da gətirməzdin.

I q o r. Maksim Kazanoviçin «Homo erektus» jurnalında «Monoqam nikahın monoton olmaması üçün…» adlı məqaləsi dərc olunub. Sən demə, Amerikada aparılan sorğu nəticəsində aydın olub ki, «sivinq»lə müntəzəm məşğul olanların arasında boşanma halları nikahda olanlara nisbətən dörd tam onda beş faiz azdır. Hətta belə!

M a ş a. Görüm sənin Amerikan yanıb külə dönsün!

I q o r. Maşa, sən lap ben Laden kimi danışdın!

A n t o n. Bəs, Qərbdə «svinq» haqqında nə yazıblar?

L e r a. Müxtəlif şeylər. Məsələn, Çikaqo Psixonaliz Institutundan doktor Ner Littner hesab edir ki, «svinq» ərlə-arvadın dözə biləcəyi «temperaturu» qoruyub saxlayan klapandır…

A n t o n (Leranın əlini öpə-öpə). Qəşəng olan təkcə sizin gözləriniz deyil, həm də erudisiyanızdır!

S e r g e y. Ey, nə yapışmısan arvadıma?! Qəmişini çək!

K s i (Sergeyə). Fikir eləmə, onun acığına mən də səninlə çaşqa-loşqa olaram…

S e r g e y. Yaxşısı budur elə öz ərinlə çaşqa-loşqa ol!

K s i. O sürtgü yağını deyirsən? Rədd olsun – məni bezdirib.

A n t o n. Təklif edirəm içək xanımların sağlığına!

K s i. Anton, çox içmə, ilişərsən!

A n t o n (Ksiyə). Sən məndən əl çək! Bir halda ki, bu gün qeyri-adi bir gündür, onda, kişilər ayaq üstündə yox, uzanıqlı içəcəklər!

I q o r. Özü də qadınların tuflilərində!

M a ş a. Çox gözəl! Əla! Lap bizim qəsrdəki kimi!

L e r a. Hansı qəsrdəki kimi?

M a ş a. Önəmli deyil.

A n t o n (Leraya). Icazə verin, sizin tuflinizdə!..

S e r g e y. Mən buna yol vermərəm!

L e r a. Narahat olma, əzizim, ikinizə də çatır – biri sənin, biri də onun!

Tuflilərini çıxarır. Birini S e r g e y ə, o birini də səhvən M a ş a y a verir. M a ş a tuflini A n t o n a sarı uzadır.

S e r g e y (Leraya). Tuflini ondan al!

L e r a. Almıram.

S e r g e y. Onda mən çıxıb gedirəm!

I q o r. Buna bax! Çox yaxşı başlamışdıq… Sergey, getmə! Istəyirsən, sənə təpəli-tıxılı bir çanta kitab bağışlayım?

K s i. Bağışlayır – götür, kayfımızı pozma...

L e r a. Dayanın. Mən onunla danışaram. (Sergeyi bir kənara çəkir.) Sənə nə olub? Niyə belə edirsən?

S e r g e y. Başa düşmürsən?

L e r a. Yox.

S e r g e y. Mən belə şeylərdən iyrənirəm.

L e r a. Bəs, rüşvətxorlar və quldurlar haqqında məqalə yazmaqdan iyrənmirsən?

S e r g e y. O başqa…

L e r a. Nəyə görə? Doğrudanmı, sən bu həngaməyə axıra qədər baxmaq istəmirsən?! Sonra yazarsan! Inan, bomba olar! Mən artıq diktafonu işə salmışam… Bax... (Balaca diktafonu göstərir.)

S e r g e y. Yığışdır! Mən bu bomba üçün material toplayana kimi sən seks-bomba olarsan.

L e r a. Məgər bu pisdi?

S e r g e y. Pisdi! Mən başqa cür Leraya öyrəşmişəm…

L e r a (eynəyini taxır). Beləsinə?

S e r g e y. Hə, beləsinə.

L e r a. Mən sənin belə xoşuna gəlirəm?

S e r g e y. Sən demişdin ki, biz ancaq baxacağıq…

L e r a. Mən günahkaram ki, kişilərin diqqətini cəlb edirəm?

S e r g e y. Kişilərin yox, bu kaftar arvadbazın.

L e r a. O da kişidir.

S e r g e y. Şübhə edirəm.

L e r a. Yoxlamaq olar…

S e r g e y. Yoxla! Mən gedirəm…

L e r a. Əzizim, qal! Mən xahiş edirəm. Bilirsən ki, çoxdan – xüsusilə bu son iki ildə səndən heç nə xahiş etməmişəm.

S e r g e y. Son iki ilin məsələyə nə dəxli var?

L e r a. Izah edim?

S e r g e y. Lazım deyil…

L e r a. Qalırsan?

S e r g e y. Hə. Amma tuflini ondan al!

L e r a (hamıya müraciətlə). Əziz svingerlər! Əziz günahkarlar!

I q o r. Günahkarlar niyə?

L e r a. Sizə başqa nə cür müraciət etmək olar ki? Rusiyada, nəsə, bir işlə məşğul olmaq həmişə günah sayılıb.

K s i. Əla sözdü! Yadda saxlamaq lazımdır.

L e r a. Mənim ərim qalır.

H a m ı (xorla). Ura!

L e r a. Amma bir şərtlə…

M a ş a. O nə şərtdi elə?

L e r a. Ilk badəni hər kişi öz arvadının tuflisində içəcək.

K s i (tuflisini çıxarıb Antona verir). Toşa, buyur!

A n t o n (tuflini iyləyir). Sən ayaqlarını heç yuyursan?

K s i. Hardadı məndə o bəxt? Duşumuz neçə gündü işləmir.

M a ş a (Iqora). Narahat olma, şanel ətri ilə təmizləmişəm.

Kişilər uzanırlar. Qadınlarsa onlara öz tuflilərində şampan içirdirlər. Sonra hamısı ayağa qalxır, musiqi səsləndirilir və bir müddət dəli kimi rəqs edirlər. S e r g e y onlara qarışmır, bir kənarda dayanır.

I q o r. Indi keçirik proqramımızın ikinci hissəsinə.

K s i. Elə birbaşa seks hissəsinə keçmək olmaz?

I q o r. Yox, olmaz. «Svinq»də ardıcıllıq və əhval-ruhiyyə çox mühümdü. Maşa, şamları yandır!

L e r a. Mən belə görürəm ki, «Homo erektus»dakı o məqaləni siz pis əzbərləməmisiniz.

I q o r. Bəs necə! Yeni biznesi mənimsəmək üçün gərək onun nizamnaməsini diqqətlə öyrənəsən. Maşa, şamları yandır!

M a ş a. Heyfin gəlmir?

I q o r. Yox!

S e r g e y. Klapan partlamaz ki?

I q o r. Yox!

M a ş a qədimi şamdanlardakı şamları yandırır.

A n t o n. Yaxşı, indi siz nə təklif edirsiniz?

I q o r. Içək. Ayıq başla nə «svinq?!».

I q o r iri, onlitirlik şərab şüşəsini gətirib ağzını açır.

K s i. Oy, nə böyük şüşədi?!

A n t o n (etiketi oxuyur). Bu, çox bahalı şərabdır…

I q o r. Dibinə kimi içəcəyik!

M a ş a. Mənim ərim ailəmizin möhkəmlənməsi üçün heç nəyini əsirgəmir.

S e r g e y d ə n başqa hamı şüşəyə yaxınlaşır.

Bir-bir içirlər.

I q o r (Sergeyə). Sən niyə heç kimə qaynayıb-qarışmırsan?

L e r a (Sergeyə). Əzizim, sən də bir balaca iç, cəsarətə gəl!

S e r g e y uzun-uzadı arvadına baxır, sonra şüşəni

I q o r u n əlindən alıb, dibinə kimi içir.

S e r g e y. Hə, nə olsun?

I q o r. Necə nə olsun? Indi şüşəni fırlatmaq lazımdır!

K s i. Bay!

M a ş a (qəhqəhə çəkir). Bizim məktəbdə də belə idi: şüşəni fırladırdıq və öpüşürdük…

K s i. Elə öpüşürdünüz? Vəssalam?

M a ş a. Əlbəttə. Özgə neyləməliydik ki?

K s i. Məəttəl qalıram… O nə məktəbdi ki, sən oxumusan…

I q o r. Afərin, Ksi! Biz davam edirik! Hətta belə! Şüşəni fırladırıq, ağzı kimə sarı düşsə, o, əynindən nəsə çıxardır. Və bu, hamı tamam lüt olana qədər davam edəcək.

S e r g e y. Mən etiraz edirəm…

L e r a (ərinə). Əzizim, narahat olma, sən mənim bədənimə görə xəcalət çəkməyəcəksən. Yoxsa, unutmusan?

A n t o n. Səsə qoyuruq! (Sergeydən başqa hamı əlini qaldırır.) Hamı – leyhinə, bir nəfər – əleyhinə.

S e r g e y. Mən gedirəm.

L e r a. Səfeh, bu ki, oyundur! Sadəcə olaraq, oyundur… Maşa, sənin xoşuna gəlir? Mən məmnunam.

S e r g e y. Sən dəli olmusan!

L e r a. Nə olsun? Bu, çıxış yoludu! (Qəhqəhə çəkib gülür.) Mən dəli olmuşam. Hə, Sergey dəli olmuşam! Sən isə ağıllısan. Amma nə olsun? Dəli arvaddan ki, canını qurtara bilməyəcəksən. Qurtara bilməyəcəksən! Ona, buna…

S e r g e y (əlini qaldırır). Sus!

L e r a. Doğrudanmı, vura bilərsən? Dəlini?..

S e r g e y. Mən, deyəsən, keflənmişəm…

I q o r. Bəsdi bir-birinizi söydünüz! Evdə deyilsiniz…

K s i. Yaxşı, biz bura mazaqlaşmağa gəlmişik, yoxsa münasibətləri aydınlaşdırmağa?

A n t o n. Ksi, ağzını yum!.. Bağışlayın, mənim arvadım hərdən gic şeylər danışır.

L e r a. Gic şeylər niyə? O haqlıdır.

I q o r. Gəlin belə əyləşək: bir oğlan, bir qız, bir oğlan, bir qız…

A n t o n. Lera, icazə verin mən sizin yanınızda əyləşim.

L e r a. Yaxşı da… Əyləş…

Adamların hərəkətlərindən bilmək olur ki, stolun üstünü yığışdırırlar. Sonra dövrələmə əyləşirlər. S e r g e y çox ləng hərəkət edir. M a ş a onun qoluna girir və yavaş səslə soruşur.

M a ş a. Mən sizin, az da olsa, xoşunuza gəlirəm?

S e r g e y. Bunun bir əhəmiyyəti var?

M a ş a. Var. Biz… başa düşürsünüzmü… hiylə işlədə bilərik… Gözdən yayınarıq… Sonra yataq otağına gedərik… və qoy hamı fikirləşsin ki, biz… Başa düşürsünüzmü?.. Bu yeganə çıxış yoludur…

S e r g e y i stola sarı aparır. S e r g e y müti və tabe olmuş adam kimi əyləşir.

I q o r. Hə, görək Allah kimə nə göndərir! (Şüşəni fırladır və şüşənin ağzı Maşaya sarı düşür.)

M a ş a. Mən elə belə də gözləyirdim. (Sırğalarını çıxardır.)

I q o r. Bəs indi? (Şüşəni fırladır və şüşənin ağzı Antona sarı düşür.)

A n t o n. Başlayaq zaponkalardan.

I q o r. Belə… Görək indi kimin bəxti gətirəcək? (Şüşənin ağzı Sergeyə sarı düşür.)

S e r g e y. Mən bayaq bunun əleyhinə səs vermişəm.

M a ş a. Bir buna baxın, özü də jurnalistdi!..

L e r a. Sən yad qadınlardan utanırsan, yoxsa məndən? Üzümü çevirə bilərəm… (Üzünü çevirmək istəyir.)

S e r g e y. Yaxşı, çevirmə, bax! (Saatını çıxarır.)

K s i. Olar mən fırladım?

I q o r. Olar, balacığaz!

Şüşənin ağzı I q o r a sarı düşür.

I q o r. Oho! Çox sağ ol! Nəyi çıxarım? (Ayaqqabılarını çıxarır.) Indi mən fırladıram! (Fırladır. Şüşənin ağzı Ksiyə sarı düşür.) Oho! Əks zərbə!

K s i. Buna bax e!.. (Sviterini soyunmağa başlayır, məlum olur ki, altdan heç nə geyinməyib.)

A n t o n. Hara lütlənirsən? Bir-bir soyun… Əvvəlcə, nəsə, nəzərə çarpmayan bir şey çıxart… Başa düşdün?

K s i. Başa düşdüm. (Sviterini tələsik geyinir.) Onda trusikimi çıxardım…

A n t o n. Axı, mən başa saldım ki…

I q o r. Eybi yoxdu, əgər istəyirsə, qoy çıxartsın…

K s i (trusikini soyunur və havada fırladır). Uç!.. Uç!..

I q o r. Fırlan, şüşəciyəz, uç burdan və bizi apar…

S e r g e y. …Heyvanlar aləminə. (Ayağa qalxır və soyunmağa başlayır.)

I q o r. Dayan, şüşənin ağzı hələ sənə sarı…

S e r g e y. Tüpürüm sənin şüşənə… Cəhənnəm olsun abır-həya!

K s i. Axır ki!

L e r a. Yaşasın günah xarabalığı!

M a ş a. Eh, cəhənnəm olsun hər şey!

A n t o n. Biz hamımız təbiətin övladlarıyıq!

I q o r (üzünü şama yaxınlaşdırır). Bizə «svinq» gəlib. «Svi-i-nq!».

K s i sviterinin ətəyini qaldırır. I q o r, nəsə, son dərəcə çılğın və açıq-saçıq bir musiqi səsləndirir və işığı söndürür. Hamı ehtizaza gəlir. Onlar şam işığında soyunmağa başlayırlar. K s i I q o r u n boynundan sallaşır. L e r a çox böyük çətinliklə A n t o n u n ağuşundan çıxmağı bacarır. Bir-birinə sarılmış M a ş a ilə

S e r g e y başqa otağa keçməyə cəhd göstərirlər.

L e r a. Dayanın! Siz hara?

M a ş a. Yataq otağına.

L e r a. Olmaz.

A n t o n. Qoy getsinlər. Biz də bir yer tapıb gedərik, əzizim!

L e r a (Antonun əlini itələyir). Əl çəkin!

S e r g e y. Sən özün istəyirdin ki, mən…

M a ş a. Lera, sən nahaq yerə qısqanırsan…

L e r a. Mən qısqanıram? Yoo-x, əzizim, mən istəyirəm ki, sən bunu mənim gözlərimin önündə edəsən!

I q o r. Afərin, Lera! (Maşaya) Mən də istəyirəm ki, sən bunu elə, burda – hamının gözü qabağında edəsən! Hətta belə…

M a ş a. Onda, əvvəlcə sən!

I q o r. Yaxşı!

K s i n i qaldırıb arxası üstə stolun üstünə uzadır.

K s i. E-e.. Çexolsuz olmaz!..

I q o r. Çexol? Çexol nədi?

K s i. Prezervativ…

A n t o n. Məndə var.

K s i. Ehtiyatlı atacığım!

A n t o n cibindən bir ovuc prezervativ çıxarıb I q o r a verir. O da bir neçəsini S e r g e y i n üstünə atır.

M a ş a bütün bunları dəhşət içində seyr edir.

I q o r. Sergey, çəkinmə! Mən icazə verirəm. Lera, dözməli olacaqsan! «Svinq» «svinq»dir. Başladıq! Üç deyəndə. Bir, iki… Qapının zəngi çalınır.

A n t o n. Bu kimdi?

L e r a. Adət-ənənəyə görə milis.

A n t o n. Yaxşı zarafata oxşamır.

L e r a. Siz niyə qorxursunuz? Biz hamımız təbiətin övladlarıyıq!

I q o r. Narahat olmayın! Yəqin bu dördüncü ər-arvaddı.

A n t o n. Artıq gəlməyə də bilərdilər!

K s i. Qoy gəlsinlər, atacığım. Çox adam – güclü xor deməkdir!..

A n t o n. Sən mumla, qancıq!

Qapının zəngi bir də çalınır. I q o r özünü bir qədər qaydaya salandan sonra gedir ki, qapını açsın. O, qapını açana kimi yerdə qalanlar da cəhd göstərirlər ki, əyinlərinə nəsə geyinsinlər. Içəriyə əlində qırmızı bayraq tutmuş enlikürək bir kişi daxil olur.

V a s i l i. Salam, yoldaşlar!

H a m ı (qətiyyətsiz halda, xorla). Salam…

V a s i l i. Hamınızın «1 May» bayramı mübarək olsun!

I q o r. Siz kimin yanına gəlmisiniz?

V a s i l i. Necə kimin yanına gəlmişəm? Biz ki, danışmışıq, telefonla. Bura Qələbə döngəsi, ev səkkiz, mənzil qırx dörd deyil?

M a ş a. Bəli.

I q o r. Sizin adınız nədi?

V a s i l i. Vasya.

I q o r. Ah, Vasya! Onda hər şey qaydasındadı!

V a s i l i (Iqora). Dayan, mən səni hardasa görmüşəm.

K s i (narazı halda). Sizə nə olub? Sözü bir yerə qoymusunuz, nədi? Hamı bir-birini hardasa görüb…

V a s i l i. Zırıldama, yoldaş!

L e r a. Vasya, nəyə görə siz…

V a s i l i. Gecikmişəm? Nümayiş var idi axı. Sonra da mitinq.

L e r a. Bu, aydındı. Nəyə görə siz…

V a s i l i. Bayraqla gəlmişəm, hə? Tələsdim. Əslində, Metişə – raykoma aparmalı idim, çatmadım. Elə mitinqdən birbaşa bura gəldim!

M a ş a. Bəs niyə tək?

V a s i l i. Hə, bu məsələdə mən günahkaram. Arvadımı piketə yollamışam. Zavodu əlimizdən alırlar! Alçaqlar!.. Amma mənziliniz fısqırıqdır! Gizli görüşlər üçündür?

I q o r. Müəyyən qədər hə…

V a s i l i. Hm… Bir, iki – artıq opportunistsən, hə?! Mən bayaq gələndə «bir-iki…» eşitdim…

L e r a. Vasya, bəsdir bizi doladın! Belə tədbirlərə arvadsız gəlmək olmaz.

I q o r. Vasya bizi dolamır, düz deyir, – o, həqiqətən də, gizli siyasi fəaliyyətlə məşğuldur.

S e r g e y. Hardan bilirsən?

I q o r. Bilirəm də.

S e r g e y (Vasiliyə). Təşkilatınız necə adlanır? Yoxsa bu da sirdi?

V a s i l i. Mənim dostlardan gizli sirrim yoxdur: «Metiş Gizli Hərbi Təşkilatı». MGHT. Həmmübarizlərə salam!

M a ş a. Ilahi!

K s i. Ləzzətdi ki! Mən gizli siyasi fəaliyyətlə məşğul olan şəxslə heç vaxt…

A n t o n. Sus, ədəbsiz! (Vasiliyə) Hörmətli Vasya, nəyə əsasən deyirsiniz ki, biz sizin həmmübarizlərinizik?

V a s i l i. Necə yəni nəyə əsasən? Baxın, burda yazılıb… («Homo erektus» jurnalını çıxardır.) «Zərərli adət-ənənələrdən və komplekslərdən uzaq, azadlıqsevər hər bir ər-arvad istəyir ki, 1 Mayı öz həmfikirliləri ilə birlikdə keçirtsin…» Burda aydın olmayan nə var? Kim ki, mübarizə aparır – başa düşür! Bu yerdə qalanlar da – göy gözlər, atletik bədənlər – konspirasiya üçündür. Ən başlıcası isə budur ki, «Esde»ni yaxına buraxmırlar! Düz də eləyirlər! Sosial-demokratlar – itdən əmələ gəlmişlər satdılar fəhlə sinfini, yerli-dibli satdılar!!

L e r a. Vasya, deməli, siz belə hesab edirsiniz ki, «Esde»lər sosial demokratlardır?

V a s i l i. Bəs kimlərdir?

L e r a (qəhqəhə ilə gülür). Vasili, heç olmasa, jurnalın üz qabığına baxaydın!

V a s i l i. Baxmışıq. Bizim mətbuat mərkəzində bir ağıllı qoca var, professordu, əvvəllər marksizm-leninizmdən dərs deyib. Elə birinci də o duyuq düşdü. Biz çoxdan qoşulmaq üçün silahdaş axtarırdıq. Tək çətindir. Metişdə inqilabçıların sayı çox azdı. Və birdən-birə belə bir xoş təsadüf! Jurnal necə adlanır?

K s i. «Homo erektus».

V a s i l i. Bizim qoca dərhal kələfin ucunu tapdı. Bəs, o necə tərcümə olunur?

L e r a. Belə: «Ayaqları üstə qalxan insan».

V a s i l i. Düzdü, yoldaşlar! Başa düşürsünüz?

M a ş a. Nəyi?

V a s i l i. Ba, onda, salam, xalamın başmaqları, siz lap yatmısınız! Bu o deməkdir ki, fəhlə sinfi, at boynundan yeni rus köpəkoğlularını və mondialist müftəxorları! Bizim professor bu jurnalı görən kimi bərk əl-ayağa düşdü, dedi, get, Vasya, bunlar bizimkilərdir – zirzəmidən xəbər göndərirlər! Mən də tez gəldim! Amma sizin zirzəminiz göyün lap yeddinci qatındadır! Tıxmağa bir şeyiniz qalıb?

M a ş a. Əlbəttə! Əyləş gətirim. (Kolbasa və salat gətirir.) Kolbasa… salat…

V a s i l i. Bir balaca içərdim də. Soyuqdu. Bu murdar Çubays batareyalara isti su vermir…

I q o r. Viski istəyirsən, yoxsa araq?

V a s i l i. Indi ki, belə oldu, viski, - imperialistcəsinə gillədəcəyəm, amma qələbəmizin şərəfinə!

V a s i l i içir və acgözlüklə yeyir.

A n t o n (sakitcə). Nəsə fikirləşməliyik: bu hər şeyi korlayır.

I q o r. Hətta belə!

I q o r fikirli halda şüşəni fırladır və şüşənin ağzı

V a s i l i y ə sarı düşür.

V a s i l i. Mən belə görürəm ki, siz burada şüşə fırladırsınız.

S e r g e y. Hə, burjuycasına pozulmaqla məşğuluq.

V a s i l i. Yaxşı da. Biz də hərdənbir bir balaca şuluqluq eləyirik (Ksinin alt paltarını göstərir və ciddi şəkildə əlavə edir), amma öz silahdaşlarımız arasında, sınanmış məşuqələrlə.

Şüşənin ağzı mənə sarı düşdü! Nəyi çıxardım? Aha, kepkamı… (Kepkasını çıxarır.)

A n t o n (Iqora, sakitcə). Nə bahasına olursa-olsun, bundan yaxamızı qurtarmalıyıq.

I q o r. Necə?

K s i. Sizə nə eləyir? Qoyun qalsın. Aranızda, heç olmasa, bir kişi olsun!

A n t o n. Ağzını yum! Mən küçədən – iyirmi şortunun arasından niyə məhz səni seçdim ki, indi də əzab çəkirəm?!

K s i. Təəssüf eləyirsən?

A n t o n. Hə.

K s i. Bir də təəssüf eləsən – bığsız qalacaqsan!

A n t o n. Vasya…

V a s i l i. Dayan! Yeyim qurtarım. Ideyalarınızı sonra müzakirə edərik. Şüşə də fırladarıq. Görürəm, qızcığazlar gözləməkdən yorulublar..

L e r a. Arvadın bilsə, danlamaz?

V a s i l i. Burda nə var ki? Biz həmrəylik naminə soyunuruq…

L e r a. Onda başqa məsələ. (Ərinə) Bundan müsahibə götürə bilsəydin!.. Maraqlı tipdi…

S e r g e y. Eh, onsuz da, çap eləmirlər ki…

A n t o n. Vasya, sən düz gəlməmisən. Burada heç bir gizli təşkilat yoxdur. Sadəcə olaraq, dostlar, yığışmışıq, şüşə fırladırıq.

V a s i l i. Uşaqlar, belə başa düşürəm siz tamamilə məxfi fəaliyyət göstərirsiniz!

L e r a. Burada məxfi heç nə yoxdu. Biz, həqiqətən də, zəhmətkeş xalq kütləsi uğrunda mübarizə aparmırıq, «svinq»lə məşğuluq…

V a s i l i. Nə ilə məşğulsunuz?

K s i. «Svinq»lə…

M a ş a. Ailəni möhkəmləndirmək xatirinə…

V a s i l i. Yaman zarafatlarınız var ha!.. Mən içəri girən kimi hiss etdim ki, siz burada yenidən doğulursunuz – çırılçılpaq!

I q o r. Bəsdir! Burada heç kəs yenidən doğulmur. Kepkanı da götür, sürüş gizli təşkilatına!

V a s i l i. Başa düşmədim…

M a ş a. Iqor, gəlib, imkan ver, çörək yesin. Doyan kimi özü çıxıb gedəcək. Düzdürmü, Vasya?

V a s i l i (diqqətlə Iqora baxır). Iqor? Dayan, dayan! Özüdür ki, var! Indi tanıdım! Müftəxor! Həşərat! Sən bizim zavodu müflisləşdirəndə – bankrot vəziyyətinə salanda fəhlələrə nə vəd eləmişdin? Mən səndən soruşuram, köpəkoğlu?! Prixvatizator!

I q o r. Rədd ol mənim evimdən!

V a s i l i. Rədd olum? Sənin evindən? Bu sənin evin deyil… Fəhlə sinfinindi… Oğurlamısan… Oğru! Bizim zəhmət haqqımızla Avropasayağı təmir elətdirmisən! Yandıracağam!..

V a s i l i şamdanı götürür. Kişilər onun üstünə atılırlar. Dava düşür. K s i cəhd göstərir ki, V a s i l i y ə kömək etsin. L e r a ilə M a ş a ona mane olurlar. I q o r

şamdanı V a s i l i n i n əlindən alır.

A n t o n. Şamdanla başına-başına vur!

V a s i l i. Vurar – cavabını da alar!

L e r a. Yanıq iyi gəlir!

V a s i l i. Aha, deməli, artıq yanırsınız!

M a ş a (dəhşət içində). Ördək!

M a ş a təlaş içində mətbəxə qaçır. Kişilər hələ də

V a s i l i ilə süpürləşirlər.

IKINCI HISSƏ

I q o r g i l i n mənzilindəki həmin qonaq otağı.

V a s i l i n i n əl-ayağını möhkəm sarıyıblar, ağzına əski tıxayıblar və kresloda oturdublar. Yerdə qalanlar onun ətrafında məyus halda əyləşiblər.

A n t o n. Yaramaz bütün əhvalımızı korladı.

M a ş a. Ördəyin təkcə külü qalıb. Anam məni öldürəcək!

I q o r. Qorxma! Deyərik ki, yemişik. Yaxşı da, əyləşin, şüşəmizi fırladaq!

S e r g e y. Maraqlıdır, cənab Iqor, siz Vasyagilin zavodunu neyləmisiniz?

I q o r. Qurdalamaq istəyirsən?

S e r g e y. Işim budu…

A n t o n. Ksi, gedirik!

L e r a. Anton, nə olub?

A n t o n (başı ilə Vasilini göstərir). O! (Ksiyə) Getdik!

K s i. Toşa, sən necə də müftəxor imişsən! Getmirəm! Ora soyuqdu…

I q o r. Afərin, Ksi! Gəl mənim yanıma! Sergey, sən Maşanı qucaqla!.. Lera, görünür, sən Antonla… Bağışla də!..

L e r a (Vasiliyə işarə ilə). Bəs, bu necə olacaq?

I q o r. Hm… Vasya, sən vaxtından tez gizli fəaliyyətdən açıq fəaliyyətə keçmisən. Indi biz səni neyləyək?

M a ş a. Milis çağıraq – aparsın. Az qalmışdı mənzilimizi yandırsın.

A n t o n. Qətiyyən belə hərəkət etmək olmaz!

L e r a. Nəyə görə?

A n t o n. Başa düşmürsünüz? Gələcəklər, protokol tərtib edəcəklər, aydınlaşdıracaqlar ki, biz burada nə ilə məşğul olmuşuq…

S e r g e y. Anton, siz niyə belə qorxursunuz ki?

I q o r. Anton düz deyir. Milis lazım deyil. Biz özümüz həll edərik.

M a ş a (ucadan gülə-gülə). Lera, xatırlayırsınız, «Təmiz ingilis qətli»ndə təsadüfi şahidi soyuducuda dondururlar?

L e r a (Vasiliyə baxır). Yerləşməz…

A n t o n (qəhqəhə ilə gülür). Bəlkə hissələrə ayıraq?

K s i dəhşət içində onlara baxır. V a s i l i kresloda qurcalanır, narazılıq bildirən səslər çıxarır.

I q o r (şüşəni fırladır). Yox, dondurmaq olmaz. Sonra meyiti neyləyərəm? Bəlkə onu ördək kimi duxovkada yandıraq, cəhənnəmə vasil olsun?

S e r g e y. Anamıza da deyərik ki, yedik…

K s i (yerindən cəld qalxır). Deyəsən, başınız tamam xarab olub?! Diri adamı yandırırsınız? (Pəncərəyə sarı qaçır.) Kömək edin! Adam yandırırlar!

I q o r (onu tutub saxlayır). Dayan! Zarafat edirik!

A n t o n. Ksi, əyləş və sus!

K s i. Baş üstə, şəkərim!

M a ş a. Bəlkə onu o biri otağa keçirək?

I q o r. Niyə ki? Qoy baxsın!.. O da bizim vauerist olsun.

L e r a. Vu-a-ye-rist.

M a ş a. Kim-kim?

L e r a. Vuayerist. Yəni başqasını izləməyi xoşlayan adam.

I q o r V a s i l i y ə yaxınlaşır və əlini onun peysərində gəzdirir. V a s i l i çarəsiz halda dartınır.

I q o r. Ah, Vasya, ah, ədəbsiz! Üstəlik, gizli casus! Hə, Vasya, bax, müftəxorlar sənin pullarınla necə əylənirlər! Maşa, əynindən nəsə bir şey çıxart!

M a ş a. Iqor, lazım deyil…

I q o r. Dedim ki, çıxart!

K s i. Olar, mən çıxardım? (Sviterini çıxartmaq istəyir.)

A n t o n. Sənə demirlər!

K s i. Toşa, bəlkə, səndən, nəsə, bir şey çıxardaq? (Əlini onun parikinə sarı uzadır.)

A n t o n. Çək əlini, yaramaz! Lütfən bağışlayın, biz getməliyik! Təəssüf ki, hər şey pozuldu. Eybi yoxdu, bir başqa vaxt…

K s i. Otur, yoxsa pis olar!

A n t o n könülsüz halda K s i y ə tabe olur.

S e r g e y. Hə, yəqin, evə getməli olacağıq. «Svinq» alınmadı…

L e r a. Əlbəttə, biz evə gedəcəyik, elə o dəqiqə redaksiyadan sənə zəng edəcəklər və sən ildırım sürətilə qısamüddətli ezamiyyətə gedəcəksən. Maşa sənin ərin də ezamiyyətə gedir?

M a ş a. Həmişə.

L e r a. Yol paltarlarını özü yığışdırır?

M a ş a. Yox. Əvvəllər mən yığışdırırdım, indi anam…

I q o r. Bu işi qaynanam daha yaxşı bacarır.

L e r a. Amma mənim ərim yol paltarlarını həmişə özü yığışdırır. Düz demirəm, Sergey?

S e r g e y. Düz deyirsən. Zəhləm gedir ki, kimsə mənim əşyalarımı qurdalasın.

L e r a. Bilirsən, Maşa, bir dəfə o, yol paltarlarını yığışdıranda kimsə zəng etdi. Mən, fürsətdən istifadə edərək, o, telefonda danışana kimi çantanın ağzını ehtiyatla açıb paltarların üstünə bir sap qoydum, qapqara, iyirmi santimetr uzunluğunda. Üç gündən sonra o qayıdanda yenə çantanın ağzını açdım, inanırsanmı o qapqara, iyirmi santimetr uzunluğunda sap, necə qoymuşdumsa, eləcə də qalmışdı…

I q o r. Sən də çekistsən ha!

S e r g e y (Leraya). Qurtar! Sən butun bunları niyə danışırsan? Özü də yad adamlara…

L e r a. Yad adamlara! Bax, budur əsas söz: yad! Ola bilər, bu saat mən bir səfeh söz deyərəm…

S e r g e y. Sən artıq bir səfeh söz demisən. Bu, ikinci olar.

L e r a. Qoy ikinci, üçüncü, lap dördüncü olsun. Axır ki, biz bir-birimizin haqqında, nəsə, bir şey bilməliyik, ya yox?

S e r g e y. Nə üçün?

L e r a. Necə nə üçün? Elə-belə – it kimi cütləşmək və aralanmaq olmaz. Axı, biz insanıq – bədənimizdən başqa ruhumuz da var!

S e r g e y. Ruhların qovuşması «svinq» yox, məhəbbətdir.

L e r a. Sən nə bilirsən məhəbbət nədir? Günün ezamiyyətdə keçir…

S e r g e y qalxır və qapıya sarı gedir.

L e r a. Əgər, sən getsən, mən özümü Antona tabe edəcəyəm… Hamının gözünün qabağında… Stolun üstündə…

A n t o n. Mən etiraz etmirəm…

S e r g e y (qayıdır və Leraya əl qaldırır). Isterik!

I q o r. Mənim evimdə qadına əl qaldırmaq olmaz!

M a ş a. Doğrudan?

I q o r. Belə… Hamı əyləşsin!

Hamı əyləşir və bir müddət sakitlik olur.

K s i. Bu da özünü milis kimi aparır.

L e r a. Indi nə edəcəyik?

M a ş a. Bilmirəm.

K s i. Amma mən bilirəm. Soyunub lümlüt rəqs etmək lazımdır. Bilirsiniz, mənim yanbızıma nəyin şəklini döyüblər?

A n t o n. Mən bu gicbəsəri öldürəcəyəm!

M a ş a. Mən lüt rəqs etmək istəmirəm.

I q o r. Maksim Kazanoviçin məqaləsində deyilir ki, svingerlər mükəmməl fiziki yaxınlığa nail olmaq üçün öz aralarında psixoloji əlaqə yaratmalıdırlar. Bundan ötrü təklif olunur: hava, uşaqlar, istirahət və sairə belə-belə şeylər haqqında tələsmədən, səbrlə söhbət etmək… Indi əlaqə yaradacağıq… Hətta belə… Anton, axırıncı dəfə sən harda istirahət etmisən?

A n t o n. Kosta-Bravada.

K s i. Amma mən Soçidə. Kupalnikimi çırpışdırmışdılar – naəlac qalıb nudistlərin çimərliyinə getdim.

L e r a. Alınmır… Yaxşısı budur uşaqlar haqqında danışaq. (Maşaya) Sənin oğlun necədi?

M a ş a. Necə deyim…

I q o r. Necə var, eləcə də de: ağzından söyüşdən başqa heç nə çıxmır.

Yenidən araya ağır sükut çökür.

A n t o n. Yox, bu da alınmadı. Bəlkə, biznesdən danışaq?

I q o r. Nə biznes?! Vasya zavodun dörd bir yanında piket təşkil edib. (Əl-ayağı bağlı Vasilini təpikləyir, Vasili bir-birinə zidd siniflərin nümayəndəsi kimi böyürür.) Yox, bir şey alınmır…

Təzədən araya ağır süküt çökür.

L e r a. Gəlin başqa şey eləyək!

A n t o n. Nə?

L e r a. Şüşəni fırladaq, ağzı kimə düşsə, özü haqqında danışsın. Amma həqiqəti!

A n t o n. Nə üçün?

L e r a. Bir-birimizi yaxından tanımaq üçün…

M a ş a. Onda hamının bir-birindən zəhləsi gedər…

I q o r. Bəlkə də, əksinə, xoşu gələr…

M a ş a (şüşənin ağzını Iqora sarı yönəldir). Onda elə sən başla!

L e r a. Hə, Iqor, görünür, ev sahibi kimi siz nümunə göstərməli olacaqsınız…

I q o r. Böyük məmnuniyyətlə. Mən sizə həyatımda olan ilk qadın haqqında danışacağam. Bəlkə, sizi, heç olmasa, bu, hərəkətə gətirdi. Deyəcəyəm, inanmayacaqsınız ki, o, sinif yoldaşımın anası olub. Mən getdim ki, ondan – yəni sinif yoldaşımdan velosipedini alıb sürüm. Məlum oldu ki, o evdə

yoxdu… və anası ilə bizim velosipedimiz belə alındı! Istəsəniz, ətraflı danışa bilərəm.

M a ş a. Lazım deyil.

L e r a. Seksoloqların statistik məlumatlarına görə, oğlan uşaqları, öz bakirəliklərini, əksər hallarda, yaşıdlarının anaları ilə cinsi əlaqədə itirirlər. Bu hamının bildiyi şeydi – maraqsızdı…

I q o r. Bəs, sizin üçün nə maraqlıdır?

S e r g e y. Maraqlı… maraqlıdır ki, sən bu qədər pulu hardan almısan?

A n t o n. Bu, ədəbsiz sualdı.

S e r g e y. Zəmanəyə bax, e! Oğurlamaq-ədəbdi, amma soruşmaq ki, hardandı – ədəbsizlik…

I q o r. Mən oğurlamamışam, qazanmışam.

S e r g e y. Doğrudan?

I q o r. Əlbəttə, doğrudan.

S e r g e y. Necə?

I q o r. Siçovulların köməyi ilə.

K s i. Sən ayaqqabı alveri də eləmisən?

I q o r. Yox. Bu hardan ağlına gəldi?

K s i. Sklet, salam söylədi Hamlet! «Siçovul» ən yaxşı ayaqqabı markasıdı.

I q o r. Birinci dəfədi eşidirəm.

K s i. Sənin bisavadlığın məni lap təngə gətirib.

I q o r. Həqiqətən də, mən ilk dəfə əsil, canlı siçovulların hesabına pul qazanmışam.

K s i. Necə?

I q o r. Çox sadə. Bizim evin yanında ermənilər mağaza açmışdılar. Bir dəfə həyətə çıxanda gördüm ki, satıcı qız qaça-qaça bağırır: «Siçovul!». Bu vaxt ağlıma gözəl bir fikir gəldi. Balaca uşaqlarla danışdım. Onlar mənə biri bir dollardan xeyli siçovul tutdular. Mən gecələr həmin siçovulları mağazaya atırdım. Tezdən mağazada bir qışqırıq qopurdu ki, gəl görəsən. Axırda satıcılar tətil elan elədilər. Mən yenə sakit durmadım – divarlara, ağacların gövdələrinə vərəqələr yapışdırdım, guya siçovullar vasitəsilə bizim mikrorayonda güclü epidemiya yayılıb. Nə başınızı ağrıdım, axırda, mağaza bağlandı, satdığa qoyuldu,

özü də ucuz, dəyər-dəyməzə. Amma heç kim siçovullu yeri almaq istəmirdi. Nəhayət, dostlarımdan borc pul götürdüm, oranı aldım, su qiymətinə. Üç-dörd gündən sonra qapıdan belə bir elan asdım: «Siçovulqıranların apardıqları inamlı mübarizə nəticəsində epidemiya təhlükəsi tam aradan qaldırılmışdır». Hətta belə! Sonra mən həmin mağazanı satdım, götürdüyüm borcu qaytardım, pulun qalanına da şin təmiri emalatxanası aldım, onu da o cür ucuz… Sonra dəfn olunanlar üçün çələng hazırlayan sex, sonra muzey, sonra kimyəvi üsulla paltar təmizləmə məntəqəsi, uşaq qidaları fabriki…

S e r g e y. Vasyagilin zavodlarını da ələ keçirdin?

I q o r. Zavod, əlbəttə, çətindir. Amma prinsip, təxminən, eynidir. Əsas odur ki, icazə, yəni, kağız alasan. Kağızın olmasa – cücüsən, kağızın olsa – biznesmen!

S e r g e y. Bəs, o kağızı sənə kim verdi?

I q o r. Bax, yenə qurdalayır ha! Deməyəcəyəm! Ticari sirdir!

V a s i l i I q o r u n səsini eşidən kimi qışqırmağa başlayır və həyəcanlı səslər çıxarır.

K s i. Vasyanın əl-qolunu açın, o nəsə demək istəyir.

M a ş a. Dayanın! O bütün evi tarmar edər.

V a s i l i qurcuxur, cəhd edir ki, nəsə desin.

L e r a. Bəlkə o bilir icazəni kim verib?

V a s i l i başı ilə təsdiq edir.

S e r g e y (Vasiliyə yaxınlaşır və əskini onun ağzından çıxarır). Eşidirik.

V a s i l i (dərindən nəfəs alır). O kağızı deputat Qovorov verib! Satqın köpəkoğlu! Demokrat! Mondialist!

S e r g e y. Kifayətdir. (Əskini onun ağzına soxur.)

K s i. Toşa, mondialist nədi?

A n t o n. Elə şeyləri bilməyə hələ sənin yaşın çatmır. Ümumiyyətlə, vacib deyil ki, bizim burada nə danışdığımızı Vasya eşitsin.

I q o r. Doğrudur. Onu buradan aparmaq lazımdır.

K s i. Siz onu hara aparmaq istəyirsiniz?

I q o r. Başqa otağa. (Kişilərə) Hə, mujiklər, götürdük!

Kişilər V a s i l i n i çox çətinliklə götürüb yan otağa aparırlar. K s i heç kəsə hiss etdirmədən bıçağı stolun üstündən götürür və ovcunda gizlədir. Kişilər və K s i görünməz olurlar.

L e r a (fikirli). Görəsən, bu həmin Qovorovdu? Yəqin ki! Sergey onun haqqında düz bir il dosye toplamışdı. Hələ məqalə də yazmışdı: «Oğru deputat». Amma Baş redaktor son anda materialı nömrədən çıxartmışdı.

M a ş a. Nəyə görə?

L e r a. Necə nəyə görə? Axı, Qovorov – rus intelligensiyasının vicdanıdır!..

M a ş a. Indi, hara tüpürürsən, gedib rus intelligensiyasının vicdanına düşür...

L e r a. Bravo, Maşa! Sən, görünür, təkcə seriallara baxmırsan…

M a ş a. Sən məni bir başa sal: kimsə televizorda danışır. Danışır, danışır, danışır... Elə bil ki, dediklərinin hamısı həqiqətdir. Aradan bir ay keçir. Həmin adam yenə televizorda danışır. Danışır, danışır, danışır… Amma, əvvəl dediklərinin tam tərsini. Yenə də, elə bil ki, dediklərinin hamısı həqiqətdir. Nədi, onlar elə bilirlər ki, hamı sklerozdu? (Kişilər və Ksi qayıdıb gəlirlər.)

A n t o n. Maşa, siz hələ cavansınız, başa düşmürsünüz ki, siyasətdə həqiqət əsas şey deyil.

M a ş a. Bəs, əsas şey nədi?

A n t o n. Siyasətdə, təəssüf ki, əsas şey siyasətdi.

S e r g e y (Iqora). Yaxşı, sən o kağızdan ötrü Qovorova nə qədər verdin?

I q o r. Heç nə qədər.

S e r g e y. Yalan deyirsən! Mən o soyğunçunu yaxşı tanıyıram. Nəfəsi rüşvətlə gedib-gəlir.

A n t o n. Siz şişirdirsiniz.

I q o r. Düzünü deyim ki, pul vermişəm, amma Qovorova yox. Mənə «Informbüro»dan zəng elədilər. Belə müəssisə tanıyırsan?

S e r g e y. Eşitmişəm.

I q o r. Dedilər: Qovorovun qolu lazımdı? Dedim – lazımdı, həm də necə! Sonra dedilər ki, Qovorovun haqqında materiallar toplanıb. Dosye! Satılır. Mən də aldım.

L e r a. Ola bilməz!

M a ş a. Ola bilər!

L e r a. Və o qol çəkdi?

I q o r. Uça-uça. Çünki dosye çox ciddi hazırlanmışdı.

L e r a. Sergey, düzünü de, o sənin hazırladığın dosye olmayıb ki?! Xahiş edirəm!

S e r g e y (uzun-uzadı sükutdan sonra). Mənim hazırladığım dosye olub.

I q o r. Oho, birinci dəfədir ki, düz danışan jurnalistə rast gəlirəm.

A n t o n. Mən də…

L e r a (Sergeyə). Sənə pul lazım idi? Ondan ötrü?.. O…

S e r g e y. Pul? Hə, lazım idi… Amma məsələ bunda deyil…

L e r a. Bəs nədədir?

S e r g e y. Bu haqda danışmaq istəmirəm. Burada…

I q o r (şüşənin ağzını Sergeyə sarı fırladır.) Yox, cənab, danışacaqsan, növbə sənindir!

S e r g e y. Iqor, onsuz da, sən heç nə başa düşməyəcəksən!

I q o r. Hə də, biz üzütüklülər sinfindənik, sənin kimi dosye satmırıq.

A n t o n. Mən belə hesab edirəm ki, onu məcbur etməyə dəyməz.

I q o r. Sus, Anton! Şüşənin ağzı sənə düşəndə danışarsan! Eşidirik səni, Sergey!

S e r g e y. Yox.

L e r a (Maşaya). Maşa sizin ev neçənci mərtəbədədi?.. Səkkizinci?

M a ş a. Yox, doqquzuncu…

L e r a. Əlbəttə, bu penthauslarda yuxarı qalxdıqca, qiymətlər də qalxır…

L e r a pəncərəyə yaxınlaşır, cəftəni açır.

S e r g e y. Lera, dayan, sən nə edirsən? (Yavaş-yavaş ona yaxınlaşır.) Yalvarıram!..

L e r a. Danış! Özü də düzünü! Sən məni yaxşı tanıyırsan… (Aşağıya baxır.)

S e r g e y. Yaxşı!.. Yaxşı!.. Danışaram!.. Ancaq yersiz hərəkət etmə!.. Qulaq as, Iqor, qulaq as, danışıram!.. Mən həyatım boyu namuslu jurnalist olmuşam. Hər halda, buna çalışmışam…

I q o r (istehza ilə.) Hə, hə, böyük canfəşanlıqlar etmisən…

S e r g e y. Mən hər şeyi düz yazırdım. Göstərdiyim cəsarətə görə mükafat da verirdilər – bloklarda döyürdülər. Və yolumdan dönmürdüm – yaramazı ifşa edirdim, işdən çıxartdırırdım. Nəticəsi nə olurdu? O yaramazı elə o dəqiqə başqa bir işə götürürdülər. Mən bir qulduru min bir əzab-əziyyətlə tapıb üzə çıxarırdım, rüsvay edirdim, elə iki həftədən sonra həmin quldur bizim öz qəzetimizdəcə intervü verirdi ki, kilsəyə bu qədər xərcləyib, uşaq evinə o qədər. Mən Baş redaktorun otağına təpilirdim, yumruğumu stola çırpırdım, o isə deyirdi: bizdə söz azadlığıdı – qarşı tərəfi də dinləmək lazımdı. Nəhayət, mən başa düşdüm ki, mənim həqiqətim, olsa-olsa, yalanın üstünə səpilmiş iştahartırıcı ədviyyatdır. Jurnalistika, sadəcə olaraq, istənilən yalanı həqiqətə çevirmək üçün ən universal üsuldur. Vəssalam. Odur ki, mən belə qərara gəldim: bu cür çoxlu dosye toplayaram, sataram və öz qəzetimi açaram. Adını da belə qoyaram: «Təmiz qəzet»…

I q o r. Amma sənin qalstukun çox bahalı qalstukdu ha!

S e r g e y. Sən nə yapışmısan mənim qalstukumdan?

I q o r. Görün neyləyirsiniz?! Hər şeyi korlayırsınız, amma özünüzü də elə aparırsınız ki, güya, korun qolundan tutub yolu keçirtmisiniz. Hətta belə…

L e r a (Sergeyə). Danışıb qurtardın?

S e r g e y. Hə…

L e r a yorğun halda pəncərənin ağzından aralanır, balaca diktafonu çıxarıb S e r g e y ə verir.

L e r a. Götür! Sənin kinin xoşuna gələ bilər…

S e r g e y (diktafonu alır.) Sən niyə belə eləyirsən?

A n t o n. Müsaidənizlə, bu diktafon hardandır?

L e r a. Mən ərimi dilə tutub bura gətirmişdim ki, svingerlər haqqında məqalə yazsın. Fikirləşirdim ki, bu böyük səs-küyə – marağa səbəb ola bilər…

A n t o n (ayağa qalxır.) Bilirsiniz, mən fikirləşirdim ki, bir layiqli yerə gedirəm, amma bura, çox-çox üzr istəyirəm, fırıldaq və şantajla məşğul olanlar yığışıblar. Ksi, sən qala bilərsən. (Qapıya sarı gedir.)

K s i. Toşa, hara?.. Bəs pul?

A n t o n. Sən onu qazanmamısan ki!

K s i. Necə yəni qazanmamışam? Üç saatdı burda tər tökürəm, cəfəng şeylərə qulaq asıram!

I q o r. Anton, deyəsən, sən arvadınla yaxşı bazar münasibətləri qurmusan? Bunu necə etmisən? Məndə alınmır.

K s i. Mən niyə onun arvadı oluram?

M a ş a. Bəs nəyisən?

K s i. Heç nəyi! Sadəcə olaraq, tanışıq.

L e r a. Harda tanış olmusunuz?

K s i. Harda, harda… Küçədə… Başqa harda tanış ola bilərdik ki?

I q o r. Sən küçədə nə edirdin ki?

K s i. Adətən, küçədə nə edirlər? Ya gedirlər, ya dayanırlar.

I q o r Yaxşı, sən gedirdin, yoxsa dayanmışdın?

K s i. Təbii ki, dayanmışdım. Yerisən – uzağa gedə bilməzsən. Deməli, Leninqradkadayam. Bu it (Antonu göstərir.) «Volva»da gəlir və təklif edir ki, iki yüz dollara həm onun arvadı olum, həm də çobanyastığı oynayım.

M a ş a. Çobanyastığı nə olan şeydi?

L e r a. Qrup halında seksə gənclər öz aralarında «çobanyastığı» deyirlər.

I q o r. Anton, sən bizə kələk gəlmisən – fahişə soxuşdurmusan!

K s i. Fahişə, sən özünsən! Mən tələbəyəm!

I q o r. Yalan deyirsən!

K s i. Yalan demirəm!

I q o r. Tələbə biletini göstər görüm!

K s i (tələbə biletini göstərir). Bax!

I q o r (tələbə biletini oxuyur). Düz deyirmiş… Toxuculuq institutu... Güllü çit fakültəsi... Dördüncü kurs… Necə olub ki, siz – Kseniya Nikolayevna Kuragina belə bir yola düşmüsünüz?

K s i. Deyim də! Sənədlərimi instituta vermək üçün sizin bu cındır Moskvaya gəldim. Qəbul komissiyasında mənə Anton kimi bir qaz yaxınlaşdı və sakitcə soruşdu: «Qəbul olmağı çox istəyirsən?». Dedim ki, çox! Üzümə irişdi: «Onda, səni bağımda gözləyirəm».

L e r a. Sən də getdin?

K s i. Bəs nə etməli idim? (Ağlamsınır, içini çəkir.)

I q o r. Mən belə bir əhvalatı hardasa eşitmişəm…

M a ş a. Mən hətta bilirəm ki, məhz harda…

K s i. Deməli, mən sizi aldadıram hə?.

I q o r. Əlbəttə, aldadırsan! Gör nə acı əhvalat fikirləşib tapmısan?! Müştərilərə də danışırsan ki, onlardan dollarla yanaşı göz yaşı da qopardasan!..

K s i. Get tullan!

L e r a. Yaxşı, tutaq ki, aldatmırsan. Bəs sonra? Sonra niyə belə oldu?

K s i. Söz danışırsan də! Qazın dimdiyinin yanında bir damcı tələbə təqaüdü nədir ki? Moskvanın küçələrini gəzirsən, vitrinlərə baxırsan, soyuqdan donursan – burnunun seliyi axır.

Ancaq, manekenləri havayı geyindirirlər. Bu yandan da anam zəng etdi ki, atan hər gün evdəki şeyləri daşıyıb satır, içir. Yəni bizdən əlini üz! Mən də baxdım, gördüm yataqxananın qızları necə yaşayırlar… Istər-istəməz, baxışa getdim…

M a ş a. Hara?

K s i. Baxışa… Əsgər kimi düzülmüş qızların cərgəsinə… Qazlar gəlirlər və maşınlarının işığında bəyəndiklərini seçirlər…

L e r a. Məgər, başqa cür pul qazanmaq olmazdı?

K s i. Kim necə bacarır, elə də qazanır. Burda pis nə var ki? Yadınıza gəlir, Gözəlçə əvvəlcə fahişə olub, amma sonradan Riçard Girə ərə gedib. Mən də ömrüm böyu fahişə olmayacağam ki. Öyrənəcəyəm, heç olmasa, bir otağın pulunu çıxaracağam, sonra tərtəmiz ərə gedəcəyəm.

L e r a. Elə əvvəlcədən tərtəmiz ərə getmək olmaz?

K s i. Evsiz məni hansı axmaq alar?

L e r a. Birdən ərin keçmişin haqqında nəsə bildi?

K s i. Bilməz.

L e r a. Birdən…

K s i. Bilsin də. Əsas odur ki, toydan əvvəl yox, sonra təmiz olasan. Məsələn, elə siz, özünüzü süpürgə kimi qurudub durmusunuz, güya, təmizsiniz, amma, əslində, yığışmısınız qrup halında seksə…

A n t o n (onun sözünü kəsir.) Seksə yox, «svinq»ə! Axmaq!

K s i. Bir fərqi var?

I q o r. Var! Özü də böyük fərqi var! Elə bircə evimdə fahişə çatmırdı! Lap bezdim!

M a ş a. Işdəkilər necə – bezdirmir?

I q o r. Səndən soruşmurlar! (Ksiyə) Bura Leninqradka deyil, bildin?! Cəhənnəm ol!

K s i. Leninqradkadan da pisdi bura. Gedirəm. Toşa, pulları ötür görüm!

A n t o n. Haqqımda çərənlədiyin şeylərə görə?

K s i. Ötür, ötür gəlsin, yoxsa pis olar!

I q o r. Bilirsiz nə var, ikiniz də rədd olub gedin, mübahisənizi küçədə aydınlaşdırarsınız!

A n t o n. Yox, cənablar, yaxşı olar ki, mən bir qədər burada ləngiyim. Görürsünüz də, bu – xuliqandı. Bəlkə də blokun ağzında sutenyor da qoyub…

I q o r. Bəs, sən niyə xuliqanı mənim evimə gətirmisən?

A n t o n. Küçədə, başqalarına baxanda, bu daha layiqli görünürdü. Yaxşı şubada…

K s i. Yamaqlı şlanq, axırıncı dəfə soruşuram: pulu verirsən, ya yox?

A n t o n. Ay qız, bu hədələri yığışdır. Kiminlə söhbət etdiyini bilmirsən?!

K s i. Bilirəm, üfunət iyi verən qoca keçi! Keçəlini pariklə örtmüsən, elə bilirsən cavansan?

Birdən-birə atılıb onun başından pariki çıxarır.

I q o r. Oho!

K s i. Hələ onun bığı da yapışdırılmadı. (Antonun bığını dartıb qoparır.) Al, yaramaz! Dayan, mən səni hardasa görmüşəm!

A n t o n (stolun üstündən şüşəni götürüb Ksiyə tərəf atmaq istəyir.) Ifritə!

K s i. Keçi!

K s i qaçıb gedir. Qapının açılıb-örtüldüyü eşidilir.

A n t o n pərt halda stulda əyləşir və şüşəni stolun üstünə qoyur. Hamı heyrət və təəccüblə ona baxır.

A n t o n. Bağışlayın, cənablar, bir qədər qızışdım. Qadına, əl qaldırmaq – hətta beləsinə də – mənim təbiətimə yaddır. Bağışlayın!

S e r g e y (heyrətlə). Bir dəqiqə… Bu sizsiniz, ya siz deyilsiniz?

A n t o n. Məgər, mən özümə oxşamıram?

S e r g e y. Çox oxşayırsınız, yoldaş Qovorov!

A n t o n. Onda, səfeh suallar verməyin!

I q o r. Dəqiq – Qovorovdur!

M a ş a. Televizordakıdır!

L e r a. Qovorov! Şeytanlar yığışıb gəliblər. Ifritələrin eyş-işrət məclisinə düşmüşük ki…

A n t o n. Ərinizin haqqında nələr deyilmədi? Sizin yerinizə kim olsaydı, dilini dinc qoyardı.

I q o r. Bir qeyri-səfeh sual vermək olar?

A n t o n. Buyurun…

I q o r. Deməli, sən mənim evimə fahişə gətirmisən ki, əvəzində bizim arvadlarımızdan istifadə edəsən? Sergey, sən başa düşdün?

S e r g e y. Başa düşdüm.

I q o r. Bu sənə toxunmur?

S e r g e y. Əlbəttə, toxunur!

M a ş a. Bu da intelligensiyanın vicdanı!

L e r a. Svingerlərin kodeksində bu ən ağır cinayət hesab olunur.

S e r g e y. Sən hardan bilirsən?

L e r a. Oxumuşam…

I q o r. Bəs, bu cinayətə görə nə kimi cəza nəzərdə tutulur?

L e r a. Biz onu sıralarımızdan xaric edə bilərik.

A n t o n. Hə, cənablar, məmnun olaram… mümkün qədər tez… O ki, qaldı inciməyə – özünüzdən inciməlisiniz. Çünki siz özünüz arvadlarınızı küçədən keçənlərə verirsiniz.

I q o r. Bəs, sən vermirsən?

A n t o n. Yox, vermirəm.

I q o r. Bizi dolayırsan?! Deputat! Hətta belə…

A n t o n. Əgər bacarırsınızsa, etirazınızı bildirin!

I q o r. Indi etirazımızı bildirəcəyik…

I q o r A n t o n u n üzünə sillə vurur. A n t o n yıxılır, ayağa qalmağa cəhd göstərəndə S e r g e y i n zərbəsinə məruz qalır.

A n t o n. Mənim deputat toxunulmazlığım var!

I q o r. Səni toxunulmazlığınla bir yerdə öldürəcəyəm!

A n t o n. Kömək edin!

A n t o n qalxır və qapıya sarı qaçır. S e r g e y ilə I q o r onu iki tutarlı zərbə ilə döşəməyə sərirlər.

I q o r. Qalstuk!

S e r g e y qalstukunu açır, ilgək düzəldir və A n t o n u n boynuna keçirir.

M a ş a. Sən nə edirsən? Onu boğacaqsan!

I q o r. Mütləq bocacağam!

Bir dəqiqədən sonra Q o v o r o v u stulun üstünə çıxarıb qalstukun boş ucunu lüstrə bağlayırlar. I q o r gördüyü işdən razı halda onun ətrafında gəzişir.

L e r a. Hə, sonra nə olsun?

I q o r. Bilmirəm… Mən bir fırıldaqçıdan bu yolla borcumu ala bilmişəm…

M a ş a. Dəli olmusan? Aç onu! Milisə xəbər verər…

I q o r. Verməz. O, bizdən çox milisdən qorxur.

L e r a. Bəsdir! Onu buraxın – getsin!

S e r g e y. Dayanın! Mən ondan intervü götürmək istəyirəm!

L e r a. Boğazında ilgək olan adamdan intervü? Sən keflisən…

A n t o n (xırıltı ilə). Mən cavab verməyəcəyəm!

S e r g e y. Niyə?

A n t o n. Bu vəziyyətdə danışmaq çətindir…

S e r g e y ilgəyi bir az boşaldır.

S e r g e y. Bəs indi?

A n t o n. Yaxşı, amma diktafonu söndürün və elə yerə qoyun ki, mən görüm…

S e r g e y onun tələbini yerinə yetirir.

S e r g e y. Indi danışa bilərik?

A n t o n. Sizi nə maraqlandırır?

S e r g e y (fikirli halda). Anton, sizin haqqınızda dosye toplayanda bilirsiniz məni ən çox nə heyrətləndirdi?

A n t o n. Yox, bilmirəm.

S e r g e y. Deyim də! Siz uzun müddət təmiz adam olmusunuz… Siz ki, anadan rüşvətxor doğulmamısınız!

A n t o n. Güman edirəm ki, siz də anadan şantajçı doğulmamısınız.

S e r g e y. Bu saat söhbət məndən getmir. Siz ki, dissidentsiniz! Siz ki, kommunistlərin vaxtında həbsxanada yatmısınız!

I q o r. Bir şey çırpışdırıb?

M a ş a. Indi sovet hakimiyyəti dövründə oğurluq edənlərin hamısını dissident adlandırırlar.

L e r a. Sən elə hesab edirsən?

M a ş a. Nə bilim… Atam belə deyir…

S e r g e y. Sənin atan, hardasa, düz deyir. Amma məsələ burasındadır ki, cənab Qovorov, həqiqətən də, heç nə çırpışdırmayıb. O, həbsxanada əqidəsinə görə yatıb. (Antona) Belədirmi?

A n t o n. Hə.

S e r g e y. Onda sizə nə qədər iş vermişdilər? Beş il?

A n t o n. Yox, altı.

S e r g e y. Və siz onu tərtəmiz yatmısınız.

A n t o n. Hə. Tərtəmiz.

S e r g e y. Başqaları kimi, agent olmamısınız…

A n t o n. Yox, olmamışam. Baxmayaraq ki, təklif etmişdilər və söz vermişdilər ki, bunun müqabilində cəza müddətimi azaltsınlar.

S e r g e y. Təəssüf…

A n t o n. Nəyə təəssüf?

S e r g e y. Necə izah edim? Anton, siz, mənim həyatımdakı ən böyük ümidsizliksiniz!

L e r a. Mənim də. Ərimdən sonra…

I q o r. Sizin həyatınız möcüzədir ki!

S e r g e y. Iqor, yum ağzını! Sən siçovullarla pul qazananda, biz, məxsusi olaraq, Antonu dinləmək üçün mitinqlərə gedirdik. Ilahi, o, çürümüş partoqratiya haqqında, insanın azad şəxsiyyət olması haqqında, haqq-ədalət haqqında necə danışardı!..

I q o r. Bəsdi aldatdın!

S e r g e y. Lera, sən de ona!

L e r a. Bu, həqiqətdir. O danışanda mən ağlayırdım. Elə bil, əsl Savonarol idi!

M a ş a. Kim-kim?

L e r a. Əhəmiyyəti var ki, kim?

S e r g e y. Amma Savonarol oğru ola bilməzdi! Deməli, lap əvvəldən Antonun içində, nəsə, qurd olub. Amma mən o qurdu tapa bilmədim.

I q o r. Pis axtarmısan…

A n t o n. Tapa da bilməzdin.

S e r g e y. Niyə? Axı, nəyə görə siz – rus intelligensiyasının vicdanı, axırda oğru oldunuz?

A n t o n. Haqsızlıq ucbatından… Sizin kimi…

L e r a. Haqsızlıq ucbatından?

A n t o n. Hə. Mən inanmışdım ki, insanı zülm, əsarət eybəcərləşdirir. Sən demə, əksinə – azadlığın bəxş etdiyi eybəcərlik daha böyük imiş. Köhnə, mənim vurub dağıtmaq istədiyim quruluşda kasıblıq ayıb sayılmırdı. Biz balaca bir mətbəxə yığışıb adi çay içir və gələcək haqqında mübahisələr edirdik. Nəhayət, həmin gün gəldi! Mitinqlərdə mənim hər sözümə bir məna verən sərməst izdihamı görəndə qəlbimi nəşəli duyğular bürüyürdü: düşünürdüm ki, mən – dünənki dustaq tarix

yaradıram! Mən özümü baraklarda yaşayanlara büllur saray tikən arxitektor kimi hiss edirdim! Onda hansı jurnalistsə ilk dəfə məni rus intelligensiyasının vicdanı adlandırdı və sevincimdən ağladım…

I q o r. Siz hamınız necə də ağlağansınız! Sergey, bəlkə sən Antonu rus intelligensiyasının vicdanı adlandırmısan?

S e r g e y. Bəlkə də… Yadıma gəlmir…

A n t o n. Sonra mənim həmin büllur sarayımın işıqlı salonlarını, Iqor, sənin kimi yalnız pul haqqında düşünən yaramaz və tülüngü adamlar zəbt etdilər. Biz sizə azadlığı – səadətin qızıl açarını verdik. Amma siz tamahınızın ucbatından o açarı bir kənara qoyub , bütün qıfılları linglə açmağa başladınız…

I q o r. Deməli, siz bizə linglik azadlıq bəxş etmisiniz!

A n t o n. Əl çəkin! Siz təkcə cibinizi doldurmadınız, həm də, az-çox vicdanı olanları – oğurluq etməyənləri ələ saldınız. Siz üzdə məni rus intelligensiyasının vicdanı, arxada isə, «axmaq kasıb» adlandırdınız! Axmaq kasıb olmaq məni də usandırıb, təngə gətirib! Nəhayət, mən də insanam! Mənə də pul lazımdır!

L e r a. Küçədəki tələbə qızları satın almaq üçün?

A n t o n. Tələbə qızlar çox ucuzdu, baha olan isə ərinizin topladığı dosyedi…

S e r g e y. Siz mənim topladığım dosyeni nə etdiniz? Əgər sirr deyilsə…

A n t o n. Kitab rəfinə qoymuşam. Məndə o cür dosyelər çoxdu…

S e r g e y. Gələcək bioqraflarınız üçün toplayırsınız?

A n t o n. Axı, siz özünüz indicə dediniz ki, pulla istənilən yalanı həqiqətə çevirmək olar. Onda mən nədən qorxmalıyam?

I q o r. Anton, olarmı səni öpüm?

M a ş a. Əvvəlcə qalstuku onun boğazından çıxart!

I q o r qalstuku onun boğazından çıxarır, stuldan düşməsinə kömək edir və nəhayət, onu qucaqlayıb öpür.

A n t o n. Nəyə görə?

I q o r. Hər şeyə görə! Əgər sənin o büllur sarayın olmasaydı, mən indi də taksidə eşşək kimi işləyirdim!

I q o r A n t o n u bir də öpür. Bu vaxt V a s i l i gəlir. Onun əlində ikidəstəkli qılınc var. M a ş a onu birinci görür.

M a ş a. Vasya…

V a s i l i. Indi artıq Vasili Petroviç! (Qılıncı yellədir.) Qadınlar bu tərəfə! Kişilər diz üstə!

I q o r. Vasya, ehtiyatlı ol, itidir!

S e r g e y (Iqora.) Qılıncı hardan aldı?

I q o r. Bayaq dedim axı, muzey… bankrot…

V a s i l i. Diz üstə çökün!

V a s i l i qılıncla onları deştəkləyir. A n t o n, I q o r, S e r g e y diz üstə çökürlər.

A n t o n (narazı halda donquldanır). Gah lüstrdən asırlar, gah qılıncla deştəkləyirlər… Dəhşətdir!

V a s i l i. Bilirsiniz siz üçünüz də kimsiniz?

S e r g e y. Bilirik. Həm də çox dəqiq!

A n t o n (Iqorla Sergeyə). Nə desə – cavab qaytarmayın! Acıqlanar! Həm də ki, maraqlıdır: görək xalq nə düşünür?!

S e r g e y. Xalq heç nə düşünmür – ya küt-küt susur, ya da boş-boş bağırır.

V a s i l i (qılıncı yellədir). Yo-ox! Xalq düşünür. Sən bu saat biləcəksən ki, o nə düşünür. Mən dayanıb, sizin günahı bir-birinizin boynuna necə atmağınıza qulaq asırdım. Keçməz, cənablar! Siz fəhlələrin şərəf və ləyaqətini, hüquqlarını, onların əməyi sayəsində hazırlanmış hər şeyi – nəhəng maşınlardan tutmuş uşaq oyuncaqlarına kimi – oğurlamısınız. Öz qara niyyətlərinizi həyata keçirmək üçün üçbaşlı əjdahaya çevrilmisiniz. Birinci baş sənsən, Iqor. Yadındadı, deyirdin ki, sizə nə pul ödəyirlər ki – qəpik-quruş, zavodu verin bizə – iş adamlarına – amerikanlar kimi yaşayın. Sənə inandıq və hər

şeyimizi itirdik. Qovorov, sən əjdahanın ikinci başısan. Sən tribunadan çıxış elədin və dedin ki, siz qulsunuz, hüquq və azadlığınız yoxdu, ona görə də bu gündəsiniz. Inandıq, indi, uşaqlarımızın yemək tapmadığı, qızlarımızın sənin iyrənc ehtirasını söndürmək üçün küçəyə çıxdığı bir vaxtda bizim özümüzü asmaqdan başqa bir çarəmiz qalmaıb. Amma sən – Sergey – üçüncü baş, başların ən müzürüsən, çünki yalandan həqiqət düzəltmisən! Biz uzun müddət başa düşə bilməmişik ki, siz üçünüz də iyrənc, doymaq nə olduğunu bilməyən bir qarından çıxmısınız! Amma, cənablar, sizin dövranınız getdi! Sizin dağıtdığınız sosializm yenidən qurulacaq!

L e r a. Vasya! Sən lap Pavel Vlasovsan ki!

M a ş a (istehza ilə). Bu hansı serialdandır?

L e r a. «Ana»dan.

M a ş a. Mən baxmamışam.

A n t o n. Vasya, siz pis natiq deyilsiniz! Dumaya seçilməyə cəhd göstərməmisiniz ki?.. Kömək edə bilərəm…

V a s i l i. Satın ala bilməzsiniz! Tüpürüm sizin satqın Dumanıza!

L e r a. Vasya, zarafat etdik, bəsdi. Qılıncı ver!

V a s i l i. Nə zarafat? Mən bu əjdahanın üç başının üçünü də kəsəcəyəm! (Qılıncı yellədir.)

M a ş a. Vasya, lazım deyil…

A n t o n. Məhkəməyə düşərsən!

V a s i l i. Lap yaxşı! Orada sizin iç üzünüzü açaram! Əlbəttə, sizin satqın qəzet və televiziyanız bu haqda heç bir informasiya verməyəcək. Amma bu qara həqiqət ağızdan-ağıza gəzəcək və ürəyi qəzəblə dolu fəhlə sinfi başları bədənindən ayrılmış əjdahanı tarixin xarabalıqlarına atacaq! Hökmən belə olacaq!

V a s i l i qılıncı yellədir. Qadınlar ciyildiyirlər.

Kişilər büzüşürlər.

I q o r. Vasya, olar ölümqabağı sənə bir sual verim?

V a s i l i. Ver!

I q o r. Vasya, gizli silahdaşlarınızın göndərdiyi pulları hara yığırsan?

V a s i l i. Hansı pulları?

I q o r. Məsələn, deyək ki, keçən ay ayaqqabı qutusunda aldığın pulları… Qol çəkdiyin qəbzi göstərim?..

V a s i l i (sarsılmış halda.) Sən göndərmişdin?

I q o r (istehza ilə). Yox, Zimbabve fəhlələri!..

L e r a. Iqor, sən də az şorbanın duzu deyilsən ha!

A n t o n. Son dərəcə ağıllı gedişdi.

M a ş a (Iqora). Sən nəyə görə ona pul göndərirdin?

I q o r. Hər ehtimala qarşı…

S e r g e y. Əgər, birdən o sənin pullarını inqilabın yolunda xərcləsəydi?..

I q o r. Hətta belə? Onda, hökmən killer tutardım…

M a ş a. Sən dəli olmusan!

I q o r. Zarafat edirəm. Mən blirdim ki, o götürəcək. Inqilabçılara da pul lazımdır. Bundan başqa, həmişə gələcəyi düşünmək lazımdır. Nə bilmək olar – birdən inqilabçılar qalib gəldilər. Vasya da böyük adam oldu. Gedərəm yanına, qol çəkdiyi qəbzi göstərərəm, bəlkə rəhmə gəlib, bu günahımdan keçdi, əgər bu günahdırsa…

S e r g e y. Amma sən çox ağıllı köpəkoğlusan ha!

I q o r. Sergey, köpəkoğlu gərək köpəkoğlunu söyməyə…

V a s i l i. Sən… Sən…

I q o r. Hə, Vasya, hə, mən!

V a s i l i heysiz halda qılıncı əlindən yerə salır və əyləşir.

I q o r. Vasya, bəlkə sən artıq öz siyasi hücrənə…

V a s i l i. Gedirəm… Gedirəm… Indi… Ürəyim tutdu…

I q o r. Amma mən elə bilirdim ki, sənin köksündə ürək əvəzinə alovdan mator var… Bir az konyak içsən, sakitləşəcəksən.

M a ş a V a s i l i y ə bir qədər konyak verir və onun başını sığallayır.

M a ş a. Qorxma… Bir şeyin yoxdu… Heç olmasa, o pulla arvadına bir şey aldın?

V a s i l i. Şuba.

M a ş a. Sən də şuba almısan?

V a s i l i. Nə edim? Qış… piket… soyuq... (Içini çəkə-çəkə hıçqırır.)

I q o r. Maşa, onu qonaq otağına apar. Qoy divanda uzanıb doyunca zarısın.. Inqilabçı…

M a ş a V a s i l i n i qonaq otağına aparır. V a s i l i yolüstü əl atıb konyak şüşəsini götürür.

A n t o n. Yəqin dağılışmaq vaxtıdır. Hər şey deyildi. Bütün maskalar yırtıldı.

L e r a. Hətta Vasyanın da kimliyi bəlli oldu.

A n t o n (pəncərəyə yaxınlaşır). Deyəsən, o xuliqan da gedib. (Cib telefonunu çıxarıb zəng edir.) Olenka, mənəm… Hə, iclas qurtardı. Bir azdan gəlirəm. Öpürəm!

I q o r. Gör aldatmağı necə öyrənmisən? Özün də deputatsan!

L e r a (fikirli halda). Anton, bir söz soruşmaq istəyirəm: yəqin arvadınızı çox sevdiyinizə görə bura gətirməmisiniz, hə?

A n t o n. Məndə hələ də qurd axtarırsınız?

L e r a. Yox. Sadəcə olaraq, maraqlanıram…

A n t o n. Mənim arvadım xəstədir…

S e r g e y. Gözləyəydiniz sağalaydı.

A n t o n. O sağalmayacaq.

S e r g e y. Üzr istəyirəm…

A n t o n. Üzr istəməyə də bilərsiniz. Onun altmış yaşı var. Qocalıq imkan vermir ki, sağalsın.

L e r a. Ağıllı adamlardan hansısa deyib ki, həyat – öldürücü xəstəlikdir. Sizin neçə yaşınız var?

A n t o n. Əlli üç.

L e r a. Amma cavan görünürsünüz.

A n t o n. Özümü qoruyuram. Istəyirəm ki, o ölində cavan, gözəl, layiqli bir qadınla evlənim.

L e r a. Siz necə də qəddarsınız!

A n t o n. Niyə? Mən qəddar deyiləm. Əksinə. Sadəcə olaraq, bilirəm ki, arvadımdan çox yaşayacağam.

I q o r. Nəyə görə siz qoca qarı ilə evlənmisiniz?

A n t o n. Mən qoca qarı ilə yox, otuz yaşlı gözəl, yaraşıqlı, ağıllı və oxumuş qadınla evlənmişəm. Sonra o qocaldı – əvvəlcə böyük bacıya, sonra da anaya çevrildi…

S e r g e y. Bəs niyə sən telefonda ananı aldadırsan?

A n t o n. Məgər həqiqət sizin arvadlarınızı xoşbəxt edir?

L e r a. Narahat olmayın, Sergey də aldadır. Ancaq mənə aydın olmayan başqa şeydi. Siz istəsəniz bir və ya bir neçə gənc, həm də layiqli qadın saxlaya bilərsiniz. Bu «svinq» oyununa nəyə gəlmisiniz?

I q o r. Özü də fahişə ilə…

A n t o n. Nəyə görə, axı, mən sizin bu sualınıza cavab verməliyəm?

L e r a. Cavab verməyə də bilərsiniz. Onsuz da, siz öz haqqınızda çox şey danışmısınız…

A n t o n. Doğrudan da… Yaxşı, mən cavab verərəm, amma, əvəzində, siz də deyin: ərinizi nəyə görə gətirmisiniz bura?

L e r a. Deyərəm.

A n t o n. Danışdıq. Bilirsinizmi, əgər mən ləyaqətli bir qadınla ciddi münasibət qursam, onda, gərək arvadımı boşayam. Bunu bacarmaram. Çünki o, həbsxanada yatdığım vaxt məni gözləyib… O məni sevir… O ki, qaldı Ksi kimi qızlar – xoşuma gəlmirlər. Amma «svinq» başqa şeydi – birdəfəlik görüş… Heç bir öhdəlik götürmürsən, məsələn, Lera, sizin kimi məsum və ləyaqətli bir xanımla…

S e r g e y. Alçaq.

I q o r (Sergeyə). Yaxşı, sakit ol, biz artıq buna görə onu əzişdirmişik…

M a ş a (Antona). Çıxın gedin mənim evimdən! Siz heç nəyinizlə Ksidən yaxşı deyilsiniz! Hətta pissiniz!

A n t o n. Indi gedirəm. Amma, əvvəlcə istəyirəm ki, Lera sizdən cavab alım: nəyə görə siz – bu cür ağıllı, zərif qadın – bura gəlmisiniz, üstəlik, ərinizi də gətirmisiniz, özü də, az qala, zorla. Əgər, desəniz ki, məqalə üçün material toplamağa – inanmayacağam…

L e r a. Mən hökmən istəyirdim ki, ərim gözümün önündə mənə xəyanət etsin…

M a ş a. Sən ciddi deyirsən?

S e r g e y. Lera, özünü ələ al! Axı, sən deyirdin…

A n t o n. Mütləq istəyirdiniz? Nəyə görə?!

L e r a. Mən sizə söz verdim ki, yalnız bura nə üçün gəldiyimi deyim…

A n t o n. Sizin məntiqiniz qadın məntiqi deyil.

L e r a. Əgər…

M a ş a. Heç nə başa düşmürəm! Sən istəyirsən ki, ərin sənə xəyanət eləsin. Iqor istəyir ki, mən ona xəyanət eləyim. Anton qoca qarısını atmamaq üçün özgənin evinə fahişə gətirir. Mən dəli oluram! Bu saat hamı çıxıb getsin! Bəsdir!

I q o r. Sən niyə birdən-birə belə həyəcanlandın?

M a ş a. Hələ bir soruşursan da? Bu əxlaqsızlıq məni təngə gətirdi…

I q o r. Yox, sən buna görə həyəcanlanmamısan.

M a ş a. Bəs nəyə görə həyəcanlanmışam?

I q o r. Növbə sənə çatıb. Axı, sən öz haqqında heç nə danışmamısan! Başa düşdün?! (Şüşənin ağzını ona sarı çevirir.)

M a ş a. Sən mənim haqqımda hər şeyi bilirsən.

I q o r. Hər şeyi yox.

M a ş a. Məsələn?

I q o r. Məsələn, sən nəyə görə son vaxtlar idman salonuna getməyə başlamısan?

M a ş a. Ay səfeh, sənin xoşuna gəlmək üçün. Axı, mən Dimadan sonra kökəlmişdim.

I q o r. Bəlkə, mənim yox, başqasının xoşuna gəlmək üçün?

S e r g e y. Maşa, doğrudanmı, sizin oynaşınız var?

M a ş a. Mənim oynaşım yoxdur. Və heç vaxt da olmayıb!

I q o r. Necə yəni heç vaxt da olmayıb? Bəs Mişa?

A n t o n. Mişa? Maraqlıdır… Deyəsən, mən getməli olmadım…

M a ş a. Mişa mənim sinif yoldaşımdır. Iqora qədər biz görüşmüşük. Amma aramızda elə ciddi bir şey olmayıb. (Iqora) Sən ki, bilirsən!

L e r a. Sən onu sevirdin?

M a ş a. Mən ona ərə getməyə hazırlaşırdım…

L e r a. Bəs niyə getmədin?

M a ş a. Onu əsgərliyə apardılar.

A n t o n. Mənim arvadım mən həbsxanada yatanda məni gözlədi.

M a ş a. Amma mən gözləmədim.

L e r a. Deməli, sevməmisən.

M a ş a. Bilmirəm. Balaca qız idim. Amma Iqor… (Leraya) Təsəvvür edə bilməzsən ki, nə oyun çıxartdı. Yadına gəlir, «Qara nikah» Dik Qoriyanı necə ələ keçirtdi? Iqor daha qətiyyətlə…

L e r a. Iqor, sizin qadınları ələ keçirmək qabiliyyətiniz də var?

I q o r. Əgər, pul varsa – qabiliyyətə ehtiyac qalmır. Qadınlar özləri yaxınlaşırlar. Amma Maşa belələrindən deyildi. Zabit qızıdı, yəni, «Mən kənar şəxslə öpüşmürəm!». Öyrəndim ki, bir tələbə ilə gəzir. Ələ keçirmək isdədim – sədaqətli çıxdı. Nadir hadisədir! Hətta belə! Fikirləşdim ki, mənə elə belə arvad lazımdır. Hərbi komissarlığa getdim, rüşvət verdim – Mişanı əsgərliyə apardılar.

M a ş a (yerindən dik qalxaraq). Sən bu haqda mənə heç nə deməmisən!

I q o r. Indi ki, dedim.

L e r a. Bu ki, alçaqlıqdı!

S e r g e y. Iqor, sən murdar adamsan!

I q o r. Murdar niyə oluram? Əgər birini sevirsənsə, onu, nəyin bahasına olur-olsun, əldə etməlisən. Sonra da ki, ana Vətəni də kimsə qorumalıdı, ya yox? Bu barədə deputat korpusu nə düşünür?

A n t o n. Kommentariya verməyə çətinlik çəkirəm.

I q o r. Düz eləyirsən, çəkinmək – böyük işdi! Indi Maşa bizə çəkinmək haqqında danışacaq!

M a ş a. Mən səni anlaya bilmirəm!

I q o r. Qəşəng anlayırsan!

M a ş a. Sən özün məni məcbur elədin… bu «svinq»ə… amma indi… Sən elə bilirsən mən istəyirdim ki, Sergeylə… Yox, biz razılaşmışdıq ki, yalandan özümüzü elə göstərək… Sergey, sən başa sal…

L e r a. Yox, burada, nəsə, bir-birilə düz gəlmir.

I q o r. Indi düz gələcək!

Qapının zəngi çalınır. I q o r gedib qapını açır.

K s i şubada daxil olur.

I q o r. Sənə kim lazımdır?

K s i. Vasya hardadı?

I q o r. Yedik.

K s i. Vasya hardadı? Qışqıracağam!

I q o r (Maşaya). Vasyanı gətir, tez!

M a ş a V a s i l i n i gətirməyə gedir.

K s i (Antona). Mən səni xatırladım. Rus intelligensiyasının vicdanı! Bizim institutda çıxış eləmisən. Deməli belə, Toşa, o dollardan bir qədər də verməli olacaqsan. Yoxsa, gedib qəzetdə sənin haqqında hər şeyi danışaram.

A n t o n (yorğun halda). Daha bir şantajçı…

S e r g e y. Onun pullarını ver! Həqiqətən də gedər və danışar. Qəzetçiləri də ki, mən yaxşı tanıyıram. Təsəvvür edin ki, ilk səhifədə belə bir rubrika açılır: «Əxlaqsız, deputat nişanı ilə». Altında da yazı: «Rus intelligensiyasının vicdanı «svinq»ə fahişə ilə gedib». Özü də bu seçki ərəfəsində…

A n t o n. Hə, deyəsən, siz haqlısınız!

A n t o n pul çıxarır. I q o r diqqətlə K s i y ə baxır.

I q o r. Bu şubanı hardan almısan?

K s i. Sənə dəxli yoxdu.

I q o r. Elə mənə dəxli var. Hardan almısan?

K s i. Mağazadan.

I q o r. Mağazadan? Sən heç bilirsən ki, o neçəyədi?

K s i. Bunu mənə bağışlayıblar.

I q o r. Aha… Bayaqdan almışdı… indi bağışlayıblar…

M a ş a V a s i l i ilə qayıdıb gəlir.

V a s i l i bərk keflənib.

V a s i l i (yarıciddi). Mən yoldaşların yanına dizin-dizin sürünə-sürünə gedəcəyəm… Onlar məni bağışlayarlar… Dizin-dizin sürünə-sürünə…

I q o r (Maşaya). Bu qoturun əynindəki şuba sənindir!

M a ş a. Yox, mənim şubam başqa rəngdə idi.

I q o r. Yox, bu rəngdə idi…

M a ş a (Iqora). Sən də bəsdi… (Ksiyə) Vasyanı da götür get!

I q o r. Yox, dayanın, yoxlayaq!

M a ş a. Necə yoxlayacaqsan?

I q o r. Çox asan! Yadıma gəlir, təmir zamanı sən rənglənmiş qapıya toxunmuşdun – şubanın astarı ləkə olmuşdu.

Yaxınlaşıb şubanın ətəyini qaldırır və ləkəni göstərir.

A n t o n (pulu cibinə qoyur. Ksiyə). Sən həm də oğru imişsən!

K s i. Mən oğru deyiləm.

I q o r. Bəs, şubanı hardan almısan?

K s i. Bir oğlan bağışlayıb.

I q o r. Hansı oğlan?

K s i. Deməyəcəyəm.

I q o r. Eybi yoxdu, mənə deməzsən, milisə deyərsən (telefonun dəstəyini qaldırır).

K s i. Çağıra bilməzsən! Sizin haqqınızda hər şeyi ona danışaram!

I q o r. Sənə inanmaz. Amma deputat Qovorova inanar. Anton, bu qızı dama basdıraq?

A n t o n. Böyük məmnuniyyətlə!

K s i. Yaxşı. Deyərəm. Mənim bir tanışım var, idman salonunda məşqçi işləyir.

I q o r. Hansı idman salonunda?

K s i. «Biçklab»da.

I q o r. Işə bax! Hətta belə! Deməli, şubanı o oğurlayıb?

K s i. O oğru deyil… Onun ağıldan yüngül, nə elədiyini bilməyən bir müştərisi var…

I q o r. Sən o ağıldan yüngül, nə elədiyini bilməyən müştərini görmüsən?

K s i. Yox. Mən o kluba heç vaxt getmirəm…

I q o r. Niyə?

K s i. Müştərilər məni tanıya bilərlər. Məşqçini isə itirmək istəmirəm – xoşuma gəlir.

I q o r. Məşqçi o müştəri haqqında sənə bir şey danışıb?

K s i. Hə. O müştəriyə həmişə pul lazım olur. Satmaq üçün əvvəlcə şubasını təklif edib – öz qiymətindən dörd dəfə ucuz. O da alıb, mənə bağışlayıb.

M a ş a. Yalan danışır! Rədd ol mənim evimdən, lənətə gəlmiş fahişə! Şubamı oğurlamışdılar, mən hətta bu barədə ərizə də yazmışdım…

K s i. Düzdü – mən fahişəyəm! Amma ailə qursam – ərimi sevəcəyəm və onun maşınını oğurlatdırmayacağam!

I q o r. Dayan! Bu maşın hardan çıxdı?

K s i. Mən bunu, ümumiyyətlə, elə-belə dedim…

I q o r. Milisə zəng edim?

K s i. Lazım deyil… Deyirəm… Sonra o, ərinin «cip»inin qaçırılmasını təklif edib – siqnalizasiyanı necə açmağın yolunu öyrədib və açarı gətirib ki, dublikatını çıxartsınlar…

L e r a. Maşa, bu yalan danışır?

M a ş a (bir qədər tərəddüddən sonra). Yox…

I q o r. Hətta belə! Şələ-şüləni də yığ, rədd ol burdan, yaramaz! Məhkəmə bizi çox tez ayıracaq! Dimka məsələsində xəsislik etməyəcəyəm! Sənə isə, qancıq, bir qəpik də verməyəcəyəm! Valideynlərin gəlsinlər – hər şeyi danışacağam. Cinayətkar böyüdüblər – ərini qarət edir!

S e r g e y. Yəqin qarət etməyi valideynlərindən yox, səndən öyrənib.

I q o r. Yum ağzını! Ağıllı çıxıb!..

M a ş a. Iqor… Mən izah eləyərəm…

I q o r. Izah elə! Bu qədər pul sənə nədən ötrü lazımdır?

M a ş a (çətinliklə). Bir nəfərdən ötrü…

I q o r (tamamilə şən halda). Mişadan ötrü?

M a ş a. Sən Mişanı tanıyırsan?

I q o r. Məni səfeh hesab eləyirsən? Oturmusan evdə, kökəlmisən, inək kimi. Və birdən-birə idman salonuna qaçmaq yadına düşüb. Mən o saat başa düşdüm. Əvvəlcə fikirləşdim ki, yəqin məşqçiyə aşiq olmusan. Siz hamınız beləsiniz: əvvəlcə məşqçinin, sonra da genekoloqun yanına… Petrovkadan bir nəfər tutdum ki, səni güdsün. Ikicə günün içində Mişanın ünvanını gətirdi. Nədi, ilk məhəbbət paslanmır?! Əvvəl istədim sənin Mişanın əl-ayağını sındırım. Sonra fikirləşdim ki, axı, niyə? Onsuz da, iş işdən keçib! Yox, mən başqa cür qisas alacağam – həm səndən, həm də sənin şorgöz köpəyindən!

M a ş a. Mən indi bildim ki, sən bu «svinq» oyununu nəyə görə təşkil etmisən!

I q o r. Axır ki, başa düşdün! Arvad maşın kimidi – bir dəfə cızılana qədər qoruyursan. Sonra, deyirsən, cəhənnəm olsun, başqasını alaram! Əgər, Mişa varsa, onda, qoy hamı olsun – Sergey də, Antonda, Vasya da… Sonra da götur at zibilliyə… Hətta belə!

M a ş a əlləri ilə üzünü örtür və qaça-qaça gedir.

L e r a. Qaytar onu, gicbəsər!

A n t o n. Məncə, siz çox hiddətlənmisiniz!

I q o r. Hara gedəcək? Amma mən qəsdən ən çirkli yerlərdə gəzəndən sonra gəlib ayaqqabılarımı onun üstünə siləcəyəm! (Bunu necə edəcəyini göstərir.)

L e r a. Ilahi, mən necə də səfehəm! Maşanın da həyatını korladım. Mən nə etdim?

S e r g e y. Burda sənlik nə iş var? Niyə narahatsan ki?

L e r a. Bu axmaq «svinq»i mən fikirləşib tapmışam! Mən!

S e r g e y. Sən?

I q o r. Başa düşmədim?!

A n t o n. Siz? Necə?

L e r a. «Homo erektus» jurnalındakı məqaləni mən yazmışam – Maksim Kazanoviçin adından. Bilirdim ki, hansı səfehdənsə mütləq səs çıxacaq…

I q o r. Hətta belə!

A n t o n. Yəqin bunun, nəsə, bir səbəbi olub.

L e r a (Sergeyin üzünə baxır). O, iki ildi ki, jurnalistika fakultəsinin bir tələbəsinə vurulub. Məndən ayrılmaq istəyir, amma tərəddüd edir…

I q o r (Sergeyə). Sən də, saman altından su yeridənlərdənsən ha! De görək bu nə məsələdi?

S e r g e y. Mən öz şəxsi məsələmi heç kəslə müzakirə etmək niyyətində deyiləm.

A n t o n. Bir dəqiqə, bizim şəxsi məsələlərimizi siz hətta böyük məmnuniyyətlə müzakirə edirsiniz, amma özünüzə gələndə…

S e r g e y. Istəmirəm.

I q o r. Heç olmasa, babat şeydimi?

L e r a. Hə, qəşəngdi, çox qəşəngdi! Ancaq məsələ bunda deyil… O bunu əfsunlayıb!

A n t o n. Gənc və gözəl qadın kişini əfsunlaya bilər. Mən bunun şahidi olmuşam…

L e r a. Siz başa düşmədiniz. O bunu cadulayıb!

S e r g e y. Sən nə danışırsan?

L e r a. Sergey, sən hamama girib, suyu açırsan ki, telefonla nə danışdığını eşitməyim – elə bilirsən, bu, sevgidi? Yox, bu, cadudur. Mənə bir qoca qarının ünvanını verdilər, getdim, dedi ki, sənin ərini cadulayıblar, üstünü axtar!

A n t o n. Nəyini axtar?

L e r a. Üstünü də… Gör nə tapırsan… Tük və yaxud menstruasiya qanına batmış burun dəsmalı…

S e r g e y. Lera bu nə söhbətdi: burun dəsmalı, qan, tük…

L e r a. Mən sənin paltarlarını ələk-vələk elədim, pencəyinin gizli cibində…

S e r g e y. Nə tapdın?

L e r a (çantasından kiçik, şəffaf bir paket çıxarır). Bax…

A n t o n. Icazə verin! Həqiqətən də, tükdü…

I q o r (baxır). Amma qəribə tükdü… Balaca-balaca…

V a s i l i (paketi cırmağa cəhd göstərir). Mondialistlər…

K s i. Onun qırxıldığı yerdən bir də tük bitmir. Mən o fırıldaqları bilirəm. Bizdə əlindən hər iş gələn biri vardı, bank sahibini bu cür cadu eləmişdi: bank sahibi axırda arvadını, həqiqətən də, boşadı, amma, nədənsə, onunla yox, bir aktrisa ilə evləndi.

L e r a. Afərin, Ksi, sən hər şeyi başa düşürsən!

S e r g e y. Özünü ələ al, Lera! Sən nə danışırsan?

L e r a. Mən nə danışıram? Tükü qarıya göstərdim, dedi ki, cadudu, özü də ən pis forması, təsirini aradan qaldırmaq üçün gərək ərin sənə xəyanət eləsin…

A n t o n. Məncə, bu sənin üçün problem deyil…

L e r a. Məni dolayırsınız? (Ksiyə) Qarı dedi ki, gərək ərin sənə gözünün qabağında xəyanət eləsin. Mütləq gözünün qabağında! Başa düşürsənmi, Ksi?

K s i. Yox, birinci dəfədi bu cür zıppıltı eşidirəm…

I q o r (Leraya). Və sən fikirləşib «svinq»i tapdın, hə?

L e r a. Mən ümid edirdim ki… Ilahi, bütün bunlar necə mənasız və dəhşətlidir!

S e r g e y. Sən nəyə ümid edirdin ki?

L e r a. Mənim başqa çarəm qalmamışdı…

A n t o n. Lera, siz ali təhsilli qadınsınız, psixokulturoloqsunuz. Və birdən, bağışlayın, üzr istəyirəm, cadu, əfsun…

L e r a. Siz heç nə başa düşmürsünüz! Nə vaxt ki, ərini əlindən alırlar və sən sevimli sahibini itirən it kimi dəhşətdən bağıra-bağıra gəbərirsən, onda, kulturoloq nədi, sadəcə olaraq, müti, əlacsız bir qadıncığaz olursan. Elə bilirsiniz utandığımdan ağlayıram, yox, dərdimdən və hiddətimdən: çünki məndə heç nə alınmadı! Heç nə! (Sergeyə) Qoy, belə olsun, get! Get onun yanına! Elə bu saat get! Mən artıq sənin yalanlarını eşitmək istəmirəm! Istəmirəm, gecələr sənə toxunanda necə diksindiyini hiss edim! Istəmirəm ezamiyyətə necə getdiyini görüm… Çıx get!

S e r g e y. Lera!

L e r a. Toxunma mənə! Nifrət edirəm sənə!

S e r g e y. Lera, sən özünə nə etmisən?

L e r a. Sən mənə nə etmisən? Sən məni nə hala salmısan?

M a ş a əlində çanta gəlir, isteriyalı xəstələr kimi təbdən çıxıb özünü döyən L e r a n ı n üstünə atılır.

M a ş a. Buna nə olub?

K s i. Həyəcanlanıb. Sən demə, bu «svinq»i bu fikirləşib!

M a ş a. Nə üçün?

K s i. Ərini yolundan döndərmək üçün.

M a ş a. Döndərə bildi?

K s i. Deyəsən, hə.

M a ş a. Mən heç bir serialda belə şey görməmişəm… Sağ olun… Mən gedirəm…

K s i (şubasını soyunur). Al, gecə şaxta olacaq...

M a ş a. Saxla özünə. O jurnal – «Homo erektus» hardadı?

A n t o n. Burda… (Jurnalı ona sarı uzadır.)

I q o r. Jurnalı neyləyirsən?

M a ş a. Yadigar qalsın… Mülayim xasiyyətli həyatsevər kök qadından… Lera, sən dedin bu necə tərcümə olunur?

L e r a (hıçqıra-hıçqıra). «Ayaqları üstə qalxan insan».

M a ş a. Gülməlidir.

M a ş a şüşəni fırladır, bir müddət onun fırlanmasına baxır və birdən qəti addımlarla qapıya sarı gedir.

I q o r. Sən hara gedirsən?

M a ş a. Innən belə vəkilimlə danışacaqsan. Birlikdə qazandığımız əmlak satılandan sonra şuba ilə maşının pulunu alacaqsan…

I q o r (istehza ilə). Afərin, gör necə danışırsan!

M a ş a. Hə, indi belə lazımdır. Vasya, zavodun aksiyaları mənim adımadı. Onları qaytaracağam. Sən də onun ayaqqabı qutularında göndərdiyi pulları qaytar… Yaxşı deyil…

V a s i l i. Mənim himayədarım… Dizin-dizin sürünə-sürünə…

I q o r. Sən necə əmr verirsən?

M a ş a. Dedim ki, innən belə vəkilimlə danışacaqsan!

I q o r. Yox, dayan! Sən niyə məndən oğurluq etmisən? Az pul verirdim?

M a ş a. Hə. Mənə çox pul lazım idi.

I q o r. Nə üçün?

M a ş a. Dedim axı: Mişa üçün…

I q o r. Eşitdinizmi? O mənim pullarımla kişi saxlayıb! Sən onunla harda rastlaşmısan? O hardan mənim beynimə həkk olunub? Cavab ver!

M a ş a. Ona bir yerdə rast gəldik. Amma nə edim ki, sən puldan başqa heç nəyi görmürsən.

I q o r. Ona harda rast gəldik?

M a ş a. Biz maşınla şəhərdən kənara çıxırdıq. Qırmızı işıq yandı – dayandıq. O qaçıb bizim maşının yanına gəldi və qabaq şüşəni silməyə başladı. Mən onu dərhal tanıdım, baxmayaraq ki, üst-başı cındır idi və dəhşətli dərəcədə arıqlamışdı…. Bu qəfil görüşdən pis hala düşdüm – az qaldı

huşumu itirim. Amma sən heç nə hiss eləmədin, qışqırdın: «Şüşəyə dəymə!». Amma o yenə də sildi. Bu vaxt göy işıq yandı – biz getdik. Sən ona bir manat da vermədin.

I q o r. Nəyə görə verməli idim? Ondan xahiş etmişdim?

S e r g e y. Verə də bilərdin. Kasıb ki, deyilsən…

A n t o n. Bilirsinizmi, sosial gərginliyin tüğyan etdiyi bir vaxtda bölüşmək lazımdır…

I q o r. Hər ikiniz susun! O səni tanıdı?

M a ş a. Əlbəttə, yox… Onların halı pis olanda ancaq özlərini tanıyırlar.

I q o r. Özlərini, yəni, kimi?

M a ş a. Narkomanları. Mişa həmişə zəif olub… O mənə elə ilk görüşdəcə demişdi: əgər, sən məni atsan, məhv olacağam… O mənə görə sındı…

I q o r (fikirli). Onda belə çıxır ki, həm də mənə görə…

S e r g e y. Əbəs yerə özünüzdə günah axtarırsınız! Mən narkomanlar haqqında çox yazmışam. Narkotikaya meyillilər narkoman olurlar. Burada sizlik bir şey yoxdur.

L e r a. Hə, Maşa, Sergey haqlıdır…

M a ş a. Niyə, axı niyə, burda heç kim inanmır ki, kimsə məndən ötrü həyatını məhv edə bilər. Niyə?

V a s i l i. Inanırıq.

I q o r. Çox sağ ol, Vasya!

M a ş a. Sonra mən onun qaldığı evə getdim. Ilahi, siz oranı görsəydiniz! Çirk xirtdəkdən, hər tərəfdə şpris, şpris, şpris… Əvvəlcə o mənimlə hətta danışmaq da istəmədi, qışqırdı, çıx get dedi… Amma mən səhəri gün yenə də getdim… Dilə tutdum, axır ki, yaxşı klinikalardan birində müalicə olmağa razılıq verdi.

I q o r. Və sənin şuban oğurlandı, hə?

M a ş a. Hə, mənim şubamı oğurladılar. (Pauza.) O, xəstəxanadan çıxdı, yenə başladı iynəyə… Bunu biləndə bərk əsəbiləşdim, yanına getdim, o ki var, döydüm… sonra pul verdim… iynə üçün… Çünki ağrısı keçmirdi... Hətta xatırlamaq belə dəhşətdi…

K s i. Mənim də bir tanış oğlanım var idi. Hər gün deyirdi ki, evlənəcək… mənimlə… Düz bir il ona hamballıq elədim. Yaxşı oğlan idi… Heyif, yüksək dozanın qurbanı oldu…

M a ş a. Mən Mişanı iki dəfə o cür ölümdən qurtarmışam. Sonra bir həkim tapdım – o, ən ümidsiz xəstələrin müalicəsi ilə məşğul olurdu.

I q o r. Və mənim maşınımı qaçırdılar!

M a ş a. Hə, sənin maşınını qaçırdılar. Həkim düz yarım il onunla əlləşdi-vuruşdu, axırda dedi ki, yox, ümidsizdi. Bu müddət ərzində elə bil ki, məndə də nə isə bir dəyişiklik baş vermişdi – narkoman kimi olmuşdum. Mənim ondan zəhləm gedirdi, hətta iyrənirdim də. Amma, eyni zamanda, bəlaya düçar olmuş bu zavallını ata da bilmirdim. Sonra mən öyrəndim ki, xaricdə, əlbəttə, çox böyük pulla cərrahiyyə əməliyyatı aparırlar – insan beyninin həzlə bağlı hissəsini kəsib götürürlər… Və insan heç nəyə, o cümlədən narkotik maddəyə də həvəs göstərmir… Mən qarşıma məqsəd qoydum: onu mütləq müalicə elətdirəcəyəm!..

I q o r. Nə üçün? Axı, sən ki, onu sevmirsən!

M a ş a. Iqor, sən hətta «Qanadsız mələklər»dəki gicbəsər Vinnidən də səfehsən. Əlvida!

L e r a. Maşa, məni bağışla!

M a ş a. Lera, narahat olma, hər şey qaydasındadı…

A n t o n. Siz xeyirxah qadınsınız! (Maşanın əlini öpür.)

K s i. Maşa, əsas odur ki, sən özünü iynədən gözləyəsən! Bəzən elə olur ki…

V a s i l i. Məryəm ana! (Maşanın o biri əlini öpür.)

I q o r (Maşaya). Sən heç hara getməyəcəksən!

S e r g e y (Iqora). Iqor, mən başa düşmürəm: sən gedən pullarınamı heyifsilənirsən, yoxsa gedən arvadına?

I q o r. Heç olmasa, sən ağzını yum! Cadulanmış…

I q o r S e r g e y i n üstünə atılır. Tutaşırlar. V a s i l i də onlarla tutaşır. Dava düşür. Qadınlar kişiləri çəkib aralayır və hərəsini bir güncdə əyləşdirirlər. Bir müddət hamı susur.

K s i. Mən qrup halında belə həngamə görməmişəm…

S e r g e y. Buna «Günahların xarabalığı» adını vermək olar…

A n t o n. Yox, bu, elə «svinq»di, amma rusca…

I q o r. Hətta belə…

L e r a. Indi biz nə etməliyik?

M a ş a. Bilmirəm…

V a s i l i. Bəlkə oxuyaq?

I q o r. Yum ağzını!

L e r a. Vasya, ona fikir vermə, oxu!

V a s i l i (oxuyur).

Göz işlədikcə – çöl, çöl…
Görünmür yolun sonu.
Haldan düşmüş faytonçu
Güclə sürür faytonu.

Hamı ona qoşulur.

X o r. Və bu ölüm anında
Özündə bir güc tapır…
Dostu durub yanında –
Ona gör nə tapşırır…

Qapı açılır. On yaşlı D i m a həyəcandan özünü ələ ala bilməyən qızcığazla otağa daxil olur. Onların arxasınca

I r i n a M a r k o v n a və N i k o l a y Y e q o r o v i ç daxil olurlar.

X o r. Hirsli olmuşam hərdən
Əziz dost, məni əfv et.
Bu lal-kar çöldəcə sən
Məni ustupca dəfn et!

I r i n a M a r k o v n a. Oxuyurlar. Amma mən düşünürdüm ki, indi möhkəm vururlar.

N i k o l a y Y e q o r o v i ç. Kim nə deyir-desin, bizim cavanlar yaxşıdılar! Korlanmayıblar!

I r i n a M a r k o v n a ilə N i k o l a y Y e q o r o v i ç də onlara qoşulurlar.

X o r. Mənim atlarımı sən
Atama çatdırarsan.
Mənim salamımı sən
Anama çatdırarsan…

D i m a. Ana, bu, Katyadı.

K a t y a. Salam.

M a ş a. Salam, Katya…

K a t y a. Bizim evdə də bayram günlərində mahnı oxuyurlar…

I q o r. Biz sizi sabah gözləyirdik…

N i k o l a y Y e q o r o v i ç. Bütün bunlar Dimanın işidir…

D i m a. Mən Katyaya öz kompyuterimi göstərməyi vəd etmişəm…

I r i n a M a r k o v n a. Katyanın valideynlərini güc-bəla ilə yola gətirmişəm, qızcığazı buraxmaq istəmirdilər…

D i m a. Biz böyüyəndə evlənəcəyik.

M a ş a (gülümsəyir və Dimanın başını sığallayır). Nə olar, gözləyərik…

N i k o l a y Y e q o r o v i ç. Iqor, biz belə fikirləşdik ki, siz getmisiniz…

I q o r. Niyə?

I r i n a M a r k o v n a. Necə yəni niyə? Gördük ki, maşının qapının ağzında yoxdu.

I q o r (yerindən dik qalxır). Necə yəni yoxdu?!

N i k o l a y Y e q o r o v i ç. Yoxdu da. Biz belə qərara gəldik ki, işinizi qurtarıb, gəzməyə getmisiniz.

I q o r (qışqırır). Nəə-ə?!

Hamı susur. I q o r M a ş a n ı n üzünə baxır, sonra qapıya sarı qaçır, birdən dayanır, dönür və asta addımlarla geri qayıdır. Hamı qorxu içində gözləyir. O gəlir və M a ş a n ı n önündə diz çökür. V a s i l i oxumağa başlayır və hamı ona qoşulur.

X o r. Sonra arvadımı gör,
Söylə vida sözümü…
Nişan üzüyümü ver,
Qoy üzməsin özünü.

De ki, nə kədərlənsin,
Nə də ki, xiffət etsin.
Tək qəlbini dinləsin -
Kimi istəsə, getsin.

De ki, don vurdu məni
Çöldə, gördün gözünlə.
Onun məhəbbətini
Aparıram özümlə…

P ə r d ə

TEYMUP ZÜLFÜQAPOV

KƏKLIKLI QƏFƏS

(iki şəkilli pyes)

IŞTIRAK EDƏNLƏR:

Ə m i r T e y m u r.

H ə z r ə t Ü b e y d u l l a.
X o c a H a f i z – şair.
R ə q s a n ə – XIV əsrin qənirsiz gözəli.
Ə m i r T e y m u r u n döyüşçüləri.

Birinci şəkil

Ə m i r T e y m u r u n sarayı. Sahibi-cahan taxtda əyləşib. Hiss olunur ki, qocalıb.
H ə z r ə t Ü b e y d u l l a taxtın yanında dayanıb.

T e y m u r (nazik dodaqlarını çeynəyir). Həzrət, mən yaşamaqdan, hökmranlıq eləməkdən yorulmuşam. Qızmar səhradakı bir ovuc su kimi ölümü gözləyirəm. Köhnə kişilər necə də düz deyiblər: ölümün özü yox, əzabı dəhşətlidir. Mənim qaxaca dönmüş xəstə ayağımda ölüm çığatay süvariləri kimi pusquda dayanıb. Qəribədir, bütün dünya əmrimə müntəzirdir, amma öz ayağım öz sözümə baxmır, göynəyir, elə hey göynəyir… Elə bil odla dağlayırlar – yanır, viran qoyduğum düşmən şəhərləri kimi… Görünür, yağış yağacaq, qar tökəcək… Ya da ölüm gələcək… Bircə tez gələydi!.. Of, ayaqlarım!.. Vaxt vardı, yenicə çiçəkləmiş alça budağı kimiydilər: cavan, gümrah... Indisə, soluxmuş saksaula oxşayırlar… Həzrət, sən ölümdən qorxursan?

H ə z r ə t . Bütün canlılar ölümdən qorxurlar, hətta peyğəmbərlər də… baxmayaraq ki, onlar ölümdən yüksəkdədirlər, ruhun əbədiliyinə inanırlar, amma yenə də…

T e y m u r. Həzrət, mən peyğəmbər yox, sadəcə, əsgərəm. Və əbədiyyətə inanmıram. Ölümdən də qorxmuram. Bilirəm ki, ondan sonra ucsuz-bucaqsız zülmət başlayacaq və o zülmətdə də heç nə yoxdu. Hər şey – canımız, qanımız, ağrımız, acımız bu dünyadadı. O dünyanı peyğəmbərlər özlərindən

uydurublar… Eh, Məhəmməd peyğəmbər, Məhəmməd peyğəmbər, rastıma çıxsaydın, səni sorğu-suala tutardım, deyərdim, di axirətdən danış… O dünyada zülmətdən savayı heç nə yoxdu, Həzrət. Peyğəmbərlər yalan deyirlər… Həyat – bu dünyada insanlarla bölüşmək istədiyimiz ağrı-acıdı… Mən bu ağrı-acını səxavətlə bölüşmüşəm, özü də tək-tək adamlarla yox, bütöv xalqlarla… Amma bu mənə təskinlik bəxş etməyib… Görəsən, mənə nə olub? Sayaqlamıram ki? Peyğəmbəri sorğu-suala tutmaq? Ha-ha-ha!.. Mən dəli olmuşam, Həzrət! Heç kəs də mənə kömək eləyə bilmir. Loğmanlar loğmanı Fəzlüllah Təbrizi də od tutub yanan bədənimə, dodaqlarıma, dəvə hürgücünə dönmüş kürəyimə, belimə yapışmış qarnıma buz qoyardı. Amma faydası olmazdı – alışıb-yanan canımı soyutmazdı. Səltənətimin bütün qarını, buzunu yığsan belə, zəbt etdiyim şəhərlər kimi od tutub yanan vücudumu söndürməz! Ağrı nəfəsimi kəsir! Of, yandım! Əgər Peyğəmbər mənim çəkdiyimi çəksəydi, Allahı unudardı. Ən azı, insana bu qədər əzab göndərdiyinə görə!

H ə z r ə t (qulaqlarını tutur). Kaş qulaqlarım kar olaydı, bu sözləri eşitməyəydim, ey böyük hökmdar. Ağrı sizə dəhşətli sözlər dedizdirir. Günaha batmayın. Allahdan qorxun, eşidər, qəzəbi tutar… Mən dəhşətə gəlirəm… Gözlərimi yumuram, qulaqlarımı tuturam… Bu taxtın həndəvərində şeytan hərlənir…

T e y m u r (gülür). Şeytan taxtda əyləşib! Ha-ha-ha!.. Şeytanın ayaqları göyüm-göyüm göynəyir… Yağış yağacaq, qar tökəcək… Ya da ölüm gələcək… Həzrət, mən ağrıdan cana doymuşam… Ölmək istəyirəm, özü də tez… Bu gün Bibixanım məscidinə getmişdim, dua oxudum, Allahdan ölüm istədim… O böyüklükdə məsciddə məndən başqa bir kəs yox idi… Göydə bir Allah idi, yerdə bir hökmdar!.. Məscidin döşəməsinə hind xalıları sərmişdilər… Ağrımayan ayağımla xalını tərpətdim – aləmi toz bürüdü… Toz… Toz… Bütün insanlar mənim – cahangirlər cahangirinin ayaqları altında tozdan başqa bir şey deyil! Insanlar siçan kimi qorxaqdı…

Qorxaqlardan da bezmişəm, Həzrət… Ölmək istəyirəm… Itaətkar, lal-dinməz insanlara baxmaqdan təngə gəlmişəm… Qorxmaz, gözümün içinə şax baxan bir adam görmək istəyirəm… Hər məmləkətdə, heç olmasa, belə mərd, cəsur – hökmdarın üzünə həqiqəti deyən bir adam olmalıdır… Yoxsa… Yaşamaq, hökmranlıq eləmək maraqsız olur…

Eeeeeh… Doğrudanmı, mənim ucsuz-bucaqsız səltənətimdə belə bir adam yoxdur?..

Doğrudanmı, igidlər qırılıb, cəsurlar yoxa çıxıb? Əgər belədirsə, onda, mən öləndən sonra səltənətim dəymiş Xarəzm qarpızı kimi partlayıb dağılacaq… Goreşənlər kef məclisi quracaq, meydan sulayacaq… Nəfəsim daralır, boğuluram, Həzrət… Doğrudanmı, bu məmləkətdə bir nəfər də cəsur adam qalmayıb? Baxıram, ətrafımdakıların hamısı qorxaq, lal-dinməz, itaətkar...

H ə z r ə t (hiyləgərliklə). Bir eləsi var, qibleyi-aləm…

T e y m u r (gözləri vəhşi pişik gözləri kimi alışıb yanır, bir anlıq ayaqlarının ağrısını unudur – indi o, pusquda dayanmış ovçuya oxşayır). Kimdir o? Onu görmək, mükafatlandırmaq istəyirəm.

H ə z r ə t. Şair Xoca Hafiz. Səltənətin yeganə cəsur adamı…

T e y m u r. Həzrət, nəyə görə onu cəsur adam hesab edirsən?..

H ə z r ə t . O bir qəzəl yazıb…

T e y m u r. Nə haqda?

H ə z r ə t. Sizin ay üzlü qulunuz Rəqsanə haqda.

T e y m u r. Hansı şair qadınları vəsf etməyib? Sən bunu cəsurluq sayırsan?..

H ə z r ə t. Hökmdarım, Hafiz Rəqsanəni sadəcə vəsf eləməyib, onun gözəlliyini Səmərqəndlə Buxaranın gözəlliyindən üstün tutub. O qəzəldə belə bir beyt var:

Əgər ol türki-şirazi bizə lütf etsə pünhanı,
O hindu xalinə verrəm Səmərqəndi, Buxaranı…

T e y m u r (qəzəlin sözlərini aramla təkrar edir).

Əgər ol türki-şirazi bizə lütf etsə pünhanı,
O hindu xalinə verrəm Səmərqəndi, Buxaranı…

H ə z r ə t. Indi bu qəzəli Səmərqənddə, Buxarada hamı oxuyur. Özü də – harada gəldi! Küçədə, bazarda, toyda, pirdə… Odur ki, camaat yer üzünün paytaxtı böyük Səmərqəndin gözəlliyi və təmizliyi barədə düşünmür, odur ki, Buxarının müqəddəs günbəzlərini toz basır… O yerdə ki, xalq şairə abidə ucaldır, orda Əmiri yaddan çıxarır, unudur…

T e y m u r. Hafiz indi hardadır? Sən bilməmiş olmazsan…

H ə z r ə t. Səmərqənd bazarında qəzəl oxuyur. Əsgərlərə əmr etmişəm ki, tutub saraya gətirsinlər.

T e y m u r. Həzrət, sən pis xidmətçi deyilsən. Fikirlərimi oxuya bilirsən. Bir iş tutanda ürəyimdən keçənləri nəzərə alırsan. Bəs, qorxmursan ki, günlərin bir günündə əmr edərəm sənin həddindən artıq ayıq-sayıq kəlləni bədənindən ayırarlar? Yoxsa, bilmirsən qulların hökmdarların sirlərinə bələd olması, gizli işlərinə burunlarını soxması onların xoşuna gəlmir? Özünü gözlə, mənim sədaqətli Həzrətim! Cahangirlərə sədaqətli olmaq xəyanət etmək qədər təhlükəlidir. Bəzən adam üst-başına şıvranan, əl-ayağını yalayan itləri təpikləmək istəyir… Elə deyilmi, Həzrət? Ürəyindən heç belə şey keçibmi?..

H ə z r ə t. Ey sahibi-zaman, belə bir müdrik məsəl var: axmaq adamla dadlı mey içməkdənsə, ağıllı adamla daş daşımaq yaxşıdır. Bir də, əmin ol, əgər başım sənin qılıncınla bədənimdən ayrılsa, o, axirətdə də sənə qulluq edəcək…

T e y m u r (üz-gözünü turşudur). Sən yenə o dünyadan danışırsan… Hara tələsirsən? Bir az da yaşayaq… Bəlkə mənim yanımda özünü pis hiss edirsən? Mən sənə həmişə mərhəmət göstərmişəm, Həzrət. Yadındadırmı, bir vaxt sən məni Allah adından tənbeh edirdin…

H ə z r ə t . Yadımdadır…

T e y m u r. Bu o vaxtlar idi ki, Mavərənnəhrin çapqınçılardan qoruduğum şeyxləri müqəddəs məscidlərdə mənə dua edirdilər…

H ə z r ə t. Yadımdadır…

T e y m u r. Bəs sən nə edirdin? Xalq arasında yayırdın ki, Teymur qaniçən türkdür, millətləri qılıncdan keçirir, onun şərəfinə necə dua oxumaq olar?..

H ə z r ə t. Yadımdadır…

T e y m u r. Amma Allah sənə görk elədi, Həzrət Übeydulla! Yuxuda peyğəmbəri gördün: gördün mənimlə yanaşı dayanıb… Yadına düşürmü o yuxu?

H ə z r ə t. Düşür… Mən yuxuda peyğəmbərə üç dəfə baş əydim, müraciət etdim; amma o mənə əhəmiyyət vermədi. Pərt olub dedim: «Ey Allahın Rəsulu, Teymur saysız-hesabsız insanları qanına qəltan eləyib, mən isə şəriətə qulluq etmişəm, indi bu nə sirdi: onu dinləyirsən, amma məni yox…». Peyğəmbər belə cavab verdi: «Düzdü, Teymurun hökmü ilə minlərlə Allah bəndəsi məhv olub, hələ bundan sonra da məhv olacaq, amma o, şeyxləri və Həzrət-Fatimənin nəslindən olanları yad etdiyi üçün Allah onun günahlarından keçib. Odur ki, belə bir hökmdara xalqlar dua etməlidirlər…».

T e y m u r. Həzrət, bilirsən ki, dediyin o sözlərə görə o vaxt mən səni bağışladım. Amma hayıf ala bilərdim, başını bədənindən üzərdim, lazım bilmədim, üstəlik, Anxoy şəhərini bağları və bazarı ilə birlikdə sənə bağışladım. Hələ vəsiyyət də eləmişəm ki, öləndə səni mənim yanımda basdırsınlar. Bəli! Mənim mərhəmətim səltənətim kimi hədsiz-hüdudsuzdur! Mən bütün hökmdarlar kimi əzazil ola bilərdim, səndən qisas alardım; amma mən hər pisliyin əvəzini yaxşılıqla ödəmişəm… Mənim əlim qılıncdan, qəlbim qandan doyub. Taxt-tacımın ətrafına təkcə əliqılınclı cəngavərləri yox, həm də böyük şairləri, müdrikləri, memarları, münəccimləri toplamışam. Onları qorxuzmamışam, əksinə, həmişə qızılla mükafatlandırmışam. Loğmanlar, memarlar, münəccimlər yaman qızılpərəst olurlar… Ha-ha-ha!.. Illah da münəccimlər… Həzrət, bəlkə sən bilirsən, bu münəccimlər qızıl parıltısına niyə bu qədər hərisdilər? Bəlkə bu parıltı onlara Yeddiqardaş, Ülkər ulduzlarının əbədi parıltısını xatırladır? Eh, münəccimlər, münəccimlər… Siçan kimi göyə – kəhkəşan işığına boylana-boylana yerin naz-neməti haqqında düşünənlər… Həzrət, başımız söhbətə qarışdı, mətləbdən uzaqlaşdıq… Qoy şair gəlsin…

Iki əsgər, əlində siyirməqılınc, şair H a f i z i qabağına salıb gətirir. Şair qocalıb. Saçları tamam ağarıb. Yaxşı görmür, yaxşı eşitmir. Bir əlində kəklikli qəfəs tutub; kəklik oxuyur, onun zərif, yanıqlı cəh-cəhi sarayın xalçalı divarlarına toxunub əks-səda verir. Şair o biri əlində par-par parıldayan naxışlarla işlənmiş dütar tutub.

T e y m u r (üzündə qəmli təbəssüm). Şair, nə yaman qocalmısan! Şeirlə qocalıq atla tısbağa kimi bir-birini tutmur!.. Şair, sən ki, öz mahnını özün oxuyursan: bəs, bu kəklik nəyinə lazımdır? Yoxsa, qocalığı boynuna alırsan? Yox, şair gərək qocalana qədər yaşamasın…

H a f i z. Ey böyük hökmdar, bu sözlərdə həqiqət var: gözəl-göyçək səltənətində qocalmaq hər adama qismət olmur. Indi mən çox az hallarda öz mahnımı oxuyuram. Susuram, onda da bu əsir kəklik oxuyur. Ikimizin bir nəğməmiz var…

T e y m u r. O nə nəğmədi elə?

H a f i z. Azadlıq nəğməsi…

T e y m u r. Azadlıq nəğməsi əsirlikdə daha yaxşı səslənir. Kəklik qəfəsdə ucadan oxuyur, nəinki açıq havada… Ha-ha-ha!.. Nəğməkarı həbsxanaya, zindana salmaq lazımdır ki, səsi ucadan çıxsın… Köhnə kişilər yaxşı deyiblər: «Hökmdarlar xoşlayırlar ki, onların qulları azadlıq haqqında himn yazsınlar…» Ha-ha-ha!..

H ə z r ə t. Belə bir türk məsəli var: «Kim ki, azadlıqdadı, onun fikirləri həbsdədi, kim ki, həbsdədi, onun da fikirləri azadlıqdadır».

H a f i z. Ey ulu hökmdar, belə getsə, məmləkətinizdə bu qəfəsdəki kəklikdən savayı bir nəğməkar qalmayacaq…

T e y m u r. Axır ki, bu boyda məmləkətdə mərd, qorxmaz bir adam gördüm. Axır ki, qabağıma çıxan oldu! Danış, şair, danış! Danış gündüz bayquşu! Vaxtsız banlayan xoruz! Səmuma qarşı çıxan qum dənəsi! Sayı-hesabı bilinməyən, qan-qan deyən süvari dəstəsinə söz atan piyada dərviş! Danış görüm! Qorxaqların, mütilərin, cınqırını çıxarmayan lal-karların əlindən təngə gəlmişəm. Böyük dövlət böyük qurbanlar bahasına yaranır! Və biz kəllələrdən qalalar ucaltdıq! Təkcə Isfahan qalasını tikmək üçün yetmiş min kəllə lazım gəldi! Isfizarda isə, diricanlıların qalasını ucaltmışdıq… Bundan ötrü əli-qolu bağlı isfizarlıları bir-birinin üstünə yığdıq, üstlərinə tez quruyan əhəng tökdük, sonra da daşla hördük… Iki min adam idi… Allah, keç günahımdan!.. Amma o ölüm piramidasına hörülənlər qışqıra-qışqıra mənə dua oxuyurdular, xoş sözlər deyirdilər… Ağız-burunlarına əhəng dola-dola, can verə-verə məni alqışlayırdılar: özü də, bir nəfər kimi! Denən, biri məni lənətləyirdimi? Yox! Əgər

lənətləsəydi, ölümün əlindən alardım, azadlıq bəxş edərdim… Amma birində də cəsarət görmədim… Boğuluram, Hafiz! Təktənha qalmışam! Ölməyim gəlir… Nə yaxşı ki, bu dünyada sən varsan… De, ürəyindən nə keçir, de!.. Qorxma, Hafiz!

H a f i z. Mən bir nəğməkaram. Kəklik bəbirin qabağında neyləyə bilər? Yəqin, ölüm ayağında, bəbirin açılmış ağzına baxa-baxa son nəğməsini oxuyar…

T e y m u r. Hafiz, mənim bu ucsuz-bucaqsız səltənətimdə – Mavərənnəhrimdə bütün xalq sənin mahnılarını oxuyur, eynən bu kəklik kimi, özü də, böyük Əmirini, qibleyi-aləmini unuda-unuda… Sənin mahnıların çox qorxuludur, boğazlarına kəndir salıb, dar ağacından asmaq, yaxud boyunlarını siyirməqılıncla vurmaq olmaz… Hafiz, son nəğməni oxu, qulaq asım. Oxu! Qorxma! Qəzəbim kimi, mərhəmətimin də həddi-hüdudu yoxdur. Oxu!

H a f i z (işım-işım işıldayan naxışlarla bəzədilmiş köhnə dutarın tellərini dilləndirə-dilləndirə astadan oxuyur).

Əgər ol türki-şirazi bizə lütf etsə pünhanı,
O hindu xalinə verrəm Səmərqəndi, Buxaranı…

Gətir, saqi, içək badə, kənar ol ahu həsrətdən,
Inan, cənnətdə tapmazsan bu cür açmış Müsəllanı.

Bizim bu natamam eşqin nədir nəfi gözəl yarə,
Bəzərmi rəngilə bir kəs məgər gülşəndə Rənanı?

Bilirdim Yusifin hüsnü tükənməz iqtidar ilə,
Ki, rüsva eyləyələr bir gün cahan içrə Züleyxanı.

Acı sözlər şirin ləbdən mənimçün nuş olur cana,
Onun tək şəhdü şəkər yox, dolansın külli dünyanı.

Qulaq as, bir sözüm vardır, cahandidə həkiməm mən,
Cavanlar can ilə dinlər həmişə sözdə mənanı.

Danış sən meylə mütrübdən, burax əsrarı dünyada,
Ki, xilqətdən açan yoxdu o əzəldən bu müəmmanı.

Qəzəldir söylədin, Hafiz və ya dür ilə gövhərdir,
Gərək göylər nisar etsin ona zər tək süreyyanı.

T e y m u r (gözlərini yumub böyük nəğməkara diqqətlə qulaq asır, qəzəlin birinci beytini öz-özünə təkrar edir).

Əgər ol türki-şirazi bizə lütf etsə pünhanı,
O hindu xalinə verrəm Səmərqəndi, Buxaranı…

H ə z r ə t. Hələ doqquzuncu əsrdə şeyx Əbubəkr Məhəmməd məhəbbəti ağır xəstəliklər siyahısına daxil etmişdi. Özü də bu xəstəlikdən yaxa qurtarmaq üçün belə dərmanlar məsləhət görürdü: oruc tutmaq, ağır yük daşımaq, uzunmüddətli yorucu səyahətə çıxmaq…

H a f i z (gülümsünür). Ağlım kəsəndən bu dərmanlarla müalicə olunuram, amma yenə bu dərddən qurtarmamışam… Məhəbbət müalicəsi olmayan xəstəlikdir. Görünür, şeyx Əbubəkr yaxşı təbib deyilmiş.

T e y m u r (çox uzaqlardan başlayır). Il donuz üstündə təhvil olanda, ömrünün altmış altıncı, hökmranlığının iyirmi ikinci ilində, yeddinci ayın on ikinci günündə Xaqan Çingizxan dünyadan köçdü. Arqamakları böyük bir arabaya qoşdular, içinə hökmdarın tabutunu qoydular. Bahadır Kulugetey qışqırdı ki, ey böyük Xaqan, səndəmi tabut arabasına yük oldun?!. Bəli!.. Oldun! Sən deyərdin: şəhərləri, bir də yuvaları görməyə gözüm yoxdu! Mən onları uçuracağam!.. Köçərilərin yalnız atlarının vətəni var, vəssalam!.. Məndən, yuxarıda yalnız mənim papağımdı! Yox, Xaqan, yox!

H ə z r ə t (təkrar eləyir). Yox, Xaqan, yox! Səndən və sənin papağından yuxarıda Allah var!..

T e y m u r (Həzrətin sözünü kəsərək). Səmərqəndi mən tikdirmişəm. Qoy türbəm, məqbərəm olsun! Mən öləcəyəm, Səmərqənd qalacaq, əbədi yadigarım kimi! Xaqan Çingizxan, sən ancaq əliqılınclı əsgərlərinə, bədöy atlarına inanırdın, onlar

da köpük kimi uçub getdilər. Ulu Xaqan, hanı sənin yer üzündə izin? Amma mən özümdən sonra müqəddəs Səmərqəndi qoyub gedirəm. Saysız-hesabsız arvadlarımın gəl-gəl deyən dolu, sallaq döşlərinə bənzəyən sonsuz mavi qübbələr göz oxşayır. Bəli!

H a f i z (yavaşdan). Ey ulu hökmdar, daşlar da rüzgarın altında ovula-ovula ölür. Təkcə gözəl, xeyirxah işlər yaşayır…

T e y m u r. Ey yazıq, dilənçi, bazar nəğməkarı! Mən ilahi Səmərqəndi, müqəddəs Buxaranı qurmaq, bəzəmək üçün ömrümü sərf eləmişəm, sənsə deyirsən: «Səmərqəndlə Buxaranı bağışlaram onun qara xalına…». Sən dünyanın iki ən zəngin şəhərini bir yoldan ötənin aldadıcı xalına dəyişmək istəyirsən? Miskin adam, bu cür sözləri dilinə necə gətirirsən?

H a f i z. Ey ulu hökmdar! Mən elə bu cür səxavətli olduğuma görə miskinəm!

T e y m u r (Hafizin müdrik və ağıllı sözlərini qiymətləndirir, köks ötürüb, gözlənilmədən qəzəbini udur, gülümsünür). Hafiz, yaxşı, de görüm, şəninə qəzəl qoşduğun, xalını təriflədiyin o qızı görmüsən, ya yox?

H a f i z (diksinir). Yox, görməmişəm. Qaniçən hökmdarlar müharibə eşqilə, şairlər isə arzu-xəyalla yaşayırlar…

T e y m u r. Ha-ha-ha!.. Mən indi sənə bir qənirsiz gözəl bağışlayacağam. Bax, onda sən susacaqsan! Öz nəğmələrinlə mənim zavallı qullarımı yerlərindən dingildətməyəcəksən. Onların qibleyi-aləminə bəslədikləri müqəddəs sevgiyə də mane ola bilməyəcəksən! Eeeeeehh!.. (Həzrətə) Qoy o xallı gözəli gətirsinlər. Artıq heç onu xatırlaya da bilmirəm. Kimdi? Necədi? Mənim qullarımın arasında qara xallı qız, qadın çoxdur… Həəə… Cavanlığımda onların hamısını sevirdim, hamısını yadımda saxlayırdım… Bir vaxtlar, elə gecə olurdu ki, çılğın əqrəb kimi bütün hərəmxananı bir-birinə vururdum, amma indi… elə birincisinin yanındaca məni yuxu tutur. Eeeehh! Vəhşi pişik kimi gözləri alışıb-yanan arvadlarımı unudub, ancaq ölüm haqqında fikirləşirəm… Başımda hər şey bir-birinə qarışıb, yandırılmış, talan edilmiş düşmən şəhərlərində olduğu kimi… Həzrət, qoy o gözəli – xalı özündən qiymətli Şiraz gözəlini gətirsinlər… Ha-ha-ha!.. Biz ona baxıb bu ağılsız şairin səxavətinə qiymət verərik!

Əsgərlər R ə q s a n ə n i gətirirlər. Onun əynində ağ ipəkdən tikilmiş paltar var. Qulaqlarına iri sırğalar taxıb. Dümağ, gözəl sifətində qapqara xalı var.

H a f i z (elə bil gözləri sübh şəfəqindən qamaşır. Sarsıntı içində öz-özünə pıçıldayır). Yorğun gözlərimi qamaşdıran bu odlu şəfəqə bax! Qapqara xala bax! Necə də təravətlidir, ilahi!.. Mənim ölgün, kasıb sözlərim bu qənirsiz gözəlin qarşısında neyləyə bilər?! (Teymura) Əmir, sənin möhtəşəm daş şəhərlərin bu qaynar bulağın yanında nədir ki? Ən dəbdəbəli ölüm, ən kasıb insan ömrünün yanında nədir ki? Fironların mumiyalanmış cəsədləri saxlanan sərdabə mənim sevgilimin yaşadığı qamış talvarla müqayisədə nədir ki?

T e y m u r (gülümsəyərək). Arzuladığın bu idimi?

H a f i z. Bəli, Əmir. Indi qocalmış ürəyim sənin ayağın kimi ağrıyır.

T e y m u r. O şeyləri ki, sən şeirlərində arzulayırsan, mən həyatda əldə eləmişəm. Hərəmxanamda yüzlərlə bu cür xallı gözəl var. Elə buna görə də, mən şair deyiləm, əmirəm, sahibi-zamanam, kölə xalqların çobanıyam… Şeir – olmayan şeylər haqqında arzudu, mənimsə hər şeyim var… Bütün bu dünya mənə tabedir. Göydə – Allahdı, yerdə – mən!

H ə z r ə t. Mən bu dahiyanə sözləri yazmalıyam ki, gələcək nəsillərə çatsın…

H a f i z. Nə vaxtsa dünyaya gələcək nəsilləri yox, yan-yörəmizdəki adamları fikirləşmək lazımdır…

T e y m u r. Böyük əmirlər həmişə gələcək nəsilləri düşünüblər.

H a f i z. Və bu günün insanlarını unudublar…

T e y m u r (Rəqsanəyə). Adın nədir?

R ə q s a n ə. Qibleyi-aləm, adım Rəqsanədir, məni Şirazdan gətiriblər.

T e y m u r. Sənin gözlərin mavidir, qədim Soqdiyalı tacik qızlarının gözləri kimi... Mənim nə qədər arvadım olub… Eh… arvadlar… arvadlar… Allah, sən özün bilirsən ki, mən arvadlarıma qarşı mülayim olmuşam. Arvadım Ulcay Türkanağanı, qan düşmənim Əmir Hüseynin bacısını, mən öldürmədim. Ulcay, yəqin yadındadı, əsir düşmüş dostlarımı –

Əmir Cakanı və Bahadır Ilçini azad etmək üçün qardaşına qiymətli sırğalar bağışladım. Sonra qədim Əli-ata qəbirstanlığında qardaşınla ta ölənə qədər bir-birimizə dost olmağımıza and içdik… Amma o, bu anda sadiq qalmadı… mən yenə səni öldürmədim, Ulcay… Eh… arvadlar… arvadlar… Yavaş-yavaş adınızı da unuduram… Saray-Mülk xanım… Xan qızı… mənim böyük arvadım… Tükel xanım… monqol xanı Xızır Xocanın qızı… şirin-şəkər arvadım… Dumanağa, mənim zərif çiçəyim, səhər-səhər badam bağlarında ötən tütəyim!.. Mən səni dərdim, qoxladım, özümə arvad elədim – onda cəmi on beşcə yaşın vardı… Çolpan-Mülk!.. Monqol Hacıbəyin qızı… Hərdən gözəl, yumru, mərhəm sifətini səfərqabağı qalanmış tonqalların ətrafında, əsgərlərimə göstərirdin… Onlara kumıs paylayırdın… Sallanan qapqara hörüklərin nizamla düzülmüş çığatay suvarilərini xatırladırdı… Və mən səni dəlicəsinə sevirdim… Qalın Xorasan yorğanı altında yanaşı uzananda, cavan, sığallı madyanın yüyənindən yapışan kimi hörüklərindən yapışardım… Sən mənim sevimli gecə madyanım idin… Amma sən peyğəmbərlərin qadınlar üçün qoyduğu qayda-qanunu pozdun… Mən də səni elə o hörüklərinlə boğdum… Arvadlar… arvadlar… Yavaş-yavaş sizi unuduram… Payız səmasında gözdən itən köçəri quşlar kimi adlarınız yaddaşımdan silinir…

H a f i z. Ey böyük Əmir, yaxşı ki, yaddaşınız korşalıb, bütün arvadlarınızı xatırlaya bilmirsiniz; yoxsa, başınız bol məhsul vermiş alma ağacı kimi xatirələrin ağırlığına tab gətirməzdi…

H ə z r ə t. Arvad yer üzünün ən dadlı məhsuludur. Mən bu məhsulun ağırlığı altında ölmək istərdim. Hardasan, ey gözəl ölüm?!

T e y m u r. Arvadlar… arvadlar… mən onları unutmuşam… Amma birini heç vaxt unutmayacağam… O mənim bir günlük, bəlkə də bir saatlıq arvadım olub…

H a f i z . Məhəbbət qeyri-adi bir hikmətdi. Adamların əksəriyyəti bu hikməti dərk eləmədən ölüb gedirlər… Adicə bir vərdiş onlar üçün məhəbbəti əvəz edir. Məhəbbət – dibi görünməyən, ağzıbağlı bir quyudu, qeyri-adi sirdi, gecələr çayda üzən balıqdı, qara çadraya bürünmüş gözəl üzdü… Amma o hərdən mavi gözlü, qara xallı ilahi üzünü bir anlığa açmış olur… Bu, qəfil zəlzələ, görünməmiş sel və dağ uçqunu kimi

qorxuludur. Belə məqamlarda sevənləri təkcə ölüm xilas eləyə bilər. Məhəbbət – gözəl fəlakətdir.

T e y m u r. Düz deyirsən, şair. Belə bir məhəbbət mənim də başıma gəlib. Amma lap çoxdan…Mən kefli çığatay dostlarım Caka, Bahadır Ilçi və Dövlətşahla yol gedirdim. Ilqar qışlağının yaxınlığında insanı bihuş eləyən xaşxaşlığa rast gəldik. Payız idi. Xaşxaşların vaxtı-vədəsi yetişmişdi. Birdən gözümə yeniyetmə bir qız dəydi. Yaxasından şüşə muncuqlar asılmışdı. Atdan endim. Gördüm soqdiyalı bir qızdı. Uzun qızıl kəmərini belindən açdım, əlim toxunan kimi muncuqları qopub töküldü; qapqara qıvırcıq saçları var idi. Elə ordaca onu süpürlədim, eşələnə-eşələnə nə qədər xaşxaş əzib tökdük. Sonra qalxdıq. Qəfil gözlərinə baxdım, gördüm mavi rəngdədir, par-par parıldayır. Soruşdum: «Sən kimsən?». Dedi: «Soqdianayam… Qədim, ulu torpağam, ölkəyəm… Sənin məhəbbətinəm… Soqdiana!» Ey mələk, gör aradan nə qədər vaxt keçib, amma odlu mavi gözlərin hələ də mənə baxır…

H a f i z. Böyük ölkələr, dövlətlər, səltənətlər dağılır, canlı insan gözlərisə həmişəlik qalır…

T e y m u r. Mən Soqdianadan ayrılıb öz atıma sarı getdim, o isə xaşxaşlıqda qaldı… Mən sahibi-zaman, Əmir Qurağan Cahangir, o sadə kəndli qızı… Vəsiyyət eləmişəm: məqbərəmin üstündə Soqdiananın gözlərinə oxşar mavi qübbə qoysunlar. Beləcə, adamı sərxoş eləyən xaş-xaş çölündəki o qızı qəbirdə də xatırlamaq istəyirəm… Rəqsanə, de görüm sənin gözlərin niyə mavi xaşxaş rənginə çalır?.

R ə q s a n ə. Bilmirəm, qibleyi-aləm… Amma yadıma gəlir ki, anam payız vaxtı ləçəkləri tökülmüş xaşxaş çölündə gəzməyi xoşlayırdı… Onu həmişə nə isə xaşxaş çölünə çəkirdi, elə bil, orada nə isə axtarırdı…

T e y m u r (Hafizə). Şair, mən sənə gözəl, sübh şehində yuyulmuş, əl dəyməmiş bir alma bağışlayıram. Götür onu! O sənin arzundur, arzuna sahib ol! Mənim Səmərqəndimlə, Buxaramla işin olmasın.

H ə z r ə t . Səxavətin böyüklüyünə bir bax!..

T e y m u r (Rəqsanəyə). Sənin sahibin budur… Xoca Hafiz… Get onunla! Arvadı ol! Qulu ol! Qulluqçusu ol! Ölənə kimi! Ölendən sonra da!.. Get, Rəqsanə!..

R ə q s a n ə ürkmüş halda H a f i z ə baxır. Gözləri doluxsunur. Bu ərkən qız uşaq kimi kövrəlir. H a f i z i n xeyirxahlıq yağan gözlərinə baxır və hiss eləyir ki, qoca onu bədbəxt eləməz. Qız ehtiyatla ona yaxınlaşır,

başını aşağı əyir.

R ə q s a n ə. Mənim əmirim, bu gündən sizin nökərinizəm.

T e y m u r (Həzrətə). Bunlara iki Axaltəkə atı, bir də qızıl paytsa ver ki, mənim səltənətimdə – Mavərənnəhrdə və Turanda, Azərbaycan və Mazandaranda, Gilanda və Şirvanda, Arranda və Kürdistanda, Gürcüstanda və Diyarbəkrdə, Rumda və Suriyada bütün yollar üzlərinə açıq olsun.

H a f i z. Əlvida, ey böyük Əmir! Sənin səxavətin səltənətindən də böyükdür!

T e y m u r. Gözəlini – «qara xallı»nı götür, şair! Mənim Səmərqəndimlə Buxarama dəymə!

Qəfəsdəki kəklik oxuyur. R ə q s a n ə n i n qulağında açarabənzər qızıl sırğalar yellənir.

H a f i z. Rəqsanə, qoy Səmərqəndin, Buxaranın darvazalarının açarları – o qızıl sırğalar ulu hökmdarda qalsın… Artıq onlar bizə lazım deyil. Bu gündən didərgin düşürük buralardan. Səmərqəndin, Buxaranın müqəddəs qapılarından içəri keçmək bir də bizə qismət olmayacaq… Bu on iki darvaza üzümüzə biryolluq bağlanıb… Şairlə Rəqsanə gedirlər.

T e y m u r (onların arxasınca). Şair dutarını da, qəfəsdə dustaq elədiyin kəkliyini də apar. Sənin cavan arvadın bundan belə sənə qəfəs olacaq. Görək indi necə yazıb-oxuyacaqsan!.. Ha-ha-ha!.. Əlvida, kəklik!..

T e y m u r l a H ə z r ə t tək qalırlar.

(Pauza). Bir gün cavan vaxtı Qaşqadəryanın sahilində gəzəndə gördüm ki, bir türk yaş qumun üstündə bir qadını zorlayır; qadın qışqırdı, qardaşı köməyə gəldi; canavar kimi gözləri qızmış, qəzəblənmiş türk qadının qardaşını püştəbəndlə,

özünü isə kəmərlə sarıdı. Mən, görməmiş yeniyetmə oğlan, sahildəki yemşan kolunun dalında gizlənib, maraqla tamaşa eləyə-eləyə gülür, həm də qızışmış türkə, onun altında balıq kimi çapalayan qadına heyrətlə baxırdım… Aman, Allah!.. Gecə həmin türkü xatırladım, zorakılığa nifrət elədim!.. Sonra… sonra… özüm də zorakılığa vuruldum!.. Axırda qüdrətli zorakı oldum!.. O zavallı türk mənim yanımda nə idi ki… Amma mən zorakılıqdan usanmışam… Mən Hafizi öldürə bilərdim, boğa bilərdim, başını bədənindən üzə bilərdim. Amma… mən yenə çıxış yolu tapdım… Istədiyini ona bağışladım, bununla da ruhunu məhv elədim – ilham qaynağını qurutdum! Onun şirin xəyalını acı həqiqətə çevirdim! Indi Hafizin cavan, odlu-alovlu arvadı onun dütarı ilə ağır toy döşəyinin tozunu çırpacaq!.. Eeeeehhh… Hafiz gecələr məhəbbət bulağında, o gözəlin ehtirasında batacaq, boğulacaq. Rəqsanə pişik caynaqları ilə onun sinəsini sığallayacaq, qıdıqlayacaq, sonra da cücənin tüklərini yolan ley kimi didişdirəcək!.. Beləcə, nəğməkar əbədi susacaq! Ləng, darıxdırıcı həyat onun axırına çıxacaq!.. Gecikmiş məhəbbət onu incidəcək, boğacaq, üzəcək!.. Əvvəlcə şairin azadlıq nəğmələri, sonra da özü susacaq!.. Balın şirinliyinə susayan milçək kimi birdəfəlik batacaq!.. Təkcə o axmaq kəklik, mənim səltənətimdə, harda gəldi, oxuyacaq, boğazını yırtacaq, amma əbəs yerə! Bəli, Həzrət!.. Mən hər şeyi dedim!.. Amma, deyəsən, çox danışdım!.. Bağışla, Allah!.. Qaniçən cahangir gərək az danışsın, çox iş görsün. Çox iş…

H ə z r ə t. Mənsə gərək bu dahiyanə sözlərin hamısını yazam ki, gələcək nəsillərə qalsın…

T e y m u r. Nəsə məni yaman narahat eləyir… Deyəsən, Rəqsanə deyirdi ki, onun anası payız vaxtı xaşxaşlıqda gəzməyi xoşlayırdı… Nə imiş onu ora çəkib aparan?.. Birdən… o mənim qızım olar?.. Yox!.. Yox!.. Hökmdar toxumu kəndli qızının bətninə düşüb?.. Allah, özün saxla, məni mənə layiq olmayanların sümüyünə calama!.. Ürəyim ağrıyır, sinəm göynəyir… Təəssüf… çox təəssüf…

IKINCI ŞƏKIL

X o c a H a f i z l ə R ə q s a n ə qum təpəsi üstündə əyləşiblər. Uzaqda Səmərqəndin qübbələri görünür.

Atlar kişnəyir. H a f i z gözləri yaşarmış halda şəhərə sarı baxır, sonra dütarı götürür.

H a f i z. Rəqsanə, ora bax, gör Səmərqəndin müqəddəs mavi qübbələri gecələr səmavi gözlərin kimi necə də bərq vurur!.. Teymurun atları isə kişnəyə-kişnəyə uzaqlara çağırır bizi… Bu qübbələrdən ömürlük ayrılacağıq!.. «Ömürlük» – dəhşətli sözdür… Bu söz mayda, isti daş altında yaşayan əqrəbi – ölümü xatırladır… (Ehmalca dütarın tellərinə toxunur və oxuyur.)

Əgər ol türki-şirazi bizə lütf etsə pünhanı,
O hindu xalinə verrəm Səmərqəndi, Buxaranı…

R ə q s a n ə (fikirli-fikirli). Uşaq vaxtı anam mənə bu mahnını oxuyardı… Ey mənim hökmdarım, ey böyük şair, ağlıma da gəlməzdi ki, bir zaman sizin kəniziniz olacağam… Bu ədəbiyyət nəğməsini sizin dilinizdən eşidəcəyəm… Sahibi-cahanın – Teymur Qurağanın mərhəmətinə bax!..

H a f i z . Canım-gözüm!.. Indicə atlanıb uzaq səfərə çıxacağıq, Səmərqənd isə həmişəlik bu qum təpəsinin arxasında qalacaq… Mənim ömrüm-günüm kimi!.. Hara gedə bilərəm bu yaşımda?.. Kim bilir, hansı çayın suyunda bir köçkün kimi, əsməcəli əllərimin, ayaqlarımın tozunu yuyacağam… Şeyx Cüneyd demişdir: «Xəyalən olduğum yerlərə nəyə görə getməliyəm?».

R ə q s a n ə. Mənim hökmdarım, mənim ərim, mənim sahibim, gedək Şiraza – mənim doğma vətənimə, orda yaşayaq. Gedək! Eşidirsinizmi, atlar kişnəyirlər… Bizi səsləyirlər… Gedək, mənim tərki-dünya ərim!.. Gəlin mən sizə kömək eləyim… (Hafizin yerdən qalxmasına kömək eləyir.)

H a f i z. Heç məndən sənə ər olar, canım-gözüm? Bir qoca-qoltaqla yan-yana yatmaqdansa, oxa tuş gəlmək yaxşıdı. Mən çox qocalmışam, yerdən güclə qalxıram. Yavaş-yavaş torpaq məni çəkir… Sənə cavan, odlu-alovlu bir igid lazımdı, mən isə, qoca, zavallı bir nəğməkaram… Bir vaxtlar mənim də üzüm kimi dadım, ləzzətim vardı, indi cecəyə dönmüşəm…

Qadınlar güclü bədən, zor xoşlayırlar… Şaxta vurmuş bağda bəhər olmaz…

R ə q s a n ə (yalvarırmış kimi). Gedək, mənim sahibim! Eşidirsinizmi? Atlar elə hey kişnəyirlər… Şiraz bizi gözləyir… Bir neçə gündən sonra evdə olacağıq… Yoxsa, qibleyi-aləmin qəzəbinə duçar olarıq: axı, o, əmr etdi ki, ömrümün sonuna qədər sizin kəniziniz olum… Gedək, ey böyük ürəkli ustad şair!..

H a f i z. Canım-gözüm! Ömrüm boyu səni axtarmışam, axır ki, tapdım… Düzdü, gecdi… Qoca məhəbbəti nəyinə lazımdır?.. Bir də, məhəbət nəğmələrimi öldürəcək – susacağam… Bəs, mənim əvəzimə kim oxuyacaq?.. Bəs, bu xalqı kim şənləndirəcək?.. El-oba deyəcək: «Hafiz sevgi naminə bizi unutdu…». Şairsiz xalq lal olar. Elə hökmdar da bunu istəyir…

R ə q s a n ə (ağlayır). Ey böyük şair, mən sizi sevirəm! Mən sizi heç vaxt tək qoymayacağam! Ölsəm də, sizinlə bir yerdə öləcəyəm. Mən öz ərləri ilə birgə dəfn olunan qədim Soqdiya qadınları kimi, sizinlə bir qəbirdə dəfn olunmağa hazıram. Mən o dünyada da sizin kəniziniz olacağam. Gedək mənim ərim, atlar bizi gözləyir.

H a f i z. Yox, canım-gözüm… rübabım… badam çiçəyim… Götür, Axaltəkə atlarını da, Xaqan Teymurun verdiyi qızıl paytsanı da – yollarda dadına çatar… Qayıt Şiraza – ana yurduna… Mən səni azadlığa buraxıram. Əlvida, canım-gözüm… Mən sahibi-ixtiyarın əmri belədir: qayıt evinizə!.. Əlvida, canım-gözüm… rübabım… badam çiçəyim…

R ə q s a n ə. Bəs, siz nə edəcəksiniz?

H a f i z. Səmərqəndə qayıdacağam. Xalq üçün yazıb-oxuyacağam..

R ə q s a n ə. Axı, Əmir Teymur sizi öldürər!

H a f i z. Şair öz həyatını nəğməsinə qurban verməlidir. Onda ədəbi yaşayar. Ana uşaq üstə öləndə körpəni başqaları əmizdirir, o körpə böyüyəndə güclü və şən olur. Nədənsə, hamı onu doğma balası kimi çox istəyir. Mahnı da belədir… Əlvida, canım-gözüm… Əlvida, arzu-xəyalım… Cəmi bir neçə anlığa öz gözlərimlə gördüm səni… Indi atlar səni həmişəlik aparacaq… Amma mən xoşbəxtəm… Məhəbbət!… Sən yalnız bir anlığa zühur eləyirsən…

R ə q s a n ə (ağlayır). Özünüz öz arzunuzdan imtina eləyirsiniz…

H a f i z. Rəqsanə, mənim sevimli kəkliyimi də özünlə götür. Qoy o öz cəh-cəhi ilə məni sənin yadına salsın… Şiraza çatanda onu azadlığa buraxa bilərsən… Əlvida, canım-gözüm…

R ə q s a n ə (kəklikli qəfəsi alıb baş əyir, sonra çıxıb gedir). Əlvida, böyük nəğməkar!

Təpənin o üzündə bir müddət at kişnərtisi eşidilir, sonra kəsilir.

H a f i z tək qalır. Böyük nəğməkar dütarını götürüb çalır, oxuyur…

MÜNDƏRICAT

Azmış şüurun faciəsi (N.Şəmsizadə)……3

Povestlər

Təmizlənmə……13
«Coğrafiya çubuğu»……..…34

Hekayələr

Yuxu……..69
Bir gecənin sehri……80
Çimərlikdə
Hesab çatıb
Qatarda
Qarınqulu
Maşallahın paneli

Publisistika

Ruhunu gözlərində gördüyüm sənətkar
Şəxsiyyətin özü və sözü
Şəhidlər xiyabanı – iftixar ocağı
Maqsud Ibrahimbəyova açıq məktub
Mənəviyyatın ekologiyası, yaxud iki od arasında
Altmış yaş nədir ki...
60-cı illər intibahı və Sərdar Əsəd yaradıcılığı
Sözün haləsində

Tənqid və ədəbiyyatşünaslıq

Rəsul Rza haqqında yeddi nəğmə

İdeala sədaqətlə...
Talelər poeziyası
«Mən ürəyəm – döyünməsəm, ölərəm»
Ənənəyə bağlı və ənənə yaradan şair
«Dünya – insan evidir»
Rəsul Rza poeziyasında ağlı-qaralı dünya
Rəsul Rza və Azərbaycan həqiqətləri

Tərcümələr

Varlam Şalamov (*Rusiya*)

Su baldırğanı
Giləmeyvə
Apostol Pavel
Iudeya Prokuroru
Sehrkar

Sentensiya

Yuri Polyakov (*Rusiya*)

Homo erektus və yaxud arvadların
dəyişdirilməsi

Teymur Zülfüqarov (*Özbəkistan*)

Kəklikli qəfəs

Hüseynbala Mirəhmov

BİR GECƏNIN SEHRİ

Texniki redaktor: Rauf KƏRIMOV
Səhifələyicilər: Elnur ƏHMƏDOV
Fəxri VƏLİYEV

Korrektor: Suğra OSMANOVA

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ
Bakı-Az1122, H.Zərdabi pr. 78. tel: 4977021, 4971362.
Faks:4971295. E-mail: office@nurprint.com